**Nəsiman Yaqublu**

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ

# ENSİKLOPEDİYASI

**Bakı-2013**

***Elmi məsləhətçilər:***
**Vaqif Sultanlı** - Bakı Dövlət Universitetinin professoru
**Ramiz Əsgər** - Bakı Dövlət Universitetinin professoru

**Əkrəm Rəhimov** - tarix üzrə fəlsəfə doktoru, Azərbaycan Milli Elmlər Akademiyası Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun baş elmi işçisi
**Aslan Kənan** - Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət Arxivinin əməkdaşı;
***Transliterasiya redaktoru:***
**Samir Xalidoğlu** - Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin elmi işçisi

Kitabın redaktoru: **İradə Quliyeva**
Rəssam: **Rəis Rəsulzadə**
Mətnin yığıcısı: **Nəzakət Muradova**

***Müəllif bu ensiklopediyanın nəşrinə verdiyi dəstəyə görə Moskvada fəaliyyət göstərən "Məhəmməd Əmin Rəsulzadə Məclisi"nə, Məclisin sədri Füzuli Fərəcova təşəkkürünü bildirir.***

Bu ensiklopediya Azərbaycanın görkəmli dövlət xadimi M.Ə.Rəsulzadənin həyat və fəaliyyətinə həsr edilib. İlk dəfədir ki, M.Ə.Rəsulzadənin həm Azərbaycanda, həm də mühacirətdəki fəaliyyəti geniş araşdırılır. Ensiklopediyada M.Ə.Rəsulzadənin bütün yazılarının və əsərlərinin ümumi biblioqrafiyası da verilib. Kitabdakı çoxlu sayda fotolar, arxiv sənədləri və yeni məlumatlar ilk dəfədir ki, oxuculara təqdim edilir.Ensiklopediyadan elm adamları, siyasi xadimlər, diplomatlar və tədqiqatçılar faydalana bilər.

Müəllifin elektron ünvanı: nasiman62@mail.ru

# BİR KƏRƏ YÜKSƏLƏN BAYRAQ BİR DAHA ENMƏZ!

# İNSANLARA HÜRRİYYƏT, MİLLƏTLƏRƏ İSTİQLAL!

***M.Ə.Rəsulzadə***

“...Bir gün həyatınızı yazacaq bəxtli bir Türk gənci, yaxud da şəxsiyyətinizi canlandıracaq bir Türk sənətkarı, ömrünüzün hər dövrünü qavrayıb anladıqca “nə şərəflidir mənə ki, bu yaşamağa dəyər səhifələri canlandırıram” – deyə sevinəcəkdir, bunların əsərlərini oxuyan və ya seyr edənlər də Sizi daima sonsuz məhəbbət, hörmət və rəhmətlə anacaqlardır”.

***Cəfər Seyidəhməd Krımər***
***( Krım türklərinin lideri, Krım Cümhuriyyətinin keçmiş Müdafiə və Xarici İşlər Naziri)***

“Rəsulzadə bütün ömrüm boyunca Şərq dünyasında rastlaşmadığım, mübaliğəsiz söyləyə biləcəyim fövqəladə nadir insanlardan biri idi. Məhəmməd Əmin bəy tərbiyəli, qüvvətli və sağlam məntiq sahibi, təmiz qəlbli, doğru sözlü, mətanətli, tam mənası ilə dürüst, fikir və yoluna dərin bir inam bəsləyən, fədakar, mücahid və örnək bir insandı. Belələrinə zamanımızda və hələ bizim tərəflərdə rastlaşmaq həmən-həmən imkansız olduğu kimi, bütün dünyada da rastlanmaz...”

***Seyid Həsən Tağızadə***
***(İran Senatının sabiq sədri, İranın Böyük Britaniya Böyükelçisi)***

# MÜNDƏRİCAT

1. "Amerikanın səsi" radiosundan Azərbaycana müraciəti ....7
2. Azərbaycan davası ....11
3. Həyat və fəaliyyətinin ümumi xronologiyası ....17
4. Anadan olduğu Novxanı kəndi ....38
5. Nəsli, ailəsi haqqında ....40
6. Təhsil aldığı "Rus-Tatar" məktəbi ....45
7. Yaşadığı və istiqlal mücadiləsi apardığı ölkələr: Azərbaycan, İran, Türkiyə, Gürcüstan, Rusiya, Fransa, Polşa, Almaniya, Rumıniya ....46
8. "Prometey" hərəkatının və "Qafqaz İstiqlal Komitəsi"nin yaradılmasında rolu ....102
9. Tədbirlərdə, mərasimlərdə, toplantılarda çıxışları ....112
10. Zaqafqaziya Seymindəki çıxışları ....122
11. "Müsavat" Partiyasının qurultaylarında çıxışları ....123
12. Azərbaycan Parlamentində fəaliyyəti ....131
13. Mühacirətdə yaşadığı dövrdə müxtəlif tədbirlərdəki çıxışları ....147
14. Yaratdığı və yaradılmasında iştirak etdiyi təşkilatlar ....163
15. Redaktorluğu və fəallığı ilə nəşr edilən mətbuat orqanları ....164
16. Nəşr edilən yazılarındakı imzaları ....169
17. Yazıları çap edilmiş mətbuat orqanları ....170
18. Tərcümələri ....175
19. Azərbaycanda nəşr edilən kitabları ....176
20. Türkiyədə nəşr edilən kitabları ....178
21. İranda yayımlanan kitabları ....180
22. Rusiyada nəşr edilən kitabı ....181
23. Avropada nəşr edilən kitabları ....181
24. Yazdığı pyeslər, nəşr edilən şeirləri ....183
25. Faydalandığı qəzet və jurnallar ....188
26. Azərbaycana müraciətləri ....193

27. Azərbaycanın tanınmış şair və yazıçıları haqqında fikirləri ........ 198
28. Teatr tamaşaları haqqında yazıları ........ 211
29. Yazdığı məqalələrdə tarixi, mədəniyyəti və siyasi vəziyyəti araşdırılan ölkələr.... 216
30. Azərbaycanın memarlıq abidələri haqqında ........ 217
31. Mətbuat haqqında ........ 221
32. Tanınmış şəxsiyyətlər haqqında fikirləri ........ 231
33. Şəxsən görüşdüyü, münasibətdə olduğu şəxsiyyətlər ........ 238
34. Dəyərli fikirləri ........ 273
35. Şəxsi məktubları, yazışdığı şəxsiyyətlər ........ 328
36. İstintaq materialları ........ 343
37. Əleyhinə yazılanlar ........ 347
38. Özəl sənədləri ........ 355
39. M.Ə. Rəsulzadənin dəfni ........ 358
40. Haqqında yazılan kitablar, məqalələr ........ 363
41. M. Ə. Rəsulzadəyə həsr edilən şeirlər ........ 377
42. Keçirilən yubileyləri ........ 379
43. M. Ə. Rəsulzadəni yaşatma qurumları ........ 385
44. Məzarı, anıt qəbri ........ 389
45.Yaşadığı ünvanlar ........ 394
46.Tanınmış şəxsiyyətlər M. Ə. Rəsulzadə haqqında ........ 401
47. M. Ə. Rəsulzadə haqqında nəşr edilən ilk məqalələr, kitablar ........ 407
48. İrsinin tədqiqatçıları ........ 409
49. Fəaliyyəti ilə bağlı sənədlərin saxlanıldığı arxivlər ........ 414
50. İstiqlal təqvimi ........ 416
51. Üçrəngli bayrağımızın mənası ........ 420
52. Dövlət rəmzlərinin bərpası ........ 427
53.M.Ə.Rəsulzadə fotolarda ........ 428
54. Biblioqrafiya(M.Ə.Rəsulzadənin yazılarının siyahısı) ........ 442



***Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadə, 1918-ci il***

# “AMERİKANIN SƏSİ” RADİOSUNDAN AZƏRBAYCANA MÜRACİƏTİ




***M. Ə. Rəsulzadənin səsi yazılmış val (1953-cü il)***

***Əziz vətəndaşlarım!***

“Amerikanın səsi” radiosunun verdiyi imkanlardan istifadə edərək, bu gün ***Azərbaycan tarixinin ən böyük günü olan 28 Mayısda*** sizlərə xitab edirəm. 100 il sürən çar əsarətindən sonra, bundan 35 il əvvəl Azərbaycan Şurayi-Millisi Azərbaycan Cümhuriyyətinin istiqlalını bütün dünyaya elan etdi. O tarixdən əvvəl bir millət olaraq varlığını isbat edən Azərbaycan xalqı bu tarixdən etibarən millət olaraq bir dövlət qurmuş və bu dövlətin istiqlalı uğrunda bütün mövcudiyyəti ilə meydana atılmışdır. Mədəni bütün bir tərəkəyə (mirasa) malik olan Vətənimiz siyasət sahəsində çox böyük və dəyərli həmlələr göstərmişdir. İstiqlal uğrunda ya-pılan tarixi savaşların ən qanlısı XIX əsrin başlarında Rusiya çarlığına qarşı yapılmışdır. 30 ilə qədər sürən bu savaş qəhrəmanlıqlarla doludur. Cavad xanın 1804-cü ildə Gəncədəki şanlı qəzası dillərdə dastandır. “Ölmək var, dönmək yoxdur!”- bu, həqiqi vətənpərəstlərin tətbiq etdikləri ən müqəddəs bir şüardır.

***28 Mayıs 1918-ci ildə*** istiqlalını elan etməklə Azərbaycan tarixinin təbii bir nəticəsini fikirdən işə keçirdi. Eyni zamanda o, zəmanəyə hakim olan əsrin böyük şüarından istifadə edirdi. ***“Hər millət öz müqəddəratını özü həll etməyə səlahiyyatdardır”*** düsturunu xalqın ümumi rəyinə uyaraq istiqlalını elan edirdi. İstiqlal elanı üzərinə qurulan milli Azərbaycan hökuməti az zamanda məmləkətdə çox böyük işlər gördü. 100 ildən bəri əsgərlikdən mən edilən (məhrum edilən) Azərbaycanda bir ordu yaratdı. Çarlıq zamanında dövlət idarəsinə yaxın buraxılmayan azərbaycanlılardan zabıta və əmniyyət qüvvətləri vücuda gətirdi. Sosial sahədə əsaslı islahata girişdi. Kəndlilərə torpaq vermək üçün qanunlar hazırladı. Fəhlələrin haqlarını qorumaq üçün tədbirlər aldı. Xalqı az zamanda oxutmağa

başladı. Türkcəni dövlətin rəsmi dili elan etdi. Orta və ali məktəblər açdı. Qərbi Avropa demokrasiyaları tipində xalq nümayəndələri cavabdeh bir hökumət üsuli-idarəsi yaratdı. Hakimiyyət Millət Məclisinin əlində idi. Parlamentodan etimad almadıqca heç bir Hökumət iş başında qala bilməzdi. Məmləkətdə tam bir azadlıq vardı. O zaman indi sovet zamanında olduğu kimi terror deyilən şeydən heç bir əsər yoxdu. Şəxslər də, məskənlər də əmin və amanda idi. Vətənin qapıları indi olduğu kimi bütün dünyaya qapalı deyildi. Hər azərbaycanlı istədiyi zaman hara istərsə gedərdi. Qonşu və Avropa dövlətləri ilə dostluq münasibətləri təsis edilmişdi. Bütün millətlərlə alış-veriş vardı. Bütün bunların nəticəsində idi ki, Cümhuriyyətimizin istiqlalı Avropa dövlətləri ilə Birləşik Amerika tərəfindən tanındı. Onları təqibən böyük bir çox dövlətlər də istiqlalımızı tanıdılar. Türkiyə ilə İran Azərbaycanla münasibətə gəldilər. Aralarında dostluq və qardaşlıq müqavilələri imzalandı. **12 Yanvar 1920** Cümhuriyyətin dövlətlər tərəfindən tanınması günü idi. Bu günü Azərbaycan xalqı candan bayram etdi. Haqlı idi. Bu həqiqətən böyük bir bayramdı. Çünki, bu gündən etibarən Azərbaycan davası Rusiyanın bir iç məsələsi olmaqdan çıxmış, millətlərarası bir məsələ olmuşdu. Mədəniyyət tariximizin şanlı fikir adamları tərəfindən alqışlanan azadlıq və istiqlal fikri məmləkətimizdə yerləşdi və bu irəli dünya demokratiyası tərəfindən təqdirlə qarşılandı. 100 ildən bəri üstümüzə çökən istibdad və istila artıq bizdən uzaqlaşdı.

***Heyhat!*** Qədər (tale) imtahanları tamam deyildi. Qanlı çar istibdadının yerini bu dəfə ondan daha qanlı bolşevik istibdadı tutdu. Bala azadlıq istiqlalımız qızıl istilaçıların ayaqları altında əzildi. Müqavimət edən məmləkətdə qan gövdəyə çıxdı. Bundan bir ay əvvəl 28 Apreldə sovet propaqandaçıları (təbliğatçıları) bu qanlı istila hərəkatını sizə azadlıq və istiqlal hadisəsi kimi göstərdilər. Sizdə sizə dünyanın ən azad və demokrat rejimi kimi qələmə verilən sovet quruluşu işdə qəddar və ən yalançı bir istibdad rejimidir. Müqayisə etmək imkanında olsaydınız bunun nə qədər doğru olduğunu gözünüzlə görərdiniz. Azadlığımızı əlimizdən alan millətdən qorxmurlarsa dəmir pərdəni qaldırsınlar, Azadlıq elan etsinlər. Edə bilməzlər. Çünki ağla qara meydana çıxar. Onlar şəptərə (yarasa) kimidirlər, günəşdən qaçarlar.

Azərbaycan, onunla bərabər bütün Qafqasiya Cümhuriyyətləri həqiqi azadlıq və istiqlalına 1918-ilin Mayısında qovuşdular. 1920-ci ildə isə bu azadlıq və istiqlal qızıl rus ordusu tərəfindən üstün qüvvətlərlə qanla və atəşlə basdırıldı. Faciələr və qəhrəmanlıqlarla dolu olan bu mücadilədə on minlərlə vətəndaş şəhid oldu. 1920-ci il istilasına qarşı, 1918

istiqlal haqqını müdafiə edən Qafqasiya millətləri indi 33 ildir ki, müxtəlif vasitələrlə mücadilə edirlər. Zaman-zaman dramatik şəkillər alan bu mücadilədə vaxtıyla yalançı kommunist şüarlarına aldanaraq yol açmış bəzi vətəndaşlar belə, bütün həqiqi milliyyətçilər və vətənpərvərlər cəbhəsinə keçmişlərdir. Yabançı istilası üzərinə əcnəbi məmləkətlərə çıxmış olan Qafqasiya emiqrantları (mühacirləri) milli istiqlal davasını mədəni dünya əfkari-ümumiyyəsinə (ictimaiyyətinə) anlatmaqdadırlar. Bu vəzifeyi-ifadə nə kimi müşküllərə uğradığımızdan bəhs etməyin burada yeri deyildir. Bu qədər demək lazımdır ki, sovetlərdə kommunist rejiminə düşən millətlərin hər türlü haqq və hüquqdan məhrum qullardan ibarət cəmiyyətlər halına gəldiyini azad dünyaya anlatmaq çox kolay (çətin) olmamışdır. Şükür ki, hadisələr bizə kömək edir. Dünya sovet həqiqətini görməyə başlayır. Səkkiz ildən bəri hərbi bitirmişkən sülhə qovuşa bilməyən dünya artıq məsələni anlayır. Bilir ki, azadlıq və insan haqlarını inkar edən kommunistlər müəzzəm (böyük) bir dövlət halında ayaqda durduqca və dünya inqilabı atəşi ilə yandırmaq üçün könlü çəkdikcə yer üzündə heç bir zaman sülh və asayiş buluna (tapa bilməyəcək) bilməyəcəkdir. Azadlıq cahan-şümul(dünyanı əhatə edən) bir fikirdir: ***"Bir tək əsir insan, bir tək əsir millət qaldıqca, dünya həqiqi azadlıq və əmniyyət üzü görə bilməz".*** 1918 Mayısındakı tarixi qərarları ilə azad millətlər cəbhəsində yer alan Qafqasiya millətlərinin müqəddəratları azad millətlərin müqəddaratları ilə bağlanmışdır. Rusiyadan ayrılmanın bir irtica, başqalarından ayrılmanın bir inqilab olduğunu söyləyən sovet diktatoru Stalin ölmüşdür, amma onun iki üzlü sistemi – stalinizm hələ ayaqdadır (qalmaqdadır). Bu sistem gün keçdikcə dünya həqiqətləri ilə daha çox qarşılaşmaqda, haqq ilə batil, yalan ilə doğru üz-üzə gəlməkdədir. Şübhəsizdir ki, bir gün həqiqət parlayacaq, azadlıq əsasını, Birləşmiş Millətlər prinsipini və insan haqla-rını tutan tərəf qalib gələcəkdir. ***Bu qabiliyyət qüvvəsi qızıl istibdad zülmü altında inləyən əziz Vətənimizdə 1918-ci ilin 28 Mayısı kimi yenidən doğacaqdır. Buna qətiyyən şübhə etməyiniz.***


**M. Emin Resulzade'nin, kendi sesinden 1953 yılı 28 Mayıs'ında, Amerika'nın Sesi Radyosu'ndan Azerbaycan'a Hitabı :**

Aziz Vatandaşlarım!

Amerika'nın Sesi Radyosu'nun verdiği imkânlardan istifade ederek bugün Azerbaycan tarihinin en büyük günü olan 28 Mayıs'ta Sizlere hitap edirem. 100 yıl süren Çar esaretinden sonra bundan 35 yıl evvel Azerbaycan Şûrayı Millîsi, Azerbaycan Cumhuriyetinin İstiklâlini bütün dünyaya ilân etti. O tarihten evvel bir millet olarak varlığını ispat eden Azerbaycan halkı, bu tarihten itibaren millet olarak bir devlet kurmuş ve bu devletin istiklâli uğrunda bütün mevcudiyetiyle meydana atılmıştır. Medenî bütün bir terekeye (mirasa) malik olan vatanımız siyaset sahasında çok büyük ve değerli hamleler göstermiştir. İstiklâl uğrunda yapılan tarihî savaşların en kanlısı 19. asrın başlarında Rusya Çarlığına karşı yapılmıştır. 30 yıl kadar süren bu savaş kahramanlıklarla doludur. Cevat Han'ın 1904'de Gence'deki şanlı gazası dillere destandır. «Ölmek var, dönmek yoktur». Bu hekiki vetenperestlerin tatbik ettikleri en mukaddes bir şiardır.

*Azərbaycana müraciəti, 1953-cü il*

***Vətəndaşlar!*** Üç rəngli İstiqlal bayrağını döşlərində gəzdirən buradakı Vətən ayrısı bizlərdən, orada hər türlü (formada) qorxu və təhdid altında qəlbləri istiqlal eşqi ilə çırpınan azadlıq ayrısı sizlərə candan salamlar göndərir, 28 Mayıs istiqlal qurbanlarının əziz ruhları hüzurunda hörmətlə əyilir və hər iki tərəfi birləşdirən milli böyük həsrəti şairin deyişi ilə dilə gətirirəm:

**Sən bizimsən, bizimsən durduqca bədəndə can,**
**Yaşa, yaşa, çox yaşa, ey şanlı Azərbaycan!"**

***Azərbaycan istiqlalının 35 illiyi ilə bağlı 1953 cü ildə "Amerikanın səsi"radiosundan Azərbaycana müraciəti.***

***"Azərbaycan" jurnalı, Ankara, 1984 cü il, №247, il 33, səh.13-15***
***N. Yaqublu." Məmməd Əmin Rəsulzadə".***
***Bakı, 1991-ci il, s. 201-203.***

# AZƏRBAYCAN DAVASI

**28 May 1918, Milli Azərbaycan Hərəkatının ən böyük günüdür.** Bundan 34 il öncə, Milli Şura tərəfindən Azərbaycanın istiqlalı elan olunmuşdu. Bu tarixdə Türk və Müsəlman aləmində, ilk dəfə Milli Xalq Hakimiyyətinə dayanan bir **Cümhuriyyət** qurulmuşdur.

Yüz il öncə, ayrı-ayrı 9 xanlıq halında çarlığın hakimiyyəti altına düşən Azərbaycan Birinci Dünya Hərbi nəticəsində çökən Rusiya imperatorluğunun ənqazı (xarabası) altından siyasi bir bütün, bir millət, bir dövlət olaraq qalxdı.

**12 Ocak (yanvar) 1920-də** Böyük Dövlətlər tərəfindən istiqlalının tanınması üzərinə, Azərbaycanın davası millətlərarası bir məsələ halına gəldi.

Azərbaycan Cümhuriyyəti sadəcə dünya ensiklopediyaları ilə Birinci Dünya Hərbindən bəri dürlü lisanlarda basılan kitab, xəritə və atlaslarda qeyd edilməklə qalmayıb, eyni zamanda böyük-kiçik, uzaq-yaxın ilgili bütün dövlətlərin arxivlərində Azərbaycan davasına aid dosyalar (sənədlər toplusu) vardır.

Siyasi “Carte du vistie”i (dövlətlərin təqdimat kartında) 1918-də dünyaya təqdim olunan Azərbaycan Hərəkatının ömrü sadəcə 36 il deyildir, əlbəttə!...

Azərbaycan Türk xalqının tarixi gəlişmə (inkişaf prosesi) seyrində 28 May 1918, siyasi bir olqunluğunun (kamilliyinin) mühüm bir mərhələsidir.

Aləmşümul kültür dəyərlərinə və dürlü (müxtəlif) çağlarda yaşanmış siyasi istiqlal və hakimiyyət xatirələrinə malik olan Azərbaycanın tarixi bilxassə Yaxın Doğu İslam şərtləri daxilində gəlişmişdir (inkişaf etmişdir). Son yüz il içində bu gəlişmə Qafqasiya müqəddəratı ilə ilgili olaraq müəyyən özəlliklər ərz etmişdir.

Cümhuriyyətin qurulmasına təqəddüm (keçid) dövründə Azərbaycan topluluğunda əsaslı üç fikir cərəyanı təbəllür etmiş (formalaşmış) olurdu. Bunlardan biri dini düşüncəyə görə, milliyyət fikrinə xor baxan İslami ittihadçılıq idi. Buna müqabil yenə milliyyət ayrılığını rədd edən kosmopolit bir fikir cərəyanı – sosializm vardı. Biri sağçı, digəri solçu bu hər iki kosmopolit cərəyana Azərbaycan çərçivəsi daxilində qalmaq çox dar gəlirdi. Azərbaycan məfhumu onları təmin etmirdi. Onlar üçün ya “Rusiyada Müsəlmanlıq”, ya da “Rusiyada Sosializm” vardı. Milli olmayan bu cərəyanların arasında milli Azərbaycan milliyyətçiliyi mərkəzi bir mövqedə dururdu.



# AZERBAYCAN DÂVÂSI

*Mehmed Emin RESULZADE*

28 Mayıs 1918, Millî Azerbaycan hareketinin en büyük günüdür. Bundan 34 yıl önce, Millî Şûra tarafından Azerbaycan'ın istiklâli ilân olunmuştu; bu tarihte Türk ve Müslüman âleminde, ilk defa, millî halk hakimiyetine dayanan bir cumhuriyet kurulmuştur.

Yüz yıl önce, ayrı ayrı, 9 hanlık halinde, Çarlığın hakimiyeti altına düşen Azerbaycan, Birinci Dünya Harbi neticesinde çöken Rusya

siyasî bir olgunluğun mühim bir merhalesidir.

Alemşümûl kültür değerlerine ve türlü çağlarda yaşanmış siyasî istiklâl ve hakimiyet hatıralarına mâlik bulunan Azerbaycan'ın tarihi bilhassa Yakın Doğu İslâm şartları dahilinde gelişmiştir. Son yüz yıl içinde bu gelişme Kafkasya mukadderatile ilgili olarak muayyen özellikler arzetmiştir.

***"Azərbaycan davası" məqaləsi***

Tarix və kültür anlayışında türkçü olan bu milliyyətçi zümrə, siyasi alanda (sahədə) Azərbaycan muxtariyyət və istiqlalını hədəf tuturdu.

Azərbaycan Türk özəlliyinin formulunu verən və Rusiya hakimiyyətindəki Türk elləri üçün milli-məhəlli muxtariyyətlər halında öz müqəddəratlarını müstəqil idarəetmə tələbini irəli sürən canlı bütün qüvvətlər Azərbaycanda "Müsavat" Xalq Firqəsi ətrafında birləşmişdilər.

1911-ci ildən bəri gizli fəaliyyətdə olub, Rusiyada baş verən inqilab nəticəsində, 1917-ci ildə təşəkkül edən "Türk Ədəmi Mərkəziyyət Firqəsi" ilə birləşən **"Müsavat" Partiyasının Bakıda toplanan ilk konqresi sadəcə Azərbaycan tarixində deyil, Rusiya məhkumu bütün Türk ellərinin yaxın tarixində dəxi mühüm bir hadisə olmuşdu**. Qəbul etdiyi proqramında Azərbaycan muxtariyyatını cəsarət və sərahətlə (səhihlik, aydınlıqla) təsbit edən bu firqə, o gündən etibarən, gürcülərdə Menşevik, ermənilərdə Daşnak partiyaları kimi Mavərayi-Qafqasiya həyatında Azərbaycan Türklüyünü təmsil edən üçüncü bir qüvvət halına gəlmişdi. Daşnak, Menşevik, Müsavat isimləri dost, düşmən bütün dillərdə dastandı. Bu üç ismi təsrif etməyi (istədiyi kimi dəyişməyi) bolşeviklər bilxassə sevərlər. Gərək düşmən, gərəksə Azərbaycandan əlaqə ilə bəhs edən dostlar üçün "Müsavatizm" Azərbaycan patriotizminin bir müradifidir (sinonimidir).

1917-ci ilin aprelində Bakıda toplanan Qafqasiya Müsəlmanları Qurultayı ilə eyni ilin mayında bütün Rusiya Müsəlmanlarının Moskvada

toplanan qurultayında bu tezisi müdafiə edənlər "Müsavat" firqəsinə mənsub idi.

Rusiya Qurucular Məclisinə yapılan seçim əsnasında bu seçimdə iştirak edən Azərbaycan partiyalarından yalnız "Müsavat" firqəsinin bəyannaməsində Azərbaycan muxtariyyatından bəhs edilirdi.

Sonra, 1918 Mavərayi-Qafqasiya Seymində eyni Azərbaycan tezisini yalnız "Müsavat" firqəsi ilə "Tərəfsizlər Bloku" naminə oxunan açıqlamada görürük.

Seymin dağılması üzərinə Azərbaycan Cümhuriyyətinin istiqlalını elan edən Şurayi-Millidə bütün partiyaların artıq istiqlalçı olduqlarını görürük.

Azərbaycan davasının yaxın tarixində müəssir (təsirli) bir rol oynayan fikir cərəyanları ilə müəssislərinin tarixi məsnədləri (dayaqları) bunlardır. **"Davamız"ın yaxın tarixindən bəhs açanların hər şeydən əvvəl, bu obyektiv hadisə və vaqeələr üzərində durmaları lazım gəlir. Belə edilərsə, dava tarixi əsaslara, fikirlərə və fikir müəssisələrinə bağlanmış olur.**

**Milli Böyük bir davanı şəxslərə bağlamaq və onu parlament və ya hökumətdə bulunmuş olan bir sıra münfərid (tək-tək) insanların vərəsəlik malı kimi ədd etmək (qəbul etmək) çox xətalı bir anlayışdır.** Şurayi-Millidən də, parlamentdən də öncə Azərbaycan muxtariyyat və istiqlal fikrini təəzzi (əziyyət çəkmə) etdirən və bunu sağdan-soldan gələn bütün müxalifətə qarşı savunan (müdafiə edən) **bir müəssisənin varlığını inkar və ya ehmal etmək (əhəmiyyət verməmək) milli davaya zərərdən başqa bir şey verməz. "Davamız"ı fikir müəssisələrində deyil, münfərid şəxslərə bağlayanlar, mənsub olduqları millətin inkişaf etməmiş ibtidai bir cəmiyyət olduğunu bəlirtmiş (qabartmış, nəzərə çarpdırmış) olduqlarının fərqində olmayanlardır.** "Davamız"ın yaxın tarixini tariximizdəki fikir müəssəslərindən təcrid edərək izaha qalxışanlar bilərək və ya bilməyərək tarixi təhrif edənlərin ta özləridir.

**Tarixdə fikirlərin əhəmiyyəti var da, şəxslərin heç bir dəyəri yoxmudur? Əlbəttə vardır. Fəqət bu dəyər şəxslərin fikirlərə sədaqətləri və fikir müəssislərinə bağlılıqları nisbətindədir.** Bu sədaqət və bağlılığın şəkil və dərəcəsi ancaq bir şəxsi bir şəxsiyyət mərtəbəsinə ulaşdırır (ucaldır, catdırır). Tarixdə dəyər və əhəmiyyət kəsb edən şəxslər, işdə, müəyyən fikir cərəyanlarına və müəssislərinə bağlanan, onlara simvol olan şəxsiyyətlərdir.

"Davamız"ı anladırkən onu hal hazırda yalnız "üç kişi"nin baqi qaldığı bir listəyə bağlamaq və bu yaşayanları o ölənlərin siyasi yeganə varisi kimi görmək salim bir düşüncənin əsəri sayılamaz, təbii!..

**Davamız, Azərbaycan davasıdır, bu, tarixi və milli bir davadır.** Yuxarıda qeyd etdiyimiz kimi, bu davanın tarixi fikir müəssisləri və onlara qanlarıyla və canlarıyla təqdis etmiş qəhrəmanları vardır. Bu qəhrəmanlar sadəcə Milli Şura, Parlament və ya hökumətə mənsub olan şəxslərə inhisar etməz. İçlərində milli ideala, Azərbaycan fikrinə, yəni "Davamız"a ihanət (xəyanət) etmiş olanların da, məəttəssüf bulunduğu bu təşəkküllər dışında, şairimizin "Buzlu Cəhənnəm" dediyi sürgün yerlərində şəhadət camını içən, Xəzərin qanlı sularında ayaqlarına daşlar bağlanaraq boğdurulan neçə qurbanlarımız, şəhidlərimiz vardır.

**Sadəcə hökumət və ya parlament üzvü olmaq, insana özəl bir imtiyaz və şərəf verməz. Əsl imtiyaz, əsl şərəf ideyaya sədaqətdə və ona hüsnüniyyət və səmimiyyətlə bağlı qalmaqdadır.**

Parlament və hökumət dışında Firudin Köçərlilər, Piri Mürsəlzadələr, İslam Qəbulzadələr, Mirzə Abbaslar, müəllimə Vəsilə xanımlar, Qasımzadə Qasım bəylər, Rəfibəyli Xudadat bəylər, şair Hüseyn Cavid ilə Əhməd Cavadlar; gənc öyrənçi və zabitlərdən Ağa Kərim Əlizadə, Ağa Səlim Rəhimzadə, Salman Rəhimzadə, İbrahim Axundzadə, Dr. Dadaş Həsənzadə və sairləri kimi namü-nişanı (ad-sanı) zikredilməyən daha neçə qurbanlarımız və şəhidlərimiz vardır. Azərbaycan cəlladı Bağırovun bir raporunda qeyd olunduğu kimi 52-dən çox qanlı xalq üsyanlarında fədakaranə ölən minlərcə igid partizanlarımızı da unutmayaq. Gənc ordumuzun şəhid komandanları Həmid Qaytabaşıları, Süleyman Paşa Sulkeviçləri, Dilxas Murad Gərayları, İbrahim Ağaları, Səlimov Həbib Bəyləri və bir çox digərlərini də zikr edəlim.

İsimləri və xatirələri hamımıza əziz olan Fətəli Xan, Nəsib bəy, Həsən bəy, Səməd Paşa, Əbuzər bəy, Məhmət Bağır bəy, Museyib bəy, Murtuza bəy, Rəhim bəy və sairə kimi şəxslərlə bərabər, düşmən tərəfinə keçmiş və milli iradəyə xəyanət etmiş Qarayevlər, Qarabəyovlar kimi bədbəxtlər də məəttəssüf, Parlamentin üzvü olmuşlardır.

**Ümumi bir xülasə yapılırkən, ana fikir müəssisələrindən və bunları təmsil edən şəxslərdən bəhs etmək qaçınılmaz bir zərurətdir.** Tarixdə isimlərini fikir müəssislərilə sımsıxı bağlamış şəxsiyyətlər vardır. Bunlardan bəhs etmək qədər təbii və normal bir şey ola bilməz. Bu bütün **fəaliyyətləri bir tək şəxsə ətf etmək (istinad etmək) demək deyildir, əlbəttə!..**

Davanı əsas fikir sistem və müəssislərindən ayıraraq, avtomatik surətdə, müəyyən dövrdə, rəsmi hər hansı bir sifət və ya ünvan **daşımış**

**insanlara ancaq bağlarsaq, fani olan bu fərdlərin meydandan qalxmasıyla dava da bitmiş olur. Halbuki Azərbaycan davası belə üç-beş kişinin həyatilə ölçüləcək kiçik bir dava deyildir. Onun şühəda qanıyla təqdis edilmiş (müqəddəs sayılmış) fikir müəssisləri vardır.** Bu müəssislər baqidir (daimi), Azərbaycan parlamentini də, hökumətini də doğuran bu fikir sistemi, qızıl istila altında bilavasitə qüvvətlənmiş istiqlalçı gənc nəslin müqavimətilə çəlikləşmiş (poladlaşmış) və mühacirətdə illərdən bəri davam edən mücadilə sayəsində sarih (açıq, aydın) formulunu tapmışdır. Milli nəşriyyat və müəssisələr tərəfindən bu davanın ideoloji bütün səhifələri incədən-incəyə işlənmişdir. **Belə bir hərəkatın müqəddəratı, şübhəsiz ki, üç-beş faninin həyatına münhəsir (həsr edilə) qala bilməz**.

**Ciddi bütün davalar kimi, Azərbaycan davasının da qüvvət və həyatiliyi, bu böyük fikrin, istiqlal ideolojisinin nəsildən-nəsilə keçməsindədir.** Yeni nəsil, əski nəslin savunduğu idealı mənimsər və bu ideal uğrunda çalışmış başlıca fikir müəssis və **şəxsiyyətlərini idealizə edərsə**, bunu dava naminə, müsbət bir hadisə olaraq qəbul etməliyik.

**Yaxın tariximizdə davanı haqqilə təmsil edən fikir müəssisələrini ehmal ilə sadəcə münfərid şəxslərə mal etmək Azərbaycan topluluğunun gəlişməmiş ibtidai səviyyədə olduğunu söyləmək olur. Halbuki 1918-də istiqlalını elan edərkən, Azərbaycan Türklüyü, siyasi fikir cərəyanlarına malik olqun bir topluluqdu. Orta Rusiya əsarətindəki bütün Türk topluluqlarına örnək olacaq milli demokrasi ideolojisilə siyasi bir firqə vardı ki, Türklüyün federalist cərəyanını təmsil edirdi.**

O zamankı şərtlər daxilində Türkçülüyün "Müsavat" firqəsində təmsil olunan bu cərəyanı, hadisələrin gəlişməsilə, Türkiyədə Atatürk Cümhuriyyətinin, əski Rusiyada isə dürlü Türk Cümhuriyyətlərinin qurulması ilə həyatiliyini isbat etmişdir.

Bulunduğumuz mühacirət şərtləri daxilində, Azərbaycan davası naminə birləşmək, milli davanı yaşatmış və ya yaşadan fikir sistem və müəssislərinə hörmət etməklə olur. Bunun üçün hər türlü kiçik hesablardan və mərəzi hisslərdən sıyrılaraq ana fikrə önəm vermək lazımdır.

Yaxın keçmişi inkar və müşəxxəs (tanınmış) ideya və şəxsiyyətləri çürütmək qeyrətilə meydana atılanlar, bilərək və ya bilməyərək, böyük davanı kiçildənlərdir. Bu xüsusda hamımızın son dərəcə ciddi və diqqətli olmamız icab edər.

Bunu bilməliyik ki, "Davamız" fani üç kişinin inhisarına alınacaq qısır bir dava deyildir. O, nəsildən-nəsilə dövr edilən fikir müəssis və şəxsiyyətlərinə sahib vələd (nəsli) bir davadır. Təcrübəli böyükləri ilə

dəliqanlı gənclərini qopmaz ideal və fikir təsanüdüylə bir-birinə sımsıxı bağlayan bir dava!..



AZERBAYCAN

AYLIK KÜLTÜR DERGİSİ

Yıl : 3 MAYIS - HAZİRAN/1954 Sayı : 2-3 (26-27)

İÇİNDEKİLER

28 Mayısın Sahhar Tesiri ........ ★
Azerbaycan Dâvâsı ........ M. Emin Resulzade
İstiklâlin Diplomasi Cephesi ........ Mirza Bala
28 Mayısın Kutlanması ........ V. Aranlı
Azerbaycan İstiklâli (Şiir) ........ M. Akçaylı
İstiklâl Yıldönümümüzün matbuattaki akisleri ........ ★
İstanbul'da Azerbaycan Kültür Faaliyeti ........ M. Akçaylı
Tebriz'in Kameri (Destan) ........ Cafer Handan
Haberler ........ ★

***“Azərbaycan davası” məqaləsi nəşr edilən “Azərbaycan” jurnalı, 1954-cü il***

Dünənki idealist nəsil ilə bugünki idealist nəsli bir-birinə bağlayan, bundan 36 il öncə, 28 May 1918-ci ildə İstiqlal Bəyannaməsini intac etdirən (nəticələndirən) böyük fikir hərəkatıdır.

İstər ölmüş olsun, istər həyatda bulunsun, istər yaşlı olsun, istər gənc olsun, istər əski mühacir, istərsə yeni mühacir olsun, bütün azərbaycanlıların bu müəzzəm (böyük) hərəkatdakı mövqe və şərəfləri, əsas ideologiyaya göstərdikləri və göstərəcəkləri sədaqət, bağlılıq və hizmətlərilə mütənasibdir.

**Bütün məsələ, bu xüsusda son dərəcə incə davranmaqla bərabər, mötədil bir ölçüyə malik olmaq, hadisə, müəssis və şəxsiyyətləri təqdirdə vətənsevərlik icabı olaraq, ədalət və insaf hissindən ayrılmaqdadır.**

***M.Ə.Rəsulzadə***
***“Azərbaycan” aylıq kültür dərgisi***
***Sayı – 2-3 (26-27), 1954***

# HƏYAT VƏ FƏALİYYƏTİNİN XRONOLOGİYASI

**1884-cü il 31 yanvar –** M.Ə.Rəsulzadə Bakı quberniyası Bakı qəzasının Novxanı kəndində, axund Hacı Molla Ələkbərin ailəsində dünyaya gəlib.

**1901-1903-cü illər –** İlk təhsilini bu kəndin axundu olan atasından alıb. Sonradan Bakı şəhərində Sultan Məcid Qənizadənin ilk dəfə əsasını qoyduğu və müdirlik etdiyi 2-ci “Müsəlman və Rusi” məktəbində, eləcə də Bakı Texniki məktəbində rus dilində təhsil alıb.



***Öz xətti ilə rus dilində yazdığı tərcümeyi - hal***

**1903-cü il –** “Azərbaycanlı Gənc İnqilabçılar Dərnəyi”ni yaradır. Gizli fəaliyyət göstərən bu təşkilatın əsas vəzifəsini M.Ə.Rəsulzadə belə açıqlayırdı: “Gənclərdə milli hisslər yaratmaq, rus məktəblərində oxudulmayan türkcəni inkişaf etdirmək, yerli ədiblərin əsərlərini oxumaq, çarlıq əleyhinə yazılmış şeirləri əzbərləmək və arada-sırada mətbəə üsulu ilə çap edilmiş bəyannamələri paylamaq, fəhlələr arasına gedib, hürriyyət və inqilab fikirlərini onların arasında sistemli surətdə yaymaq”. Dərnəyin “Hümmət” adlı bir qəzeti də çıxmışdır.

**1903-cü il 2 may –** Tiflisdə nəşr edilən “Şərqi-Rus” qəzetinin 14-cü sayında "Öz müxbirlərimizdən. Bakı" başlıqlı ilk yazısı çap edilir. Bu yazısında o, "Şərqi-Rus" qəzetinin nəşrini alqışlayır və yazır: "Şükr və min dəfə şükr! Ki biz Qafqaz müsəlmanları da bir qəzet sahibi olduq”.

**1903-cü il 14 may –** “Şərqi-Rus” qəzetində əmisi oğlu və yaxın mücadilə dostu Məhəmməd Əli Rəsuloğlu ilə birlikdə “Hümmət və qeyrət vaxtıdır” məqaləsi çap edilir. Bu yazıda elm öyrənməyin vacibliyi xüsusi olaraq belə vurğulanır: “Bu vaxta bizə lazım və vacibdir ki, hümmət edib, elm öyrənməyə və öyrətməyə və öyrətdirməyə səy və kişiş qılaq. Elmsiz heç bir nöqsanımız götürülməyəcəkdir”.



**1903-cü il 18 may –** "Şərqi-Rus" qəzetində "Öz müxbirlərimizdən" başlığı ilə elmin vacibliyindən bəhs edən yazısı və sonda "Elm tərifində deyilibdir" adlı müxəmməsi (şeri) çap edilir.

**1904-cü il iyun –** Həmin dövrdə İ.V.Stalin inqilabi iş aparmaq üçün Bakıya gəlir. Qeyd edək ki, Rusiya Sosial Demokrat Fəhlə Partiyasının Bakı Komitəsi müsəlman gəncləri arasında fəal iş aparan, onları maarifləndirən və milli dirçəliş fikirləri yayan 20 yaşlı M.Ə.Rəsulzadəni və onun başçılıq etdiyi "Azərbaycanlı Gənc İnqilabçılar" təşkilatını öz təsiri altına salmağa çalışırdı. İ.V.Stalinlə M.Ə.Rəsulzadəni ilk tanış edən isə əmisi oğlu M.Ə.Rəsuloğlu olmuşdu. Bakının Balaxanı bölgəsində fabrik işçilərinə məxsus bir otaqda keçirilən görüş sonradan onların yaxın dostluq münasibətlərinə çevrilir. Sonrakı dövrdə M.Ə.Rəsulzadə Stalinin Bakının Bayıl həbsxanasından qaçırılmasında önəmli rol oynayır.

**1904-cü il oktyabr-noyabr –** RSDFP (Rusiya Sosial Demokrat Fəhlə Partiyası) – nin nəzdində yaradılan "Hümmət" (enerji, güc, qüvvət) Sosial-Demokrat Təşkilatının yaradıcılarından biri olur.Qeyd edək ki, bu həm də Zaqafqaziyada yaradılan ilk müsəlman sosial-demokrat qrupu idi. "Hümmət"in baniləri arasında ondan başqa N.Nərimanov, M.Əzizbəyov, M.H.Mövsümov, M.H.Hacınski, eyni zamanda sonradan Müsavatın yaradıcılarından olan A.Kazımzadə və K.Mikayılzadə var idi.

**1904-cü il –** M.Ə.Rəsulzadənin redaktorluğu ilə "Hümmət" qəzeti çap edilir. M.Ə.Rəsulzadə qeyd edirdi ki, "Hümmət" Qafqazda türk (Azərbaycan) mətbuatı arasında partiya orqanı olmaq üzrə ilk qəzet olub. 1904-1905-ci illərdə bu qəzetin 5-6 sayı çap edilir. 1917-ci ilin iyulun 3-də isə qəzet N.Nərimanovun redaktorluğu ilə yenidən Bakıda nəşrə başlayır.

**1905-ci il –** "Hümmət" qəzetinin 3-cü sayında "Hümmətür-rical" (yəni, "Kişilərin hümməti (gücü) dağları qoparar") adlı məqaləsi çap edilir. Və həmin yazıda birləşməyin, islama bağlılığın vacibliyini göstərir. **M.Ə.Rəsulzadə həmin məqalədə yazırdı:** "Hərəmiz bir küncdə bir xüsusi cəmiyyət qayırıb (yaradıb) da müxtəlif yollar ilə getməkdənsə birləşməli, öz fikir və fellərimizdən bir-birimizi halı etməliyiz".

**1906-cı il 5 yanvar –** "İrşad" qəzeti ilə əməkdaşlığa başlayır, orada "Kənddə müsibət" məqaləsini çap etdirir. Bu məqaləsində o, erməni-

müsəlman qırğınından bəhs edir, insanların bir-birini öldürməyindən, malını, əmlakını qarət etməsindən yazıb sonda bu fikri söyləyir: "Ey vətəndaşlar! Bəsdir bu qədər həlakət! Bəsdir bu qədər qəflət!.."

**1906-cı il 16 fevral –** "İrşad" qəzetində çap edilən **"Qara pul"** şerində ilk dəfə olaraq "Razi" təxəllüsünü işlədir:

Raziya, bəsdi məzəmmət elədin
qara pulu!
Ürəfalan (arif adamlar) kəsib... etməz dəxi ülfət
qara pul.

**1906-cı il 20 fevral –** "İrşad" qəzetində ilk dəfə olaraq İran haqqında və buradakı proseslərdən yazır, "ədalətxana" məclisinə toxunur, məqaləsini bu sözlərlə bitirir: "Yaşasın İranda hürriyyət! Yaşasın İranda qanuni əsası!"

**1906-cı il 3 mart –** "İrşad" qəzetində "Çin müsəlmanları" adlı məqaləsini çap etdirir. Tehranda nəşr edilən qəzetlərin birinə istinadən bir doktorun Çinə səyahətində buradakı çoxlu bölgələrdə müsəlmanların yaşadığını, onların adət-ənənəsindən bəhs etdiyini yazır.

**1906-cı il 8 mart –** Bakıda "Nicat" mədəni-maarif cəmiyyəti təşkil edilir. M. Ə. Rəsulzadə cəmiyyətin əsas üzvlərindən biri olur. Bu cəmiyyətin üzvləri arasında **Üzeyir Hacıbəyli, Hüseynqulu Sarabski, Soltan Məcid Qənizadə, Mehdi bəy Hacınski, Sidqi Ruhulla** və digər tanınmış şəxsiyyətlər vardı. Cəmiyyətin başlıca məqsədi azərbaycanlıları savadlandırmaq və maarifləndirmək, yoxsul uşaqlarına kömək etmək, onları məktəblərə cəlb etmək, ehtiyacı olanlara isə maddi kömək göstərmək idi. Cəmiyyət Bakıda və bəzi Bakı kəndlərində kitabxana, qiraətxana açmışdı. Balaxanıda açılan məktəbdə isə tanınmış şair M.Ə.Sabir dərs demişdi. **1908-ci ildə "Leyli və Məcnun" operası** Bakıda məhz "Nicat" cəmiyyətinin fəallığı ilə göstərilmişdi. Cəmiyyət həftədə bir dəfə **"Nicat"** adlı qəzet buraxırdı. Qəzet **İsa bəy Aşurbəyovun** vəsaiti və redaktorluğu dərc olunurdu. Cəmiyyət benefislər keçirir, şəhər bağında arabir gəzintilər təşkil edir, toplanan vəsaiti xeyriyyə işlərinə sərf edirdi. M.Ə.Rəsulzadənin rəhbərliyi ilə təşkil olunan belə gəzintilərin birindən toplanan 200 rubl vəsaitlə **İ.V.Stalini** həbsxanadan qaçırmaq mümkün olmuşdu.

**1906-cı il –** Yaratdığı "Azərbaycanlı Gənc İnqilabçılar Dərnəyi" bu dövrdən başlayaraq "Müsəlman Demokratik Müsavat Cəmiyyəti" adı ilə gizli fəaliyyət göstərir. Bu təşkilatın bir xətti də İranda başlanan Məşrutə inqilabı və inqilabçıları ilə sıx əlaqə qurur.

**1906-cı il 19 iyul –** Bakıda nəşr edilən "Dəvət-Qoç" qəzetində "Mərəzimizin çarəsi" adlı yazısı çap olunur. Bu yazısında erməni-müsəlman qırğınına mənfi münasibət bəsləyir. Mövcud bürokratik rejimi tən-

qid edərək yazır: "İki milləti bir-biri ilə vuruşdurub, nahaq qanlar içində inqilabı qərq etmək istədilər".

**1906-cı il 20 iyul –** "Dəvət" qəzetində "Bəlayi-əzim" adlı məqaləsi çap edilir. Bu yazısında o, Rusiyanı əhatə edən bəlalardan, təcavüzlərdən, zülmlərdən bəhs edir, çar məmurlarını kəskin tənqid atəşinə tutur: "Bəsdir, bəsdir içdiyiniz insan qanları, bəsdir iki milləti bir-biri ilə çalışdırıb, sonra hər ikisini də badi-fənaya verdiniz!"

**1906-cı il 16 dekabr –** "Təkamül" qəzetinin ilk sayında "Şeytan işinin nəticəsi" adlı məqaləsi çap edilir. Bu yazısında o, baş verən qırğın nəticəsində həm müsəlmanların, həm də ermənilərin fəlakət və səfalətə düçar olduqlarını qeyd edir.

**1907-ci il 3 fevral –** "Təkamül" qəzetinin 7-ci sayında məişətdən bəhs edən "Nagəhan bəla" adlı məişət mövzulu səhnə əsəri çap edilir. Bu əsərdə o, elmin əhəmiyyətini xüsusi qeyd edir, fəhlə tətillərindən danışır.

**1907-ci il, 17 fevral –** "Təkamül" qəzetində ilk dəfə olaraq Türkiyədən bəhs edən "Şurayi-Osmani" adlı məqaləsi çap edilir. O, bu məqalədə "Şurayi-Osmani" cəmiyyətinin 10 maddədən ibarət olan proqramını alqışlayır.

**1907-ci il 22 avqust –** "Yoldaş" qəzetinin ilk sayında "İkinci müəllimlər İctimai" (qurultayı) adlı məqaləsi çap edilir. Məqalədə 1906-cı ildə Bakıda keçirilmiş Birinci Qurultaydan sonra 1907-ci ildə Gəncədə keçirilməsi nəzərdə tutulan 2-ci Müəllimlər Qurultayından bəhs edilir.

**1907-ci il 12 oktyabr –** "Füyuzat" jurnalında "Həsbi-hal" adlı üsyankar ruhlu şeri çap edilir. O, bu şerində yazırdı:

Qaranlıqdır bana dünya,
Bütün dünyavü mafiha.
Diyorlar cümləsi guya:
Çəkil bir yanə sakitləş!

**1907-ci il 12 noyabr –** "Nicat" Mədəni-Maarif Cəmiyyətinin idarə heyətinin sədri olan Həsən bəy Ağayevin İrana getməsi ilə bağlı M.Ə.Rəsulzadə cəmiyyətə sədrlik edir.

**1907-ci il** – Üzeyir Hacıbəylinin tərtib etdiyi "Mətbuatda istifadə edilən siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin "Türki-rusi və rusi-türki lüğəti" kitabının redaktoru olur.

**1907-ci il** – A.Blyumun "Fəhlə sinfinə hansı azadlıq lazımdır?" kitabını Azərbaycan dilinə tərcümə edib "Orucov qardaşları" mətbəəsində çap etdirir.

**1907-ci il –** Bolşeviklərin məram və məqsədləri ilə, xüsusən də onların Rusiya imperiyasının sərhədlərini saxlamaqla yalnız sinfi ziddiyyətləri aradan qaldırmaq uğrundakı mübarizəsi ilə razılaşmayıb RSDFP sıra-

larından uzaqlaşır, rus müstəmləkə üsul-idarəsinə qarşı milli istiqlal hərəkatı prinsiplərindən yanaşmağa başlayır.

**1907-ci il 30 noyabr –** Bakıda Həsən bəy Zərdabinin dəfn mərasimində çıxış edir.

**1907-ci il 2 dekabr –** "İrşad" qəzetində Həsən bəy Zərdabinin dəfn mərasimindəki nitqi çap edilir. Həmin nitqindən: "Budur bu qoca ədib də haman camaatın hər dərdinə dərman olan ürfan toxumlarını səpmişdir ki, bu barələrdə çox danışıldı..."

**1908-ci il 15 yanvar –** "İrşad" qəzetində M.Ə.Rəsulzadənin "Nicat" Maarif Cəmiyyətinin sədri imzası ilə (katib – Hacıbababəyov) məlumat çap edilir.

**1908-ci il 7 aprel –** "İrşad" qəzetinin müvəqqəti redaktoru olaraq çalışır.

**1908-ci il 19 avqust –** "Tərəqqi" qəzetində "İrana dair, Təbriz əhvalatı" başlıqlı yazısı çap edilir.

**1908-ci il 5 dekabr –** "Qaranlıqda işıqlar" adlı ilk pyesi tamaşaya qoyulur.

**1908-ci il –** "Nicat" Mədəni-Maarif Cəmiyyətinin sədri kimi fəaliyyət göstərir.

**1909-cu il fevral –** Stalinin xahişi ilə M.Ə.Rəsulzadə "Gənc türklərin qələbəsi haqqında" məqalə yazır və Bakıda rus dilində cəmisi 2 sayı çap edilən "Volna" jurnalının 1-ci sayında çap etdirir. Bu məqalədə gənc türklərin ölkə daxilində həyatın təzələnməsi və konstitusiya əsaslarının möhkəmlənməsi, ölkəni hər cür təcavüzlərdən qorumaq məsələləri vurğulanır.

**1909-cu il 18 mart –** Çar Rusiyası tərəfindən təqib edilir. "Tərəqqi" qəzetinin müxbiri olaraq, həm də İran inqilabçılarına dəstək üçün İrana – Rəştə gedir. O, İrana "Russkoye Slovo" qəzetinin (bu qəzet 1895-1917-ci illərdə Moskvada gündəlik olaraq nəşr edilib) xüsusi müxbiri olan Todorov və onun xanımı ilə birgə gedir. Təbrizdə, Ərdəbildə, Mərənddə, Tehranda olur. "Tərəqqi" qəzetində "İran məktubları" yazısını çap etdirir.

**1909-cu il 28 may –** Təbrizdə dünya şöhrətli milli qəhrəman Səttarxanla görüşür, onunla maraqlı söhbət edir, verdiyi müxtəlif sualları "Sərdari-Milli" cavablandırır. M.Ə.Rəsulzadə bu görüşdən bəhs edən "Təbriz. Səttarxanla mülaqat" məqaləsini "Tərəqqi" qəzetində nəşr etdirir.

**1909-cu il 23 avqust** – Tehranda Avropa tipli "İrani-Nov" ("Yeni İran") qəzetini nəşr edir. Bu qəzet gündəlik olaraq milli, siyasi, ictimai, iqtisadi, ədəbi, bədii, əxlaqi və məzhəbi bir mətbuat orqanı kimi nəşrə

başlayır. Qəzetin naşiri Məhəmməd Əbülziya, Baş redaktoru isə M.Ə.Rəsulzadə idi. Qəzet müxtəlif fasilələrlə 1911-ci ilin mayın ortalarınadək nəşrini davam etdirib. İran demokratik hərəkatı və mətbuatı tarixində xüsusi yeri və mövqeyi olan “İrani-Nov” qəzetində M.Ə.Rəsulzadənin “M.Əmin”, “R-zadə”, “Rəsulzadə”, “M.Ə.Rəsulzadə”, “Niş” imzaları ilə müxtəlif mövzulu, janrlı və həcmli 29 yazısı çap edilib. Onun bu qəzetdə imzasız dərc olunmuş baş məqalələrinin, redaksiya şərhi və digər yazılarının miqdarı 200-dən çoxdur.

**1910-cu il sentyabr** – M.Ə.Rəsulzadə Avropada təhsil almış bir qrup İran ziyalısı ilə birgə (S.H.Tağızadə, İ.Nəvvab, S.Mirzə, S.M.Rza və b.) “İran Demokrat Partiyası”nı yaradır.

**1910-cu il –** Tehranda “Faros” mətbəəsində farsca “Mühafizəkar və ya sosialist-mühafizəkar partiyaların tənqidi” əsəri çap edilir.

**1911-ci il –** Ərdəbil şəhərində fars dilində “Səadəti bəşər” (“Bəşəriyyətin xoşbəxtliyi”) kitabı çap edilir.

**1911-ci il iyun –** Çar Rusiyasının İrandakı səfirliyinin təzyiqi və İran Məşrutə hərəkatının məğlub olması səbəbi ilə yaxın dostu Seyid Həsən Tağızadə ilə birgə İranı tərk edir. İrandan getməyinin bir səbəbi də onun “İrani-Nov” qəzetində məşhur Amerika milyonçusu Morqan Susterlə nəşr etdiyi siyasi müsahibə olur. Bundan sonra Rusiya səfirliyi onun İrandan getməsinə ciddi təzyiq göstərir. O, üzvü olduğu “İran Demokrat Partiyası” ilə birgə rus təcavüzünə qarşı kəskin mübarizə apardığına görə çar Rusiyasının İrandakı səfirliyi onun bu ölkədən getməsini tələb edir. Və o zaman Sədrəzəm Məhəmməd Vəli xan Sepehsalar da onun İrandan çıxması əmrini verir.

**1911-ci il iyun-iyul –** İranı tərk etdikdən sonra gizli olaraq Astara-Lənkəran yolu ilə Bakıya gəlir, bir müddət burada qalır, sonra İstanbula gedir.

**1911-ci il iyul-avqust –** Türkiyədə - İstanbulda olur. Az sonra burada fəaliyyətə başlayan “Türk Yurdu” dərgisi, “Türk Ocaqları” təşkilatı ilə yaxından əməkdaşlıq edir.

**1911-ci il oktyabr –** M.Ə.Rəsulzadənin dostlarına yazdığı məktublardakı fikirləri də əsas götürülərək, Bakıda Məhəmməd Əli Rəsuloğlu, Tağı Nağıoğlu və Abbasqulu Kazımzadə tərəfindən “Müsəlman Demokratik Partiyası – Müsavat” yaradılır.

**1911-ci il –** “Türk Yurdu” jurnalında və az sonra “Səbilür-Rəşad”(“Doğru Yol”) məcmuəsində “İran Türkləri” əsəri çap edilir və Türk ictimaiyyətinin böyük marağına səbəb olur.

**1912-ci il -** Bu illərdə o, C.Əfqaninin “Milli Birlik fəlsəfəsi” əsərini farscadan çevirib “Türk Yurdu” jurnalında çap etdirir.

**1913-cü il –** Romanovlar sülaləsinin 300 illiyi ilə bağlı verilən ümumi bağışlamadan sonra Bakıya qayıdır.

**1913-cü il 28 aprel -** “İqbal” qəzetində “Təzə kitablar” adlı yazısı çap edilir, yenidən ictimai-siyasi, mətbu fəaliyyətə başlayır.

**1913-cü il 15-22 iyun** – “Şəlalə” jurnalında “Asan dil” – “Yeni lisan” məqaləsi çap edilir.

**1913-cü il** – “Müsavat” Partiyasının fəaliyyətini gücləndirir, təşkilata ümumi rəhbərlik edir.

**1914-cü il –** “İqbal” qəzetinin Baş redaktoru olur.

**1914-cü il 12 aprel –** “Bəsirət” qəzetinin ilk sayında məqaləsi çap edilir.

**1914-cü il 10 may –** Bədəlbəy Bədəlbəyovun nəzarətində olan, ümumi müdiri Soltanməcid Qənizadə olan “Altıncı rus-müsəlman məktəbi”ndə keçirilən ədəbi və mənəvi bir ziyafətə dəvət edilir, məktəb şagirdlərinin bəzilərinin türkcə, bəzilərinin isə rusca oxuduğu nəğməli, şeirli və lətifəli bir ədəbiyyat gününün iştirakçısına çevrilir. Bu haqda “İqbal” qəzetinin 11 may 1914-cü il sayında “Əbədi bir gün” adlı məqalə də nəşr etdirir.

**1914-cü il 16 sentyabr –** “Dirilik nədir?”, “Milli dirilik” başlıqlı yazıları “Dirilik” jurnalında çap edilir.

**1915-ci il 8 fevral –** Yanvarın sonlarında vəfat etmiş böyük gürcü şairi Akaki Seretelinin Tiflisdə keçirilən dəfn mərasimində iştirak edir. Orada müsəlman mətbuatı nümayəndəsi olaraq çıxış edir. O, çıxışında bu sözləri deyir: “Ey böyük şair, ey nəcib bir millətin yetirdiyi ali düha, sən sağlığında birlik və məhəbbət təlqin edirdin. Öldün: fəqət əmin ola bilərdin ki, sənin ruhun ölməmiş, o hələ diridir”.

**1915-ci il 28 aprel –** Bakıda nəşr edilən “Yeni İqbal” qəzetinin ilk sayında “Yaponiyanın qələbəsi” adlı yazısını çap etdirir.

**1915-ci il 19 may –** “Yeni İqbal” qəzetində Bakı Quberniyası Xalq Peşə məktəbinin direktoruna aid olan bir məlumatin səhifədən çıxarılmasına ciddi etirazını bildirdiyinə gorə Bakı şəhər rəisinin əmri ilə həbs edilir.İki aya qədər həbsdə saxlanıldıqdan sonra azadliğa buraxılır. Onun həbsi haqqında “Yeni İqbal” qəzetinin 1915-ci il, 24 may sayında (N23) məlumat vardır.

**1915-ci il 2 oktyabr –** “Açıq söz” qəzeti onun redaktorluğu ilə nəşrə başlayır. Bu qəzet türk ədəbi ləhcəsi ilə çap edilən ilk mətbuat orqanı olur.

**1916-cı il 1 yanvar –** "Açıq söz" qəzetində "Miladdan 1916" adlı məqaləsi çap edilir.

**1917-ci il 24 mart – 4 aprel –** Rusiyada baş verən Fevral – Burjua İnqilabından sonra Müvəqqəti Hökumətin səlahiyyətli komissarı olaraq seçkiləri izah və təşkil etmək üçün Lənkəran bölgəsinə gedir, insanlarla maraqlı görüşlər keçirir.

"Açıq söz" qəzetində "4 gün xəlq içində" adlı məqaləsində M.Ə.Rəsulzadə yazırdı: "Bununla bərabər Bakı İcra Komitəsi ilə müvəqqəti qubernator İlyuşkinin təklifləri ilə lənkəranlı vətəndaşların xahişlərinə qarşı mənəvi bir borc hiss etdim ki, Lənkəran uyezdinə komissar gedəm".

**1917-ci il aprel, "Açıq söz" qəzeti -** Cənub bölgəsinə olan səfəri və görüşləri ilə bağlı "Açıq söz" qəzetinin 438-441-ci saylarında "4 gün xalq içində", sonrakı saylarda isə (442-dən başlayaraq) "Rusiya müsəlman ictima harada olmalıdır?", "Cəmaət idarəsi" yazılarını çap etdirir.

**1917-ci il 15-20 aprel –** Bakıda keçirilən Qafqaz Müsəlmanlarının Qurultayında çıxış edir, müsəlmanlara ərazi muxtariyyəti verilməsi ideyasını irəli sürür.

**1917-ci il 1-11 may –** Moskvada keçirilən Ümumrusiya Müsəlmanları Qurultayında nümayəndələrin müzakirəsinə iki qətnamə verildi: Ə.Salikovun milli-mədəni muxtariyyat və M.Ə.Rəsulzadənin ərazi muxtariyyəti qətnamələri. Ümumi səsvermədə onun irəli sürdüyü "ərazi muxtariyyəti" ideyası qurultayda 271 səsə qarşı 446 səslə qəbul edilir. Həmin qətnamədən: "Rusiyada müsəlman xalqlarının mənafelərini təmin edə bilən ən məqbul dövlət quruluşu forması milli ərazi federasiyası əsasında yaradılacaq demokratik respublikadır".

**1917-ci il may –** Bakıda M.Ə.Rəsulzadənin də "Redaksiya Heyəti"nə daxil olduğu "Qardaş köməyi" jurnalı çap edilir.

**1917-ci il 17 iyun – "**Müsavat"la "Türk-Ədəmi Mərkəziyyət" partiyaları birləşir. Yeni təşkilat "Türk-Ədəmi Mərkəziyyət Müsavat" Partiyası adlanır. M.Ə.Rəsulzadə Birləşmiş Partiyanın sədri seçilir. Partiyanın yaydığı bəyannamədə təşkilat özünü "əməkçi kütlələrə, habelə Rusiyanın türk və digər müsəlman xalqlarının milli-mədəni istəklərinə arxalanan demokratik partiya" kimi təqdim edir. Partiyanın sosial tərkibi ziyalılardan, fəhlələrdən, qismən kəndlilərdən və burjuaziyanın nümayəndələrindən ibarət idi.

**1917-ci il 28 iyun – "**Bakı Müsəlman İctimai Təşkilatları Komitəsi"nin axşam saat 19:00-da Ə.M.Topçubaşovun sədrliyi ilə keçirilən iclasında M.Ə.Rəsulzadə çıxış edir. Çıxışında bildirir ki, Bakı şəhər

Dumasına vicdanlı adamlar seçilməlidir. Qeyd edir ki, Duma kasıb əhali haqqında çox düşünməli, xalqdan az vergi alınmalı, qiymətlər aşağı olmalıdır.

**1917-ci il 5 oktyabr –** "İsmailiyyə" binasının böyük zalında axşam saat 20.00-da "Müsavat" Partiyasının bürosu "siyasi söhbət" təşkil edir. M.Ə.Rəsulzadə orada "Mərkəzçilik və qeyri mərkəzçilik" mövzusunda çıxış edir. Digər müsavatçılar isə bu mövzuda məruzə edirlər: 1) Q.Ağazadə: "Millətçilik və beynəlmiləlçilik"; 2) S.İbrahimov: "Türkçülər və islamçılar".

**1917-ci il 22 oktyabr –** Bakı Şəhər Sovetinə keçirilən seçkilərdə M.Ə.Rəsulzadənin başçılıq etdiyi "Müsavat" Partiyası 25 min seçicidən 10 min nəfərinin səsini alıb böyük nüfuzunun olduğunu göstərir.

**1917-ci il 26 oktyabr –** Bakı Dövlət Dumasına seçki kampaniyası aparılır. "Müsəlman İctimai – Siyasi Təşkilatları Komitəsi"nin təşkil etdiyi 40 nəfərlik siyahıda Ə.M.Topçubaşov, F.Xoyski və digərləri ilə birgə M.Ə.Rəsulzadənin də adı verilir. Onun adı "Açıq söz" qəzetinin jurnalisti olaraq qeyd edilir. Onlara 12 saylı siyahıda səs verilməsi göstərilir.

**1917-ci il 26-31 oktyabr –** Bakı şəhərində, "İsmailiyyə" binasında "Müsavat" Partiyasının I qurultayı keçirilir və M.Ə.Rəsulzadə partiyanın sədri seçilir.

**1917-ci il 1 noyabr –** "Açıq söz" qəzetinin 603-cü sayında aşağıdakı məzmunda "Xüsusi teleqraf" çap edilir: "Səmərqənddən idarəmizə böylə bir teleqraf çəkilmişdir: Müsəlmanların oblast (vilayət) ictimailəri Məclisi-Müəssisana namizəd olmaq üzrə Sırdərya oblastından Əlimərdan bəy Topçubaşov, Fərqanədən Məhəmməd Əmin Rəsulzadə və Amur oblastından Nəsib bəy Yusifbəyovun namizədliyini qoymuşlardır".

**1917-ci il 18 noyabr –** Bolşeviklər M.Ə.Rəsulzadənin başçılıq etdiyi "Müsavat"ın Bakı Şəhər Sovetinə olan seçkilərdəki qələbəsini ləğv edir.

**1917-ci il 24 noyabr –** Müəssislər Məclisinə seçki kampaniyası aparılır. 15 nəfərlik namizədlər siyahısında Məmməd Yusif Cəfərov, Əlimərdan bəy Topçubaşovla birgə M.Ə.Rəsulzadənin də adı göstərilir. Vətəndaşlardan onların adı olan 10 saylı siyahıya səs verməsi xahiş edilir.

**1917-ci il 26 - 28 noyabr –** Zaqafqaziyada Ümumrusiya Müəssislər Məclisinə keçirilən seçkilərdə M.Ə.Rəsulzadənin başçılıq etdiyi "Müsavat" Partiyası müstəqil demokratik qrupla birgə (Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski və b.) seçkidə Zaqafqaziya üzrə 615.816 (26, 9%) səslə ikinci yeri tutur. Birinci yeri 1% səs çoxluğu ilə gürcü menşevikləri qazanır.

**1917-ci il 22 dekabr –** "Şirvanşahlar" sarayının müsəlmanların idarəçiliyinə (Müsəlman Arxeologiya Cəmiyyətinə) verilməsi münasibəti ilə "İsmailiyyə" binasında təntənəli toplantı olur. Tədbirə ictimaiyyət böyük maraq göstərir. Qeyd edilir ki, bu saray XIV əsrdə Xəlilulla xan tərəfindən tikilib. Toplantını Mir Məhəmməd Kərim açır. Sonra "Müsavat" Partiyası adından çıxış edən M.Ə.Rəsulzadəni toplantı iştirakçıları böyük maraqla dinləyir.

**1918-ci il 2 fevral –** M.Ə.Rəsulzadənin bu dövrdəki çıxışlarında qaldırdığı "Azərbaycan ideyası" və "Azərbaycana muxtariyyət" şüarı İranda böyük narazılığa səbəb olur. Başda Məliküşşüəra Bahar olmaqla (1881-1951) Tehran paniranistləri "Novbahar" qəzetində ona etiraz edir. M.Ə.Rəsulzadə onlara cavab məqsədi ilə "Açıq söz" qəzetində məqalə yazır (N 671, 1918-ci il). "Rəfi-İştibah" ("Səhvin düzəldilməsi") adlı məqaləsində o, bildirirdi: "Bu ləkə ilə bərabər təkrar edirəm ki, Azərbaycan yüz on il bundan qabaq həvadisi-ruzgardan təslim olundu və Araz çayının şimal tərəfində olan qitələri ruslar aldıqdan sonra Azərbaycan adını götürüb Zaqafqaziya adlandırdılar ki, Mavərayi-Qafqaz olsun".

**1918-ci il 23 fevral –** Tiflisdə Zaqafqaziya Seyminin ilk toplantısı keçirilir və M.Ə.Rəsulzadə "Müsavat" fraksiyasının (30 nəfərlə) lideri təsdiq edilir.

**1918-ci il mart -** "Açıq söz" qəzetinin 700-cü sayında bildirilir ki, M.Ə.Rəsulzadə hazırda Trabzonda Sülh heyətinin tərkibindədir və Seym üzvü olaraq qalır.

**1918-ci il 1 aprel –** Ermənilərin Bakıda törətdiyi 31 mart soyqırımı ilə bağlı M.Ə.Rəsulzadə Zaqafqaziya Seymində sərt çıxış edərək ciddi münasibət bildirilməsini tələb edir.

**1918-ci il 14-15 may –** Zaqafqaziya nümayəndə heyətinin tərkibində Batuma gedir və regionun siyasi gələcəyi ilə bağlı Almaniya və Türkiyə hökuməti təmsilçiləri ilə çox mürəkkəb danışıqlar aparır.

**1918-ci il 27 may –** Gürcüstanın paytaxtı Tiflisdə artıq fəaliyyəti dayanmış Zaqafqaziya Seyminin müsəlman üzvləri toplanıb Azərbaycan Milli Şurasını yaradır. M.Ə.Rəsulzadə Milli Şuranın sədri, Həsən bəy Ağayev sədr müavini, Mustafa Mahmudov katib, aşağıdakılar isə üzv seçilirlər: Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyli, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanbəyov, Heybətqulu Məmmədbəyli, Mehdi bəy Hacınski, Əliəsgər bəy Mahmudbəyov, Aslan bəy Qardaşov, Soltan Məcid Qənizadə, Əkbər ağa Şeyxülislamov, Məmməd Yusif Cəfərov, Hidayət bəy Məlikaslanov, Rəhim bəy Vəkilov, Həmid bəy Şahtaxtinski, Firidun bəy Köçərli, Cəmo bəy Hacınski, Şəfi bəy

Rüstəmbəyov, Xosrov bəy Sultanov, Cəfər Axundov, Məmməd Məhərrəmov, Cavad Məlikyeqanov, Hacı Molla Axundzadə.

**1918-ci il 28 May –** M.Ə.Rəsulzadənin sədri olduğu Azərbaycan Milli Şurası Azərbaycan İstiqlalını elan edir və altı maddədən ibarət olan Azərbaycan İstiqlal bəyannaməsi qəbul edilir. Həmin günü Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumət kabinəsi təşkil edilir. 9 strukturdan ibarət olan I hökumət kabinəsinə Nazirlər Şurasının sədri Fətəli xan Xoyski başçılıq edir. Həmin dövrdə Azərbaycanda əhalinin sayı 2 milyon 750 min (onlardan 1 milyon 900 mini müsəlman idi) nəfər idi. Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi isə 97,3 min kv.km idi. Bundan başqa 15,6 min kv.km-lik Azərbaycan torpaqları Ermənistan və Gürcüstanla mübahisəli ərazi sayılırdı.

**1918-ci il 4 iyun –** Batumda Osmanlı Türkiyəsi ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında ilk Dostluq Müqaviləsi imzalanır. Müqavilənin IV maddəsində Osmanlı hökumətinin Azərbaycana silahlı yardım göstərmək haqqının olduğu qeyd edilir. Müqaviləni Azərbaycan hökuməti adından M.Ə.Rəsulzadə və M.Hacınski imzalayır.

**1918-ci il 17 iyun –** M.Ə.Rəsulzadənin başçılıq etdiyi Azərbaycan Milli Şurası ilhaqçıların təsirini azaltmaq, Nuru Paşa ilə münasibətləri pozmamaq, Azərbaycanın istiqlaliyyətini qorumaq məqsədi ilə öz fəaliyyətini dayandırır.

**1918-ci il 18 iyun –** M.Ə.Rəsulzadənin başçılıq etdiyi diplomatik heyət (A.Səfikürdski və X.Xasməmmədov) Mərkəzi Avropa dövlətlərinin (Almaniya, Avstriya-Macarıstan, Türkiyə və Bolqarıstan) yeni yaradılmış Qafqaz dövlətləri ilə əməkdaşlığı çərçivəsində kecириləcək konfransda iştirak üçün İstanbula gedir.

**1918-ci il 26 iyun –** Türkiyədə nəşr edilən "Təsviri-Əfkar" qəzetində "Azərbaycan Nümayəndə Heyəti" başlıqlı yazıda M.Ə.Rəsulzadə ilə geniş müsahibə verilir. Qəzetdə çap edilən fotonun altındakı yazıda isə M.Ə.Rəsulzadənin rəhbərliyində Xəlil Xasməmədov, Aslan bəy Səfikürdski və Əhməd bəydən ibarət Azərbaycan hökuməti nümayəndələrinin 25 iyunda İstanbula gəldiyi bildirilir. Qəzetdə verilən təqdimat yazısında M.Ə.Rəsulzadənin bir neçə il öncə İstanbulda olduğu və burada olarkən "Təsviri-Əfkar" qəzetinin "İslam aləmi üzrə müxbiri" olduğu da qeyd edilir.

**1918-ci il 3 iyul –** M.Ə.Rəsulzadə İstanbulda Sultan Mehmetin dəfnində iştirak edir.

**1918-ci il 22 iyul –** İstanbulda nəşr edilən "Vakit" qəzetində "Kafkasya işləri: Rəsulzadə Mehmet Emin Bəyin Bəyanatı" başlıqlı yazı çap edilir.

**1918-ci il avqust –** İstanbulda olarkən, İran Konsulluğuna Azərbaycanın müstəqilliyi haqqında bəyannamə göndərir. Konsulluq əməkdaşları isə Azərbaycan adlı dövləti tanımadıqları haqqında olan məktubu geri qaytarır.

**1918-ci il 3 sentyabr –** İstanbulda nəşr edilən "Vakit" qəzetində M.Ə.Rəsulzadə başda olmaqla Azərbaycan Nümayəndə Heyətinin fəallığı ilə keçirilən tədbir haqqında "Azərbaycan Haqqında Konfrans" başlıqlı yazı çap edilir.

**1918-ci il 6 sentyabr –** Azərbaycanın Xarici İşlər Naziri M.Hacınskiyə yazdığı məktubda Bakının azad edilməsinin həyati əhəmiyyət daşıdığını bildirir.

**1918-ci il 6 sentyabr –** M.Ə.Rəsulzadə Azərbaycan nümayəndə heyəti ilə birgə Sultan Mehmet Vehidedtinlə görüşür.

**1918-ci il 15 sentyabr –** Türkiyənin Hərbi Naziri Ənvər Paşa ona zəng edib, Bakının alınması – Qurtuluşu xəbərini verir.

**1918-ci sentyabr –** M.Ə.Rəsulzadə Rusiya və Almaniya arasında Azərbaycanın müstəqilliyini şübhə altına alan Brest-Litovsk sazişinə əlavə olan 27 avqust razılaşmasına etiraz edir və Almaniyanın İstanbuldakı səfirinə etiraz bəyanatını çatdırır. "İqdam" qəzetində çıxış edir, "Bakısız Azərbaycan, başsız bədəndir" deyir.

**1918-ci il 23 sentyabr –** İstanbulda nəşr edilən "Vakit" qəzetində M.Ə.Rəsulzadənin Almaniya və Sovet Rusiyası arasında neft qarşılıqlı anlaşmasına və Bakının Azərbaycana aid olmadığına etiraz olaraq, Almaniya səfir vəkili Konta (Valdeburqa) bir nota verdiyini bildirən "Azərbaycanın Almaniya hökumətinə notası" adlı yazısı çap edilir.

**1918-ci il 7 noyabr –** M.Ə.Rəsulzadə İstanbuldan Bakıya qayıdır.

**1918-ci il 16 noyabr –** M.Ə.Rəsulzadənin rəhbərliyi ilə Milli Şuranın Bakıda ilk toplantısı keçirilir və Azərbaycan xalqına müraciət qəbul edilir.

**1918-ci il 19 noyabr –** M.Ə.Rəsulzadənin rəhbərliyi ilə Milli Şura Azərbaycan Parlamentinin yaradılması haqqında qanun qəbul edir.

**1918-ci il 7 dekabr –** M.Ə.Rəsulzadə Azərbaycan Parlamentinin açılışında ilk çıxışı edir. Məşhur tarixi sözlərini də ilk dəfə burada səsləndirir: "Bir kərə yüksələn bayraq, bir daha enməz!". Parlamentdə ən güclü sayılan "Müsavat" fraksiyasına başçılıq edir. O, həmçinin Parlamentdə iki komissiyada – "Müəssislər Məclisini çağırmaq" və "Maliyyə büdcə" komissiyasında təmsil olunur.

**1919-cu il 19 mart –** Üzeyir Haclbəyli Ceyhun bəyə yazdığı məktubda M.Ə.Rəsulzadənin "Azərbaycan" qəzetində çalışdığını və buradan əmək haqqı aldığının bildirir.

**1919-cu il 14 aprel –** M.Ə.Rəsulzadə Azərbaycan Parlamentinin 29-cu iclasında çıxış edib, ermənilərin iddialarını rədd edir. Qarabağın Azərbaycan ərazisi olduğunu bildirir.

**1919-cu il 15 noyabr –** M.Ə.Rəsulzadənin təşəbbüsü və Parlamentdə bir neçə dəfə çıxışındakı tələbi əsasında Bakı Dövlət Universiteti təsis edilir və o, burada tarix-filologiya fakultəsində Osmanlı ədəbiyyatı tarixindən mühazirələr oxuyur.

**1919-cu il 2-12 dekabr –** Bakıda "Müsavat" Partiyasının II qurultayı keçirilir. M.Ə.Rəsulzadə Partiyanın sədri seçilir.

**1919-1920-ci illər –** M.Ə.Rəsulzadə Azərbaycan Parlamentində fəal çıxış edir, problemlərə münasibətini bildirir. Bütövlükdə isə 114 iclasdan 80-də çıxış edir.

**1920-ci il –** Bakıda "Azərbaycan" qəzetinin hökumət mətbəəsində M.Ə.Rəsulzadənin "Azərbaycan təşəkkülündə Müsavat" kitabı nəşr edilir.

**1920-ci il 27 aprel –** M.Ə.Rəsulzadə Parlamentin son iclasında çıxış edərək, bolşeviklərin təslimçilik xarakteri daşıyan ultimatumunu rədd edir. Elə həmin gecə onun məsləhəti ilə "Müsavat" Partiyasının "Gizli Mərkəzi" yaradılır.

**1920-ci il may –** Bolşeviklərin Azərbaycanı işğalından sonra M.Ə.Rəsulzadə təqib olunur, əvvəl Bakıda – Ramanada gizlənir, sonra isə Lahıca gedib orada qalır, özünün məşhur "Əsrimizin Səyavuşu" əsərini yazır.

**1920-ci il 17 avqust –** Göyçay qəzasının Qaraməryəm kəndində bolşeviklər onu həbs edib Bakıya gətirir.

**1920-ci il noyabr –** İ.V.Stalin Bakıya gəlir və M.Ə.Rəsulzadəni həbsdən azad edib özü ilə Moskvaya aparır.

**1920-ci il noyabr –** Moskvada nəzarət altında yaşayır. Ona RSFSR Millətlər Komissarlığı nəzdində yaradılması nəzərdə tutulan Şərq Xalqlarını Öyrənmə Cəmiyyətinə rəhbərlik etmək təklif edilir, lakin o, bu təkliflə razılaşmır. O, eyni zamanda Şərq Ölkələri zəhmətkeşlərinin Kommunist Universitetində professor vəzifəsində çalışmaqdan da imtina edir. Hətta Stalinin bu işə müdaxiləsi də M.Ə.Rəsulzadəni razı salmır. Moskvada olarkən o, yalnız Şərq Ölkələri İnstitutunda (keçmiş Lazarev İnstitutu) fars və rus dillərindən dərs deyir, müəllim olaraq çalışır. Bu müddətdə o, elmi tədqiqat işləri ilə məşğul olur, "Jizn Nasionalnostey" ("Millətlər Həyatı") jurnalında yazılar çap etdirir.

**1922-ci il may-iyun-iyul-avqust –** M.Ə.Rəsulzadə elmi ezamiyyət adı ilə Sankt-Peterburqa gedir, oradan isə Finlandiyaya keçir. 15 gün ərzində fin əsgərlərinin nəzarətində qalır, bir müddət Helsinkidə yaşayır.

Burada olarkən tanınmış mücahid Abdulla Battas-Taymasla da görüşür. Helsinkidə M.Ə.Rəsulzadənin şərəfinə verilən ziyafətdə Peterburq imamı Lütfi İshaqi də iştirak edir, onun haqqında xoş sözlər söyləyir.

Helsinkidə pasport və viza işlərini tamamladıqdan sonra Fransaya, oradan Berlinə, oradan isə Türkiyəyə gedir.

**1922-ci il dekabr –** M.Ə.Rəsulzadə Türkiyədə **–** İstanbulda olur.

**1923-cü il 31 mart –** M.Ə.Rəsulzadə İstanbuldan Polşanın görkəmli dövlət xadimi, Ali Baş Komandan Marşal Jozef Klement Pilsudskiyə fransızca məktub yazır, 10-a qədər azərbaycanlı zabitin Polşa ordusunda xidmət etməsinə razılığına görə ona təşəkkürünü bildirir.

**1923-cü ilin mayı –** İstanbulda M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti (keyfiyyəti-təşəkkülü və şimdiki vəziyyəti)" kitabı nəşr edilir və həmin il İzmirdə keçirilən "İzmir İqtisadi Konqresi"ndə "İqtisadi Misak" (Bəyannamə) proqramında və "Kitab Bayramı" tədbirində (sərgisində) Atatürk mükafatına layiq görülür.

**1923-cü il 26 sentyabr –** Azərbaycan mühacirət mətbuatının ilk orqanı olan "Yeni Qafqasiya" jurnalını nəşr edir.

**1923-cü il 17 noyabr –** M.Ə.Rəsulzadə İstanbulda bu ünvanda yaşayır: Çarşıqapı, Qəndilli küçəsi-5. (Çox ehtimal ki, "Yeni Qafqasiya" jurnalı da burada nəşr edilib). M.Ə.Rəsulzadə 1923-cü ildə 17 noyabrda Parisə – Ə.M.Topçubaşova göndərdiyi məktubda bu ünvana köçdüyünü bildirir.

**1924-cü il** – "Müsavatın Xarici Əlaqələr Bürosu"nu və "Azərbaycan Milli Mərkəzini" yaradır.

**1924-cü il –** İstanbulda tanınmış mütəfəkkir Ziya Göyalpın dəfn mərasimində olur və çıxış edir.

**1923-1925-ci illər –** İstanbulda "Əsrimizin Səyavuşu", "İstiqlal məfkurəsi və gənclik", "Rusiyada siyasi vəziyyət" kitablarını çap etdirir.

**1925-ci il 6 may –** Parisə – Ə.M.Topçubaşova göndərdiyi məktubda yaşayış yerini dəyişib bu ünvanda məskunlaşdığını qeyd edir: "Ayasofya, Yerəbatan küçəsi N 6, Molla Nəcməddinin mülkündə".

**1925-ci il –** İstanbulda mühacirətdə yaşayan gənclər qarşısında "İstiqlal məfkurəsi və gənclik" mövzusunda cıxış edir.

**1926-cı il 15 iyul –** İstanbulda M.Ə.Rəsulzadənin, N.Ramişvilinin T.Qolubko və Polşanın Türkiyədəki hərbi attaşesi polkovnik T.Şetsellə danışıqları əsasında "Qafqaz İstiqlal Komitəsi" yaradılır.

**1926-cı il 15 noyabr –** M.Ə.Rəsulzadə Polşa Xarici İşlər Nazirliyinin rəsmisi olan Tadeuş Qolubkoya məktub yazır və "Yeni Qafqasiya" jurnalına dəstək göstərməsini xahiş edir.

**1926-cı il Paris –** İlk dəfə burada Beynəlxalq təşkilat olaraq “Prometey” hərəkatı yaradılır. Hərəkatın yaradılmasında M.Ə.Rəsulzadə də daxil olmaqla keçmiş Rusiya imperiyasının ayrı-ayrı xalqlarının liderləri fəallıq göstərir.

Prometeyçilərin başlıca vəzifəsi bu idi: 1) Öz xalqlarında siyasi şüuru oyatmaq və onları öz talelərini həll etməyə hazırlamaq; 2) Avropa və dünya ictimaiyyəti qarşısında Sovetlər Birliyində yaşayan rus olmayan xalqların problemlərini açıqlamaq; 3) Bolşevik diktaturasını ifşa etmək; 4) İlk vaxtlar isə müxtəlif xalqlarla birgə mübarizə aparmaq səylərini birləşdirmək.

Qeyd edək ki, ilk yaradılan “Prometey” hərəkatına Azərbaycan, Gürcüstan, Kareliya, Komi, Krım, Kuban, Povoljye, Şimali Qafqaz, Türküstan, Ukrayna, Ural nümayəndələri daxil idi.

**1926-cı il –** Parisdə, fransız dilində “Prometey” jurnalı nəşrə başlayır. Jurnal “Müstəqil Qafqaz Komitəsi” (Azərbaycan, Gürcüstan, Şimali Qafqaz) tərəfindən çap edilir. M.Ə.Rəsulzadə jurnalın redaksiya heyətinin üzvü kimi fəaliyyət göstərir.

**1927-ci il 11 iyul –** M.Ə.Rəsulzadə Polşa dövlətinin rəsmisi olan T. Qolubkoya yazdığı məktubda Azərbaycanla əlaqələrin möhkəmləndirilməsi vacibliyini bildirir.

**1928-ci il Varşava –** Burada “Əzilən Rusiya Xalqları Liqası” adlı “Prometey” cəmiyyəti yaradılır. Cəmiyyətə Azərbaycan, Gürcüstan, Don, Kareliya, Komi, Krım, Kuban, Povoljye, Şimali Qafqaz, Türküstan, Ukrayna və Uralın nümayəndələri daxil olur. Bu antibolşevik ittifaq sovet təbliğatı üçün böyük təhlükə yaradır. Bu təşkilat Polşa Xarici İşlər Nazirliyi və Baş Qərargahı tərəfindən Marşal Pilsudskinin birbaşa dəstəyi ilə fəaliyyət göstərir.

Marşal Pilsudski SSRİ-yə qarşı mübarizə aparmaq üçün bütün mühacirlərin birləşdirilməsini və onların gücündən faydalanmağı vacib sayır.

“Prometeyçilik” termininin müəllifi isə polyak polkovniki T.Şetselin olduğu bildirilir. O, 1924-1926-cı illərdə Polşanın Türkiyədəki hərbi attaşesi olub. Bu ideya – yəni antibolşevik cəbhənin yaradılması isə Polşa dövlətinin başçısı M.Pilsudski tərəfindən müdafiə edilib.

**1928-ci il –** M.Ə.Rəsulzadənin ümumi rəhbərliyi ilə “Azəri-Türk” jurnalı nəşr edilir.

**1928-ci il –** M.Ə.Rəsulzadənin redaktorluğu ilə “Milliyyət və bolşevizm” məcmuəsi və yazdığı “İxtilalçı sosializmin iflası və demokratiyanın gələcəyi” kitabı çap edilir.

**1929-cu il 1 mart –** M.Ə.Rəsulzadənin Baş redaktorluğu ilə İstanbulda "Odlu Yurd" jurnalı nəşr edilir.

**1929-cu il 27 dekabr –** M. Ə. Rəsulzadənin ümumi rəhbərliyi ilə "Odlu Yurd" adlı bülleten nəşr edilməyə başlayır. Bülleteni nəşr etməkdə əsas məqsəd bu idi: "Odlu Yurd" dərgisinin məşğul olduğu sahə və hadisələr haqqında ictimaiyyətə daha tez və müntəzəm informasiya vermək". Bülletenin sonuncu – 54-cü sayı 1930-cu ilin martın 17-də nəşr edilib. Gündəlik yayın orqanı olaraq çap edilən bülletenin sahibi Abbasqulu Kazımzadə, məsul müdiri isə Kamal idi.

**1929-cu il –** Polşada – Varşavada, Polşanın Xüsusi Xidmət İdarəsi SSRİ-yə qarşı kəşfiyyat fəaliyyəti aparmaq üçün 2 saylı Ekspozituranı – Polşa Baş Qərargahının II Şöbəsinin kəşfiyyat bölməsini yaradır və M.Ə.Rəsulzadə Varşava qrupunun rəhbəri olur. Bu bölmə əsasən SSRİ-nin dağılması, Qafqazın, eləcə də Azərbaycanın azad edilməsi üçün mühacirlərin məsləhətlərindən faydalanır.

**1930-cu il 29 mart –** Parisdən və Varşavadan yaxın dostu Həmdulla Sübhi Tanrıövərə yazdığı məktublarda Paris konsulluğunun ona viza vermədiyi qeyd olunur. M.Ə.Rəsulzadə yazır ki, əgər bu Ankara hökumətinin əmrinə əsasən edilirsə, onda bu məsələnin açıqlanması lazımdır.

**1930-cu il –** Parisdə rusca "Panturanizm haqqında", Varşavada isə "Panturanizm və Qafqasya problemi" kitabları rusca nəşr edilir.

**1930-cu il –** M.Ə.Rəsulzadənin H.S.Tanrıövərə və C.Hacıbəyliyə yazdığı məktublardan məlum olur ki, o, 1930-cu ildən başlayaraq Polşada yaşayır (təbii ki, Türkiyəyə qayıtmağa icazə verilmədiyindən məcburən bu ölkədə qalır, lakin İstanbulla da əlaqəsini itirmir və orada azərbaycanlıların fəaliyyətinə rəhbərlik edir, "Odlu Yurd" jurnalının da Baş redaktoru olaraq qalır). O, Varşavada Sluzevsko, Krzyesko 30 ünvanda yaşayır, bu dövlətin dəstəyi ilə sovet işğalı rejiminə qarşı mücadilə aparır. Eyni zamanda Fransada olur və sovet rejiminə qarşı fəallıq göstərir.

**1931-ci il –** Ankarada Türkiyə Xarici İşlər Naziri T.Rüşdi ilə SSRİ Xarici İşlər Naziri Litvinov arasında imzalanan müqaviləyə əsasən Türkiyə dövləti fəal mühacirləri ölkəsindən getməyə məcbur edir və SSRİ əleyhinə təbliğata imkan vermir.

M.Ə.Rəsulzadənin və onun silahdaşlarının siyasi və mətbu fəaliyyətinə Türkiyədə son olaraq 1931-ci ildə sentyabr ayında Sovet dövlətinin təzyiqi ilə rəsmi qadağa qoyulur.

**1931-ci il sentyabr –** M.Ə.Rəsulzadənin Türkiyədən çıxmağa məcbur olan yaxın silahdaşları da siyasi sığınacaq alıb Polşada məskunlaşır. Almaniyada isə onların qəzet və jurnal nəşr etməsi üçün şərait yaradılır.

**1932-ci il 10 yanvar –** Almaniyada Berlində "İstiqlal" qəzetini nəşr edir.

**1933-cü il 21 mart –** M.Ə.Rəsulzadə "Azərbaycan Milli Mərkəzi" ilə bağlı Varşavada yazdığı anketdə Mərkəzin Varşavada, İstanbulda və Parisdə yerləşdiyini qeyd edir. O, eyni zamanda hər ay ona verilən 650 zlot məbləğindən M.Mehdiyevə və M.Vəkilliyə 68 dollar, Ə.Şeyxülislamova, A.Atamalıbəyova, C.Hacəbəyliyə, X.Xasməmmədovaa və M.Ə.Rəsuloğluna 30-32 dollar, Ə.M.Topçubaşova isə 40 dollar kömək olunduğunu qeyd edir.

M.Ə.Rəsulzadə bu anketdə hər il Azərbaycana 3 emissarın göndərilməsi üçün 300 dollar, orada xalq arasında çağırış və vərəqələrin yayılmasına isə 100 dollara yaxın vəsaitin ayrıldığını bildirir.

**1933-cü il 8 mart** – M.Ə.Rəsulzadə 2 saylı Ekspozituranın rəhbəri olan polyak Xaraşkeviçlə görüşür, "Azərbaycan Milli Mərkəzi"nin fəaliyyəti ilə bağlı onu məlumatlandırır. Eyni zamanda Ə.M.Topçubaşov ailəsinin ciddi ehtiyac içində yaşadığını bildirir. Qeyd edir ki, Ə.M.Topçubaşovun böyük oğlu xarici sayıldığı üçün ona iş tapmaq mümkün deyil. Böyük qabiliyyəti olan kiçik oğlu isə məcburiyyətdən təhsilini dayandırıb. M.Ə.Rəsulzadə Xaraşkeviçi Ə.M.Topçubaşovun ailəsinə kömək etməyə razı salır.

**1933-cü il mart –** Varşavada yazdığı anketdə M.Ə.Rəsulzadə "İstanbulda Azərbaycanlı Tələbələr" Cəmiyyəti haqqında məlumat verir. Qeyd edir ki, bu cəmiyyət Türkiyədə təhsil alan tələbələrdən ibarətdir, 24 üzvü vardır. İdarə Heyətinin sədri Mehmet Əli bəydir (M.Ə.Rəsuloğlu). Bu, mədəni-maariflənmə və xeyriyyə formalı cəmiyyətdir. Öz üzvlərinə maddi və mənəvi dəstək verir. Əsasən də türk ictimaiyyətini Azərbaycan xalqının həyatı və mübarizəsi ilə tanış edir.

**1933-cü il 19 noyabr –** Varşavada "Azərbaycanda Milli Hərəkat" adlı çox əhəmiyyətli bir məqaləsini yazır və 1934-cü ilin yanvarın 12-də bu yazı 2 saylı Ekspozituraya daxil olur.

**1934-cü il noyabr –** Almaniyada, Berlində "Qurtuluş" jurnalını nəşr edir.

**1935-ci il 24 iyun, Paris –** M.Ə.Rəsulzadə Polşa Baş Qərargahı II Şöbəsinin 2 saylı Ekspoziturasının rəisi E.Xaraşkeviçə məktub yazır və bu məktubda Ə.M.Topçubaşovun ailəsinə təqaüdün verilməsinin davam etdirilməsi vacibliyini bildirir. Qeyd edir ki, bundan ötrü o, Ə.M.Topçubaşovun oğlu Ələkbər Topçubaşovu rus dilində nəşrini planlaşdırdıq-

ları jurnala redaktor təyin etməyi qərara alıb. M.Ə.Rəsulzadə bununla Ə.M.Topçubaşovun ailəsinə maddi dəstəyin göstərilməsini mümkün sayır.

**1936-cı il 17-26 aprel –** Parisdə Azərbaycanın, Povoljyenin, Uralın, Krımın, Şimali Qafqazın və Türküstanın müsəlman xalqlarının nümayəndələrinin iştirakı ilə qurultay keçirilir. Qurultay iştirakçıları “Rusiyada əzilən Türk Xalqları İttifaqı” adlı təşkilat yaradır. Aprelin 26-da Krımın türk müsəlman xalqlarının lideri Cəfər Seyidəhməd, Azərbaycandan M.Ə.Rəsulzadə, Mir Yaqub Mehdiyev, Mustafa Vəkilli, Şimali Qafqazdan M.G.Şuns, Povoljye və Uraldan A. İshaqi, Türküstandan M.Çokay razılaşır ki, qarşıdakı bir neçə ay ərzində qəbul edilmiş, protokola uyğun və həmin ili keçiriləcək qurultayda Daimi Şura yaradılsın. Bu işləri yerinə yetirmək üçün ittifaqın Baş katibi Cəfər Seyidəhməd, katib Mustafa Çokay seçilir. Təşkilatın gizli saxlanılması məqsədəuyğun hesab edilir.

**1936-cı il 24 may. Fransa, Paris, Henri Martin küçəsi, Kültür Fizik Klubu –** Azərbaycan, Gürcü və Şimali Qafqasiyalılarla, Rusiya əsarətində yaşayan digər xalqların da nümayəndələrinin iştirakı ilə toplantı keçirilir. Toplantını M.Ə.Rəsulzadə açır və mayın 11-də Şimali Qafqazın, 26-da Gürcüstanın, 28-də isə Azərbaycan ilə Ermənistanın istiqlallarını elan etdikləri münasibəti ilə hamını təbrik edir, həmin hadisənin əhəmiyyəti haqqında geniş məlumat verir. Təbrizdən gürcü nümayəndəsi A.İ.Çxenkeli, Azərbaycan nümayəndəsi Mir Yaqub Mehdiyev, erməni A.İ.Xatisyan, ukraynalı A.Şulqin, “Prometey”in redaktoru G.Qvazava çıxış edirlər.

**1936-cı il 5-7 avqust –** Polşanın Varşava şəhərində M.Ə.Rəsulzadənin ümumi rəhbərliyi ilə “Müsavat” Partiyasının konfransı keçirilir. Bu konfransda M.Ə.Rəsulzadə milli mübarizədə partiyanın siyasəti mövzusunda məruzə edir. Konfrans “Müsavat” Partiyasının siyasi platformasını, partiyanın xarici və daxili siyasətinə dair tezisləri və bir sıra başqa qətnamələri işləyib hazırlayır.

**1936-cı il 9 avqust –** M.Ə.Rəsulzadə Polşanın Parisdəki diplomatı və kəşfiyyatçısı İ.Skarjinskiyə müşayiət məktubu göndərir, “Müsavat” Partiyasının Varşavada keçirilən konfransı haqqında geniş məlumat verir.

**1936-cı il –** Almaniyada, Berlində “Çağdaş Azərbaycan ədəbiyyatı” kitabını Türkiyə türkcəsində, Parisdə isə rusca çap etdirir. Onun Parisdə fransızca “Azərbaycan” kitabı da nəşr edilir.

**1937-ci il 21 may – “**Azərbaycan problemi” mövzusunda 200-ə qədər adamın iştirak etdiyi Berlindəki Humbold Ali məktəbinin klubunda

maraqlı çıxış edir. Tədbirdə müxtəlif nazirliklərin, müəssisələrin, elm və mətbuat sahəsinin təmsilçiləri iştirak edir.

**1937-ci il 2-22 may –** Almaniyanın Berlin şəhərində olur. Almaniya Nasional Sosialist Fəhlə Partiyasının Xarici Siyasət İdarəsinin, Almaniya Təbliğat Nazirliyinin yüksək vəzifəli məmurları ilə görüşür. Müəyyən edir ki, bu dairələr Sovetlər Birliyində milli problemlərlə çox ciddi maraqlanır.

**1937-ci il –** Almaniyada almanca "Azərbaycan problemi" əsərini çap etdirir.

**1938-ci il –** Varşavada polyakca "Azərbaycan müstəqillik uğrunda mübarizədə" kitabını çap etdirir.

**1939-cu il avqust –** M.Ə.Rəsulzadə Ayaz İshaqi ilə birlikdə Rumıniyanın Dobruca bölgəsində, Köstəncə (Konstansa) şəhərində olur. Burada Dobruca Mədəniyyət Birliyinin onların şərəfinə keçirdiyi tədbirdə iştirak edir (O dövrdə, burada çoxlu sayda türklər yaşayırdı).

**1939-cu il 6 sentyabr –** M.Ə.Rəsulzadə II Dünya müharibəsinin başlaması və Polşanın sentyabrın 1-də almanların, sentyabrın 18-də isə sovetlərin işğalı üzərinə bu ölkəni tərk edir. Köstəncədə dostu, Türkiyəni Rumıniyada Böyükelçi olaraq təmsil etməyə gələn Həmdulla Sübhi Tanrıövəri qarşılayır və onunla birlikdə Buxarestə gedir. Burada 1945-ci ilin əvvəllərinə qədər yaxın dostu, Türkiyənin Rumıniyadakı Böyükelçisi Həmdullah Sübhi Tanrıövərin himayəsində "Kiryazi" otelində yaşayır.

**1941-ci il 10 avqust –** Rumıniyanın Buxarest şəhərində olur, Nizamiyə həsr etdiyi "Azərbaycan şairi Nizami (1141-1209)" əsərini yazır.

**1940-1943-cü illər –** Buxarestdə yaşayır. Almaniyada olur, azərbaycanlı əsirlərin xilasına çalışır. Almaniya hakimiyyət dairələri ilə danışıqlar aparır, "Azərbaycan Milli Komitəsi"ni yaradır, almanların əsirlərlə bağlı yaratdığı "Azərbaycan Milli Komissiyası"na başçılıq edir.

**1943-cü il 5 avqust –** Azərbaycan legionerləri qarşısında çıxış edir. Almaniya hökumətinin yürütdüyü siyasətlə razılaşmadığını bildirib bu ölkəni tərk edir.

**1944-cü il, 23 avqust –** Rumıniyanın 1944-cü ilin aprelində ABŞ təyyarələri tərəfindən bombalanmasından sonra burada baş verən bir çevrilişlə hökumət devrilir. Yeni hökumət ruslarla atəşkəs elan edir. Bu vəziyyətdə M. Ə. Rəsulzadə Buxaresti tərk etmək məcburiyyətində qalır.

**1945-ci il –** Rumıniya işğal edildikdən sonra Avstriyaya gəlir, "İmperial" mehmanxanasında yaşayır, sonra Almaniyanın Mittenvald bölgəsindəki qaçqın düşərgəsində olur. Burada "Azərbaycan Demokrat Birliyi"ni yaradır. Bu birliyin də başlıca məqsədi azərbaycanlıları xilas

etmək, onların sovet dövlətinə verilməsinin qarşısını almaq idi. Çünki sovet dövləti legionerlərin çoxunu ya həbs edir, ya da güllələyirdi.

**1946-cı il 5 avqust –** Müvəqqəti yaşadığı Mittenvald bölgəsindən dostu, Türkiyənin Rumıniya Böyükelçiliyində 4 il hərbi attaşe olaraq çalışmış, (1940-cı ilin 23 iyunundan 1944-cü ilə qədər) albay Kənan Kocatürkə məktub yazır və özünün də, buradakıların da Türkiyəyə getmək istəyində olduğunu bildirir. O, bu məktubu Türkiyəyə Almaniyadakı düşərgəyə qaçqın işləri üzrə səlahiyyətli nümayəndə olaraq gəlmiş İhsan bəy vasitəsi ilə göndərir.

**1947-ci il –** Münhendə 30 səhifəlik "Azərbaycan tarixi" kitabını çap edib, azərbaycanlılar arasında yayır. "Azərbaycan-Türkiyə" Cəmiyyəti yaradıb azərbaycanlıların Türkiyəyə getməsini təmin edir.

**1947-ci il 8 iyul –** M.Ə.Rəsulzadənin Türkiyədə dostlarına yazdığı məktublar təsirini göstərir. Dostları (başda Həmdullah Sübhi Tanrıövər olmaqla) onun Türkiyəyə qayıtması üçün Xariciyyə vəkili ilə görüşüb razılaşır. Türkiyə Prezidenti İsmət İnönünün sərəncamı ilə Türkiyəyə qayıtmasına icazə verilir. Bildirilir ki, qərar Daxili İşlər Nazirliyinin 18.06.1947-ci il tarixli və 88717/249 saylı yazısı ilə verilən təklifə əsasən, 3519 saylı qanunun 22-ci maddəsinə əsasən Bakanlar Kurulunun 8.07.1947-ci il tarixində qərarlaşdırılıb. Həmin dövrdə Bakanlar Kurulu qərarı ilə M.Ə.Rəsulzadə Türk vətəndaşlığına qəbul edilir və 1947-ci ilin sentyabrında Türkiyəyə gedir.

**1949-cu il 2 fevral –** Ankarada "Azərbaycan Kültür Dərnəyi"ni yaradır.

**1949-cu il –** Ankarada "Azərbaycan Kültür Gələnəkləri" kitabı çap edilir.

**1949-cu il –** Həmin dövrdən M.Ə.Rəsulzadə Milli Təhsil Nazirliyində Yayım Müdirliyində və Milli Kitabxanada çalışmağa başlayır.

**1950-ci il –** "Çağdaş Azərbaycan ədəbiyyatı" kitabı çap olunur.

**1951-ci il –** Türkiyənin elmi ictimaiyyətində böyük marağa səbəb olan "Azərbaycan şairi Nizami" əsərini nəşr etdirir.

**1951-ci il 18 yanvar –** ABŞ dövlətinin dəstəyi ilə "SSRİ Xalqlarının Azadlığı Uğrunda Amerika Komitəsi" yaradılır və Komitənin rəhbəri İ.Don-Levin M.Ə.Rəsulzadəni İtaliya və Almaniyaya dəvət edib onu əməkdaşlığa çağırır.

**1951-ci il –** Münhendə "Amerika Komitəsi"nin təşkilatçılığı ilə konfrans keçirilir və M.Ə.Rəsulzadənin başçılıq etdiyi "Azərbaycan Milli Mərkəzi" Məhəmməd Kəngərlinin timsalında tədbirdə təmsil edilir.

**1952-ci il 1 aprel –** M.Ə.Rəsulzadənin rəhbərliyi ilə “Azərbaycan” jurnalı nəşrə başlayır.

**1952-ci il 11-16 dekabr –** Münhendə Ümumqafqaz Konfransı keçirilir və M.Ə.Rəsulzadə burada çıxış edir.

**1953-cü il may** – “Amerika Komitəsi”nin dəvəti ilə M.Ə.Rəsulzadə Almaniyaya gedir. Azərbaycanın İstiqlalının 35 illiyi münasibəti ilə “Amerikanın səsi” radiosunda çıxış edir və səsi vala yazılıb ona bağışlanır.

**1953-cü il 30 may –** İstanbulda İstanbul Universitetinin böyük qəbul zalında türk dünyasının digər tanınmış şəxsiyyətləri ilə birgə M.Ə.Rəsulzadənin də jurnalist fəaliyyətinin 50 illiyi təntənə ilə qeyd edilir. Tədbiri ilkin olaraq Türkiyənin Xalq Maarif Naziri Rıfki Səlim Burçak açır və M.Ə.Rəsulzadəni, digərlərini salamlayır. Türkiyə Jurnalistlər Cəmiyyətinin sədri Həqqi Tariq, yaxın dostu Həmdulla Sübhi Tanrıövər çıxış edib, M.Ə.Rəsulzadənin fəaliyyətini yüksək dəyərləndirirlər. Sonra özü çıxış edir və səsi lentə yazılır. İki gün sonra keçirilən əsərlərinin sərgisində tamaşaçılar ənənəyə görə onun da səsini dinləyir.

**1954-cü il 27 may –** Türkiyədə nəşr edilən “Dünya” qəzetinin 5-ci sayında “Stalinlə ixtilal xatirələri”ni çap etdirir. Bu xatirələrin nəşri qəzetin 15-16 iyunda çap olunan 25-26-cı sayına qədər davam edir. Onun bu xatirələri türk ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanır.

**1955-ci il 6 mart –** M.Ə.Rəsulzadə Ankarada 71 yaşında dünyasını dəyişir, “Əsri” məzarıstanlığında dəfn edilir.

**1955-ci il mart-aprel –** Ölümündən sonra “Azərbaycan Kültür Dərnəyi” İdarə Heyəti M.Ə.Rəsulzadənin qəbrini düzəltdirmək, əsərlərini çap etdirmək üçün fond təsis edir. Fondun İdarə Heyətinə aşağıdakılar daxil olur: Rəsul Ünsal, Kərim Odər, Həmid Ataman, T.Cüm. Ziraət Bankası, Ankara Mərkəz müdirliyi nəzdində “Mehmet Əmin Rəsulzadəni Yaşatma Fondu” adı ilə 6021 saylı hesab açılır.

## ANADAN OLDUĞU NOVXANI KƏNDİ

**Novxanı kəndi** Abşeron rayonunda yerləşir. Ərazisi 26,97 kv km-dir (XVIII əsrdə təxminən 100 kv km idi). Əhalisi 8500 nəfərə yaxındır. Azərbaycan çar Rusiyası tərəfindən işğal edildikdən sonra 1813-1816-cı illərdə siyahıya alınmanın nəticələrinə görə Novxanıda 115 ailə qeydə alınıb. Bu siyahıda M.Ə.Rəsulzadənin ulu babası Rəsul 59-cu sırada göstərilib. Onun 1 evi, 2 oğlu, 3 qızı olduğu bildirilir. Bu ailənin 2 iribuynuzlu, 11 kiçik buynuzlu mal-qarası və 1 meyvə bağının mövcudluğu qeyd edilib. Novxanının 9 saylı kənd olduğu və sahibinin də Hacı Nurməhəmməd bəy olduğu bildirilir.

1832-ci ildəki siyahıya alınmanın nəticələrinə görə Novxanıda 192 ailə (cəmi 1188 nəfər) qeydə alınıb.

Alimlərin əksəriyyəti Novxanı kəndinin yaranmasını Siyan və yaxud Siyangöl yaşayış məskəninin dağılması ilə əlaqələndirir.




Vaxtı ilə Siyan şor gölünün cənub-şərqində (indiki "Binəqədi Qil Company" şirkətinə məxsus yer vaxtilə Novxanı kəndinin ərazisi olub) orta əsrlərə aid Siyangöl şəhər tipli böyük qəsəbə aşkar edilmişdi. Qazıntılar zamanı qədim kəndin ərazisində IX-XVI əsrlərə aid əşyalar tapılıb. Müəyyən edilib ki, burada hələ Tunc dövründə insanlar yaşayıb. XVI əsrdə Xəzərin səviyyəsinin qalxması və burada neft hasilatına başlanması ilə əlaqədar əhali yeni yaşayış yerinə köçüb. Bu yeri isə Novxanı ("Nov" – təzə, "xana" – ev deməkdir) adlandırıblar.

1813-cü ilin siyahısına görə, Abşeronda aparılan siyahıya alınma burada Maştağadan sonra ən böyük kəndin Novxanı olduğunu göstərmişdi.

1832-ci ildə Novxanıda 10 000 hektar torpaq sahəsi olub. Burada əkinçilik, üzüm bağları, zəfəran tarlaları, bostan üçün ayrıca yer olmuşdur. Burada evlərdə xalça, palaz toxunub, parçadan, zərbaftadan

tikmələr yaradılıb. Bundan əlavə qoyunçuluq, taxılçılıq, bağçılıq da inkişaf etmişdir. Novxanılılar heç vaxt bağa çəpər çəkməz, həyətə qıfıl vurmazlarmış. Əhali dindar olub, şiə təmayüllüdür.

Eramızın əvvəllərindən türksoyluların yarımadaya yeni axını daha da gücləndi. Novxanı kəndində də türksoylular həmişə əksəriyyət təşkil etmişlər. Novxanının memarlıq abidələri kompleksinə Şah Soltan Hüseyn məscidi (təxmini 1750-ci il), Hacı Səfəralı məscidi (1865-ci il), Axund Əbil sərdabəsi (1850-1870-ci illərdə tikilib) və müxtəlif dövrlərə aid ovdanlar mövcuddur.

Novxanı mühitindən çoxlu sayda elm, din, ədəbiyyat xadimləri çıxmış və şöhrətləri bütün dünyaya yayılmışdır.

***"Novxanı. Sərvətimiz şəxsiyyətlərimizdir". Bakı, 2010,səh.283-287.***

# NƏSLİ, AİLƏSİ HAQQINDA


əlavə 1

1813-1816-cı illərdə siyahıya alınmanın nəticələri

| 9 saylı kənd- Novxanı Sahibi:Hacı Nurməmməd bəy | | Ev | Adamlar | | Dava | At | Malqara | | Meyvə Bağları |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | K | Q | | | İri b. | k.b | |
| 1 | Hacı Nurməmməd bəy | 1 | 7 | 3 | ---- | -- | ---- | ---- | -- |
| 2 | Məmməd bəy | 1 | 1 | 5 | 3 | 6 | 5 | 91 | 1 |
| | Sakinlər | | | | | | | | |
| 1 | Kərbəlayi Qulı | 1 | 2 | 3 | 4 | 2 | 4 | 101 | 1 |
| 2 | Xanməmməd | 1 | 5 | 2 | 6 | 1 | 5 | 150 | 1 |
| 3 | Mirzəəli | 1 | 3 | 2 | ---- | 1 | 4 | 40 | 1 |
| 4 | Allahverdi | 1 | 2 | 1 | ---- | 1 | 3 | 31 | 1 |
| 5 | Nurməmməd | 1 | 4 | 1 | ---- | 1 | 2 | 21 | 1 |
| 6 | Mirzə | 1 | 1 | 2 | ---- | 1 | 3 | ---- | -- |
| 7 | Seyidrza | 1 | 2 | 3 | ---- | 1 | 5 | ---- | 1 |
| 8 | Məhərrəm | 1 | 1 | 2 | ---- | 2 | 3 | 21 | 1 |
| 9 | İmamnəzər | 1 | 2 | 2 | ---- | 1 | 2 | ---- | 1 |
| 10 | Ərəb | 1 | 2 | 1 | ---- | 1 | 3 | 1 | 1 |
| 11 | Məmmədəli | 1 | 5 | 3 | ---- | 1 | 1 | 15 | -- |
| 12 | Heybət | 1 | 5 | 1 | ---- | 1 | 3 | 1 | 1 |



| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 49 | Haciağa | 1 | 4 | 2 | ---- | 1 | 3 | 1 | 1 |
| 50 | Əlimurad | 2 | 4 | 2 | ---- | -- | 5 | 2 | -- |
| 51 | Kərbəlayi Əliqulı | 1 | 3 | 2 | ---- | -- | 6 | 1 | -- |
| 52 | Allahverdi | 1 | 4 | 5 | ---- | 2 | 4 | ---- | -- |
| 53 | Məmməd | 1 | 2 | 1 | ---- | 1 | 2 | ---- | -- |
| 54 | Yəhya | 1 | 3 | 2 | ---- | -- | 2 | 1 | -- |
| 55 | Məmmədrahim | 1 | 3 | 3 | ---- | -- | 3 | 1 | -- |
| 56 | Xudaverdi | 1 | 4 | 2 | ---- | 1 | 2 | ---- | -- |
| 57 | Əbdürrəhman | 1 | 1 | -- | ---- | 1 | 2 | ---- | 1 |
| 58 | Ağasami | 1 | 3 | 2 | ---- | -- | 2 | 2 | -- |
| 59 | Rəsul | 1 | 2 | 3 | ---- | -- | 2 | 11 | 1 |
| 60 | Bağır | 1 | 2 | 1 | ---- | 2 | 3 | 1 | -- |
| 61 | Məmmədşəfi | 1 | 4 | 1 | ---- | -- | 3 | 21 | -- |

***1813-1816-ci ildə aparılan siyahıya alınmada babası Rəsul 59-cu sırada***

**Babası –** Məhəmmədrəsul Rəsulzadə. Üç övladı olub: Ələkbər, Əbdüləziz, Dostuxanım. Məhəmmədrəsulun böyük oğlu Ələkbər Məhəmməd Əmin Rəsulzadənin atasıdır. Digər oğlu Əbdüləzizin üç övladı olub – Məhəmmədəli, Ümbülbanu, Ümgülsüm. Məhəmməd Əmin Rəsulzadə Əbdüləzizin – öz əmisinin böyük qızı – Ümbülbanu ilə evlənib. Ümbülbanu xanımın bacısı isə tanınmış şairə Ümgülsümdür ki, onun da həyat yoldaşı yazıçı Seyid Hüseyn olub. Məhəmmədrəsulun qız övladı olan Dostuxa-nım isə (M.Ə.Rəsulzadənin bibisi) 1930-cu ildə vəfat edib, onun övladı olmayıb.

Məhəmmədrəsulun Novxanıdan başqa, həm də Bakıda – indiki “Nizami” metrostansiyasının yerində böyük mülkü olub.

**Atası –** Axund Hacı Molla Ələkbər Rəsulzadə. Novxanı kəndinin çox tanınmış axundu olub. 1926-cı ildə dünyasını dəyişib. Məzarı Novxanı kənd qəbirstanlığındadır. M.Ə.Rəsulzadənin İstanbulda nəşr etdiyi “Yeni Qafqasiya” jurnalının 1927-ci ildəki sayında onun ölümü haqqında məlumat verilib.




*Anası Maral xanımın şəxsiyyət vəsiqəsi*

**Anası** – Zal qızı Ziynət rəhmətə gedib. Analığı Maral xanım Məhəmməd Əminə və bacısı Şəhrəbanı xanıma doğma övladları kimi baxıb. Çox alicənab olan Maral xanım 1929-cu ildə Kərbəla ziyarətinə gedib. 1937-ci ildə Qazaxıstana sürgünə göndərilib və orada vəfat edib.



**Bacısı** – Şəhrəbanu xanım. M.Ə.Rəsulzadənin yeganə bacısı olub. Təqiblər, sıxıntılar onun həyatına 1934-cü ildə son qoyub. Qızı Kübra xanım M.Ə.Rəsulzadənin oğlu Rəsula nişanlanıb. Sonradan Rəsul güllələndiyindən onlar ailə həyatı qura bilməyib.



**Həyat yoldaşı Ümbülbanu xanım** – M.Ə.Rəsulzadənin həyat yoldaşı olan bu xanım onun əmisi qızı idi. 1888-ci ildə anadan olub. M.Ə.Rəsulzadə onunla 1908-1909-cü illərdə ailə qurub. Ümbülbanu xanım 1920-ci ildən sonra təqiblərlə dolu həyat yaşamasına baxmayaraq M.Ə.Rəsulzadənin fəaliyyətinə haqq qazandırıb, onu müdafiə edib. Oğlu Rəsul güllələndikdən sonra ailəsi ilə birlikdə əvvəl Qazaxıstanın Çolak-Kurqan yaşayış məntəqəsində, sonradan isə Taldı-Kurqanda – sovxozda məskunlaşıblar. Oğlu Rəsulun ölümünü unuda bilməyən Ümbülbanu xanımın ağır sürgün həyatında ürəyi partlayıb, 1939-cu ildə dünyasını dəyişib, elə orada da dəfn edilib.



**Qızı Lətifə** - M.Ə.Rəsulzadənin ilk öladı və böyük qızı olub. 1910-cu ildə anadan olub. 1929-cu ildə əslən Lahıcdan olan Damad Müslümzadə ilə ailə qurub. 1939-cu ildə həyat yoldaşını "Müsavat" Partiyası ilə əlaqəyə görə həbs ediblər. 1941-ci ildə isə onu övladları Firuzə və İşvə ilə Qazaxıstana –

Semipalatinsk vilayətinə sürgünə göndəriblər. Üçüncü övladı Sona isə xəstə olduğundan sanatoriyada saxlanılıb. Lətifə xanımla qızı İşvə Qazaxıstanda 1943-cü ildə soyuqdan və aclıqdan donub ölür. Firuzə isə təsadüfən sağ qalır. Lətifənin Bakıda qalan qızı Sonadan isə heç bir xəbər alınmır. Ehtimala görə, o da xəstəlikdən sağalmayıb və dünyasını dəyişib.



**Qızı Xalidə** - M.Ə.Rəsulzadənin kiçik qızı Xalidə (1916-cı ildə anadan olub) anasının ölümündən sonra Qazaxıstanda – Taldı-Kurqanda qala bilmir. Həyatını riskə ataraq 1943-cü ildə sürgündən qaçıb Bakıya gəlir. Bir müddət Seyid Hüseynin evində qalır, sonra buranın nəzarətdə olduğunu hiss edib, Şamaxı istiqamətinə gedir və sonradan ondan heç bir məlumat alınmır..



**Oğlu Rəsul –** M.Ə.Rəsulzadənin iki oğul övladı olub. Rəsul və Azər. Oğlu Rəsul 1918-ci ildə anadan olub. Texnikumda təhsil alıb. Rəsulun şeir yazmaq istedadı da olub. 1934-cü ildən təqib edilib. 1937-ci ilin iyulun 15-də Novxanıdakı bağlarında həbs olunaraq 19 yaşında güllələnib.



**Oğlu Azər –** kiçik oğlu Azər M.Ə.Rəsulzadə həbsdə olarkən 1920-ci ildə doğulub. M.Ə.Rəsulzadə Stalin onu Moskvaya apararkən evə gedib, ailəsi ilə görüşə bilib. İki aylıq uşağın adını dəyişib (əvvəl adı Əliheydər olub) Azər qoyub. 1937-ci ildə sürgünə göndərilən Azər 1993-cü ildə Qazaxıstanda – Karaqandada dünyasını dəyişib və gətirilb Novxanı məzarıstanlığında dəfn edilib.



**Nəvəsi Rəis Rəsulzadə -** Azər bəyin oğludur. 1946-cı ildə sürgündə - Qazaxıstanın Taldı-Kurqan bölgəsində anadan olub, orta təhslini də orada – Karaqandada alıb. Azərbaycan Respublikasının Əməkdar rəssamıdır. Hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetində dosent olaraq çalışır.



**Həbs edilən qohumları –**1937-ci il hadisələrində M.Ə.Rəsulzadənin nəinki ailəsi, eyni zamanda əksər qohumları da həbs edildi, sürgünə göndərildi. Bacanağı, tanınmış yazıçı Seyid Hüseynə 1937-ci ildə 10 il həbs cəzası verildi, sonradan isə güllələndi. Seyid Hüseynin həyat yoldaşı şairə Ümgülsüm xanım həbs olunaraq 8 il azadlıqdan məhrum edildi, uzaq Mordovaya göndərildi. Övladları Seyid Hüseynin bacısı qızı Səyyarə xanımın himayəsində yaşadı.

M.Ə.Rəsulzadənin digər qohumunun - Məhəmməd Əli Rəsuloğlunun da ailəsinin aqibəti acınacaqlı olub. M.Ə.Rəsulzadənin yaxın əqidə dostu olan M.Ə.Rəsuloğlu onun əmisi oğlu və "Müsavat" Partiyasının qurucusu idi. Özü mühacirətə getdikdən sonra həyat yoldaşı Raziyə xanımı üç övladı ilə birgə Qazaxıstana sürgünə göndərdilər.

**Qeyd 1 –** M.Ə.Rəsulzadə böyük cəhdlə ailəsini xilas etməyə - Türkiyəyə gətirməyə çalışıb. Oğlu Azərin dediyinə görə, hətta bir dəfə (bu təxminən 1925-1926-cı illərdə olub) qatara minib getməyə də hazırlaşıblar. Lakin M.Ə.Rəsulzadənin atası Axund Hacı Ələkbər məsləhət bilməyib və onlar Bakıda qalıblar. 1932-ci ilə qədər isə M.Ə.Rəsulzadə müxtəlif adamlarla ailəsinə maddi yardımlar göstərib, hətta geyim, paltar da alıb göndərib. Sonradan sərhədlər bağlandığından bu mümkün olmayıb. Bakıda gizli fəaliyyət göstərən müsavatçılar isə imkan daxilində M.Ə.Rəsulzadənin ailəsinə müəyyən köməklik edib.

**Qeyd 2 –** M.Ə.Rəsulzadə ailəsinin sürgünə göndərildiyini və həyat yoldaşının da vəfat etdiyini öyrəndikdən sonra polyak əsilli Vanda xanımla ailə qurub, birgə yaşayıb. Hər ikisi Ankaradakı milli kitabxanada çalışıb. Onların bu evlilikdən övladları olmayıb. Vanda xanım 1885-ci ildə Varşavada anadan olub, Varşava Universitetini bitirib. Onun Marşal Pilsudski ilə, eyni zamanda 1930-cu illərdə Polşanın Xarici İşlər Naziri olmuş Beklə qohumluq əlaqəsinin olduğu bildirilir. O, 1974-cü ildə dünyasını dəyişib və Ankara şəhərindəki "Cəbəçi" məzarıstanlığında dəfn edilib.



***Leyla (Vanda) Rəsulzadə***



ПАСПОРТ

Действителен по 20 декабр 1940.

1. Имя, отчество, фамилия Расулова Умбулбану

2. Время и место рождения 1888 Баку

3. Национальность

4. Социальное положение

5. Постоянное местожительство Баку

6. Отношение к военной службе —

7. Собственноручная подпись владельца паспорта

ЖГ №101609



ПАСПОРТ

Действителен на 1940 г. 20 декабря.

1. Имя, отчество, фамилия Расулова Халида

2. Время и место рождения 1916 г. Баку

3. Национальность

4. Социальное положение

5. Постоянное местожительство Баку

6. Отношение к военной службе

7. Собственноручная подпись владельца паспорта

ЖГ №101605



ПАСПОРТ

Действителен на ОДИН год — BIR IL

Владельцем настоящего паспорта является:
Bu pasportun sahibi:

1. Фамилия, имя и отчество
1. Familjasь, adь və atasьnьn adь Расул Заде Азер Мамед

2. Время и место рождения
2. Anadan olduqu vaqt və jer 1920 Баку

3. Национальность
3. Millijjəti Азербайджан.

4. Социальное положение
4. Içtima'i vəzijjəti учащ.

5. Постоянное место жительства
5. Həmişəlik jaşadьqь jer Баку

6. Отношение к военной службе
6. Hərbi qulluqa munasəbəti Допризыв.

7. Собственноручная подпись
7. Pasport sahibinin ez əli ilə imzasь

ДЖА №138596

М. П.
М. J.

Дата выдачи
Verilmənin tarixi 16/X 37

*Həyat yoldaşı Ümbülbanu xanımın, qızı Xalidənin, oğlu Azərin şəxsiyyət vəsiqələri*

# TƏHSİL ALDIĞI "RUS-TATAR MƏKTƏBİ"

**1887-ci ildən** başlayaraq Bakıda yeni Avropa tipli məktəblər açılır. Bu cür məktəblərə xalq arasında "üsuli-cədid" məktəbi də deyirdilər. Bakıda ilk təşəbbüs göstərib belə məktəbi açan iki azərbaycanlı ziyalı olub: Tiflisdə Aleksandr İnstitutunu bitirib Bakıya qayıtmış **Sultan Məcid Qənizadə və Həbib bəy Mahmudbəyov.** Bu məktəbdə ana dili, fars dili ilə yanaşı rus dili də tədris edilirdi. Odur ki, məktəb "Rus-tatar məktəbi" adlanırdı. İlk vaxtlar məktəbdə 50 şagird oxuyurdu və hər uşaqdan ayda 3 manat pul alınırdı. Lakin müəllimlər şagirdlərin 25 faizinə pulsuz dərs deyirdilər. Dərsləri əsasən S. M. Qənizadə və H. Mahmudbəyov aparırdı. Sonradan şagirdlərin sayı artmış, məktəb böyümüşdü. İlk vaxtlar isə dərs kitabları olmadığından hər iki müəllim dərslik də yazmağa məcbur idilər. "Rus-tatar məktəbi"nin başlıca məqsədi "realnı" məktəbə şagird hazırlamaq idi. 1889-cu ildə Şəhər idarəsi məktəb binasının kirayəsi üçün hər ilə məktəbə 6000 manat pul ayırdı. 1891-ci ildə isə "Rus-tatar məktəbi" Dumanın sərəncamına keçdi. Əlavə olaraq 7 belə məktəb açıldı. Açılan məktəblərdən biri Çəmbərə kəndində, o biri isə Zərgər Palanında idi. Çəmbərə kəndindəki məktəbin müdiri Sultan Məcid, Zərgər Palanındakı məktəbin müdiri isə Həbib bəy Mahmudbəyov idi. 1907-ci ildə isə rus-tatar məktəbləri üç illik təhsildən dörd illik təhsilə keçir. Qaydaya görə rus-tatar məktəblərində dərs deyən müəllimlər Qori seminariyasını bitirməli idi. Xarici dil fənlərini tədris edənlərin isə universitet təhsili olmalı idi.

Qeyd edək ki, bu məktəblərdə aşağıdakı fənlərin tədrisinə üstünlük verilirdi**: rus dili, riyaziyyat, coğrafiya, tarix, təbiət, fizika, rəsmxət və əl işi.** Eyni zamanda bu məktəblərdə başqa xalqların nümayəndələrindən olan müəllimlər də dərs keçirdi. M.Ə.Rəsulzadə yazırdı ki, bizə riyaziyyatdan dərs deyən müəllim əslən polyak olan Boyçovski idi.

Araşdırılan məlum olur ki, bu məktəblərdə yüksək səviyyədə dərslər tədris edilirdi.

***Bax: Qılman İlkin. Bakı və bakılılar. B., 1999, səh. 178-179.***

## YAŞADIĞI VƏ İSTİQLAL MÜCADİLƏSİ APARDIĞI ÖLKƏLƏR

**1. Azərbaycan Respublikası**
a) 1884-1902-ci illər; Novxanı, Bakı;
b) 1903-1908-ci illər; Bakı;
c) 1913-1920-ci illər; Bakı.

**2. İran İslam Respublikası**
a) 1909-1911-ci illər; Tehran, Təbriz, Rəşt, Urmiyə, Mərənd.

**3. Türkiyə Cümhuriyyəti**
a) 1911-1913-cü illər; İstanbul;
b) 1918-ci il, iyul-avqust-sentyabr; İstanbul;
c) 1922-1930-cu illər; İstanbul;
ç) 1948-1955-ci illər; Ankara.

**4. Gürcüstan Respublikası**
a) 1918-ci il, aprel-may-iyun; Tbilisi, Batum;

**5. Rusiya Federasiyası**
a) 1917-ci ilin mayı; Moskva;
b) 1920-1922-ci illər; Moskva;
c) 1922-ci il, iyul; Sankt-Peterburq.

**6. Finlandiya Respublikası**
a) 1922-ci il avqust; Helsinki.

**7. Almaniya Federativ Respublikası**
a) 1932-1934-cü illər; Berlin;
b) 1942-1943-cü illər; Berlin;
c) 1945-1947-ci illər; Mittelvald.

**8. Polşa Respublikası**
a) 1930-1939-cu illər; Varşava.

**9. Rumıniya Respublikası**
a) 1940-1944-cü illər; Buxarest.

**10. Fransa Respublikası və İsveçrədə müxtəlif illərdə olub, tədbirlərdə iştirak edib.**

***Qeyd: M.Ə.Rəsulzadə 71 illik ömrünün 31 ilini Azərbaycanda, qalan 40 ilini isə müxtəlif ölkələrdə yaşayıb, Azərbaycanın müstəqillik mübarizəsini aparıb.***

# AZƏRBAYCANDA FƏALİYYƏTİ



*Fəaliyyətinin ilk illərində*

**Məhəmməd Əmin Rəsulzadə 1884-cü ilin yanvar ayının 31-də Bakının Novxanı kəndində ruhani ailəsində doğulub.** Atası axund Hacı Ələkbər dindar olmasına baxmayaraq müasir fikirlərə sahib insan idi və oğlunun yüksək təhsil almasında maraqlı idi. M.Ə.Rəsulzadə ilk təhsilini Sultan Məcid Qənizadənin müdirlik etdiyi "İkinci Rus-Tatar məktəbi"ndə aldıqdan sonra "Bakı-Texniki məktəb"ə daxil olmuşdur. Burada bir qədər oxuduqdan sonra təhsilini yarımçıq qoyub, bütün fəaliyyətini siyasətə yönəltmişdir. Hətta ona bu siyasi işlərdən uzaqlaşmağı təlqin edənlərə sonradan belə məzmunda bir şer də yazmışdı:

***Çəkilməm ey hərifan mən,***
***Bu meydani siyasətdən.***
***Bütün dünya mənə derkən***
***Çəkil bir yanə, sakitləş!***

1902-1903-cü illərdə M.Ə.Rəsulzadə üzvləri müxtəlif rus litseylərində və digər orta məktəblərdə oxuyan azərbaycanlı türk tələbələrindən ibarət gizli bir dərnək yaratmışdı. Dərnəyin fəaliyyəti haqqında M.Ə.Rəsulzadə yazırdı: "Bu dərnək mənsublarının milli hisslərini təhrik etmək, rus məktəblərində oxudulmayan türkləri öz-özünə irəlilətmək, yerli ədiblərin əsərlərini oxumaq, çarlıq əleyhinə yazılmış ixtilal şerlərini əzbərləmək və arada-sırada mətbəə üsulu ilə basılmış bəyannamələr dağıtmaq, işçilər arasına gedərək hürriyyət və inqilab fikirlərini bunların arasında sistemli surətdə yaymaq kimi fəaliyyətlər də olurdu" (1, s. 13-14).

M.Ə.Rəsulzadənin yaratdığı həmin dərnək "Müsəlman Gənclik Təşkilatı" adı altında müəyyən fəaliyyət gostərdikdən sonra Rusiya hökumətindən milli mədəni hüquqlar almaq ümidində idi. Onlar "çarizmə qarşı mübarizədə inqilabçı sosializmi ən sadiq olmasa da, ən münasib bir müttəfiq olaraq gördüyündən" (2, s. 30) sosial-demokratlarla yaxın işbirliyinə keçmişdilər.

M.Ə.Rəsulzadənin o zaman yaratdığı **“Müsəlman Gənclik Təşkilatı”**nın təşviqat-təbliğat işində “Hümmət” qəzeti mühüm rol oynamışdı. 1904-cü ilin axırlarından 1905-ci ilin fevralınadək bir neçə yüz nüsxə tirajla nəşr edilən qəzetin 5-6 sayı çıxmış, 1917-ci ilin iyulun 3-dən isə N.Nərimanovun redaktorluğu ilə bu mətbu orqan yenidən nəşrə başlamışdı.



***M.Ə.Rəsulzadə 1904-1905-ci illərdə (sağdan birinci)***

M.Ə.Rəsulzadə “Hümmət”in Qafqazda türk (Azərbaycan) mətbuatı arasında ilk partiya orqanı olduğunu göstərmişdir. “Hümmət”in həmin illərdə nəşr olunmuş nüsxələrindən yalnız birində - 3-cü sayında (1905-ci il) M.Ə.Rəsulzadənin bir məqaləsi hələlik tapılmışdır. Həmin məqalə 1917-ci ildə “Açıq söz” qəzetinin 5 iyul tarixli sayında (№513) çap edilmişdir (3, № 513, 1917).

Qeyd edək ki, azərbaycanlı fəhlələri geniş dairədə inqilabi mübarizəyə cəlb etmək **məqsədilə 1904-cü ilin axırlarında RSDFP-nin Bakı Komitəsi nəzdində “Müsəlman sosial-demokrat “Hümmət” qrupu yaradıldı (4, s.63).** “Hümmət”in baniləri arasında M.Ə.Rəsulzadə, N.Nərimanov, M.Əzizbəyov, M.H.Mövsümov, M.H.Hacınski və başqaları vardı. Müsavat Partiyasının yaradıcılarından olan Abbasqulu Kazımzadə, Kərbalayı Mikayılzadə də “Hümmət” təşkilatının keçmiş üzvlərindən idi.

“Hümmət” Bakı partiya təşkilatının ayrılmaz tərkib hissəsi idi və Bakı Bolşevik Komitəsinin azərbaycanlı fəhlələr arasında işləyən şöbəsi hüququ ilə fəaliyyət göstərirdi. S.M.Əfəndiyev yazırdı: “Bizim partiyamız “Hümmət” məsələsində öz əsas prinsipinə, yəni partiyanın və fəhlə hərəkatının vahid və bölünməz olması prinsipinə sadiq qaldı” (5, s.16).

Lakin az keçməmiş 1905-ci ildə Rusiyada başlanan Birinci Rusiya İnqilabından sonra M.Ə.Rəsulzadə və silahdaşları bolşeviklərin məram və məqsədlərindən Azərbaycana heç bir fayda olmayacağını başa düşüb onlardan uzaqlaşdılar. 1907-ci ildə “Hümmət”in bağlanmasına qərar verildi (6, s. 32).

Bu dövrdə mətbuat geniş vüsət alır, inkişaf edir, ictimai-siyasi fikrin təşəkkülünə təkan verirdi. Mətbuata maraq həm də milli mənliyin dərk edilməsində oynadığı mühüm əhəmiyyəti ilə bağlı idi. Elə həmin

illərdə **M.Ə.Rəsulzadənin ilk mətbu yazısı 1903-cü ildə Tiflisdə çıxan "Şərqi Rus" qəzetində çap olundu.** "Bakıdan məktub" başlığı altında nəşr edilən bu məqalədə M.Ə.Rəsulzadə elmin, təhsilin, məktəbin vacibliyinə toxunaraq yazırdı: "Qafqaz Müsəlman əhalisindən ümumi və Bakı əhlindən xüsusi təvəqqe edirəm ki, öz uşaqlarından balaca olan vaxtda elm və tərbiyə kəsb etməkdən başqa bir şey mənzur (məqsəd, niyyət) tutmasınlar. Məsələn, hər kəsin ki, qüvvəsi çatır uşağını məktəbə qoymağa, məbada-məbada palçıxçı, dükan şagirdi və qeyrə və qeyrəyə razı olsun" (7).

Mövcud mühitə, rus istibdad rejiminə qarşı mübarizəsi baxımından M.Ə.Rəsulzadənin ilkin dövr fəaliyyətini və mətbu yazılarını öyrənmək əhəmiyyətlidir. "Şərqi Rus", "Hümmət", "Dəvət Qoç", "Təkamül", "İrşad" və digər mətbuat orqanlarında M.Ə.Rəsulzadənin mövcud rejim əleyhinə onlarla yazısı çap olunub. **1909-1913-cü illərdə isə M.Ə.Rəsulzadə İranda, Türkiyədə olub, orada geniş fəaliyyət göstərib.**

**1913-cü** ildə Romanovlar sülaləsinin 300 illiyi ilə bağlı verilən əfvi-ümumidən (ümumi bağışlamadan) sonra M.Ə.Rəsulzadə Bakıya qayıtdı.

Qeyd edək ki, bu dövrdə artıq Bakıda "Müsavat" Partiyası qurulmuş və çar hökuməti əleyhinə ciddi mübarizə aparılırdı. M.Ə.Rəsulzadə Bakıya qayıtdıqdan sonra "Partiyanın rəhbərliyinə keçərək, onun proqramını yeni siyasi şəraitə uyğun şəkildə işləyib hazırladı, partiyanı türk-islam sintezini əsas tutan türkçü bir quruluş halına gətirdi" (8, s. 65).

Qeyd edək ki, "**Müsavat" Partiyasının əsası 1911-ci ilin oktyabr ayında** Məhəmməd Əli Rəsuloğlu, Abbasqulu Kazımzadə və Tağı Nağıoğlu tərəfindən qoyulmuşdu. O zaman Türkiyədə yaşamaq məcburiyyətində olan M.Ə.Rəsulzadə əqidə dostlarına göndərdiyi məktublarda belə bir təşkilatın qurulmasının vacibliyini bildirirdi. 1913-cü ildə Bakıya qayıtdıqdan sonra o, partiyanın fəaliyyətinə yeni istiqamət verdi, təşkilatın əsas ideoloqu oldu.

Bu illərdə M.Ə.Rəsulzadə ciddi siyasi iş aparır, o dövrdə hökumət tərəfindən fəaliyyətinə icazə verilən bəzi xeyriyyə və maarifçilik məqsədi daşıyan cəmiyyətlərə təsirini artırmağa çalışırdı. Belə cəmiyyətlər sırasında "Nicat", Maarif Cəmiyyəti", "Bakı Cəmiyyəti Xeyriyyəsi" və "Nəşri-Maarif Cəmiyyəti" vardı (9, s.13).

**Bu dövrdə M.Ə.Rəsulzadənin "Dirilik" jurnalında çap edilmiş məqalələri** ictimai əhəmiyyəti baxımından da diqqəti daha çox cəlb edirdi. Məqalələrdə milli dirçəlişin yolları ətraflı şəkildə araşdırılmış, mövcud siyasi quruluşun imkanları çərçivəsində izah edilmişdi.

M.Ə.Rəsulzadə milli-azadlıq ideyasını dünya mədəniyyəti baxımından əsaslandırırdı. Göstərirdi ki, dünya mədəniyyətinin zənginliyi üçün ayrı-ayrı millətlər siyasi cəhətdən azad yaşamalı, biri digərinə təzyiq etməməlidir.

M.Ə.Rəsulzadə sosial tərəqqini maddi və mənəvi olmaqla iki yerə bölürdü. Bununla da o, mənəvi tərəqqi anlayışını milli özünüdərkin zirvəsi olan milli istiqlal fikri ilə eyniləşdirirdi. Bu mənada o, mənəviyyatın zəngin olmasını və milli şüurun yetkinləşməsi vacibliyini əsas götürürdü. Bununla bağlı o, yazırdı: “Əcələ bir surətdə maddətən tərəqqi edib də mənəviyyatca məhrum qalmaqdansa, maddətən gec tərəqqi edib, mənəviyyatca müstəqil qalmağı tərcih edərəm, çünki milliyyətində, bəşəriyyətin də faidəsi bundadır” (10, s. 15).

M.Ə.Rəsulzadənin sonrakı ictimai-siyasi, publisist fəaliyyətində **“İqbal”, “Yeni İqbal”** və **“Açıq söz”** qəzetinin böyük əhəmiyyəti olmuşdu.



*“Açıq söz” qəzeti, 1915-ci il*

“Açıq söz” qəzeti 1915-ci ilin oktyabr ayının 2-də həftənin beşinci günü Bakıda nəşrə başlamışdı. M.Ə.Rəsulzadənin başçılıq etdiyi qəzetin adının altında yazılmışdı: “Siyasi-ictimai və ədəbi Türk qəzetəsi”. Çap olunduğu yer: Nikolayevski küçəsi, M.Ələkbərovun mətbəəsi, poçt №357.

Bu qəzet haqqında M.Ə.Rəsulzadə yazırdı:” “Açıq söz” ilk dəfə olaraq o vaxta qədər Qafqaziya müsəlmanı və yaxud tatar deyilən xəlqin türk olduğunu sərahət və israrla meydana atmış və bu xüsusda hərb senzoru ilə mübarizə etmək zərurətində qalmışdı” (11, s.17).

Qəzetin baş məqaləsi **“Tutacağımız yol”** adlanırdı. Müəllifi M.Ə.Rəsulzadə olan bu yazıda mühüm bir problem açıqlanırdı: “Dəhşətlərinə şahid olduğumuz bu yol bir həqiqəti-əsrimizin milliyyət əsri olduğunu isbat etdi. “Dünyanın xəritəsi hərbdə dəyişəcək” – deyə heyrətlə qarışıq bir cümlə indi bir çox ağızlardan eşidilməkdədir” (12).

Qeyd edək ki, "Açıq söz" qəzeti xalqın ehtiyaclarından yazır, işıqlı fikirlər yayırdı. 1915-ci ilin oktyabr ayında qəzetin saylarının birində M.Ə.Rəsulzadənin "Bizim ehtiyaclarımız" məqaləsi çap olundu. Məqalədə xalqın bir çox tələblərinin hazırkı şəraitdə vacibliyi göstərilirdi: 1. Aşağı sinifli məktəblərin açılıb milliləşdirilməsi. 2. Ruhani akademiyasının açılması. 3. Müsəlmanların hüquqlarının qaytarılması və s.

M.Ə.Rəsulzadə "Açıq söz" qəzetindəki məqalələrində yalnız Azəri türkünün deyil, ümumən çar imperiyasının əsarətində əzab çəkən türklərin vəziyyətini açıqlayırdı. Türkləri cəsarət və əzmlə haqq işləri uğrunda mübarizəyə çağırırdı. Məqalələrinin birində isə o, Türküstanın əlli ilə yaxın müddətdə hüquqsuz hala düşməyinin səbəblərini açıqlayırdı.

Qeyd edək ki, **1917-ci ilin 27 fevralında Rusiyada Fevral Burjua inqilabının** baş verməsi Azərbaycandakı ictimai-siyasi proseslərə ciddi təsir göstərdi.

Fevral inqilabından sonrakı ilk günlərdə Azərbaycanda fəaliyyət göstərən təşkilatların mərkəzləşməsinə ehtiyac duyulurdu və bu məqsədlə **1917-ci ilin martın 29-da Bakı Müsəlman ictimai təşkilatlarının Müvəqqəti Komitəsi yaradıldı.** Müvəqqəti Komitənin sədri M.H.Hacınski, onun müavini isə M.Ə.Rəsulzadə seçildi. Müvəqqəti Komitə "bütün şəxsi incikliyi unudub milli – siyasi şüarlar ətrafında" birləşməyi və Ümummüsəlman Qurultayı çağırılmasını vacib saydı. Qurultayın açılışı ərəfəsində "Açıq söz" qəzeti yazırdı ki, bu qurultay Qafqaz müsəlmanlarının siyasi və milli mədəni inkişafında mühüm rol oynayacaq.

**1917-ci ilin aprelin 15-dən 20-dək Qafqaz müsəlmanlarının Qurultayı keçirildi.** Qurultayda mövcud şərait təhlil olundu. Ölkənin siyasi vəziyyətinə həsr edilmiş əsas məruzəni M.Ə.Rəsulzadə etdi. Məruzənin əsasında federativ demokratik respublika ideyası dayanırdı. Məruzəçi Rusiyadakı milli qruplara azad özünütəyinetmə hüquqlarının verilməsini tələb edirdi. M.Ə.Rəsulzadə bildirirdi ki, bu qayda ilə Rusiyanın ayrı-ayrı xalqları sonradan milli-ərazi muxtariyyəti prinsipləri əsasında İttifaq dövləti yarada bilərlər.

Rusiyadakı müsəlmanların **1917-ci ilin mayın 1-dən 11-dək Moskvada keçirilən Birinci Ümumrusiya Qurultayı** milli mədəni inkişafın formalaşmasında mühüm rol oynadı. Qurultayda M.Ə.Rəsulzadənin "Ərazi Muxtariyyəti" ideyası ilə çıxışı böyük maraqla qarşılandı. M.Ə.Rəsulzadə çıxışında dedi: "Rusiyanın idarə forması demokratik respublika olmalıdır. Yer kürəsinin altıda birini tutan, Kamçatkadan Qara dənizə qədər və Arxangelskdən İranla sərhədə qədər uzanan, 170 milyon əhalisi olan çoxmillətli bir dövlət bir mərkəzdən idarə oluna bilməz. Ona

görə də Rusiya dövlətinin idarə forması Federasiya olmalıdır". Onun irəli sürdüyü məhəlli muxtariyyət ideyası qurultayda 271 səsə qarşı 446 səslə qəbul edildi.

Qeyd edək ki, **1917-ci ilin aprelində** Qafqaz Müsəlmanlarının Qurultayında M.Ə.Rəsulzadə ilə N.Yusifbəyli hər iki təşkilatın ("Müsavat"la "Türk Ədəmi Mərkəziyyət"in) birləşdirilməsi qərarına gəlmişdilər. Əlavə edək ki, Qafqaz Müsəlmanları Qurultayına qədər də M.Ə.Rəsulzadə ilə N.Yusifbəylinin yaxın münasibətləri vardı. N.Yusifbəyli "Açıq söz" qəzetinə tez-tez gəlib gedərdi və bu iki şəxsiyyətin yaxınlığı, Azərbaycan istiqlalına eyni mövqedən yanaşmağı xalqımızın sonrakı taleyində mühüm rol oynadı.

**1917-ci ilin iyun ayının 17-də** M.Ə.Rəsulzadənin lideri olduğu "Müsavat"la N.Yusifbəylinin başçılıq etdiyi "Türk Ədəmi – Mərkəziyyət Partiyası"nın **Birləşmə qurultayı** keçirildi.

Azərbaycan İstiqlalının 1918-ci ildə qazanılması baxımından bu çox mühüm hadisə idi. Bu onunla bağlı idi ki, "Müsavat"ın Bakı və Bakı ətrafında, "Türk Ədəmi – Mərkəziyyət"in isə Gəncə və Gəncə ətrafında təsiri güclü idi. Beləliklə, hər iki təşkilatın birləşməsi nəticəsində istiqlal uğrunda çətin bir mübarizə aparan Ümumazərbaycan partiyası yarandı. M.Ə.Rəsulzadə isə partiyanın sədri seçildi.

İki partiyanın birləşməsindən sonra Azərbaycanda güclü siyasi bir təşkilatın mücadilə dövrü başladı. "Müsavat"ın isə böyük nüfuza malik olduğunu 1917-ci ilin oktyabrında Bakı Sovetinə keçirilən yeni seçkilər də bir daha təsdiqlədi: "Müsavat 25 min seçicidən 10 min nəfərin – yəni bütün seçicilərin 40 faizinin səsini qazanmışdı. Halbuki, özləri üçün əlverişli şəraitdə keçirilən bu seçkilərdə bolşeviklər cəmisi 4 min seçicinin səsini toplaya bilmişdi. Bolşeviklərin lehinə Bakı şəhəri əhalisinin 15,4 faizi səs vermişdi.

**Belə gərgin şəraitdə "Müsavat" Partiyasının Bakıda ilk qurultayı keçirildi. Qurultay 1917-ci ilin oktyabrın 26-dan 31-dək davam etdi.** 1917-ci ilin iyununda "Müsəlman Demokratik Partiyası – Müsavat"la "Türk Ədəmi – Mərkəziyyət"in birləşmə qurultayından sonra bu keçirilən ilk rəsmi toplantı idi. Bu qurultayda "Türk Ədəmi-Mərkəziyyət Firqəsi Müsavat" öz proqramını elan etməli idi. "Müsavat" Partiyasının ilk bitkin sənədi məhz həmin proqram olmalı idi (16, F. 276, s.7, iş 168, v.1).

Qurultay 76 maddədən ibarət partiyanın proqramını qəbul etdi. Partiyanın proqramında aşağıdakı məsələlər nəzərdə tutulurdu: 1. Dövlət və muxtariyyət. 2. Milli məsələlər. 3. Dini məsələlər. 4. Həqqi əhliyyət. 5. İqtisad və maliyyə işləri. 6. Torpaq məsələsi. 7. İşçi məsələsi. 8. Ədliyyə məsələsi. Muxtariyyət tələbi rəsmi şəkildə partiya proqramında öz əksini tapdı.

"Müsavat"ın proqramında dövlət və muxtariyyət təşkilatı məsələsi dəqiq izah edilərək belə qoyulmuşdu: "Rusiya dövlətinin şəkli – idarəsi milli-məhəlli muxtariyyət əsası üzərinə qurulu qoşma xalq cumhuriyyətindən ibarət olmalıdır" (19, F. 894, s.10, iş 39, v.2).

Qeyd olunmalıdır ki, beş yüzə qədər adamın iştirak etdiyi "Müsavat" Partiyasının birinci qurultayında otuz üç yaşlı Məhəmməd Əmin Rəsulzadə Mərkəzi Komitənin sədri seçildi.

1917-ci ilin sonlarına doğru Azərbaycanın siyasi həyatında böyük yüksəliş dövrü idi. Artıq milli hərəkatda üç cərəyan seçilirdi: milli demokratlar, sosialistlər və islamçılar. Xüsusi olaraq fərqlənən milli demokratlar Azərbaycanın inkişafını milli dövlətçilikdə görürdülər.

Belə vəziyyətdə Zaqafqaziyadakı siyasi təşkilatlar da fəaliyyəti gücləndirdilər. 1917-ci ilin noyabr ayında Tiflisdə Zaqafqaziyadakı siyasi təşkilatların yığıncağı keçirildi və **Zaqafqaziya Komissarlığı** yaradılması qərara alındı. Həmin ilin noyabr ayının 14-də yaradılmış yeni hökumətin tərkibi elan edildi.

1918-ci ilin fevralından, Zaqafqaziya Seyminin ilk iclasından isə Azərbaycan siyasətçilərinin Zaqafqaziya istiqlalı uğrundakı mübarizəsinin yeni mərhələsi başlandı. **Həmin ilin fevralın 23-də Tiflisdə Zaqafqaziyanın qanunverici orqanı – Zaqafqaziya Seyminin açılışı oldu.** Seymdəki Azərbaycan fraksiyası 44 millət vəkilindən ibarət olub (18, s. 130), "Müsavat", "İttihad" "Hümmət" və "Müsəlman Sosialist bloku"nu təmsil edirdilər. 1918-ci ilin martın 14-də keçirilən Trapezund Sülh Konfransında da Türkiyə nümayəndələri artıq Zaqafqaziya nümayəndələrindən respublikaların siyasi quruluşları haqqında qətnamə tələb edirdilər.

Bundan əlavə, 1918-ci ilin mart hadisələri də Zaqafqaziya Seymindəki münasibətləri gərginləşdirdi və Azərbaycanın milli müstəqilliyi uğrundakı mübarizədə həlledici mərhələ sayıldı. Qeyd edək ki, on minə yaxın günahsız adamın ölümünə səbəb olmuş 1918-ci ilin mart hadisələri Azərbaycan tarixinin ən faciəli səhifələrindən idi.

Qeyd olunmalıdır ki, Azərbaycan Xalq Cumhuriyyətinin mövcudluğu dövründə ermənilərin Azərbaycanda həyata keçirdikləri kütləvi terror və qırğınları öyrənmək məqsədi ilə ayrıca bir Fövqəladə Təhqiqat Komissiyası yaradılmışdı.

1918-ci ilin martın 29-da Bakı və Tiflis dəmiryolu bağlandığından şəhərdə qalan erməni silahlıları "”Evelina" gəmisində Müsəlman diviziyasının bir neçə yüz əsgərini tərksilah etdikdə vəziyyət gərgin həddə çatmış və Qızıl Ordu dəstəsinə atılan təxribati güllədən sonra silahlı ermənilər dinc əhaliyə hücum edərək onları amansızcasına qırmışdı.



*M.Ə.Rəsulzadə 1918-ci ildə*

**M.Ə.Rəsulzadə yazırdı:** "Bu hadisə ilə bolşeviklər bir çox vilayətlərdə yapdıqları qanlı əməliyyatı Bakıda da tətbiq edirdilər. Əmələ və füqəra hakimiyyəti naminə "Müsavat firqəsi milli-müsəlman şurası"na elani-hərb edən "Bakı Soveti" erməni alayları ilə biliştirak 10 000 qərib müsəlmanı qətl etdi" (17, s. 33).

Minlərlə günahsız adamın ölümünə səbəb olan ermənilərin xəyanəti, törətdikləri qırğın haqda məlumat 1918-ci ilin aprelin 2-də Zaqafqaziya Seyminə çatdırıldı. Lakin Seymin bu qırğına laqeyd münasibəti azərbaycanlı nümayəndələrdə ciddi narazılıq doğurdu. Eyni zamanda Seymin gürcü-erməni çoxluğu Bakı Sovetinə ciddi təsir göstərmək istəmirdi. Bu münasibəti görən Seymin azərbaycanlı deputatları ayrı-ayrı partiyaları təmsil etsələr də, eyni mövqeyə gəlib birgə fəaliyyətə üstünlük verdilər. Mart hadisələri milli istiqlal mübarizəsinin nəinki məqsədində, eləcə də forma və vasitələrində keyfiyyət dəyişikliyi yaratdı.

Bu hadisələrdən sonra fikir müxtəlifliyində olan azərbaycanlılar, gürcülər və ermənilərin Seymdə birgə fəaliyyəti getdikcə mümkün olmur, münasibətlərdə inamsızlıq yaranırdı.

Qeyd edək ki, gürcülər və ermənilər Türkiyə ilə münasibətdə ciddi siyasi ziddiyyətdə idilər. Gürcülər Batum və Acarıstanın saxlanılması cəhdində olsalar da, buna nail olmaq üçün Qars və Ərdəhanı güzəştə getməyi lazım bilirdilər. Türklərin isə Seym daxilindəki ziddiyyətlərdən məlumatları var idi. Odur ki, Zaqafqaziya hökumətinin Türkiyə ilə apardığı müharibə 8 gündən artıq çəkmədi. Türklər aprelin 15-də Batumu tutdular, eyni zamanda Qarsı mühasirəyə aldılar (18, s. 183).

Belə vəziyyətdə aprelin 19-da Seymə daxil olan Azərbaycan nümayəndələrinin birgə yığıncağında onlar Zaqafqaziyanın müstəqilliyini tələb etdilər. Azərbaycanlı nümayəndələr bildirdilər ki, əks halda onlar Azərbaycanın müstəqilliyi istiqamətində hərəkət edəcəklər.

Tezliklə gürcülər və ermənilər türklərin əsas tələbinin yerinə yetirilməsinin – yəni Brest-Litovsk Müqaviləsi şərtlərinin və Zaqafqaziyanın müstəqilliyinin elanının vacibliyini dərk edib, müharibənin dayan-

dırılması zərurəti qarşısında qaldılar. **1918-ci ilin aprelin 22-də Zaqafqaziyanın müstəqilliyi elan edildi.**

Lakin Zaqafqaziya Seymi daxilində ziddiyyətlər azalmır, getdikcə gərginləşirdi. Xüsusən, Almaniyanın da Zaqafqaziyada təsirinin artması, gürcülərin onlara meylini artırırdı.

Zaqafqaziya Seymi daxilindəki narazılıqlar, Gürcüstanın Qafqaz birliyindən çıxıb, Almaniya himayəsinə keçmək istəyi artıq bu millətlərin birləşib bir orqanda fəaliyyət göstərməsini sual altına qoymuşdu.



*Azərbaycan İstiqlal Bəyannaməsi*

Mayın 25-də gürcülər Seymin buraxılması və Gürcüstanın müstəqilliyini elan etməsi qərarına gəldilər.

**1918-ci ilin** mayın 26-da Seymin sonuncu iclası keçirildi və onun fəaliyyəti dayandırıldı. Seymin fəaliyyəti dayandırıldıqdan sonra 1918-ci ilin mayın 27-də Zaqafqaziya Seyminin buraxılması ilə bağlı buraya daxil olan Azərbaycan nümayəndələrinin fövqəladə iclası keçirildi və iclas Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürərək, Azərbaycan Müvəqqəti Milli Şurasını elan etdi. Sonra Milli Şuranın sədri seçkisinə başlanıldı. "Müsavat" Partiyası M.Ə.Rəsulzadənin sədrliyini irəli sürdü. "İttihad" Partiyası istisna olmaqla, qalan təşkilatların səsverməsi nəticəsində **M.Ə.Rəsulzadə Milli Şuranın sədri seçildi.** H.Ağayev və M.Seyidov Milli Şura sədrinin müavinləri seçildilər. Elə həmin iclasda Milli Şuranın doqquz nəfərdən ibarət icraiyyə orqanı yaradıldı, F.Xoyski icraiyyə orqanının sədri seçildi. İlk Azərbaycan hökumətinin təşkili F.Xoyskiyə tapşırıldı. Yaradılan ilk hökumət aşağıdakı tərkibdə idi: "Nazirlər Şurasının sədri və Daxili İşlər Naziri – F.X.Xoyski; Hərbi Nazir – Xosrov bəy Sultanov, Xalq Maarifi və Maliyyə Naziri – Nəsib bəy Yusifbəyli; Xarici İşlər Naziri – Məmməd Həsən Hacınski; Poçt-Teleqraf və Yollar Naziri – Xudadat bəy Məlikaslanov;



**Azerbaycan istiklâlinin ilânı**

**Yazan: M. E. Resulzade**

Bundan 35 yıl evvel, Azerbaycan Millî Şurası Azerbaycan Cumhuriyetinin istiklâlini bütün dünyaya ilân etti.

O tarihe kadar milliyet olarak varlığını ispat için mücadele eden Azerbaycan halkı bu tarihten itibaren, millet olarak, bir devlet kurdu ve bu devletin müstakil yaşaması uğrunda bütün mevcudiyetiyle mücadele meydanına atıldı.

Medeni büyük bir terekeye malik olan Azerbaycan, siyaset sahasında da büyük ve değerli hamleler gösterm[illegible] İstiklâl uğrunda yapılan tarihi savaşların en kanlısı XIX ncu yüzyıl başlarında Rusyaya karşı yapılmıştır. Uzun müddet devam eden bu savaş kahra-

emniyet kuvvetleri teşkil etti. Sosyal hayatta esaslı ıslâhata girişti: köylülere toprak vermek üzere kanunlar hazırladı. İşçilerin haklarını korumak maksadiyle tedbirler aldı. Halkı ana dilinde okutmağa başladı. Türkçeyi devletin resmi dili ilân etti. Orta ve âli mektepler açtı. Batı Avrupa demokrasisi misalinde, halk tarafından seçilmiş parlamentoya karşı mes'ul bir hükûmet usul idaresi yarattı. Hâkimiyet tamamile milletin elinde idi. Millet Meclisinden itimat almadıkça [illegible] hükûmet iş başında kalamazdı. Memlekette tam bir hürriyet vardı. Terrör denilen şeyden hiç bir eser yoktu. Şahıslar da meskenler de em ve emanda idi. Vatanın kapıları bütün dün-

*M.Ə.Rəsulzadənin 28 May İstiqlalı haqqında məqaləsi*

Əkinçilik və Əmək Naziri – Əkbər ağa Şeyxülislamov;




***1918-ci ildə Azərbaycan İstiqlalı Tiflisdə Qafqaz canişinliyinə mənsub olan bu binada elan edilib***

Ədliyyə Naziri – Xəlil bəy Xasməmmədov; Ticarət və Sənaye Naziri – Məmməd Yusif Cəfərov; Dövlət Naziri – Cəmo bəy Hacınski.

**Mayın 28-də** Milli Şuranın ilk iclasında (24 nəfərin iştirakı ilə) aşağıdakı məsələlər müzakirə edildi: 1. H.Ağayevin Yelizavetpoldakı (Gəncədəki) son hadisələr barədə məlumatı; 2. M.Ə.Rəsulzadənin Batumdan teleqramının və məktubunun oxunması; 3. Seymin buraxılması və Gürcüstanın müstəqilliyini elan etməsi ilə əlaqədar Azərbaycanın vəziyyəti (15, s.85).

Qeyd edək ki, Azərbaycan istiqlalının elan olunması günündə M.Ə.Rəsulzadə Tiflisdə deyildi. Səbəbi həmin hadisə ərəfəsində onun Batuma göndərilərək, orada türklərlə danışıqlar aparması idi. Çünki Müstəqil Qafqazın Batum danışıqlarına sülh heyəti göndərərkən (M.Ə.Rəsulzadə məhz bu heyətdə idi) "Azərbaycan siyasi firqələrinin birləşmiş iclasında" Nəsib bəy Yusifbəyli "Osmanlı dövlətindən yardım istəmək zərurətini" bildirmişdi.



***M.Ə.Rəsulzadə Batumda, 1918-ci il (soldan ikinci)***

**Azərbaycan istiqlalı elan olunandan sonra** Zaqafqaziya hökumətinin Batumdakı sülh danışıqları aparan heyəti parçalandı.

**1918-ci ilin iyunun 4-də** "Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasındakı dostluq müqavilə"sini Türkiyə dövləti adından Ədliyyə Naziri Xəlil Menteşə, Qafqaz cəbhəsinin Baş komandanı Vəhib Paşa, Azərbaycan hökuməti adından isə Xarici İşlər Naziri M.H.Hacınski və Milli Şuranın sədri M.Ə.Rəsulzadə imzaladı. Azərbaycan Respublikası nümayəndələrinin xarici ölkələrlə imza atdığı ilk sənəddə hər iki dövlətin

- Osmanlı imperiyası və Azərbaycan hökuməti arasında “Siyasi, hüquqi, iqtisadi və intellektual zəmində mehriban dostluq münasibətləri bərqərar etməkdə qarşılıqlı surətdə razılığa gəlindiyi” bildirilirdi (19, F. 894, s.2, iş 8, v.1).

İmzalanan sənədin birinci maddəsi belə idi: “Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında daima sülh və möhkəm dostluq olacaqdır” (20, F. 277, s.2, iş 89, v. 10).

**Sənədin 4-cü maddəsində isə yazılmışdı:** “Dinclik və asayişi möhkəmləndirmək, ölkənin təhlükəsizliyini təmin etmək üçün, əgər ehtiyac olarsa, Osmanlı hökuməti Azərbaycan Respublikasına hərbi yardım göstərməyi öz üzərinə götürür” (20, F. 277, s. 2, iş 89, v. 10).

Azərbaycan hökuməti ən ağır və ən çətin şəraitdə məhz həmin müqavilə əsasında türk qoşunlarını Azərbaycana dəvət etmişdi. M.Ə.Rəsulzadə yazırdı: “Bütün Azərbaycan xəlqinin çar-çeşmlə bəklədiyi ümidə tərcüman olan bu müraciətimizdə Türkiyə heyəti-mürəxxəsəsi həmən müvafiqət cavabını verdi” (17, s. 40).

M.Ə.Rəsulzadənin başçılıq etdiyi Milli Şura Azərbaycanın bir müstəqil dövlət olaraq formalaşmasında həqiqətən böyük rol oynadı.

**Azərbaycan İstiqlal bəyannaməsinin altıncı maddəsində göstərildiyi kimi: “Azərbaycan idarəsinin başında Şurayi Milli” dururdu.**

Bu ərəfədə, **iyunun 17-də** Azərbaycan Respublikası nümayəndələrinin İstanbul Beynəlxalq Konfransına (orada – Almaniya, Avstriya, Macarıstan, Türkiyə, Bolqarıstan və Qafqaz – Gürcüstan, Azərbaycan, Ermənistan və Dağlılar İttifaqı nümayəndələri iştirak edirdi) göndərilməsi müəyyənləşdi. Konfransda iştirak etmək üçün M.Ə.Rəsulzadə, X.Xasməmmədov və A.Səfikürdskidən ibarət nümayəndə heyəti təsdiq edildi (Buraya əlavə dörd nəfər məsləhətçi və texniki heyət də daxil idi). Nümayəndə heyətinə konfrans iştirakçıları ilə siyasi, iqtisadi, maliyyə və hərbi məsələlərlə bağlı danışıqlar aparmaq və müqavilələr bağlamaq səlahiyyəti verilmişdi.



*Azərbaycan Parlamentində çıxışı*

**1918-ci il sentyabrın 15-**də isə türk qoşunlarının və Azərbaycanın yeni yaranmaqda olan hərbi hissələrinin kəskin hücumu ilə Bakı şəhəri alındı. Şəhərin alınması uğrundakı döyüşlərdə çoxlu qurbanlar verildi.

M.Ə.Rəsulzadə həmin günlərdə İstanbulda idi. O, yazırdı: "O dövrün Hərbiyyə naziri və Baş komandan vəkili bulunan Ənvər Paşa həzrətləri telefon edirdilər:

– **Əmin bəy, Bakı alındı!** Bu qəsa xəbərin məndə tövlid etdiyi təsiri qabil deyil, təsvir edə bilmirəm. O təsiri hələ unuda bilmirəm" (11, s.51).

Şübhəsiz ki, müstəqil Azərbaycan dövləti quruculuğu prosesində ilk uğurlu addımlardan biri Azərbaycan parlamentinin yaradılması oldu.

Azərbaycan Parlamentinin yaradılması ilə bağlı Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə ciddi fəaliyyət göstərirdi. Onun imzası ilə **1918-ci il noyabr ayının 29-da** Azərbaycan və rus dillərində "Bütün Azərbaycan əhalisinə!" müraciətnaməsi hazırlanmışdı. Müraciətnamədə deyilirdi: "Vətəndaşlar! Müharibə və zamanının fövqəladə əhvalını nəzərə alaraq tətil etmiş olan Azərbaycan Şurayi-Millisi iltizam-zaman ilə təkrar Azərbaycanın paytaxtı Bakıda toplandı. Şurayi-millinin ən əvvəl qəbul etdiyi qanun sırf Azərbaycan müsəlmanlarına məxsus olan Şurayi-Millini milli bir şəkildən çıxarıb da dövləti bir şəklə salmaq oldu. Bu ayın 19-da qəbul etdiyi qanunnaməyə görə Şurayi-Milli dekabrın 3-nə qədər 120 əzalıq bir Məclisi-Məbusan (Parlament) halına gələcəkdir. Bu məclisə azlıqda qalan millətlərdən nümayəndələr cəlb olunduğu kimi, məmləkətin vilayətlərindən də vəkillər çağırılmışdır. Bu surətlə yığılacaq məbusan irəlidə ümumi intixab üsulu ilə Azərbaycan Məclisi Müəssisanı yığışıncaya qədər yurdumuzun sahibi olacaq, onun müqəddəratını həll, hökumətini təşkil və mənafeyini müdafiə edəcək" (21, F. 895, s.3, iş 187, v. 1- 2).

**Parlamentin ilk iclasını M.Ə.Rəsulzadə giriş nitqi ilə açdı:** "Möhtərəm Millət vəkilləri! Azərbaycan Milli Cumhuriyyətinin ilk parlamentosunu açmaq səadətinin, Siz möhtərəm millət vəkillərini təbrik etmək şərəfinin öhdəmə düşməsi ilə iftixar edirəm (alqışlar)... Əfəndilər, Rusiyada zühur edən böyük inqilab digər həqiqətlər arasında bir böyük həqiqəti dəxi elan etmişdi. **Bu həqiqət millətlərin hürriyyət və istiqlal haqları idi..."** (22,s. 84).

M.Ə.Rəsulzadənin Azərbaycan Parlamentindəki bu çıxışı dəfələrlə alqışlarla qarşılandı.

Azərbaycan Parlamentində "Müsavat" Partiyasının bəyannaməsini təşkilatın lideri M.Ə.Rəsulzadə elan etdi. Həmin tarixi bəyannamədə göstərilirdi: **"Bəli, artıq Azərbaycan ideyası barədə firqələrimiz arasında fikir ixtilafı yoxdur. Azərbaycan fikri millətin şüurunda yerləşmişdir. Üçrəngli əziz bayrağımız hamımızı siyasətcə birləşdirir. Azərbaycan istiqlalını müdafiə etmək hamımız üçün ortaq bir proqramdır. Ona görə firqələr Azərbaycan ideyasını propaqanda**

**etməklə deyil, mövcud faktın siyasətən, hüquqən və xaricən müdafiəsilə məşğul olmalıdırlar”** (23, s. 85).

Azərbaycan Parlamentində ən güclü fraksiya “Müsavat”la bitərəf demokratların birləşməsi idi. Bu fraksiyanın ümumi sayı 38 nəfər idi.

Azərbaycan Parlamentinin işində M.Ə.Rəsulzadə böyük fəallıq göstərirdi. Parlament iclaslarında fəal iştirak edən M.Ə.Rəsulzadə başçılıq etdiyi “Müsavat” fraksiyasının fəaliyyət proqramları haqqında tez-tez məlumatlar verirdi. Bu məlumatlarda ümumi bir məqsəd qarşıya qoyulurdu – Gənc Azərbaycan Cumhuriyyətinin müstəqilliyi və ərazi toxunulmazlığı, milli və siyasi hüquqların qorunub saxlanılması, Azərbaycan xalqının qonşu dövlətlərlə dostluq əlaqələrinin yaradılması və möhkəmləndirilməsi respublikada hüquq-demokratik dövlət quruluşunun bərqərar edilməsi, geniş sosial islahatlar həyata keçirilməsi, ölkəni müdafiə edəcək güclü ordunun yaradılması.

M.Ə.Rəsulzadə 1918-1920-ci illərdəki fəaliyyətində Azərbaycanın müstəqilliyi uğrunda qətiyyətlə mübarizə aparırdı.

Qeyd edək ki, Azərbaycanın müstəqil dövlət olaraq beynəlxalq nüfuzunun artdığı bir zamanda 1920-ci ilin 27 Aprel işğalı baş verdi.

27 Aprel işğalının səbəblərini araşdırmadan qeyd etməliyik ki, M.Ə.Rəsulzadə milli, müstəqil dövlətimizin varlığı, qalıb yaşaması üçün bütün imkanlarını sərf etmişdi.

Rusiyanın (istər çar, istərsə də sovet Rusiyası) daima təbii müttəfiqi olmuş ermənilər öz xəyanətkar mövqelərindən bu dəfə də qalmadı, 1920-ci ilin mart ayının 20-də Azərbaycan bölgələrinə hücuma keçdi.

**M.Ə.Rəsulzadə ermənilərin bu xəyanəti ilə bağlı yazırdı:** “Bayram gecəsi – Novruz bayramı Şuşa şəhərinin yaxınlığında vaqe “Xankəndi” deyilən əsgəri qəsəbə bayrama məxsus bir zövq içində zabitan məhfəli - əsgəridə gecəyi keçirməklə məşğul... Bu əsnada ətraf köylərdə məskun erməni ustası bu gecəyi məxsus ehzar etdikləri süngülərlə mücəhhəz olduqları halda gecə ilən bir basqın icra ediyorlar”... (17, s. 64).

Bolşevik Rusiyası isə Azərbaycanı çoxdan işğal etməyə hazırlaşırdı. S.M.Kirov 1920-ci ilin martın 9-da A. Mikoyana göndərdiyi məktubda XI ordu ilə birgə hərəkət etmək haqqında göstərişlər verərək bildirirdi: “Kəşfiyyatı gücləndirin, bizə rəqibin (yəni – milli Azərbaycan Ordusunun – N. Y.) harada toplaşdığını bilmək lazımdır”. Qafqaz cəbhəsi İnqilabi Hərbi Şurası S.Q.Orconikidzenin başçılığı ilə 21 və 23 aprel tarixində XI Orduya Aprelin 27-də Azərbaycan sərhədini keçib bütün ərazini tutmaq əmrini vermişdi.

**Aprelin 27-də** azərbaycanlı bolşeviklər gündüz saat 12-də Azərbaycan K(b)P MK, RK(b)P Ölkə Komitəsinin Bakı bürosu və Mərkəzi

fəhlə konfransı adından Parlamentə 12 saatlıq ultimatum verdilər. Ultimatumu müzakirə etmək üçün yaradılan Parlament komissiyası ilə kommunistlər arasında gedən danışıqlardan sonra qərara alındı ki, bu məsələ Parlamentin fövqəladə iclasında müzakirə edilsin. Axşam saat 19.30-da Parlamentin fövqəladə iclasında M.Hacınski komissiya adından bildirdi ki, kommunistlərin ultimatumunun bütün şərtləri müsavatçıların lideri M.Ə.Rəsulzadə istisna olmaqla komissiya tərəfindən qəbul edilir.

**Parlamentin son iclasında səs çoxluğunu pozan "İttihad"la "sosialistlər"in birləşməsi idi. Çünki, "Müsavat" Parlamentdə 32 millət vəkili ilə, Müsavat mövqeli bitərəf qrup isə (başçısı F.Xoyski idi) 7 deputatla təmsil olunurdu. "İttihad" 11, "Sosialistlər" də 11 millət vəkilinə malik idilər. "Əhrar"ın təmsilçilərinin sayı 10 millət vəkili idi. Belə bir vəziyyətdə M.Ə.Rəsulzadə son dəfə olaraq parlamentin iclasında çıxış etdi. O, çıxışında dedi: "Əfəndilər, mötəcaziz bir ultimatum qarşısında qalmışıq. Burada təslimdən bəhs edirlər. Fəqət əfəndilər, təslim nə demək? Kimə tərki mövqe edirik? Bizə deyirlər ki, hüdudunuzu keçən ordunun başında Nicati adında bir türk komandanı durmuşdur. Rusiyadan gələn bu mötəcaviz ordu təxmin edirlər ki, həyat və məmat mücadiləsində qalan Türkiyənin xilası üçün gedir. Yalandır. Gələn ordu rus ordusudur. Fərzən komandanı bir türk olsa da, yenə rusdur, istila ordusudur. Onun istədiyi 1914-cü il hüduduna qayıtmaqdır. Anadolu imdadına gedəcək bəhanəsilə yurdumuza girən bu işğal ordusu buradan bir daha çıxmaq istəməyəcəkdir. Qızıl Rusiya ilə anlaşmaq üçün hökuməti mütləq bolşeviklərə təslim ultimatumu qəbul etmək zillətinə qatlanmağa ehtiyac yoxdur. Bu mötəcavizanə ultimatumu rədd etməliyik... (22, s. 146-147).**

**Sədr M.Y.Cəfərov verilən ultimatumu səsə qoydu, üç nəfər bitərəf qalmaqla hakimiyyət bolşeviklərə verildi (23, s. 112-113).**

1920-ci ilin Aprelin 27-də baş verən hadisələrdən sonra M.Ə.Rəsulzadə yaxın əqidə dostları ilə birgə gizli fəaliyyətə başladı.

Parlamentdə hökumət təhvil verildikdən sonra M.B.Məmmədzadə ilə Ə.V.Yurdsevər M.Ə.Rəsulzadənin qaldığı mənzilə gedib, partiya liderindən məsləhətlər aldılar. M.Ə.Rəsulzadə ilə görüşdən sonra onlar Cəfər Cabbarlının (böyük yazıçı və dramaturq – N. Y.) şəhər kənarındakı evinə getdilər. M.Ə.Rəsulzadənin göstərişlərinə uyğun olaraq Cəfər Cabbarlı, Mirzə Bala Məmmədzadə, Əbdül Vahab Yurdsevər, Məmməd Sadiq Quluzadə və Məmməd Həsən Baharlıdan ibarət **Müsavatın "Gizli Ümumi Mərkəzi"** yaradıldı. Ə.V.Yurdsevər bununla bağlı yazırdı: "Partiya mərkəzi qurulduqdan sonra vəzifə bölgüsünə başlanılmış və komisiyaların təşkilinə keçilmişdi. Emin bəyin də razılığı ilə gizli təşkilatın ba-

şına M.B.Məmmədzadə gətirilmişdi. Müavini sifətilə Bakı Komitəsinin təşkili mənə tapşırılmışdı. Ümumi mərkəzin Baş katibliyinə isə Cəfər Cabbarlı seçilmişdi" (23, s.115).

Azərbaycanın işğalının ilk günündən bolşeviklər qanlı üsullara əl atdı. Bu dövr Azərbaycanda bolşevik rejiminin ən təhlükəli zamanı idi. Yalnız: "1921-ci ilə ancaq hərbçilərdən 12 general, 27 albay və yarımalbay, 46 kapitan, ştabskapitan, poruçik və podporuçik, 146 praporşik, 266 nəfər başqa işçilər güllələnmişdi. 1920-ci ilin aprelin 28-dən 1921-ci ilin avqustuna qədər Azərbaycanda 48 000 (qırx səkkiz min) adam qırmızı terrorun qurbanı oldu" (23, s.128).

**M.Ə.Rəsulzadə yazırdı:** "Azərbaycanın həqiqi diktatoru, cəlladbaşı Pankratov idi. Pankratovun əmri fövqündə bir əmr yox idi" (23, s.128). Pankratov XI Ordunun Siyasi şöbəsinin rəisi idi. Ümumiyyətlə isə bu dövrdə Azərbaycanda üç qanlı təşkilat fəaliyyət göstərirdi: 1) XI Ordunun Pankratovun başçılığında olan Xüsusi Şöbəsi – "Osobı otdel"; 2) Azərbaycan Çekası; 3) XI Ordunun inqilabi tribunalı.

Bu təşkilatların içərisində ən qorxulusu "Osobı otdel" idi. Çünki "Osobı otdel" sorğusuz-sualsız istədiyi adamı güllələmək, öldürmək hüququna malik idi. Yalnız 1920-ci ilin avqustunda AK(b)PMK Siyasi Bürosunun iclasında XI Ordunun Xüsusi Şöbəsinə AK(b)MK Siyasi Bürosunun xəbəri olmadan heç bir ölüm hökmü çıxarmamaq təklifi verilmişdi.

**Azərbaycanda Pankratovun** başçılığı altında olan "Osobı otdel"də isə çoxlu ermənilər fəaliyyət göstərir və imkandan istifadə edib azərbaycanlılardan qisas alırdılar.

Lakin Sovet hakimiyyətinin basqı və təzyiqlərinə baxmayaraq M.Ə.Rəsulzadənin rəhbərliyində olan **"Gizli Müsavat"** təşkilatı xalq arasında ciddi fəaliyyət göstərirdi. Partiyanın Bakı təşkilatından sonra Gəncə, Qarabağ, Qazax və digər bölgələrdə güclü bölmələr vardı. Həmin dövrdə "Müsavat"ın gizli fəaliyyətinə rəhbərlik edənlərdən biri, tanınmış müsavatçı Ə.V.Məmmədzadə (Yurdsevər) yazırdı ki, Qızıl Ordu qüvvələri olmasa idi, "Gizli Müsavat" Azərbaycanın istənilən yerində sovet idarəsini devirə bilərdi.

Bolşeviklərin işğalçı mahiyyətini anladıqca, xalqın etiraz müqaviməti artırdı. Tezliklə Azərbaycanı bürüyən silahlı üsyanlar bolşeviklərin ölkədə asanlıqla qala bilməyəcəyini sübut etdi. 1920-ci ilin mayın 21-də Tərtərdə başlanan **ilk üsyan mayın 25-də Gəncədə daha böyük miqyas aldı.** Bir həftəyə yaxın müddətdə Gəncədə sovet hökumətinin fəaliyyəti dayandırıldı. XI Ordunun güclü hərbi müdaxiləsindən sonra bolşevik əsgərlərindən 8500, Milli Ordumuzdan və mülki əhalidən isə 8000-13000-ə qədər adam həlak oldu. Hələ o zaman Bakını tərk etməyib Ramanada

gizli yaşayan **M.Ə.Rəsulzadə sonralar yazırdı:** "Bu üsyan ibtida Gəncədə başladı. Çarizmin qəddar generalı Sisyanova parça-parça doğranıncaya qədər müqavimət göstərən Cavad xanın şəhəri bu dəfə də özünü göstərirdi" (17, s. 70).

Azərbaycanın digər bölgələrində də bolşeviklərə qarşı ciddi müqavimət göstərilirdi. Və getdikcə M.Ə.Rəsulzadənin gizli fəaliyyəti də qeyri-mümkün olurdu.

Bakıda qalmağın təhlükəli olduğunu və daim axtarıldığını hiss edərək M.Ə.Rəsulzadə şəhəri tərk etməyi qərara aldı. Münasib yer olaraq Lahıcda qalmağa üstünlük verdi. Lahıca müsavatçı dostu Abbasqulu Kazımzadə ilə getdi. Əslən Lahıcdan olan digər dostu Ağabala Qasımov ona bu işdə böyük köməklik göstərdi.

**Lahıcda** olduğu müddətdə M.Ə.Rəsulzadə istiqlal tariximizin öyrənilməsinə əvəzsiz bir töhvə bəxş edir: **"Əsrimizin Səyavuşu"**nu yazır.

Lakin Lahıcda vəziyyət getdikcə gərginləşirdi. Onun ciddi izlənilməsi haqqında məlumatlar da çatdırılırdı. Təhlükədən sovuşmaq üçün müxtəlif evlərdə, əsasən də Məşədi Salman deyilən birisinin evində qalırdı. Tezliklə Lahıcdan çıxmaq məcburiyyətində qaldı.

**1920-ci il avqustun 17-də** M.Ə.Rəsulzadəni Lahıc yaxınlığındakı Qaraməryəmdə həbs edib Bakıya apardılar .

M.Ə.Rəsulzadə həbsxanada olarkən keçmiş mübarizə dostu Stalin Bakıda onunla görüşdü və həbsxanadan azad etdirib, özü ilə birgə Moskvaya apardı. Moskvada o, bir müddət RSFSR Millətlər Komissarlığında çalışdı, sonra oradan Sankt-Peterburqa, Sankt-Peterburqdan Finlandiyaya, Finlandiyadan Türkiyəyə getdi.

***Ədəbiyyat:***

1) *Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. B.1991. 2)Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. B.1992. 3)"Açıq Söz" qəzeti, 1917, N513. 4)Azərbaycan Kommunist Partiyasının oçerkləri. Bakı, 1964. 5) Əfəndiyev S.M. Azərbaycan proletariatının inqilabi hərəkatı tarixindən. Bakı,1957. 6) Mehmet Saray. Azərbaycan Türk tarixi. İstanbul, 1993. 7)"Şərqi-Rus" qəzeti. Bakı, 1903, N14. 8) Oruclu M. Müsavat Partiyasının fəaliyyəti. "Müsavat" jurnalı, Bakı, 1995, N3(7). 9)"Azərbaycan" jurnalı, 1955, N12(36). 10) Cəfərov N. Milli ictimai fikir tariximizdən. Bakı, 1993. 11) Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti: keyfiyyəti-təşəkkülü və şimdiki vəziyyəti. İstanbul, 1990. 12) "Açıq Söz" qəzetu, 1915, N1. 13) "Kaspi" qəzeti, Bakı, 1917, N84. 14) İhsan İlqar. Rusiyada Birinci Müsəlman Konqresi. Ankara, 1990. 15) Həsənov C. Azərbaycan Beynəlxalq münasibətlər sistemində. Bakı, 1993. 16) Azərbaycan Prezidenti İşlər idarəsinin Arxivi, fond 276. 17)Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990. 18) Balayev A. Azerbaydjanskoye natsionalnoye dvijeniye v. 1917-1918 q. Bakı, 1990. 19) Azərbaycan Respublikası Milli*

*Arxiv İdarəsi . Fond 894. 20) Azərbaycan Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, fond 277. 21) Azərbaycan Respublikası Milli Arxiv İdarəsi. fond 895. 22)Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı, 1991. 23)Yaqublu N. Müsavat Partiyasının tarixi. Bakı, 1997.*

## İRANDAKI FƏALİYYƏTİ

**M.Ə.Rəsulzadənin İranla bağlı** ilk nəşr edilən məqaləsi **"İranda hürriyyət"** adlanır. Məqalə 1906-cı ilin 20 fevralında "İrşad" qəzetinin 51-ci sayında nəşr edilib (1, s. 28-30).

M.Ə.Rəsulzadə bu yazısında İran və burada yaşayanlar haqqında "Bu millət öldü, dəxi dirilməz" deyənlərə etiraz edərək, bu fikrin yanlış olduğunu göstərir. Qeyd edir ki, İranda "Ədalətxana" Məclisinin yaradılması bu fikirləri inkar edir və insanlarda böyük ümidlər yaradır.




***M.Ə.Rəsulzadənin 1911-1912-ci ildə yazdığı "İran türkləri" əsəri***

M.Ə.Rəsulzadənin İranla bağlı 1906-cı ilin 21 iyununda nəşr edilən ikinci məqaləsi isə belə adlanır: **"İranda inqilab"** (1, s.48-50). Bu məqalədə İran inqilabına, xüsusən Tehranda baş verən hadisələrə müsbət münasibət bildirərək o, yazırdı: "Bu vaxta kimi İran hürriyyətpərəstləri İran hökuməti ilə fəqət şifahən müqavilə ediyordular. İndi müsadiməyə də çıxmışlar. Eybi yox, heç bir yerdə hürriyyət, azadlıq qansız ələ gəlməmişdir. Həyat müsadimədə, mücadilədə, ittihad və ittifaqdadır. Haydı İranlı qardaşlar, yeriyiniz, yeriyiniz də heç bir şeydən vahimə etməyiniz" (1, s. 49).

M.Ə.Rəsulzadə İranda gedən proseslərlə, İran ictimai-siyasi mühiti ilə daima maraqlanmışdı. M.Ə.Rəsulzadənın İranla əlaqəli nəşr edilən aşağıdakı məqalələrini göstərmək olar: 1) "İranda hürriyyət"; 2) "İranda inqilab"; 3) "İranda yanvarın doqquzu"; 4) "İran işləri"; 5) "İrana dair"; 6) "Şahın vəfatına dair"; 7) "Təbriz vəkillərinin Bakıda təbəqqübləri (dayanmaları)"; 8) "Bakı, 17 mart".

M.Ə.Rəsulzadənin yazdığı digər məqalələrdən aydın olur ki, o, İranla bağlı olmuş yalnız bir ziyalı, qəzet əməkdaşı yox, həm də bir siyasətçi, peşəkar inqilabçı kimi hadisələri izləmişdir.

"Tərəqqi" qəzetinin 1908-ci ilin 10 avqustunda isə "M. Ə." imzası ilə onun "İrana dair. Təbriz əhvalatı. Xüsusi müxbirimizdən" başlıqlı yazısı çap edilir.

O, Bakıda olduğu müddətdə İranla əlaqəni kəsməmiş, 1908-ci ilin noyabr ayının 24-də "Tərəqqi" qəzetində çap edilən ictimai-siyasi yazısında və yenə həmin qəzetin 1909-cu ilin 15 yanvarında nəşr edilən "İran işlərinə dair" digər yazısında İrandakı prosesləri təhlil etmişdir (1, s. 285).

M.Ə.Rəsulzadənin İrana getdikdən sonra "Tərəqqi"də çap olunan yazısı **1909-cu ilin martın 18-nə təsadüf edir.** "İran məktubları" başlıqlı yazılarını ilkin olaraq İranın Rəşt şəhərindən göndərir və bununla da onun İranda fasiləsiz iki ilə yaxın fəaliyyəti başlayır.

M.Ə.Rəsulzadə İrana həm də partiya xətti ilə getmiş, sonradan Bakı Sosial Demokrat Komitəsinin tapşırığı ilə Gilan inqilabına nəzarət üçün Rəşt şəhərində olur (2, s.36-37). Sonradan o, mücahidlərlə birlikdə Tehrana gedərək Məşrutə hərəkatının fəalına çevrilir. Eyni zamanda o, "İran Demokrat Firqəsi"nin qurulmasında və proqramının yazılmasında iştirak edir. M.Ə.Rəsulzadə bu dövrdə yaxın dostu olan Seyid Həsən Tağızadə başda olmaqla Avropada təhsil almış bir qrup İran ziyalısı ilə birlikdə (Hüseynqulu Xan Nəvvab, Süleyman Mirzə, Seyid Məhəmməd Rza və b.) 1910-cu ilin sentyabrında "İran Demokrat Partiyası"nı yaradır.

**1909-cu ilin avqustun 23-də Tehranda M.Ə.Rəsulzadənin böyük fəallığı və təşkilatçılığı ilə "İrani-Nov" ("Yeni İran") qəzeti nəşr edilir.** Əslində bu qəzet İran Demokrat Partiyasının ideyalarını, fikirlərini yayırdı. Gündəlik milli, siyasi, ictimai, iqtisadi, ədəbi, bədii, əxlaqi və məzhəbi "İrani-Nov" qəzetinin naşiri Məhəmməd Əbülziya, Baş redaktoru M.Ə.Rəsulzadə idi. Bu qəzet müxtəlif fasilələrlə 1911-ci


ایران نو

***Tehranda nəşr etdiyi "İrani Nov" ("Yeni İran") qəzeti, 1909-1911-ci illər***

ilin mayın sonuna qədər nəşr edilib. M.Ə.Rəsulzadə qəzetdə aşağıdakı imzalarla yazılar çap etdirib: "M. Əmin"; "R-zadə"; "Rəsulzadə"; "M.Ə.Rəsulzadə"; "Niş". Bu imzalarla onun 29, imzasız dərc edilmiş baş məqalələrinin, redaksiya şərhi və digər yazılarının sayı isə 200-dən artıqdır (3, s. 3).

**M.Ə.Rəsulzadə İranda geniş fəaliyyət göstərirdi.** 1910-cu ildə Tehranda onun farsca "Tənqidi-firqeyi etidaiyyun və ya eçtiniaiyyun-etidaliyyun" (Mühafizəkar və ya sosialist-mühafizəkar partiyaların tənqidi) əsəri, 1911-ci ildə isə Ərdəbildə "Səadəti bəşər" kitabı (yenə farsca) nəşr edilir.

**M.Ə.Rəsulzadə İranda olarkən Məşrutə Hərəkatının rəhbəri Səttar xanla görüşür, onun qəhrəmanlığını təqdir edir.** Sonradan Bakıya qayıdanda 1914-cü ilin noyabrında "İqbal" qəzetində (N786) onun ölümünüə həsr etdiyi "Səttar xan" məqaləsini çap etdirir. XX əsrdə İranda gedən proseslərdə, xüsusən Məşrutə inqilabında onun böyük fədakarlığını qeyd edir. Yazır ki, bir zamanlar Avropa qəzetləri onun adını "Qaribaldi" ilə bərabər tuturdular: "İştə bu vaxtilə İran Qaribaldisi olan zat ölmüşdür" (3, s. 423-425).

**"İrani-Nov" qəzetində** siyasi mövzularla bağlı kəskin yazılar nəşr edilirdi. Bu mətbu orqan İrandakı xaricilərin gizli fəaliyyətlərini açıb ifşa edirdi. Sədr Haşiminin qeyd etdiyinə görə, Tehranın Milli Məclis nümayəndələri öz nitqlərində qəzetdə dərc olunan yazılardan istifadə edirdilər. "İrani-Nov" qəzetində M.Ə.Rəsulzadənin və burada fəaliyyət göstərən vətənpərvərlərin nüfuzu İran mürtəce monarxist qüvvələrini narahat edirdi. Qəzetin bağlanması üçün və M.Ə.Rəsulzadənin buradan getməsi üçün müxtəlif səbəblər axtarılırdı. Bu işdə Rusiyanın İrandakı səfirliyi də xüsusi fəallıq göstərirdi. 1911-ci ildə mayın 25-də M.Ə.Rəsulzadə "İrani-Nov"un 51-ci sayında qəzetin naşiri Seyid Məhəmməd Şəbüstəriyə yazdığı məktubunu çap etdirdi. Həmin məktubdan: "Möhtərəm müdir! Qarşılaşdığım maneələr ucbatından bir müddət qəzetçilikdən uzaqlaşmağa və bu səbəbdən də İranı tərk edərək xaricə getməyə məcburam. Ona görə də kəmali-təəssüflə məqamımdan artıq bağlı olduğum əziz "İrani-Nov" qəzetindən istefa verirəm. Xahişim budur ki, mənim bu çarəsiz ayrılıqdan hasil olan təəssüratımı və təəssüf hissimi qəbul edəsiniz. Və əgər bu səbəbdən Sizə, qələm yoldaşlarıma və "İrani-Nov"un möhtərəm oxucularına bir narahatlıq üz verirsə bu istefaya görə əfv edin, hərəkətlərimə göz yumun və məni məzur tutun. M.Ə.Rəsulzadə. "İrani-Nov"un redaktoru" (3, s. 4).

**Sonralar isə M.Ə.Rəsulzadə İrandan getmək səbəbini belə xatırlayırdı:** "O zaman orada "İrani-Nov" qəzetinin baş redaktoru idim. Avropa üsulunda İranda ilk dəfə olaraq təsis olunan bu gündəlik demokratik qəzet getdikcə artan rus nüfuzunun intriqaları ilə bağlanırdı. O gün-

lərdə Amerikanın İranın mahiyyətini islah məqsədi ilə gələn məşhur Morqan Şusterlə etdiyim siyasi müsahibənin qəzetdə dərc edilməsinə görə Rusiya səfarəti məni İrandan xaricə atdırmaq üçün təşəbbüs etdi".

M.Ə.Rəsulzadənin İrandakı fəaliyyəti haqda çox sonralar, Məşrutə İnqilabı dövründə birgə çalışdığı, İran Məclisinin bir zamanlar başçısı olmuş **Seyid Həsən Tağızadə böyük səmimiyyətlə aşağıdakı sözləri yazacaqdı:**

**...Rəsulzadə İran inqilabının başlanğıc dövründə Bakıdakı iranlı hürriyyətsevərlərlə işbirliyi yaradaraq kiçik istibdad dövründə Rəşt şəhərinə hərəkət etmişdi. Eyni ilin ortalarında Tehran zəbt ediləndə İranın başkəndinə gəlmişdi. Burada onun fövqəladə mühərrirlik qabiliyyəti meydana çıxdı və o, İran Məşrutə və ikinci Məclisi dövrünün ən yaxşı, ən tanınmış qəzetləri olan "Yeni İran"ın baş redaktoru oldu. Modern Avropa qəzetçilik məsləkini İrana gətirən və gəlişdirən Rəsulzadədir" (4, s. 36-37).**

M.Ə.Rəsulzadənin yaxın silahdaşı olmuş Mirzə Bala Məmmədzadə 1955-ci ildə Ankarada nəşr edilən "Azərbaycan" jurnalının 12-ci sayında yazırdı: "Hələ bu inqilab hərəkatını, eyni zamanda İranı müstəmləkə halına salmaq və Türkiyəni mühasirəyə salmaq istəyən Rusiyaya qarşı da bir qiyam mahiyyətində olduğu düşünülür və bu hərəkatda qafqazlı hürriyyətsevərlərin də mühüm rol oynadıqları göz önündə tutulursa, Rəsulzadəni sövq və təşviq edən qüvvət daha aşkar anlaşılmış olur" (5, 2).


ایران اصولی

یکی سیاسی فرقه

***"Yeni Qafqasiya" jurnalında "İran üsulu" yazısı***

Qeyd edək ki, İranda Məşrutə Hərəkatı yatırılandan sonra Millət Məclisi dağıdıldı, inqilabçı və hürriyyətsevərlər isə cəzalandırıldı. Bu vəziyyətdə M.Ə.Rəsulzadə yaxın dostu Seyid Həsən Tağızadə ilə birlikdə İranı tərk etdi.

Qeyd edək ki, M.Ə.Rəsulzadə sonradan Türkiyədə və digər Avropa ölkələrində mühacirətdə yaşadığı illərdə də İranda gedən prosesləri diqqətlə izləmiş və dəyərli məqalələr yazıb çap etdirmişdi. Xüsusən 1920-ci illərdə "Yeni Qafqasiya" jurnalında M.Ə.Rəsulzadənin bu mövzuda daha çox yazılarına rast gəlmək mümkündür. Belə ki, 1923-cü ildən onun İstanbulda nəşr etdiyi "Yeni Qafqasiya" jurnalında İran mövzusuna həsr edilmiş aşağıdakı yazıları çap olunmuşdu:

1. "Rusiya-İran münasibətlərindən". "Yeni Qafqasiya", il-1, say 4, 1924.
2. "İran qəzetlərinin bir münaqişəsi münasibəti ilə". "Yeni Qafqasiya", il-1, say-12, 1924.
3. "İranda Cümhuriyyət". "Yeni Qafqasiya", il-1, say 13, 1924.
4. "Müasir İranın həqiqi çöhrəsi". "Yeni Qafqasiya", il-2, say 5, 1925.
5. "Yeni İranın böyük bir müvəffəqiyyəti". "Yeni Qafqasiya", il-2, say 7, 1925-ci il.
6. "İrandakı Türkmən üsyanının mənası". "Yeni Qafqasiya", il-2, say18, 1925.
7. "İran savcıları və bolşevik-lər". "Yeni Qafqasiya", il-3, say 1, 1925.
8. "İran hadisəsinin seyri". "Yeni Qafqasiya", il-3, say 10, 1926.


BİBLİYOGRAFYA :

Rical-i Azerbaycan Der Asr-i Meşrutiyet

M. E. RESULZADE

***İranda Məşrutə Hərəkatı ilə bağlı nəşr edilən kitaba münasibətini bildirən "Azərbaycan" jurnalındakı yazısı,1955-ci il***

**1955-ci ildə ömrünün sonlarında isə İrandakı Məşrutə Hərəkatına münasibətini bildirən yazısını "Azərbaycan" jurnalında nəşr etdirdi: "Ricai-Azərbaycan Der Asri Məşrutiyyət" ("Azərbaycan" jurnalı, 1955-ci il, sayı 10-11, yanvar-fevral.)**

Bu yazılar M.Ə.Rəsulzadənin İrandakı hadisələrə və proseslərə daim diqqətli olduğunu göstərir.

**Ədəbiyyat:**

*1) Rəsulzadə M.Ə. Seçilmiş əsərləri. I cild, Bakı, 1992. 2) Məmmədli P. Cənubi Azərbaycan mətbuat tarixi. Bakı, 2009. 3) Rəsulzadə M.Ə. Seçilmiş əsərləri. II cild, Bakı, 2001. 4)Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı, 1991. 5) "Azərbaycan" jurnalı, Ankara,1955, sayi: 12(36).*

## TÜRKİYƏDƏKİ FƏALİYYƏTİ

M.Ə.Rəsulzadənin Türkiyədəki fəaliyyəti onun İrandan çıxarılması, gizli şəraitdə Bakıya gəlib burada bir müddət qalıb getməsindən sonra başlayır.

**Bu zamanlarda İstanbulda 1911-ci ilin avqustunda "Türk Yurdu" cəmiyyəti yaradılmışdı.** Bu cəmiyyətin fəaliyyətinə "İttihad və Tərəqqi" təşkilatı daha ciddi diqqət göstərirdi. Əhməd Ağaoğlu, Əlibəy Hüseynzadə, Məmməd Əmin bəy (türk şairi), Yusif Akçuraoğlu və digərləri cəmiyyətin fəalları idi. 1911-ci ilin noyabrından isə bu cəmiyyət "Türk Yurdu" dərgisini çıxarmağa başladı. Bu jurnalın imtiyaz sahibliyi şair Məmməd Əmin bəyin adına alınmışdı. Məmməd Əmin 1911-ci ilin avqustunda Ərzrum valisi olduğundan dərginin imtiyaz sahibliyi və müdirliyi Akçuraoğlu Yusifə həvalə edildi. Jurnalın nəşr proqramında aşağıdakılar nəzərdə tutulurdu: 1) Türklərə məqbul olan bir ideal cəmiyyət yaratmaq; 2) Türklərin bir-birlərini tanımalarına xidmət etmək; 3) Osmanlı türkləri arasında türk milli ruhunun inkişafına və qüvvətlənməsinə kömək; 4) Dövlətlərarası siyasətdə əsas fikri, türk aləminin mənafeyini müdafiə etmək.







Belə geniş proqramla fəaliyyətə başlayan "Türk Yurdu" jurnalının 1911-ci ilin 4-cü sayından M.Ə.Rəsulzadənin "İran türkləri" başlıqlı yazıları çap edilməyə başladı .

Onun "Türk Yurdu" və "Səbilürrəşad" ("Doğru yol") məcmuələrində nəşr edilən bu yazılarının o dövr üçün böyük əhəmiyyəti vardı. Çünki bu yazılar ilk dəfə idi ki, Türkiyədə İran türkləri haqqında ictimaiyyətə geniş məlumatlar verirdi. Məqalələri maraqlı edən digər bir cəhət isə onun müəllifinin İran mühitinə dərindən bələd olması idi.

M.Ə.Rəsulzadənin **"İran türkləri"** başlıqlı yazılarının sayı 6 idi. Az sonra onun digər bir məcmuə olan "Səbilürrəşad"da İran və İran türk-

ləri ilə bağlı 8 yazısı da çap edilir. Əslində bu yazılar da "Türk Yurdu"nda çap olunanların bir davamı idi. M.Ə.Rəsulzadə bu yazılarda daha çox İranın ümumi tarixini təsvir etmişdir ki, bu da İran türklərinin keçmişinin öyrənilməsində ciddi bir mənbədir. Qeyd edək ki, M.Ə.Rəsulzadə sonradan verdiyi bir açıqlamasında İran türkləri ilə bağlı "Səbilürrəşad"da çıxan yazılarını tamamlamadığını bildirirdi.

Türkiyədə olduğu müddətdə M.Ə.Rəsulzadə müsəlman dünyasının böyük mütəfəkkiri Şeyx Cəmaləddin Əfqaninin yaradıcılığı və dünyagörüşü ilə ciddi maraqlanır. Onun böyük əhəmiyyət daşıyan fikirlərini, fəlsəfi düşüncələrini öyrənir. Bəs Şeyx Cəmaləddin Əfqani hansı işıqlı ideyaları ilə M.Ə.Rəsulzadənin diqqətini cəlb edirdi?. İlk öncə böyük mütəfəkkir milliyyət şüurunu oyatmağın vacibliyini vurğulayır və bütün xoşbəxtliyi də bu problemin həllində görüb yazırdı: "Milliyyət xaricində səadət yoxdur".

**Məhz bu illərdə o, Cəmaləddin Əfqaninin "Milli birlik fəlsəfəsi" əsərini farscadan türk dilinə çevirib "Türk Yurdu" jurnalında nəşr etdirdi.**

Türkiyədə olarkən M.Ə.Rəsulzadə "Türk Ocaqları"ndakı dəyərli mütəfəkkirlərlə də yaxın təmaslar qurmuşdu. Belə ki, burada olan tanınmış şəxsiyyətlər arasında "türkçülük" ideyası ilə bağlı fikir mübadiləsi aparılırdı. Bu məsələdə Əli bəy Hüseynzadə ilə Ziya Göyalpın mövqeləri müxtəlif idi. Türk dünyasında ilk dəfə olaraq "türkləşmək, islamlaşmaq və müasirləşmək" fikrini irəli sürən Əli bəy Hüseynzadə "Osmanlı lisanını" qızğınlıqla müdafiə edirdi. Ziya Göyalp isə Əli bəyin "Türkləşmək, islamlaşmaq və müasirləşmək" fikrini əsaslı şəkildə işləyib sadə türkcə yazmağı, danışmağı irəli sürürdü.

**Qeyd edək ki, Ziya Göyalpın dərin təhlil edib təkmilləşdirdiyi "türkçülük" ideyasının M.Ə.Rəsulzadəyə böyük təsiri olmuşdu.** Bu haqda o, belə yazırdı: "...Mərhumun (Ziya Göyalpın) "Türk Yurdu"nda nəşr olunan "türkləşmək, islamlaşmaq və müasirləşmək" məqalələri məni vəcdə gətirdi. Bakıya getdim. Mətbuat dil məsələsi ilə məşğul idi. Bu məsələdə Ziya nəzəriyyəsini müdafiə etməyə başladım. Türkçülüyü təbliğ üçün müharibə ərəfəsində çıxarmağa başladığımız "Açıq söz" qəzetinə Ziyanın sözlərini bir "şüar" götürdük. Daha sonra Ziyanın son zamanlarda "Türk millətindənəm, islam hümmətindənəm, qərb mədəniyyətindənəm" şəklində dediyi bu şüar türkçülük, xalqçılıq vəzifələri üzərində təşəkkül edən milliyyətpərvər "Müsavat" qəzetinin proqram müqəddiməsində yer tapdı. Rus istibdadında mütəbərrik xanlıqlar şəklində deyil, müttəhit və milli bir kütlə surətində nicat bulan Azərbaycan türklüyü bu istiqlalını tərtəmiz edəcək bayrağa, əsri məfkurəsi ilə mütənasib bir məna

vermək istəyirdi. Bu mənanı da “türkləşmək, islamlaşmaq və müasirləşmək” məfhumlarında buldu: Bayrağı mavi, yaşıl və al rəngli qumaşlardan yapdı” (1, s. 45).

Türkiyə həyatı, “Türk Ocaqları”nda işıqlı düşüncə sahibləri ilə qarşılıqlı təmasları onun türkçülük fikirlərini möhkəmləndirdi və bilgilərini artırdı. Bakıya qayıtdıqdan sonra “Şəlalə” jurnalında “Yeni lisançılar və türkçülər”, “Dil ictimai mühümbir amil” adlı məqalələr çap etdirdi. 1915-ci ilin oktyabrından isə redaktoru olduğu “Açıq söz” qəzetini məhz ədəbi Azəri türkcəsi ilə nəşr etdi.

Qeyd edək ki, M.Ə.Rəsulzadə Türkiyədə olarkən Bakıda fəaliyyət göstərən müsavatçılar Balkan müharibəsi ilə bağlı xalq arasında gizli yayılan bəyannamələr hazırlayırdı. Balkan müharibəsində çar Rusiyası əleyhinə yazılan və Türkiyəyə yardıma çağıran bəyannamə hökumət dairələrini bərk narahat etmişdi. Həmin bəyannamə müsavatçı Yusif Ziya tərəfindən İstanbula çatdırılmış və M.Ə.Rəsulzadənin dəstəyi ilə “Səbilürrəşad” məcmuəsinin 1912-ci ildə (IX cilddə) 33-cü sayında nəşr edilmişdi. “Müsavat”ın qurucularından olan Məhəmməd Əli Rəsuloğlu öz xatirələrində bu haqda yazırdı: “Axtarış aparan polis müavini: “İstanbulda olan qardaşın (Rəsulzadə Məhəmməd Əmin bəyi nəzərdə tuturdu) tərəfindən sənə bir bəyannamə göndərildiyini və sənin də onu bütün Qafqaziyaya yaydığını dedilər. Sizdə də bu bəyannamə çıxmadı” – dedi və getdi” (1, s. 50).

1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibəti ilə verilən əfvi-ümumidən (bağışlamadan) sonra M.Ə.Rəsulzadə Bakıya qayıtmaq imkanı əldə etdi.

M.Ə.Rəsulzadənin Türkiyədəki fəaliyyətinin ikinci dövrü 1918-ci ilə aiddir.

**1918-ci ildə iyunun 17-də** Azərbaycan Respublikası nümayəndələrinin İstanbul Beynəlxalq Konfransına (orada – Almaniya, Avstriya, Macarıstan, Türkiyə, Bolqarıstan və Qafqaz – Gürcüstan, Azərbaycan, Ermənistan və Dağlılar İttifaqının nümayəndələri iştirak edirdi) göndərilməsi müəyyənləşdi. Konfransda iştirak etmək üçün M.Ə.Rəsulzadə, X.Xasməmmədov və A.Səfikürdskidən ibarət nümayəndə heyəti təsdiq edildi. (Buraya əlavə dörd nəfər məsləhətçi və texniki heyət də daxil idi). Nümayəndə heyətinə konfrans iştirakçıları ilə siyasi, iqtisadi, maliyyə və hərbi məsələlərlə bağlı danışıqlar aparmaq və müqavilələr bağlamaq səlahiyyəti verilmişdi.

**M.Ə.Rəsulzadənin başçılıq etdiyi nümayəndə heyəti iyunun 24-də İstanbula gəldi və** burada nümayəndə heyəti çox gərgin vəziyyətdə işləməli oldu. Bu vəziyyət M.Ə.Rəsulzadənin göndərdiyi məlumatda da-

ha dəqiq ifadə olunmuşdu. M.Ə.Rəsulzadənin 1918-ci ilin avqustun 6-dakı 18 saylı məlumatında bildirilirdi: “Xarici İşlər Naziri cənab Məmməd Həsən Hacınskiyə. Mən bir daha Tələt Paşa və Ənvər Paşa ilə görüşdüm. Sual çox qaranlıq idi, indi hər şey keçdi, onlar mənə ümid verdilər. Mən alman səfiri Bernsdorfolmla görüşdüm. Bakının neytral olması xəbərini qəzetə məlumat verən Tiflis nümayəndəliyindəki bir məmurdan öyrəndim... Hər ehtimala qarşı Bakı məsələsi əhəmiyyət kəsb edir. Azərbaycanın səlahiyyətli nümayəndəliyinin sədri – Məhəmməd Əmin Rəsulzadə” (3, F. 894, s. 10, iş 153, v. 19).

M.Ə.Rəsulzadə İstanbuldan yazdığı məktublarda narahatlıqla bildirirdi: “Nəyin bahasına olursa-olsun Bakını tutmaq lazımdır”.

O, Nazirlər Şurasının sədri F.Xoyskiyə göndərdiyi məktubda isə yazırdı: “Siyasi mənzərə tamamilə dəyişib. Vilsonun prinsipləri əsasında sülh təklif edilib. Konfrans baş tutmayacaq. Ermənilər Qarabağı tələb edirlər. Avropada mütləq gecikmədən təbliğat lazımdır. Biz getməyə hazırlaşırıq. Əlimərdan bəy Avropaya gedir” (4, s. 80).

Göründüyü kimi, Bakının alınması həyati bir məsələyə çevrilmişdi. “Müsavat” Partiyasının yaradıcılarından olan M.Ə.Rəsuloğlunun xatirələri bu mənada çox maraqlıdır: “Türk ordusu qərargahına xəritə, plan yetişdirmək üçün “Müsavat” Partiyası bütün qüvvəsilə çalışırdı. Hər gün dəniz və quru yolla türk ordusu qərargahı nəzdində bulunan arkadaşımız Abbas bəy vasitəsilə şəhərdəki əsgərlərin hərəkəti haqqında türk ordusu qərargahına lazımi məlumatlar verilirdi. Bolşeviklər bu məlumatın sürətlə öyrənilməsinə heyrət edirlərdi...” (4, s. 8).

**1918-ci il sentyabrın 15-də türk qoşunlarının və Azərbaycanın yeni yaranmaqda olan hərbi hissələrinin kəskin hücumu ilə Bakı şəhəri alındı.**

M.Ə.Rəsulzadə o günlərdə İstanbulda idi, və bu xəbəri ona Türkiyənin Hərbi Naziri Ənvər Paşa çatdırdı (5, s.51-52).

Qeyd edək ki, M.Ə.Rəsulzadə hələ İstanbulda olarkən Almaniya ilə sovet Rusiyası arasında Brest-Litovsk müqaviləsinə əlavə sazişə (27 avqust) cavab olaraq (həmin sazişə görə Almaniya Bakı neftinin bir hissəsini almaqla, Azərbaycanın bütün zəngin neft yataqlarının Kür sahilinə qədər Rusiyaya verilməsinə razı olurdu) Azərbaycan hökuməti adından Almaniyanın səlahiyyətli nümayəndəsi qraf Valdburqa bəyanat təqdim etmişdi.

M.Ə.Rəsulzadə bu problemlə bağlı qəti və kəskin mövqeyini “İqdam” qəzetindəki yazılarında da bildirirdi. Bundan əlavə ona müraciət edən qəzetlərin müxbirlərinə danışdı: **“Bakısız Azərbaycan – başsız bədəndir”** (5, s. 52).

Göstərilən ciddi-cəhdlər nəticəsində 1918-ci il sentyabrın 23-də Tələt Paşa ilə Almaniya arasında gizli protokol imzalandı və həmin protokola əsasən Türkiyə qoşunları Azərbaycandan çıxır, Almaniya isə Azərbaycanın istiqlalının Rusiya tərəfindən tanınmasını təmin edirdi.

Lakin sonrakı vəziyyət Almaniyanın bu prosesi təmin etməyinə imkan yaratmadı. Məlum oldu ki, müharibədə Almaniya, Avstriya-Macarıstan və Osmanlı dövləti ilə Bolqarıstan məğlub olmuş, hadisələrin istiqaməti dəyişmiş və Azərbaycan üçün yeni bir imtahan dövrü başlamışdı. Belə ki, Almaniya artıq məğlub dövlətə çevrilmişdi və 1918-ci il oktyabrın 30-da Lemnos adasının Mudros limanında, ingilislərin "Aqamemnon" gəmisində imzalanan sülhə əsasən Bakı, Batumi və digər yerlər müttəfiqlərin nəzarəti altına keçirdi.

Türk qoşunlarının Bakıdan çıxarılmasından sonra şəhərə girən ingilislər Azərbaycanı müstəqil dövlət olaraq qəbul etmirdilər. Lakin genaral Tomsonla aparılan uğurlu danışıqlar getdikcə real nəticələr verirdi.

**Qeyd edək ki, 1920-ci ilin məlum 27 Aprel işğalından sonra, M.Ə.Rəsulzadə bir müddət həbsxanada qaldı.** İ. V. Stalin tərəfindən azad edilib Rusiyaya aparıldıqdan sonra, oradan Finlandiyaya, Finlandiyadan isə Türkiyəyə gəldi. M.Ə.Rəsulzadənin və müsavatçıların İstanbuldakı fəaliyyətinə qədər mühacirlərimiz tərəfindən müəyyən işlər görülmüşdüsə də, lakin bu sistematli xarakter daşımırdı. Dağınıq halda olan bu qüvvələr vahid təşkilatda təmsil olunmurdu. Qeyd edək ki, hələ 1920-ci ilin əvvəlndə Almaniyada-Berlində 100-ə qədər tələbə təşkilatlanmışdı. Azərbaycan Xalq Cumhuriyyətinin səlahiyyətli nümayəndəsi, Azərbaycan Parlamentinin sabiq sədri Əlimərdan bəy Topçubaşov isə 1920-ci ilin sentyabrında Millətlər Cəmiyyətinə Azərbaycanın işğal olunması məlumatını rəsmi şəkildə çatdırsa da, bir faydası olmamışdı. "Kommunist" qəzeti isə onu bu fəaliyyətinə görə kəskin tənqid etmişdi.

Bu illər həm də Azərbaycan nefti uğrunda ayrı-ayrı dövlətlərin mübarizəsi dövrü idi. Belə ki, 1922-ci ilin aprel ayının 10-da Cenevrədə keçirilən konfransda məqsəd Bakı neftinin imtiyazı idi və bu da gizli saxlanılmışdı.

Bununla əlaqədar mühacirətdəki Azərbaycan nümayəndələri fəallıq göstərmiş, etiraz notaları vermişdilər. Beləliklə, mühacirlər "Azərbaycan davası"nı bu və ya digər şəkildə davam etdirirdilər.

M.Ə.Rəsulzadənin milli mücadilə tariximizdə ən böyük xidmətlərindən biri azərbaycanlı mühacirləri (o zaman mühacirlər iki qrupa bölünmüşdü: siyasi və qeyri-siyasi) birləşdirib toplamağı oldu. Parisdə, Tehranda, Almaniya, İtaliya, Fransa, Xorasan, Mazandaran, Qars, Ərzrum kimi şəhərlərdə nümayəndələrimizin, əski mühacirlərimi-

zin olmasına baxmayaraq İstanbulda bu işi M.Ə.Rəsulzadə öz üzərinə götürmüşdü.

O, “Milli Mərkəz” təşkil edib, müsavatçı olmayan siyasətçiləri də bir təşkilat halında birləşdirdi. Tezliklə bütün Sovetlər Birliyini həyəcana gətirən “Yeni Qafqasiya” jurnalını nəşr etdi. Az müddət içərisində M.Ə.Rəsulzadə “Azərbaycan Cumhuriyyəti, (keyfiyyəti-təşəkkülü, şimdiki vəziyyəti)” əsərini yazıb çap etdirdi. Əsər böyük maraqla qarşılandı. Vyanada çıxan “Doyçe Ostrey – Xişe Tades Saytunq” qəzetində, Türkiyədə çap edilən məşhur “Tan”, “İqdam”, “Axşam”, “Əməl” mətbu orqanlarında əsərə yüksək qiymət verilirdi.


یکی قافقاسیا

*“Yeni Qafqasiya” jurnalı*

**M.Ə.Rəsulzadənin Türkiyədəki fəaliyyətini iki dövrə bölmək olar: birinci dövr 1922-1931-ci illəri əhatə edir, ikinci dövr isə 1948-ci ildən başlayır.** Hər iki dövrdə o, böyük çətinliklərlə qarşılaşmışdı. Mühacirət həyatının ağır şərtləri daxilində mübarizə aparmaq, maddi imkansızlıq, yurdsuzluq kimi çətinliklər içərisində yaşamaq və nəhayət kənar ölkə daxilində (istər Türkiyə olsun, istərsə də digər Avropa ölkələri) siyasi mücadiləyə uyğunlaşmaq çox çətin idi. Digər tərəfdən buraya nəhəng bir imperiya maşını – Sovetlər Birliyi də təsir edir, M.Ə.Rəsulzadənin və başqa mühacirlərin fəaliyyətinə maneçilik göstərirdi.

M.Ə.Rəsulzadə yazırdı: “Bulunduğumuz mühacirət şərtləri daxilində, Azərbaycan davası naminə birləşmək milli davanı yaşatmış və yaşadan fikir sistem və nümayəndələrinə hörmət etməklə olur. Bunun üçün hər türlü kiçik hesablardan və hisslərdən sıyrılaraq fikrə önəm vermək lazımdır” (4 s. 176).

Azərbaycan Milli Qurtuluş Hərəkatının böyük ideoloqu M.Ə.Rəsulzadənin istiqlal tariximizdəki ən böyük xidmətlərindən biri də Azərbaycanın azadlığı, müstəqilliyi mübarizəsini elmi və sistemli şəkildə aparan mətbuat orqanlarını yaratmasıdır.

M.**B.Məmmədzadə yazırdı:** “Çünki o, (yəni M.Ə.Rəsulzadə - N. Y.) mətbuatın nə kimi bir qüvvə olduğunu yüksək qiymətləndirirdi... Mətbuat aydınlaşdırma ilə birlikdə fikirləri və beyinləri bir ideal ətrafında

birləşdirmək, tərbiyə və sövq etmək qüdrətinə də malikdir” (6, s. 177-178).




***“Azəri Türk” jurnalı***

Əslində Azərbaycan mühacirət mətbuatının yaranma tarixi məhz **1923-cü il sentyabrın 26-dan –** “Yeni Qafqasiya” jurnalının nəşrindən başlayır.

1927-ci ildə sovet dövlətinin təzyiqi ilə Türkiyə hökuməti “Yeni Qafqasiya”nın nəşrini qadağan etdi. “Yeni Qafqasiya”nın nəşri dayandırıldıqdan sonra M.Ə.Rəsulzadə böyük cəhdlərlə “Azəri Türk” jurnalının çapına nail oldu. **Jurnal 1928-ci ildə** İstanbulda nəşrə başladı. Jurnalın abunə şəraiti belə idi: illiyi 200 quruş, altı aylığı 110 quruş, bir nüsxəsi 10 quruş, xaricdə bir nüsxəsi 10 quruş, jurnal on beş gündən bir çap olunurdu. Ədəbi-ictimai, elmi və siyasi, milliyyətçi bir məcmuə idi. Jurnalın məsul müdiri Məmməd Sadiq idi. Jurnalın baş məqaləsi “Tutacağımız yol” adlanırdı. Məqalənin müəllifi M.Ə.Rəsulzadə idi. O, yazırdı: “Gedəcəyimiz yol əski zaman şairlərinin iftixar etdikləri kimi “Rəhi-narəbdə” (getməyən yol) deyildir. Əksinə, bu yol çox müşkül və tikanlı olmaqla bərabər, gedilmiş şanlı bir yoldur. Bu haqq yolu və millət yoludur. Bir yol ki, müasir şərq hal-hazırda o yolla salih olmuşdur. Bir yol ki, sabit Rusiya imperatorluğu daxilində yaşayan məhkum millətlər, dəxi o yola girmişlərdir. Bir yol ki, milliyyət hədəfi istiqlaldır!” (7).

**1929-cu il martın 1-də M.Ə.Rəsulzadə daha bir mətbu orqanın – “Odlu Yurd”un nəşrinə başladı.** Milli hərəkata güc verməyə, bolşevizmlə mücadiləni şiddətləndirməyə yönələn “Odlu Yurd” oxucuların böyük marağına səbəb oldu. Dərginin ilk sayında M.Ə.Rəsulzadənin “Çöhrəmiz” adlı məqaləsi çap olundu: “Odlu Yurd! Bu iki söz türkcə kəlmənin – “Azərbaycanın müqabil olduğunu söylərsək, məsələ


ODLU YURT
MİLLİ AZERBAYCAN FİKRİYATINI TERVİC EDEN AYLIK MECMUA
Başmuharriri M. E. Resul-zade
Yıl : 2 28 Mayıs 1930 Sayı : 16 (4)
28 Mayıs 1918
Azerbaycan İstiklâl beyannamesinden

*“Odlu Yurd” jurnalı*

yarı-yarıya anlaşılmış olur. Yarı-yarıya deyirik, çünki hal-hazırda bir deyil, iki Azərbaycan vardır: Rus istilasına rəhbərlik rolunu oynayan “qızıl Azərbaycan” ilə qəlbində hürriyyət və istiqlalın sönməz odunu daşıyan “milli Azərbaycan!”. Milli Azərbaycan bayrağı – işdə bizim çöhrəmiz!.. Milli hürriyyət uğrunda çarpışan, çalınmış istiqlalını geriyə al-maq üçün çalışan bir millət çöhrəsi!” (8).

Azərbaycanlı mühacirlərin fəaliyyətinə əsas dəstəyi **“Türk Ocaqları”** göstərirdi. Əsası 1912-ci ilin martın 25-də qurulan bu dərnəyin Nizamnaməsində göstərilirdi: “Türk təbəələrini bir islam millətinin ana fəsi olaraq tanıtmaqda, böyləcə osmançılıq, islamçılıq və türkçülük akımlarının bir arada var olduğu bu keçiş dönəminin bəlirsiz xarakterini sərgi-ləməkdəydi” (13, 55).

Sonrakı fəaliyyətində Türkiyə xaricində yaşayan türklərə dəstək ve-rən “Türk Ocaqları” Cumhuriyyət elanından sonra yeni problemlərlə üz-ləşdi. 1929-cu ildə “Yeni Məcmuə”dəki söhbətində Türkiyənin tanınmış dövlət adamı Həmdullah Sübhi Tanrıövər “Türklük” anlayışının siyasi sərhədlər hüduduna çıxmasının əleyhdarı olduğunu bildirmişdi. Həm-dulla Sübhi demişdi: “Kaşğar, Türküstan, Krım, Bakı, Azərbaycan... Bü-tün türk məmləkətləri ilə aramızda könül və fikir birliyi vardır. Türk oca-ğı dar millətpərvərlik güdməz. Ocaqlı bilir ki, bu müəssisə Şərqdə Qərbin müməssimidir. Mədəniyyət birdir, yalnız şəkli başqadır” (13, s.57).

Əslində Həmdulla bəy təşkilatın milliyyətçiliyini “kültürəl milliy-yətçilik” olaraq tanıtmaq istəyirdi. Lakin onun əksinə olan müəyyən qüv-vələr isə “Türk Ocaqları”nın “Dış türklər” nəzdində daha “fəal” bir poli-tika izləməsi gərəkliyi” önə sürdülər” (13, s.57).

**1924-cü ildə** 64 nümayəndənin iştirakı ilə keçirilən “Türk Ocaqla-rı”nın ilk konqresində yenə iki məsələ xüsusi olaraq vurğulanırdı: 1) Dil hüdudlarını istilahlara qarşı qorumaq; 2) Türk inqilabının beşikçisi ol-maq. (13,s. 58).

“Türk Ocaqları”nın 1925-ci il qurultayı da ciddi mübahisələrlə keç-di. “Xaricdəki türklər” mövzusu ətrafında ciddi müzakirələr aparıldı. “Türkiyə xaricində yaşayan türklərin “Türk Yurdu” dərgisi vasitəsi ilə aydınladılması və yüksəldilməsi vəzifəsinin üstələnməsi” fikrinə çoxluq üstünlük verdi (13,s. 60).

**1927-ci ildə** "Türk Ocaqları"nın qurultayında edilən bir dəyişiklik isə bu qurumun fəaliyyətini məhdudlaşdırırdı. Belə ki, Cumhuriyyət Xalq Partiyası Nizamnaməsinin 40-cı maddəsindəki dəyişikliyə əsasən türk ocaqlarının partiya təsiri altında bir quruluş olduğu vurğulanırdı. Və xüsusi qeyd olunurdu ki, "Türk Ocaqları"nın şöbələri ancaq Türkiyə Cumhuriyyəti dövlətinin sərhədləri daxilində qurulub fəaliyyət göstərməlidir.

**1928-ci ildə** isə Həmdullah Sübhi bəy Ədalət naziri Mahmut Ecat Bozqurdun hüzurunda etdiyi bir çıxışında "Türk Ocaqları" milli hüdudların xaricində heç bir fəaliyyət sahəsi qəbul etməmiş və etməyəcəkdir" fikrini söyləmişdi (13, 61).

Türkiyədə artıq tək partiya rejiminin güclənməsi bütün sahələrdə hiss olunurdu. Son olaraq isə "Türk Ocaqları"nın 1930-da qurulan sərbəst partiya ilə əlaqələrinin müəyyənləşməsi hər ikisinin bağlanmasına daha bir səbəb oldu.

Beləliklə, azərbaycanlı mühacirlərin də fəaliyyətinə ciddi dəstək verən "Türk Ocaqları" qurumu fəaliyyətini dayandırdı.

**Bu prosesin sonu olaraq azərbaycanlıların Türkiyədəki siyasi fəaliyyəti qapadıldı. Əlavə edək ki, 1931-ci ildə Türkiyə Xarici İşlər Naziri Tövfik Rüştinin və SSRİ Xarici İşlər Naziri M.M.Litvinovun ölkəyə müvafiq səfərindən sonra azərbaycanlı mühacirlərin Türkiyədə Sovet İttifaqı əleyhinə təbliğatı dayandırıldı.** Mühacirlərin düşdüyü vəziyyəti Azərbaycanda Kommunist Partiyasının XX Bakı Konfransında partiya katibləri Polonski və Ağa Sultanov çıxışlarında belə bildirirdilər: "Mü-


11631

Ecnebi polıtikasına alet olarak komşu ve dost hükûmet aleyhi-
ne neşriyatta bulunan Yeni Kafkas, Otlu Yurt, Bildiriş ve Azerî Türk
Gazete ve Risalelerinin Matbuat Kanununun ellinci maddesine tevfikan
kapatılmaları; Hariciye Vekili Beyfendinin şifahen vukubulan tekli
üzerine İcra Vekilleri Heyetinin I7/8/93I tarihli içtimaında tasvi
ve kabul olunmuştur.

I7/8/93I

REİSİCÜMHUR

Gazi M. Kemal

***Mühacirət mətbuatının Türkiyədə qadağan edilməsi sənədi, 1931-ci il***

savatçılar xarici ölkələrdə bizim əleyhimizə ciddi mübarizə aparırlar, lakin onlara yeni zərbə vurulmuşdur. İstanbulda Məhəmməd Əmin Rəsulzadənin ümumi redaktəsi altında çıxan mətbuat orqanları "Odlu Yurd", "Azəri Türk", "Bildiriş" kimi məcmuələr... bağlanmışdır" (4, 195.).

M.Ə.Rəsulzadə isə Türkiyədə fəaliyyətlərinə imkan verilmədiyinə bərk təəssüflənir, Azərbaycan istiqlalçılıq məfkurəsi səsinin boğulmasından narazılıq edir, bildirirdi ki, bu iş qardaş Türkiyənin əli ilə edilmişdir. **M.Ə.Rəsulzadə yazırdı: "Heyif bu dövrə!"** (4, 197).


BAŞVEKÂLET
AMELÂT MÜDÜRLÜĞÜ
Şube: 2
Sayı: 1951

KARARNAME

8/IO/934 tarih ve 2/I366 sayılı kararnameye ektir:
Türkiyeye sokulması yasak edilen İstiklal gazetesinin yerine
çıkarılan Kurtuluş mecmuasının da Türkiye için zararlı yazıl
anlaşıldığından Matbuat kanununun 5I inci maddesi hükmüne g
yeye sokulmasının yasak edilmesi; Dahiliye Vekilliğinin I7/
rih ve 830 sayılı tezkeresile yapılan teklifi üzerine İcra
Heyetince 20/I2/934 te onaylanmıştır.

20/I2/934

REİSİCUMHUR

Təəssüflər ki, Sovetlər Birliyinin təsiri altında Türkiyə dövlətinin bütün siyasi qafqazlılara münasibəti kəskinləşdi. 1931-ci ildə siyasi baxışlı mühacirlərin, o cümlədən M.Ə.Rəsulzadə və başqalarının, ölkəni məcburən tərk etməsindən sonra növbəti bir addım atıldı. 1938-ci ilin sentyabrın 6-da Türkiyə hökumətinin göstərişi ilə Qafqazdan və Türküstandan olan bəzi tanınmış siyasi mühacirlər də Türkiyə vətəndaşlığından məhrum edilərək ölkədən çıxarıldı. Bununla əlaqədar Parisdə nəşr edilən "Qafqaz" jurnalı yazırdı: "Bu sərt cəzaya heç bir siyasətlə məşğul olmayan adamlar da məruz qaldılar... Dekretdə hansısa törədilmiş konkret bir cinayət haqqında danışılmır, yalnız bir məqam – təbliğat, inqilabi və kəşfiyyat təşkilatlarının "Bizim ölkəmizin başqa bir dost ölkənin əleyhinə yönəldilmiş bazasına çevrilməsi" vurğulanır. Məlum olduğu kimi, belə bir cəhd üçün ortalıqda heç bir fakt yoxdur... Bizim mübarizəmiz azadlıq uğrunda, Qafqazın müstəqilliyi uğrunda vətənimizi işğal etmiş Sovet dövlətinə qarşı aparılan mübarizədir. Bu, heç kim üçün sirr deyildir. Biz bu mübarizəni açıq aparırıq və bütün ölkələrdə aparırırq və həmin

ölkələrin qanunlarından, beynəlxalq öhdəliklərdən kənara çıxmırıq. Türkiyədə baş verən bu hadisənin səbəbini dostlarımızın qeyri-leqal çalışmalarında deyil, ictimai-siyasi şəraitdə axtarmaq lazımdır "(15,s.62).

Məqalədən bir daha aydın olurdu ki, Türkiyə dövləti bu addımı Sovetlər Birliyinin təzyiqi ilə atmışdır.

**Sovetlər Birliyinin Türkiyə ilə yaxınlaşmasını M.Ə.Rəsulzadə belə dəyərləndirirdi:** "Cümhuriyyət Türkiyəsi ilə Sovet Rusiyası siyasətcə dost ola bilərlər; mənfəətləri bir qaldıqca bu dostluq ta varlığını mühafizə edə bilir. Fəqət unutmamalıdır ki, Türkiyə Cümhuriyyəti ilə Sovetlərin siyasi mənfəətləri bir zaman üçün, bir olsa da, bu iki təşəkkülü canlandıran əsl əsaslar arasında dərin bir müxalifət vardır. Milliyyətçiliklə kommunizmin dost bir qüvvət olduğunu kim iddia edə bilər?" (15,s.63).

M.Ə.Rəsulzadə doğru olaraq göstərirdi ki, "Türk-Rus dostluğundan" çox faydalar gözləmək əbəsdir. Çünki bolşevizm burjua sisteminin düşmənidir. Milliyyətçilik isə onun görünüşündə burjua sinfinin məfkurəsidir. Bu mənada M.Ə.Rəsulzadə haqlı sual edirdi: "Nə zamana qədər milliyyətçi şərq kommunist Rusiyanın dostudur?" (14).



***M.Atatürkün V.İ.Leninə məxfi məktubu, 1922-ci il***

Qeyd edək ki, Türkiyə dövləti getdikcə Rusiya ilə münasibətləri yaxşılaşdırmağa çalışırdı. **Bu mənada Mustafa Kamalın 1922-ci ilin aprelin 10-da Leninə yazdığı məktub da çox maraqlıdır.** Atatürk yazırdı: "Əziz sədr! Rusiya ilə bağlanan xoşbəxt müqavilədən sonra biz Qafqaz respublikaları və Ukrayna ilə də müqavilə bağladıq. Türkiyə Böyük Millət Məclisi hazırda həmin sənədləri ratifikasiya edir... Rusiya ilə dostluq Böyük Millət Məclisi hökumətinin keçmişdə olduğu kimi hazırda da siyasətinin əsasını təşkil edir" .

Belə vəziyyətdə isə azərbaycanlı mühacirlərin Türkiyədə fəaliyyət göstərməsi ciddi çətinliklər yaratmaya bilməzdi. Bununla əlaqədar M.Ə.Rəsulzadə yazırdı: "1922-ci ildə İstanbulda Azərbaycan haqqında nəşr etdirdiyimiz ilk kitab bolşeviklərin müəyyən reaksiyasına səbəb oldu. Bakıda və Tiflisdəki kommunist qəzetlərində M.D.Hüseynov və Ə.Qarayev və başqaları bizim tezisləri təkzib edib sübut etməyə çalışırdılar ki, "Müsavat" idarəçiliyi dövründə Azərbaycan müstəqil olmayıb və onun müstəqilliyi ancaq sovet rejimində təmin edilib.

Stalinə yaxın olan, Zaqafqaziyanı işğal etmiş XI Ordunun Baş Qərargah üzvü, Rusiya Kommunist Partiyasının Qafqaz Dairə Komitəsinin Baş katibi Orconikidze isə Bakıdakı partiya auditoriyası qarşısında çıxış edərək M.Ə.Rəsulzadənin tezisləri ilə polemika apararaq deyirdi: "Mənim cibimdə M. Ə. Rəsulzadənin bir kitabı var. "Müsavat"ın uzaqgörəni tələb edir ki, rus yoldaşlar Azərbaycanı tərk etsinlər. Yox, onlar buradan getməyəcəklər" (4, 161).

"Yeni Qafqasiya" jurnalının nəşrə başlamasından sonra isə Bakı ilə İstanbul arasında gərginlik daha da artdı. Sovet mətbuatı orqanlarında azərbaycanlı mühacirlərin, əsasən isə M.Ə.Rəsulzadənin əleyhinə yazılar çap edilirdi.

Bolşeviklər isə mühacirlərin əleyhinə olaraq başqa vasitələrdən də istifadə edirdilər. Onlar xüsusi təşkil olunmuş fəhlə "mitinqləri" keçirir və guya sosialist "vətəni"nin kapitalistlər tərəfindən devrilməsindən danışırdılar. Keçirilən qurultay, Ümumbakı konfransları və digər təşkilatların adından SSRİ Xarici İşlər Komissarı Çiçerin Türkiyə hökumətindən öz ərazisində antisovet nəşrləri dayandırmaq və azərbaycanlı mühacirlərə sığınacaq verməmək xahişini edirdi. 1925-ci ildə, AKP-nin Bakıda keçirilən XVI konfransında isə Türkiyə ictimaiyyətinin sovet rejiminə münasibəti və xüsusən "Yeni Qafqasiya"nın xarici təbliğatı tənqid edilirdi. Bəzi çıxışçılar isə tələb edirdi ki, sovet hökuməti Türkiyədən "Yeni Qafqasiya"nın nəşrinin dayandırılmasına nail olsun.

Bakıda sovetlərin IV qurultayında çıxış edən SSRİ Xarici İşlər Komissarı Çiçerin isə bildirirdi ki, o, dəfələrlə Türkiyə hökumətinin diqqətini azərbaycanlı mühacirlərin "zərərli" fəaliyyətinə yönəldib.

**"Yeni Qafqasya"nın texniki səbəblərə görə 1927-ci ildə fəaliyyətini dayandırması kommunistlərin əsl bayramına çevrilmişdi.** "Kommunist" qəzeti özünün baş məqaləsini bütövlükdə bu hadisəyə həsr etmişdi. Sonradan isə mühacirət mətbuatı orqanlarımız başqa adlarla Türkiyədə nəşrini davam etdirmək məcburiyyətində qaldı: "Azəri Türk", "Odlu Yurd", "Bildiriş". Çox ehtimal ki, bu mətbuat orqanlarının başqa adlarla çıxmasının səbəblərindən biri də diqqəti yayındırmaq, müəyyən müddətə nəşr imkanları əldə etmək idi.

Lakin SSRİ dövləti Türkiyə ilə münasibətini yaxşılaşdırdıqca mühacirlərin siyasi fəaliyyətini dayandırması ciddi qoyulurdu.

Türkiyə dövləti isə yalnız 1931-ci ilə qədər azərbaycanlı mühacirlərin mətbuat orqanları nəşr etməsinə imkan yarada bildi. 1931-ci ildə SSRİ ilə Türkiyə arasında imzalanan müqavilədən sonra bu mümkün olmadı.

**1931-ci ildə avqustun 17-də Atatürkün imzası ilə 11631 saylı belə bir qərarnamə qəbul edildi:** "Əcnəbi politikasına alət olaraq qonşu

və dost hökumət əleyhinə nəşr olunan “Yeni Qafqasiya”, “Odlu Yurd”, “Bildiriş” və “Azəri Türk” qəzet və risalələrinin Mətbuat Qanununun 50-ci maddəsinə uyğun olaraq qapadılmaları; Xariciyə Vəkili Bəyəfəndinin şifahən bükubulan təklifi üzərinə İcra Vəkilləri Heyətinin 17\8\931 tarixli ictimayında təsvib və qəbul olunmuşdur. 17\8\931. Rəisicümhur: Qazi M. Kemal” (16, 030. 18.01.03.48.68.4).

Bu qərardan sonra azərbaycanlı mühacirlərin Türkiyədə mətbu fəaliyyətləri qeyri-mümkün oldu. Bundan əlavə Türkiyədə sonradan kitab, almanax və digər nəşrlərə də yasaq qoyuldu. Belə ki, 1936-cı ilin sentyabrın 12-də Atatürkün imzası ilə başqa bir qərar veridi. Həmin qərarda göstərilirdi: “Mehmed Sadıq tərəfindən yazılıb 1935-ci ildə İstanbulda “Milli Məcmuə” mətbəəsində türkcə olaraq basılan “Ərgənəqon yolları” adındakı kitabın zərərli yazılar daşıdığı anlaşıldığından Mətbuat Qanununun 51-ci maddəsi hökmünə görə toplatdırılması və satışının yasaq edilməsi; Daxiliyyə Vəkilliyinin 8\8\1936 tarix və 1413 saylı təzkərəsi ilə yapılan təklifi üzərinə İcra Vəkilləri Heyətincə 18\9\936-da qəbul edilmişdir. 12\9\936. Rəisicümhur: K. Atatürk” (16, 030.18.01.03.27.02).

Atatürk tərəfindən 1936-cı ilin sentyabrın 15-də verilən 5322 saylı başqa bir əmrdə göstərilirdi: “Qərarnamə. F. Dəryal tərəfindən yazılan və İstanbulda “Milli Məcmuə Mətbəəsində Türkcə” basılan “Qafqaz almanaxı adındakı kitabın zərərli yazılar daşıdığı anlaşıldığından, Mətbuat Qanununun 51-ci maddəsi hökmünə görə toplatdırılması və satışının yasaq edilməsi; Daxiliyyə Vəkilliyinin 8\9\936 tarix və 1414 saylı təzkərəsiylə yapılan təklifi üzərinə İcra Vəkilləri Heyətincə 15\9\936-da qəbul edilmişdir. 15\9\936. Rəisicümhur: K. Atatürk” (16, 030.18.01.01.019.30.2).

Azərbaycan mühacirlərinin mətbuat orqanlarının Türkiyədə qadağan edilməsi bolşeviklərin böyük razılığına səbəb oldu. 1932-ci ilin yanvarında XX Ümumbakı Partiya konfransında AKP katiblərindən olan Ağa Sultanov çıxışında bu hadisəni xüsusi olaraq qeyd etmişdi.

Türkiyədə azərbaycanlı mühacirlərin nəşrlərinə qoyulan qadağadan sonra mühacirət mətbuatımızın Avropa dövrü başladı. Almaniyada (Berlində) və Polşada (Varşavada) mühacirlərimiz milli nəşriyyatlarını yaradıb fəaliyyətini davam etdirdilər.

Qeyd edək ki, “Azərbaycan” jurnalının nəşri də M.Ə.Rəsulzadənin İkinci Dünya müharibəsindən sonra Türkiyəyə qayıdıb reallaşdırdığı mühüm xidmətlərindən biri idi. **1952-ci il aprelin 1-də o, “Azərbaycan Kültür Dərnəyi”nin orqanı olan “Azərbaycan” jurnalının ilk sayını nəşr etdirdi. Dərginin ilk nüsxəsinin üz qabığında bu sözlər yazılmışdı: “Birlik dirilikdir”, “Türkləşmək, islamlaşmaq, müasirləşmək”. Jurnalın üz səhifəsində Azərbaycanın xəritəsi verilmişdi.** “Azərbay-

can" məcmuəsi Anafartalar caddəsində - "Azərbaycan Kültür Dərnəyi"nin yerləşdiyi binada çıxarılırdı. Qiyməti 25 quruş idi.

Jurnalın ilk sayında M.Ə.Rəsulzadənin Azərbaycanın tarixindən, ümumi vəziyyətindən bəhs edən yazısı verilmişdi: "Doğuda Xəzər dənizi, quzey Qafqaziya, Bakıda Gürcüstan ilə Ermənistan və güneydə İran ilə sərhəddir. Başı qarlı dağlarla, bəzi yerlərində okean səthindən aşağıda yerləşən burası türlü bitkilərlə, heyvanlar baxımından çox çeşidli bir mənzərəyə malikdir" (9).

"Azərbaycan" jurnalı Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatı, adət və ənənələri ilə bağlı çoxlu sayda yazılar çap edirdi. M.Ə.Rəsulzadənin, M. B.Məmmədzadənin, Ə.V.Yurdsevərin, K.Odərin, M.Kəngərlinin, C.Ünalın, Ə. Qaracanın Azərbaycan həqiqətləri ilə bağlı yazıları böyük maraq doğururdu. "Azərbaycan" jurnalı bu günədək Ankarada nəşrini davam etdirməkdədir.




*M.Ə.Rəsulzadənin Ankarada nəşr etdiyi "Azərbaycan" jurnalı, 1952-ci il*

Qeyd edək ki, M.Ə.Rəsulzadə Türkiyəyə qayıtdıqdan sonra əski legionçuların və mühacirlərin bir mərkəz ətrafına toplanmasını vacib sayırdı. **Elə bu məqsədlə də o, 1949-cu ilin fevralın 1-də Ankarada "Azərbaycan Kültür Dərnəyi"ni yaratdı** (1). Dərnəyin ilk toplantısında doktor İbrahim Bədəl Məhəmməd Əmin Rəsulzadənin yaradılan qurumun Fəxri Başqanı seçildiyini elan etdi. Qeyd edək ki, M. Ə. Rəsulzadə ömrünün sonuna qədər Dərnəyin Fəxri sədri olaraq qaldı.

"Azərbaycan Kültür Dərnəyi"nin əvvəlinci maddələrində qeyd olunmuşdu: "Maddə 1. "Azərbaycan Kültür Dərnəyi" adı ilə bir dərnək qurulmuşdur. Dərnək siyasətlə məşğul deyildir. Mərkəzi Ankaradadır. Şöbəsi yoxdur. Maddə 2. Dərnəyin qayələri bunlardır: a) Azərbaycanı, onun tarixini, kültürünü araşdırmaq, işləmək və yaymaq; b) kitab, dərgi və qəzet olaraq çap etmək və mədəniyyət yığıncaqları tərtib etmək; c) möhtac Azərilərə maddi və mənəvi köməklik göstərmək" (10, s. 3).

"Azərbaycan Kültür Dərnəyi"nə 18 yaşını bitirmiş hər bir türk üzv ola bilərdi. Bundan ötrü Dərnək üzvlərindən ən azı iki adam ona zəmanət verməli idi. Birinci maddədə yazılmış "Dərnək siyasətlə məşğul deyildir" fikri M. Ə. Rəsulzadənin mürəkkəb bir şəraitdə Azərbaycanın müstəqillik mübarizəsini apardığını təsdiqləyirdi.

İkinci Dünya hərbindən sonra isə mühacir təşkilatların birləşib antisovet mübarizə aparmasına getdikcə daha çox ehtiyac duyulurdu. Digər tərəfdən müxtəlif ölkələri təmsil edən ayrı-ayrı mühacir təşkilatlarının mövcudluğu və bəzi hallarda bu qrupların daxili çəkişmələrə meylliyi reallığa çevrilirdi. Bu illərdə bir neçə rus, gürcü, erməni, tatar təşkilatları ilə yanaşı iki azərbaycanlı təşkilatı da mövcud idi. Təşkilatlardan biri 1924-cü ildən fəaliyyət göstərən "Azərbaycan Milli Mərkəzi" idi. "Azərbaycan Milli Mərkəzi" İkinci Dünya hərbindən sonra Ankarada yerləşirdi və Milli Mərkəzin Başqanı M.Ə.Rəsulzadə idi.

İkinci mühacir azərbaycanlı təşkilatı "Azərbaycan Milli Birlik Məclisi" adlanırdı. Təşkilat 1943-cü ildə Berlində yaradılmışdı. Təşkilatın rəhbəri Ə.Fətəlibəyli Düdənginski (sonradan rəhbər C. Hacıbəyli olmuşdu), Başqanlıq Heyətinin üzvləri isə Ceyhun Hacıbəyli, Əkbərağa Şeyxülislam idi. Hər iki təşkilat arasında çəkişmələr, ziddiyyətlər mövcud idi.

**Belə bir vaxtda antibolşevik cəbhənin yaradılmasını vacib sayan "Amerikan Komitəsi" fəaliyyətə başladı.** "Amerikan Komitəsi"nə əvvəl C.Layons, sonradan isə Ameriaknın Moskvadakı keçmiş böyük elçisi Alan Gerk başçılıq edirdi. 1962-ci ildən isə Sovet Rusiyasını yaxından tanıyan, Moskvada Amerika attaşesi olmuş Stevens Komitənin başqanı oldu. Komitə üzvləri arasında tanınmış siyasətçilər də çoxdu. Onların arasında aşağıdakılar vardı: Çarlz Edison (məşhur Tomas Edisonun oğlu), Vilyam Hanri Çemberlin (Amerikada sovet məhkumu millətlərin istiqlal haqlarının müdafiəsi ilə məşhur idi), general-mayor Con Dein (Moskvada olmuş, "Streync Əlleyinc" kitabı ilə böyük rəğbət qazanmışdı), Nikolas Ruzvelt (yazıçı və diplomat, Amerikanın Macarıstan elçisi olmuşdu) .

"Amerikan Komitəsi" bildirirdi ki, millətlər, xalqlar Sovet hökumətinin diktatorluğu altında qaldıqca, insanların azad və hürriyyət içində yaşaması mümkün olmayacaq. "Amerikan Komitəsi" proqramına müvafiq surətdə fəaliyyətə başladı.

"Amerikan Komitəsi"nin yardımı ilə **1951-ci il yanvarın 16-da bir çox rus partiyalarının iştirakı ilə Füssen konfransı** keçirildi (4, s. 229). Konfransda mühacir ruslar yalnız Rusiyanın ərazi bütövlüyünün qorunması şərtilə qeyri-rus təşkilatları ilə işbirliyini mümkün saydılar.

Bu işin davamı olaraq yenə "Amerikan Komitəsi"nin yardımı ilə 1951-ci il avqustun 28-də Qərbi Almaniyanın Ştutqart şəhərində mühacir ruslar konfrans keçirdi. Bu konfransda onlar "Rusiya millətlərinin Qurtuluş Şurası" yaradılmasına qərar verdi. Bununla bərabər Rusiyadakı

milli azlıqların da nümayəndələrini bu "Şura"ya cəlb etmək məqsədi ilə ayrıca büro da yaradılmışdı.

**Vəziyyət belə olduqda M.Ə.Rəsulzadə "Amerikan Komitəsi"ni ciddi tənqidə başladı.** Qeyri-rus xalqların uzun illər idi ki, apardığı "qurtuluş dava"sına etinasız yanaşan mühacir rus təşkilatlarının maliyyələşməsini düzgün olmayan hərəkət adlandırdı. Vəziyyətin getdikcə gərginləşdiyini, əski mühacirlərin güclü etirazlarını hiss edən "Amerikan Komitəsi" rus mühacir təşkilatlarına qeyri-rus mühacir təşkilatları ilə işbirliyinin vacibliyini bildirdi.

**Bunun davamı olaraq 1951-ci il noyabrın 7-də Qərbi Almaniyanın Visbaden şəhərində** beş mühacir rus təşkilatlarının (1. "Rusiyanın hürriyyəti üçün mücadilə birliyi". 2. "Milli Əmək Birliyi". 3. "Rus Xalq Hərəkatı". 4. "Xalqın Hürriyyəti üçün Mücadilə Məmiyyəti". 5. "Rusiya xalqlarının qurtuluşu üçün mücadilə birliyi) və beş də rus olmayan millətlərə mənsub təşkilatların nümayəndələrinin iştirakı ilə konfrans keçirildi. Konfransda ukraynalıların və gürcülərin, türküstanlıların, şimali qafqazlıların tanınmış adamları iştirak etmirdi (4, s. 229-230).

Konfransda çıxış edən A.Kerenski "Bölünməz Rusiya" fikrini müdafiə edirdi. Qeyri-rus mühacirlər isə Birləşmiş Millətlər Təşkilatının insan haqlarına aid prinsiplərə əsaslanırdılar. Konfransın yekunu kimi bir bəyannamə imzalandı. Bəyannaməni azərbaycanlı təmsilçilər də imzaladılar.

"Rusiyanın bölünməzliyi" ideyası ilə çıxış edən, Azərbaycanın istiqlalını (eləcə də digər rus məhkumu xalqların) xalqın öz "iç işi" kimi qəbul etməyən, Azərbaycanın azadlıq mübarizəsini (yenə digər xalqların) Rusiyanın daxili məsələsi kimi anlayan rus mühacirləri ilə bəyannaməni imzaladığına görə "Milli Birlik Məclisi" M. Ə. Rəsulzadənin şiddətli hücumuna məruz qaldı. Bir çox şəhərlərdə yığıncaqlar keçirildi, təmsilçilərin hərəkəti pislənildi.

**M.Ə.Rəsulzadə Kerenskinin** hansı ideyalarla mübarizə apardığına bələd olduğundan onun başçılıq etdiyi rus təşkilatı ilə birgə işin əleyhinə idi. Kerenski "Bölünməz Rusiya"nın qəti


ДНИ

ЕЖЕНЕДЕЛЬНИК под редакцией А. Ф. КЕРЕНСКОГО

АДРЕС РЕДАКЦИИ И КОНТОРЫ:
rue VINEUSE, Paris (16е).
Téléphone: Passy 89-61

Условия подписки:
Во Франции, Чехии и Югославии
В Германии и лимитрофах
В Америке
В Англии и колониях

С 1-го декабря льготная подписка для рабочих, служащих и студентов, живущих во Франции, Чехословакии и Югославии — 4 франка в месяц, 10 франков за 3 месяца.

№ 109 ВОСКРЕСЕНЬЕ, 5 ОКТЯБРЯ 1930 г.

Содержание:

А. Керенский: Голос издалека (Героический протест; Отступление или капитуляция?).
Прокламация рабоче-крестьянского комитета.
№ 4: Доклад Догадова (Корреспонденция из Москвы).
Московские толки о войне (Отрывок из письма).
Из России пишут: 1) Письмо бывшего комсомольца; 2) Про- ... 3) ... 4) Ликвидация «бедняцкой категории»;
... из Тавриза).
С. Соловейчик: Большевизм и сепаратизм.
А. Марков: «Обвинительный акт».
А. Потресов: Из мира рабочего движения и социализма ... Политические итоги германских выборов).
Иностранная хроника: Гильфердинг о положении в Германии ... выборах; Германия — Италия — Муссолини о германских выборах; ...

***A.Kerenskinin Parisdə nəşr etdiyi "Dni" (Gün) qəzeti. M.Ə.Rəsulzadə burada çap edilən yazıya cavab vermişdi, 1930-cu il***

tərəfdarı idi və hələ 1920-30-cu illərdən bu mübarizəsini davam etdirirdi. 1930-cu ildə Kerenskinin "Dni" ("Gün") qəzetində (№ 60) "Rus xalqı üzərində diktatura" adlı məqaləsi çap edilmişdi. Və elə həmin ildə M.Ə.Rəsulzadə "Odlu Yurd" dərgisində Kerenskiyə "Nə gübrədir, nə material" adlı cavab məqaləsi nəşr etdi. M.Ə.Rəsulzadə məqalə-məktubda Sovet İttifaqında yaşayan xalqların istiqlalına və azad dövlət qurmaq istəklərinə istehza ilə yanaşan Kerenskini tənqid etdi. O, Kerenskini xalqların apardığı milli-azadlıq hərəkatının mahiyyətini anlamağa çağıraraq yazırdı: "Biz həmişəlik olaraq cənab Kerenskiyə bildiririk ki, heç bir "separatizm"dən, "Rusiyanın bölünməsi"ndən söhbət gedə bilməz. Bizcə bu söz tamam başqa anlamda işlədilir: birincisi, öz ölkəsini xarici işğaldan qurtarmağa yönəldən xalq hərəkatını "separatçı" adlandırmaq düzgün deyildir" (11, s. 31).

Məhz buna görə də "Azərbaycan Milli Birlik Məclisi" təmsilçilərinin belə bir şəxslə, hələ 50-ci illərdə də "bölünməz Rusiya" ideyası ilə yaşayan Kerenski ilə eyni sənədə imza atması haqlı olaraq M. Ə. Rəsulzadədə ciddi narazılıq doğururdu.

**1951-ci ilin noyabrən 21-də** Ankarada Doktor Həmid Atamanın sədrliyi və mühəndis İsmayıl Sanyalın katibliyində Azərbaycan mühacirlərinin etiraz toplantısı keçirildi. Toplantı iştirakçıları M. Ə. Rəsulzadənin çıxışını dinlədikdən sonra yayımlanmaq şərti ilə aşağıdakı qərarı verdi: "Visbadendə beş rus partiyasının nümayəndələri ilə birlikdə 7 noyabr 1951-ci ildə keçirilən toplantıda Azərbaycan adına iştirak etmək və beynəlmiləl mahiyyətdəki davamızı Rusiyanın bir iç məsələsi halında müzakirə etdirmək cürətini göstərərək Milli Azərbaycan davasına xəyanət edən və Milli davanı mövcud olmayan "Azərbaycan Milli Birlik Məclisi" adına təmsilə qatılmaqla ictimaiyyəti çaşdıranlara şiddətli protesto(etiraz) edir" (4, s. 231).

Qeyd edək ki,bu illərdə M.Ə.Rəsulzadə çağdaş Azərbaycan ədəbiyyatının problemləri və tanınmış ədəbiyyat xadimlərimizin fəaliyyəti ilə bağlı da dəyərli məqalələr çap etdirdi. Şübhəsiz ki, özünün zəngin və çoxşaxəli fəaliyyətində belə bir ətraflı araşdırma ilə məşğul olması M.Ə.Rəsulzadənin Azərbaycan ədəbi prosesini diqqətlə izləməsindən irəli gəlirdi.

**M.Ə.Rəsulzadə 1950-ci ildə nəşr etdirdiyi "Çağdaş Azərbaycan ədəbiyyatı" əsərində** Hüseyn Cavidin, Əhməd Cavadın, C. Cabbarlının və başqalarının yazılarındakı sətiraltı mənalarda milli ruha bağlılığın duyulduğunu bildirirdi. Böyük şair Hüseyn Cavidin yazılarında siyasi motivlərin güclü olduğunu vurğulayan M.Ə.Rəsulzadə yazırdı: "Məsələni sonradan başa düşən bolşeviklər pyesin göstərilməsini qadağan

edirlər. "Sovet çörəyini yediyi halda tarixin pantürkist tiplərini idealizə etməyə cəsarət edən" şairə sovet tənqidçiləri atəş püskürürdülər" (12, s. 62).

Bu araşdırmalar sırasında heç şübhəsiz M.Ə.Rəsulzadənin Nizaminin 800 illik yubileyi münasibəti ilə yazdığı, lakin müharibənin çətinlikləri ucbatından 1951-ci ildə nəşr etdirdiyi **"Azərbaycan şairi Nizami"** monoqrafiyasıdır. Müəllif Nizami yaradıcılığındakı milli və bəşəri dəyərləri dərin elmi təhlil əsasında oxucuya çatdıra bilmişdir.

Göründüyü kimi, M.Ə.Rəsulzadə mühacirətdə siyasi fəaliyyət göstərməklə yanaşı, eyni zamanda ədəbiyyatımıza aid də maraqlı tədqiqatlar aparmışdı.

**1953-cü ildə O, Azərbaycan İstiqlalının 35-ci ildönümü münasibəti ilə "Amerikanın səsi" radiosunda Azərbaycan xalqına müraciət etdi və** bu müraciət səsyazma vala alınaraq bu günədək qorunub saxlanılmaqdadır.

27 Aprel işğalı və Azərbaycanın dünya dövlətləri tərəfindən tanınması (12 yanvar) münasibəti ilə də M.Ə.Rəsulzadə və digər mühacirlər "Qurtuluş"("Azadlıq") radiosu ilə Azərbaycan xalqına müraciətlər edirdilər. 1953-cü ildə M.Ə.Rəsulzadə "Azərbaycan Milli Mərkəzi"ni yenidən qurmuş, oraya gənc qüvvələri cəlb etmişdi.



YAŞASIN TÜRKİYE CUMHURİYETİ (*)

M. Emin RESULZÂDE

Bugün Türk illerinin yegâne müstakil devleti Türkiye, cumhuriyet ilânının onuncu yıldönümünü bayram tutuyor.

MUAZZAM BİR YILDÖNÜMÜ!

Cihan tarihinin en meraklı devrindeyiz: Asırlaşmış binalar yıkılıyor; yıkılmaz diye düşünülen müesseseler çöküyor; yeni binalar ve yeni kıymetler kökleşiyor. Bütün değerlerin değiştiği bu dönüm devrinde, türlü büyük hâdiselere şahit oluyor; ve her gün denecek kadar tarihî bir çok vak'alar için yapılan yıldönümlerini görüyoruz.

Fakat, bugün Türkiye'li kardeşlerimizin haklı sevinçlerle andıkları yıldönümünü biz, başkalarından ayırmak için, ona muazzam sıfatını veriyoruz.

Türkiye'de cumhuriyetin kurulması ancak siyasî bir idare şeklinin değişmesinden ibaret olsaydı, şüphesiz bu, haddi zatında gene büyük bir hâdise olurdu. Fakat, buna rağmen, ona muazzam vasfını vermekte - itiraf edelim ki - tereddüt ederdik. Zamanımızdaki bollu yıldönümleri arasında kendisine seçilmiş bir yer ayırmazdık.

Hâdisenin azameti arasındadır ki, **cumhuriyet rejiminin kurulmasiyle Türkiye'de sâde bir idare şekli değil, Türk cemiyetinin maddî - manevî bütün müesseseleri değişmiş; çürümüş Osmanlı saltanatının yerinde, bütün şuunâtile millî demokratik yeni bir Türk devleti kurulmuştur.**

Evet, iki asırdan ziyade, bir müddettenberi inhitat ve hezimete uğrayan Osmanlı İmparatorluğu, Harbi Umumî neticesinde tarihten yediği en son darbe ile her türlü istiklâl ve haysiyetten mahrum zavallı bir hale geldi; şöyle ki İstanbul sarayında - ne bahasına olursa olsun - tutunmağı canına minnet bilecek Türk tarihinden nasipsiz bulunan padişah, mahût Sevr muahedesini kabulde tereddüt göstermedi.

***"Yaşasın Türkiyə Cümhuriyyəti" məqaləsi***

1954-cü ilin sonlarında "Amerikan Kommunizm ilə Mücadilə Komitəsi"nin yeni Başqanı professor Kuneholt Ankaraya gəlib M.Ə.Rəsulzadə ilə görüşmüşdü.O,Komitənin Azərbaycanın istiqlalı məsələsinə diqqətli olduğunu ifadə edərək onun bu mübarizə önündə layiq olduğu yeri almasını istəmişdi. Bu yaxınlaşmanı qəbul edən M. Ə. Rəsulzadə Komitə ilə yaxın münasibətlər qurmuşdu

**1955-ci il martın 6-da Azərbaycan Milli Qurtuluş hərəkatının böyük ideoloqu M. Ə. Rəsulzadə Ankarada vəfat etdi.** Ankara radiosu martın 7-də saat 22.45-də M.Ə.Rəsulzadənin vəfatı xəbərini bütün dünyaya yaydı.

***Ədəbiyyat:***

*1) Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı, 1991. 2) Azərbaycan Respublikası Milli Arxi İdarəsi,. Fond 970. 3) Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, Fond 894. 4) Yaqublu N. Müsavat Partiyasının tarixi. Bakı, 1997. 5) Rəsulzadə M. Ə. Azərbaycan Cümhuriyyəti: keyfiyyəti-təşəkkülü və şimdiki vəziyyəti". İstanbul, 1990. 6) Məmmədzadə M. B. Milli Azərbaycan hərəkatı. Bakı, 1992. 7) "Azəri-Türk" jurnalı. İstanbul, 1928, N1. 8) "Odlu Yurd" jurnalı. İstanbul, 1929, N1. 9) "Azərbaycan" jurnalı. Ankara, 1952, N1. 10) Azərbaycan Kültür Dərnəyinin Nizamnaməsi. Ankara, 1949. 11) Rasulzade M. E. O panturanizme.Paris, 1930. 12) Rəsulzadə M. E. Çağdaş Azərbaycan ədəbiyyatı. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan tarixi. Bakı, 1991.13) Türk Ocaqları və Atatürk,Aankara,1993.14) "İstiqlal" qəzeti.Berlin,1932 N11. 15) Yaqublu N.Türkiyənin azərbaycanlılara müstəqillik mücadiləsində dəstəyi(sovetlər dönəmi:1920-1991-ci illər), Bakı 2009. 16)Türkiyə Cümhuriyyəti Başbakanlıq Cümhuriyyət arxivi.*

## GÜRCÜSTANDAKI FƏALİYYƏTİ



M.Ə.Rəsulzadənin Gürcüstanda olması ilə bağlı ilk məlumat 1915-ci ilə aiddir. **1915-ci ilin fevralında** o, Tiflisdə olur və ayın 8-də Gürcüstanın böyük şairi Akaki Seretelinin dəfn mərasimində iştirak edir, orada nitq söyləyir (1, s. 73).

M.Ə.Rəsulzadənin Gürcüstandakı əsas fəaliyyəti isə 1918-ci ilin əvvəllərindən başlayır.

**1918-ci ilin martın 6-da** Rusiyada – Petroqradda Millətlər Məclisinin buraxılması haqqındakı dekretin verilməsindən sonra 1918-ci ilin yanvarın 22-23-də Tiflisdə Zaqafqaziyadan Müəssislər Məclisinə seçilənlərin toplantısı keçirildi. Rusiyadakı vəziyyətin anarxiya və xaos olduğunu nəzərə alıb, üç Zaqafqaziya xalqının nümayəndəsi yerli qanunverici orqan olan Zaqafqaziya Seyminin yaradılması haqqında qərar qəbul etdilər. Azərbaycan siyasi partiyaları Seymdə 44 yer (30-u Müsavat olmaqla) aldı. Ümumi saya görə Seymdə bu ikinci yer idi.

**Seymin ilk toplantısı 1918-ci ilin 23 fevralında** keçirildi və Zaqafqaziya Seymində "Müsavat" fraksiyasının lideri M.Ə.Rəsulzadə, onun müavinləri isə N.Yusifbəyli və M.Y.Cəfərov təsdiq olundu.

Bu dövrdən başlayaraq M.Ə.Rəsulzadənin Gürcüstanda fəal siyasi həyatı başlayır.

1918-ci ilin martın 5-də M.Ə.Rəsulzadə Seymin iclasında Konstitusiyanın işlənib hazırlanması məsələsini irəli sürür (2, s. 90).

1918-ci ilin martın 14-də Trabzonda keçirilən Sülh Konfransında M.Ə.Rəsulzadə də iştirak edir və burada Türkiyə nümayəndələri artıq Zaqafqaziya nümayəndələrindən respublikaların siyasi quruluşları haqqında qətnamə tələb edirlər.

**1918-ci ilin 31 Mart hadisələri ilə bağlı isə M.Ə.Rəsulzadə aprelin 1-də Tiflisdə keçirilən Seymin toplantısında bildirirdi:** "Əgər Zaqafqaziya hökuməti lazımi qəti addımlar atmasa, bizim burada oturub həmrəy iş aparmağımız qeyri-mümkün olacaq".

Aprelin 9-da olan çıxışında isə M.Ə.Rəsulzadə Zaqafqaziyanın müstəqilliyinin vacibliyini xüsusi vurğulayırdı.

Onun təşəbbüsü ilə 1918-ci ilin mayın 3-də Azərbaycan fraksiyalarının toplantısında ("Müsavat"-30, "Müsəlman sosialist bloku"-7, bolşevik və "hümmət"-menşevik-4, "ittihad"-4) Azərbaycan, Gürcüstan, Ermənistan və Şimali Qafqazın Konfederasiyası ideyasının müdafiəsi haqqında qərar da qəbul edildi.

**1918-ci ilin 14-15 mayında M.Ə.Rəsulzadə Zaqafqaziya nümayəndə heyətinin tərkibində Batuma gedir** və regionun siyasi gələcəyi ilə bağlı Almaniya və Türkiyə hökuməti təmsilçiləri ilə mürəkkəb danışıqlar aparır.

1918-ci ilin mayın 26-da Zaqafqaziya Seymi buraxılır və Seymin azərbaycanlı üzvləri Azərbaycanın idarə olunmasını üzərinə götürən Azərbaycanın Milli Şurasını yaradırlar. Gizli səsvermə yolu ilə (24 nəfərin iştirakı ilə 2 nəfər əleyhinə olmaqla) M. Ə. Rəsulzadə 22 səslə Milli Şuranın sədri seçilir.

Həmin ilin iyunun 4-də isə Batumda Osmanlı Türkiyəsi ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında ilk dostluq Müqaviləsi imzalanır. Müqavilənin IV maddəsində Osmanlı hökumətinin Azərbaycana silahlı yardım göstərmək haqqının olduğu qeyd edilir. Müqaviləni Azərbaycan hökuməti adından M.Ə.Rəsulzadə və M.Hacınski imzalayır (3, s. 12).

1918-ci ilin iyunun ortalaraında Azərbaycan Milli Şurası başda M.Ə.Rəsulzadə və Azərbaycan hökuməti (F. Xoyskinin sədrliyi) Gəncəyə gəlir.

**Ədəbiyyat:**

*1) Rəsulzadə M. Ə. Seçilmiş əsərləri. III cild, Bakı, 2012. 2) Balayev A. Mamed Amin Rasulzade (1884-1955). Moskva, 2009. 3) Yaqublu N. Bakının Qurtuluşu. Bakı, 2010.*

# RUSİYADAKI HƏYATI



M.Ə.Rəsulzadənn Rusiya mühitinə yaxınlığı gənclik illərindən başlayıb. **Özü "Rus-müsəlman" məktəbində oxumuş, rus dilində təhsil almışdı.** Bundan əlavə, onun rus dilindən əsərlər tərcümə etməsi də məlumdur. O, müxtəlif vaxtlarda F.M.Dostoyevskidən, M. Qorkidən, Blyumindən marqlı tərcümələr etmiş, Stalinin xahişi ilə yazdığı gənc türklər haqqında olan məqaləsini "Volna" jurnalında rus dilində çap etdirmişdi.

**1917-ci ilin aprelin sonlarında** isə ilk dəfə olaraq Moskvaya getmiş, orada mayın 1-11-də keçirilən Ümumrusiya müsəlmanlarının qurultayında iştirak etmişdi.Onun irəli sürdüyü "ərazi muxtariyyəti" ideyası qurultayda 271 səsə qarşı 446 səslə qəbul edilmişdi (1, s. 33).

M. Ə. Rəsulzadənin Rusiyada uzunmüddətli yaşayış dövrü **1920-1922-ci illəri əhatə edir.** Belə ki, 1920-ci ilin noyabrında İ.V.Stalin Bakıya gəlir, burada partiya tədbirində iştirak edir və M.Ə.Rəsulzadəni həbsdən azad edib Moskvaya aparır. Moskvaya o, əmisi oğlu – "Müsavat" Partiyasının qurucularından olan Məhəmməd Əli Rəsuloğlu ilə birgə aparılır. Onlar Moskvada ümumi nəzarət altında yaşayır. Moskvada M. Ə. Rəsulzadə İ. V. Stalinin başçılıq etdiyi RSFSR Millətlər Komissarlığının "Jizni natsionalnostey" – "Millətlər həyatı" jurnalı ilə əməkdaşlıq edir, bir müddət Şərq Dilləri İnstitutunda fars və rus dillərini tədris edir.

M.Ə.Rəsulzadə getdikcə sərtləşən bolşevik rejimində yaşamağın qeyri-mümkünlüyü qərarına gəlir. Digər tərəfdən də "Müsavat" Partiyasından olan dostları onun buradan getməsini vacib sayırdılar.

**1922-ci ilin** iyun-iyul aylarında M.Ə.Rəsulzadə elmi ezamiyyət adı ilə Sankt-Peterburqa gedir, oradan tatar maarifçisi Musa Bigiyevin köməyi ilə Finlandiyaya keçir (2, s. 74). 15 gün ərzində fin əsgərlərinin nəzarətində qalır, bir müddət Helsinkidə yaşayır, oradan Fransaya, Almaniyaya, sonradan isə Türkiyəyə gedir.

## Ədəbiyyat:

1) *Həsənov C. Azərbaycan Beynəlxalq münasibətlər sistemində. Bakı, 1993. 2) Rəsulzadə M. Ə. Stalinlə ixtilal xatirələri. Bakı, 1991.*

# FRANSADAKI FƏALİYYƏTİ

Hələ **1913-cü ildə Fransada bu ölkənin Xarici İşlər Nazirliyinin dəstəyi ilə "Fransa-Şərq" Komitəsi yaranmışdı** (1, s. 10). Bu Komitənin rəhbərliyinə fransız generalları, nazirlər, diplomatlar, tanınmış siyasətçilər, tanınmış alimlər daxil idi. 1920-ci illərin əvvəllərindən isə Fransa Azərbaycan mühacirlərinin də siyasi və mədəni mərkəzinə çevrildi.




***Fransada 1930-cu ildə çap edilən "Azərbaycan" kitabı***

**Qeyd edək ki, M.Ə.Rəsulzadənin Fransadakı fəaliyyəti 1920-ci illərə təsadüf edir.** Bu dövrdə, xüsusən 1928-1934-cü illərdə Türkiyədə və Fransada yaşayan azərbaycanlı mühacirlər arasında olan ziddiyyətləri qeyd etməliyik.

M.Ə.Rəsulzadə yazırdı: "Olduğumuz mühacirət şərtləri daxilində, Azərbaycan davası naminə birləşmək, milli davanı yaşatmaq və ya yaşadan fikir sistem və nümayəndələrinə hörmət etməklə olur. Bunun üçün hər türlü kiçik hallardan və hisslərdən sıyrılaraq fikrə önəm vermək lazımdır".

Bu dövrdə azərbaycanlı mühacirlər arasında – xüsusən İstanbul (M.Ə.Rəsulzadə) və Paris qrupu (C.Hacıbəyli, Ə.Şeyxülislamov) arasında olan narazılıqlar Azərbaycan Probleminin bir mərkəzdən idarə olunmasına gətirib çıxarırdı. Yəni bu parçalanma ümumi işə ciddi zərbələr vururdu. Vəziyyəti aradan qaldırmaq üçün M.Ə.Rəsulzadə 1928-ci ildə Parisə gedərək orada Ə.M.Topçubaşov, C.Hacıbəyli və Ə.Şeyxülislamovla razılaşaraq "Bir mərkəzdən idarə" prinsipini qəbul etmişdilər (2, s. 125-126).

Digər tərəfdən Parisdə **1920-ci illərdə** mühacirlərlə əlaqəli ciddi işlər aparılırdı. Mühacirlərə dəstək planının genişlənməsi üçün **1926-cı** ildə keçmiş çar Rusiyası xalqlarının liderləri beynəlxalq təşkilat kimi fəaliyyət göstərən **"Prometey"** klubunu yaratdılar. Bu hərəkatın genişlənməsi üçün 1926-cı ildə fransız dilində "Prometey" jurnalı nəşr edilməyə başladı. Jurnalın redaksiya heyəti və daimi müəllifləri tərkibinə Qafqazın, Türküstanın və Ukraynanın aşağıdakı görkəmli xadimləri daxil oldular: **Məhəmməd Əmin Rəsulzadə, Noy Jordaniya, Aleksandr Şulqin,**

**Ayaz İshaqi, Mustafa Çokayoğlu, Miryaqub Mehdiyev və b.** (3, s. 108-109).

Parisdə çap edilən "Prometey" jurnalında isə M. Ə. Rəsulzadənin aşağıdakı maraqlı məqalələri çap edilmişdi: 1) "Azərbaycan Respublikası", 1926, N1, səh. 25-31; 2) "Bolşeviklərin Şərq siyasəti", 1928, N20, səh. 10-14; N21, səh. 6-11; 3) "Qafqaz Birliyi", 1929, N36, səh. 5-7; 4) "Milli Azərbaycan hərəkatının xarakteri", 1930, N42, səh. 11-13; 5) "Siyasətçi tarixçiyə qarşı", 1931, N51, səh. 6-8.



La République d'Azerbaïdjan

Les Azerbaïdjaniens sont un peuple moderne, dans le sens le plus absolu de ce terme. Ils ont leur propre littérature, leur presse, leur théâtre; en un mot, ils possèdent ce qu'on appelle une culture nationale.

Le grand poète turc Fuzouli, dont on a célébré dernièrement le quatrième centenaire, est le père des poètes azerbaïdjaniens. Les œuvres de ce grand versificateur, dont l'orientaliste anglais Kip a dit que c'est le plus sensible, le plus délicat et le plus sincère des lyriques que l'Orient ait jamais produit, ne sont nulle part aussi répandues dans le monde Islamique qu'en Azerbaïdjan. Jusqu'à ces derniers temps, les poètes de ce pays se sont évertués à imiter les odes de Fuzouli dont ils ont, de tout temps, subi la fascinante influence. Son épopée d'amour "Leïla et Medjnoun", conçue dans le genre de "Roméo et Juliette", a servi de sujet au premier opéra azerbaïdjanien.

Mais le peuple azerbaïdjanien, pour lequel la poésie est un véritable besoin, et dont le sens poétique trouve son expression dans un folklore d'une richesse et d'une variété surprenantes, ne pouvait s'abreuver éternellement à l'unique source de la tradition fuzoulienne. Aussi vit-on quelque temps après la clôture de l'ère fuzoulienne, surgir des poètes d'un autre genre, tous dignes d'attention, sur lesquels il nous est impossible de fournir des détails biographiques dans le cadre restraint de cet article.

La poésie azerhaïdjanienne, qui, tant an point de vue de langue qu'a celui des sujets traités et du but auquel elle tend, est actuellement un art tout à fait moderne, a pénétré jusque dans les plus humbles huttes des villages, où elle est représentée par les œuvres des principaux poètes, parmi lesquels il y a lieu de citer notamment Sabir dont les très spirituelles et mordantes satires ont obtenu un succès énorme.

C'est a l'existence de la scène azerbaïdjanienne que le théâtre turc doit sa renaissance. Le premier des dramaturges turcs fut l'Azerbaïdjanien Mirza Fatali, mort il y a plus de quarante ans. Ce n'est pas sans raison qu'on l'a surnommé le "Molière turc", car ses savoureuses comédies, dont les sujets sont tirés des scènes de la vie populaire, ont conservé toute leur fraîcheur, et leur attrait, et leur retentissement a été tel, qu'elles ont été traduites en plusieurs langues européennes et orientales.

Le théâtre azerbaïdjanien ne mérite pas seulement d'être apprécié pour ce qu'il a fait dans le passé, mais aussi pour ce qu'il continue de faire.

Ces quelques phrases résument admirablement l'esprit qui anime l'Azerbaïdjan militant de nos jours, esprit de révolte et de liberté.

Les révolutionnaires azerbaïdjaniens, qui n'attendent le salut de leur patrie que de la lutte, pleine de sacrifices, engagée par l'Azerbaïdjan contre ses tyrans, se rendent parfaitement compte de la nécessité absolue d'une collaboration étroite, allant jusqu'a l'union, avec celles des autres républiques caucasiennes qui en partagent les peines et les souffrances.

*Ressoul Zadé Mehmed Emin*

***Fransızca nəşr edilən "Azərbaycan Respublikası" məqaləsi, 1926-cı il***

Ümumilikdə M.Ə. Rəsulzadənin "Prometey" jurnalında 10-dan çox yazısı çap edilib.

1930-cu ildə isə Parisdə M.Ə.Rəsulzadənin iki kitabı nəşr edildi. Fransız dilində nəşr edilən kitabında ("laAzerbaidjan en lutte pour lindepudance, Paris, 1930) M. Ə. Rəsulzadə Avropa oxucusuna Azərbaycanın 1918-1920-ci illərdəki müstəqillik mübarizəsi haqqında məlumat verirdi. Elə həmin ildə rus dilində nəşr edilən digər kitabında isə ("O panturanizme", Parij, 1930) Qafqaz Birliyini pozmaq istəyənlərə əsaslı cavab vermişdi. Bu kitaba giriş sözünü Gürcüstanın tanınmış dövlət xadimi N. Jordaniya yazmışdı.

**1936-cı ildə** M.Ə.Rəsulzadənin fransız dilində daha bir kitabı ("Azerbaidjan", Paris, 1936) nəşr edildi. Bu kitabda müəllif fransız dilli oxuculara Azərbaycan haqqında məlumatlar verirdi.

1936-cı ilin 17 yanvarında M.Ə. Rəsulzadə Parisdə "Müasir Azərbaycan Ədəbiyyatı" mövzusunda maraqlı məruzə oxumuş, dinləyiciləri Azərbaycan ədəbiyyatının nümunələri ilə tanış etmişdir. Bu məruzə sonradan ayrıca kitab olaraq nəşr edilmişdir.

**La Politique orientale des Bolchéviks**

I

*Trompeuses devises*

L'une des devises trompeuses, bien que particulièrement chères aux bolchéviks, est celle qui s'applique à cette fameuse "politique orientale" don't ils ne cessent de parler. Ils la baptisent souvent de "politique coloniale". Voyons un peu comment les communists envisagent dans les échanges internationaux, importation ou exportation, n'a jamais dépendu de la Russie; n'empêche qu'avec ce pays le gouvernement de Moscou n'a pu réussir a régulariser ses relations économiques et commerciales que l'an dernier. Il n'en est pas de même de la Perse dont les conditions économiques se trouvent presqu'exclusivement sous la dépendance de la Russie. Dans la période d'avant-guerre, plus de la moitié des échanges, importations et exportations se faisait pour le compte de la Russie. Profitant d'une situation géographique exceptionnellé, le commerce extérieur des Soviets a amené la Perse à un état d'esclavage sans exemple. Moscou ne se gêne déjà plus pour exploiter ce pays "ami".

La Russia rouge qui, de par un système de monopole d'Etat appliqué dans son commerce extérieur, est la seule acheteuse dans la Perse septentionale n'a jamais hésité de recourir à des moyens spéculatifs. Le mécontentement de la bourgeoisie commerciale progressiste de la Perse était tel que, nonobstant les sympathies qu'elle avait manifestée au temps de la révolution bolchéviste, elle organisa contre ce régime un mouvement de boycottage qui dura plusieurs mois. L'opinion publique persane exprima son mécontentement en un langage amer, non seulement contre les innombrables sociétés soviétiques qui imposent leurs conditions aux marchandises persanes, mais aussi contre la pression exercée par différents établissements économiques soviétiques. L'opinion publique persane se révolte encore avec non moins d'énergie contre la honteuse violation des articles du traité d'amitié conclu entre ces deux pays, lequel a pour base des principes élevés. Afin de donner

réside toute la portée des événements de Chine et c'est à cela que faisait allusion la formule de M. Boukharine. C'est aussi ce résultat que voudraient obtenir M. Kitaygorodski et le parti communiste de Turquie. En présence de tels désirs ainsi cristallisés, ne nous laissons pas berner par l'assurance que manifestent certains journaux lorsqu'ils déclarent que la Turquie n'est pas encore un pays "industriellement développé".

Soyons sur nos gardes contre le communisme du type russe, toujours désireux d'exploiter d'une manière démagogique tous les mécontentements du jour.

*Rassoul Zadé*

*Prométhée. 1928. № 20. P. 10-14; № 21. P. 6–11.*

***Fransızca nəşr edilən "Bolşeviklərin Şərq siyasəti" məqaləsi, 1928-ci il***

1936-cı ilin 17-26 aprelində isə Parisdə Azərbaycanın, Povoljyenin, Uralın, Krımın, Şimali Qafqazın və Türküstanın müsəlman xalqlarının nümayəndələrinin iştirakı ilə qurultay keçirildi. Həmin qurultayda Azərbaycanı M.Ə.Rəsulzadə, Mir Yaqub Mehdiyev, Mustafa Vəkilli təmsil etdilər. Qərara alındı ki, bu təşkilatın fəaliyyəti gizli saxlanılsın.

## Ədəbiyyat:

*1)Yaqublu N.Müsavat Partiyasının tarixi. Bakı, 1997-ci il. 2)İz istorii Azerbaydjanskoy emiqratsii. Moskva, 2011.3)İbrahimli X. Azərbaycan siyasi mühacirəti. Bakı, 1996. 4)Yaqublu N. Azərbaycan-Polşa əlaqələrində M. Ə. Rəsulzadənin rolu. Bakı, 2007.*

# POLŞADAKI FƏALİYYƏTİ

Polşanın görkəmli dövlət xadimi, **Marşal Pilsudski** Polşanın müstəqilliyinin qorunmasında daxili təhlükələri aradan qaldırmaqla yanaşı, xaricdən, xüsusən bolşevik Rusiyasından, 1922-ci ilin dekabrından isə SSRİ adlanan imperiyadan həmişə ehtiyatlanırdı. Və bundan ötrü o, bolşevik işğalına məruz qalan ölkələrin mühacirətdə yaşayan təmsilçilərinin gücündən faydalanmağa çalışırdı. Onun məqsədi bu təmsilçilərin vasitəsi ilə bolşeviklərə qarşı siyasi-hərbi güc mərkəzləri yaratmaq və mübarizə aparmaq idi.

Bu məqsədlə də Polşa dövlətinin Xarici İşlər Nazirliyinin Şərq departamenti bilavasitə bu işlərlə məşğul olurdu.


6690A

Ministerstwo Spraw Zagranicznych
Departament Polityczno-Ekonomiczny
Wydział Wschodni
[10, 761 i]

[ZSRR. Emigracja polityczna, głównie z Zakaukazia – współpraca z Polską. Korespondencja, opracowania, notatki, wycinki prasowe. Tom II.]

[1930-1932]

6690A

***M.Ə.Rəsulzadə haqqında Polşa arxivində məlumat***

Həmin departamentin 1920-ci illərdən başlayaraq mühacirlərlə yazışmaları bu ideyanın təsdiqini tapır.

Departament Ukrayna, Britaniya mühacirləri ilə yanaşı Qafqazdan olan siyasilərlə də ciddi əməkdaşlıq edirdi.



***Şərq İnstitutunun Varşavadakı Müsəlman nəşrlərin redaktorları, soldan sağa Barasbi Baytuqan ("Şimali Qafqaz"), Vassan Grey Cabaqi ("Przeqlad İslamski"), Leon Nayman Mirzə Kriçinski ("Roçnuk Tatarski"), Məhəmməd Əmin Rəsulzadə ("İstiqlal"), Ayaz İshaqi ("Yana Milli yol"), Varşava 1932.***

1921-ci ildə baş vermiş Rusiya-Polşa savaşından sonra Pilsudski və silahdaşları Şərqi Avropa xalqları ilə bolşevik Rusiyası əsarətindəki xalqlar arasında ortaq bir əlaqə qurumu yaratmaq haqqında düşünürdülər. Rusiya ilə baş verə biləcək savaş perspektivi daxilində Polşa SSRİ-yə düşmən olan qüvvələrə önəmli yardımlar etməyə başlamışdı.



***Varşavada keçirilən Şərqşünasların I Qurultayında, M.Ə.Rəsulzadə 1-ci sırada sağdan ikinci, 1932-ci il, 15 may***

Polşa dövləti getdikcə mühacirlərlə əlaqələr şəbəkəsini genişləndirir, SSRİ-nin rus olmayan millətlərindən könüllüləri öz ordusuna qəbul edir, döyüş təlimləri keçir, silahlandırırdı. Artıq 1920-ci illərin ortalarından Polşa ordusunda müəyyən sayda mühacir əsgər və zabitlər fəaliyyət göstərirdi. Polşa dövlətinin müəyyən yardımları ilə Azərbaycan mühacirət mətbuatı orqanları da fəaliyyətini gücləndirirdi (1, s. 81).



MAMED EMIN RESUL - ZADE

ALEYHIM SELAM!¹)

Z prawdziwem zadowoleniem powitałem list Pana Prezesa wileńskiego oddziału związku kulturalno-oświatowego. Tatarów polskich. W liście tym Szanowny Arslan bek Kryczyński, zasyłając w imieniu tego oddziału selam, jednocześnie łaskawie poinformował mię o zamierzonem wydawnictwie nowego czasopisma pod nazwą „Rocznik Tatarski".

Wzniosły cel przyświeca temu Rocznikowi, który, jako wyraziciel ideałów narodowych Tatarów polskich, stanie się świadectwem wzlotu ducha nielicznego narodu muzułmańskiego i zestrzelenia jego dążeń z dążeniami innych ludów muzułmańskich.

To też serdecznie witam to nowe zamierzenie kulturalne i składam podziękowanie Panu Prezesowi i Redaktorowi Rocznika, którego łaskawej uprzejmości zawdzięczam możność wyrażenia bratniemu narodowi muzułmańskiemu moich szczerych sympatyj i, jak to zresztą prawemu muzulmaninowi przystoi, publicznej odpowiedzi na selam Panów.

O Tatarach polskich i ich warstwach inteligencji ongiś wiele słyszałem od naszych studentów i innych rodaków, zamieszkałych w większych miastach b. cesarstwa rosyjskiego. Ci ostatni mieli możność osobistego zetknięcia się z przedstawicielami tych muzułmanów, którzy, aczkolwiek nie posiadali wcale języka tatarskiego

***M.Ə.Rəsulzadənin "Roçnik Tatarski"də polyak dilində nəşr edilən "Əleyküm-Salam" məqaləsi, 1932-ci il***

**Hələ 1920-ci illərin əvvəllərindən başlayaraq M.Ə.Rəsulzadə Polşa rəsmiləri ilə məktublaşırdı.**

Polşa dövlətinin arxiv sənədlərində M.Ə.Rəsulzadənin Polşanın Xarici İşlər Nazirliyi və Marşal Pilsudski ilə şəxsi yazışmaları qorunub saxlanır. Həmin məktubların biri azərbaycanlı zabitlərin Polşa ordusunda hərbi xidmətə cəlb edilməsi ilə bağlıdır. Bu məktub Türkiyənin İstanbul şəhərindən 1923-cü ilin 31 mar-tında Jozef Pilsudskiyə ünvanlanıb.

Bundan əlavə M.Ə.Rəsulzadənin Polşanın Xarici İşlər Nazirliyinin digər rəsmiləri olan Tadeuş Qolubko, Edmund Xaraşkeviç, Tadeuş Şetsel ilə də müxtəlif mövzularda yazışmaları vardır.

**1926-cı ildə** Fransada – Parisdə "Prometey" klubu yaradıldıqdan sonra, 1928-ci ildə Varşavada J. Pilsudskinin dəstəyi ilə "Prometey" cəmiyyəti yaradıldı və azərbaycanlılar da burada təmsil olundular. 1929-cu ildə isə Varşavada Polşanın Xüsusi Xidmət İdarəsi SSRİ-yə qarşı kəşfiyyat fəaliyyəti aparmaq üçün 2 saylı ekspoziturанı – Polşa Baş Qərargahının II Şöbəsinin kəşfiyyat bölməsini yaradır və M.Ə.Rəsulzadə Varşava qrupunun rəhbəri olur.


Nr 13-14 KURTULUS 303

M.E. Resul-zade

Lehistan Müslümanları

(Mühim bir eser münasebetile)

*“Lehistan müsəlmanları” məqaləsi*

1930-cu ildə M.Ə.Rəsulzadə “Prometey” təşkilatının fəaliyyəti ilə bağlı Polşaya gedir, bir müddət burada yaşayır.

**1931-ci** ildə mühacirlərin fəaliyyəti Türkiyədə qadağan edildikdən sonra digər azərbaycanlı mühacirlər də M.Ə.Rəsulzadə ilə birgə Varşavada yaşayır. Almaniyada isə M.Ə.Rəsulzadənin rəhbərliyi ilə “İstiqlal” qəzeti (1932-1934), “Qurtuluş” jurnalı (1934-1939) nəşr edilir.

Polşada yaşadığı dövrdə M.Ə.Rəsulzadə “Panturanizm və Qafqasya problemi” kitabını rus dilində nəşr etdirir.

1936-cı ildə isə Polşa dövləti rəsmilərinin razılığı ilə Varşavada “Müsavat” Partiyasının konfransını keçirir (2, s. 201).

Varşavada yaşadığı müddətdə o, burada nəşr edilən “Vsxod” (“Şərq”), “Roçnik Tatarski” (“Tatar illiyi”) məcmuələrində məqalələr çap etdirir.

1938-ci ildə M.Ə.Rəsulzadənin Varşavada polyakca “Azərbaycan müstəqillik uğrunda mübarizədə” kitabı çap edilir. Kitaba giriş sözünü Polşanın tanınmış ictimai xadimi, senator, Şərq İnstitutunun direktoru Stanislav Sedlitski yazmışdı. S.Sedlitski M.Ə.Rəsulzadənin polyak dilində nəşrə hazırladığı kitabı yüksək qiymətləndirirdi.

Bundan əlavə, M.Ə.Rəsulzadənin Polşa ilə bağlı çox dəyərli məqalələri də var. 1933-cü ilin noyabrın 20-də Berlində nəşr edilən “İstiqlal” qəzetində, 46-cı sayda o, Çexoslovakiyanın və Polşanın milli bayramları haqqında məqalə çap etmişdir. M.Ə.Rəsulzadə yazırdı: “Heç bir xalqda polyaklardakı kimi üsyan ruhu olmamışdır. 1794-cü il üsyanının qəhrəman oğlu Kostyuşkonun adı Polşada müqəddəslərin adı ilə birgə çəkilir” (3).

M.Ə.Rəsulzadənin “Qurtuluş” jurnalının 1935-ci ilin may-iyun aylarının 7-8-ci sayında çap edilən Jozef Pilsudski haqqındakı məqaləsi də maraqlıdır.

Bu məqaləsində o, öz xalqının azadlığı uğrunda yorulmadan mübarizə aparmış bir şəxsiyyətin maraqlı obrazını yaratmış, onun mənalı həyatı ilə bağlı maraqlı məqamları əks etdirə bilmişdir.

M.Ə.Rəsulzadənin "Qurtuluş" jurnalının 1935-ci ilin avqustunda nəşr edilən 10-cu sayında "Yeni Leh Konstitusiyası" məqaləsində və həmin jurnalın 13-14-cü saylarında (1935-ci il) çap olunmuş "Lehistan müsəlmanları" yazısında maraqlı məlumatlar vardlr.



***M.Ə. Rəsulzadənin Polşa hökuməti rəsmiləri ilə yazışmaları, 1933 –cü il***

M.Ə.Rəsulzadə "Prometey" klubunun Varşavada keçirilən əksər tədbirlərində əsas məruzəçi, müəyyən hallarda isə çıxışçı-dinləyici olaraq iştirak edirdi.

1938-ci ilin fevralında "Prometey" təşkilatına mənsub olan millətlərin mühacirətdəki milli təşkilatları Varşavada tədbir keçirdilər. Tədbir idil-Ural Millət Məclisi açılışının 20 illiyinə həsr edilmişdi. M. Ə. Rəsulzadənin bu tədbirdəki çıxışı böyük marağa səbəb olmuş, alqışlarla qarşılanmışdı.

1938-ci ilin aprelin 7-də "Prometey" klubu daha bir tədbir keçirdi. Tanınmış polyak alimi V. Bonçkovski "Yeni çağların ruhu haqqında" mövzusunda məruzə etmişdi. Müzakirədə çıxış edən M.Ə.Rəsulzadə əsaslı fikirlər irəli sürmüşdü.

Qeyd edək ki, M.Ə.Rəsulzadənin həyat yoldaşı Vanda xanım (M.Ə.Rəsulzadə ona həm də Leyla xanım deyə müraciət edirdi) əslən polyak idi və bəziləri onun Marşal Pilsudski ilə, bəziləri isə Polşanın Xariciyyə Vəkili polkovnik Beklə qohum olduğunu deyir. M.Ə.Rəsulzadə onunla ailə həyatı qurmuş, ömrünün sonrakı illərini birgə yaşamışlar. Vanda xanım 1974-cü ildə Türkiyədə - Ankarada vəfat edib və burada "Cəbəçi" məzarıstanlığında dəfn olunub.

## Ədəbiyyat:

*1)Yaqublu N. Azərbaycan-Polşa əlaqələrində M. Ə. Rəsulzadənin rolu. Bakı, 2007. 2) Yaqublu N. Müsavat Partiyasının tarixi. Bakı, 1997. 3)"İstiqlal" qəzeti. Berlin, 1933, N46.*

# ALMANİYADAKI FƏALİYYƏTİ


İSTİKLAL
Günün en büyük ve en mukaddes vazifesi
1918 28 Mayıs 1933

*“İstiqlal” qəzeti, 1932-ci il*


insanlara hürriyet!
KURTULUŞ
Milletlere istiklâl!
Azerbaycan Millî Kurtuluş Hareketinin Organı
Başmuharriri: M. E. Resul-zade
Nr. 43 Mayıs 1938

1918, 28 Mayısta ilân olunan
İstiklâl Beyannamesinden:

1 - Azerbaycan halkı hâkimiyet hakkına mâliktir. Cenubi ve Şarki Maverayi Kafkasyadan ibaret Azerbaycan kâmilelhukuk müstakil bir devlettir.

2 - Müstakil Azerbaycan devletinin şekli idaresi Halk Cumhuriyetidir.

3 - Azerbaycan Halk Cumhuriyeti bütün milletler ve bilhassa mücavir millet ve devletlerle hüsnü münasebat tesis eder.

4 - Azerbaycan Halk Cumhuriyeti millet, mezheb, sınıf, sılk ve cins farkı gözetmeden bütün vatandaşlarına siyasi ve vatani hukuk temin eder.

5 - Azerbaycan Halk Cumhuriyeti, hududu dahilinde yaşayan bütün milletlerin medeni inkişaflarına meydan verir.

28 Mayıs 1918.

***Berlində nəşr etdiyi “Qurtuluş” jurnalı 28 May İstiqlalı haqqında,1938-ci il***

M.Ə.Rəsulzadənin Almaniyadakı fəaliyyəti əsasən **1932-ci ildən** başlayır. Polşada yaşamasına baxmayaraq o, Berlində də olur və fəaliyyətini davam etdirirdi. Almaniyada onun Baş redaktorluğu ilə 1932-ci ilin yanvarın 10-dan “İstiqlal” qəzeti, noyabrın 6-dan “Qurtuluş” jurnalı nəşr edilir. “İstiqlal” qəzetinin nəşri 1934-cü ilə qədər, “Qurtuluş”un nəşri isə 1939-cu ilin avqustunadək davam edib.

Bundan əlavə, M.Ə.Rəsulzadənin Almaniyada 1938-ci ildə “Azərbaycan Problemi” əsəri alman dilində nəşr olunub.

**Eyni zamanda O, 1937-ci ilin may ayında Berlində “Humboldt klubu”nda** çoxlu sayda insanların iştirakı ilə keçirilən tədbirdə Azərbaycanla bağlı maraqlı məruzə etmişdi.

1942-ci ildə isə İkinci Dünya müharibəsinin davam etdiyi bir zamanda M.Ə.Rəsulzadə Almaniyaya dəvət edilir.

Qeyd edək ki, panturanizmin coşğun bir tərəfdarı və təbliğatçısı olan, Türkiyədəki Almaniya Böyükelçisi Frans von Papen fəal mühacir qrupları və məşhur pantürkistlər vasitəsi ilə Ankara hökumətini Almaniyanın cərgəsində hərbə cəlb etmək istəyində idi. Məhz von Papenin təşəbbüsü ilə iki türk generalı – Ərkilət və Ərdan bəy türklərin yaşadıqları bölgələrin gələcəkdəki idarə forması ilə tanışlıq üçün Almaniyada olmuşdular. Bundan əlavə, Türkiyənin sabiq Hərbiyyə Naziri Ənvər Paşanın qardaşı Nuru Paşa (Killigil) da məhz von Papenin təşəbbüsü ilə Berlinə gəlmişdi. “Prometey” təşkilatı tərəfdarlarından azərbaycanlı Məhəmməd Əmin Rəsulzadə

şimali qafqazlı Səid Şamil, Aytən Namita və digərləri alman məqamları ilə müzakirələrə cəlb olunmuşdular.

**1942-ci ilin aprelində** Şulenberq Fransa, İtaliya, Balkanlar, Türkiyə və İsveçrədə yaşayan mühacirləri Berlinə dəvət etdi. Həmin ilin aprelin sonu və mayın əvvəllərində Berlinin məşhur "Adlon" mehmanxanasında bir toplantı keçirildi (1, s. 182-183). Toplantıda aşağıdakı şəxslər iştirak edirdilər: Azərbaycanlı – Məhəmməd Əmin Rəsulzadə, Xəlil Xasməmmədov və Fuad Əmircan; Şimali Qafqasiyalı – Səid Şamil, Heydər Bammat və Əlixan Qantəmir; gürcülərdən – Spiridion və Leo Kereselidze, Daşa Vaçnadze, Zurab Avalaşvili. Bu toplantının mühacirlərlə işbirliyi qurması baxımından böyük əhəmiyyəti vardı.



***Berlindəki "Adlon" oteli. M.Ə.Rəsulzadə burada keçirilən toplantıda iştirak edib, 1942-ci il.***

**Hitler Almaniyası** mühacir təşkilat və qrupları ilə danışıqları əsasən iki nazirliyi vasitəsi ilə aparırdı: Xarici İşlər Nazirliyi və Şərq Nazirliyi. Xarici İşlər Nazirliyində bu işlə Şulenberq, Şərq Nazirliyində isə Rozenberq məşğul olurdu..

**Şərq Nazirliyində professor Von Mendenin** başçılıq etdiyi SSRİ millətləri üzrə Baş İdarə fəaliyyət göstərirdi. Bu idarənin nəzdində isə Qafqaz işləri üzrə idarə yaradılmışdı. Burada Qafqazdan olan, ayrı-ayrı xalqları əhatə edən – azərbaycanlı, gürcü, erməni, şimali Qafqaz və Kalmık şöbələri vardı. Bu şöbələrin başlıca məqsədi müxtəlif sahələr üzrə gələcəkdə istiqlal məqsədi ilə kadrlar hazırlamaqdan ibarət idi.



AZƏRBAJÇAN

Azərbajçan legionunun həftəlik qəzetəsi

Biz jalnьz və jalnьz istiqlalьmьz ycyn hərb edirik. Bizi bu myqəddəs məfkurədən vaz keçirəçək hec bir bəşəri qyvvət joqdur

***Azərbaycan legionerlərinin nəşr etdiyi "Azərbaycan" qəzeti, 1943-cü il***

Lakin mühacirlərin Almaniya hökuməti təmsilçiləri ilə danışıqları heç də uğurlu getmirdi. Xüsusən, şimali qafqasiyalı, gürcüstanlı və azərbaycanlılar öz ölkələrinin müstəqilliyini irəli sürdüyündən almanlar tərəfindən qəbul edilmirdi. Belə olduqda, Azərbaycan təmsilçisi M.Ə.Rəsulzadə və Şimali Qafqazlı Səid Şamil Almaniyadan çıxıb getmək məcburiyyətində qaldılar. Lakin Von Mende çətinliklə də olsa M.Ə.Rəsulzadəni müvəqqəti olaraq saxlaya bilmişdi.




*Almaniyada alman dilində nəşr edilən “Azərbaycan problemi” kitabı, 1938-ci il*

Nəhayət, üzvləri Şərq Nazirliyi tərəfindən təsdiq olunan və dörd Qafqaz millətindən hər biri üçün, bir də kalmıklar üçün “milli komissiyonlar” təşkil olundu. **Hitler “Milli komitə” adını adını yasaqladığından mövcud qurumları “milli komissiyonlar” adlandırırdılar.**

Həmin dövrdə Almaniyada M. Ə. Rəsulzadənin başçılığı ilə “Milli Azərbaycan Komitəsi” yaradılmışdı. **“Milli Azərbaycan Komitəsi”** bu proqramla fəaliyyət göstərirdi: “Azərbaycanın milli haqlarını qorumaq, vətənin xilası və istiqlalı üçün mübarizə etmək, qafqasiyalı millətlərin dostluqları və siyasətcə bir yerdə yaşamaları üçün çalışmaq və Almaniya ilə sıx surətdə işbirliyi təmin etmək” (2, s. 143).

Qeyd etdiyimiz kimi, almanlar hər vasitə ilə M.Ə.Rəsulzadədən faydalanmağa çalışırdı. 1942-ci ilin oktyabrın 7-də M.Ə.Rəsulzadə ilə aparılan danışıqlar fayda vermədiyindən (çünki o, Azərbaycanın müstəqilliyi fikrini önə çəkirdi) o, Rumıniyaya – Buxarestə getmişdi. Almanlar onun getməsinə təəssüflənmiş, qalması üçün Drezden məktəblərinin birində müəllimlik təklif etmişdilər. Lakin o, bununla da razılaşmamışdı. “SS” mərkəzi dairəsi onu sonradan yenə axtarmış və işbirliyinə çalışmışdı.

Beləliklə, M.Ə.Rəsulzadə ilə danışıqların alınmadığını gördükdə almanlar Fuad Əmircan, Abbas Atamalıbəyov və Əbdürrəhman Fətəlibəyli-Düdənginski ilə işbirliyi qurmuşdu. Azərbaycan Rabitə (Əlaqə) Heyətinə başçılıq isə Ə. F. Düdənginskiyə tapşırılmışdı. Bu heyət Azərbaycan legionerlərinə həm də başçılıq funksiyasını daşıyırdı.

**1943-cü ilin avqustun 5-də** M.Ə.Rəsulzadə Azərbaycan legionerləri qarşısında onların öz azadlığı uğrunda mübarizə aparan xalqlara qarşı mübarizə aparmayacaqları ilə bağlı bəyanat verib, növbəti dəfə Almaniyanı tərk edərək Rumıniyaya qayıtdı.

1944-cü ilin 23 avqustunda Buxarestdə baş verən hökumət çevrilişindən və sovetlərlə atəşkəs elan edilməsindən sonra sovetlərin bu ölkəyə yaxınlaşması nəticəsində M.Ə.Rəsulzadə Almaniyaya gedərək 1945-ci ildə savaşın bitdiyi Mittenvald bölgəsindəki qaçqın düşərgəsində yaşadı. Burada olduğu müddətdə o, azərbaycanlı legionerlərin sovetlərə təhfil ve-

rilməməsinə çalışmış, **“Azərbaycan Demokrat Birliyi”** qurumunu yaradıb onların Türkiyəyə, Misirə və digər ölkələrə getməsini təmin etmişdi. Bundan ötrü o, Almaniyada olmuş Misir kralı Fərruxla da danışıqlar aparmışdı.

Nəhayət, Türkiyə dövlətinin rəsmi icazəsindən sonra 1947-ci ilin sentyabrında M.Ə.Rəsulzadə Türkiyəyə getmişdi.

1950-ci illərdə isə o, “soyuq müharibə” dövründə Almaniyada keçirilən tədbirlərdə, konfranslarda fəal iştirak etmişdi. 1951-ci ilin noyabrında Münhendə “Antibolşevik Xalqların Bloku”nun keçirdiyi konfransda M.Ə.Rəsulzadə çıxış etmiş, dünya ictimaiyyətinə ünvanlanmış sənədə imza atanlardan biri olmuşdu.

1952-ci ilin dekabrın 11-16-da Münhendə keçirilən **Ümumqafqaz konfransında** da M.Ə.Rəsulzadə maraqlı məruzə etmişdi(3, s. 237-238).



4 КАВКАЗ № 12 (17)

М. Э. Ресулзаде

Председатель Азербайджанского Национального Центра

Основные линии кавказской политики

(Доклад, сделанный на Кавказской Конференции в Мюнхене)

Дорогие друзья!

В напряженной обстановке международных отношений открывается наша конференция. Она призвана обсудить проблемы, тесно связанные с вопросами борьбы наших народов за национальное освобождение. Работа этой конференции должна завершиться созданием центрального кавказского политического органа, призванного согласовать и направлять национально-освободительные силы народов Кавказа.

В целях правильного определения задач предполагаемого общекавказского центра, позволю себе в нескольких словах изложить основные линии нашей политики и совместной работы.

Для уточнения нашей общей по- ...

... национального самоопределения. В 1918 году это право осуществилось на Кавказе всенародным волеизъявлением, но оно было подавлено насилием завоевателей — штыками русско-большевистской оккупационной армии. Вот уже 32 года, как все народы Кавказа героически борются против этого насилия.

В настоящий момент, когда мировое общественное мнение вплотную подходит к пониманию национальных проблем в Советском Союзе, мы не вправе затушевывать наши ясные цели. Так называемое **предрешенчество,** от которого открещиваются некоторые псевдо-демократы из т. н. «Координационного Центра Антибольшевистской Борьбы» (КаЦАБ), заменившего пресловутый «Союз Освобождения Народов ...

*Ümumqafqaz konfransındakı çıxışı, 1952-ci il, Münhen*

## Ədəbiyyat:

*1)İbrahimli X. Azərbaycan siyasi mühacirəti. Bakı, 1996. 2)Yaqublu N. Azərbaycan legionerləri. Bakı, 2005. 3) Yaqublu N. Müsavat Partiyasının tarixi. Bakı, 1997.*

# RUMINİYADAKI HƏYATI



*Rumıniya, Buxarest şəhidliyində. 1940-1944-cü il.*
*Soldan ikinci - M.Ə.Rəsulzadə*

**1939-cu ilin sentyabrın əvvəlində** Polşanın Almanlar, sentyabrın 18-də isə Sovet ordusu tərəfindən işğalından sonra M.Ə.Rəsulzadənin burada yaşaması artıq qeyri-mümkün idi.

1939-cu ilin avqustunda o, dincəlmək üçün Rumıniyanın Köstəncə (Konstansa-Rumıniyanın Dobruca bölgəsində şəhərdir) bölgəsinə getmişdi. Həmin zamanda Varşavada olan Rusiya Türklərinin siyasi mühacirləri Ayaz İshaqi, Əli Azərtəkin, Balo Bilatti, Edige Mustafa Krıməl, Səid Şamil, Mirzə Bala Məmmədzadə almanların və rusların əlinə düşməmək üçün1939-cu ilin sentyabrın 6-da təcili Rumıniyaya, oradan Türkiyəyə getmişdilər.

M.Ə.Rəsulzadə isə 1940-cı ilin 23 iyununda Köstəncədə Türkiyədən gələn dostu Həmdullah Sübhi Tanrıövəri qarşılamış, onunla birgə Buxarestə getmiş və onun maddi dəstəyi ilə savaşın sonunadək orada “Kiryazi” otelində qalmışdı(1).

Buxarestdə olduğu dövrdə o, zamanının çoxunu Türkiyənin buradakı Böyükelçiliyində keçirir(2), böyük Azərbaycan şairi olan Nizami Gəncəvi haqqındakı araşdırmasını tamamlayırdı.

**1944-cü ildə** almanlar Stalinqradda məğlub olduqdan sonra Sovet ordusu Rumıniyaya doğru irəliləməyə başladı. 1944-cü ilin aprelində amerikalılar Buxaresti bombaladılar. 1944-cü ilin avqustun 23-də Buxarestdə hökumət çevrilişi baş verdi. Yeni hökumətin sovetlərə atəşkəs elan etməsindən sonra M.Ə.Rəsulzadə Almaniyanın Mittenvald bölgəsindəki qaçqın düşərgəsinə getdi.

**Ədəbiyyat:**

*1)Ömər Özcan. Məmməd Əmin Rəsulzadə Rumıniyada. "525-ci qəzet". 21 may 2011-ci il. 2) Müstəcib Ülküsal. Krım yolunda bir ömür xatirə. Ankara, 1999. 3)Kənan Kosatürk. Bir zabitin xatirələri (1909-1999); Bitməmiş simfoniya. İstanbul, 1999.*

# "PROMETEY" HƏRƏKATININ VƏ "QAFQAZ İSTİQLAL KOMİTƏSİ"NİN YARADILMASINDA ROLU

1996-cı ildə Türkiyədə Semih Vannerin nəşrə hazırladığı "Unutqan tarix" kitabında prometeyçilik hərəkatı belə təqdim edilirdi: **"Prometeyçilik,** öncəliklə, Rus imperatorluğunda 1917-ci il dövrümü sırasında ortaya çıxan müstəqil Cümhuriyyətlərin başarıqsızlığından doğan, bu başarıqsızlıqdan sonra SSRİ-dən ayrılan rus olmayan mühacirlərin qurduqları bir hərəkat olaraq tanınmalıdır. Bu hərəkatın rəhbərləri Şərqi Avropanın paytaxtlarında yerləşdilər. Qızıl Orduya qarşı müxalifətə qalxan bu kadrlar içəridə uğursuzluqla qarşılaşınca sürgündə bolşevizmə qarşı bir cəbhə yaratmağa çalışdılar" (1, s. 17).




***Parisdə çap edilən "Prometey" jurnalı, 1926-cı il***

Həqiqətən də özünə mifoloji bir ad seçən bu hərəkat uzun ömürlü olmuş, müxtəlif ölkələrdə yaşayan böyük nüfuz sahibi insanları bir araya gətirmişdi. "Prometeyçi" adı ilə Varşavada, Berlində, Parisdə, İstanbulda, Şanxayda, Münhendə, Helsinkidə, Tokioda, SSRİ ətrafında böyük bir şəbəkə qurulmuşdu. Bu hərəkatın çox əhəmiyyətli fəaliyyətini əks etdirən "Prometey" jurnalı 1926-1938-ci illər arasında Parisdə fasiləsiz olaraq nəşr edilmişdi.



6690A

Ministerstwo Spraw Zagranicznych
Departament Polityczno-Ekonomiczny
Wydział Wschodni
[10,761 i]

[ZSRR. Emigracja polityczna, głównie z Zakaukazia – współpraca z Polską. Korespondencja, opracowania, notatki, wycinki prasowe. Tom II.]

[1930-1932]

6690A

***Mühacirlər haqqında Polşa arxivlərindəki məlumatlar, 1930-32-ci illər***

"Prometey" haqqında daha ətraflı məlumatı fransız tarixçisi Etyen Koponun 1993-cü ildə Parisdə çap edilmiş **"Prometey hərəkatı"** məqaləsindən öyrənmək mümkündür. Həmin məqaləni tanınmış ziyalı Ramiz Abutalıbov 2006-cı ildə Moskvada nəşr edilmiş "Parisdəki görüşlər və illər" kitabında oxuculara

təqdim etmişdir. "Prometey hərəkatı" haqqında kitabda aşağıdakı maraqlı məqamlar vardır: "Həmin illərdə siyasi mühacirlərin əsas məskunlaşdığı yer Paris idi. Burada A.F.Kerenski əksbolşevik təşkilatı yaratmışdı və "Gün" adlı mətbuat orqanı yayınlayırdı. Ancaq rus əsilli olmayan əksər mühacirlər onu rus koloniya siyasətini müdafiə etməkdə, Qafqaz və Türküstan respublikalarına müstəqillik verməməkdə günahlandırırdılar. Türkiyədə və başqa Avropa şəhərlərində müəyyən cəhdlərdən sonra, məhz Fransada bu siyasi mühacirlər marşal Pilsudskinin dəstəyi ilə aylıq "Prometey" jurnalını fransız dilində nəşr etməyə başladılar. Bütün mühacirəti özünün uzunömürlülüyü ilə təəccübləndirən bu jurnal 1926-1938-ci illərdə fasiləsiz nəşr edildi. Bütün bu dövrdə jurnalın redaktoru gürcü Georgi Qvazava idi. 1938-ci ildə jurnalın formatı dəyişdi və o "Revyu de Prometey" adı ilə


KONSULAT
RZECZYPOSPOLITEJ POLSKIEJ
W TABRYZIE

172/31

artykułu tygodnika "Dni"

P.III.13369/30 z 14.X.1930r.

TAJNE

28.IV. 31

Do
Ministerstwa Spraw Zagranicznych
Wydział Wschodni
Warszawa

W odpowiedzi na powyższe pismo Konsulat donosi, że autorem artykułu zamieszczonego w No. 109 tygodnika "Dni" z 5.X.1930r. a pochodzącego rzekomo z Tabryzu, jest, stosownie do wyrażanych wobec Konsulatu przypuszczeń, prawdopodobnie niejaki J.Arian, Ormianin, zamieszkujący stale w Teheranie i piszący do różnych wydawnictw emigracyjnych rosyjskich w Europie. Bliższych szczegółów dotyczących osoby wymienionego Konsulat dotąd zebrać nie zdołał.

Informacja, według której artykuł pochodzić ma z Teheranu a nie z Tabryzu, gdzie autor takiego artykułu względnie jego informator może być stosunkowo łatwo ustalony, ma dużo cech prawdopodobieństwa. Uwaga, że artykuł pochodzi z Tabryzu podana została przypuszczalnie celem utrudnienia ewentualnych poszukiwań informatora korespondenta, który, jak wspomniane jest w 1. ustępie artykułu, stoi bardzo blisko do sowieckich władz rządowych i do partji komunistycznej.

***Polşa Xarici İşlər Nazirliyinin mühacirlərlə bağlı məxfi məlumatları***

nəşr edilməyə başladı. Həmin vaxtdan jurnalın bağlanmasına – 1940-cı ilə qədər jurnalın baş redaktoru Ukraynanın keçmiş Xarici İşlər Naziri (1918-ci ildə) Aleksandr Şulqin olmuşdu.

"Prometey" hərəkatı yaradılmasının ilk təəssübkeşlərindən biri Başqırdıstan Respublikasının ilk rəhbəri olmuş (1917, noyabr) Əhməd Zəki Vəlidov-Toğan idi. 1923-cü ildə o, Parisə gəldikdə Mustafa Çokayoğlu, Əlimərdan bəy Topçubaşov və Sədri Maqsudi ilə tanış olur. 1924-cü ilin iyununda o, Polşa hökumətinin rəsmi nümayəndəsi cənab Stempovski ilə görüşür. Bu görüşdə Fransada "Prometey" jurnalının yaradılması qərara alınır. Jurnalın redaksiya heyəti və daimi müəllifləri tərkibinə Qafqazın,



***Prometeyçilərin fəallığı ilə Sovet İttifaqında ruslaşdırma əleyhinə keçirilən "Dil qurultayı", Varşava, 1936-cı il***

Türküstanın və Ukraynanın aşağıdakı görkəmli xadimləri daxil oldular: Məhəmməd Əmin Rəsulzadə, Noy Jordaniya, Aleksandr Şulqin, Ayaz İshaqi, Mustafa Çokayoğlu, Miryaqub Mehdiyev və başqaları" (2, s. 66).



Бюджет К.Н.К. на 1928 г.

Отд. А:

Общие расходы К-та.

(в тур. лирах)

1. Субсидия 6 член. К-та — 720 т.л.
2. На пропаганду идей К-та:
   а) Общ. проп. на тур. языке — 95 т.л.
   б) Бюллетень на фр. языке — 55 " "
   в) Трем секц. на пропаганду 485 " " — 635 " "
3. На разъезды и представит. — 150 " "
4. На поддержку работн. в Париже — 150 " "
5. На текущие расходы — 50 " "

Итого — 1700 л.



Итого

Отд. В:

Расходы по изданию „Прометей"

(во фр. франках)

1. Печатание книжн. номера — 1500 фр.
2. 3-м редакт. кавказцам — 3000 "
3. 2 " не " " — 1400 "
4. За переводы — 700 "

*"Qafqaz İstiqlal Komitəsi"nə və "Prometey"ə ayrılan maliyyə*

Polşada Prometeyin təşəkkül tapması ilə bağlı "Polskaya Mısl" (Polşa düşüncəsi") qəzetinin redaktoru V.Bonçkovskinin "Vosxod" ("Şərq") jurnalında çap olunan **"Prometey problemi"** məqaləsi də maraqlıdır. Müəllif yazırdı: "Rusiya Lehistana (Polşaya) çöllüklərin və Şimalın ac bir övladı kimi baxır: o öz qərb "ölkələri"ni qeyb etdikcə, xarici Monqolustanı felən işğal edir və Çində bir Kommunist Cümhuriyyəti vücuda gə-



Глубокоуважаемый Т. Головко!

Препровождая при сем бюджет К.Н.К. на 1928 г. и прося Вас не отказать в любезности поддерживать его полностью пред надлежащими органами, считаем необходимым сделать нижеследующие пояснения:

Бюджет на 1928 год имеет увеличение в общем на 850 долларов (2350 д. против 1500), что составляет около 50%; из этой суммы часть приходится в I-х на долю общей пропаганды (систематически и ежемесячно) на тур. и на фр. языках ... во 2-х на издательство



на предмет пропаганды секц. Сев. Кавказа, которая в свою очередь издает журнал „Вольные горцы" в Праге; а также из 60 лир отпуск. Груз. секции на пропаганду.

Сумма же в 150 лир назначается в Париж. 4 части одному азербайджанскому в Париже другому горскому работнику по 700 фр. и дополнительно туркестанскому работнику в ред. „Пром." в размере 300 фр.

4 февр. 1928 г.

М. Э. Расул-заде

С. Мдивани

*Polşa rəsmilərinə M.Ə.Rəsulzadənin də imzası olan məktub, 1928-ci il*

tirir. 1926-da V.İvanov: "Rus dövlətinin qüvvəti özünü işğalda göstərir" deyə yazmışdı. Məhrəm sovet xarici siyasətinin şüarı da belə deyir: "Şərqdə Yapon faşizmini enmək üçün onun qərbdəki arxasını məhv etmək lazımdır". Sovetlər İspaniyada milliyyətçi Avropa ilə hərb edir və Şanxay cəbhəsində terror hərəkatını himayə edir. Sovetlər Avropada

"xalq cəbhələri" təşkil edir və Çini Nippon ilə çarpışmaq üçün ayaqlandırır" (3, s. 4).

Sonra müəllif sovet təhlükəsindən uzaqlaşmağın yolunu məhz **"Prometey"** millətçilərinin apardığı mübarizədə görür: "Bu vəziyyətin doğurduğu bir zərurətdir ki, qısa olaraq Ukrayna, Qafqaz, Türküstan və s. ölkələr başda olmaqla Rusiyanı ayrı-ayrı milli dövlətlərə parçalamaq şüarında ifadəsini tapan Prometey məsələsi, Lehistan üçün əlverişli olmayan qonşu dövlətlərin inkişaf edən təzyiqlərinin indiki vəziyyətdə, bu təzyiqin daha artıq hiss edildiyi bir məntəqədə, yəni rus-leh məntəqəsində öz işinə yarıyacaq ən müsbət və yeganə bir çarədir. Mübaliğə etmədən deyə bilərik ki, qüvvətli bir dövlət və öz bütövlüyü yolunda çarpışa biləcək vəziyyətdə olmaq mənasında, Lehistanın istiqbalı Prometey məsələsinin gerçəkləşməsi, yaxud, daimi olaraq Rusiyanı zəif düşürməyə yarıyacaq aktual bir şəkil alacağından asılıdır.

"Prometey" həqiqəti ilə Leh həqiqəti arasındakı əlaqə olduqca qüvvətlidir və bilirik ki, beynəlmiləl münasibətlər tarixində məhkum və dövlət həyatından məhrum millətlərlə, dövlət və istiqlala sahib bir millət arasında bu dərəcə mənfəət yaxınlığını göstərən çox az misal vardır. Lehistanın bir dövlət halında müstəqil olması və Prometey millətlərinin əsarətdə qalması bu işə ancaq taktika və vəziyyətə aid bir təzad və uyğunsuzluq qatmışdır" (4, s. 4).

Qeyd edək ki, "Prometey" ideyası getdikcə daha çox ölkədə özünə dayaq tapırdı. Belə ölkələrdən biri də İtaliya idi. İtaliyada yaşayan gənc alim, Yaxın Şərq və Uzaq Şərq problemlərinin tanınmış bilicisi Lauro Maynardi əsasən "Prometey" xalqlarının problemlərindən bəhs edən "Notiziario Orientale" adlı mətbuat orqanı nəşr etməyə başlamışdı. (4, s. 43). Jurnalın fəaliyyət istiqamətləri haqqında redaktorun yazdığı baş məqalədən öyrənmək mümkündür: "Şərq problemlərinin diqqətli müşahidəçisi Uzaq Şərqdəki vəziyyətə nəzər yetirməyə bilməz. Biz hər şeydən əvvəl Yaponiya ilə Rusiya arasındakı mümkün ziddiyyəti nəzərdə tuturuq. Məhz bu ziddiyyət mərkəzi bolşevik hakimiyyətini yıxıb, Rusiya imperiyasının çoxmillətli dövlətlərə parçalanmasına səbəb ola bilər**. Rusiyanın parçalanmaq formasını başa düşmək üçün mütəxəssis olmaq da lazım deyil. Bu, belə olacaqdır: Ukrayna, Kazaklar ölkəsi, Qafqaz (4 xalqla: Azərbaycan, Gürcüstan, Ermənistan, Şimali Qafqaz və ya Çərkəzistan), Türküstan, Sibir və s. Və bunun əsasında müstəqil dövlətlər yaranır.** Bütün bunlar Şərqi Avropada, Qara dənizdə, Yaxın və Uzaq Şərqdə yeni situasiya yaradır.

O ki qaldı İtaliya imperiyasına, biz təsdiq edirik ki, o, bu ölkələrin hər birində "status-kvo"nun dəyişdirilməsində tamamilə maraqlıdır. Onu

məcbur edirik ki, bizdə Ukraynanın, Kazak torpaqlarının və Qafqazın tarixi, coğrafiyası, iqtisadiyyatı ilə məşğul olsunlar. Və həm də bu ölkələrin milli hüquqlarını, tələblərini, gələcəkdə azad xalqlar sırasındakı əhəmiyyətini aydınlaşdırsınlar" (4, s. 43).

Göründüyü kimi, İtaliyada da artıq Rusiya əsarəti altında qalan xalqların problemlərinə diqqət yetirilirdi.

"Prometey" jurnalına siyasi və maddi dəstəyi aşağıdakılar göstərirdi: ilk dəstəyi edən Varşavadakı Şərqşünaslıq İnstitutu idi. İnstitutun "Vosxod-Orient" adlı mətbu orqanı da çap olunurdu. İsveçrədəki dəstəyi isə "Jurnal de Jenev" qəzetinin baş redaktoru Jan Marten idi. Lakin "Prometey"in ən nüfuzlu lobbisti, 20 ilə qədər İsveçrənin Xarici İşlər Naziri və Millətlər Liqasında əsas məruzəçisi olmuş Cüzeppe Motta idi. Məhz onun fəallığı ilə 1922-ci ildə Gürcüstanın Millətlər Liqasına daxil olması haqqında qərar qəbul edilmişdi. Cüzeppe Motta SSRİ-nin 1934-cü ildə Millətlər Liqasına daxil edilməsinin qəti əleyhdarı idi.

Fransada isə "Prometey"i Senatın prezidenti Pol Dummerin başçılıq etdiyi "Frans-Orian" Komitəsi, eləcə də Əlimərdan bəy Topçubaşov, Ceyhun Hacıbəyli, Türkiyənin Parisdəki səfiri Fəthi bəy, Mustafa Çokayoğlu, türkoloq Jozef Kastanye və başqaları müdafiə edirdilər...

**"Prometey" redaksiyası SSRİ ilə bağlı əksər məlumatı Türkiyədən alırdı. Jurnalın bu bölməsinin əsas müəllifləri M.Ə.Rəsulzadə, Miryaqub Mehdiyev, Mustafa Çokayoğlu, S.Menaqari və A.Asatiani idilər.** "Prometey"də ən çox "İstiqlal"dan (Berlin, redaktor M. Ə. Rəsulzadə - red.), "Azərbaycan Yurd Bilgisi", "Yeni Qafqasiya", "Yeni Türküstan" və "Odlu Yurd"dan (İstanbul) yazılar çap edilirdi. "Prometey"in xidməti sayəsində Avropa ictimaiyyəti Zaqafqaziyadakı sürgünlər, həbslər haqqında məlumat əldə edirdilər...

Qeyd edək ki, 1938-ci ildən başlayaraq "Prometey" jurnalı adında və formatında dəyişiklik etdi. Həmin ildən jurnal bu adla nəşr edilməyə başladı: "La Revyu de Prometey".

Yeni adla nəşr edilən jurnal daha çox Prometey hərəkatının ensiklopediyası tendensiyasına üstünlük verirdi. Jurnalın yeni nəşrinin ilk sayında Varşava Universitetinin professoru A.Lotoçskinin 1905-ci ildə Rusiya Müsəlmanlarının keçirdiyi ilk toplantıya həsr edilən məqaləsi çap olunmuşdur. Müəllif bu ideyanın inkişaf etdirilərək 1917-1918-ci illərdə bəhrə verdiyini yazırdı. Məhz bu ideya rus olmayan xalqların Rusiyadan tamamilə ayrılmasına və milli dövlətlərini qurmasına şərait yaradırdı. Müəllif yazırdı: "Muxtariyyatçı-federalistlərin Birliyi və əzilən xalqların müasir təşkilatların yalnız bir şüarı vardır... Millətçiliyimiz uğrunda, hamı birimiz üçün, birimiz hamı üçün!" (5).

Həmin sayda "Jurnal de Geneve" jurnalının şef-redaktoru, qafqazlı mühacirlərin yaxın dostu J.Marşenin də maraqlı məqaləsi çap olunmuşdur. Müəllif təəssüf edir ki, İspaniya və Çində olan müharibələr və digər Avropa problemləri Qafqaz məsələsini arxa plana atmışdır. Lakin o, göstərir ki, Qafqaza diqqət yenidən artacaqdır: "Qafqaz yenidən dirçələcəkdir. Mən buna tam şəkildə inanıram. İnanıram ki, ayrı-ayrı Qafqaz dövlətlərinin patriotları həmrəy olub, birlikdə işləyəcəklər" (5).

Jurnalın ədəbiyyat bölməsində isə azərbaycanlı mühacir doktor Miryaqubun Füzuli və Şah İsmayıl Xətayinin yaradıcılığı ilə bağlı dərin təhlili verilmişdir.

1939-cu ildə Polşanın nasist Almaniyası tərəfindən işğalı ilə bağlı "Revyu de Prometey" jurnalının nəşri  üçün də problemlər yarandı. Mustafa Çokay, A.Şulqin, Miryaqub Mehdiyev, Noy Jordaniya bütün həmyerlilərinə müraciət edib, onları alman-sovet koalisiyasına qarşı müqavimətə çağırdılar. Sonuncu sayın redaksiya məqaləsində (8-9 aprel, 1940-cı il) oxuculara təklif edilirdi ki, cuma və xolera xəstəlikləri arasında seçim etmək lazım deyil, sadəcə Finlandiyanın qəhrəmanlıq mübarizəsindən nümunə götürmək lazımdır" (2, s. 66-67-68).

**"Prometey"in yaradılmasında ilk təşəbbüsçülər sırasında M.Ə. Rəsulzadənin də adı çəkilir.** Tədqiqatçı X.İbrahimlinin "Azərbaycan siyasi mühacirəti" kitabında yazılır: "Hələ 1923-cü ilin iyunun 26-da çıxan "Yeni Qafqasiya" jurnalının birinci sayında M. Ə. Rəsulzadə Zevsin Prometeyi Qafqaz dağlarına zəncirlənməsini və qartalın onun ciyərlərini hər gün didməsini, Azərbaycanın, eyni zamanda Qafqazın mövcud siyasi durumu ilə əlaqələndirərək yazırdı: "Qafqasiyanın tarixini, son əsrdəki güzəran edən əhalini və bir xassə indiki vəziyyətini ifadə etmək üçün bu əsatirdən daha gözəl bir rəmz tanımaq mümkün deyil, Azərbaycanı və Qafqazı Prometey adlandıran müəllif onu parçalayıb, qanına qəltan edənin gerbində ikibaşlı qartal həkk edilən Rusiya imperiyası olduğunu göstərirdi. Bu yazının analoji variantı Birliyin 1926-cı il yanvarın 10-dan çıxmağa başlayan eyni adlı jurnalının birinci sayında da dərc edilmişdi" (6, s. 150).

"Prometey"in yaranma tarixi və fəaliyyəti ilə bağlı alman tədqiqatçısı Muhlenin və  Polşa tarixçisi Mikuliçin də araşdırmaları maraqlıdır.

Tanınmış tədqiqatçı Mirzə Bala Məmmədzadə isə "Prometey"in ayrıca bir gənclər şöbəsi olması haqqında  məlumatlar verir: "Kommunist firqələri və Komintern yeni  kadrosunu gənc kommunistlər birliyindən alır. Buna qarşı məhkum millətlərin gəncləri "Pometey" Gənclər Təşkilatı yaratmalı və yaşlı nəslin açdıqları istiqlal davasını davam etdirəcək kadro və nəsil yetişdirməlidirlər" (7,s.7).

**“Prometey”** təşkilatı özünün əsas orqanı olan “Prometey”i nəşr etməklə yanaşı, ayrı-ayrı xalqların mühacirət mətbuatı orqanlarına da maddi dəstək göstərirdi. Mühacirlərin aşağıdakı yayım orqanlarını bu sıraya daxil etmək mümkündür: 1) Parisdə gürcülərin çap etdiyi “Sakartvelo”; 2) Rumıniyada Krım tatarlarının nəşr etdiyi “Əməl”; 3) Varşavada nəşr olunan “Kavkaz”, (Şimali Kavkas); 4) İdil-Ural türklərinin yayım orqanı olan “Yana Milli Yol” (“Yeni Milli Yol”); 5) Türküstanlıların nəşri olan “Yaş Türküstan” (“Gənc Türküstan”); 6) Azərbaycanlıların nəşr etdiyi “Kurtuluş”.

**Qeyd edək ki, 1920-30-cu illərdə azərbaycanlı mühacirlərin də fəallığı ilə Qafqaz Birliyi ideyası reallaşıb ciddi təşkilata çevrildi.** Azərbaycandan, Gürcüstandan, Şimali Qafqazdan olan təmsilçilər bu ad altında əslində çoxdan fəaliyyət göstərirdilər. Hələ 1915-ci ildə Səlim bəy Behbudovun fəallığı ilə ayrıca Qafqaz Komitəsi yaradılmış, sonradan bu məsələ 1918-ci ildə Trabzon konfransında, 1919-cu ildə isə“Müsavat” Partiyasının qurultayında əsaslandırılmışdı.

Qeyd edək ki, Azərbaycanda həmin illərdə yaşayan polyaklar həmişə bu ideyanın tərəfdarı olmuşlar. Belə ki, 1920-ci ilin aprelin 7-də Qafqaz Respublikalarının Tiflis konfransında Azərbaycan nümayəndə heyətindən olan H.Ağayev (heyətin rəisi), F.Xoyski, M.Vəkilovla yanaşı polyak-tatar O.H.Mirzə Kriçinski də təşəbbüs göstərib Qafqaz Cümhuriyyətləri Şurası yaratmaq barədə razılaşma əldə etmişdilər. Şuranın yaradılması ilə bağlı 24 maddədən ibarət layihəni isə O.Nayman Mirzə Kriçinski hazırlamışdı. Lakin 1920-ci ilin aprelin 27-də bolşeviklərin Azərbaycanı işğal etməsi səbəbindən bu layihə həyata keçirilmədi (8).

Lakin bu istiqamətdə çalışmalar davam edirdi. **1921-ci ildə** Şimali Qafqaz, Azərbaycan, Gürcüstan, Ermənistan nümayəndə heyətləri arasında Parisdə müraciət imzalandı (6, s. 159). 1924-cü ilin oktyabr-noyabr aylarında Azərbaycan, Gürcüstan və Şimali Qafqasiya təmsilçiləri yenidən Parisdə toplaşır və “Qafqasiya Sovet Rus qüvvətlərindən qurtular-qurtulmaz, yüksək dövlət strukturlarının birləşməsi yolu ilə bir federalist qurum yaratmaq” planlaşdırılır. Məlum olduğu kimi, hələ 1924-cü ilin iyunun 11-də Azərbaycan, Gürcüstan və Şimali Qafqaz nümayəndələrinin imzaladığı protokol əsasında formalaşan **Daimi Şura** öz qarşısına üç respublika adından diplomatik işlər aparmağı və bu xalqların bir konfederativ dövlətdə birləşdirilməsi üçün bütün tədbirləri görməyi qarşısına məqsəd qoyurdu. Bundan əlavə Daimi Şura aşağıdakı vəzifələrin də yerinə yetirilməsini vacib sayırdı: **1)** Daimi Şura üç respublikanı maraqlandıran bütün məsələləri müzakirə və həll edir. **2)** Daimi Şura hər bir milli təmsilçinin bir səsi olduğunu nəzərə almaqla qərarı birlikdə qəbul edir. **3)** Daimi Şura Gürcüstan, Azərbaycan və Şimali Qafqaz ölkələrinin hər birinin üç nüma-

yəndəsi ilə təşkil olunur. Daimi Şura öz Rəyasət Heyətini seçir. **4)** Rəyasət Heyəti diplomatik danışıqlar aparır. Daimi Şuranın qərarlarının düzgün yerinə yetirilməsinə nəzarət edir, özünün iclaslarını keçiri. **5)** Daimi Şuranın yanında katiblik olur. Katibliyin başlıca vəzifələrindən biri Daimi Şuranın protokollarını tərtib etməkdir. **6)** Daimi Şuranın milli təşkilatlardan toplanmış və digər mənbələrdən əldə edilmiş maliyyə fondu olur" (9, v. 193-194).

Göründüyü kimi, Qafqaz Konfederasiyasının formalaşması üçün ciddi addımlar atılırdı.

Bununla bağlı təmsilçilər 1924-cü ilin sonlarında qurtuluş mücadiləsini dəstəkləməklə səlahiyyətli bir Qafqasiya Komitəsi qurur (1, s. 37).

1927-ci ildə Varşavada müstəqillik elanının 10 illiyi ilə bağlı keçirilən tədbirlərdə qafqazlı təmsilçilərdən ibarət bir konfederasiya yaratmaq ilkin olaraq səslənir. Bir il sonra isə bu qurumun adından Millətlər Cəmiyyətinə önəmli bir nota verilir .

Qafqaz Birliyi ilə bağlı formalaşan bu qurumun fəaliyyətinə Polşa dövləti böyük köməklik edirdi. Eyni zamanda Polşa bu təşkilatın fəaliyyətini də əlaqələndirir, maliyyə işində dəstək göstərirdi.

**Qafqaz Konfederasiya görüşünü vacib bilən Azərbaycan, Gürcüstan və Şimali Qafqazın mühacirətdəki milli təmsilçiləri 1934-cü ilin 14 iyulunda Belçikanın mərkəz şəhəri Brüsseldə toplaşaraq "Qafqaz Konfederasiya sazişi"ni imzaladılar. Ermənistan təmsilçiləri isə sazişi imzalamaqdan imtina etdilər.**

Qafqaz Konfederasiya sazişini (misaqini) Azərbaycan, Gürcüstan və Şimali Qafqaz təmsilçiləri olaraq aşağıdakı liderlər imzalamışdılar: **1) Azərbaycan adına: Məhəmməd Əmin Rəsulzadə - Azərbaycan Milli Şurasının keçmiş rəisi, "Müsavat" Partiyası və Azərbaycan Milli Mərkəzi lideri; Əlimərdan bəy Topçubaşov – Azərbaycan parlamentinin keçmiş sədri və Azərbaycan Cümhuriyyəti Nümayəndə Heyəti sədri.** 2) Gürcüstan adına: Neo Jordaniya – Gürcüstan Cümhuriyyətinin keçmiş Cumhurbaşqanı və Gürcüstan Milli Mərkəzinin rəisi; Ə.Çxenkeli – Gürcüstan Cümhuriyyətinin Parisdəki keçmiş nümayəndəsi; 3) Şimali Qafqaz adına: Şimali Qafqaz Cümhuriyyətinin keçmiş dövlət adamları – Məhəmməd Girey Sunc, İbrahim Çulik, Tausultan Şakman.

Təmsilçilər imzaladıqları **Qafqaz Konfederasiyası** sazişinin aşağıdakı əsaslardan ibarət olduğunu bildirmişlər:

**1.** Qafqaz Konfederasyonu, daxildə bir Cümhuriyyətin milli xarakter və tamamiyyəti mülkiyəsini təmin edərək, xaricdə bütün Cümhuriyyətlər adına yüksək dərəcəli beynəlmiləl bir vəhdət kimi hərəkət edəcəkdir. Konfederasiyanın müştərək bir siyasi və gömrük hüdudu olacaqdır.



225

Azerbejdżanie

Warszawa.

1. Mehmet Emin Rasul-Zade – prezes Centr.Narodowego,prezes Centr. Biura partji "Mussawat",kierownik organiz.środowiska warszawskiego, delegat do K.N.K.,delegat do zarządu klubu "Prometeusz" /faktycznie/,prze stawiciel w Warszawie /faktycznie/, b.przewodniczący Azerbejdżańskiego Zgromadzenia Narodowego.

Paryż.

2. Mir Jagub Mechtjew – kierownik organizacyjnego środowis paryskiego,członek Centrum Narodow wiceprezes Delegacji Azerbejdżańsk w Paryżu,przedstawiciel w redakcj "Prométhée",przedstawiciel w Pary

Paryż.

3. Abbas Bey Atamali – sekretarz generalny Delegacji Az bejdżańskiej w Paryżu,członek Ce Biura partji "Mussawat".

**2.** Konfederasiyaya daxil olan Cümhuriyyətlərin xarici siyasəti konfederasiyanın səlahiyyətli nümayəndələri tərəfindən idarə ediləcəkdir.

**3.** Konfederasiya hüdudlarının mühafizəsi, konfederasiyaya daxil olan Cümhuriyyətlərin ordularından mütəşəkkil qüvvələr, Konfederasiya orduсuna veriləcək və bu ordu Konfederasyonun əsas nümunələrinə tabe tək bir komanda altında olacaqdır.



DECLARATION DU COMITE DE L'INDEPENDANCE DU CAUCASE.

Nous soussignés représentants des Peuples du Caucase,prenant en considération les expériences de la lutte pour l'indépendance des Républiques du Caucase de l'occupation russo-bolchévique,ainsi que pour la reconstruction de leur indépendance, sommes persuadés que le futur succès de cette lutte dépend de la coordination, solidarité et réunion des forces des Peuples du Caucase.

Nous rendant compte de la nécessité de la réalisation de l'idée de la Confédération du Caucase, unique forme politique contribuant à l'oeuvre de la libération du Caucase ainsi qu'à la défense de son indépendance contre les dangers à l'avenir, – nous-représentants responsables de nos républiques démocratiques,avons formés "Le Comité de l'Indépendance du Caucase" dans le but de réaliser cette idée.

Cet organe révolutionnaire des peuples du Caucase est le centre coordinateur et régulateur des organisations nationales et politiques du Caucase dans leur lutte pour l'indépendance.

D'après la conviction profonde du Comité, l'indépendance du Caucase est,non seulement la garantie de la prospérité économique et culturelle des Républiques dont il se compose, mais aussi le facteur important de la paix en Orient.

S'engageant dans la voie d'une lutte rude et responsable pour la réalisation de l'idéal sublime des démocraties du Caucase le Comité de l'Indépendance puise avant tout ses forces dans la foi profonde de la justice, de la lutte sacrée, menée si héroiquement par les peuples du Caucase; il compte aussi sur la compassion des pays civilisés ainsi que de l'Orient qui s'éveille.

Le 15 Juillet 1926.

S.au nom d'Azerbaidjan
E.Rassoulzade
K.Sultanoff

S.au nom du Caucase du Nord
S.Schamyl
A.Khantemir

S.au nom de la Georgie
N. Ramichvili
N. Magaloff

***M.Ə.Rəsulzadə ilə əlaqəli, "Prometey" ilə bağlı sənədlər***

**4.** Konfederasiyaya daxil olan Cümhuriyyətlər arasında çıxa biləcək və bilavasitə müzakirə ilə həll edilməyəcək hər türlü ixtilaflar icbari orbitə və yaxud konfederasiya yüksək məhkəməsinə verilərək həll ediləcəkdir. Konfederasiyaya daxil olan Cümhuriyyətlər bunların bütün qərarlarını tamamən qəbul edir və icra etməyə məcburdurlar.

**5.** Ekspertlər komissiyası yuxarıdakı əsaslardan hərəkət edərək yaxın zamanlarda Qafqaz Konfederasiya Ana Yasasının layihəsini hazırlamaqla məşğul olacaq. Bu layihə hər Cümhuriyyətin toplanacaq ilk məclisi – müəssisan fəaliyyəti üçün bir əsas olacaqdır.

**6.**"Qafqaz Konfederasiyası sazişində Ermənistan Cümhuriyyəti üçün də yer buraxılmışdır" (9,v.165-178;182-192).

Sazişin ümumi müddəalarından göründüyü kimi, bu milli mübarizə liderləri bir həqiqəti yəqinləşdirmişdilər ki, yalnız ölkələrinin azadlıq və tam istiqlala qovuşacağı təqdirdə millətlərin xoşbəxt həyatı mümkündür. Aydın olurdu ki, bu xalqların bir-birinə inam birliyindən siyasi və iqtisadi vəhdətin olacağı mümkündür. Konfederasiyaya daxil olan hər bir Cümhuriyyətin dövlət hüdudularının qorunması da önəmli bir hadisə idi.

**Bu tarixi hadisədən məmnun qalan M.Ə.Rəsulzadə həmin ilin noyabrında dünyasını dəyişən Ə.M. Topçubaşovun dəfn mərasimində**

**demişdi:** "Xəstəliyin, qocalığın və mühacirətdəki yoxsulluğun zəif saldığı həyatının son günlərində imzaladığı Qafqasya Konfederasyonu Misaqinin(bəyannaməsinin) elanından Əlimərdan bəy son dərəcə məmnun idi" (10).

**Ədəbiyyat:**

*1)Unutkan tarih. (Sovet sonrası Türkdilli Alan. Hazırlayan: Semih Vaner). İstanbul, 1996. 2) Ramiz Abutalıbov. Qodı i vstreçi v Parije. Moskva, 2006. 3) Şimali Qafqasya / Severnıy Qafqaz. Varşava, 1938, N47-48. A) (169, s. 4)Şimali Qafqasya / Severnıy Qafqaz. Varşava, 193 s. N55-56.5)la Revue de Promethee. 1938, cild I, N 1.6) Xaləddin İbrahimli. Azərbaycan Siyasi Mühacirəti. Bakı, 1996.7) Mirzə Bala. Qafqasiyada Milli Hərəkat. "Qurtuluş", N36, 1937.8) "Qurtuluş". Berlin, 1935.9) Polşa respublikası. Varşava, Yeni Aktlar Arxivi. Xarici İşlər Nazirliyi. İş 6690, v. 193-194.10) "Qurtuluş". Berlin, 1934, N2.*

***Qeyd:*** 1)**"Şərq İnstitutu" –** Avropada ilk elmi-tədqiqat sovetoloqiya institutu. 1926-1939-cu illərdə Varşavada fəaliyyət göstərib.

**2) " Prometey"** termininin muəllifi olaraq Polşa diplomatı Tadeuş Şetselin də adı qeyd edilməkdədir.

# TƏDBİRLƏRDƏ, MƏRASİMLƏRDƏ, TOPLANTILARDA ÇIXIŞLARI

*Azərbaycan, Bakı, 1907-ci il*

## Azərbaycan mətbuatının banisi H.Zərdabinin dəfn mərasimindəki nitqi



***Azərbaycan mətbuatının banisi Həsən bəy Zərdabi***

**"Həzərat!** Indicə keçən natiq Əbülhəsən gördünüz ki, nə ürəkdən, ürəyinin ən dərin guşəsindən bu günkü hali-övzamızdan, şəhrimizin bir zülm-mücəssəm və qədr dəhşətnakə giriftar olmasından şikayət etdi.

**Bu bəlayi-əzimdən qurtarmaq** , bu dəhşətli zülm və qəddarlar əlindən xilas olmaq üçün o, təklif ediyordu ki, rəislərimizə yalvaraq- yaxaraq, taki onlar bizə rəhm edib yazıqlansınlar, bizim halımıza yanıb əhvalımıza çarəsaz olsunlar.

**Heyhat!** Möhtərəm natiq səhvdədir. Bizdə rəis yoxdur. Bizim rəislərimiz cəmaətimizin başına cəlladlar olmuşdur. Biçarə cəmaəti bu cəlladların əlindən qurtarmalıdır. Bu xilaslıq da cəmaətin öz əli ilə gərək olsun. Başqa bir yol yoxdur. Cəmaət özü-öz azadlığına gərək çalışsın. Rəislərə yalvarmaq, onlardan mərhəmət istəməklə onun halına heç bir fayda olamaz. Çün həmişə qoyun nə qədər xırıldasa, nə qədər nalə iltica etsə də qəssab onun bu naləsinə baxmaz. Ancaq öz işinə məşğul olar, başın kəsib dərisini soymağa, ətini çəkib taraş etməyə çalışar.

İştə cəmaəti bu dərəcəyə çatdırmaq, öz həqqini alacaq mərtəbəyə yetirmək üçün onun gözlərini açmaq, həqqi və batili ona bildirmək lazımdır. Dəyər ki, cəmaət öz həqq və ixtiyarını, öz bacarıq və gücünü bilsin, o zaman heç kəs onu sıxıntı altında saxlaya bilməz.

**Cəmaəti ayıltmaq, onu dərrakəli etmək üçün nə lazımdır? –** maarif, maarif, maarif! Ancaq elm və bilik ilə cəmaət özünün nə olduğunu və nə edə biləcəyini qana bilər.

İştə bu yolda da təşyiinə yığışdığımız bu mərhum işləyib ömrünü keçirmişdir. İştə bu qoca ədib də haman cəmaətin hər dərdinə dərman olan ürfan toxumlarını səpmişdir ki, bu barələrdə çox danışıldı və vaxt müsaidət etmədiyindən nitqimi uzun etməyib qurtarıram.

**Həmin bu maarif mücahidi** olan pirirövşənlərimizə xitabən cəmaətin maarifmənd və mütərəqqi olduğunu özünə məslək tutan "Nicat" maarif cəmiyyəti tərəfindən deyirəm ki, ***yat, Allah sənə rəhmət eyləsin!".***

***"İrşad" qəzeti. 2 dekabr, 1907-ci il, N122.***

***Gürcüstan, Tbilisi, 8 fevral, 1915-ci il.***

## GÜRCÜSTANIN BÖYÜK ŞAİRİ AKAKİ SERETELİNİN DƏFN MƏRASİMİNDƏKI NİTQİ



***Gürcü şairi Akaki Sereteli***

"Müsəlman mətbuatı nəcib gürcü millətinə gələn müsibətinə iştirak etmək və müsəlman əfkari-ümumiyyəsinin təsəllisini müsibətzadə qonşularımıza yetirmək üçün birləşdi. Birləşmiş müsəlman mətbuatının böylə qardaşca hissiyyatını sizə yetirmək üçün vasitə olmaq şərəfi mənim öhdəmə düşmüşdür. Bununla həqiqətən iftixar edirəm.

**Nədir müsəlman mətbuatını böylə bir iqdamə vadar edən?** Nədir səbəb ki, gürcü milləti ilə bərabər müsəlmanlar da bu böyük şairi təqdir ediyorlar. Məlum olduğu üzrə **Akaki amaliyyə və insaniyyə şairidir.** Onun istədiyi odur ki, hər millət öz dili ilə danışsın, öz yazısı ilə yazsın., öz bildiyi kimi Allahına ibadət etsin. Bittəbii böyümək, tərəqqi etmək və dəyərli bir həyat keçirmək istəyən hər millət üçün nəcib gürcü millətinin şairi tərəfindən gözəl surətdə təsvir olunan bu əsas mənidardır, əzizdir.

**Fəqət Akaki yalnız bununla qalmıyor idi,** o, öz millətini xoşbəxt və mütərəqqi görmək istərkən, bu həqqi başqa millətlər üçün də istiyor, başqa millətləri də öz arzu və amalları mövcibincə böyümək, artmağa

həqli görüyordu. İştə (budur), onu yalnız gürcülərin olmaqdan çıxarıb da ümumiləşdirən cəhət də budur.

**Mədəniyyəti-bəşəriyyə, ayrı-ayrı millətlərin mədəniyyətlərindən əmələ gəlmiş bir hasildir.** Dünyanın tərəqqisi kamil olmaq üçün ayrı-ayrı millətlərin tərəqqisinə əngəl olmamaq lazım. Gürcü şairi bu nəzəriyyənin tərəfdarı və onun müqtədir bir nümayəndəsi idi. Bunun üçün də o, yalnız Gürcüstanın deyil, əvvəlcə bütün Qafqasiyanın, sonra da bütün aləmindir. Bu nöqteyi-nəzərdən, ey nəcib gürcü milləti, sənə gələn müsibətdə özünü yalnız görmə, milli tərəqqilərini hər bir qeyddən qurtarmaq istəyən bütün millətlər, bilxassə, müsəlmanlar sənin ən səmimi dərddaşlarındır.

**Ey böyük şair, ey nəcib bir millətin yetirdiyi ali düha, sən sağlığında birlik və məhəbbət tərvic ediyordun.** Öldün: fəqət əmin ola bilərsən ki, sənin ruhun ölməmiş, o hələ diridir. Bu nə idi, buraya kəmalidiqqətlə toplanmış on minlərlə əhali burada, sevdiyin gürcülərlə də birləşmiş, mədəniyyətlərinə ehtiram etdiyin qövmlər, dostlar da hazır!..

Bu günkü bu münir lövhəyi-ittihadın baisi, ruhu sənsən, sənin ilhamındır. Binaənleyh sənə, ey dahi, minlərcə ehtiram!"

**"İqbal", 11 fevral, 1915-ci il, N862.**

**M.Ə.Rəsulzadə. Seçilmiş əsərləri. III c. Səh.73.**

**Bakı, 12 yanvar 1917-ci il.**

1918-ci ilin yanvarın 12-də müsəlmanların mövcud təşkilatlarından yaranmış **Milli Komitənin Milli Şurasında çıxış etmişdir**. "Açıq söz" qəzeti 14 yanvar 1918-ci il (N654) sayında onun çıxışı ilə bağlı belə məlumat verir: "Məhəmməd Əmin Rəsulzadə cənabları "Müsavat" firqəsi tərəfindən iclasın əvvəlində seçki icra edilməməsi təhti-qərara alınmış olduğu halda indi seçkidən daha böyük bir şeyə iqdamla səlahiyyəti olmadığı halda Komitə istefasını qəbul və vəzifəsinin başqalarına həvalə edilməsi müqabilinə protesto və protokola qeyd olunmasını tələb ediyor".



*Tanınmış polyak şairi Henrix Senkeviç*

**Bakı, 22 yanvar 1917-ci il.**

1917-ci ilin yanvarın 22-də Bakıdakı Polşa cəmiyyəti tərəfindən **tanınmış polyak şairi Henrix Senkeviçin xatirəsinə**

həsr edilmiş tədbir keçirilib. Tədbirdə çoxlu sayda millətlərin nümayəndələri iştirak edib: gürcü, yəhudi, çex, polyak, latış və s.

Tədbirdə **M.Ə.Rəsulzadənin çıxışı** çox təsirli olmuş və maraqla qarşılanmışdır. O, çıxışında bildirmişdi: "Bu gün Avropanın tanınmış yazıçısı olan H.Senkeviçi xatırlayarkən Şərqin böyük şairi Sədinin şeiri yada düşür: **"İnsanlıq ümumi, vahidi bir orqanizmdir.** Əgər həyat bu orqanizmin bir yerinə zərbə vurursa, onda başqa yerlər də ağrıyır". Müsəlman mətbuatı, bütün xalqların qardaşlığını tərənnüm edən belə Sədi kimi böyük filosoflardan tərbiyə almışdır. Öz müstəqilliyini itirmiş Polşa uzun əsrlər qaranlıqda qalmışdır. Polşanın günəşi doğmuşdur. Bu günəş bütün xalqların öz müstəqilliyidir. Günəşdən məhrum olan bir ölkədə H. Senkeviç qaranlığı işıqlandıran bir ay idi. Senkeviç öz xalqının qəlbində bir məşəl idi".

***"Açıq söz" qəzeti. 24 yanvar 1917-ci il.***

**Bakı, 15-20 aprel 1917-ci il.**

**M.Ə.Rəsulzadənin 1917-ci ilin aprelin 15-20-də Bakıda keçirilən Qafqaz Müsəlmanlarının Qurultayındakı çıxışı.**



***Bu binada ("İsmailiyyə" binası, hazırda burada Milli Elmlər Akademiyasının Rəyasət Heyəti yerləşir) keçirilən Qurultayda M. Ə. Rəsulzadə çıxış edib (1917-ci il).***

Qurultayın üç gün davam edən müzakirələrindən sonra M. Ə. Rəsulzadə tərəfindən hazırlanan məruzə 4-cü iclasa təqdim edildi. O, çıxışında dedi: "Türklük və müsəlmanlıq haqqında olan əsaslı nəzəriyyələr Rusiya müsəlmanlarına aid olunca bir növ elmi mübahisədən ibarət olub qalır. **Çünki otuz milyonluq müsəlman kütləsindən 29 milyonu türkdür.** Yerdə qalan bir milyon da komisyon danışıqları əsnasında qəti surətdə aşkar oldu ki, ciddiyyəti-tamamilə türk mədəniyyətinə qovuşmaq istəyirlər...İştə, bu xüsusları nəzərə alaraq komisyon bütün cərəyanları birləşdirə biləcək bir əsas üstündə sözünü bir elədi və muxtariyyətin hanki əsas və hüdud daxilində olacağı məsələsinin həllini açıq buraxaraq müsəlman millətlərinin bəqasını(əbədilik) təmin üçün Rusiyadan ötrü ən müvafiq

üsuli-idarənin məhəlli-muxtariyyət üzərinə qurulu Cümhuriyyəti-ənamdan ibarət olduğunu ittihadi-ara ilə qəbul etdi".

Qurultayda ilk dəfə olaraq Rusiyada yaşayan xalqlara ərazi muxtariyyəti ideyası açıq şəkildə qoyuldu. Bu ideyanı ilk dəfə olaraq irəli sürən **M.Ə.Rəsulzadə çıxışında qeyd etdi: "Rusiyanın dövlət quruluşunun ən uyğun forması ərazi muxtariyyətinə əsaslanan demokratik respublikadır".**

**Ədəbiyyat:**

*1)"Açıq söz" qəzeti, 25, 26 aprel 1917-ci il, N458.2) "Kaspi" qəzeti, 19, 21 aprel 1917-ci il. 3)M.Ə.Rəsulzadə. Seçilmiş əsərləri. IV cild (1917-aprel, 1918), Bakı, 2013.*

### *Rusiya, Moskva, 1-7 may 1917-ci il.*




*Ümumrusiya Müsəlmanlarının Qurultayı*

**1917-ci ilin mayında Moskvada keçirilən Ümumrusiya Müsəlmanlarının Qurultayındakı çıxışı.**

M.Ə.Rəsulzadə qurultayda iştirak etmək üçün 1917-ci ilin aprelin 29-da Moskvada olur. Mayın 1-də isə **"Əsədullayev" binasında** qurultayın açılış mərasimi başlayır. Qurultayı rəsmi olaraq ilk açan məşhur tatar maarifçisi Musa Bigiyev olur. M.Ə.Rəsulzadə qurultayın üçüncü iclasında geniş məruzə edir. Əhməd bəy Salihov və acaralı lord Kipanidzedən sonra çıxış edən **M.Ə.Rəsulzadə dedi:** "Millətdaşlar! Həll etmək istədiyimiz məsələ olduqca mühümdür. Şəkli – idarə məsələsidir. Bu məsələyə həm mədəniyyəti-bəşəriyyə, həm də mənafeyi-milliyyə nöqteyi-nəzərindən baxılmalıdır. Cəmaət bilməlidir ki, mədəniyyəti-bəşəriyyə milli mədəniyyətlərin məcmuindən hasil olma bir yekundur. Mədəniyyəti-bəşəriyyə öylə bir sərgidir ki, orada bütün millətlərin xəlq etmiş olduqları asari-nəfisə toplanmışdır. Buna görə də hökumətlərin şəkli-idarəsi mədəniyyəti-bəşəriyyənin təkmilinə xadim olmaq üçün millətlərin istiqlalını təmin etməlidir...

...Şübhəsizdir ki, Rusiya Cümhuriyyəti-Ənam (Xalq Cümhuriyyəti) üsulu ilə idarə olunmalıdır...

...Deyirlər ki, İslamiyyət özü bir millətdir. Deyirlər ki, İslamiyyət xristianlığa rəğmən mütədəyyinlərini (borcu olanları) bir millət halına

qoyur. Odur ki, hanki türkdən sorsan nə millətsən, müsəlmanam diyor. Bu nəzəriyyə yanlışdır...Xristian milləti olmadığı kimi müsəlman milləti də yoxdur...

**...Əfəndilər, islam millətləri dəxi mədəni bir federasyon vüsuda gətirməlidirlər.** Çünki bu ən təbii bir ittihad yoludur.

**...Türk mədəniyyəti, türk mənliyi vücuda gətirmək istəriz. Rusiyada olan 30 milyonluq müsəlmanlardan qismi-əzəmi təqribən 21 milyonu bu millətə mənsubdur...**

...İştə bunun üçün milli-məhəlli muxtariyyət əsası nöqteyi-nəzərindən biz, Azərbaycan ilə Dağıstan, Türküstan, Qırğızıstan kimi ayrı məhəlli və xüsusiyyətlərə malik olan türk qövmləri üçün muxtariyyətlər istiyoruz...”

**Mayın 7-də qurultayın altıncı iclası keçirildi.** Qurultaya Ə. M. Topçubaşov və F.Kərimi sədrlik edirdilər. Saat 13:30-da Əhməd bəy Salihovdan sonra M. Ə. Rəsulzadə çıxış etdi. Stenoqrafik hesabatdan: “Məhəmməd Əmin Rəsulzadə - millətdaşlarım! (Bu söz üzərinə bəzi kişilər rusca söyləsin deyir). Buna qarşı Əmin bəy: Mən müsəlmanların, türklərin səadətini milli hökumət və milli mədəniyyət əsaslarına görə qurulan təşkilatlarda gördüyümdən mümkün olduğu qədər hər yerdə türk dilindən başqa bir dillə əsla danışamayacağm!.. (Çox sürəkli alqışlar)”.

Qurultayda M.Ə.Rəsulzadənin irəli sürdüyü “ərazi muxtariyyəti” ideyası 271 səsə qarşı 446 səslə qəbul edildi. **Qurultayda iştirak edən türkmən şairlərdən biri heyranlıqla M.Ə.Rəsulzadəyə bir şeir həsr etmişdi.**

**Ədəbiyyat:**

*1)İhsan İlqar. Rusiyada Birinci Müsəlman Konqresi. Ankara, 1990,səh.291-292.2) “Açıq söz” qəzeti. 21, 23, 26, 28, 29, 30, 31 may; 2, 4, 6, 7, 8, 12, 13 iyun 1917-ci il.3) Seçilmiş əsərləri. IV cild (1917-aprel, 1918), Bakı, 2013.*

**Bakı, 11 oktyabr 1917-ci il.**

“Türk Ədəmi-Mərkəziyyət Partiyası Müsavat” tərəfindən “İsmailiyyə” binasında tərtib olunan gecədə **M.Ə.Rəsulzadə “Mərkəziyyət və ədəmi-mərkəziyyət” mövzusunda** çıxış etdi. Dəfələrlə alqışlarla qarşılanan çıxışında M.Ə.Rəsulzadə dedi: “Mərkəziyyətin müqabili isə ədəmi-mərkəziyyətdədir ki, istibdadı hürriyyətlə əvəz etmək deməkdir. Ədəmi-mərkəziyyət millətlərin hüququnu müsavi (bərabər) halda yaşaya bilmələrini təmin etdiyi üçün istibdada qarşı həmişə mübarizə etməkdədir”.

**“Müsavat”qəzeti, 13 oktyabr 1917, N4.**



**Bakı, 22 dekabr 1917-ci il.**

"Şirvanşahlar" sarayının müsəlmanların idarəçiliyinə (müsəlman Arxeologiya Cəmiyyətinə) verilməsi münasibəti ilə **"İsmailiyyə"** binasında təntənəli toplantıda M.Ə.Rəsulzadənin çıxışı böyük maraqla dinlənilir: "Millətdaşlar, inqilab sayəsində biz azad olduğumuz kimi, bizim sabiqki hürriyyətimizə bir nişandan olan bu bina da azad oldu. Mütəxəssislər yüz illik əsarətindən sonra xilas olan bu binada sənətkaranə incəliklər tapırlar. Fəqət bu gördüyümüz şey mədəniyyəti-islamiyyə dəryasından alınmış kiçicik bir qətrədir. Bu, bir güldür".

**"Açıq söz" qəzetinin 1917-ci il, 22 dekabr sayında isə M. Ə. Rəsulzadənin "Bu günkü ibtida" məqaləsi çap edilir.** Həmin məqalədə bu münasibətlə yazırdı: "Rusiya Qafqasiyayı aldıqdan, Azərbaycanı fəth etdikdən sonra milliyyətimizi bizə xatırladacaq nə varsa hamısını ortadan qaldırmaq, dağıtmaq istədi. Yıxmadığı asari isə əsarət altında bulunurdu. "Xan Sarayı" (Şah Eyvanı) da böylə əsarətə məhkum edilmiş binalardan idi.

Zəhmətkeşlərlə məzlum millətlərin inqilabə nəticəsində elan olunan böyük həqiqətdən, millətlərini, milli istiqlallarını təmin eləmək imkanından Rusiyadakı millətlər muxtariyyətlərini elan eləmək, milli hökumətlərini qurmaq kimi qədəmlər göstərməklə istifadə etməkdə ikən biz Xan Sarayını təslim almaqla qaneyiz.

Qoy bu gün 110 ildən bəri əsir bir halda olan Şah evlərindəki müsibətdən azad bir səda ilə çağrılacaq əzan səsi böyük ibtidaların müqəddiməsini təşkil eləsin".

***"Açıq söz" qəzeti, 22 dekabr 1917-ci il, N635.***



***Gəncə. Azərbaycan Milli Şurasının olduğu bina. İndi burada Aqrar Akademiya yerləşir.***

**Azərbaycan, Gəncə, 17 iyun, 1918-ci il.**

M.Ə.Rəsulzadənin 1918-ci ilin 17 iyununda Gəncədə Azərbaycan Milli Şurasının iclasındakı çıxışı: **"Əfəndilər!** Hələ səhər iclasını açanda indiki şəraitin necə

əhəmiyyətli olduğunu xatırlamışdım. Qəbul etdiyiniz qərarların tarixi məsuliyyətinin dözülməz ağırlığını Fətəli Xan Xoyskinin yaratdığı hökumətin çiyninə atdınız. Dünya müharibəsindən və Rusiya inqilabından doğulub, siyasi həyata ilk addımını atan Azərbaycan idealı hazırda sözlə deyilə bilməyən gərgin illər keçirir. Bu yeni doğulmuş siyasi türk övladı böyüyüb yaşa dolacaqmı, başqa xalqlar arasında yer tutacaqmı? Yoxsa sısqa uşaq kimi məhv olacaq? Əfəndilər, demək istəyirəm ki, **Azərbaycan hətta Qafqazda ən azadlıqsevər və inqilabi respublika sayılan Gürcüstandan da xoşbəxt olacaq!..”**

***“Adres-kalendar Azerbaydjanskoy Respubliki na 1920-y qod. C. 2, pod red. A. M. Stavrovskoqo. B., 1920.***
***Yaqublu N.Müsavat Partiyasının tarixi.B.,2012,səh.70-71.***

**Bakı, 10 noyabr, 1918-ci il, 10 noyabr.**

1918-ci ilin 10 noyabrında Bakı şəhərində yay klubunda Bakını azad edən Nuru Paşanın şərəfinə verilmiş ziyafətdəki çıxışı: **“Əlbəttə, biz azadlıq yolunda mübarizə edirik, nəticədə bizə ya istiqlaliyyətimiz qalar, ya uçurulmuş daşlar!** Fəqət əmin olun, müvəqqəti qələbə sizin üzərinizdə olsa da, daimi zəfər bizimdir!.. Siyasi üfüqdə qara buludlar görünün kimidir, lakin bu qara buludlara qarşı Nurularımızın zülmətqovan nuru var” (Bütün Məclis əhli ayağa qalxıb Nuru Paşa həzrətlərini xüsusi bir təzimlə salamlayır).



***M.Ə.Rəsulzadə bu binada Nuru Paşanın şərəfinə verilmiş ziyafətdə çıxış edib (indiki Filormaniyanın binası)***

***“Azərbaycan” qəzeti (rusca), 1918-ci il, N37.***

**Bakı, 28 May, 1919-ci il.**

**1919-cu il, 28 Mayda** İstiqlal elan edilməsinin bir illiyi münasibəti ilə Bakıda keçirilən böyük Bayram yığıncağında M.Ə.Rəsulzadə çıxış etdi. “Azərbaycan” qəzeti (rusca) 31 may 111 saylı nüsxəsində yazırdı: “Xalq onu (M.Ə.Rəsulzadəni) təsvirolunmaz dərəcədə, uzun müddət kəsilməyən gurultulu alqışlarla qarşıladı. M.Ə.Rəsulzadə çıxışında dedi:

"Mən bu gün Sizi Müsavat Partiyası adından təbrik edirəm... Bu günkü gün **Müsavat ideallarının təntənəsi günüdür!** *(gurultulu alqışlar)*".

***"Azərbaycan" qəzeti (rusca), 1919-cu il, N111.***

**Bakı, 13 iyun, 1919-cu il.**

1919-cu ilin iyunun 13-də müsavatçıların təşəbbüsü ilə Denikin təhlükəsi əleyhinə Bakıda böyük mitinq keçirildi. Saat 12:00-da başlanan mitinqdə Denikin əleyhinə "bəyannamə"ni mitinqi aparmağa sədr seçilmiş M. Ə. Rəsulzadə oxumuşdu.

***"Azərbaycan" qəzeti (rusca), 1919-cu il, N122.***

**Bakı, 1919-cu il, 15 sentyabr**

1919-cu ilin sentyabr ayının 15-də Bakıda şəhəri azad etmiş Qafqaz İslam Ordusunun – türk əsgərlərinin xatirəsinə ucaldılacaq abidənin daşatma mərasimi keçirildi. Çoxlu sayda insanların, hökumət rəsmilərinin iştirak etdiyi mərasimdə M. Ə. Rəsulzadə çıxış edərək dedi: "Ey hürr Azərbaycanın hürr vətəndaşları! Əziz millətdaşlar! Qeyri düşünür böyük bir hiss, milliyyət və qardaşlıq hissiylə uzaq yollardan qaçaraq bizi xilasa gələn və öz ölümləri ilə yeni bir Türk dövlətini yaşadan bu böyük insanları təsit edərkən sizi bir az düşündürmək istəyirəm...



***Türk şəhidlərinə abidə, 1918-1920-ci illər***



M. E. Resul-zade

15 Eylûl münasebetile

Bundan 19 yıl evvel Eylûlun 15-nde Bakıda Azerbaycan tarihinin mühim bir hadisesi vukubulmuştur!

Bugün milli kurtuluş hareketimizde, tarihi merhale teşkil eden büyük bir zafer kazanılmıştır! . . .

Milli Azerbaycan kuvvetleri yardımlarına koşan kardeş Türkiye kuvvetlerile birlikte düşman istilâsı altında bulunan Bakûyu esirlikten hâlas etmiş ve bu suretle yeni Türk tarihinde silinmez iz bırakan Azerbaycan cumhuriyetinin kurulmasını fiilen temin etmiş, fikren de ebedileştirmeğe vesile olmuştur! . .

Azerilerin türklerle birlikte Bakûdan koğdukları birleşik kuvvet, türklüğün ve müslümanlığın iyi tanıdığı tarihi düşman rus imperyalizmi idi.

Sade türklüğün ve müslümanlığın de- ... şey değildi.

Bu hadiseler, milli halâsı kendilerinden değil, beynelmilel ideoloji perdesi altında gizlenen inkilâbçı rus amelesi ve sözde insaniyetçi geçinen rus marksistlerinden umanların ne kadar gaflet ve zelâlette olduklarını gösterdi. . .

Bu idealın tahakkuku için, o idealla organik surette bağlı kuvvetlere güvenmek ve ancak onlardan necat beklemek şarttır! . .

15 Eylûlda, Bakûda, ilân olunan milli zafer – işte bu kaidenin zaferidir! . .

Milli Azerbaycan idealı, türklüğün ebedi düşmanı rusluktan doğan „Moskva amelesinin" yardımile değil, bilakis, ona karşı, kendi kuvvetile ve kardeş Türk yardımile kurtarılmıştır! . .

Milli kuvvetlerle milliyet namına ve

***M.Ə.Rəsulzadənin Bakının Qurtuluşu haqqında məqaləsi***

Millətlərə haqqı istiqlal elan edən Rus kommunizmi, iç Azərbaycan istiqlalına müncər (aid etmək) olunca, Türk düşməni ünsürlərlə buluşdu, başımıza qanlı Mart hadisələrini çıxardı. Bizə muxtariyyət vermək deyil, xarabazar "vermək" istədi. Bu qızıl və qanlı ilana qarşı milli istiqlalımızın həqiqi müdafiəsi olaraq bizə Xızır kimi gələn qüvvət hansı qüvvət idi? Bu qüvvət, bittəbi (təbii) Rusiya əmələsi deyil, Türk Ordusu idi. Milli bir qüvvət idi.

Əvət, Azərbaycan milli hürriyyət və istiqlalını, yeni Türk dövlətinin vücudunu bu gün böyük məzarları başında hüzn ilə üzərində diz çök-

düyümüz bu böyük insanları, qardaşını düşünür bu böyük Türklərə məd-yundur!

Bu böyük şəhidlər kimi biz də fədakar olacaq, hürriyyətimizi, milli vəhdət və istiqlalımızı canımızı verərək müdafiə edəcəyik!"

***"Yeni Qafqasiya" jurnalı, il:2, sayı:24, 15 eylul 1341.***
***"Azərbaycan" jurnalı, il:3, 1954, sayı:6-7(30-31), səh. 11-13.***

**Bakı, 21 avqust 1919-cu il**
**(Azərbaycanda ilk Dövlət Universitetinin yaradılması ilə bağlı Parlamentdə çıxışı) -** "Əlbəttə, bir daha ixtisaslı və bilikli adamlar yetişdirmək üçün **Avropaya tələbələr göndərəcəyik. Fəqət eyni zamanda məmləkət daxilində bir fənn və elm ocağı vücuda gətirəcəyik.** Çünki darülfünun yalnız tələbələr hazır etməyir. Bununla bərabər elm və fənnə aşina adamların və ərbabi – ixtilasın bir məcmuu olacaq ki, bir tərəfdən təlim etməklə, digər tərəfdən məmləkəti öyrənir, onun əhval və xüsusiyyatını təhlil və tədqiq edir. Bu nöqteyi-nəzərdən darülfünun Azərbaycana xaricdən bir çox alimlər və professorlar cəlb edəcəkdir".



***M.Ə.Rəsulzadə Bakı Dövlət Universitetinin bu binasında filologiya fakultəsində "Osmanlı ədəbiyyatı tarixi"ndən dərs deyib. Hazırda burada Azərbaycan Dövlət Pedaqoji Universiteti yerləşir.***

## ZAQAFQAZİYA SEYMİNDƏ ÇIXIŞLARI
## Tbilisi.1918-ci il

**1.** Zaqafqaziya Seymində 1918-ci ilin martın 1-dəki çıxışından: "Biz bir xalq olaraq tələb edirik ki, özümüz-özümüzü təmsil etməliyik".

***Zaqafqaziya Seymi. (Stenoqrafik hesabat. 15 fevral, 1918-ci il, s. 12 (rus dilində).***

**2.** M.Ə.Rəsulzadə 1918-ci ilin martın 5-də Zaqafqaziya Seyminin iclasında bu mövzuya toxunmuşdu: "Zaqafqaziya Seymi Müəssəsələr Məclisi kimi Zaqafqaziyanın Konstitusiyasının hazırlanması və ayrı-ayrı ərazi vahidlərinin funksiyalarının müəyyənləşdirilməsi ilə məşğul olmalıdır".

***Zaqafqaziya Seymi. (Stenoqrafik hesabat. 20 fevral, 1918-ci il, s. 27-28 (rus dilində).***

**3.** Zaqafqaziya Seyminin 9 apreldəki toplantısında M.Ə.Rəsulzadə bolşeviklərin fikrini belə açıqlayırdı: "Siz muxtariyyət haqqında fikirləşməyin, əks halda Sizin muxtariyyətiniz müxtəlif səbəblərə görə Rusiya demokratiyası və eləcə də Rusiya burjuaziyası üçün qəbul edilməyəcək və sonda Siz muxtariyyət yox, ermənilərin Türkiyədə olduğu kimi, daşnakların Türkiyədə əldə etdiyi xarabalıqlar qazanacaqsınız".

***Zaqafqaziya Seymi. (Stenoqrafik hesabat. 9 aprel , 1918-ci il, s. 54 (rus dilində).***

**4.**Zaqafqaziya Seymindəki çıxışlarının birində M.Ə.Rəsulzadə Zaqafqaziyanın müstəqillik elan etməsinin vacibliyini bildirirdi: "Çoxmillətli Rusiya xalqları öz talelərini Rusiya ilə birgə həll etmək istəyəndə, həmin Rusiya və Rusiya demokratiyası o vəziyyətə düşdülər ki, demokratiya prinsip və idealları lazımi sanksiyaları ala bilmədi və azadlıq əvəzinə biz Rusiyada anarxiya və dağıntı görürük və bütün xalqlara öz müqəddəratını azad təyin etmək azadlığını bildirən böyük inqilab şüarları başqa şüara çevrildi – Mərkəzin göstərişi və tapşırığı ilə (pokoleniye) özünütəyinetmə".

"Zaqafqaziya xalqları inqilab nəticəsində qazanılmış azadlığın imkanlarında istifadə edib, həmrəy yaşamalıdırlar və mütləq Zaqafqaziya müstəqilliyi elan edilməlidir".

***Zaqafqaziya Seymi. (Stenoqrafik hesabat. 9 aprel, 1918-ci il, s. 9 (rus dilində).***

## "MÜSAVAT" PARTİYASININ QURULTAYLARINDA ÇIXIŞLARI

**1. "Müsavat" Partiyasının Birləşmə Qurultayı**

**1917-ci ilin iyun ayının 17-də** M.Ə.Rəsulzadənin başçılıq etdiyi "Müsavat" Partiyası ilə, N.Yusifbəylinin başçılıq etdiyi "Türk Ədəmi-Mərkəziyyət" Partiyasının Birləşmə qurultayı keçirildi. "Müsavat"ın Bakı və Bakı ətrafında, "Türk Ədəmi-Mərkəziyyət"in isə Gəncə və Gəncə ətrafında təsiri güclü idi. Hər iki təşkilatın birləşməsi sayəsində istiqlal uğrunda yeni güclə mübarizəyə atılan Ümumazərbaycan partiyası yarandı.

Birləşmə qurultayında partiyanın adının "Türk Ədəmi-Mərkəziyyət Firqəsi Müsavat" adlanması qəbul edildi. Qurultayda ilk mərkəzi komitə yaradıldı: Məhəmməd Əmin Rəsulzadə, Məhəmməd Hacınski, Musa Rəfiyev, Mustafa Vəkilov, Nəsib bəy Yusifbəyli, Həsən bəy Ağayev, Şəfi bəy Rüstəmbəyov, Mirzə Məhəmməd Axundov(1,s.63-64).

**2. "Müsavat" Partiyasının ilk qurultayı.**

**Bu qurultay 1917-ci ilin oktyabrın 26-dan 31-dək Bakıda "İsmailiyyə" binasında keçirildi.** Qurultayda 500-dən çox nümayəndə iştirak edirdi. Qurultayın açılış mərasimində M.Ə.Rəsulzadə çıxış etdi:



***M.Ə.Rəsulzadə qurultay nümayəndələri arasında – I sırada soldan birinci, 2-ci Nəsib bəy Yusifbəyli, 3-cü Abbasqulu Kazımzadə, II sırada-soldan 1-ci Tağı Nağıoğlu, 2-ci Məhəmmədəli Rəsuloğlu, 3-cü Mirzə Məhəmməd Axundzadə, Kərbəlayı Mikayıl oğlu, 1917-ci il, oktyabr***

"Bütün Şərqi-İslam və Türklük aləmi neçə əsrdən bəri ətalət zamanı keçiriyordu. Həm də ətalət o dərəcəyə gəlmişdi ki, Şərq millətlərinin tərəqqi və mədəni olmasına ümid kəsilmişdi. Bunun da səbəbi məzkur millətlər arasında amal, ideal, məqsəd yoxluğu idi. Əlbəttə, millətin həyatına işıqlı yol göstərən yıldız olan milli amal və məqsəd yoxalınca cəmaət də halətdən qaldı və siyasətcə öldü...

Milli amalımıza doğru yürüyoruz. Lakin bizim amalımız başqalarına hakim olmaq, başqalarını əzmək deyil, özümüzün rifah və səadətlə yaşamamız və sair millətlərlə bərabər bəşəriyyətə bir üzv, hamı ilə bərabər mədəni və mütərəqqi bir millət olmaqdır...

...Türk millətinin məqsədi tərəqqi etmək, bəşəriyyət gülüstanında yaxşı qoxulu bir türk gülü yetişdirməkdir (sürəkli alqışlar). Bu gül isə İslama mənsub olan islam beynəlmiləliyyəti təşkil edən heyətlə bir yerdə bir güldəstə təşkil edəcəkdir (alqışlar)".

**Qurultayın ikinci iclasında** M.Ə.Rəsulzadə "Şəkli-idarə" haqqında məruzə oxuyur. Bu məruzəsində o, "Mərkəziyyət idarənin mənfi cəhətlərini müfəssəl surətdə bəyan edir, Rusiya üçün qoşma xalq cümhuriyyəti istəyir".

**Üçüncü iclas.** Bu iclas açılmamışdan əvvəl M.Ə.Rəsulzadə növbədənkənar səs alaraq seçkilər münasibəti ilə siyasi partiyalar arasında icra olunan mübarizələrdən bəhs edir: "Əlbəttə, siyasi firqələr arasında mübarizə məqbul bir şeydir. Fəqət firqə qaydası və siyasi qanunu daxilində olması şərtdir. Dün Molla sinfindən olan Şeyx Qəni seçki təbliğatı olmaq üzrə "Müsavat" firqəsini təkbirlə məzkur firqəyə mənsub olanların həpsinin qanını hədər, malını halal və əyallarını özlərinə məhrəm elan etmişdir. Əvvəla, bu hərəkət siyasi mübarizə qaidəsindən xaricdir...

Buna görədir ki, Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" molla sinfinə daxil olaraq adını din alimi qoyan bir şəxsin bu tövr hərəkətinə qarşı tamam vücudiyyətimizlə protesto ediyoruz".

Qurultayda torpaq məsələsinə baxan şöbənin qəbul etdiyi qərarları M.Ə.Rəsulzadə oxuyur.

Qurultayda "tərzi-hökumət və şəkli-idarə məsələsinə" baxan komissiya tərəfindən yenə M.Ə.Rəsulzadə məruzə edir.

**Beşinci iclas.** Oktyabrın 30-da M.Ə.Rəsulzadə Məramnamənin müzakirə edilməmiş qalan maddələrini oxuyur. Azərbaycan muxtariyyəti hüduduna gəldikdə Cənubi Dağıstanın da Azərbaycana daxil edilməsi qərara alınır. İdil boyu və Krım tatarları üçün milli-məhəlli mümkün olmasa, milli-mədəni muxtariyyət tələb edilir. 4-cü maddədə isə "vətəndaşların millət və məzhəb, erkək və qadın seçki haqqının" olduğu bildirilir.

"Müsavat" Partiyasının I qurultayında 33 yaşlı M.Ə.Rəsulzadənin ümumi rəhbərliyi ilə 1911-ci ilin oktyabrında Bakıda yaradılan ilk Ümummilli Azərbaycan partiyasının Birinci Proqramı qəbul olundu:

Qurultay 76 maddədən ibarət partiyanın yeni proqramını qəbul etdi. Partiyanın proqramında bu məsələlərə üstünlük verilmişdi: 1. Dövlət və muxtariyyət. 2. Milli məsələlər. 3. Dini məsələlər. 4. Həqqi-əhliyyət. 5. İqtisad və maliyyə işləri. 6. Torpaq məsələsi. 7. İşçi məsələsi. 8. Ədliyyə məsələsi.



***"İsmailiyyə" binası (İndiki Elmlər Akademiyası Rəyasət Heyətinin binası). "Müsavat" Partiyasının I Qurultayı burada keçirilib.***

"Müsavat"ın proqramında dövlət və muxtariyyət təşkilatı məsələsi kəskin olaraq bu şəkildə qoyulmuşdu: "Rusiya dövlətinin şəkli-idarəsi milli-məhəlli muxtariyyət əsası üzərinə quruluşu xalq cümhuriyyətindən ibarət olmalıdır".

Bölmədə Rusiyada yaşayan bütün türk xalqlarına – Azərbaycan, Türküstan, Qırğızıstan və Başqırdıstan, İdil boyu ilə Krım tatarlarına məhəlli və milli muxtariyyətlər verilməsi göstərilirdi. Bu muxtariyyətlərdə mətbuat, vicdan azadlığı olmalıdır. İyirmi yaşına çatan hər bir kəsin (istər qadın, istərsə kişi) seçilmək hüququ var idi. Muxtariyyət qazanan hər bir xalqın rəsmi dili orda əhali çoxluğunun hansı dildə danışması ilə müəyyənləşməlidir. Bəs hansı sahələrdə Rusiya ilə ümumi işlər görməli? Yalnız Vətənin müdafiəsi, gömrük, xarici siyasət, dəmir yol, poçta, teleqraf işləri ümumi olmalıdır. Ümumi işləri idarə etmək üçün isə bütün muxtariyyətin nümayəndələrindən ibarət konfrans təşkil olunmalıdır.

**"Milli məsələ"**nin qoyuluşu da çox diqqətəlayiqdir: Rusiyada yaşayan türk qövmlərinə aid ümumi məsələləri həll etmək üçün milli və mədəni ittifaq təşkil olunmalıdır.

**"Dini məsələlər"**. Müsavatçılar dini məsələnin aşağıdakı qoyuluşunu tələb edirdilər: "Rusiyada yaşayan bütün islamçıların millət və məzhəbə ayırmasızın, dini məsələlərin həll və tövsiyyəsi üçün seçilmiş müfti və Şeyxülislam təhti-sədarətində, cümlə islam əyalət və millətlərin nümayəndələrindən təşkil olunmuş bir heyəti-diniyyə qoyulmalı; bu heyətə türk muxtariyyətli əyalətlərindən başqa türk olmayan islamların (kürd,

acarlı, inquş, osetin, çərkəz və s. kimi) nümayəndələri dəxi iştirak etməlidirlər.

**"Həqqi-əhliyyət"**. Müsavatçıların muxtariyyətdə görmək istədikləri qayda-qanunlar da azadlıq, əsarətdən uzaqlıq mövqeyindədir. Cəmiyyətdə kimliyindən asılı olmayaraq hamı bərabər hüquqludur. Hər bir kəs istədiyi zaman, haraya lazımdırsa gedə bilər və bundan ötrü kimdənsə icazə almamalıdır. Hər bir kəs fikrini açıqca söyləyib, mətbuatda nəşr edə bilər.

**İqtisad və maliyyə işləri".** Partiya bütün vergilərin ləğv olunması tərəfdarıdır. Vergi yalnız gəlirdən və mirasdan tutulmalıdır.


ПРОГРАММА
тюркской демократической партіи федералистовъ „МУСАВАТЪ".

*Принятая въ 1917 году 26 октября на первомъ партійномъ съѣздѣ въ Баку*) (Переводъ съ тюркскаго).*

Предисловіе

„Жизнь человѣка—это постоянная борьба съ природой. Цивилизація—это завоеванія человѣчества въ этой борьбѣ. Цѣль и стремленіе человѣчества заключается въ упроченіи цивилизаціи (культуры) и въ распредѣленіи ея благъ. Общечеловѣческая цивилизація есть сумма культурныхъ завоеваній отдѣльныхъ націй.

Для упроченія завоеваній цивилизаціи и для общественной жизни человѣка необходимо созданіе культурнаго государства. И разъ неоспоримъ этотъ фактъ, то общечеловѣческая культура есть сумма національныхъ культуръ, то слѣдуетъ признать, что самымъ нормальнымъ и раціональнымъ государствомъ ... государство національное,

*Qurultayda qəbul edilmiş proqram, 1917-ci il*

**"Torpaq məsələsi".** Müsavat kəndlilərə pulsuz torpaq verilməsinin tərəfdarıdır. Bəs kəndliyə hansı torpaq verilməlidir? İlkin olaraq kəndlilər arasında xəzinəyə, sabiq padşaha və padşah nəslinə, mülkədarlara xüsusi maliklərə məxsus olan bütün torpaqlar pulsuz və əvəzsiz olaraq bölünməlidir. Torpaqların alınıb kəndlilərə verilməsini nəzərə alıb xüsusi maliklərə ziyanın ödənilməsindən ötrü onlara mütərəqqi gəlir vergisi əsasilə varlı siniflərdən alınan vergi yolu ilə hasil olmuş xüsusi bir məbləğ (fond) hesabına olaraq mükafat veriləcəkdir.

**"İşçi məsələsi".** Bu bölmədəki tələblər insan istismarını aradan qaldırmağa xidmət etmirmi? 1) İş günü 8 saatdan artıq olmamalıdır. 2) 24 saatlıq istirahət müddəti qanuniləşdirilməlidir. 3) 16 yaşına məktəb sinnində olanların işləməyi qadağandır. 4) Qadınlara səhhətlərinə görə zərərli sahədə işləmək olmaz və s.

**"Ədliyyə məsələsi".** Partiya məhkəmələri belə görmək istəyirdi: "Məhkəmələr yalnız qanuna tabe olub, hər növ müdaxilə və təzyiqdən saxlanmalıdır, məhkəmədəki işlərin gedişinə heç bir bəhanə ilə müdaxilə edilməməlidir..."

**"Maarif məsələsi".** Partiya maarifin bu əsaslarda təşkilinə üstünlük verirdi: 1) Tədrisat azad olmalıdır. 2) Məktəblərdə tədris dili həmin əyalətdəki danışıq dilində olmalıdır. Ali məktəblərdə dərslər Osmanlı şivəsi ilə tədris olunmalıdır və s.

"Müsavat" Partiyasının proqramının qısa şəkildə verilmiş bu ümumi mənzərəsi böyük tərəqqi və inkişaf proqramına bərabər idi.

Burada illərdən bəri əsarətdə çırpınan xalqın arzu və istəkləri, yaşamaq haqqı, elm, bilik qazanmaq cəhdi qabarıq verilmişdi.

"Müsavat" Partiyasının I qurultayında M.Ə.Rəsulzadə Mərkəzi Komitənin sədri seçildi. M.Ə.Rəsulzadə qurultaydakı çıxışında dedi: "Yalnız din birliyi müasir məna ilə bir millət təşkil edə bilməz. Milliyyəti təşkil edən müştərək əlamətlərin başlıcası dil, din, adət və ədəbiyyatdır. Bu nöqteyi-nəzərdən bütün türklər bir millətdir. Təbii milli olduğu, milliyyətimizdə yalnız dinlə deyil, başlıca din üzərinə müstənit hərsən təəssüs eylədiyi qənaətiylə biz bu günkü haliylə müttəfiq bulunan geniş türk dünyasının bir gün gəzib müttəhit və müttəfiq bir türk aləmi təşkil edəcəyinə inanırıq.

Milli istiqlala malik olmayan bir millət, hürriyyət və mədəniyyətini də hifz edə bilməz. **İnsanlara hürriyyət, millətlərə istiqlal".**

Qurultayda milli idealı simvollaşdıran bir timsal olmaq üzrə əsrlərcə Azərbaycan torpaqları üzərində dalğalanmış Elxanilərin göy rəngli bayraq partiyanın bayrağı olaraq qəbul etdi(2,s.60).

**Ədəbiyyat:**

*1.N. Yaqublu.Məmməd Əmin Rəsulzadə. Bakı, 1991. 2).N. Yaqublu. Müsavat Partiyasının tarixi. Bakı, 2012.3).Açıq söz", 27, 29, 30, 31 oktyabr, 1, 2 noyabr 1917, N599, 600, 601, 602, 603, 604.4).M. Ə. Rəsulzadə. Seçilmiş əsərləri. IV cild (1917-aprel1918), Bakı, 2013.5)."Kaspi", 1917-ci il, N 109.*

**Qeyd:** *"Müsavat" Partiyasının ilk proqramı islami xarakterdə olub. Partiyanın 1911-ci ildəki adı belə olub:* ***"Müsəlman Demokratik Partiyası – Müsavat".***



تورك عدم مركزيت «مساوات» فرقه‌سى.

ايكنجى قوروللتاى قرارنامه‌لرى.

هيئت مركزيه طرفندن نشر ايدلمشدر.

***Qurultayda qəbul edilən proqram***

**3. Bakı. "Müsavat" Partiyasının 1919-cu ilin dekabrın 2-də keçirilən II qurultayındakı çıxışından (ixtisarla):**

"Əfəndilər! Azərbaycan türk bayrağını ilk dəfə qaldırmaq şərəfi ilə məsud olan Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin İkinci qurultayının müstəqil Azərbaycan Paytaxtında açılması ilə Sizi təbrik və kəndimi (özümü) bəxtiyar ədd (hiss) ediyorum (uzun alqış)...

**Əfəndilər!** Bizim amalımız yalnız muxtariyyət və cümhuriyyət olmayıb, burası türk milli amal silsiləsinin ancaq bir həlqəsini təşkil edər. Biz dünyanın milli əsaslar üzrə

qurulacaq olduğunu, bütün millətlərin ancaq milli istiqlal və Cümhuriyyət ilə məsud yaşaya biləcəyinə iman ediriz. Bu sıradan olaraq türk millətinin də tamamilə müstəqil və hüquqi ixtiyarına nail olmasını istəriz. Bizim etiqadımıza görə bəşəriyyət ancaq müstəqil millətlərin kəndi (öz arzuları ilə birləşib böyük bir federasyon qurmaq ilə xoşbəxt yaşaya bilər.

Şimdi (indi) biz kəndi (öz) hürriyyət və istiqlalımızı qazandıq. Fəqət bununla mütərəddid tərəddüdlü olmamalı, o hürriyyıt vı istiqlalı saxlamağa çalışmalıyız. Bu Ümumazərbaycanlıların vəzifəsidir.

Fəqət Azərbaycan şüarını ilk dəfə meydana atıb Azərbaycan bayrağını ilk dəfə qaldırmış bir firqə olmaq hesabı ilə bu vəzifə hamıdan ziyadə bir Müsavatçıların öhdəsinə düşür".

***"Azərbaycan" qəzeti. 4 dekabr, 1919-cu il, N337.***

**4. "Müsavat" Partiyasının 1919-cu ilin dekabrın 5-də keçirilən 4-cü iclasında M.Ə.Rəsulzadə** iclasa sədrlik edir, sonda proqram təhqiqi haqqında çox vüsətli və ətraflı bir məruzə oxuyur, iclasın vaxtı bitdiyindən davamı sonraya qalır.

***"Azərbaycan" qəzeti. 9 dekabr, 1919-cu il, N340.***

**5. "Müsavat" Partiyasının II qurultayının 6-cı iclası keçirilir** və iclasa M.Ə.Rəsulzadə sədrlik edir. Ötən iclasdan təxirə salınmış proqramın davamını M.Ə.Rəsulzadə müfəssəl surətdə bəyan edərək deyir: "Bu aləmşümul müharibədə çox şeylərin vəziyyəti, qiyməti və şəkli dəyişilib. Fəqət firqəmizin təqib etdiyi Türk Ədəmi-Mərkəziyyət amalının nə payədə (olmasını) doğru olduğundan əlavə siyasəti-hazirəyə görə qızıl pulun kursu kibi ədəmi-mərkəziyyət və millətçilik üsulunun qiyməti dəxi də artmışdır. Bu xüsusda bütün müharib dövlətlərdə olan siyasi cərəyanları nəzərə alaraq ədəmi-mərkəziyyət üsuli ilə nə olduğunu və bizim üçün ən faydalı və qabili tətbiq olmasını aydın dəlillər ilə sübut edib proqramda Rusiya daxilində türk millətlərinin məhəlli muxtariyyətləri olan maddəyə Azərbaycanın elani-istiqlaliyyətindən sonra ehtiyac qalmadığını dərmiyan (xaos, çaxnaşma) edir".

***"Azərbaycan" qəzeti. 15 dekabr, 1919-cu il, N344.***

**6. "Müsavat" Partiyasının II qurultayının 8-ci iclası keçirilir. İclasa M.Ə.Rəsulzadə sədrlik edir.** İclasda torpaq komissiyasının məruzəsi dinlənilir. Məruzəçi Cavad Axunzadə olur. M.Ə.Rəsulzadə layihədəki 22-ci maddəyə tərəfdar və 25-ci maddəyə ibrazi-təğyir (göstərmə, sübut etmə) və tövsiyyə ilə sabiqçi qərarın qalmasını arzu edir.

***“Azərbaycan” qəzeti. 15 dekabr, 1919-cu il.***

**7. “Müsavat” Partiyasının II qurultayı dekabrın 9-da M. Ə. Rəsulzadənin sədrliyi ilə keçirilir.** Növbədəki məsələlərin fəhlə və təşkilat komissiyalarının olduğu bildirilir. M.Ə.Rəsulzadə əsaslı məsələlər barəsində bəyanat verdikdən sonra Zülfüqar Məhəmmədzadə və Mehdi bəy Hacıbababəyov qeydin götürülməsini və məruzəçi Əbdülvahab Əfəndi qeydin qəbul olunmasını təklif edir. Qeyd çıxıldıqdan sonra 30-cu maddə qəbul olunur.

**8. “Müsavat”ın II qurultayının 10-cu iclasına** M.Ə.Rəsulzadə sədrlik edir. Hökumət böhran haqqında qurultayda müsahibə açılması istənilir. Bununla bağlı Baş Nazir Nəsib bəy Yusifbəyliyə söz verilir.

***“Azərbaycan” qəzeti. 16 dekabr, 1919-cu il, N345.***



***“Müsavat” Partiyasının İkinci qurultayının keçirildiyi bina, 1919-cu il, (indiki Konstutusiya Məhkəməsinin binası)***

**9. “Müsavat” Partiyasının II qurultayının 11 və 12-ci iclaslarına M.Ə.Rəsulzadə sədrlik edir.** 11-ci iclasda M. Ə. Rəsulzadə firqənin xüsusi mətbuatı, ədəbiyyat və nəşriyyatı xüsusunda müfəssəl bir nitq söyləyir. Dekabrın 12-də keçirilən iclasda isə M.Ə.Rəsulzadə məramnaməyə müqəddimə təriqilə (yolu ilə) yazılmış siyasi nəzəriyyələri oxuyur və ittifaqla (birliklə) qəbul edilir. M.Ə.Rəsulzadə ikinci məsələyə keçərək taktika və konfederasiya barəsində məruzə edir, Qafqasiyada yaşayan millətlər arasında coğrafi mövqecə iqtisadi bir münasibət və ittihad olduğundan bəhs edərək Şimal təhlükəsinə qarşı dövlətlərinin nə qədər xəsavətdidə olduqlarını Qafqasiya dövlətlərinin bitərəfliyinin təmin olunması lüzumunu, bunları ayrı-ayrı təmin etməyin qeyri-qabil olduğunu, iqtisadi nöqteyi-nəzərləri bir-bir bəyan edərək konfederasiya üsulunun əsasən qəbulunu təklif edir.

**Qeyd:** “Müsavat” Partiyasının II qurultayının 6-cı iclasında qəbul edilən mühüm qərarlardan biri də “Qafqaz Konfederasiyası haqqında” idi.

**Sonda partiyanın Mərkəzi Komitəsi Rəyasət Heyətinə aşağıdakı şəxslərin seçildiyi bildirilir: 1) Məhəmməd Əmin Rəsulzadə; 2) Nəsib bəy Yusifbəyli; 3) Həsən bəy Ağazadə; 4) Məhəmməd Həsən Hacınski; 5) Şəfi bəy Rüstəmbəyov; 6) Mehdi bəy Hacınski; 7) Mustafa Vəkilov; 8) Musa bəy Rəfiyev.**

***“Azərbaycan” qəzeti. 17 dekabr, 1919-cu il, N346.***

**Bakı, 1920-ci il.**


«مساوات» کتبخانه‌سی. صایی ۵.

م. ا. رسول زاده

آذربایجان تشکلنده «مساوات»

(هفته‌لك «مساوات» محاضره‌لرندن)

هیئت مرکزیه طرفندن نشر ایدیلمشدر.

باکو.
آذربایجان غزته‌سی حکومت مطبعه‌سی
۱۹۲۰

***“Azərbaycan təşəkkülündə Müsavat” kitabı, Bakı, 1920-ci il***

**M.Ə.Rəsulzadə “Azərbaycan təşəkkülündə Müsavat” mövzusunda mühazirə oxumuşdur.** Oxuduğu mühazirədən: “Əfəndilər! Məndən əvvəlki arkadaşımız Sizə türklüyün uzaq tarixindən bəhs elədi. Mən Sizə Sizin də yaşadığınız, bərabər içində bulunduğumuz və özümüz yaratdığımız tarixdən söhbət edəcəyəm. Bu da bir türk tarixidir. Türk tarixinin bir parçasıdır.

Əfəndilər, Azərbaycan Cümhuriyyəti böyük Rusiya imperatorluğunun dağıntıları üzərində qurulmuş siyasi bir binadır. Rusiyanın o böyük, onların fikrincə böyük Rusiya gərək xamanın hakim bir fikri olan milliyyətə istər-istəməz hesab verə idi. Milliyyət isə yalnız mədəni məsələlərin idarəsilə təmin oluna bilməzdi. Lazım idi ki, milliyyət bir hökumət şəklində təzahür etsin. Bunun üçün də Rusiya milli-məhəlli muxtariyyətlərdən təşəkkül etməli idi. Rusiya türklüyü dəxi bir parça deyil, müxtəlif muxtariyyətlərdən ibarət olmalı idi. Azərbaycan, Türküstan, Başqırdıstan, Qırğızıstan, Krım və sairə birər muxtariyyat halında qurulmalı idi. Bu türk muxtariyyətləri daxili işlərində sərbəst qalmaqla bərabər, ümumi işlər üçün bütün Rusiya muxtariyyətləri ilə, milli və dini işlər üçün də türk və müsəlman ilə federasiona girər və əqdi-ittifaq edərlər”.

***“Azərbaycan təşəkkülündə Müsavat” (M.Ə.Rəsulzadə əfəndinin məruzəsi). “Müsavat” kitabxanası, sayı: 5, M.Ə.Rəsulzadə (həftəlik Müsavat mühazirələri) Heyəti-Mərkəziyyə tərəfindən nəşr edilmişdir. “Azərbaycan” qəzeti hökumət mətbəəsi, Bakı, 1920-ci il.***

# AZƏRBAYCAN PARLAMENTİNDƏ FƏALİYYƏTİ (1918-1920-ci illər)



*Azərbaycan Parlamentinin binası, 1918-1920-ci illər*

**17 aylıq** fəaliyyəti dövründə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 145 iclası keçirilib. İlk iclas 1918-ci ilin dekabrın 7-də, son iclas isə 1920-ci ilin aprelin 27-də olub. Yetərsay olmadığından bu iclaslardan 15-i baş tutmayıb. Qalan 130 iclasdan ikisi tarixi – 28 May və 15 Sentyabr 1919-cu il – Azərbaycan İstiqlalının və Bakının azad edilməsinin birinci ildönümü müzakirəsi ilə keçirilib.

Parlamentin müzakirəsinə 270-dən çox qanun layihəsi çıxarılıb ki, onlardan 230-a qədəri təsdiq edilib. Parlamentdə 11 komissiya fəaliyyət göstərib.

**Xaricə göndəriləcək 100 nəfər azərbaycanlı gəncin seçilməsi üçün parlament üzvlərinin – Məhəmməd Əmin Rəsulzadə, Mehdi bəy Hacınski, Əhməd bəy Pepinov, Qara bəy Qarabəyov və Abdulla Əfəndiyevdən ibarət xüsusi komissiya yaradılıb.**

Parlamentin fəaliyyəti dövründə M.Ə.Rəsulzadənin başçılıq etdiyi "Müsavat" Partiyasının fəallığı ilə (partiyasızlar fraksiyası ilə birgə) hazırlanan torpaq islahatı haqqında 29 maddədən ibarət qanun layihəsi ümumxalq müzakirəsi üçün 1920-ci il fevral ayının 21-də "Azərbaycan" qəzetində çap edilir.

**M.Ə.Rəsulzadə Parlamentdə 2 komissiyada təmsil edilirdi: 1) Müəssislər Məclisini çağırmaq komissiyası; 2) Maliyyə-büdcə komissiyası.**

Parlamentdə çoxluğu təşkil edən "Müsavat" və bitərəflər fraksiyası idi ki, onların da ümumi sayı 39 nəfər idi. Bu fraksiyaya M.Ə.Rəsulzadə başçılıq edirdi. **M.Ə.Rəsulzadə 130 iclası keçirilən Parlamentin 80-ə qədərində çıxış etmişdir.** O, aşağıdakı iclaslarda müzakirə edilən məsələlərlə bağlı maraqlı çıxışlar etmişdir: N1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 11, 12, 13, 14, 15, 16, 20, 24, 25, 26, 29, 33, 34, 41, 42, 43, 45, 48, 49, 51, 56, 57, 59, 60, 61, 63, 65, 67, 68, 70, 74, 76, 80, 81, 87, 88, 89, 90, 91,

96, 98, 99, 100, 101, 102, 103, 107, 109, 111, 114, 120, 126, 127, 129, 130, 131, 132, 133, 134, 135, 137, 141, 142, 145.

Aşağıdakı iclaslarda isə dəyərli təkliflər vermiş, qısa müdaxilələr etmişdir: 22, 32, 35, 49, 57, 75, 86, 93, 110.



*Azərbaycan Parlamenti, 1918-ci il*

**Birinci iclas**
**Azərbaycan Parlamentinin açılışı**
**7 dekabr 1918-ci il**

**"İclas günorta saat 13:25 dəqiqədə Şurayi-Milli rəisi Məhəmməd Əmin Rəsulzadə əfəndinin nitq iftitahilə açılır.** Məhəmməd Əmin Rəsulzadə - Möhtərəm məbuslar! Azərbaycan Cümhuriyyətinin ilk Məclisi-Məbusanını açmaq yomi-səadəti, siz möhtərəm məbusları təbrik etmək şərəfinin öhdəmə düşməsi ilə müftəxirəm! (Alqışlar)".

M.Ə.Rəsulzadənin parlaq çıxışı millət vəkilləri tərəfindən sürəkli və davamlı alışlarla qarşılanır.



*Azərbaycan Parlamentində M.Ə.Rəsulzadənin çıxışı*

**İkinci iclas**
**10 dekabr 1918-ci il**

**"Məhəmməd Əmin – Bəyannaməmizi elan etmədən əvvəl müqəddimə olaraq bəyan etmək istəyirəm ki,** keçmiş hökumətin fəaliyyəti haqqında vaxt müşaidə etmədiyindən firqəmiz ayrı bir zaman bəyanatda bulunacaqdır. Şimdi, Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi tərəfindən tərtib verilmiş, deklorasiyaya keçəlim (oxuyur).



*Azərbaycan Parlamentinin toplantısı*

M.Ə.Rəsulzadə Azərbaycan istiqlalı, Azərbaycan məfkurəsi, Azərbaycan fikri ilə bağlı maraqlı çıxış edir və bu sözləri söyləyir: "...Çünki üç rəngli o məğrur bayraq artıq siyasətən həpimizi birləşdirmişdir (alqışlar)".

**Üçüncü iclas**

**15 dekabr 1918-ci il**

**“Rəsulzadə - Məsələ, bizim Məclisi-məbusanın nə şəkildə təşkil olunmasıdır.** Məclisi-məbusanımızın seçkilərinin qanun üzrə olmadığını söylədilər. Ümum əsas üzrə seçilmiş parlamentimiz yoxdur. Şimdi parlamenti də tənqid etməyə vaxt yoxdur. Şurayi-milli parlament təşkili üçün əsas qəbul etmişdir və bu da etibarlıdır. Hərgah bu inkar edilər isə Milli Şuranın nüfuzu itmiş olur. Qanuna müvafiq etimadları təsdiq etməli, şübhəlilərin icrasına baxmalı”.

İclasda müxtəlif komissiyaların məruzələri dinlənilir və müzakirələrdə M.Ə.Rəsulzadə fəallıq göstərir, tez-tez təkliflər verir, müdaxilələr edir.

**Dördüncü fövqəladə iclas**

**20 dekabr 1918-ci il**

**İclasda gürcü və ermənilər arasında rəsmi şəkildə elan edilməmiş müharibə və bölgədə vəziyyət müzakirə edilir.** M. Ə. Rəsulzadə çıxışında bildirir: “Bunun üçün də biz bu millətlər arasında çıxan hadisələrə yabançı qala bilmərik. Biz qitə və həyati surətdə əlaqədəriz. Ona görə də səsimizi yüksəltməli, “aman, nə yapırsınız” deməliyik (soldan, mərkəzdən alqış)”.

**Beşinci iclas**

**26 dekabr 1918-ci il**

**İclasda komissiya seçkisi,** Yeni hökumət təşkili və digər məsələlər müzakirə edilir. M.Ə.Rəsulzadə Məclisi-Müəssisan seçkiləri komissiya-asına seçilir.

**Altıncı iclas**

**30 dekabr 1918-ci il**

**İclasda Gürcüstan Parlamentinin təbriki, “Əhrar” fraksiyasının ərzi-halı, əfvi-ümumi layihəsi və başqa məsələlər müzakirə edilir.**

M.Ə.Rəsulzadənin çıxışından: “”Möhtərəm Əhməd bəy həzrətləri tərəfindən şayani-qeyd görülən məsələlər həqiqətən calibi-diqqət və məclis tərəfindən qeyd olunacaq mühüm məsələdir. Daha ingilis və sair müttəfiqlər qoşunu paytaxtımıza daxil olan zaman Azərbaycan paytaxtında yaşayıb da “Azərbaycan” fikrinə müariz və qüvvəyə tabe olaraq məqami-təslimdə bulunanlardan kənardan başqa bir qüvvə gəlir ki,

ruhlanıb tərizə başladılar. Bir çox ünsürlər və onların gəlməsindən bir ruh olaraq Azərbaycanın kökünü baltalamağa başlamışlar".

Həmin iclasda: "Məmməd Əmin (yerindən) – Mən təklif edirəm ki, bundan parlamentə gələn teleqraflar qabaqca türkcəyə tərcümə edilib oxunmalı və lazım gələrsə, rusca da oxunsun. Burası Azərbaycandır, lisanirəsmimiz türkdür (alqış)".

**Yeddinci iclas**
**8 yanvar 1919-cu il**

**İrəvan müsəlmanları ilə bağlı:** "Burada yenə imdad naləsi eşidiriz. Məlumdur ki millətlərin həqqi və hüququ gözlənilsin gərək.Hər kəs harada yaşayırsa o yerə sahib olmaq haqqına malikdir.Təbii millətdaş,dindaş və irqdaşımız olan İrəvan quberniyası müsəlmanlarının bunca müsibətinə millət mənafeyi naminə təhəmmül(dözən) edən qardaşlarımızın çəkdikləri bəlalara biz biganə qalamayız".

**Səkkizinci iclas**
**16 yanvar 1919-cu**

**Parlament üzvü haqqında:** "...Biz parlamentarizm qəbul etmiş olan məmləkətlərin, əzcümlə İngiltərənin qanunlarından qolaylıqla istifadə edə biləriz. Parlament məbusu milləti təmsil edir, binaən-ileyh o həmişə azad olmalıdır. Bir məbus eyni zamanda hökumət məmuru olarsa, heç vaxt azad danışa bilməz".

**Doqquzuncu iclas**
**25 yanvar 1919-cu il**

**Kredit açılması.** "Kredit açılması məsələsinə əsas etibarı ilə Əhməd bəy də etiraz etmir, fəqət, onun çoxluq, azlığında bəhs edir. Yalnız burası var ki, hökumətin ehtiyacını onun fəaliyyəti ilə əlaqədar tutmaq istəyirlər. Amma məncə hökumətin etibarını büdcə ilə əlaqədar tutub milyonlarla ölçmək olmaz. Hökumətə etimad və etibar bəyan edilmişdir".

**On birinci iclas**
**28 yanvar 1919-cu il**

**Parlamentdə demokratiya.** "Türk demokratiyası öz istiqlalını və hüququnu var qüvvəsi ilə müdafiə edəcəyini aydın-aşkar elan etdi və bu gün bu müvəffəqiyyət demokratiyanın belə qəti hərəkəti nəticəsidir (alqış). İdraklı türk demokratiyasının səsi sair firqələri də parlamentə gəlib bizimlə müttəhidən çalışmağa vadar edəcəkdir (alqış)".

**On iki, on üç, və on dördüncü iclaslar**
**4, 5, 6 fevral 1919-cu il**

**"Müsavat" türkləri çağırdı:** "Müsavat" türkləri çağırdı, çünki burada Azərbaycan türklərinin həyatı təhlükədə idi. Bu məsələdə o zamankı Azərbaycan Şurayi-Millisi müttəfiq idi... Çünki türklər gəlməsəydi, Bakıda baş verən mart hadisələrinin təsiri yalnız Bakıda qalmayıb, bütün Azərbaycana istila edəcəkdi...".

**On beçinci iclas**
**18 fevral 1919-cu il**

"**Müsavat Rusiyada** yaşayan bütün türk qövmlərinə muxtariyyət tələb edən bir firqədir".

**On altıncı iclas**
**25 fevral 1919-cu il**

"**Ümumiyyətlə**, cari işlərimizdə biz cahan demokratiyasına azadlıq gətirmiş olan idealları rəhbər tutacağız".

**İyirminci iclas**
**6 mart 1919-cu il**

**Denikinə qarşı mübarizə.** "Zatən qara bir qüvvənin gələcəyini biz həmişə mümkünatdanədd edirdik. O qüvvə də mütləqa Şimaldan gələcək idi... Və dağıstanlı qardaşlarımıza deməliyik ki, buraxmayın o qara qüvvəni; qoymayın o istibdadı gəlsin; müharibə edin. Biz də Sizinlə varıq".

**İyirmi dördüncü iclas**
**17 mart 1919-cu il**

**"Mənə elə gəlir ki,**bayram millətlərin həyatında böyük bir hadisədir ki,onda gərək qulluqçu olsun,qeyri qulluqçu olsun onların həyatlarə üzrə bayramın böyük təsiri vardır**".**

**İyirmi altıncı iclas**
**3 aprel 1919-cu il**

**"Bizim** nöqteyi-nəzərimiz əvvəl başdan müəyyəndir.Bu kimi tənqidlər büdcə müzakirəsi əsasında olmalıdır**".**

**İyirmi doqquzuncu iclas**
**14 aprel 1919-cu il**

**Qarabağ məsələsi yoxdur.** "Bizcə və hökumətcə Qarabağ məsələsi yoxdur. Necə ki, Bakı məsələsi yoxdur. Buna görə də Qarabağ ünvanı ilə vaqe olan hər növ təklifi rədd ediriz".

**Otuz üçüncü iclas**
**5 may 1919-cu il**

"**Yalnız bunu demək istəyirəm ki**,indiki zamanda buraxılan kağız paralar bəzi iqtisadi qanunlara mərbut deyil.Ortada bir də siyasiyyət var".

**Otuz dördüncü iclas**
**6 may 1919-cu il**

**Müsavat haqqında:** "Azərbaycan şüarını ilk dəfə ortaya atan firqənin Müsavat olduğunu görərik... Müsavatın qətnaməsində deyilirdi ki, əsasən federasyon fikrini qəbul edərək millətlərin kamal azadlqla vücuda gətirəcəkləri ittifaqa müariz olmayaraq və i. x... Müsavat bunu indi də söyləyir. Burada Azərbaycanın istiqlaliyyətinə heç bir rixnə görməz. Müsavat Azərbaycanın yalnız Rusiyada qurulmuş milli hökumətlər ilə deyil, bütün dünya millətləri ilə federasyon əsası ilə birləşmək tərəfdarıdır. Bu, müsavatın idealıdır".

**Qırx birinci iclas**
**26 may 1919-cu il**

**Yalnız Azərbaycan istiqlalını müdafiə edəcəyiz.** "Eyni zamanda bolşeviklərlə mübarizə edərkən və istiqlalımızı müdafiə edərkən elə etməməliyik Denikin istiqlaliyyətini müdafiə edək. Biz yalnız Azərbaycan istiqlalını müdafiə edəcəyik. Bu nöqteyi-nəzərdən bu qətiyyət siyasətidir, təhəssür siyasəti deyil".

**Qırx ikinci fövqəladə iclas**
**28 may 1919-cu il**

**"Rəis – Söz Məhəmməd Əmin Rəsulzadənindir.** Məhəmməd Əmin Rəsulzadə ("Müsavat", alqışlar içərisində kürsüyi-xitabəyə çıxır) – Həzərat! Bu gün hər hansı bir natiq böyük və xarüqüladə nitqə malik olsa da xalqın, o küçələri doldurmuş olan cəmaətin ruhunun səmimiyyətindən çıxan "Yaşasın Azərbaycan!", "Yaşasın istiqlaliyyət!"dən daha qüvvətli bir söz söyləməz! Bu gün bilməm xalqın duyduğu hissiyyatı, hansı hissiyyatla ifadə etmək olar. Bu həyatı Sizə inikas etdirmək üçün Azərbaycan torpağı altında sənələrdən bəri yerləşmiş atəş, o müqəddəs

qüvvət fəvəran edərsə, yalnız o qüvvət bu gün millətin qəhrəmanı ola bilər. Fəqət, bununla bərabər hər birimizin idrakında, qəlblərində hürriyyət və istiqlaliyyət uğrunda şəhid düşmüş olanların xatirəsi üçün olan böyük minnətdarlıq hissi, o böyük himmət bununla həmpa ola bilir, onunla rəqabət göstərə bilir. Bu gün Azərbaycan istiqlalı bilxassə onun üçün əzizdir ki, bu istiqlalımıza xaricdən təhlükə var, təhdid var. Millətin ruhundan çıxan bugünkü səmimiyyətlə söylənəni qüvvətlə söyləriz ki, o, hər bir atəşdən, hər bir yərəğandan qüvvətlidir. Rədd olsun bizim istiqlalımız əleyhində olan murdar əllər (alqış).

**Qırx üçüncü iclas**
**29 may 1919-cu il**

"**Məclisi - Məbusan** bürün məmləkət inananbir təşkilatdır.Millət və məmləkət onun sözünü qəbulkimi,məclisi-müəssisan xüsusunda rəyini də qəbul edəcəkdir".

**Qırx beçinci iclas**
**5 iyun 1919-cu il**

"**Cünki bu gün Dərbənddə oturan** və bizim istiqlaliyətimizi gündə bir məna ilə teleqramlar göndərib təhdid edən qüvvət vaxtilə məşhur bir siyassiyonun dediyi kimi Azərbaycan həyatına döndərilmiş bir tapançadır".

**Qırx doqquzuncu iclas**
**19 iyun 1919-cu il**

"**Əfəndilər!**Üləmanın vəzifəsi bir vəzifeyi-diniyyə olduöundan müqəddəsdir...Lakin bunu bilməli ki,dini məsələlər ilə olan rabitə başqa dünya işləri isə bambaşqadır.dünya mübarizəsi,siyasi mübarizə.məncə dürlü tənqidlər, münaqışələrlə doludur".

**Növbədənkənar əlli birinci iclas**
**27 iyun 1919-cu il**

**"Azərbaycan millətinin ürəyində gürcü millətinə qarşı həmişə gözəl və səmimi hisslər bəslənmişdir.** Azərbaycan milləti ümumi düşmənlərə qarşı gürcülər ilə silah arxadaşı olduğu kimi həmrəy və mütabiq olacaqdır. Ona görə də bu əhdnamə yalnız Məclisi-Məbusan tərəfindən deyil, bütün millət tərəfindən alqışlanacaqdır. Bu millət də böylə tələqqi edər (alqışlar)".

**Əlli altıncı iclas**
**17 iyul 1919-cu il**

“**Naxçıvan və Şərur** kimi qəzalar var ki,onlar bizim təbəələrimizdir. Biz var qüvvəmizlə çalışmalıyıq ki, onları qurtaraq”.

**Altmışıncı iclas**
**29 iyul 1919-cu il**

**“Qarayev (yerindən) – Denikindən kim müdafiə etdi?**

**Məhəmməd Əmin (davam edir)** – Bis sizin təcrübənizi Şamxor müharibəsində gördük. Rus əsgərlərindən tüfəng alandan sonra özünüz də qorxuda qaldınız... Sizə böylə adamlar lazımdır ki, Mehdi bəy kimi adamları vura bilsin. Fəqət bizə böylə adamlar lazım deyildir...”.

**Altmış beşinci iclas**
**14 avqust 1919-cu il**

**“Hərbiyyə nəzarətinə** verilməsinin lehinə onu demək olar ki, hüdudlarımızı müdafiə etmək Hərbiyyə Nazirinə mütəlliq bir məsələ olduğu üçün bu da ona verilməlidir**”.**

**Altmış yeddinci iclas**
**21 avqust 1919-cu il**

**Universitet açılması.** “Burada Universitet məsələsində gərək bizim əfkari-ümumiyyətiniz, gərək parlaman məhfilələrində ayrı-ayrı fraksiyalarda müxtəlif rəng almış və başqa-başqa nöqteyi-nəzərlərlə bu məsələyə yanaşırlar. Hər şeydən əvvəl biz hamımız bunu etiraf edirik ki, Azərbaycan daxilində ülüm, finuna aşina mütəxəssis adamlar ələlümum məmləkət üffanını yüksəltmək üçün darülfünun binası lazımdır... Əlbəttə, yaxşı olardı bu fənn ocağı, bu elm mənbəyi öz lisanımızda ola idi və orada ki, professor və müdərris türkcə tərbiyə verə idilər”.

**Altmış səkkizinci iclas**
**25 avqust 1919-cu il**

“**İstefa verən bəyanət verər.**Bir fraksiyanın ki nümayəndəsi bir komisyondan getmiş, deyə ki, yerinə başqa adam verirəm, mənən düz olursan da şəkil etibarı ilə olmaz”.

**Yetmiş altıncı iclas**
**22 sentyabr 1919-cu il**

**“Mütaliə və təsdiqimizə** ərz olan məsələ, öylə bir məsələdir ki, bunun hər nə surətlə, hər nə cürə mühakimə etsə, nəticədə qəbul etməkdən başqa bir çarə yoxdur**”.**

**Səksəninci iclas**
**2 oktyabr 1919-cu il**

**Əkinçiyə torpaq, yer verilməsi.** "Demək hökumət bu məsələni həll etmək istəyir. Böylə olan surətdə müəyyən vaxt təyin etmək, hökumət müəssisələrinə inanmaqdır".

**Səksən birinci iclas**
**09 oktyabr 1919-cu il**

**Hürriyyətin bir əndazəsi var.** "Əgər hürriyyət məmləkətdə qanun olmamaq icab edərsə o, başqa zatən hürriyyəti bir az daha göstərəsiniz. O zaman məmləkət hərc-mərc içərisində bərbad olur. Anarxiya doğar, iştə o zaman sizinlə istibdadın təkrar övdətini təmin edərsiniz. Hürriyyətin bir əndazəsi var..."

**Səksən səkkizinci iclas**
**25 oktyabr 1919-cu il**

**Mətbuat qanunu haqqında.** "Burada mətbuat qanununun əleyhinə türkcə söylənilən sözləri rusca, bəlkə daha məntiqə müvafiq bir tərzdə müdafiə etdilər. Hamı söylədilər ki, hürriyyəti-mətbuat lazımdır, fəqət buna bir əndazə, qanun təyin etmək də icab edər. İştə mətbuat qanununu müdafiə edənlər ilə əleyhdarları arasında başlıca fərq bundan ibarətdir. Burada bir adam tapılmaz ki, hürriyyəti-mətbuata zidd olsun".

**Səksən doqquzuncu iclas**
**27 oktyabr 1919-cu il**

**"M.Ə.Rəsulzadə - 14-cü maddənin türkcəsini oxuyur.** Qanunun 14-cü maddəsi bizi tamamilə qane edir. Fəqət, ruscaya tərcüməsindən eyni məna çıxmır. İrəlidə sui-təqhim olmasın deyə türkcəsinə müvafiq ruscaya tərcümə edilsin. "Vo vsyaki azerbaydjanskiy qrajdanin"(hər bir Azərbaycan vətəndaşı) sözü əlavə edilsin".

**Doxsanıncı iclas**
**30 oktyabr 1919-cu il**

**"Rəsulzadə: Burada demokratik prinsipi nöqteyi-nəzərindən danışdılar.** Bu, doğru deyildir. Lakin bir çox şeylər var ki, demokratik prinsipi nöqteyi-nəzərindən onları şimdilik tətbiq etmək olmaz. Məsələn, daimi əsgərlik işlərinin, əsgərlik üçün indi mübarizələrimiz hər şeyimiz əsgərlərimizə fəda olsun demişdilər. Hər yerdə əsgərlikdə müxalif gedən sosialistlərin burada ağzından eşitdik ki, əsgərlik işlərini qəbul etdilər. Bu

prinsip qaldı mətbuat barəsində. Mehdi bəy bizi inandırmağa çalışdı ki, Rusiyada qeyri-hökumət təbəəsi qəzetə müdiri ola bilməzdi. Əhməd bəy deyir ki, burada Türkiyə və İranın istibdadından qaçıb gələnlər var. O istibdadın barəsində və onun əleyhinə yazacaqlar. Həqiqətdə biz nə gördük. Burada nə osmanlı, nə də iranlı müdir mütəvəlliləri var ki, onlar təmamən bizim fikir və amalımızın əleyhinədirlər. Onların əleyhimizə olduqları faktdır. Bizim əleyhimizə olanlar ilə mübarizə etmək lazımdır... Biri Azərbaycana gəlib də qəzetə nəşr etmək fikrində olarsa, bir Azərbaycan müdiri-mütəvəlli (doğulmuş) tapa bilər. Məmləkət nöqteyi-nəzərimiz bu kimi xüsusatı nəzərə alaraq bu maddənin qəbulunu istəriz".

**Doxsan birinci iclas**
**1 noyabr 1919-cu iclas**

**"Məndən** əvvəl burada söyləyən Əhməd bəy maarif xüsusunda nəzarətə qarşı etdiyi təklif doğrudur.Bu xüsusda müəyyən və müntəzəm bir plan olmalıdır**".**

**Doxsan altıncı iclas**
**19 noyabr 1919-cu il**

**"Madam ki,** şərh edəcək əldə sərih bir şey yoxdur və burada əldə sərih etimadnamə vardır, bu səbəblərə görə etimadnamə qəbul edilməlidi**r".**

**Doxsan doqquzuncu iclas**
**20 noyabr 1919-cu il**

**"Məhəmməd Əmin Rəsulzadə - Bu doğru gəlir və vasitəli gəlir əsaslıq məsələdir.** Əsas etibarı ilə bizim Maliyyə Nazirimiz doğru gəlirə tərəf getməklə, mümkün olduğu qədər vasitəli vergilərdən uzaqlaşmalıdır. Bununla bərabər nəzarətin nümayəndəsi bizdən imtina etmək istədi ki, doğrudur, biz vasitəli vergilərə müraciət edirik. Bu da ondan irəli gəlir ki, bizim məxaricimiz çoxdur. Bunun üçün də biz bu layihəni təsdiq etməliyik".

**Yüzüncü iclas**
**24 noyabr 1919-cu il**

**"Məhəmməd Əmin (davamla): - Məmləkətin əhvalını yaxşılaşdırmaq üçün orta bir çarə lazımdır.** O da məncə bundan ibarətdir ki, hökumət əmtəənin yarısınımı, 30 faizinimi, xülasə bir qismini öz inhisarına alıb, yerdə qalanını satışa buraxmalıdır. Böylə olursa, nə malın həpsi yığılıb qalar, yaxud xaricə çəkilər. Həm xaricdə əlaqə olar, həm də daxildə ticarət və sənaye olmaz. Digər tərəfdən bu

surətlə hökumət əlində qismən mal və valyuta oar ki, bunun vasitəsi ilə də tənzimedici bir qüvvə olmaq üzrə hökumət bu valyuta ilə bazar satışını tənzim edər”.

**Yüz birinci iclas**

**27 noyabr 1919-cu il**

**“Burada Rusiyadan,Sovet Rusiyasından və digər məmləkətlərdən bəhs edildi.** Hərgah xalqın zehni çaşmasa idi, buradan 2-ci dəfə bəhs edilməzdi.Əgər məndən əvvəl olan natiqlər bu məsələdən bəhs etməsə idi,bəlkə bu məsələyə keçməz idim”.

**Yüz doqquzuncu iclas**

**22 dekabr 1919-cu il**

**“Məhəmməd Əmin: - “Əfəndilər! Siz burada məndən əvvəl bu kürsüdən nitq söyləyən iki natiqin sözlərinə şahid oldunuz.** Birinci və ikinci natiq bir mövzudan bəhs edirdilər. Bir nəfər deyirdi ki, niyə biz hökumətə daxil olmadıq. İkinci natiq Kravçenko məsələni bir qədər də açdı və fikrini aydın söylədi. O, dedi ki, biz hər zaman bir nöqteyi-nəzərdə, yəni böyük, vahid və bölünməz Rusiya fikrindəyik. Pək haqlı olaraq bu ifadəsinə qarşı Parlament bir gurultu yapdı. Məncə öylələrinin hökumət daxilində deyil, Parlamentdə əyləşməyə haqları yoxdur (gurultulu və sürəkli alqışlar)”.

**Yüz on birinci iclas**

**29 dekabr1919-cu il**

**“Aslan bəy bir növ sakit olmur.Yoxsa məsələni elə qoya ki,hər bir camaatın haqqı var təftiş etsin”.**

**Yüz iyirmi doqquzuncu iclas**

**1 mart 1920-ci il**

**“M.Ə.Rəsulzadə - Əfəndilər!** Məlumi-alunizdir ki, bütün məmləkətlərdə, bilxassə, məşrutiyyət və cümhuriyyətlə idarə olunan məmləkətlərdə büdcə məsələsi ən mühüm məsələlərdəndir. O, məmləkət məsələlərinin adətən anasıdır. Bilxassə, yeni təşkil edilən hökumətlər üçün büdcə tərtibi müşkül məsələdir. Çünki, əldə əvvəlcədən təcrübə yox, gəlir və çıxar fəsilləri yenidən tərtib edilməlidir. İşdə bunları nəzərə aldıqda büdcə tərtibinin nə qədər müşkül olduğunu, əlbəttə təqdir edirsiniz”.

**Yüz otuzuncu iclas**
**4 mart 1920-ci il**

**"M.Ə.Rəsulzadə - "Büdcənin tərtibi haqqında** məmləkətlərin praktikasında ayrı-ayrı fərqlər vardır. Məsələn, Amerikada parlament özü büdcəni tərtib edər və hökumətə verər. Hökumət də tətbiq və icra edər. İngiltərədə isə maliyyə nəzarəti büdcəni tərtib edir. Rusiyada və Rusiya təcrübəsində bu bir az başqa cürədir. Burada ayrı-ayrı nəzarətlər öz büdcələrini tərtib edib, Məclisi-Məbusana təqdim edirlərdi... Fransa Məclisi-Məbusanının büdcə qanunundan bir maddəsi göstərilir ki, büdcə müzakirə edildiyi zaman bu əsas müvafiq görülür. O da bundan ibarətdir ki, məsarif maddələrinin artırılmasından Məclisi-Məbusan özünü saxlasın, çünki əsasları pozmaq doğru deyildir və bu pozulmaq da dövlətin məsarifini artırır... Ehtimal ki, bəzi məsələlər ola ki, onlardan məlumat vermək lazım olacaq, o da yeri gələndə söylərik".

**Yüz otuz birinci iclas**
**8 mart 1920-ci il**

**"Məhəmməd Əmin – Buraya bir şey artırmaq ehtiyacı yoxdur?** Çünki zəngin sözü ilə, sonra müşkül bir hala qoymaq olur. Məxaric ödəmək üçün gəlir deməkdir. Məqsəd o deyil ki, yalnız zənginlərdən, ya başqalarından alınan para ilə ödənilə. Ola bilsin ki, bunları ödəmək üçün daxili bir istiqdar dəxi olsun, yollar tapılıb bu açıq qapansın. Büdcədə göstərilsin. O deyil ki, açıqlar vergilər ilə qapanır. Hərgah siz dediyinizi buraya daxil edərik isə o vaxt zənginlərdən başqa qeyri yerlər bu açığı qapamaz. Bu nöqteyi-nəzərdən bunu qətiyyən qəbul etmək olmaz".

**Yüz otuz ikinci iclas**
**9 mart 1920-ci il**

**"Məhəmməd Əmin – Eyvah ki, bu gün İrəvan, Qars və bunlar kimi** bədbəxt vəziyyətdə olan müsəlman – vəziyyətini eşidir, fəqət lazım olan müavinəti yetirənmiyor. Qars, İrəvan əhalisinin halı hərb əsnasında indikindən gözəl deyildi. Onlar müharibənin də fəlakətinə məruz qaldılar... Səslər – erməni saldatlarının (əsgərlərinin)... Məhəmməd Əmin (davamla) – Rus ordusu xain deyə çeynədi. Müvəqqəti xilas olmaq çarəsi göründü. Sanki onlara tale güldü. Fəqət bu, müvəqqəti oldu. Türklər gəldilər və sonra getdilər. Nəhayət, oranın müsəlmanları özləri hökumət qurmaq və özlərini idarə etmək istədilər, ona da müvəffəq olmağa qoymadılar..."

"Məhəmməd Əmin - əfəndilər!Siz bu qədər vəziyyəti-siyasiyə məna verirsiniz. Biz bu nəzərdəyik ki, hər hansı hökumət olursa və millət

necə millət olursa-olsun, onların içində olan, əqəliyyətdə qalan millətlər qalıblar və qalacaqlar da. Nə cür hökumət qurulursa-qurulsun, içində əqliyyətdə qalan millətlər olacaq. Bu olacaq. Bizdə də ermənilər var. Ermənistanda da müsəlmanlar var və olmalıdır. Fəqət görünür ki, Ermənistan Cümhuriyyəti məsələni öylə tələqqi etməyir...”

**Yüz otuz üçüncü iclas**
**11 mart 1920-ci il**

**“Məhəmməd Əmin Rəsulzadə - Bir də bu təklifinizdə məntiq varmıdır?** Məsələn, məmurların maaşının 80 faiz artırılması ilə ən ali məmur olan idarə rəisinin maaşı 7-8 mindən yuxarı çıxarmadınız. Halbuki məbuslar hal-hazırda 9000 (doqquz min) manat alırlar. Bəlkə bunların içində arşın malçı da olsun, bəzilərinin kənardan gəliri də olsun. Amma hər halda məsələni böylə vəz etmək olmaz. Əsas məsələ böylədir. Heç zaman, heç yerdə görülməmişdir ki, bir məbus dövlətin ali məmuriyyətdən artıq maaş alsın. Bunların arasında bir müvazinət lazımdır”.

**Yüz otuz dördüncü iclas**
**12 mart 1920-ci il**

**“Məhəmməd Əmin – Əfəndilər! Böyük Rusiya inqilabının 3 illiyini yada saldığımız** bu əsnada Rusiya inqilabının nə mahiyyətdə olduğunu nəzəri-diqqətdən keçirmək lazımdır. Bir Rusiya inqilabı var, bir rus inqilabı var. Bu iki məfhumu anlatmaq lazımdır. Bu gün Rus inqilabı deyil, Rusiya inqilabıdır... Rusiya inqilabı, Rusiyada toplanmış və süni millət halına gətirilmiş millətlərin yapdığı inqilabdır. Bu inqilabın ən böyük amilləri başqa millətlərin əzilməsi idi ki, inqilabın ilk əvvəllərində bu millətlərin azadlığı elan olundu. İnqilab bunları azad etdi. Əgər bu inqilab, haman inqilab amili olan Rusiya millətlərinin haqqı olan **“azadlıq”** şüarını qəbul etməsə idi, təbii, inqilab davam edə bilməzdi və bəlkə də heç inqilab olmazdı...Bütün meydanda müstəqil Azərbaycan, Gürcüstan, Ermənistan milli hökumətləri təşkil təşkil etmişsə, bu göstərir ki, Rusiya inqilabı əsl mahiyyətinə bir qədər yaxınlaşmışdı. İkinci inqilab ki, bolşevik şüarı ilə meydana atılmışdır, bu, Rusiya inqilabı deyil, rus millətinin inqilabıdır. Rus inqilabı isə Rusiya daxilində, rus millətinin istixlası üçün vücuda gəlmiş gəlmiş bir inqilabdır... Rusiya inqilabı mahiyyət etibarı ilə tökdüyü qanlar ilə türk tarixində, türkləri əsarətdən qurtaran qurd vəzifəsini ifa etdi ki, bu da bir qurtuluşdur.”

**Yüz otuz yeddinci iclas**
**1 aprel 1920-ci il**

**"Məhəmməd Əmin Rəsulzadə (qayət hərarətli və həyəcanlı bir halda) – Bumudur vətənpərvərlik!?** Böyləmi danışır bir Cümhuriyyət üzvü!? Böyləmi söylər bir xalq nümayəndəsi!? Əfəndilər! Bu kimi ultimatumlara fürsətdən bilaistifadə asi əlini dal qapıdan millətin hüququna uzatmaq derlər. Mən burada hər halda bir Azərbaycan Məclisi-Məbusan üzvü deyil, bir Rusiya vəkilinin, bir Rusiya agentisinin sözünü eşidirəm...

Soldan səslər – Provokasiya...

**Məhəmməd Əmin (davamla**) - əvət siz provokasiya deyirsiniz... Nə üçün siz böylə ümid edirsiniz ki, Azərbaycan xalqı bir asi ilə mübarizə edə bilmək üçün öz hüququnu ikinci bir üsyan hazırlamaqda əli olan Qarayevlərə təslim etməli imiş? Qarabağ asilərini bəyənmirlər. Onlar ilə mübarizə etmək üçün buradakı üsyançılara təslim olmağı təklif edirlər. Bunun üçün nəzərə alınmayır ki, Qarabağda üsyan qaldıran vartazarlar həmin bu asilərin başındadırlar ki, siz də ona iştirak edirsiniz. Əgər siz, məni təmin etsəniz ki, Ümumidarə əlinizə keçdiyi təqdirdə burada Azərbaycan türk hökuməti təşkil edəcəksiniz, əgər mən bilsəm ki, Azərbaycan hökuməti adı ilə Rusiya Sovetinin bir şöbəsini burada açmayacaqsınız, o vaxt sizinlə danışa bilərdik. Bu sözlər əvəzində bizi qane edəcək dəlillər göstərə bilsəniz, biz hər vaxt sizinlə danışardıq, fəqət siz həqiqi bir istiqlaliyyətçi deyil, digər bir üsyan hazırlayan bir sui-qəsdçisiniz".

**Qeyd:** *M.Ə.Rəsulzadə bu sözləri bolşevik Əliheydər Qarayevin çıxışına cavab olaraq söyləyib.*

**Yüz qırx birinci iclas**
**15 aprel 1920-ci il**

**"Məhəmməd Əmin Rəsulzadə - Əfəndilər! Bu müahidələr (müqavilə) içərisində qiymətdar bir maddə vardır.** İran milləti və İran məmləkəti böyük və birinci millətlər sırasındadır ki, Azərbaycanın istiqlaliyyətini təsdiqlə bərabər məşru haqqında da təsdiq etmişdir... Bu gün onlar bizi təsdiq etmişlər və bunu həqqən də göstərmişlərdir. Bunun üzərindədir ki, biz bu gün bu dostluq müahidəsini (müqavilə) bağladıq. Səbəbi isə iki millətin ruhunda olan üxüvvət (qardaşlıq) və qardaşlıq hissidir ki, bu hiss ilə onlar bizi hər kəsdən əvvəl təsdiq etdilər və bizimlə müahidə müqavilə) bağladılar...

Əfəndilər! Bir zamanlar müsəlmanların və Şərq millətlərinin haqqı özlərinə verilərsə və onlar bir hökumət surətinə düşdükdə bir-biri ilə

anlaşarlar. İran hökuməti bizi təsdiq etməklə bütün islam millətlərini təyin və təhkim edir. Bizim təsdiq edilmiş istiqlalımız islam aləmini səadətə çıxaracaqdır (alqışlar)".

**Yüz qırx ikinci iclas**
**19 aprel 1920-ci il**

**"Məhəmməd Əmin – Əfəndilər! Hal-hazırda bütün dünyada əleyhimizə hücumlar edilib,** min dürlü tərizlər (təxribatlar) və provokasiyalar olduğu zaman, mədəni millətlər hüzurunda, əcnəbi məmləkətlərdə kəndimizi (özümüzü) müdafiə etmək üçün mütləq səfarət lazımdır. Bunun əksini düşünmək, ancaq şəxsi və firqəvi düşüncədir".

**Parlamentin yüz qırx beşinci iclası**
**27 aprel1920-ci il**

**"Məhəmməd Əmin Rəsulzadə - Bizim fraksiyamız təslim olmağın əleyhinədir.** Fəqət, firqələrin əksəriyyətinin tələbinə görə və camaatımızın arasında daxili müharibə salmamaq üçün və əlavə bu günkü kommunist firqəsinin müstəqilliyimizi müdafiə edəcəklərini nəzərə alaraq bütün ixtiyarın onlara verilməsinin tərəfdarıyam, bu şərtlə ki, kommunistlər istiqlaliyyət, millət və məmləkətimizi layiqincə müdafiə etsinlər. Yox, əgər bunlara əməl olunmazsa, ixtiyarımızı geri alaraq haqqımızı özümüzdə saxlayacağıq".

**Qeyd: Azərbaycan Parlamentinin təcili fövqəladə axşam iclası.** Saat 20:45 dəqiqədə başlanıb. Gecə saat 2:00-a, bəzi mənbələrdə 24:00-a qədər davam edib. Bu son iclasda 6 şərt daxilində (bu şərtlərdə Azərbaycanın müstəqilliyi qorunurdu) hökumət azərbaycanlı bolşeviklərə verilirdi. Lakin bolşeviklər buna əməl etmədilər və Azərbaycan 1920-ci ilin 27 aprelindən 28-nə keçən gecə rus bolşevikləri və XI Ordu tərəfindən işğal edildi.

**Qeyd:** 1) M.Ə.Rəsulzadənin parlamentdəki çıxışları aşağıdakı mənbələrdə geniş olaraq verilib: 1. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). 1-ci cild. Bakı, "Azərbaycan" nəşriyyatı, 1998-ci il, 976 səh.; 2. Eyni kitabın 2-ci cildi. Bakı, "Azərbaycan" nəşriyyatı, 1998-ci il, 992 səh.

Dərc edilən protokol və stenoqrafik hesabatları ilk dəfə olaraq ərəb əlifbasından kiril qrafikasına Bakı Dövlət Universitetinin Baş müəllimi, **mərhum Səfər İbrahimov** çevirib. Sənədlərin nəşrə son hazırlıq işləri zamanı mətnlərin yenidən əsilləri ilə tutuşdurulması və lüğətdə təshihlər aparmaq və əlavələr etmək işini tarix elmləri doktoru, professor

**Seyidağa Onullahi** yerinə yetirib. Parlamentin 1920-ciil, 27 Aprel tarixli son iclasının protokolu və stenoqrafik hesabatı ilə **akademik Ziya Bünyadovun** Respublika Milli Təhlükəsizlik Nazirliyinin Arxivindən götürüb "Elm" qəzetində nəşr etdiyi mətnin əsasında kitaba daxil edilib. Sənədlərin arxeoqrafik qaydalarla işlənilməsi, ona elmi məlumat aparatının hazırlanması və müqəddimənin yazılması Milli Arxiv İdarəsinin rəisi, tarix elmləri namizədi **A.Paşayev** tərəfindən yerinə yetirilib.

Sənədlərin hazırlanmasında Milli Arxiv İdarəsinin əməkdaşları **F. Aslanova, F. Səfərov, C. Abbasova, L. Quliyeva** iştirak etmişlər.

2) M.Ə.Rəsulzadənin Azərbaycan Parlamentində çıxışlarını ilk dəfə ayrıca kitab olaraq nəşr etdirən (Türkiyə türkcəsində) tanınmış alim Səbahəddin Şimşir olub. Bax: "M.Ə.Rəsulzadənin Məclisi-Məbusan qonuşmaları. Toplayıb, nəşrə hazırlayanı: Səbahəddin Şimşir" Ankara, 2003.

# MÜHACİRƏTDƏ YAŞADIĞI DÖVRDƏ MÜXTƏLİF TƏDBİRLƏRDƏKİ ÇIXIŞLARI



Büyük Türk filosofu Ziya Gökalp'ın vefatının 30. ncu yıl dönümü münasebetiyle, ilim ve kültür müesseseleri tarafından, Merhum'un hâtırası anılmak üzere, ihtifaller yapıldı ve gazetelerle dergilerde bu konuya ait bir çok yazılar neşrolundu. Ayni zamanda özel hatıra posta pulları çıkarıldı.

Bu münasebetle, Milli Azerbaycan Hareketinin İstanbul'da münteşir sabık organı Yeni Kafkasya dergisinin merhum'a tahsis olunan 1.XI.1924 tarihli nüshasından naklen, Sayın Mehmet Emin Resulzade-nin Ziya Gök - Alp'ın mezarı başında, Azerbaycan Türkleri adına söylediği nutku aşağıya dercediyoruz:

«Muhterem hüzzarı kiram! Büyük Türk rehberini derübekaya gönderdiğimiz şu hazin demde, Türkiye hududu haricinde yaşayan Türklerin

**1924-cü il, 1 noyabr, İstanbul.**

M.Ə.Rəsulzadə Böyük Türk filosofu Ziya Göyalpın dəfn mərasimindəki çıxışında demişdi: “Əfəndilər, Ziya bəyin təbliğatı yalnız Türkiyə üfüqlərinə münhəsir qalmış bir fikir deyildir. “Türk Yurdu” və “Türk Ocağı”nın tərvic eylədikləri əfkarın mübəşşiri bulunan Ziya bəy, Türkçülük məfkurəsini Türkiyəçilik şəklində anlamırdı. Türklük yalnız Türkiyəyə münhəsir olmadığı kimi, türkçülük də Türkiyəçilik deyildir. Bütün Türk ölkələri ilə bərabər, Azərbaycan türkləri də milli məfkurə atəşi ilə tutuşmuşlardır...

... Bizdən məfkurənin təhəqqüqünü çeşmi-həsrət və ümidlə gözləyən türklərdən, sənə ey böyük mübəşşiri hürriyyət, ey böyük ölü, minlərlə rəhmət və ehtiram!”

***“Yeni Qafqasiya”. 1 noyabr 1924-cü il.***
***“Azərbaycan” jurnalı. İl 63, noyabr-1954, sayı: 8(32),səh.4-5.***

**1925-ci il, İstanbul.**

M.Ə.Rəsulzadə mühacirətdə yaşayan azərbaycanlı gənclər qarşısında “İstiqlal məfkurəsi və gənclik” mövzusunda cıxış edir.O,çıxışında deyir: ”Ey türk xalqı!Səni azad edəcək,xoşbəxt yaşadacaq qanlı mübarizəyə bütün qüvvətinlə hazırlan!Səni bu mübarizə xilas edəcəkdir!Azərbaycan istiqlalını bir dəfə qurdun,bir daha qurmaq bacarığına maliksən! Düşmənini tanı,milli intibahını yüksəlt,haqq səninlədir!”

***M.Ə.Rəsulzadə.”İstiqlal məfkurəsi və gənclik”.İstanbul,1925.***

**1929-cu il, 28 May, İstanbul.**



M. Ş. Efendi zade

**Millî Azerbaycan bayramı**

**28 mayıs Azerbaycan Cumhuriyeti ilânı istiklâlının 11 inci yıldönümü olmak münasebetile milliyetçi âzeriler her tarafta bugünü büyük bir ruh yüksekliğile tas'it etmişlerdir.**

İstanbulda

Geçen senelerde olduğu gibi bu senede de İstanbulda mukim Azerbaycanlılar "Odlu — Yurt„ idarehanesinde (evelki yıllarda "Yeni - Kafkasya„ ve "Azeri Türk„ ) toplanarak 28 mayıs gününü beraberlikte tas'it etmişlerdir. Azerilerden başka yerli türklerle Türkistan, Kafkasyalı Ukraynalı dostlarımız da hazır bulunmuşlardır.

Tas'it merasimi içtimadakı gençlerin bir ağızdan Azerbaycan istiklâl marşını okumalarıyla başlamış, marşı mutaakiben, Azerbaycan şurayi millisi reisi baş muharririmiz M. E. Resul - zade bey, tradisyonel nutkunu irat ile içtimada hazır olan milletdaşları bugün münasebetile tebrik ve muhterem misafirlere içtimai teşriflerinden dolayi arzı teşekkür eylemiştir.

Emin bey 28 mayıs bayramının vatan ayrısı kaçkınlarla beraber istilaçı duşmanların müthiş takibatlarına rağmen vatanda kalarak her türlü vasıtalarla kızıl rus rejimine mukabele eden idealist âzeri nesli tarafından da, tes'it edilmekte olduğunu kaytle istiklâl mücadelesi safhaları üzerinde durarak, bu mücadelenin muhtelif halk tabakaları arasında görülen şanlı tezahürlerini dinleyenlerin nazarında canlandırdı.

Bundan sonra natık beynelmilel siyasi vaz'iyeti tahlil ederek, Rusya dahilindeki mali, iktisadi ve siyasi buhranı anlatarak, Sovyetler ittihadındaki milli iftirak hareketlerinin ne

Burada yaşayan azərbaycanlılar "Odlu Yurd" jurnalının idarəxanasında toplaşıb, Azərbaycan İstiqlalının 11-ci ildönümünü qeyd edirlər. İstiqlal marşı oxunduqdan sonra söz M. Ə. Rəsulzadəyə verirlər. M.Ə.Rəsulzadə çıxışında "istilaçı düşmənlərin müdhiş təqiblərinə baxmayaraq, bu mücadilənin xalq təbəqələri arasında şanlı təzahürlərinin olduğunu" dinləyənlərin nəzərinə çatdırır, sonra beynəlmiləl siyasi vəziyyəti təhlil edir.

***"Odlu Yurd" jurnalı 1929-cu il, 28 May***

**Fransa, Paris, noyabr, 1930-cu il.**

M.Ə.Rəsulzadə Qafqaz, Ukrayna, Türkstanın siyasi sığınacaq almış təmsilçiləri qarşısında "Panturanizm, Qafqaz sorunu" mövzusunda çıxış edir.Onun bu çıxışı sonradan kitab olaraq nəşr edilib. Həmin çıxışdan: "Rus basının bir-birinə yağı olan iki düşərgəsi son çağlarda Rusiyaya qorxu olub, Turan torpaqlarını, başqa sözlə Sovet İttifaqının türklər yaşayan, siyasi yönətimi özəl ulusal quruluşlara ayrılmış bölgələrini ondan qoparmağa çalışan panturançılıq axınından əlbirliyə çox danışmağa başlamışdır.

Sovet rejiminin başdan-ayağa çürüdüyü, Kommunist Partiyasının aşındığı çağda Rusiyanın ən böyük gerçəklərindən biri uklonizmdir(əyintidir)".

***M.Ə.Rəsulzadə."Panturanizm haqqında". Paris, 1930-cu il.***

**Fransa, Paris, noyabr, 1931-ci il.**



*Noy Ramişvili*



**Resul-zade M. Emin Beyfendinin**

**Gürcüstan ricalinden Pariste öldürülen N. Ramişvili'nin mezarı başında söylediği nutuk**

Düşman kurşunu büyük bir adamı, saygılı bir hürriyet mücahidini öldürdü. N. Ramişvili'nin hayatına nihayet verdi!

Bu esefli hadise münasebetile komşularımıza yüzveren müsibetin ağırlığını hakkile derkediyoruz. Bu onlar için millî bir matemdir.

Fakat bu matem sade gürcüleri değil, ayni zamanda biz Azerbaycanlıları ve bütün Kafkasya vatanseverlerini dahi müteessir etmektedir.

Bütün mühacireti sarsan bu kara haberin Gürcüstanla beraber, bütün Kafkasyada dahi ayni hüzün ve teessürle akisendaz olacağı şüphesizdir

Düşman sevinebilir. Attığı kurşun hedefine değmiştir. Ramiş-
vili vurulmuştur. Fakat pek te sevinmesin — çünkü öldürülen
sade maddî Ramişvilidir. Birde manevî Ramişvili vardır ki o
öldürülemez. O yaşar! Evet hiç bir ihanet, hiç bir kuvvet hiç bir
kurşun içtimaî ve tarihî hak ve hakikata dayanan bir fikri öldü-
remez! Merhum işte böyle bir fikrin hizmetçisi idi. Millî istiklal
fikri—beşerin istikbaline hakim olacağı muhakkak bulunan de-
mokrasi fikirleri silsilesinde pek mühim bir halkadır.
Hakiki bir mücahit ve inkilapcı sıfatile, N. Ramişvili, elinde
... kadar yüksek tuttu-

1931-ci ilin noyabrında Gürcüstanın tanınmış siyasi xadimi və mühacirətdə yaşayan liderlərindən biri N.Ramişvili sovet agentləri tərəfindən qətlə yetirildi. Onun dəfn mərasimində çıxış edənlərdən biri də M.Ə.Rəsulzadə oldu. O, çıxışında dedi: “(Tabuta xitabla) Əziz dostum, sən şanlı vəzifə başında ikən öldürüldün. Xain düşmən sənin nəfsini müqəddəs bir əlaqəylə vəqf etdiyin (həsr etmək) böyük işdən ayırdı. Bu açıq məzarının başında əhd edir, bərabər gördüyümüz müştərək işi sonuna qədər götürmək üçün sənə söz veririk. Nəfsini vəqf etdiyin böyük qayələrə mərbud (qəlblərə bağlanmış) qalacağımıza əmin ola bilirsən!

Bəli, əfəndilər, böyük qayələrin zəfərini təmin üçün böyük də qurbanlar verməк lazım. Qurbanlarımız çoxdur. Onların saysız məzarları Solovkinin buzlu çöllərini, Qafqasyanın dağlarını, dərələrini, mühacirətin yaşadığı özgə məmləkətləri doldurmuşdur. İşdə bu qurbanlar silsiləsindən böyük bir mücahidin daha qapanmamış olan bu məzarı başında intiqam əhd edəlim! Mücahidin müqəddəs hisslərlə mənimsəmiş olduğu qayələri təhəqqüq (haqqı olmaq) etdirməkdən daha qiymətli, onun üçün hansı intiqam təsəvvür edilə bilər? Ona yapıla bilən ən yaxşı abidə ancaq müstəqil Gürcüstan ilə Müstəqil Qafqaz Konfederasiyası fikrinin həqiqət olacağıdır. Paris torpaqlarına əmanət etməkdə olduğumuz vücudunun qurtulmuş vətənə nəqli – həyatda qalan bizlər, işdə bu abidəni özünə təmin təmin etməliyik!

**Ramişvili hürriyyət və istiqlal üçün** cəhd edən bir millətin əzm və iradəsini özündə təmsil edən bir şəxsiyyət idi. O, milli bir mücahid idi.

Bu mücahid öldü isə də, onu doğuran xalq ölmədi, onun həyata keçirməklə məşğul olduğu milli iradə dəxi ölməmişdir. Bu iradə müzəffər olmalıdır və olacaqdır!”

***“Odlu Yurd” jurnalı. İstanbul, 1931-ci il. İl:2, sayı:24(2).***

**Fransa, Paris, noyabr, 1934-cü il.**



*Ə.M. Topçubaşov*



Nr. 2 Kurtuluş 35

M. E. Resul-zade

**Ali Merdan Beyin mezarı beşında**

Milli Azerbaycan Merkezi reisi Resul-zade M. Emin Beyefendi tarafından söylenmiş nutuk

Hanımlar, Beyler!

Millet yolunda çalışanlarımızdan bir büyüğü ile halallaşıyoruz. Heyhat! Azerbaycan Parlamentosunun şanlı reisini, Heyeti Murahhasasının saygılı başçısını misafiri bulunduğumuz Fransa toprağına emanet bırakıyoruz.

Parlamento reisi, Heyeti Murahhasa şefi, Milli Merkez âzası ve saire gibi, merhumun taşıdığı resmi unvanları zikretmekle Ali Merdan Bey isminin manasını tamamile anlatmak, mevzuu bütün şümulu ile kavramak kat'iyen mümkün değildir.

Yetmiş beşi haklayan yaşının, hiç olmazsa, ellisini, merhum, durmadan, yorulmadan ve yılmadan cemaat işine ve millet yoluna vermiştir. Elli yıl ömür; yarım asırlık bir hayat! Koca bir devir! . . .

1934-cü ilin noyabrın 6-da Azərbaycanın görkəmli dövlət xadimi, Azərbaycan Parlamentinin sədri Əlimərdan bəy Topçubaşov ağır mühacirət həyatını yaşadığı Fransada – Parisdə vəfat etdi. Ə.M. Topçubaşov Paris yaxınlığındakı St. Cloud məzarlığında torpağa tapşırıldı. Dəfn mərasimində çıxış edənlərdən biri də M. Ə. Rəsulzadə oldu. O, çıxışında dedi: “Xanımlar, bəylər! **Millət yolunda çalışanlarımızdan bir böyüyü ilə halallaşırıq. Heyhat! Azərbaycan Parlamentinin şanlı rəisini, Nümayəndə Heyətinin sayğılı başçısını müsafiri olduğumuz Fransa torpağına əmanət buraxırıq.**

Parlamento rəisi, Nümayəndə Heyətinin başçısı, Milli Mərkəz üzvü və sairə kimi mərhumun daşıdığı rəsmi ünvanları zikretməklə Əli Mərdan bəy adının mənasını tamamilə anlatmaq, mövzunu bütün şümülü (şamil edilən) ilə qavramaq qətiyyən mümkün deyildir.

Yetmiş beşi haqlayan yaşını, heç olmazsa əllisini, mərhum durmadan, yorulmadan camaat işinə və millət yoluna vermişdir. Əlli il ömür; yarım əsrlik bir həyat! Qoca bir dövr!..

Bəli, Əli Mərdan bəyin geçinməsi ilə biz, milli həyatımızda başlı-başına bir dövrü təmsil edən mühüm şəxsiyyətdən ayrıldıq; çünki, Topçubaşi Əlimərdan bəyin ismi müəyyən bir nəsli və müəyyən bir dövrü andırır.

Rusiyada ali təhsil görmüş, Türk və müsəlman ziyalısını barmaqla saymaq qəbul olduğu bir zamanda idi ki, Əlimərdan bəy meydana çıxmışdı.

...Çox çəkməz məmləkət qurtular; və o zaman mütəşəkkir millət ilk Parlamentinin rəisini, istiqlal davasının vəkilini xatırlar, gələr, səni oğlunla bərabər buradan alar, arzu etdiyin vətən torpağına götürər və xatirəni əbədiləşdirər. Eyni zamanda şübhə etmirəm ki, birləşik müstəqil Qafqasya da öz hürriyyət baratında (fərmanında) imzası olan sayğılı mücahidini unutsun!.. **Budur sənə söyləyəcəyim son söz!.. Sənə bizdən minlərlə rəhmət!. Sənə bizdən minlərlə hörmət!!..”**

***“Qurtuluş” jurnalı. Berlin, 1934-cü il. İl:1, sayı:2.***

**Fransa, Paris, 1936-cı il.**



МАМЕД ЭМИН РАСУЛ-ЗАДЭ

СОВРЕМЕННАЯ ЛИТЕРАТУРА АЗЕРБАЙДЖАНА

ДОКЛАД

ПРОЧИТАН В ОБЩЕСТВЕ ДРУЖБЫ НАРОДОВ КАВКАЗА, ТУРКЕСТАНА И УКРАИНЫ В ПАРИЖЕ

1936



Современная литература Азербайджана

доклад М. Э. бей Расул-Задэ, прочитанный 17 января т. г. в Париже

*M.Ə.Rəsulzadənin “Çağdaş Azərbaycan ədəbiyyatı” mövzusunda məruzəsi*

1936-cı ildə Parisdə "Qafqaz Türküstan və Ukrayna Xalqlarının Xalqlar Dostluğu" Cəmiyyətində **M.Ə.Rəsulzadə "Çağdaş Azərbaycan ədəbiyyatı" mövzusunda məruzə edir.** Həmin məruzəsində Azərbaycan ədəbiyyatı və onun görkəmli nümayəndələri haqqında toplantı iştirakçılarına geniş məlumat verir. O, çıxışını bu sözlərlə başlayır: "Azərbaycan türkləri ümumi-türk mədəniyyətinin formalaşmasında əhəmiyyətli rol oynamışlar...

Azərbaycan ədəbiyyatı XIX əsrin əvvəlinə qədər tam şəkildə Füzulinin təsirində olmuşdur. Onun şeirlər məcmuəsi hər bir ədəbi-təhlili olan azərbaycanlının stolüstü kitabına çevrilib. Bir müddət əvvəl Bakıda onun yaradıcılığının 400 illiyi qeyd olunub. Onun ayrı-ayrı şeirləri məşhur badələr kimi xalq deyimlərinə çevrilib".

***"Çağdaş Azərbaycan ədəbiyyatı". Paris, 1936-cı il.***

**1936-cı il 24 may. Fransa, Paris, Henri Martin küçəsi, Kültür Fizik Klubu –** Azərbaycan, Gürcü və Şimali Qafqasiyalılarla, Rusiya əsarətində yaşayan digər xalqların nümayəndələrinin də iştirakı ilə toplantı keçirilir. Toplantını M.Ə.Rəsulzadə açır və mayın 11-də Şimali Qafqazın, 26-da Gürcüstanın, 28-də isə Azərbaycan ilə Ermənistanın istiqlallarını elan etməsi münasibəti ilə hamını təbrik edir, həmin hadisənin əhəmiyyəti haqqında geniş məlumat verir.Sonra tədbirdə Təbrizdən gürcü nümayəndəsi A.İ.Çxenkeli, Azərbaycan nümayəndəsi Mir Yaqub Mehdiyev, erməni A.İ.Xatisyan, ukraynalı A.Şulqin, "Prometey"in redaktoru G. Qvazava çıxış edirlər.

***"Qurtuluş"jurnalı,Berlin 1936-cı il.***

**Polşa Respublikası,1936-cı il, 5-7 avqust**




**M.Ə.Rəsulzadənin təşkilatçılığı ilə Varşavada "Müsavat" Partiyasının Konfransının keçirilməsi. "Yeni Proqram Əsasları"nın qəbul edilməsi**

1936-cı ilin avqust qayının 5-7-də Varşavada "Müsavat" Partiyasının Konfransı keçirildi. Qeyd edək ki, hələ fevral ayında M.Ə.Rəsulzadə konfransın tezislərini hazırlayıb əlaqədar üzvlərə göndərmişdi.

Konfransı M.Ə.Rəsulzadə açdı və partiyanın keçdiyi tarixi yol haqqında fikir-

lərini belə ümumiləşdirdi: **“Azərbaycan istiqlal hərəkatında yolgöstərənlik yolunda olan və qurtuluş savaşını yürüdən birinci firqə “Müsavat”dır. Bunun yanında başqa bir firqə və təşkilat yoxdur”.**

İkinci hissədə M.Ə.Rəsulzadənin “Milli Hərəkatda partiya fəaliyyəti” haqqında çıxışının müzakirəsi oldu. Burada əsas önə çəkilən məsələ bu idi: “Qızıl rus bolşeviklərinin məmləkətimizin istilası ilə Milli Azərbaycan hərəkatı yeni şəkillər alaraq, əskisindən daha fəal bir surətdə yürümüş, gərək daxildə, gərəksə xaricdə durmadan irəliləmişdir”.

Sonra M.Ə.Rəsulzadə partiya proqramı haqqında izahat verdi, “Proqram Əsasları” isə maddə-maddə müzakirə edilib qəbul olundu.

“Yeni Proqram Əsasları” müsavatçılığın tərifini belə müəyyənləşdirirdi: “Müsavatçılıq böyük Türk kültürünə bağlı, milli, mədəni və insani dəyərləri mənimsəyən, hürriyyət, cümhuriyyət və istiqlal idealına sadiq Azərbaycan vətənsevərliyidir”.

“Yeni Proqram Əsasları”nda Milli Təsanüdə cəmiyyətdə böyük ehtiyac duyulduğu xüsusi vurğulanırdı.

Eyni zamanda, Azərbaycan vətəndaşlarına müraciətdə qəbul edilən bəyannamə bu sözlərlə yekunlaşırdı: “”Vətəndaşlar! Sizi böylə əzm və iman sahibi bir zümrə halında yürüyən istiqlal mücadiləsinə candan qoşulmağa çağırırız!”

***“Müsavat” bülleteni. N1, 1936-cı il.***

**Almaniya, Berlin, 21 may, 1937-ci il.**



H. K . . ğı

Resul-zade Mehmed Emin Bey Berlinde

(„Azerbaycan Problemi“ üzerinde mühim bir konfrans)

Mayısın başlarında Berlinde bulunan Azerbaycan Millî Hareketi rehberi muhterem **Resul-zade Mehmed Emin Bey**efendi **„Kurtuluş“** idaresinin teşebbüsü üzerine Mayısın 21-nde Berlinin **„Humboldt-Klub“** salonunda **„Azerbaycan Problemi“** mevzuunda mühim bir konfrans verdi. Konfransa iştirak edenlerin ekseriyetini Azerbaycan muhibbi almanlar teşkil ediyorlardı. Alman dostlarımız arasında siyasi, içtimai ve ilmi muhafile mensub bir çok simalar bulunduğu gibi, mes'elelerimizle alâkadar ilmi ve sair mühim alman müesseselerinin mümessilleri ve külliyetli mıktarda olarak alman matbuatı müntesipleri dahi konfransa iştirak etmekte idiler. Hükûme-

**harekete gele bilirler.“**

Bu esastan hareket ederek Bakû komünist aktivi kararda diyor ki:

„Bakû ve bütün Azerbaycan teşkilatı şeraitinde fevkalâde ehemmiyeti olan Lenin-Stalin internasyonal terbiyesi rehber fırka teşkilatları tarafından temamile ihmal edilmiştir. Müsavatçılar, taşnaklar milliyetçi unsurlar işte bu vaz'iyet-

tin ve fırkanın baş organı **„Völkischer Beobachter“** gibi maruf bir çok diğer gazeteler konfransa hususi muhabirlerim göndermişlerdi. Almanlardan başka konfransa Berlindeki Türkiyeli ve İranlılar ve nihayet Rusya mahkûmu milletlerin mümessilleri, o cümleden Ukrayna, Türküstan, Edil-Ural, Kazaçi, Gürcü, Şimali Kafkasyalı, Ermeni ve Azeriler dahi iştirak ediyorlardı.

Akşam saat 8,5-a tayin olunan konfransı **„Kurtuluş“** namından **Hilâl Münşi Bey** açarak konfransa iştiraklarından dolayı hazıruna teşektür ettikten sonra, dostumuz muhterem **Prof. Dr. G. Jäschke** cenaplarından konfransa riyaset etmeği rica etti. Professor Jäschke riyaset makamına gelerek hazırunu kısa bir nutukla gerek konfransın mevzuu ve gerekse maruzaçının tercümei halile tanış ederek, Emin Beyin, değil sadece Azerbaycanın kurtuluşu işinde, umumiyetle Rusya mahkûmu bütün Türklerin rus imperyalizmine karşı yürüttürkleri savaşta dahi seneler uzunu mühim bir rol oynadığını kaydetti. Professor cenapları Emin Beyin çarizm devrinde milletini

1937-ci ilin mayın 21-də Berlinin Humbold-Klub salonunda “Qurtuluş” jurnalının təşəbbüsü ilə “Azərbaycan Problemi” mövzusunda konfrans keçirildi. Konfransda M.Ə.Rəsulzadə əsas məruzə etdi. **200-dən çox nümayəndənin iştirak etdiyi tədbirdə** Almaniyanın tanınmış elm və mətbuat nümayəndələri, Berlindəki, Türkiyədən və İrandan olan təmsilçilər, eləcə də Rusiya məh-

kumu olan millətlərin – Ukraynalıların, Türküstanlıların, İdil-Urallıların, qazaxların, gürcülərin, Şimali Qafqasiyalıların nümayəndələri iştirak edirdilər. Axşam saat 19:30-a təyin edilən konfransı Hilal Münşi bəy açaraq, alman professoru G.Yaskeni konfransın sədrliyinə dəvət edib. Sonra söz M.Ə.Rəsulzadəyə verilib. O, çıxışını bu sözlərlə başlayıb: "Azərbaycan problemi qanlıdır, fəqət eyni zamanda bu mücadilə xalqın hürriyyət və bağımsızlığı üçün bir şansdır. Bu xalq milliyyətçiliyə önəm verən insanları arkadaş olaraq qəbul edib, qızılları (yəni bolşevikləri, kommunistləri) yəni insanlıq dəyərlərini ayaqlar altına alan və ideojiləri kommunizm olan insanları isə düşmənləri olaraq qəbul edərlər...

Bir millətin milli mücadiləsini Almaniyada açıqlamaq, bu ölkə üçün də çox özəl bir anlam daşıyır; Almaniyada milli bağımsızlıq, milli şərəf və var olmaq mücadiləsi sərgilənməkdədir. Çünki bunlar kültür tarixnin ruhunu ortaya qoymaqda və eyni zamanda bu ölkədə yıxıcı olan bolşevizmə qarşı da mücadilə bayrağı yüksəldilməkdədir. Problemlərimizin ideolojik və politik təməllərini önə sürmədən öncə sizlərə Azərbaycanın sərhədlərini qısaca təsvir etməm lazım.

Bir ölkənin bəzi gerçəkləri bilginizə çatdırmadan öncə klassik metodları uyqulayaraq bilinməyən böyüklüklərlə qarşılaşaraq, diqqətinizi bəzi nöqtələrə çəkmək istəyirəm. ***Ataş ölkəsi: Azərbaycan!*** Bu ad Azərbaycana sahib olduğu təbii ataşdən dolayı verilmişdir. Bu kültür tarixində ataşin etkisini tanıyırıq..."

***"Qurtuluş" jurnalı. Berlin, may, 1937-ci il. İl: 4, sayı: 31.***

***M.Ə.Rəsulzadə.Azərbaycan Problemi. (Çevirənlər Pərihan Mete, Səbahəddin Şimşir). Ankara, 1995-ci il.***

**Polşa, 1938-ci il, 6 fevral.**

1938-ci ilin fevralın 6-da Polşa Respublikasının paytaxtı Varşava şəhərində "Prometey" təşkilatının təşəbbüsü və Varşava Şərq İnstitutu nəzdindəki "Gənc Şərqşünaslar Cəmiyyəti"nin Krım-İdil-Ural bölməsi İdil-Ural Millət Məclisi açılışının 20 illiyi münasibəti ilə böyük bir mərasim keçirdi. Varşava "İş Adamları Cəmiyyəti"nin böyük salonunda tərtib edilən mərasimdə, Varşavada olan Şimali Qafqaz, Gürcüstan, Azərbaycan, Ukrayna, Krım, İdil-Ural təmsilçiləri, yerli Polşa tatarları və polyaklardan başqa Türkiyə, Finlandiya, Estoniya, Almaniyadan gələn İdil-Ural təşkilatı nümayəndələri də iştirak edirdi.

Tədbirdə M.Ə.Rəsulzadə maraqlı çıxış etdi: **"İdil-Urallı qardaşlar!** Bir millətin uğradığı ən müdhiş, zülmə və tarixin özünün rəva gördüyü ən qəddar şəraitə rəğmən, məhv olmayıb da, mənliyini mühafizəyə bir misal aranırsa – bunun ən klassik örnəyi məncə Siz olusunuz!

... Bəli, qardaşlar! Müzəffər olan onlar deyil, bizik. Mənəvi zəfər bizdədir. Seyr etdiyimiz siyasi əlamətlər qızıl çarlığın çökəcəyi müqəddəs günləri bizə müjdələyir. **Yetər ki, biz yıxılmadan və sarsılmadan yürüyəlim;** şübhəsiz, məqsədə nail olacaq, məmləkətlərimizin xilas günlərini mütləq görəcəyik!..

Bir an əvvəl bu məsud günə qovuşmamızı təmsil etdiyim, Azərbaycan, Şimali Qafqaz və Gürcüstandan birləşik Qafqaz Konfederasiyası adından təmənna edərəm. **Yaşasın müstəqil İdil-Ural!".**

***"Qurtuluş" jurnalı. Berlin, 1938-ci il, N40.***

**Polşa, 1938-ci il, 7 aprel.**

"Pometey" Klubunun toplantılarından biri də 1938-ci ilin aprelin 7-də Varşavada keçirildi. Əsas məruzəçi olan tanınmış polyak alimi V. Bonçkovskinin "Yeni çağların ruhu haqqında" mövzusundakı çıxışından sonra müzakirələr başladı. Müzakirələrdə çıxış edənlərdən biri də M. Ə. Rəsulzadə oldu. O, çıxışında dedi: "Əsrin ruhundan bəhs edilir və bu XIX əsrin ruhuna qarşı tutulur. Məruzəçiyə görə bu, Fransa inqilabı ilə başlayıb, Rusiya inqilabı ilə tamamalanan bir hərəkatdır. XIX əsri və onun mədəniyyətin hər sahəsində qazanmış olduğu müvəffəqiyyətləri inkar etmək qeyri-mümkündür.

**... Yalnız kommunizmə qarşı deyil,** aləlümum Rus imperializminə qarşı müttəfiqlər də ola bilir ki, bunlarla dostluğumuz da səmimi və daimidir. Bu növdən müttəfiqlər bizə öz məmləkətləri üzərində daimi təhlükə kimi duran imperializm qüvvəsini zəif salmaq üçün Rusiyanın parçalanmasında tarixən əlaqədar olan dövlətlər və beynəlmiləl qüvvələrdir.

...Lehistanın (Polşanın) şərq siyasəti, digər bəzi siyasətlərin "Rus məsələsi"nə yanaşmasından fərqlidir. Bu siyasət kök etibarı ilə tədafi (müalicə) bir mahiyyətdədir və **leh istiqlalının** geri alınması üçün "sizin də, bizim də hürriyyətimiz üçün" şüarından hərəkət edən şanlı istiqlal mücadiləsi ənənəsinə dayanmaqdadır".

***"Şimali Qafqasiya" / "Severnıy Kafkaz" jurnalı. Varşava, 1938-ci il, N47-48.***

**Rumıniya, Köstəncə şəhəri (Dobruca bölgəsində), 1939-cu il, avqust.**

1939-cu ilin avqustunda M.Ə.Rəsulzadə həyat yoldaşı Vanda xanım və tanınmış mühacir Ayaz İshaqi ilə birgə dincəlmək üçün Rumıniyanın türklər yaşayan Dobruca bölgəsinin Köstəncə şəhərinə gedir. Burada Dobruca Mədəniyyət Birliyinin İdarə Heyəti onların şərəfinə ziyafət

verir. Həmin ziyafətdə M.Ə.Rəsulzadə aşağıdakı mövzuda çıxış edir: "Biz Dobrucanın günəşli sahillərində bir az istilik alaraq rahatlanmaq üçün gəlmişdik, ancaq təbiət bizdən bu lütfünü əsirgədi. Eybi yoxdur, biz burada yaşayan krımlı qardaşlarımızın hərarətiylə qucaqlaşdıq və isindik. **Bizi əsl sevindirən və isidən hərarət qardaş Türk ölkələri arasındakı hərarətdir...**

Son günlərdə bütün dünyanı yenidən çalxalanmaya və sarsılmaya, millət və məmləkətlərin müqəddəratı və haqları danışıq mövzusu olmağa başlamışdır. Bu arada rus məhkumu millətlərin və xüsusilə biz Türklərin də mühüm yer işğal edəcəklərinə şübhə yoxdur. Rusiyanın parçalanacağı, məhkum Türk ellərinin qurtulacağı mühəqqəq (gerçək) və yaxındır. Bu məqsəd və şərəfli gün üçün birləşəlim və hazırlanalım".

**Ədəbiyyat:**

*1) Ömər Özcan. Məhəmməd Əmin Rəsulzadə Rumıniyada. "525-ci qəzet", 21 may, 2011-ci il.2)Müstəcib Ülküsal. Krım yolunda bir ömür xatirələr. Ankara, 1999-cu il.*

**Almaniya, Berlin, 5 avqust, 1943-cü il.**

1943-cü ilin avqustun 5-də M.Ə.Rəsulzadə almanlara bir "Bəyanat-memorandum" verərək, Almaniyadan ayrılıb Buxarestə getmədən öncə, Berlindəki "Kaiserof" otelində azərbaycanlılarla keçirdiyi vida çıxışında deyir: "Övladlarım, sizlər əllərində silah düşmənimizə qarşı mübarizəni davam etdirin, zira sizlər siyasi deyil, əsgəri gücsünüz. Mən isə Azərbaycanın bağımsızlıq mübarizəsinin yükünü üzərində daşıyan bir siyasət adamı olduğumdan, milli istiqlal məsələmizdə, almanlarla anlaşmadıq. Mən bu gün sizlərə vida edərək Almaniyanı tərk edirəm. Ancaq getmədən öncə sizlərə, almanların milli məsələlərimizdə bizə olan münasibətlərini belə söyləmək istəyirəm: "Övladlarım, hürr və müstəqil dövlət həyatı yaşamaq ikən, onları işğal edərək istiqlallarını əllərindən alan almanlar, kommunist işğalı altındakı Azərbaycana heç bir zaman istiqlal haqqı tanımayacaqdır".

***"Azərbaycan" jurnalı. Ankara, 1994-cü il. İl:43, sayı:295.***

***(Məhəmməd Kəngərlinin Bakıdakı Mədəniyyət sarayında Müsavat Partiyasının keçirdiyi tədbirdə çıxışından).***

**Türkiyə, Ankara, 28 May, 1949-cu il.**

1949-cu ilin 28 Mayında Ankarada Azərbaycan istiqlalına həsr



Mehmet Emin Resulzade

AZERBAYCAN Kültür Gelenekleri

"AZERBAYCAN KÜLTÜR DERNEĞİ"NİN TEŞEBBÜSÜ İLE, 28 MAYIS 1949 DA, ANKARA HALKEVİ BİNASINDA VERİLEN KONFERANS.



AZERBAYCAN KÜLTÜR GELENEKLERİ

Aziz yurttaşlar, sayın arkadaşlar!

Konumuz "Azerbaycan Kültür Gelenekleri„dir. Biliyorum konu çok geniştir. Buraya, sozün mütearif manasiyle, sade maneviyat değil, iktisadiyat, içtimaiyat ve siyasiyat gibi maddiyat da girer. İstenilen neticeyè tam varabilmek için bütün bu sahalara temas etmek elbette lâzımdır. Fakat biz bu konferansta kültürün sade, dinî, fikrî, hissî, edebî ve bedîî safhalarını kayd etmekle iktifa edecek, onu da, tabiî olarak, umumî hatlariyle ve muayyen bir devre kadar hülâsa etmeye çalışacağız. Takdir edersiniz ki bu konuyu bütün malzemesiyle şöyle böyle anlatabilmek için bir değil, bir kaç konferansa ihtiyaç vardır: bilhassa ki Azerbaycan kültürüne ait materyaller daha kâfi derecede işlenmemiş ve bir sistem haline konmamıştır. Bu iş, şüphesiz, "Azerbaycan Kültür Derneği„nin başlıca gayesini teşkil etmelidir. Vaktinizi alacak bu konuşma bu yoldaki çalışmalara ufacık olsun bir istikamet verebilirse ne mutlu!...

Bayanlar, Baylar!

edilmiş konfransda M.Ə.Rəsulzadə "Azərbaycan mədəniyyət ənənələri" mövzusunda geniş məruzə edib. Konfransdakı çıxışından: **"Əziz yurddaşlar, hörmətli arkadaşlar! Mövzumuz "Azərbaycan mədəniyyət ənənələri"dir.** Bilirik ki, mövzumuz çox genişdir. Buraya, sözün həqiqi mənasilə sadə mənəviyyat deyil, iqtisadiyyat, ictimaiyyət və siyasət kimi maddiyyat da girir. İstənilən nəticəyə tam vara bilmək üçün bütün bu sahələrə təmas etmək əlbəttə lazımdır. Fəqət biz bu konfransda mədəniyyətin sadə, dini, fikri, hissi, ədəbi və bədii səhifələrini qeyd etməklə kifayətlənəcək, onu da təbii olaraq ümumi xətlər və müəyyən bir dövrə qədər xülasə etməyə çalışacağıq...

Xanımlar, bəylər!

**Bütün mədəniyyətlər üç böyük amilin qarşılıqlı təsirlərindən doğarlar: coğrafi amil – vətən, etnoqrafi amil – millət və mənəvi amil – mədəniyyət!..**

... Azərbaycan tutduğu mövqe etibarı ilə Yaxın Şərqin çox əhəmiyyətli sahəsidir..."

## Ədəbiyyat

*1)M.Ə.Rəsulzadə. Bolşeviklərin Şərq siyasəti. B., 1994.2) M.Ə.Rəsulzadə. "Azərbaycan Kültür Gələnəkləri", 1949-cu il.*

**Türkiyə, Ankara, 27 noyabr, 1949-cu il.**

Azərbaycan Kültür Dərnəyinin təşəbbüsü ilə Ankara Xalq Evində konfrans keçirilir. M.Ə.Rəsulzadə konfransda **“Çağdaş Azərbaycan**






Çadaş Azerbaycan Edebiyatı

Sayın dinleyicilerim,

Konumuz Çağdaş Azerbaycan Edebiyatıdır.

Bir kaç ay evvel Azerbaycan Kültür Gelenekierinden bahsederken bu konunun bir kısmına temas etdiydik; orada XIX. uncu yüzyılda Azerbaycan edebiyatının geçirdiği safhaları belirttik; onun, Rusya'da patlak veren 1905 inkılâbından sonraki gelişmesi ile ileri gelen şahsiyetlerini zikrettik ve nihayet 1918 de milli Azerbaycan Cumhuriyetinin kurulması ve istiklâlinin ilânına kadar geçen edebî hâdiseler üzerinde durduk ve konuşmamızı burada bıraktık.

Şimdi konuşmamıza bıraktığımız o noktadan başlayacak ve sözü yaşadığımız günlere götürmeğe sâyi edeceğiz. Bunu yapar-

**ədəbiyyatı” mövzusunda çıxış edir.** Həmin çıxışdan: “Sayın dinləyicilərim, konumuz (mövzumuz) Çağdaş Azərbaycan ədəbiyyatıdır.

Bir neçə ay əvvəl Azərbaycan mədəniyyət ənənələrindən bəhs edərkən bu mövzunun bir qisminə təmas etmişdik; orada XIX yüz ildə Azərbaycan ədəbiyyatının keçirdiyi səhifələri bəlirtdik (göstərmək); onun Rusiyada baş verən 1905-ci il inqilabından sonrakı inkişafı ilə irəli gələn şəxsiyyətlərini zikr etdik və nəhayət 1918-ci ildə Milli Azərbaycan Cümhuriyyətinin qurulması və istiqlalının elanına qədər keçən ədəbi hadisələr üzərində durduq və çıxışımızı burada saxladıq.

İndi çıxışımıza buraxdığımız o nöqtədən başlayacaq və sözü yaşadığımız günlərə götürməyə səy edəcəyik. Bunu edərkən Dəmir Pərdə arxasındakı olaylara aid qaynaqlardan haqqıyla istifadə etmək üçün bütün imkanlara, maasələf malik olmadığımızı nəzərə almanızı da ayrıca rica edəcək, görüləcək nöqsanlar üçün öncədən əffinizi diləyəcəyəm.

**Xanımlar və bəylər!**

Milli Azərbaycan Cümhuriyyətinin qurulduğu 1917 və 18-ci illərdə Azərbaycan xalqı tarixinin ən həyəcanlı günlərini yaşayırdı; ədəbiyyat və həyəcana tərcüman olur, milli istiqlal günlərinə yaxınlaşmanın şövq və sevinci içində bulunur; yaradıcı böyük ümidi bütün həssaslığı ilə tərənnüm edirdi. Sovet cəlladlarının vəhşi işgəncələrinə dayanmayaraq, vətən mücahidlərinin hissəsinə düşən qismətlə əcəl camını içmiş olan şair Əli Yusif hadisələrin gəlişimini bu ilhamlı beytlərlə təsvir edirdi:

Çox dolaşdım əski Şərqin ölü, hissiz yurdunu,
Sübh olmuşdu, fəqət yenə bir oyanıq görmədim.
Anlamazdı kimsə onun o şübhəli dərdini,
Ağlamazdı ona kimsə, qəlbi yanıq görmədim!..

**...Milli Qurtuluş hərəkatının** Azərbaycan ruhu həssas telləri üzərindəki təsir dərəcəsi və növünü bildirən milli şair Əhməd Cavadın 28 Mayıs İstiqlal günü münasibəti ilə hürriyyət pərisinə xitab etdiyi "Nədən yarandın?" parçası son dərəcə lirikdir. Onun bu lirizmi ilə biz də aşina olalım:

Sən qüdrətin aşıb, coşan vaxtında,
Mələklərin gülüşündən yarandın!
Sehir dilli bir fırçanın əliylə,
Ahuların duruşundan yarandın!..

**Əziz dinləyicilərim!** Azərbaycanın həmlələr və həyəcanlar tərənnüm edən coşqun rübabına ən ağır bir zərbə endirildi. Hürriyyətin feyzli havasına doymadan, Milli İstiqlalın verdiyi bütün nemətlərdən hənuz (hələlik, hələ) faydalanmadan, Azərbaycan ədəbiyyatı yenidən tarixin özünə ayırdığı faciə və həzin qismətinə qatlanmaq zərurətinə düşdü".

***M.Ə.Rəsulzadə. Çağdaş Azərbaycan ədəbiyyatı. Ankara, 1950-ci il.***

**Türkiyə, Ankara, 1952-ci il.**



28 Mayıs Azerbaycan'ın İstiklâl günü

Azerbaycan Cumhuriyetinin İstiklâli ilanından geçen 34 üncü yıl dönümü, 28 Mayıs Millî Azerbaycan Bayramı münasebetile, Azerbaycan Kültür Derneğinin tertiplediği seri konferanslardan beşincisi Ankara Halkevinde sayın Mehmet Emin Resulzade tarafından verilmiştir.

Dernek Başkanı Dr. Hamid Ataman yaptığı kısa bir konuşma il Azerbaycan kültürünün, 28 Mayıs İstiklâl günü ile olan manevi müna sebetine işaret ederek, hazır bulunanları Azerbaycan İstiklâli uğrund şehit düşenlerin hatırasına hürmeten bir dakika saygı duruşuna dâv etmiştir. Sonra sözü, Azerbaycan Cumhuriyetinin İstiklâlini ilân ede Millî Şûra Başkanı, Sayın M. E. Resulzade'ye vermiştir.

Kalabalık ve seçkin dinleyici kitlesinin sürekli alkışları arasınc kürsüye gelen Emin bey, bundan 32 yıl evvel Mustakil Azerbayc

**Azərbaycan Cümhuriyyətinin istiqlalı elanından keçən 34-cü ildönümü** münasibəti ilə "Azərbaycan Kültür Dərnəyi"nin tərtib etdiyi konfranslardan sayca beşincisi **Ankarada Xalq Evində M.Ə.Rəsulzadə tərəfindən həyata keçirilir.** Dərnək başqanı Həmid Atamanın rəsmi açılış nitqindən sonra söz Azərbaycan Cümhuriyyətinin istiqlalını elan edən, Milli Şura Başqanı hörmətli M.Ə.Rəsulzadəyə verilir. Sürəkli alqışlar altında kürsüyə çıxan M.Ə.Rəsulzadə 32 il əvvəl Müstəqil Azərbaycan Cümhuriyyəti dövründə yazılıb basılmış və basılarkən, bolşevik istilası üzərinə nəşr edilməyən, lakin nəşrdən çıxmış formalarının millətçi dostlar tərəfindən qaçırılaraq əldə edilən yeganə "İstiqlal" dərgisindəki "Azərbaycan Cümhuriyyəti" məqaləsini oxuyur. Sonda o, bu sözləri

deyir: “Müasir bir azərbaycanlı üçün Azərbaycan Cümhuriyyətinin İstiqlalı onun hürriyyəti bir takım (dəstə) maddiyatla ölçülən şeylərdən deyildir. Bayrağındakı rənglərin mədlulu vəchilə (rəngindən göründüyü anlaşılan) bu yeni təşəkkül edən Türk Cümhuriyyəti Aləmi-İslamda təşəkkül edən ilk cümhuriyyətdir ki, milliyyət, beynəlmilliyyət və müasirlik əsası üzərinə müstənid (istinad edən, əsaslı, sübutlu) yeni bir tərzi-idarə qurmaq cəhdi-alisindədir (yüksək cəhdindədir), bu cəhdindən bir nəbzə olsun nişan vermək üzrə Azərbaycan millətinin milliyyəsindən bir nümunə olaraq bir məcmuə vasitəsi ilə təşhir (açıqlama) edirik. Burada millətimizin istedad fitrisini göstərərək nümunələr adətən bir əsr əvvəl Bakı ərazisindəki akar (axan neft-qızıl) altının miqdar və əhəmiyyətini qətiyyən bu günkü şümül bir dərəcədə göstərməyən əlamətlərə bənzər. O zaman Qaraçıraqda istifadədən başqa bir şeyə yaramayan Bakı nefti daha neçə sənaye və ticarəti ilə çox ziyadə tərəqqi etmiş olan məmləkətlərin müəssir bir maye həyatı ola bildisə, əminəm ki, eyni torpaq üzərində yaşayan xalqın istedadında təbiətin bir sirri olaraq gizli qalan istedad dünyaya “Odunsuz yanar və sudan qorxmaz atəşi-müqəddəs qədər əsli bir mədəniyyət ihda (diriltmək, canlandırmaq) etsin – **Azad türk Mədəniyyəti! Vətəndaşlar**! Bu mədəniyyət adına çalışalım, bir dəfə yüksəlmiş o üç boyalı İstiqlal və Cümhuriyyəti başlarımız üstündə dik tutalım!”

***“Azərbaycan” jurnalı. Ankara, 1952-ci il, il:1, sayı:3.***

**Almaniya, Münhen, 11-16 noyabr, 1952-ci il.**

“Şimali Qafqaz Milli Komitəsi”nin təşəbbüsü ilə 1952-ci ilin 11-16 noyabrında Münhendə “Habis” otelində Ümumi Qafqaz konfransı keçirildi. Konfransın daimi başqanlığına **M.Ə.Rəsulzadə, başqan vəkilliyinə R.Qabaşvili və A.Maqoma, katibliyə Səlim Ağasıbəy, L.Zurabaşvili və B. Baytuqan seçildilər.**



Umumî Kafkasya siyasetinin ana hatları

Millî Azerbaycan Merkezi Başkanı sayın Mehmed Emin Resulzade'nin Kafkasya Konferansında Azerbaycan delegasyonu namına okuduğu rapor:

Aziz mücadele arkadaşları:

Konferansımız milletlerarası münasebatın gerginleşen bir zamanında açılıyor. O, millî-kurtuluş hareketlerimizi yakından ilgilendiren meseleleri inceleyecek bir durumdadır. Bu Konferansın çalışmaları Kafkasya milletlerinin Kurtuluş uğrunda yaptıkları mücadele aksyonlarını telif etmek işi ile görevli umumî bir Kafkasya merkezi yaratmakla neticelenmelidir.

Teşkili tasavvur olunan umumî Kafkasya merkezinin icraya mükellef olacağı vazifeleri doğru olarak tayin edebilmek için, yürüteceğimiz müşterek Kafkasya siyasetinin ana hatlarına bir kaç kelime ile kısaca işaret etmek isteriz.

olduğunu tanıyan hakikat ifadesini bu aktlarda bulmuştur. Verilen umumî halk reyleriyle bu hak, 1918 de, Kafkasya'da tahakkuk etti. O, yalnız dışarıdan gelen bir kuvvetin — Rus-Bolşevik işgalinin süngüleriyle çiğnendi. 32 yıldır, bütün Kafkasya milletleri, her türlü vasıtalarla, bu tecavüze karşı durmadan mücadele ediyorlar.

Dünya umumî efkârının Sovyetler Birliğindeki milliyet meselesini yakından anlamağa başladığı şu sırada, biz, dâvâmızın apaydın veçhesini gölgelendirmemeliyiz. "Rusya Milletlerini Kurtarma Şurası" nı perdelemek üzere, vücude gelen "Bolşevik Aleyhtarı Mücadele Koordinasyon Merkezi"ne mensup bazı sözde demokratların hicap duydukları "önceden karar vermek"ten bizler kat-

...Demokratiyanın bu yüksək əsaslarını həyata keçirmək üçün qurulan milli hökumət iki il yaşadı. Tariximizin ən şanlı dövrünü təşkil edən bu qısa müddətdə, hərbdən və hərc-mərcdən çıxan yurdumuzda əmniyyət və asayiş bərpa edildi. Lazım olan zabit və ədalət müəssəsələri qurtuldu. Sosial reformlara girişildi. Milli maarifə əhəmiyyət verildi. Mədəniyyət dünyası ilə təmasa gəlindi. Qonşularla yaxşı münasibətlər təsis olundu. Nəticədə Böyük Avropa dövlətləri və Birləşik Amerika tərəfindən Cümhuriyyətimizin istiqlalı tanındı; Lenin və Stalinin imzaları ilə müsəlman millətlərinə sözdə hürriyyət və istiqlal vəd edən bolşeviklər işdə türk və müsəlman dünyasında qurulan ilk cümhuriyyəti Qızıl Ordunun üstün qüvvətləri ilə zorladılar. Xalqımız təcavüzə qarşı var qüvvəti ilə savaşdı; fəqət, heyhat məğlub oldu. Nəticədə milli ordunu dağıtdılar, milli ziyalıları kəsdilər, milli sərvəti yağma edərək Moskvaya götürdülər. Bir sözlə məmləkəti sovetləşdirdilər.

Tarixin ən qəddar bir istibdadını quran bolşeviklər sovet rejiminə utanmadan demokratiya deyirlər. Sovetlərlə həqiqi demokratiya arasında yerdən göyə qədər fərq vardır, vətəndaşlar!

***Əziz Azərbaycanlılar!*** Bütün dünyadan əlaqəniz kəsilmiş və təklənmişsiniz. Ətrafınızda sizi xarici aləmdən ayıran dəmir bir pərdə vardır. Başınız min bir bəla və fəlakətlər içindədir. Bu bəlalı və fəlakətli yaşayışı bolşevik propaqandaçıları (təbliğatçıları) sizə ideal bir həyat kimi qələmə verirlər. Sovetlər xaricində qalan dünyadakı həyatı fəlakətdən və səfalətdən ibarət bir həyat kimi təsvir edirlər. İnanmayınız qardaşlar! Dünyada asudə yaşayan, qorxu bilməyən azad insanlar, azad millətlər və müstəqil dövlətlər vardır. Bu millətlərin yaşadıqları məmləkətlərdə insanın nə fikrinə, nə vicdanına, nə də imanına təsəllüd( cox incitmək) edən yoxdur. Azad insanların birliyindən ibarət olan müstəqil millətlər öz-özlərini idarə edirlər.

...Azadlıq və milli istiqlal prinsiplərini bundan 175 il əvvəl Amerika, 33 il əvvəl də Azərbaycan bəyannaməsi elan etmişdilər. Bütün dünyanın səadəti kimi Azərbaycanın xilası da bu əsasların tamamilə gerçəkləşməsinə bağlıdır. Təkrar edirəm – ***İnsanlara azadlıq, Millətlərə istiqlal!”***

***M.Ə.Rəsulzadə. “Qafqasya” jurnalı. Münhen, N1, avqust 1951-ci il.***

**Qeyd:** Müraciət ixtisarla verilir. M.Ə.Rəsulzadənin Azərbaycan xalqına digər müraciətləri isə 1952-ci və 1953-cü illərə aiddir. O, Azərbaycan İstiqlalının 35 illiyi münasibəti ilə xalqa müraciət edib. Bu müraciətin tam mətni kitabın əvvəlində verilib.



Nr. 11–12 KAFKASYA 43

## Azerbaycan halkına hitap

**28 Mayıs 1918 de Azerbaycan'ın istiklâlini ilân eden Milli Şura Başkanı Sayın Mehmed Emin Resulzade'nin istiklâl yıldönümü münasebetiyle „Amerikanın Sesi" radyosu ile Azerbaycan halkına müracaatını, şivesini muhafaza ederek, ayniyle aşağıya dercediyoruz:**

Eziz Vetendaşlar!

Bugün size Azerbaycan tarixinin en böyük günü münasibetile hitap edirem. Bundan 34 il evvel 28 Mayis 1918 de Azerbaycan Şurayı Millisi Azerbaycan Cumhuriyetini kurdu ve istiklâlini bütün dünyaye bildirdi. Bu böyük hadise ile biz yüz il süren çar esirliginden kurtulduk. Azerbaycan milleti bu günden itibaren dünya döletleri arasında müstakil bir mevki tutmağa ezmetti.

Bu ezmi ona uyanan tarix telkin edirdi. Mensup olduğu Türk ve Müslüman medeniyetinden böyük ölçüde faidelenen Azerbaycan bu medeniyete öz terefinden dexi çok böyük degerler elave etmiştir. İran edebiyatine Nizamiler, Türk edebiyatine Nesimiler ve Fuzuliler veren Azerbaycan oyanan çağdaş Şerge de Mirze Feteli Ahundzadeler kimi dâhiler bağışlamıştır. Memleketin her terefini bezeyen mimari abideler medeni böyük geçmişimizin delilleridir.

Tarixde böyük istilalere karşi metanetle duran Azerbaycan, Şirvanşahlar, Atabekler ve Hanlıklar döründe siyasi istiklâline malik olmuş ve bu yolda gehrimanlıklar göstermişdir.

Azerbaycanın 19 inci asır başlarında Rusya çarlığına karşi ettiği mücadile ise heycanlı sehnelere maliktir. Cevad Xanın Rus istilacilerine karşi „ölmek var, dönmek yoxtur" diye şehid olması istiklalci Azerbaycan merdliginin bir

Tarixinin her döründe ileri fikirleri menimsiyen Azerbaycan xelgi esrimizin hakim ideologyasına uyarak kurduğu müstakil dölete cumhuriyet şeklini verdi.

Türk ve Müslüman dünyasının birinci cumhuriyeti, Şurayi milli terefinden neşrolunan istiklal beyannamesindeki ana prensipler üzerine kuruldu. Bu prensiplere göre:

1 — Azerbaycan xelgi hakimiyet hakkına malik, Azerbaycan de tam hukuklu bir döletdir.

2 — Müstakil Azerbaycan döletinin idare şekli xelk cumhuriyetidir.

3 — Azerbaycan xelk cumhariyeti bütün milletler ve bilhasse civardeki komşı millet ve döletlerle eyi münasibetler kurmaga ezmeder.

4 — Azerbaycan xelk cumhuriyeti millet, mezhep, sınıf, meslek ve cins fergi gözlemeden hududları içinde yaşiyan bütün vetendaşlara seyasi ve medeni haklar temin eder.

İnsanlık tarixinin ileri fikirlerini teşkil eden bu esasları yeritmek üzre faaliyete geçen milli Azerbaycan hökümeti iki il yaşadı. Bu kısa müddetde o, memlekette askeri, idari, iktisadi, içtimai ve medeni müessiseler vücude getirdi. Yüz ilden beri eskerlikten mehrum edilen Azerbaycanda bir ordu yarattı. Çarlık zamanında idareye yaxın bıraxılmayan Azerbaycanlılardan zabite guvvetleri vücude getirdi. Sosyal sahede esaslı islahate girişti. Xelgi öz dilinde oxutmağa başlıyarak türkçe mektepler açtı. Türk-

*Azərbaycan xalqına müraciət, 1952-ci il*

# “AZƏRBAYCAN DEMOKRAT BİRLİYİ”NİN AZƏRBAYCAN LEGİONERLƏRİNƏ MÜRACİƏTİ

**İkinci Dünya müharibəsinin sonunda M.Ə.Rəsulzadənin başçılığı altında keçmiş legionerlərin fəallığı ilə Münhendə “Azərbaycan Demokrat Birliyi”** adlı cəmiyyət yaradıldı. Cəmiyyət tezliklə ciddi fəaliyyətə başladı. Cəmiyyətin azərbaycanlı əsirlərə müraciəti hazırlandı və bu sənəd onlara çatdırıldı.



Serke dogru!

Azerbayçan-demokrat birligi

Almanya ............ 194 il

**Vesike**

Verilir ............ tevvellüdi ............

Ona göreki Hakikatan Azerbayçan-Türk Birliyi Ugrunda kendi kanindan kecerek Kommunizmin eleyhine var küvvesini serf eden bir Türkçü ve veten yolunda carpisan siyasi bir mübariz kimi çemiyyet terefinden Taninir.

Çemiyyetin Reisi:

Dikkat!

Türkçülük vahid meksedimizdir, sayakligini unutma dusman seninledir.

**Azərbaycan Demokrat Birliyinin azərbaycanlı əsirlərə müraciəti:** “Əziz mücahidlər! Altı ildir davam edən İkinci Cahan hərbi artıq sona yetdi: hərb almanların məğlubiyyəti, qərb müttəfiqlərinin zəfəri ilə nəticələndi. Bizim mücadiləmiz isə davam edəcək, çünki müqəddəs vətənimizi işğal altında tutan sovet kommunist rejimi müttəfiqlərin yanında yer almaq imkanına sahib oldu. **Yurddaşlar!** Müqəddəs vətənimizin bolşeviklər tərəfindən istilasından 21 il sonra ələ keçən bir fürsəti işin başlanğıcında bolşeviklərdən zühur edən xətalara rəğmən yaxşı qarşıladınız. Əldə silah əbədi düşmənə qarşı mücadilə etdiniz. Döyüşlərdə Vətən övladlarından şəhidlərimiz oldu, yerləri behişt olsun, hamısını hörmətlə yad edirik. Hərb qəhrəmanı gənclər! Siz tələsməyin, araqızışdıranların təbliğatlarına inanıb geri dönmək kimi tələsikliyi qəbul etməyin.

Vətəndaşlar, məlumunuz olsun ki, sizlər “Ostministrliklərdə” (Şərq Nazirliyi) işlədiniz, legionlar qurdunuz, cəbhələrdə silahlı cəng yapdınız, milli təşkilat yaratdınız, qəzet və jurnal buraxdınız, xalqımız üçün şərəfli xidmətlər göstərdiniz, qəhrəmanlıqlar etdiniz. Dəvətə inanmayın, çünki hamınız onlara görə vətən xaini və hərb günahkarı sayılacaqsınız. Bunun da cəzasını hamınız bilin. Vətən həsrətinə köks gərin. Olduğunuz ölkələrdən ayrılmayın, milli təşkilatlarımız ətrafında birləşin, bundan aldığınız güclə də mücadilənizi davam etdirin. Əski nəsil bu davanı 26 ildir belə yürüdür. Ana Vətən Türkiyə də sizin arxanızdadır. Hər zamankı kimi sayıq olun. Özünüzə müvəqqəti yaşayacağınız bir ölkə seçin. Biz sizin Türkiyəyə hicrət etmənizə kömək edərik, fəqət Amerikaya da gedə bilərsiniz, orası da elə lap yaxşı ictimai sistemi olan məmləkətdir.

Yurddaşlar, yurdumuza dönənə qədər yaşayacağınız ölkələrdə sizə bəxtiyar olmanızı dilər. Bu vəsiqə ilə qısa adı "ADB" olan Azərbaycan Demokrat Birliyi ətrafında birləşməyə çağırırıq.

**Azərbaycan Demokrat Birliyi,**
**Münhen, 1946-cı il"**
***N. Yaqublu. "Azərbaycan legionerləri". Bakı, 2005, s. 214.***

***Qeyd: Bu müraciəti M.Ə.Rəsulzadə birbaşa söyləmiş və legioner Məhəmməd Kəngərli isə öz xətti ilə yazmışdır.***

## M.Ə.Rəsulzadənin Bakı ilə bağlı 1918-ci ilin sentyabr ayının 12-də İstanbulda Almaniya hökuməti təmsilçiliyinə təqdim etdiyi bəyanat:



Tarihî günler ve vesikalar :

Brest - Litovsk Muahedesi Zeyli'ni Protesto

28 Ağustos 1918 de, Sovyet Hükûmeti ile Almanya Hükûmeti arasında «Brest - Litovsk Anlaşmasına Zeyl» adı altında Berlin'de bir vesika imzalanmıştı. Bu vesikanın tazammun ettiği hükme göre, istifade edeceği petrole mukabil Almanya Hükûmeti Bakü mıntıkasının Azerbaycan'dan ayrılarak, Sovyet Rusya hâkimiyetinde kalmasına muvafakat etmişti.

Bu hâdise Azerbaycan halkının derin teessür ve galeyanını mucip olmuştu. Bu galeyan, o zaman İstanbul'da bulunan Azerbaycan Hey'et-i Murahhasası Reisi Sayın Mehmet Emin Resulzade tarafından, Azerbaycan Hükûmeti namına, Almanya ile müttefikleri ve tarafsız devletlere verilen bir notada resmî ifadesini bulmuştu. Tarihî bir vesika teşkil eden ve 12 Eylül 1918 tarihini taşıyan bu notanın metnini aynen aşağıya nakledivoruz:

Ahiren, Almanya ile Rusya beyninde mün'akit muahedenemenin «Bakû»ye ait mevaddından pek ziyade düçarı buht ve hayret olan Hükûmetimden ah[...] talimâta tevfikan,

[...]mekle pek müteessir ve müteellim olmuştur.

Ezmenei kadimedenberi Azerbaycan Türklerinin pek mühim bir merkezini teşkil eyleyen Bakü Hanlığı, ancak 1813 sene[...]

M.Ə.Rəsulzadənin hazırlayıb Almaniya hökumətinə təqdim etdiyi 12 sentyabr tarixli bəyanatda yazılmışdı: "Axirən Almaniya ilə Rusiya arasında bağlanmış müqavilənin Bakıya aid maddələrindən son dərəcə təəccüb və heyrətə düçar olan hökumətimdən aldığım təlimata əsasən aşağıdakı maddələri ali nəzərlərinizə çatdırmağa tələsirəm: - Azərbaycan

əhalisi rus inqilabında elan edilən və Brest-Litovskda rus hökuməti tərəfindən təkid edilən "hər millətin öz müqəddəratını özünün təyin etməsi hüququndan" istifadə etməklə Dördlər İttifaqı dövlətlərinin dostluq duyğularına istinad edərək əsrlərdən bəri altında əyildiyi rus boyunduruğunu üstündən ataraq istiqlalını elan etsə də, adı çəkilən müqaviləyə əlavə olaraq bağlanmış müqavilələrlə... Bakı şəhərinin rus hakimiyyəti altında qalmasına yardım etdiyini xəbər verməklə çox mütəəssir və kədərlidir..."

***1918-ci il 12 sentyabrda təqdim edilmiş bəyanat.***
***N. Yaqublu. Müsavat Partiyasının Tarixi. B., 1997, s. 81-82.***

# AZƏRBAYCANIN TANINMIŞ YAZIÇI VƏ ŞAİRLƏRİ HAQQINDA FİKİRLƏRİ

## Şirvanlı Xaqani
*(1126-1199)*



"Bir münasibətdə böyük Azərbaycan şairi Gəncəli Nizamidən bəhs etmişdik. XII əsrin məşhur şairlərindən biri də Şirvanlı Xaqanidir. Əsl adı Əlidir. Bir xarratın oğludur...

...Şirvanşahlara o dövrdə Xaqan deyilərdi. Saray şairi olunca, xarratın oğlu Əliyə Xaqanın şairi mənasına gələn Xaqani adı verilmişdir...

Azərbaycan tarixinin, Nizami kimi böyük şairlər yetişdirmiş dövrünün Şirvanlı Xaqani seçkin ustadlardandır. Qəsidədən başqa o, ədəbi dəyərləri yüksək olan digər parçalar da yazmışdır. "Mədain Xərabələri" şeiri, çökən insanlıq kültürü ilə yıxılan mədəniyyət abidələrinə ağlayan, qüvvətcə, dünya ədəbiyyatında bərabəri olmayan bir şah əsərdir". Nizami, Əbül-Üla Fələki və şairə kimi, XII əsr böyük şairlərin yanında, Şirvanlı Xaqani, Azərbaycan yaradıcılığna şərəf verən bir şəxsiyyətdir.

Qərb oxuyucularının yaxşıca anlamaları üçün, Avropalı tənqidçilər, Xaqanini fransızların romantik şairi Viktor Hüqoya bənzədirlər.

Humanist ruhlu, dünya ölçüsündə yaradıcılıq qüdrətinə sahib olan Xaqani yudunun aşiqi, vətənçi bir şairdir.

Şirvan sarayında ulduzu parıldayan və bütün rəqiblərini üstələyən Xaqani, bir intriqa üzündən etibardan düşmüş, həbs edilmişdir. Şairin bu əsnada yazdığı "Həbsiyyə"si ədəbiyyat tarixinin qeyd edildiyi parlaq parçalarındandır".

***M.Ə.Rəsulzadə. "Şirvanlı Xaqani". "Azərbaycan" jurnalı. Ankara, yıl:3, sayı: 9 (33), dekabr 1954-cü il.səh.19-21.***

## Nizami Gəncəvi
### *(1141-1209)*



“Klassik İran ədəbiyyatının Firdovsidən sonra ən böyük ustadı Azərbaycan şairi Nizamidir. “Sirlər Xəzinəsi”, “Xosrov və Şirin”, “Leyli və Məcnun”, “Yeddi Gözəl” və “İsgəndərnamə” adlarını daşıyan beş mənzuməni bir cild içində toplayan “Xəmsə”siylə tanınmış olan Nizaminin dünya ədəbiyyatında müstəsna bir yeri vardır. Şeirə nisbətlə, çox zaman XII yüzilə romantik epopeya dövrü deyilir, çünki bu dövrdə Gəncəli Nizami yaşamışdır. Nizami Firdovsinin yaratdığı Şovalyə (cəngavərlik) romanının dar çərçivəsini aşaraq, lirik eşq əfsanəsi yazmış və beləliklə, hissi romançılığın əsasını qoymuşdur. Bəzi Şərq tənqidçiləri kimi, Qərb tənqidçiləri də üslub və hekayəçilikdə onu Firdovsidən üstün tutarlar.

Nizaminin sənətkarlığı, aşıqca məsnəvi yazmaqdakı yeniliyi təqdir olunmuş və özünə Farsca və Türkcə mübaliğsiz, yüzlərcə bənzətmələr yazılmışdır...

Şairliyindən, fantaziyasından və ədəbiyyatdakı mövqeyindən çox bəhs olunan bu şəxsiyyətin iki tərəfi nisbətən örtülü və ya tamamilə qapalı qalmışdır. Bunlardan biri şairin azərbaycanlı bir Türk olması və Türklük duyğusu daşıması, o biri də yetişdiyi məmləkətin geopolitikasından doğan siyasi məsələlərlə candan bağlı olmasıdır. Mövzuları baxımından xalis bir türk olan bu şair eyni zamanda, Qafqazın siyasi müqəddəratı ilə dərindən bağlı bir yurddaşdır.

Cahan hakimiyyəti Nizamiyə görə heç bir zaman qara niyyət və qaba qüvvətlə təmin oluna bilməz. Millətlərə zorla deyil, mənəvi nüfuzla ancaq təsir edilə bilər. Yetişir ki, onların vicdanlarına xitab edilə bilsin!

Dünyanı siyasətən fəth etdikdən sonra, İsgəndərə göydən bir səs “Ya İsgəndər, indi də peyğəmbər olacaq, dünyanı yenidən başdan dolaşacaq, millətləri Tək Allahlıq dininə gətirəcəksən – demişdir.

Bu ilahi xitab qarşısında sarsılan İsgəndər: - Mənmi peyğəmbər?! Möcüzəm nə olacaq? – deyə soruşmuş və tərəddüd göstərmişdir. O zaman ilahi səs İsgəndərə: - Möcüzən bu, bütün millətlərin dilini tərcü-

məsiz anlayacaqsan; millətlər də sənin Rumcanı, eyni şəkildə vasitəsiz anlayacaqlardır".

Milli vicdanın tərcümanı dil deyilmidir?..

...Elədirsə, şair demək istəyir ki, millətlərarası nizam ancaq milli haqların tanınması ilə kökləşə bilər!

İnsanlığın susadığı tək dünya barışının bundan daha yüksək formulunu kim vermişdir?!"

***M.Ə.Rəsulzadə. "Azərbaycan şairi Nizami və dünyanın bu günkü durumu". "Qafqasya" jurnalı, Münhen 1952-ci il N 13,səh.5-8.***

## Məhəmməd Füzuli
## *(1494-1556)*



"XIX əsrin əvvəllərinə qədər Azərbaycan ədəbiyyatı bütünlüklə Füzulinin təsiri altında olub. Onun əsərləri toplusu bu gün də hər bir ədəbi-təhsilli azərbaycanlının stolüstü kitabına çevrilib. Bir qədər əvvəl Bakıda onun yaradıcılığının 400 illiyi qeyd edildi. Şairin ayrı-ayrı şeirləri məşhur məsəllər kimi xalqın danışığında istifadə edilir...

Əgər diqqət etsək ki, ona qədər bəziləri, ondan sonra Azərbaycanın ən yaxşı şair və böyük klassikləri olan Fələki və Xaqani Şirvanilər, eləcə də Nizami Gəncəvi həqiqi Azərbaycan şairləri olsalar da fars dilində yazırdılar, onda aydın olar ki, sözün milli mənasında Füzuli hansı ədəbi inqilabı etmişdir.

Öz dövrünə görə cəsarəti və bu günkü anlayışa görə dərin mənalı olan Füzulunun milli başlanğıcı öz məqsədinə çatdı. O, tikandan qızılgül düzəltməyi və çətini asan, mümkün olmayanı isə əlçatan etməyi bacardı.

Dahi Füzuli demək olar ki, XIX əsrin sonuna qədər bütün şairləri özünün şeiryazma sənətini tədqiq etməyə məcbur edərək, Azərbaycan ədəbiyyatında hakimlik etmişdir".

***M.Ə.Rəsulzadə. "Çağdaş Azərbaycan ədəbiyyatı", Paris, 1936-cı i,səh.3-4..***

## Mirzə Şəfi Vazeh
***(1794-1852)***



"Mirzə Şəfi özünün liberal və yüksək əxlaqlı baxışları ilə məşhur idi. Nə zaman ki, İran şairi Sədi "Məqsədyönlü yalanı" mənəvi ehkam səviyyəsinə qaldırır, onda gəncəli Mirzə Şəfi hər şəraitdə və hər cürə qeyd-şərtsiz yalanı "Mənəvi ehkam kimi inkar edir" – deyə islam üzrə alman tarixçisi Müller bildirir".

***M.Ə.Rəsulzadə."Çağdaş Azərbaycan Ədəbiyyatı". Paris, 1936-cı i,səh.7***
***(Qafqaz, Türküstan və Ukrayna Xalqları Cəmiyyətində oxunmuş məruzə).***

## Mirzə Fətəli Axundzadə
***(1812-1878)***



"Mirzə Fətəli Şərq istibdadının yumşaldılmasını istəyirdi. Halbuki bolşeviklərin qurduqları diktatorluq rejimi ən geniş fantaziyaları belə kölgədə buraxan bir dəhşət və vəhşət tablosu ərz etməkdədir. Bu tarixdə rastlanmayan bir zülm və mütləqiyyət rejimidir.

Mirzə Fətəli Qərbi Avropa mədəniyyətini idealizə edirdi. Sovetlər isə burjua adını verdikləri bu mədəniyyətə arxalarını çevirmiş, ona amansız bir hərb elan etmişlərdir.

...Kommunizmin ana fikri olaraq tərvic olunan allahsızlıqdan bəhs edilərkən bolşeviklər çox dəfə Mirzə Fətəlinin adını anırlar. Onun ateistliyindən bəhs açırlar. Bu, bir iftiradır. Bu yalana əsla inanmayın. Mirzə

Fətəli yuxarıda söyləmiş olduğumuz kimi, Allah fikrinə, yəni mütləq həqiqət idealına qarşı qətiyyən mübarizə etmirdi. Onun mübarizə etdiyi şey inam və düşüncəyə mane olan sxolastik təfəkkür tərzi idi. Bu növü düşünüş tərzi indi bütün sovetlərdə hakimdir".

***M.Ə.Rəsulzadə. "Mirzə Fətəli Axundzadə", "Azərbaycan" jurnalı, Ankara, il 4, sayı 10-11 (34-35), yanvar-fevral, 1955, səh.15-16***

**Seyid Əzim Şirvani**
***(1835-1888)***



"Şirvani, forma baxımından Füzulini təqlid edən lirik qəzəllər yazsa da, lakin bəzi şeirlərinin məzmununa görə olduqca parlaq yeni maarifçilik ideyaları ifadə etmişdir. O, oğluna vəsiyyətində ona elmi, sənəti öyrətməyi, zəhməti sevməyi, müasirliyə uyğunlaşmağı vəsiyyət edir ki, bu da "Əkinçi"nin redaktorunun ideyalarını əks etdirirdi: "Qonşulardan və dünyanın mədəni xalqlarından geri qalmamaq. Əgər onlar mövcudluq üçün aparılan mübarizədə məğlub olmaq istəmirlərsə, onda öz qonşularından və dünyanın mədəni xalqlarından geri qalmamalıdır".

***M.Ə.Rəsulzadə. "Çağdaş Azərbaycan Ədəbiyyatı". Paris, 1936-cı il,səh.10***

***(Qafqaz, Türküstan və Ukrayna Xalqları Cəmiyyətində oxunmuş məruzə).***

## Nəcəf bəy Vəzirov
***(1854-1926)***



"Vəzirli Nəcəf bəyin simasında Azərbaycan ədəbiyyatı ilə səhnəsi Mirzə Fətəlidən sonra gələn çox mühüm bir nümayəndəsini itirdi. Bütün əsərlərində millət eşqini, xalqa qulluq etmək zövqünü, azadlıq və istiqlal fikirlərini tərənnüm edən bu yazıçı üçün, qısa bir müddətdə olsa da, istiqlal və azadlığa qovuşan vətənini təkrar əsirlik və istila altında buraxıb ölmək qədər bir faciə təsəvvür oluna bilməz.

Vəzirli Nəcəf bəyin ölümü öz qəhrəmanı Fəxrəddinin ölümünə nə qədər bənzər!.."

***"Qafqasya" jurnalı, oktyabr 1952-ci il, N1,səh.7***

## Mirzə Ələkbər Sabir
***(1862-1911)***



"Başqa istedadlı şair və yazıçılar arasında "Hop – Hop" təxəllüsü ilə yuxarıda qeyd etdiyimiz məşhur jurnal olan "Molla Nəsrəddin"lə əməkdaşlıq edən xalq şairi – satiriki Sabirin ulduzu parladı. Onun "Hop – Hopnamə"adlı şerlər məcmuəsi tez bir zamanda hər bir savadlı azərbaycanlının yalnız şəhərlərdə deyil, eyni zamanda bütün kəndlərdə stolüstü kitabına çevrildi. Füzulidən sonra Sabir Azərbaycanın ikinci ümumxalq şairidir.

Sabir özünün sadə formalı, dərin məzmunlu satirik şeirlərində amansızlıqla müasiri olduğu cəmiyyətin çatışmazlıqlarına gülürdü".

***M.Ə.Rəsulzadə. "Çağdaş Azərbaycan ədəbiyyatı". Paris, 1936-cı il,səh.10-11***

**Cəlil Məmmədquluzadə**
***(1869-1932)***



"Heç kim bizim müasir ədəbiyyatın birinci dövrünün ədəbiyyatçılarının etdiyi kimi, yaşadığı əsrin orta əsrlərdən qalma qaydalarını belə güclü və aşkarlıqla tənqid etməmişdi. Bu tənqid təsvir etdiyimiz mərhələnin sonunda satirik "Molla Nəsrəddin" jurnalının və onun istedadlı redaktoru Cəlil Məmmədquluzadənin simasında özünün yüksək zirvəsinə çatır.

Məmmədquluzadənin böyük səs-küyə səbəb olan "Ölülər" pyesi (doğrudur, ikinci dövrə aid olan yazılar) bizim tənqidi ədəbiyyatın ən məşhurudur və müəllif burada özünəməxsus kəskinliklə orta əsr nadanlığının, özündən arxayınlığının, quruluğunun bütün saxta mahiyyətini açıb göstərir, geridə qalmış ruhaniliyin şarlatanlığına və şeyxlərin müxtəlif yalanlarına, xalqın geridə qalmağından öz məqsədləri üçün istifadə etməsinə gülür".

***M.Ə.Rəsulzadə. "Çağdaş Azərbaycan ədəbiyyatı". Paris, 1936-cı il, səh.9***

**Əbdürrəhman bəy Haqverdiyev**
***(1870-1933)***



"Azərbaycan dramının daha da inkişaf etdiyini Əbdürrəhman Haqverdilinin yaradıcılığı sübut edir. Onun ədəbi və təmiz Azərbaycan xalq dilində yazdığı "Dağılan Tifaq" əsəri çox güclü, orijinal və yüksək mənəviyyatlı bir əsərdir. Çoxlu məişət pyeslərindən başqa Əbdürrəhman bəy həm də tarixi pyeslərin müəllifidir ki, onların sırasında "Ağa Məhəmməd Şah

Qacar" xüsusi olaraq fərqlənir. Bu əsərdə Qafqazın (azərbaycanlılar və gürcülər) fars işğalçılarına qarşı qəhrəmanlıq mübarizəsi təsvir edilir. Eyni zamanda onun "Pəri Cadu" kimi mövzusu xalq əfsanələrindən alınmış yüksək bədii və fantastik pyesi vardır".

***M.Ə.Rəsulzadə. "Çağdaş Azərbaycan ədəbiyyatı". Paris, 1936-cı il,səh.8***

## Məhəmməd Hadi Şirvani
***(1879-1920)***



"Sabirlə eyni cərgədə Azərbaycan ədəbiyyatına daxil olan, özünün şeirlər məcmuəsini "Cənnət Pərisi" adlandıran, azadlığın yorulmaz tərənnümçüsü Məhəmməd Hadi Şirvanidir. Mütləq azadlığa açıq bağlılığı, bəşər həyatının bütün mənəvi, sosial və siyasi sahələrində azadlığın əhəmiyyətinə fantastik inamı onun üçün ilham mənbəyi olaraq qalırdı. O, insan təfəkkürünü sıxışdıran dini şərtlərə qarşı çıxır, ağlın sxolastikanın bütün basqılarından mütləq azadlığını tələb edirdi. O, istedadının bütün gücü ilə Şərqdə qadınların istismarına qarşı çıxırdı. Açıq üzlü, çarşabsız müsəlman qadını onun üçün bütün Şərqin azadlıq rəmzi idi...

"Ana və bacılarımız azad deyilsə, hüquqları yoxdursa, onda biz iflic olmuş xalqıq" – o, deyirdi. Məhəmməd Hadinin şeirləri sözün təntənəsi və nadir ədəbi dili ilə fərqlənərək şairin alovlu romantik naturası ilə nəfəs alırdı.Təsadüfən düşdüyü Karpatda gedən hərbi döyüşlərdən göndərdiyi məlumatları əks etdirən şeirləri onun qələmindən çıxan ən yaxşı əsərlərdir. O, bu məlumatlarda müharibənin dəhşətli mənzərəsini verir, fəlsəfi mühakimələr irəli sürürdü".

***M.Ə.Rəsulzadə. "Çağdaş Azərbaycan ədəbiyyatı". Paris, 1936-cı il,səh.11-12***

## Hüseyn Cavid
*(1882-1941)*



“Şeyx Sənan” müəllifi Hüseyn Cavid Azərbaycanın sovetləşdirilməsindən sonra bir çox mənzumələr yazır. Bunlardan mənsur “Topal Teymur” ilə mənzum “Peyğəmbər” sovet rəhbərlərini çox məşğul edir. Şairin bu iki əsəri oxucularda olduqca dərin təsir buraxır. Öncə oynanmasına icazə verilən “Topal Teymur” tamaşaçıları həyəcana gətirir. Dövlət teatrında pyes bir neçə dəfə oynanır. Əhali türklüyün ümumi qəhrəman tipi Teymurləngdən fövqəladə dərəcədə məmnun və coşqun olur. Məsələni sonradan başa düşən bolşeviklər pyesin göstərilməsini qadağan etdilər. “Sovet çörəyini yediyi halda tarixin panturanist tiplərini idealizə etməyə cəsarət edən” şairə qarşı sovet tənqidçiləri atəş püskürürdülər. “Topal Teymur” müəllifinə hiddətlənmiş hökumətin şiddətli cəzalarına qatlanmaq lazım gəlir. Onu sıxışdırırlar, qəzet sütunlarında tənqid edirlər”.

***M.Ə.Rəsulzadə. “Çağdaş Azərbaycan ədəbiyyatı” mövzusunda Ankara Xalq evində oxuduğu mühazirədən. 1949-cu il.***

***M.Ə.Rəsulzadə. “Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı.***

***Çağdaş Azərbaycan tarixi”. B., 1991,səh.62***

## Əhməd Cavad
*(1892-1937)*



“...Milli cərəyanın digər nümayəndəsi Cavad Axundzadənin işi bolşevik dövründə qətiyyən gətirmir. Əski bir “müsavatçı” olduğuna görə onu həbs edirlər. Mətbuat səhifələrində, ədəbiyyat qurultaylarında hər yerdən uzaqlaşdırılır və qovulur. Əsərlərini nəşr etmirlər və nəşr olunanları isə toplayırlar. Bütün bunlara baxmayaraq, onun yazdığı parçalar əldən-ələ gəzərək gənc kommunistlərin

arasında belə yayılır. Gənc bolşevik şairlər öz yazdıqları şeirlərini Cavadın tənqid və təqdirinə ərz edəcək dərəcədə onun təsirinə düşürlər. Siyasi olmayan parçaları bəzən fürsət olduqda mətbuat səhifələrində özünə yer tapır. Bunların çoxu rəmzidir. Bu rəmzlər çekist ruhlu tənqidçilər tərəfindən deşifrə olunub, şairə hücum üçün bir vasitə olur...”

***M.Ə.Rəsulzadə.“Çağdaş Azərbaycan ədəbiyyatı” mövzusunda Ankara Xalq evində oxuduğu mühazirədən. 1949-cu il.***

***M.Ə.Rəsulzadə.“Əsrimizin Şəyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı.***

***Çağdaş Azərbaycan tarixi”. B., 1991,səh.68.***

## Gültəkin (Əmin Abid)
***(1898-1927)***



“... Məlum olur ki, söhbət siyasi publisistikadan yox, yazıçı – şairlərin bədii yaradıcılığından gedir. Və burada ən görkəmli yerə “Gültəkin” imzası ilə odlu şerlər yazan müəllifi aid etmək mümkündür. Bu şerlərdə biz əsil milli – inqilabi poeziyanı tapırıq. Milli problemin doğruluğuna inam və buna görə də bu iş uğrundakı mübarizənin gücünə bağlılıq Gültəkini yüksəklərə qaldırır. Onun bütün şeirlərinin təhlili çox zamanımızı aparardı. Odur ki, bəzi nümunələrlə kifayətlənək və ümid edək ki, siz bununla müəyyən təəssüratlara sahib ola bilərsiniz..

Nə qədər gənc qüvvələr belə əhval-ruhiyyə və inamla şairin “Buzlu cəhənnəm” adlandırdığı müxtəlif sovet düşərgələrində və sürgün yerlərində həlak olur.

Gültəkin sürgünə göndərilmiş azərbaycanlı qardaşlarına həsr etdiyi ən yaxşı şerlərini məhz “Buzlu cəhənnəm” adlandırmışdır”.

***M.Ə.Rəsulzadə. “Çağdaş Azərbaycan ədəbiyyatı”. Paris, 1936-cı il,səh.26***

**Cəfər Cabbarlı**
***(1899-1934)***



"O, gənc yaşlarında, qüvvət və enerji ilə dolu ikən, 1934-cü ilin sonunda vəfat etdi. Onu dövlət hesabına dəfn etdilər. Azərbaycan komissarları onun tabutu başında növbəyə durdular və bununla onun kommunist deyilkən, kommunistliyi mənimsədiyini göstərmək istədilər. Kommunist olmadığını göstərən hadisələrdən biri də onun Moskvada toplanan ədiblər qurultayında söylədiyi məşhur nitqdir. Bu nitqində o, "həqiqi sənətkar və yazıçının şanına yaraşmayan sosial sifariş" üsulunun, yəni şairləri hökumət tərəfindən müəyyən mövzularda yazmağa məcbur edilmənin əleyhinə çıxmışdır".

***"Çağdaş Azərbaycan ədəbiyyatı" mövzusunda Ankara Xalq evində oxuduğu mühazirədən. 1949-cu il.***

***M.Ə.Rəsulzadə. "Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı.***

***Çağdaş Azərbaycan tarixi". B., 1999, səh.72.***

**Seyid Məhəmməd Hüseyn Şəhriyar**
***(1905-1988)***



"Ədəbi bir hadisənin bəlgəsini təşkil edən gözəl bir şeir kitabı masamızın üstündədir. "Heydər babaya salam" başlığını daşıyan bu mənzumə Təbriz poçtasının bizə bir sürprizidir.

Şeir və sənətdən anlayan zövq sahibi bir ədəbiyyatçının, nəfis və orijinal bir sənət əsəri olan bu mənzuməni ədəbi bir hadisə deyə təqdirdə bizimlə bərabər olacağına qaneyiz.

Məzmun baxımından gerçək bir şeir olan bu əsər, şəkil baxımından da incə bir zövqün məhsuludur. Bir nəqqaş, bir həkkak, bir də həttaf tərəfindən etina ilə hazırlanan, yerli bir mətbəənin özəl diqqəti ilə, gözəl bir tərzdə, yaxşı kağız üzərində rəsmli olaraq basdırılan bu 80 səhifəlik kitab naşirlərinin təbiriylə, təbrizli sənətkarların sevən əlləriylə bağlanmış "güldəstə" bir dəməddir.

Mənzumə mənşə etibarı ilə azərbaycanlı bir şair tərəfindən "məhəlli Azərbaycan ləhcəsiylə" yazılmışdır. Şəhriyar taxma adını daşıyan şairin əsl adı Seyid Məhəmməd Hüseyndir. Təbriz bölgəsində Heydər Baba dağının ətəyində axan bir çayın kənarında məşhur Qaraçimən ovası ilə Hüsgünab kəndi arasında, dağa nazir Qara-Qurşaq kəndində doğulan M.H.Şəhriyar çağdaş İran şeirinin ən sevimli və tanınmış bir simasıdır. Ədəbiyyatçılardan bir qismi özünü zamanın Sədisi, Hafizi və Nizamisi sayarlar. "Çölhayi Rengarəng" (Çeşidli Güllər) adlı bu ədəbiyyat dərgisində "böyük sənətkar" sifətiylə anılan Şəhriyar yalnız İranın deyil, bütün Şərqin də mədari iftixari bir şair" – deyə öyülməkdədir.

Bu günə qədər əsərlərini yalnız farsca yazan Şəhriyarın "Heydər baba"sı Azərbaycanca yazdığı ilk şeir təcrübəsidir".

***M.Ə.Rəsulzadə. "Ədəbi bir hadisə",. "Azərbaycan" jurnalı, 1955, sayı 4-5 (40-41) il – ,səh.2-3.***

## Almas İldırım
***(1907-1952)***



"Nəhayət, artıq sitat gətirdiyimiz, Azərbaycanın yeni şairi, bir müddət əvvəl bolşevik rejimindən qaçmış Almas İldırım Azərbaycanı Qafqazdan ayrı düşünmür. O "nadir bir qiymətli cənnəti İrandan, Hindistandan, Əfqanıstandan, Çindən yox, məhz Qafqazdan" tapmışdır. Və bu "Şamilin Qafqazıdır!" Kaş ki, o da onun kimi mübarizə apara biləydi! Göylərə ucalan və azadlıqla nəfəs alıb mübarizəyə səsləyən bu dağları olan Qafqazı o, heç nəyə, heç bir kommunistlərin dünya inqilabına, mələklərin cənnətinə dəyişməz!" Onun bu mövzuda

olan şerlərini artıq sitat gətirmişəm. Düşünürəm ki, onların təkrarından biz ancaq qazanırıq:

“Mənə deyirlər: unut Vətəni, əvəzində yeni
Dünya alarsan!
Cavab verirəm: mənim sevgimi, mənim hüququmu,
mənim Vətənimi verin!”

***M.Ə.Rəsulzadə. “ Çağdaş Azərbaycan ədəbiyyatı”. Paris, 1936-cı i,səh.28-29***

***Qeyd:*** *A.İldırımın bu şeiri sətri tərcümədə verilib.*


Şirvanlı Hâkânî (*)
Yazan: M. E. RESULZADE


KAFKASYA
Azerbaycan şairi Nizami
ve
dünyanın bugünkü durumu
Yazan: M. E. Resulzade


Mirza Fethali Ahuntzade (*)
M. E. RESULZADE

***M.Ə.Rəsulzadənin tanınmış şair və yazıçılarımız haqqında məqalələri***

# TEATR TAMAŞALARI HAQQINDA YAZILARI

**1. "Yezid ibn Müaviyə" pyesinin tamaşası.**

"Keçən cümə gecəsi teatr maraqlıları bir çox goftu-gulara səbəb olan "Yezid ibn Müaviyə" pyesini səhneyi-tamaşada seyr etdilər. Bəli, "Yezid ibn Müaviyə" tamaşa edildi. Onu əvvəlcə olaraq senzor etməyənlər də şayiata (şayiələrə baxmayaraq) rəğmən onda heç bir müqəddəsatə toxunan bir şey olmadığını gördülər. Bəlkə biləks, hər kəsin qəlbində cayi-lənət(lənət yeri) və nifrət ittixaz edən Yezidin necə bir pəlid (murdar) olduğunu rəyüleyn (öz gözü ilə görmə) seyr etməklə şadkam dəxi oldular ki, bunun mükafatını da Yezidi zəhərləyən Səlma rolunu ifa edən Olenskaya xanıma bəxş edərək onu alqışladıqca alqışladılar.

"Yezid ibn Müaviyə" pyesi müərrixi- şəhir Misirli Cürci Zeydanın "Ğadətü-Kərbəla" romanının tərcüməsi olan "Kərbəla yanğısı"ndan iqtibas edilib. Romanın ərəbcədən tərcüməsi Bakı qazisi Hacı Mirməhəmmədkərim Ağaya məxsusdur".

***"İqbal"qəzeti, 23 dekabr, 1913-cü il N536.***

**2. "Əhdə vəfa" pyesi.**

"Bu, Qafqasiya türk səhnələrində böyük bir rəğbət görmüş olan "Kavaye-ahəngdar" faciəsi müqtədir mühərririnin digər bir dəyərli əseridir. Səməd Mənsur cənabları səhnəmizi böylə bir qiymətdar əsrə sahib olmağa vasitə olduğu üçün şayani-təbrikdir. Dramanın bəzi kvartetmalend opera və opermetika dedikləri əsərlərə məğlub kimi görünən böylə bir zamanında "Əhdə vəfa" kimi əsərlərin oynanması təkrar dramanı diriltməyə bir vəsilə olar ümidindəyəm".

***"İqbal"qəzeti, 26 yanvar 1914-cü il, N1914.***

**3. "Əsli və Kərəm" operası.**

"Milli aşıqlarımızın avamımız üzərində böyük təsirlər icra edərək söylədikləri "Əsli və Kərəm" hekayəsindən iqtibas olunan "Əsli və Kərəm" operasına mən keçən cümə gecəsi birinci dəfə tamaşa ediyordum. Üzeyir bəy arkadaşımızın musiqarlıqdakı birinci əsəri və gərək islam və gərək türk aləmində birinci olan "Leyli və Məcnun" operasına tamaşa eləmiş, sonra Bakıdan ayrılmışdım. "Leyli və Məcnun"dan sonra yazılan

musiqi əsərlərinin heç birini görməmişdim. Beş il keçmişdir. Tainki keçən dəfə "Fərhad və Şirin"i görmüş, beş ildəki tədənüyə(geriləməyə) ürəyim ağrımışdı. Fəqət "Əsli və Kərəm" operasının tamaşası bu ağrını sağaltdı...

...Müsəlman operasının aktyorları həqiqətən gözəl oynayırlar və kim nə deyirsə desin, Üzeyir bəy Hacıbəyovun təlif etdiyi əsərdə bir zövqi-ədəbi və musiqi vardır. Xıncaxınc dolmuş olan teatrda oyunun və musiqinin məharətilə ifası nəticəsi olaraq müsəlman tamaşaçılarına xas olan bir səs və bir səda da yox idi. Hər kəs valeh olmuş, hər kəs Kərəmin o lahuti eşqinə mütənasib ahəngi nəqəmatə canidildən bənd olmuşdu".

***"İqbal"qəzeti, 3 fevral 1914-cü il, N568.***

**4. "Evlikən subay" operettası.**

"Keçən çaharşənbə gecəsi Zülfüqarbəy Hacıbəyov cənablarının Hacı Zeynalabdin Tağıyevin teatrosunda oynanan "Evlikən subay" operettası olduqca gülünc çıxdı. Tamaşaçılar gülməkdən şuluq salmağa belə fürsət tapıyorlardı.

"Evlikən subay" həqiqətən də gülünc bir mövzudan bəhs ediyor. Müəllif bu əsəri ilə istəmiş ki, çoxarvadlılığın nə qədər rüsvay bir şey olduğunu həcv etsin. Onun nə qədər gülünc olduğunu tamaşaçılara göstərsin".

***"İqbal"qəzeti, 9 fevral 1914-cü il, N573.***

**5. "Arşın mal alan" operası.**

"Cümə gecəsi Üzeyir Hacıbəyovun "Arşın mal alan"ına baxdıq, bu da olduqca gülməli idi. "Arşın mal alan"ın mövzusu arvad məsələsinin bizdəki şəkli-hazirinə bağlı "görmədən evlənməyi" istehza üçün intixab olunmuşdur. Cavan bir tacir evlənmək istəyir. Yoldaşı Süleyman bəyin məsləhəti üzərinə özünə qız bəyənmək üçün qoltuğuna arşın mal alıb qapı-qapı gəziyor. Nəhayət Sultan bəyin qızını görüyor, bəyənir. Sonra operettalara məxsus bir taqım(qisim) sərgüzəştlər keçirdikdən sonra qızı alıyor.

Bizcə mövzu olduqca ciddidir".

***"İqbal"qəzeti, 9 fevral 1914-cü il, N573.***

**6. “Şah Abbas və Xurşidbanu” operası.**

“Keçən cümə gecəsi Üzeyir Hacıbəyov cənablarının mühüm əsərlərindən “Şah Abbas və Xurşidbanu” operası tamaşa olundu...

“Şah Abbas və Xurşidbanu” operasının məzmunu hər böyük və iqtidarlı hökmdar kimi mütəşəkkir millətin təsnif etdiyi bir çox hekayə və mənqəbələr halədar olan Şah Abbasın qəraib halından iqtibas olunmuşdur. Bu opera bir neçə dəfə oynanıldığı üçün məzmunu xəlqimizə bəllidir, binaən əleyh təfsilinə lüzum görmüyoruz. Hekayə səhnə nöqteyi-nəzərindən mükəmməldir. Pərdələr calibi-nəzər bir halda tərtib olunmuşdur. Operalara xas lövhələrdən də ari deyildir.

Musiqisi “Leyli və Məcnun” ilə “Əsli və Kərəm”dəki qədər milli deyil, bir çox parçalar Avropa muğamatından iqtibas olunmuşdur. Maloroslardan alınmış bəzi parçalar çox da gözəl iqtibas olunmuşdur.

Yalnız Üzeyir bəyin nəsrləri qafiyəsiz və vəznsiz misraları tar və saz gücilə şeir yapmaq “məharəti” burada artıq sonu dərəcəsinə çıxmışdır”.

***“İqbal”qəzeti, 3 mart 1914-cü il, N592.***

**7. “Siyavuş” faciəsi.**

“Səşənbə gecəsi “İttihad” mədrəsəsi müəllimləri ilə mütəllimlərindən mütəşəkkil teatro dəstəsi tərəfindən Hacı Zeynalabdin Tağıyevin teatrosunda müəllifi elanlarda və proqramlarda göstərilməyən tarixi “Siyavuş” faciəsi mövqeyi-tamaşaya qoyuldu.

Xilafi-mötad olaraq (qaydaya əks olaraq) əsərin sahibi nə üçün göstərilməmişdir? – deyə bittəb xatirə bir sual gəlir. Mən bu sualı “ittihad” mədrəsəsinə yaxın olanlardan birisinə verdim. Cavab olaraq mənə bunu izah etdilər ki, əllərində mövcud olan nüsxeyi-əsliyyənin üst yaprağı məfqud (itirilmiş) olduğundan əsərin hansı müxərrirə məxsus olduğunu bilməmişlərdir. Fəqət mənə öylə gəliyor ki, bu tarixi əsər osmanlı mühərrirlərindən mərhum Əhməd Midhət əfəndinindir. İstanbulda ikən bunu bir kitabçada görmüş, nüsxəsinin kəmyab olaraq tükəndiyini də öyrənmişdim.

“Siyavuş” hekayəsi tarixin əsatir ilə məxlut (qarışıq) olan bir dövri-məchulinə aiddir”.

***“İqbal”qəzeti, 25 aprel 1914-cü il, N636.***

**8. "Qaçaq Kərəm" pyesi.**

"Hüseyn Ərəblinski cənablarını Bakı səhnəsi çoxdan bəri-təxminən iki ilə yaxın olar ki, görməmişdi. Bu sətirləri qaralıyan mühərrir dəxi aktyoru indi yeddi il olar ki, zəmanənin təsadüflərindən dolayı səhnədə görməkdən və məzkurun (zikr olunan, adı çəkilən) öz sənətinə qarşı bəslədiyi məhəbbət və mərcubiyyətindən bir həzzi-ruhani duymaqdan məhrum idi.

...Pyesin yazılışı bəd deyil. Lövhələri olduqca qəşəng və zəngindir. Bəzi xırda-para nöqsanları olmaqla bərabər milli bir həyatı təsvir edən bu əsər əhəmiyyətsiz deyildir. Xüsusilə kərəmləri Qaçaq Kərəm edən Kəngərlinski bu əsərdə nə qədər gözəl təsvir olunmuşdur".

***"İqbal"qəzeti, 19 oktyabr 1914-cü il, N767.***

**9. "Rüstəm və Zöhrab" pyesi.**

"Cümə axşamı Tağıyev teatrında Hüseyn Ərəblinskinin iştirakı ilə müvəffəqiyyətlə artistlik edənlərdən Qəmərlinskinin (Əhməd bəy Məlikov) əsəri olan "Rüstəm və Zöhrab" pyesi oynandı.

...Şahnameyi Fidovsinin ən faciəli bir təsvirini təşkil edən "Rüstəm və Zöhrab" əsatiri hekayəsi axira türkcəyə mənzum olaraq tərcümə edilmişdir. Onsuz da bu hekayəni bilməyənlər çox az tapılar".

***"İqbal"qəzeti, 2 noyabr 1914-cü il, N779.***

**10. "Ənuşirəvani-adil" pyesi.**

"Ənuşirəvani-adil" pyesini (buna pyes demək caiz isə) səhneyi-tamaşaya qoymaq üçün intixab edən "Nicat" maarif cəmiyyəti teatro heyəti əzasından birisi bu xüsusda tarixi bir məlumat ala bilmək üçün evlərində telefonları olan axundlarımızdan bir neçəsinə müraciət etdimsə də, kafi məlumat ala bilmədim, dərdini anlatıyordu.

İştə, görmüyorsunuz ki, cümə gecəsi Tağıyevin teatrosunda gördüyünüz mənzərələr və duyduğunuz hisslərlə Ənuşirəvan və onun dövrü arasında təbiri- görülürsə, Mirzə Rəsul ilə bu Zərricümhur (zərrə ilə çoxluq arasında) qədər fərq vardır.

Heyrət olunur "müəlliflər"imizin cəsarətinə! Təəssüf olunur cəmiyyətlərimizin cəhalətinə!"

***"Açıq söz"qəzeti, 2 fevral 1916-cı il, N101.***

**11. "Ölülər" pyesi.**

"Teatro və ədəbiyyatımızda şayani-təqdir bir əsər vücuda gəldi. Tarixi-ədəbiyyatımızda bir vəqə hadis oldu.

Keçən axşam Tağıyev teatrosunda Mirzə Cəlil cənablarının incə qələmindən çıxan gözəl bir əsəri, "Ölülər" oynandı.

"Ölülər" "Molla Nəsrəddin" məcmuəsinin bir nüsxeyi-digəridir.

"Ölülər" qaranlıq həyatda, cəhalətlə çürüyən mühitdə bitab düşən xəstə vücudumuzu bütün faciələri və acıları ilə açıb aləmə faş ediyor..."

***"Açıq söz"qəzeti, 1 may 1916-cı il, N173.***

# YAZDIĞI MƏQALƏLƏRDƏ TARİXİ, MƏDƏNİYYƏTİ VƏ SİYASİ VƏZİYYƏTİ ARAŞDIRILAN ÖLKƏLƏR

1. Azərbaycan
2. Türkiyə
3. İran
4. Rusiya
5. Yaponiya
6. Polşa
7. Almaniya
8. İngiltərə
9. Ukrayna
10. Çin
11. Misir
12. Belçika
13. İspaniya
14. Mərakeş
15. Balkan dövlətləri
16. Estoniya
17. Fransa
18. Əfqanıstan
19. Gürcüstan
20. Suriya
21. İraq
22. Türküstan
23. Hollandiya

# AZƏRBAYCAN MEMARLIQ ABİDƏLƏRİ HAQQINDA

## I. Azərbaycanın memarlıq abidələri

M.Ə.Rəsulzadə bu məqaləsində Azərbaycanda aparılan arxeoloji qazıntılar nəticəsində tapılmış maddi mədəniyyət abidələri haqqında məlumat verir. Daş və tunc dövrünə aid mədəniyyət nümunələrinin olduğunu bildirir, Şəmkir bölgəsində tapılan daş və tunc əşyaların olduğunu qeyd edir. Bakının şimal-qərbində Səngəçal stansiyası yaxınlığındakı "Cahangir dağı"nın ətəyində olan böyük qaya parçaları üzərindəki insan, heyvan, ilan və digər rəsmlərin olduğunu göstərir. O, Gilançay və Dərbənd divarlarının V-VI yüzillərdə tikildiyini yazır. Bundan əlavə, Azərbaycanın VI- IX-XI-XII və XIII yüzillərə aid memarlıq abidələri baxımından çox zəngin olduğunu təsdiqləyir.

**Bakı abidələri**

M.Ə.Rəsulzadə Bakıdakı abidələr sırasında ən qədim tarixə malik olanlarından birinin 1078-ci ildə inşa edilmiş "Sınıq Qala" olduğunu göstərir. O, yazır ki, 1804-cü ildə Bakını mühasirəyə alan rusların atdığı top gülləsi minarəni dağıtdığından ona "Sınıq qala" demişlər. Bundan başqa Abşeron yarımadasında müdafiə qalaları da mövcuddur. 1203-cü ildə yaradılan Mərdəkan, XII yüzillikdə inşa olunan Ramana, 1301-ci ilə aid Nardaran qalasının olduğunu da müəllif bildirir. Bakıdakı "Qız Qalası"nın tarixinin 1116-1158-ci ilə aid edildiyini bildirən M.Ə. Rəsulzadə böyük dramaturq C.Cabbarlının bu qalaya bir poema da həsr etdiyini qeyd edir.

## II. "Atababa – Şeyx Yusif Türbəsi"




"Naxçıvan bölgəsində hələ payidar (ayaqda qalan) olan bolca abidələrdən XII, XIII yüz ilə aid olan üç mühümü üzərində durmaq gərəkdir. Bunlardan ikisi indiki Naxçıvan şəhəri bölgəsində, üçüncüsü də şəhərdən 40 km aralı "Qarabağlar" kəndindədir. Şəhər daxilindəki iki abidədən biri Atababa türbəsi, digəri də Atabəy türbəsidir.

Atababa türbəsi 1162-ci ildə inşa edilmişdir; Yusif-ibni-Quseyir adında bir

şeyxin məqbərəsidir. "Azəri Türk" jurnalının ilk nüsxəsində dərc etdiyi "İslami Türk Sənayeyi Nəfisə Tarixi Nöqteyi nəzərindən Azərbaycanın əhəmiyyəti" adındakı bir məqaləsində, A.M.(Mərhum Ağaoğlu Məhəmməd) Yusif-ibni-Katmir şəklində qeyd etdiyi bu şeyxin Azərbaycan Atabəylərindən Şəmsəddin Eldənizin, Hicri 557 (M. 1162)-də ölən vəziri olduğu söylənilməkdədir. Kuseyir adının ərəb hərflərinin cizgiləri baxımından aşınmış kitabədə bəzi tənqidçilər tərəfindən bəzi şəkildə oxuna bilməsi çox mümkündür...

Atababa və ya Yusif-ibni-Kuseyir türbəsi şəhərin yüksək səmtində, bir təpənin başındadır...Türbəni yapan ustanın da Naxçıvanlı Əbubəkr oğlu Əcəmi olduğu anlaşılmaqdadır. Kitabədəki hicri tarixi, miladi 1162-yə uymaqdadır".

***M.Ə.Rəsulzadə. "Azərbaycan Memarlıq abidələri" məqaləsi. "Azərbaycan" jurnalı, Ankara, il:3, sayı: 8(32), noyabr, 1954-cü il,səh.9-10***

## III."Möminə Xatun" abidəsi


Vereceğimiz tafsilât bilhassa Azerbaycan Cumhuriyeti topraklarında bulunan anıtlara inhisar edecektir. Bugünkü Cumhuriyet hudutları dahilinde muhafaza olunan birinci kısım anıtlar, umumiyetle,

yüzyılda yapılmıştır; demek ki bundan takriben 3500 yıl önce bina edilmiştir.

Büyük bir transit yolu üzerinde bulunan Nahçivan, Asya ile Avrupa memleketlerini birbirine bağ-

Resim No. 2. Nahçıvan'da Atabek = Mümine Hatun Türbesi. H. 582 (M. 1186). Mimarı: Nahçıvan'lı Ebubekr oğlu Acemi

güneyde Nahçıvan bölgesinde, kuzeyde de Apşeron yarımadası çevresinde kümelenmişlerdir.

Nahçivan, Azerbaycan'ın en es-

lamak hususunda mühim bir merkez rolünü oynamıştır. Bir çok ticaret kervanları burada duraklamak ihtiyacındaydılar. Bu sâyede


gisinin doğru olduğunu tahkik etmek elbette mümkündür.

Ata Baba veya Yusuf-ibni-Kuseyir Türbesi şehrin yüksek semtinde, bir tepenin başındadır; sekiz safhalı mahrutî bir şekildedir. Metbalindeki kitâbeden burada yatan Yusuf'un (Muhterem reis, mümin, İslâmın zineti, şeyhlerin büyüğü olduğu ve türbeyi yapan ustanın da Nahçivanlı Ebubekir oğlu Acemi olduğu anlaşılmaktadır. Kitâbe-

şimdi Mümine Hatun Türbesi adıyla meşhurdur. Bu türbe, Atabek Şemsettin Eldeniz'in karısı için yapılmıştır. (*) 10 safhalıdır. Yüksekliği 42, kutru ise 10 metredir. Üstünde safhaları ile mütenasip, evvelce bulunmuş olması lâzım belen mahrutî kalpağı yıkılmıştır. Böyle olmasaydı, manzarası daha ihtişamlı olurdu. Her safhasında tuğladan yapılmış bulunan bu binada istalaktitlerle nihayet bulan çerçevelenmiş

Resim No. 3. Mümine Hatun Türbesi tezyinatından bir detay

deki hicri tarih, milâdi 1162 ye uymaktadır.

«Ata Baba» türbesi dört köşe tuğladan yapılmış ve dıştan olduğu gibi, içeriden de sekiz köşe bir tarzda inşa edilmiştir. Safhalar tuğlaların özel bir tarzda yan yana getirilmesi suretiyle süslenmiş ve her safhanın süs teşkil eden çizgileri kendilerine mahsus bir şekil taşımakta-

bir nevi hücreler vardır; gerek hücrelerin içleri, gerek hücreler arlarındaki köşeler gayet nefis şekilde, halıyı andıran hendesî çizgilerle işlenmiştir. Bina gövdesinin üst kısmında Kufî yazıyla yazılı kitâbe, anıtı boydan boya, bir

(*) Mümine Hatun önce Selçuklu Tuğrul'un karısı idi; ondul kalınca Atabek Şemsettin El

"Atabəy türbəsi deyilən abidə indi Möminə Xatun türbəsi adı ilə məşhurdur. Bu türbə Atabəy Şəmsəddin Eldənizin qarısı üçün yapılmışdır...Qapının üst hissəsində türbənin yapıldığı tarixi göstərən bir yazı vardır. Yazıda türbənin Möminə Xatuna aid olduğu oxunur. Türbənin eyni Naxçıvanlı Əbubəkr oğlu Əcəmi tərəfindən inşa edildiyi

və Atabəy Əbu Cəfər Məhəmmədin əmriylə tamamlandığı da binadakı yazılarda əks edilmişdir.

Bir-birindən 25 illik bir fasilə ilə Naxçıvanlı memar Əbubəkr oğlu Əcəmi tərəfindən inşa olunan bu abidələr, ustalarının nə dərəcədə hünər sahibi bir sənətkar olduğunu göstərirlər".

***M.Ə.Rəsulzadə. "Azərbaycan Memarlıq abidələri" məqaləsi. "Azərbaycan" jurnalı, Ankara, il:3, sayı: 8(32), noyabr, 1954-cü il,səh.9-13***

## IV. "Qarabağlar" türbəsi (XIII-XIV yüz il)


aydınlanmaktdaır. Medfenin kuzey takçasında bir methal vardır, bu medhal dışarıdan mimari bir şekil almıştır. 1939 - 1940 yıllarındaki kazılar, bu kapının dışarısından kuzey portala doğru yer altından gi-

den taştan yapılmış bir merdivenin kalıntılarını meydana çıkarmıştır. Medfenin damını teşkil eden künbedin yalnız tabanları muhafaza edilmiştir.

Karabağlar türbesinin dış görü-

Karabağlar Türbesi XIII - XIV. yüzyıl.

nüşü bilhassa dikkate değer bir şekildedir. Temeli ile portallarından başka, binanın geri kalan kısmı, iki çeşitli, sade ve cilâlanmış mavi tuğlalarla kapatılmıştır. Sade renkli tuğlalar ufki, cilâlılar ise amudî bir

tarzda dizilmiştir. Böylelikle, mimar, iki çeşit tuğla ile istilize edilmiş yazılar vücuda getirmiştir ki, bunlar birer dörtgen halinde binanın bütün cephesini kaplamıştır.

12 safhasını teşkil eden yarı yu-


Cuga'da, Gülistan türbesinin umumi manzarası

talalaktit oyuklarını husûle ge-

ise ayni zamanda, gövdenin safhalarına doğru yayılıyor. Müstesna bir tarzda ya-

"Memarlıq abidələri seriyasının bu hissəsini, əvvəlki məqaləmizdə bəhs edilən Naxçıvan məktəbi Ortaçağ abidələrindən bir mühümünə ayırırıq: Naxçıvan ətrafında Şahtaxtı kəndinin 14 kilometr şimalında, eyni adı daşıyan bir kənddə iki minarəli məşhur Qarabağlar türbəsi.

Araz çayının sahilində, bəyaz qarlarla örtülü Ararat dağının uzaqdan görünən sərinlədici mənzərəsi Zəngəzur silsiləsinin ətəyində olan bu türbə adını siyaha(qara) çalan koyu(tünd) yaşıllıqlarla örtülü Qarabağlar kəndindən almışdır.

Türbənin memarlığında istifadə edilən yapı (etmək) üsulundakı məharət ilə təzyinatındakı fövqəladəlik olduğu təbii mənzərə mühitiylə mükəmməl bir ahəng təşkil etməkdədir...

Yüksək bir qaya üstündə olan türbə bütün ehtişamı ilə hər tərəfdən görülməkdədir.

...Tədqiqçilərdən bəziləri abidənin XIII və XIV yüz illərə aid olduğunu təxmin edirlər.

...Verdiyimiz bu təfsilatdan görünür ki, Araz çayı sahillərində, o cümlədən Naxçıvan şəhərində memarlıq sənətinin bədii bir məktəbi vücuda gəlmişdir.

Ta əski zamanlarda Əbubəkir oğlu Əcəmi kimi istedad sahibi böyük bir ustad yetişdirən bu məktəbin şanlı ənənəsini Qarabağlar türbəsinin ecazkar ustası heyrətverici bir bacarıqla davam etdirmişdir”.

***M.Ə.Rəsulzadə. “Azərbaycan Memarlıq abidələri” (II) məqaləsi. “Azərbaycan” jurnalı, Ankara, il:3, sayı: 9(33), dekabr,1954-cü i,səh.7-10.***

# MƏTBUAT HAQQINDA

## “Mocibi-heyrət”

“Doğrudur, qəzetlər arasında hər bir vaxt, hər bir zaman mübahisə, mücadilə, mübarizə olur. Lakin bu bəhs, bu cidal, xəncər və tapança davası olmayıb müsadimeyi-əfkar (ictimai fikir), mübarizeyi-təsəvvürdən ibarətdir və bu toqquşma və vuruşma qəbih(pis) olmayıb, bəlkə ən gözəl və ən müstəhsən(bəyənilən) mübarizə təriqidir(yoludur).

...Şəhərimizdə bir qəzetə nəşr edilərkən millətimizə “həyat” bağışlandı. Həyat olandan sonra irşad lazımeyi-mədəniyyət olduğundan “İrşad”ın zühuru mətlubi-təbii olmazmı?”

***“İrşad”qəzeti, N189, yanvar 1906.***

## “Yeni qəzetə”

“Qəzetənin məsləki – hürriyətpərvərlikdir... Doğruya-doğru, əyri-yə-əyri demək “Vətən xadimi”nin borcu olduğu kimi aləmi-islamiyyətdə cərəyan edən əhval və vəqayedə zaman, məkanın müdafiəsinə görə acı-acı tənqid etmək məsləkimiz müqtəziyyatındadır (vacibdir)”.

***“İrşad”qəzeti, N108, 9 may 1906.***

## “Tan Yuldızı”

**(Dan Ulduzu)**

“Kazan şəhərində çıxan “Tan Yuldızı” qəzetəsinin əvvəlinci və ikinci nömrələrini aldıq. Qəzetənin şiyveyi – təhririyyəsi qafqaziyalılar anlayacaq bir dildə deyilsə də, mündəricartı o qədər maraqlı, məsləki o qədər müstəqimdir(doğru,sağlam) ki, hər bir sahibi-zövq hıqqana-hıqqana olsa da onu oxuyub məzmunundan xəbərdar olacaqdır. Arzu edilirdi ki, ədəbiyyatımızın üfüqündə bu tövr yulduzlar çoxlaşıb “Tan Yuldızı”nın məsləki aramızda bərqərar olaydı”.

***“İrşad” N128, 1 iyun 1906.***

## “Yeni inqilab xadimi”

“İnqilab ilə əksinqilab həmişə vuruşub çəkilməkdədir. Bu vuruşmanın, bu çəkişmənin asari aləmi-mətbuatda pək yaxşı müşahidə olunur. Bu gün bir qəzetə nəşr olunur. İnqilab tərəfdən isə həqiqətsevər, ədalət tələb edər isə, sabah bağlanar. Əvəzində surətini dəyişib, özgə bir surətdə nəşr edər. O da bağlanar, təbid (uzaqlaşdırma) edilər. Nəhayət, olduğu şəhərdə çap olunmağa qoyulmaz, özgə şəhərdə çap olunar. Çap olunar da dediyini deyər, yazdığını yazar, nəhayət, şiddətli də yazar. Xülasə, heç bir mümaniət (mane olmaq) və işğaldan çəkinməyib, kəlami-hümmət və qeyrət ilə inqilab əksinqilab ilə boğuşar, savaşar”.

***“İrşad”qəzeti, N139, 14 iyun 1906.***

## “İran işləri”

“Madam ki, mətbuat hökumət amirlərinin təhti-təftiş və nəzarətindədir, madam ki, qələm azad deyil, xanlar, vəzirlər hər nə istəsələr eləyəcəklər – seçkinin üsulunu bildirmək və hökumət amirlərinin xəyanətini kəşf etmək üçün lazımdır ki, mətbuat azad olub, hər bir təcavüzdən məsun (toxunulmaz) qalsın”.

***“İrşad”qəzeti, N186, 8 avqust 1906.***

## “Dəbistan”

“Məlum olduğu üzrə şəhərimizdə uşaqlara məxsus ayda iki dəfə nəşr olunan “Dəbistan” jurnalı 7 aydır ki, nəşr olunur. Demək olar ki, “Dəbistan” Rusiyada, bəlkə də aləmi-islamda əvvəlinci jurnaldır. Doğrudur, Türkiyədə “Cocuqlara məxsus qəzetə” çıxır, lakin Sultan Həmid tərzi-idarəsinin senzurundan keçən bu jurnal boş müqəvvadan ibarət qalmışdır...

Lakin özlüyündə tək-tənha olan bu jurnal 25 milyon Rusiya müsəlmanları demirəm, beş milyon Qafqaz müsəlmanları arasında olsun necə gediyor? İnsan xəyal ediyor ki, iki həftədə bir dəfə çıxan jurnal nədir ki, o da yeriməsin, o da xərcini ödəməsin?

Lakin heyhat, heyhat! Müsəlman jurnalı olduğu üçün bu fikrin əksini görürük.

"Dəbistan"da haləti-nəzidədir. Biçarə müdir həmi yazıçılıq ediyor, həmi təshih qılır, həmi poçta gediyor, həmi abunəçilərin adreslərini yazıyor, həmi də öz cibindən əlavə olaraq zərər qoyur.

İştə baxın qardaşlar, insaf eləyin bu rəvamıdır?"

***"İrşad"qəzeti, N280, 7 dekabr 1906.***

## "Hürriyyəti mətbuat müsəlman mürəttiblərinə dair"

"Ümumən hər tayfanın arasında mürəttiblər qeyri fəhlələrə nisbətən "ziyalı fəhlə" hesab olunurlar. Yəni qeyri-bisavad fəhlələrə nisbətən mürəttiblər öz savadları cəhətinə-tərəqqiyə və mədəniyyətə artıq mail olurlar.

Hər bir vilayətdə mürəttiblər öz hüquqlarını tələb etməkdə, ittifaqlar və cəmiyyətlər təşkil etməkdə pişrov olaraq qeyri-bisavad fəhlələrə misal olub bu tövr işlərə cəlb ediblər. Həmişə də bunların ittifaqları və cəmiyyətləri qeyri fəhlələrə görə münəzzəm (böyük) olublar".

***"Təkamül"qəzeti, N1, 16 dekabr 1906.***

## "İslam mətbuatı"

"Elə bir gün yoxdur ki, zülm və istibdad altında qalmış vətənimizdə bir qəzetə və ya bir jurnal bağlanmasın. Bunlara ümdə səbəb ya idareyi-ürfiyyeyi-əsgəriyyələrdi (voyennoye polojeniye-hərbi vəziyyət) ki, həqqaniyyəti (ədaləti) izhar edici mətbuata nəfəs vermiyorlar və yaxud həqqaniyyəti (ədaləti) icra etmək niyyətində olan mücahidlərin bacardıqları dərəcə özlərinin tavakası (xahişi) olmayıb müştərilər tərəfindən kömək və ianə görmədikləridir".

***"Təkamül"qəzeti, N3, 30 dekabr 1906.***

## "Cavaba cavab"

"Tərcüman" qəzetəsi, "Təkamül"ə cavab olaraq Baxçasarayda xuliqan müsəlmanların olması əsilsizdir –diyor və buna binaən "Təkamül"ün xatirini incitmək istəməyib, özünün nə iştirakiyyun tərəfdarı, nə də millətçilik dairəsindən xaric fəhlə tərəfdarı olmadığını bildirərək ümumi hürriyyətpərəst olduğunu mühafizəyə qalxışıyor. Hürriyyətpərəstləri biz qəlbən seviriz – diyor. Lakin biz bir dəqiqəliyə tutalım ki, "Tərcüman"

hürriyyətpərəstdir. Qoy belə olsun. Onda bəs "Tərcüman"ın müdiri İsmayıl bəy cənablarının müsəlmanlar ittifaqi-mərkəziyyəsində söylədiyi "Ülfət"in qırx doqquzuncu nömrəsində dərc olunan bu nitqinə nə ad qoyalım?"

***"Təkamül"qəzeti, N5, 20 yanvar 1907.***

## "Mətbuat xüsusunda"

"Rusiya mətbuatı olmazın təvyiqatı(yubandırma,gecikdirmə) çəkmiş 17 oktyabr manifestindən bəri bir hürriyyəti-mətbuat xülyasına göz tikmiş olan Rusiya qəzetələri budur 3 ildir hələ sıxıntıdadırlar!

Mətbuat bu qədər bir təzyiqi, bu qədər bir sıxıntını çəkiyor, olmazın cərimələr veriyor, mühərrirlərinin mənfu (sürgün olunmuş) və məbus olduğuna qatlanıyor, bunların hamısına davam ediyordu!..

...Vüzarət komissiyası tərəfindən Dumaya həll olunmaq üçün verilmək üzrə mətbuat barəsində olan qanun layihəsi hazırlanmışdır. Bu xüsusda Peterburq qəzetələri layihənin üzünü dərc etməklə bərabər müxtəlif yollu tənqidatda bulunmuşlar".

***"Tərəqqi"qəzeti, N108, 21 noyabr 1908.***

## "Bizim məramımız"

"...Qəzet millətin danışan dilidir. Bir millətin ki, qəzeti yoxdur, elə bil ki, o millətin dili yoxdur...

...Vətən dərdlərinə mətbuat dərman olur. İstibdadın yurd-yuvasını qəzetlər dağıdıb və dağıdır. Qəzet həmişəlik qaravuldadır(gözətçilikdə-dir), qoymur ki, ölkənin inkişaf yolu bağlansın.

...Qəzet inanılmış bir qoruyucudur ki, hökumətin iş və hərəkətlərini görür, onların səhv və xətalarını açıb göstərir, milləti hökumətin səhv və xəyanətlərindən xəbərdar edir.

...Qəzet camaata və tək-tək adamlara öz vəzifəsini göstərib başa salır, vətəni sevməyi onlara öyrədir, lazım olanda parlaman və hökumətə kömək edər.

Qəzet bir çıraqdır ki, əyri və düz yolu millətə göstərir, onu sərvət və sahman yoluna yönəldir".

***Təhririyyə-heyəti***
***"İrani-Nov"qəzeti, N1, 23 avqust 1909-cu il.***

## "Biçarə mətbuat"

"Məzlum millətin mətbuatı da məzlum olur. Bizim əzəmətli vətənimiz İran düşdüyü bu biçarə vəziyyətdə hər tərəfdən xarici və daxili tamahlara düçar olub, uzun müddətdir ki, ağır xəstələnib və indi də qansızlıq və gücsüzlükdən iztirablı, zəif haldadır. Şübhə yoxdur ki, biz – millətin dili adlanan jurnalistlər də zəif və aciz olacağıq.

...15 milyon əhalisi olan bir ölkə bir neçə gündəlik milli qəzetini saxlaya bilmirsə, öz yeniləşməsi barədə hansı yaxşı fikirlər yarada bilər?.. Bu elə bir sualdır ki, onun cavabını səhv iş görən fəsad əhli verməlidir".

***"İrani-Nov"qəzeti, N113, 17 yanvar 1910-cu il.***

## "Şəms" qəzeti

"İstanbulda bir yarımvərəq qəzet çıxır. Ona "Şəms" deyirlər. İranlı oxucuların az bir qisminin fikrinə görə o prins Ərbəüddövlənin məddahı olan miskin bir qəzetdir. Az qismi ona görə deyirik ki, müştərisi yoxdur...

"Şəms" qəzeti də bu cür şöhrətpərəstlərdəndir. Bu yarımvərəq istədi ki, məşhur olsun və eyni zamanda xidmət göstərsin: bir neçə nəfər Milli Məclisin vətənpərəst möhtərəm millət vəkillərinə qarşı yazılar verdi.

Təbiidir ki, şöhrətpərəstlik vaxtında millət vəkillərini alçaldan bu məktub meydana çıxdı. Çünki bunlar öz alçaq məntiqlərinə əsasən təsəvvür edirdilər ki, nə qədər çox məşhur adamla tərəfi-müqabil olsalar, o qədər də şöhrətləri və oxucularının sayı artacaq.

Qələmin hörməti və izzəti-nəfsilə tanış olmayan bu yazıçı (hörmətli yazıçılar inciməsinlər) təsəvvür edir ki, məsələn, əgər tərəfdarı çox olan ağayi Tağızadəyə qarşı bir şey yazsa, yəqin ki, onun tərəfdarlarının azı yarısı bu qəzeti alacaq, bu isə onun yeganə məqsədinə çatması üçün ən asan yoldur".

***"İrani-Nov"qəzeti, N137, 20 fevral 1910-cu il.***

## "Quyruqlu ulduzun təsirləri"

"Arzu edirəm ki, yarımvərəq qəzetələr öz adlarını "İran müfəttişi" qoyub, müxbir adı ilə xalqın cibinə girməyə, bununla da mətbuatı abırdan salıb, xəcalətli edib, keçmişdəki kimi ağızlarına gələni yazmağa cürət etməsinlər".

***"İrani-Nov"qəzeti, N166, 30 mart 1910-cu il.***

## "Müsahibənin tərcüməsi"

"Yerli qəzet redaktorlarından biri "Şərq" və "İrani-Nov" qəzetlərinin bağlanması məsələsi barədə baş nazirdən müsahibə almışdır.

Bu müsahibə elə bir xüsusi dildə yazılıb ki, avam adamlar onu başa düşməzlər. Ona görə də hörmətli oxucuların onu başa düşməsi üçün ixtisarla da olsa, onu sadə fars dilinə tərcümə etməyi özümüzə borc bildik.

Əlbəttə, bilirsiniz ki, biz "Şərq" qəzetini bağladıq. "İrani-Nov"un da qol-qanadını sındırdıq. Çünki onlar çox danışırlar. Qəzet ümumə məlumat vermək üçün deyil. Elə eyblər var ki, qara camaat onları bilməməlidi. Qəzet əhalini ayıltmamalıdır. Qəzet dövlət mexanizmini hərəkətə gətirmək və millətin mənafeyi üçündür. Bu qəzetlər isə əksinə hərəkət edirlər. Onlar xarici qəzetlərin bizim kabinə haqqında yazdıqları xəbərləri mülahizəsiz tərcümə və nəşr edirlər. Bununla da bütün iranlıların hüququna toxunurlar. Odur ki, biz də iranlıların əsas hüquqlarının müdafiəsini rəva bilib qəzetlərin hər ikisini məhkəmə və istintaqsız bağlamışıq. Bəs siz nə bilirdiniz?"

***"İrani-Nov"qəzeti, N216, 28 may, 1910-cu il.***

## "Mətbuat azadlığı"

"Hər ölkənin mədəniyyətinin inkişafı onun ədəbiyyatının inkişafı ilə bağlı olduğu kimi, hər millətin siyasi vəziyyəti də onun mətbuat azadlığı ilə bağlıdır.

O millət, o məmləkət xoşbəxt və azaddır ki, onların mətbuatı azad və xoşbəxt olsun...

...Mətbuatın tərifi və xüsusiyyətləri haqqında demək olar ki, mətbuat ümumi məsələlərin yazılı şərhidir, bir ümumi mənafeyə xidmət edir, onu bütün xalqın nəzərinə çatdırır. Mətbuat üçün üç şərt lazımdır: birinci – yazmaq, ikinci – ümumi mənafe, üçüncü – yaymaq. Əgər bunların biri yoxdursa, mətbuat da yoxdur.

...Mətbuatın rolu çox böyük və əhəmiyyətlidir. Mətbuat mühüm milli qüvvələrdən biridir. O, milli iqtidarda dördüncü yerdə durur. Yəni iqtidarın üç qüvvəsi, birincisi – qanunvericilik, ikinci – icraedici, üçüncü – hüquq orqanları. Bundan sonra mətbuat gəlir.

...Mətbuat millət fərdlərinin, jurnalistlərin şəxsi fikirlərini cəmiyyətə çatdırandır. O, dövrünün mədəniyyət carçısıdır, öz dövrü, başqa dövrlər barədə lazımi məlumatı camaata çatdıra bilir.

...Mətbuat xalqın milli nümayəndəliyini öhdəsinə götürən, onun görüşlərini ifadə edib yayan ictimai nəzarətçidir.

...Mətbuat elmi, siyasi və bəşəri informasiyanı çoxaldır, bu isə insanların zehninin işıqlanmasına səbəb olur. Mətbu sistemi geniş olan millətin zehni, fikri də işıqlı olur. **İnkişaf etmiş millət o millətdir ki, onun mətbuatı azaddır, ciddidir...**

...Mətbuat bir müəllim vəzifəsini yerinə yetirir. O, xalqın tərbiyəçisidir.

...Mətbuat o zaman öz vəzifəsini yerinə yetirə bilər ki, öz işində tam azad olsun. Öz məqsədinə çatmaq üçün mətbuat azad olmalıdır. Mətbuat azadlığı onun öz işində - yazmaqda, nəşrdə, yaymaqda, insani fikirləri çatdırmaqda tam azad olmasından ibarətdir.

...Mətbuat azadlığı insan azadlığının əsas sütunudur, çünki o, əqlin, təfəkkürün əsas qüvvəsidir.

...Mətbuat azadlığına əl qaldırmaq insan azadlığına təcavüz etməkdir...

...Mətbuatın əsarəti əxlaq pozğunluğu törədir, əxlaq gözəlliyi və yaxşı xüsusiyyətləri aradan çıxarır, yalan danışmağı, oğurluğu, əyrilik və casusluğu yayır, ədəbi və qələm pozğunluğu meydana çıxarır..."

***"İrani-Nov"qəzeti, N28, 34, 40, 46, 50, 53; 28 aprel, 6, 11, 20, 24, 28 may 1911-ci il***

## "Bəzi yazılar münasibətilə"

"Kafkazskoe slovo" qəzetəsi yalançı mühərririnin yazdığından keçən nüsxələrimizdən birində bir neçə sətir yazmışdıq. Bəzi qanı isti olanlarımız hətta bu kimi böhtanlara da o qədər nazikanə yazı yazanı kafi görməmişlərdi. Bunlarca bu növdən füzulların(həddini aşanların) burunları ovulmalı ki, bir də həqlərini bilsinlər.

Fəqət bizcə bir yazıçı üçün nəzakətlə də olsa, "yalan deyirsən" ixtarı(xatırlatma,bildirmə) "burun ovmaq" qədər vardır".

***"İqbal"qəzeti, 20 mart 1915-ci il, N891.***

## "Molla Nəsrəddin"

"Avamın da, xəvasın(əsilzadə) da, kişinin də, arvadın da, böyüyün də, kiçiyin də tanıdığı bir ad!

Molla Nəsrəddini bütün Şərq tanıyor. Şərqi tanımayanlar da tanıyorlar...

Bəli, Xacə Nəsrəddin, məşhur xəvas(əsilzadə), məqbul alimdir.

1906-cı ildə, Tiflisdə zəmayə qiyafəsinə bürünmüş də həftəlik gülgü qəzetəsi şəklində çıxması ilə “Molla” tazə bir həyatı yeni bir şöhrət qazandı.

Xacə Nəsrəddin nə dərəcədə məruf (məşhur) idisə, “Molla Nəsrəddin” də o dərəcədə məşhur oldu.

Xacə Nəsrəddini İslam Şərqinin dühası, xəlq dühası yaratmışdı. “Molla Nəsrəddin”i isə Azərbaycan türklərinin dühası, məzhəkədəki məharətləri vücuda gətirdi”.

***“Açıq söz”qəzeti, 22 aprel, 1916-cı il, N166.***

## “Tazə rəfiqimizi təbrik”

“Türk mətbuati-mövqutəsi yeni bir əsərlə daha zənginləşdi. “Hümmət” qəzetəsi nəşr olundu. “Hümmət” Rusiya ictimaiyyun-ammiyyun fəhlə firqəsinin müsəlman təşkilatı “Hümmət” tərəfindən həftədə bir dəfə nəşr olunur. Məsləki sosializm tərəfdarı olub, fəhlə və əmələ qisminin mənafeyini gözləməkdir...

...Müəyyən bir partiya vasiteyi-nəşri-əfkari olmaq üzrə “Hümmət” Qafqaziya türk mətbuatı arasında zaman etibarı ilə birinci qəzetədir.

“Hümmət” qəzetəsindən bəhs edərkən Qafqaziya türkləri cavanlarının həyatında tarixi bir əhəmiyyətə malik olan 1905-ci il “Hümmət”ini unutmaq olmaz...”

***“Açıq söz”qəzeti, 5 iyul 1917-ci il, N513.***

## “Rəfi-istibah”

***“Novbahar” qəzetəsinin 86-cı nömrəsinə cavab.***

“Novbahar” qəzetəsinin möhtərəm müdiri Məliküşşüəra, nə demək istədiyini bilmiyoruz! Lakin bu qədər bizə məlumdur ki, Məliküşşüəra cənablarının müdiriyyətilə nəşr olunan “Novbahar”ın 86-cı nömrəsində Qafqasiya Azərbaycan türklərinin bəşəriyyət aləmi gülüstanında özlərinə məxsus baxça tutub orada özləri üçün mədəniyyət gülləri əkməyə ixtiyarları olmadığını bildirirlər.

Möhtərəm “Novbahar” müdiri deyir: Qafqasiya Azərbaycan türklərinin islamiyyət evində özlərinə məxsus otaq tutmağa haqləri yoxdur...

Əcəba: biz Qafqasiya Azərbaycan türklərinin arzuları əksinə olan bu qədər məhəbbətsizlik haradan nəşət etmişdir”.

***“Açıq söz”, 2 fevral 1918-ci il, N671.***

## Azərbaycan bolşevik mətbuatı haqqında

“Əgər sırf Türk yazısı ilə çıxan mətbuata Türkcə mətbuat deyilirsə, indiki Azərbaycanda da bu var. Yox, mətbuatı milliyyədən məqsəd, yalnız yazının zahiri deyil, ruhu mündəricatı dahi murad (bundan ibarətdir)) isə, o halda bolşevik Azərbaycanda mətbuatı milliyyə yoxdur. Vaxtilə ağpadişahdan bəhs edər durar. “Türküstan vilayətinin qəzeti” adı ilə misyoner Astraumov tərəfindən nəşr edilən Türkcə bir qəzetə ilə Qızıl Lenin mənaqibindən (əfsanələrindən) və Kommunist Firqəsi nəzəriyyəsindən başqa bir şey bilməyən Azərbaycan Kommunist Türk mətbuatı ilə müştərək bir şeyi varsa, o da yazısındakı Ərəb hərfləridir. Fəqət bolşeviklər bu fərqi də ortadan qaldırırlar”

***M.Ə.Rəsulzadə.Azərbaycan Cümhuriyyəti (keyfiyyət-i təşəkkülü və şimdiki vəziyyəti). İstanbul,1923 - cü il,səh.99-100***

## Azərbaycan mühacirət mətbuatının proqramı




“Bu proqram aşağıdakılardan ibarətdir:

1. Dövlət müstəqilliyi ideyasının təbliği və itirilmiş Azərbaycan müstəqilliyi uğrunda mübarizə.

2. Bolşevizmin və onun ictimai-təbliğat əsaslarının tənqidi və sovet hökumətinin milli siyasətinin istismarçı-müstəmləkə formalı olduğunun ifşası.

3. Rus-bolşevik işğalında olan ölkənin gündəlik ictimai-siyasi həyatının təhlili və məqama uyğun mübarizə şüarlarının müəyyənləşdirilib irəli sürülməsi.

4. Radikal siyasi dünyagörüşünə malik pozitiv ictimai-siyasi proqramın milli-inqilabi-siyasi ruhda inkişafı və yayılması.

5. Sovet mətbuatının tənqidi və onunla polemika".

***M.Ə.Rəsulzadə. "Azərbaycan müstəqillik uğrunda mübarizədə". Varşava, 1938,səh.114.***

# TANINMIŞ ŞƏXSİYYƏTLƏR HAQQINDA FİKİRLƏRİ

1. Mustafa Kamal Atatürk ("Qurtulan Şərqin simvolu").
2. İosif Vissarionoviç Stalin ("Stalinlə ixtilal xatirələri").
2. Səttar Xan ("Səttar Xan" məqaləsi).
3. Cavad Xan ("Cavad Xanın ölümünün 150-ci ildönümü").
4. Nizami Gəncəvi ("Azərbaycan şairi Nizami", "Nizamidə Türkçülük").
5. Mirzə Fətəli Axundzadə ("Mirzə Fətəli Axundzadə").
6. Məhəmmədhüseyn Şəhriyar, şair ("Ədəbi bir hadisə" məqaləsi).
7. Xaqani Şirvani ("Şirvanlı Xaqani" məqaləsi).
8. Ayaz İshaqi ("Ayaz İshaqi mərhum üçün, "Arkadaşım Ayaz" məqalələri).
9. İbn Sina ("İbn Sina xatirəsi").
10. Yusif Akçura ("Yusif Akçora" məqaləsi".
11. Əlimərdan bəy Topçubaşov ("Əlimərdan bəyin məzarı başında söylədiyi nitq", "Azərbaycan hərəkatında Topçubaşı Əlimərdan bəyin yeri" məqaləsi).
12. Həsən bəy Zərdabi ("H. Zərdabinin dəfn mərasimindəki nitqi", "Azərbaycan mətbuatının piri" və "Zərdabi Məlikzadə Həsən bəy" məqalələri).
13. Üzeyir Hacıbəyli ("Böyük kompozitor Hacıbəyli Üzeyir" və "Bəstəkarın benefisi" məqalələri).
14. Əbdürrəhman Fətəlibəyli Düdənginski ("Fətəlibəylinin qətli münasibəti ilə").
15. N. Ramişvili ("Tanınmış gürcü siyasi xadimi N. Ramişvilinin məzarı başında söylədiyi nitq").
16. Nəsib bəy Yusifbəyli ("Yusifbəyli Nəsib bəy" məqaləsi).
17. Marşal Jozef Pilsudski ("Yozef Pilsudski" məqaləsi).
18. Maksim Qorki ("”Rus millləti haqqında Maksim Qorki" məqaləsi).
19. Ziya Göyalp ("Ziya Göyalp" məqaləsi).
20. Vudvold Vilson ("Rəis Vilsonun vəfatı münasibəti ilə" məqaləsi).
21. Vladimir İliç Lenin ("Leninin vəfatı", "Lenin öldükdən sonra" məqalələri).
22. Aslan bəy Səfikürdlü ("Səfikürdlü Arslan bəy" məqaləsi").
23. Lev Davıdoviç Trotski ("Trotski müxalifətdə", "Trotskiyə aid olunan bir nitq münasibəti ilə" məqalələri).

24. Nəriman Nərimanov ("Nəriman Nərimanov").
25. Yusif İbrahimli ("İbrahimli Yusif" məqaləsi).



**Müslim Maqomayev haqqında –** "Müslim bəyin nə qədər mahir və müqtədir bir sənətkar olduğuna musiqarları idarə edərkən göstərdiyi məcz(cəlb) və niyyəti şahid ola bilər. Müslim bəy dirijor yerinə çıxdığı zaman adətən sənətini canlandırır, İdarə etdiyi işə yalnız əql və şüuru deyil, bütün batini və zahiri havası ilə iştirak edir. Opera musiqisini hüsni-idarə etmək üçün Müslim bəy yalnız əlindəki "çöp təəllim"i deyil, bütün ruh və qəlbini haman işə sərf edir" ***("İqbal" qəzeti, 5 mart, 1915-ci il, N881).***



**Üzeyir Hacıbəyov haqqında –** "Şübhəsiz ki, türk sənaye-nəfisə tarixini yazacaq olan müvərrix musiqi bəhsinə gəlincə, Qafqasiya türklərinə bir çox səhifələr ayırmalı və bu səhifələrin başında arkadaşımız Üzeyir bəy Hacıbəyov cənablarının fotoqrafını qoymalıdır. ***("Yeni İqbal", 30 aprel 1915-ci il, N3).*** "Başda bir həvəskar olaraq işə başlayan Hacıbəyli sonra özü-özünü yetişdirmiş, musiqi təhsilini tamamlamış, nəticədə sözün Avropa mənası ilə nüfuzunu hər kəsə tanıtmış bir bəstəkar olmuşdur. Yazıq ki, bolşevik rejimi Azərbaycanın bu müstəsna zəkasını da öz diktatorluğu altına almış və onu bayağı mənfəətləri üçün sümürdükcə sümürmüş və verdiyi bir taqım (qisim) rəsmi və siyasi vəzifə ünvanlarla onu mənimsəmişdir...

Fəqət beyhudə, dəmir pərdənin arxasında özünə süni marşlar yazdılsa da, Moskvada çiyni diktatorun əliylə oxşadılsa da, tabutu başın-da Azərbaycan mənəviyyatı ilə ilgiləri olmayan komissarlar növbədə dur-salar da, Hacıbəyli Üzeyiri Azərbaycandan, Azərbaycan kültüründən və Azəri – türk tarixindən kimsə ayıramaz! O, milli Azərbaycan varlığının məsnədləri (dayaqları) arasında qalacaq ayrılmaz bir dəyərdir!"

***"Azərbaycan" jurnalı,Ankara,1 noyabr 1952, il-1, N 8 .***



**Əhməd Ağaoğlu haqqında -** "Əhməd bəyin şəxsində biz, Türk təfəkkür və təhririnin (yazma,yazılma) çox canlı və həyəcanlı bir simasını və Avropa qəzetəçiliyinin Şərqdə çox qüvvətli bir nümayəndəsinin və Yaxın Şərqdəki tarixi Avropalaşma hərəkatının ən səmimi ideoloqunu qeyb etdik". ***("Azərbaycan" jurnalı. Ankara, 1 may, 1952-ci il, il:1, sayı:2).***



**Cəfər Seyidəhməd Krımər haqqında -** "Cəfər Seyidəhməd ...Milli Azərbaycan nəşriyyatını təqib edənlər bu imza altında çıxan məqalələrdəki doğmalıq və canlılığı bilirlər. Bir çoxumuz Cəfər bəyi nitq söylərkən də görmüş, onun sadə sürən bir yazıçı deyil, məharətli bir natiq olduğuna da qane olmuşdur.

Yazılarında və çıxışlarında şəkilcə də parlaq olan Cəfər Bəyin ürəklərə keçən ötkünlüyü, şübhə yoxdur ki, onun yüksək idealizmindən gəlir.

Bu idealizmin nə olduğunu anlamaq üçün "Yeni Qafqasiya"dan başlayaraq bu günə qədər çıxan nəşriyyat kolleksionlarımızın, sadə, 27 Nisan və 28 Mayıs nüsxələrindəki Cəfər Bəy məqalələrinə baxmaq yetərlidir.

Əsir Türk elləri arasında milli faciəsi daha ağır olan qardaş Krım tarixinin həqiqi məhsulu olan Cəfər bəyi, bu məqalələrində də Qaspirallı Böyük İsmayıl Bəyin ənənənsinə sadiq bir ideya adamı olaraq görürük.

Bir ceyrək əsrdən bəri, həyatının ən gənc çağını canından artıq sevdiyi gözəl yurduna həsr edən Cəfər Bəy ortaq düşmənə qarşı yürüdülən istiqlal mücadiləsinin ancaq birlikdə yapılacaq ciddi bir həmlədə müvəffəq olacağına inananların başda gedənidir".***"Cəfər Seyidəhməd üçün". "Qurtuluş" jurnalı,il-2, sayı-11, sentyabr 1935-ci il.***



**Mustafa Kamal Atatürk haqqında -** "Başında Atatürk kimi bu nüfuzu yaradan və onu ən böyük ölçüdə, millət və dövlətin ən həyati mənfəətləri üçün qullanmasını(istifadəsini) bilən böyük əzmli dövlət adamları olan qardaş Türkiyənin bu tarixi müvəffəqiyyətinə biz azərbaycanlıların candan sevindiklərini söyləməyə ehtiyac varmıdır?!.." ***"Qurtuluş" jurnalı, Berlin, il:4, sayı:28, fevral 1937-ci il.*** "XX əsrin Şərqi, XIX əsr Qərb tarixinin qeyd

etdiyi Amerika ixtilalı (üsyan) ilə Fransız inqilabını bir həmlədə yapmaq zərurətindədir. Mustafa Kamalın böyüklüyü, işdə tarixin bu zərurətinin qavrayışındadır.

Bu böyük dahisi ilə türk milliyyətçiliyinin şanlı başbuğu (komandiri) eyni zamanda qurtulan Şərqin simvoludur". **"Qurtulan Şərqin simvolu".** ***"Azərbaycan" jurnalı, Ankara, il:2, sayı:8-9, noyabr-dekabrt, 1953.***



**Ziya Göyalp haqqında -** "Ziya bəy, tənəzzülə məhkum olan Osmanlı imperatorluğunun sövqi tarixlə çökən xarabalıqları altında qalan Türk nəslinə, bu fəlakətdən mütəvəllit (doğan) yeiş (matəm, yas) və hüznə qapılmayıb, yeni bir sövq ilə yaşamaq və çalışmaq ümidini təlqin etdi. Onun milliyyətpərvərlik və Türkçülük sahəsində olan elmi təbliğatı qəlblərə çökən hüznü dağıtdı. Bunun yerində o, milli ümid işığını aydınlatdı. Hazırkı Türk nəsli, vücuda gətirdiyi binanı istiqlal üçün Ziya bəyin təmsil etdiyi milliyyət fikrinə mədyundur (borcludur).

Əfəndilər, Ziya bəyin təbliğatı, yalnız Türkiyə üfüqlərinə bağlanmış bir fikir deyildir. "Türk Yurdu" və "Türk Ocağı"nın tərvic (rəvacvermə) eylədikləri əfkarın (ictimaiyyətin) mübəşşiri (xoşxəbəri) olan Ziya bəy, Türkçülük məfkurəsini Türkiyəçilik şəklində anlamırdı. Türklük yalnız Türkiyəyə bağlı olmadığı kimi, Türkçülük də Türkiyəçilik deyildir. Bütün türk ölkələri ilə bərabər, Azərbaycan Türkləri də milli məfkurə atəşi ilə tutuşmuşlardır...

Azərbaycan Türklüyü indiki halda milliyyətpərvərliyi qəbul etməyən yabançı bir qüvvətin istilasındadır. Gəncliyi "kommunizm əlifbası xaricində hər şeyi oxumaqdan məhrum edilən zalim qüvvət kitabxanalardan gərək Ziya bəyin, gərək Emin bəyin əsərlərini qaldırmışdır. Fəqət mübariz Azərbaycan gəncliyi bütün buna rəğmən, "kommunizm əlifbası"nı deyil, "Türkçülük əsasları"nı əzbərləyir". ***Ziya Göyalpın dəfni mərasimində çıxışı. 1 sentyabr 1924-cü il. "Yeni Qafqasiya" jurnalı. "Azərbaycan" jurnalı, Ankara, il 3, sayı:8(32), noyabr 1954-cü il.***



**Əli Mərdan bəy Topçubaşov haqqında -** "Əli Mərdan bəy, heç şübhəsiz Mirzə Fətəli, Həsən bəy və İsmayıl Mirzələrin canlandırdıqları milli-kültür hərəkatını milli qurtuluş yoluna çəkən böyük mücahidlərdəndir. Fəqət Əli Mərdan bəyi bu üç ustaddan olduğu kimi müasiri olan digər bəzi ideoloqlardan ayıran bir şey vardır ki,

mərhumun xüsusiyyətini təşkil edir. Əlimərdan bəy, yürütdüyü siyasətin fikirçisi olmaqdan ziyadə, işçisi idi. Onun bütün həyatı, tətbiqatda, həm də milli davanın vəkilliyi kimi, məsuliyyətli işlərin tətbiqində keçmişdir...

Bir millətin siyasi tarixində bu dərəcədə mühüm və davamlı bir yer tutan adam üçün öldü deyərlərə - inanmayın! – Əli Mərdan Bəy ölməmişdir*!..””Qurtuluş jurnalı,Berlin, noyabr 1934 cü il sayi-1*



**Nəsib bəy Yusifbəyli haqqında -** “Nəsib bəyin Azərbaycan istiqlal hərəkatındakı rolu sadə nazirlikdə və başvəkalətdə olduğunu söyləməklə ifadə edilə bilməz. Onun hərəkatdakı həqiqi rolu sonra tutduğu bu rəsmi mövqelərdən çox daha əvvəl başlamışdır. Bu rol onun Gəncədə 1917-də “Türk Ədəmi-Mərkəziyyət Xalq Firqəsi” adı ilə təsis edilən siyasi Azərbaycan firqəsinin təşkilinə təşəbbüs etməsi ilə başlar. Azərbaycan ideyasını siyasi bir tələb maddəsi şəklində formula etmək şərəfi mərhum Nəsib bəyindir.

Nəsib bəyin xatirəsi istiqlalçı Azərbaycan nəslinin zehnində səmimi bir milliyyətpərvər, demokrat və həqiqi bir radikal olaraq qalmışdır. Müasir Avropa kültürü ilə bərabər, türkcədəki iqtidarı və milli həyat, ədəbiyyat və tarixi haqqındakı mərbudiyət (bağlılıq) və ihatəsi (əhatə) ilə əkranı (yüksək şəxslər) arasında mümtaz(parlaq) bir mövqe tutan bu mücahidin üfulu (batma,qürub) bütün Azərbaycan gənclərini dərindəndərinə müfəssir(təfsir,şərh edən) eyləmiş, hər kəsin qəlbini ciddən qanatmışdır.

...Müzəffər İstiqlal nəslinin ilk yapacağı şükran (minnətdarlıq) vəzifələrindən birincisi siyasi azərbaycançılığın ilk carçılarının - Nəsib bəy adını əbədiləşdirmək və Bakı ilə Gəncədə ona bir abidə tikdirməkdən ibarət olmalıdır”. ***“Yusif bəyli Nəsib bəy” məqaləsi. “Odlu Yurd” jurnalı. İl-1-sayı-3, 27 aprel, 1929-cu il.***



**Tofiq Fikrət haqqında -** “Təvatürlə (ağızdan-ağıza yayılma) aldığımız müəssif(təəssüf doğuran) xəbərlərə görə, türk şairi Tofiq Fikrət bəy ölmüşdür. İştə (budur), “tarixi-qədim”in bir cilvəyi-dühası daha!

Türk ədəbiyyatının Osmanlı şivəsi ilə aşina olanlar bu gün sənət naminə duyduğumuz böyük bir təsirlə vəfatını xəbər verdiyimiz Tofiqin “tarixi-qədimini bilməz deyildirlər...

Bir şair üçün təsaviri-xəyaliyyəsini həqayiqi-həyatda görmək, kəndisinə daldığı zaman kəndi hissiyyatını oxşamaq üçün yazdığı nəşidələri görmədiyi, bilmədiyi ağızlardan eşitmək nə böyük bir hədiyyə, nə böyük bir zövqdür!”. ***“Açıq söz”, 20 sentyabr 1917, N570.***



**Əbdürrəhman Fətəlibəyli-Düdənginski haqqında -** “Ölülərimizi xeyirlə yad etmək kültürümüzün və ictimai tərbiyəmizin vəzifəsidir. Siyasət və ya hər hansı digər bir sahədə sivrilmiş vətəndaşların həyatını obyektiv bir qavrıyışla təsvir və təqdir etmək – tarixçinin vəzifəsidir; məzarları başında məziyyətlərindən bəhs etmək isə tərhim (yad etmə) törənlərinin ənənəsidir.

...Mərhum hərarətli bir vətənsevər və atılqan bir mücahiddi. Hadisələrin gedişi ilə bildiyimiz fəaliyyət sahəsinə hənuz (hələ) atılmadan cəbhədə adı duyulmayan bir əsgər ikən açığa vurduğu hissiyat onun səmimi bir vətənsevər olduğunu göstərir.

Hərb bitdikdən sonra müxtəlif macəralardan keçən Fətəlibəyli, nəhayət amerikalılar tərəfindən maliyyələşdirilən, Münhendə təsis edilmiş “Qurtuluş” radiosu Azərbaycan şöbəsinin şefi idi. Bolşevizmə qarşı mücadilə edən Amerikan Komitəsi mərhumun şəhid olması münasibəti ilə yayınladığı təbliğdə, onun bacarıqlı bir radio təbliğatçısı olduğunu bildirməkdədir.

Bolşeviklər özlərinə məxsus vəhşi bir üsulla müxaliflərini, tədhişə varıncaya qədər hər cürə vasitələrlə aradan götürüb məhv etməyə çalışırlar. Onların vəhşi təcavüzlərinə qurban gedənlərin sayı sayılmaqla bitməz...

...Mərhum hərarətli bir vətənsevər və atılqan bir mücahiddi. Hadisələrin sövqiylə(axarı ilə) ), bildiyimiz fəaliyyət sahəsinə hənuz (hələ) hələ atılmadan, cəbhədə adı duyulmayan bir əsgər ikən açığa vurduğu hissiyyat onun səmimi bir vətənsevər olduğunu göstərir.

Qurtuluşu müəqqəq olacaq (həyata keçəcək) hürr və müstəqil vətəndə adları şan və şərəflə anılacaq qurbanlar arasında indi xatirəsini andığımız Mərhum da olacaqdır”. ***“Azərbaycan” jurnalı, il:3; sayı:9(33), dekabr 1954-cü il.***



**Lev Davıdoviç Trotski haqqında-** "Trotski sözdə kommunizm diktatorluğu prinsiplərini bütün gücü ilə müdafiə edərək işdə firqə daxilində demokratiya əsaslarının tətbiqini tələb etdi. Buna müqabil firqə makinasını əlinə alan Stalin isə Lenin zamanında liderin, daha ziyadə mənəvi nüfuzu ilə ayaqda duran diktatorluğu bürokratiya təşkilatı ilə təmin edərək, həddi zatında kommunist müxalifi ictimai zümrələrə qarşı idarəvi məsləhət yolunu tutdu. Qələbə Rusiya şəraiti daxilində daha real bir taktika təmsil edən Stalin tərəfində qaldı. Kommunizm ixtilalının onuncu ildönümündə firqənin ikiyə ayrıldığı olmuş bir iş idi. Başda Trotski, Zinovyev, Radek və Kamenev kimi liderlər olmaq üzrə bir çox "trotskçilər" firqədən uzaqlaşdırılmış və uzaq vilayətlərə sürülmüşlər.

...Leninlə bərabər Trotski "fəhlə diktatorluğu"nun nəzəriyyəsini hazırlamış, bu nəzəriyyəyə görə demokratiyanı və onun əsasını təşkil edən bütün hürriyyətləri inkar eyləmişdi. İndi isə bu teoriyanın( nəzəriyyənin) tətbiq olunduğu "İdeal məmləkətdən doğulan bu "teoretik" iqtidarda ikən üzünə tüpürdüyü demokratiya məmləkətlərində özünə əlac aramaqla məşğuldur".

***"Odlu Yurd" jurnalı, İstanbul, il:1, sayı 1, mart 1929-cu il.***

## ŞƏXSƏN GÖRÜŞDÜYÜ, MÜNASİBƏTDƏ OLDUĞU ŞƏXSİYYƏTLƏR



**Əli bəy Hüseynzadə (1864-1941)** - Türk dünyasının böyük mütəfəkkiri. M.Ə.Rəsulzadənin 1905-1906-cı illərdən Ə. Hüseynzadə ilə tanışlığı olmuş, 1911-1913-cü illərdə isə Türkiyədə, İstanbulda "Türk Ocaqları"nda görüşüblər. 1923-cü ildə M.Ə.Rəsulzadənin Türkiyədə nəşr edilən "Azərbaycan Cümhuriyyəti" kitabına giriş sözünü Ə. Hüseynzadə yazıb.



**Əhməd bəy Ağaoğlu (1869-1939) –** Azərbaycanın görkəmli ziyalısı. M.Ə.Rəsulzadə onun 1905-ci ilin dekabrından nəşr etdiyi "İrşad" qəzetində çoxlu sayda məqalələr çap etdirib. Sonradan nəşr edilən "Tərəqqi" qəzetində də onların birgə əməkdaşlığı olub. 1911-1913-cü illərdə Türkiyədə olarkən görüşüblər. 1918-ci ildə Nuru Paşanın müşaviri kimi Azərbaycana gələn Ə.Ağaoğlu ilə anlaşılıb və "Milli Şura"nın buraxılması ilə bağlı Nuru Paşanın təklifini M. Ə. Rəsulzadə qəbul edib.



**İosif Vissarionoviç Stalin (Cuqaşvili) (1879-1953) –** Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının liderlərindən biri, Sovet İttifaqı Kommunist Partiyasının Baş Katibi, 1941-ci ildən isə SSRİ Nazirlər Sovetinin sədri, 31 il Sovet dövlətinə başçılıq etmiş şəxs. M.Ə.Rəsulzadə onunla 1904-1905-ci illərdə tanış olub, eyni təşkilatda fəaliyyət göstərib, sonra ideoloji yollarını ayırıblar. M.Ə.Rəsulzadə Stalinin həbsxanadan qaçmasına kömək göstərib, bəzi

məlumatlara görə hətta onu bir neçə dəfə həbs olunmaqdan xilas edib. 1920-ci ildə isə Stalin onu Bakıda həbsxanadan azad etdirib özü ilə Moskvaya aparıb.



**Jozef Pilsudski (1867-1935) –** Polşanın görkəmli siyasi və dövlət xadimi, 1918-ci ildə bərpa edilmiş Polşa dövlətinin başçısı, Polşanın Marşalı.Onun ciddi dəstəyi ilə mühacir təşkilatları sovet rejiminə qarşı böyük mübarizə aparıb. J.Pilsudski azərbaycanlı zabitlərin də Polşa ordusunda müqavilə əsasında xidmətinə icazə verib. M.Ə.Rəsulzadənin bu mövzuda Marşal Pilsudski ilə yazışmaları mövcuddur.



**Ziya Göyalp (1876-1924) –** Türk dünyasının tanınmış mütəfəkkiri. "Türkçülüyün əsasları" kitabını yazan tanınmış şəxsiyyət. M.Ə.Rəsulzadə 1911-1913-cü illərdə "Türk Ocaqları"nda onunla tanış olub, onun nəzəri fikirlərini qəbul edib. Z.Göyalpın ölümü münasibəti ilə yazdığı məqaləni 1924-cü ildə "Yeni Qafqasiya"da nəşr etdirib.



**Hacı Zeynalabdin Tağıyev (1838-1924) –** tanınmış Azərbaycan milyonçusu və xeyriyyəçisi, ictimai xadim, maarif və mədəniyyət himayəçisi. H.Z.Tağıyev peyğəmbərin doğum günü münasibəti ilə "İsmailiyyə"də keçirilən yığıncağa xəstəliyinə görə gələ bilmədiyindən öz adından olan yazılı məktubu (məktubda Kazan tatarlarına və dağıstanlılara Hacının 50 000 manat verib onlara məscid tikdirəcəyi bildirilirdi) M. Ə.Rəsulzadənin oxumasını xahiş edib. 1915-ci ilin dekabrında "Açıq söz"də H.Tağıyevin səxavətindən, xeyirxahlığından bəhs edən "Hacının Hədiyyəsi" məqaləsi də çap olunub.



**Musa Cərullah Bigiyev (1875-1949) –** tanınmış tatar maarifçisidir. Sankt-Peterburqda yaşayıb. M.Ə.Rəsulzadənin Rusiyadan qaçıb getməsinə əsas kömək edənlərdən olub.



**Əlimərdan bəy Topçubaşov (1862-1934) –** Azərbaycan Parlamentinin ilk sədri, Azərbaycanın Versal Sülh Konfransına göndərilmiş nümayəndə heyətinin rəhbəri. M.Ə.Rəsulzadənin Ə.M.Topçubaşovla 1918-ci ilə qədər də birgə fəaliyyətləri olub. 1920-ci ildən sonra azərbaycanlı mühacirlərin bir araya gəlməsində hər ikisi ciddi fəaliyyət göstərib. 1934-cü ildə Brüsseldə qəbul edilən "Qafqaz Konfederasiya Sazişi" sənədində hər ikisinin imzası var.



**Nəsib bəy Yusifbəyli (1881-1919)** – Azərbaycanın Baş Naziri və Maarif Naziri olub. Gəncədə yaratdığı "Türk Ədəmi-Mərkəziyyət" Partiyasının M.Ə.Rəsulzadənin başçılıq etdiyi "Müsavat" Partiyası ilə birləşdirilməsinin təşəbbüsçülərindən olub. M.Ə.Rəsulzadənin Baş redaktoru olduğu "Açıq söz" qəzeti ilə də əməkdaşlıq edib.



**Fətəli Xan Xoyski (1875-1920)- –** Azərbaycanın ilk Baş Naziri. M. Ə. Rəsulzadənin Azərbaycan Parlamentində başçılıq etdiyi ən böyük fraksiya olan "Müsavat" Fətəli xanın iki dəfə Baş Nazir seçilməsini məqbul sayıb. M.Ə.Rəsulzadə mühacirət dövründə onun xatirəsinə bir məqalə də həsr edib.



**Nuru Paşa Killigil (1889-1949) –** tanınmış Türkiyə hərbiçisi, Qafqaz İslam Ordusunun komandiri. M.Ə.Rəsulzadə onunla Gəncədə tanış olub və onun Milli Şuranın buraxılması təklifini də qəbul edib. Bəzi azərbaycanlı siyasətçilərdə Nuru Paşaya qarşı inamsızlığın aradan götürülməsinə M.Ə.Rəsulzadə ciddi təsir göstərib.



**Ənvər Paşa (1881 – 1922) –** Türkiyənin Sultan hökumətinin Hərbi Naziri olub. "Qafqaz İslam Ordusu"nun Bakını azad etməyə göndərilməsinin təşəbbüsçüsüdür. M.Ə.Rəsulzadə 1918-ci ildə İstanbulda konfransda olarkən onunla görüşmüşdü. Bakının azad edilməsi xəbərini də M.Ə.Rəsulzadəyə ilk dəfə Ənvər Paşa çatdırıb.



**Üzeyir Hacıbəyli (1885-1948) –** Azərbaycanın tanınmış musiqi xadimi və jurnalisti, görkəmli ziyalısı. M.Ə.Rəsulzadə onunla "İrşad" qəzetində əməkdaşlıq edib. Ü. Hacıbəylinin nəşrə hazırladığı "Mətbuatda istifadə olunan siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin türki-rusi və rusi-türki lüğəti" kitabının (1907-ci ildə) redaktoru M.Ə.Rəsulzadə olub. M.Ə.Rəsulzadə Ü. Hacıbəylinin xatirəsinə məqalə də həsr edib.



**Cəfər Cabbarlı (1899-1934) –** Azərbaycanın tanınmış yazıçı və dramaturqu. C. Cabbarlı "Müsavat" Partiyasının üzvü və 1920-ci ilin 27 Aprel işğalından sonra M.Ə.Rəsulzadənin rəhbərliyində yaradılan "Gizli Müsavat" təşkilatının ümumi katibi olub. M.Ə Rəsulzadə sonradan yazdığı "Çağdaş Azərbaycan ədəbiyyatı" əsərində C.Cabbarlının yaradıcılığını müsbət qiymətləndirib.



**Ceyhun Hacıbəyli (1891-1962) –** tanınmış ictimai-siyasi xadim və jurnalist. Azərbaycan Xalq Cümhuriyyəti dövründə "Azərbaycan" qəzetinin redaktoru olub. Sonradan isə mühacirətdə yaşayarkən M.Ə. Rəsulzadə ilə məktublaşıb, görüşüb sovet rejiminə qarşı birgə mübarizə aparıb, azərbaycanlıları təşkilatlandırıblar.



**Əhməd Cavad (1893-1937) –** Azərbaycanın tanınmış istiqlal şairi, Azərbaycanın dövlət himninin müəllifi. M.Ə.Rəsulzadənin onunla yaxından tanışlığı olub, bir sıra xeyriyyə cəmiyyətlərində çalışıblar.M.Ə.Rəsulzadə "Çağdaş Azərbaycan ədəbiyyatı" əsərində Ə.Cavadı böyük şair olaraq təqdir edib.



**Abdulla Şaiq (1881-1959) –** tanınmış şair və ziyalı olan bu şəxsiyyət 1917-ci ildə "Müsavat" Partiyasının himnini yazıb və M.Ə.Rəsulzadənin redaktoru olduğu "Açıq söz" qəzetində çap etdirib. M.Ə.Rəsulzadə ilə yaxın münasibətləri olub.

**Stanislav Sedlitski –** Polşanın tanınmış ictimai xadimi, senator, Şərq İnstitutunun direktoru. M.Ə.Rəsulzadənin 1938-ci ildə Polşanın Varşava şəhərində polyak dilində nəşr edilən kitabına ön sözü yazıb. M.Ə.Rəsulzadəni Azərbaycan Milli Hərəkatının ideoloqu kimi dəyərləndirib.



**Zəki Vəlidi Toğan –** Başqırdıstan Respublikasının ilk rəhbəri olub (1917-ci il noyabr), bolşevizmə qarşı əsası qoyulan "Prometey" hərəkatı yaradılmasının təşəbbüskarlarından biri kimi fəaliyyət göstərib.



**Abdulla Battal Taymas (**1883-1969) - Kazan türklərinin liderlərindəndir. 1925-ci ildə Türkiyəyə gedib. 1927-ci ildə Mətbuat Ümumi müdirliyində rusca tərcüməçi olaraq çalışıb. Qəzet və jurnallarda Kazan Türkləri və digər tarixi mövzularda çoxlu sayda məqalələr, əsərlər yazıb çap etdirb. M.Ə.Rəsulzadə ilə yaxın dostluq münasibətində olub.



**Cəfər Seyidəhməd Krımər** (01 sentyabr 1889 – 3 aprel 1960) – Krım Türklərinin liderlərindəndir. Yaltada doğulub. 1917-ci ilin 26 noyabrından Krım Cümhuriyyətində Hərb və Xarici İşlər Naziri olub. Krımın işğalından sonra Türkiyə və Avropada Krımın istiqlalı mücadiləsini aparıb. M.Ə.Rəsulzadənin yaxın əqidə dostlarından olub.



**Mustafa Çokayoğlu (Çokayev)** (1890-1941) – Qazaxıstanın tanınmış dövlət və ictimai xadimi. 1918-ci ilin yanvarında Türküstan vilayəti ("Kokand vilayəti") hökumətinə başçılıq edib. 1918-ci ilin 21 fevralında bu hökumət bolşeviklər tərəfindən dağıdıldıqdan sonra 1921-ci ildə Avropaya mühacirət edib. İstanbulda "Yeni Türküstan" jurnalını nəşr edib (1927-1931). "Prometey" təşkilatının üzvü kimi M.Ə. Rəsulzadənin mühacirətdə bolşevizmə qarşı birgə mücadilə etdiyi silahdaşlarından olub.



**Həmdullah Sübhi Tanrıövər** (1885-1916) – "Türk Ocaqları"na uzun müddət başçılıq edib, Antalya millət vəkili olub. Mətbuat və İstihbarat Ümumi Müdirliyi və Milli Təhsil naziri vəzifələrində çalışıb, Türkiyənin Rumıniyada Böyükelçisi olub. M.Ə.Rəsulzadə ilə yaxın dostluq münasibətləri olub.



**Nəriman Nərimanov** (1870-1925) – tanınmış ictimai-siyasi xadim, yazıçı-dramaturq. RSDFP-nin (Rusiya Sosial-Demokrat Fəhlə Partiyası) Bakı Komitəsinin nəzdində yaradılan "Hümmət" təşkilatının (bu təşkilatın yaradıcılarından biri də M.Ə.Rəsulzadə idi) fəallarından olub. M.Ə. Rəsulzadənin redaktorluğu ilə çıxan "Hümmət" qəzeti nəşrini dayandırdıqdan sonra 1917-ci ildə iyulun 3-də Bakıda N. Nərimanov tərəfindən yenidən çap edilib. M.Ə.Rəsulzadə ilə səmimi münasibətləri olsa da, siyasi baxışlarında ciddi fikir müxtəlifliyi olub.



**Mirzə Bala Məmmədzadə** (1898-1959) – Azərbaycanın ictimai-siyasi və mətbuat xadimi. 1915-ci ildən "Açıq söz" qəzeti ilə əməkdaşlıq edib, M.Ə.Rəsulzadə ilə tanış olub. 1918-1920-ci illərdə Azərbaycan Parlamentində çalışıb. Azərbaycan Cümhuriyyətinin süqutundan sonra M.Ə.Rəsulzadənin məsləhəti ilə Bakıda "Gizli Müsavat" təşkilatının rəhbəri olub. Sonradan mühacirətdə yaşayıb və M.Ə.Rəsulzadənin nəşr etdiyi mətbuat orqanlarında çalışıb. M.Ə.Rəsulzadənin vəfatından sonra "Müsavat" Partiyasının başqanı olub.



**Abbasqulu Kazımzadə** (1882-29 iyul 1947) – tanınmış ictimai-siyasi və mətbuat xadimi, "Müsavat" Partiyasının ilk qurucularından biri. Mühacirətdə mətbuat və jurnalların nəşrinə ciddi dəstək verib. Özünün naşirliyi ilə 1930-cu ildə İstanbulda "Bildiriş" qəzeti nəşr edilib. M. Ə. Rəsulzadənin çox yaxın silahdaşı olub.

**Məhəmməd Girey Sunş (Sunşev)** (1883- ___) – əsli balkardır, knyaz olub. 1917-ci ilin Fevral-Burjua inqilabından sonra Kabardin-Balkar Milli Şurasının üzvü seçilib. 1926-cı ildə yaradılan "Qafqaz İstiqlal Komitəsi"ndə Dağlıları təmsil edib, 1934-cü ildə isə Brüsseldə M.Ə.Rəsulzadə ilə birgə "Qafqaz Konfederasiya Sazişi"ni o da imzalayıb. M.Ə.Rəsulzadənin yaxın silahdaşlarından sayılıb.



**Heydər Bammat** (1890-1965) – əslən kumıkdır. Teymurxan-Şurada doğulub. Sankt-Peterburq Universitetini bitirib. 1917-ci ilin Fevral İnqilabından sonra T.Çermoyevin və P.Kotsevin hökumət kabinəsində Xarici İşlər Naziri olub. Mühacirətdə yaşadığı dövrdə M.Ə.Rəsulzadə ilə münasibətlərində ziddiyyətlər yaşanıb. Baş redaktoru olduğu "Qafqaz" jurnalında qoyulan mövqe ilə M.Ə.Rəsulzadə çox zaman razılaşmayıb. Lakin H.Bammat ABŞ, Almaniya və Polşa dövləti rəsmiləri ilə yaxın əlaqələr yaradaraq, mühacirlərə təsir etmək gücündə olub.



**Seyid Həsən Tağızadə** (1878-1970) – Təbriz türklərindəndir. İranın siyasi və sosial həyatında önəmli rol oynayıb. Kitabxana və məktəblər açaraq "Tərbiyəti Kültür Cəmiyyəti"nin qurulmasında böyük fəaliyyəti göstərib. Siyasi fəaliyyətinə görə 1903-cü ildən İstanbulda sürgündə yaşayıb. 1906-1911-ci

illərdə İran Məşrutə hərəkatında fəallıq göstərib və "İran Demokrat Partiyası"nın qurucularından sayılır. M.Ə.Rəsulzadə ilə birgə çalışıb. Məşrutə hərəkatı yatırılandan sonra M.Ə.Rəsulzadə ilə birlikdə İstanbulda olub. Sonradan İrana qayıdıb, nazir, senator, İranın London Böyükelçisi olub. Yaxın dostu M.Ə.Rəsulzadənin ölümündən sonra onun xatirəsinə çox önəmli və təsirli bir məqalə yazıb, Tehranda çıxan "Süxən" jurnalının 1955-ci ildə, 4-cü sayında nəşr etdirib.



**Səttar xan** (1870-1914) – 1905-1911-ci illərdə İrandakı Məşrutiyyət Hərəkatının öndə gedən rəhbərlərindən biridir. Xalq arasında Sərdari-Milli adı ilə tanınırdı. 1908-ci ilin 23 iyununda şah ordusunun Təbrizə daxil olması sırasında böyük fədakarlıqlar etdi. 1910-cu ildə fədailərlə Tehrana getdi. Hökumət fədailərdən silahları toplayarkən baş verən bir toqquşmada ağır yaralanıb dünyasını dəyişdi. M.Ə.Rəsulzadə İranda olarkən onunla görüşüb, söhbətlər edib, sonradan isə xatirəsinə həsr etdiyi "Səttar xan" məqaləsini 1914-cü ilin noyabrında Bakıda çıxan "İqbal" qəzetində (N 786) nəşr etdirib.

**Yohannes Benzinq** (1913-___) – məşhur alman türkoloqudur. 1930-40-cı illərdə müasir Türküstanın tarixi problemləri ilə bağlı çoxlu yazılar çap etdirib. Almaniya Federativ Respublikasının Türkiyədə konsulu olub (1956-1963-cü illər). Əsas fəaliyyət sahəsi müsəlman xalqlarının çar və sovet Rusiyasına qarşı mübarizəsini araşdırmaq olub. M.Ə.Rəsulzadə ilə yaxın dostluq münasibətləri olub, bir-biri ilə yazışıblar.

**Hilal Münşi (12.04.1899-?)** – mühacir, əsli Şuşadandır.



Almaniyada təhsil alıb.1928-ciildən M.Ə.Rəsulzadənin məsləhəti və mühacir təşkilatı rəhbərlərinin qərarı ilə təşkilatçılıq işi ilə məşğul olub. 1932-ci ildən əvvəl "İstiqlal" qəzetində, sonra isə "Qurtuluş" jurnalında texniki redaktor olaraq çalışıb. O, eyni zamanda Berlində Azərbaycan nəşriyyatının ümumi rəhbərliyini də icra edib. M.Ə.Rəsulzadənin yaxın ideya və məslək dostlarından olub. H.Münşi həm də Almaniyadakı "Azərbaycan İstiqlal Komitəsi"-nin sədri idi (katibi isə Əbdülhüseyn Dadaşzadə idi).

H.Münşi 1931-ci ildə alman dilində Azərbaycan haqqında kitab (“Azərbaycan Respublikası”) çap etdirib.



**Noy Jordaniya** (15 yanvar 1867- 12 yanvar 1953) – Gürcüstanın ilk prezidenti və müstəqil Gürcüstan hökumətinin başçısı. Gürcüstanda doğulan N. Jordaniya Varşavada və İsveçrədə ali təhsil alıb. 1893-cü ilin fevralında gənc marksistlərin ilk dərnəyi olan “Mesame Dase”ni yaradıb. RSDFP-nin Gürcüstanda ilk bölməsini təşkil edib. 1906-cı ildə Rusiyada I Dövlət Dumasının üzvü seçilib. 1918-1921-ci illərdə Müstəqil Gürcüstan dövlətinə başçılıq edib. 1921-ci ilin 19 martında sovet ordusu Gürcüstanı işğal etdikdən sonra Fransaya gedib, mühacirətdə yaşayıb, bolşevik rejiminə qarşı mücadilə edib. M.Ə.Rəsulzadə ilə yaxın dostluq münasibətləri olub.

**Yothard Yaşke** (1894-1983) – tanınmış alman türkoloqu, professor, linqvist və diplomatı. Almaniyanın Ankaradakı Böyükelçiliyində və İzmir konsulluğunda çalışıb. Almaniya Xarici İşlər nazirliyində Şərq şöbəsində işləyib. Berlin Universitetinin Şərq İnstitutunda türk dili və ədəbiyyatından dərs deyib. M.Ə.Rəsulzadə ilə yaxın dostluq münasibətlərində olub.



**Yusif Akçuraoğlu** (1876-1935) – böyük türkçü, tarixçi alim. O, Krımdan Kazana köçmüş kübar tatar ailəsinə mənsubdur. Əsli Kazandandır. “Türk Dərnəyi”, “Türk Yurdu”, “Türk Ocaqları” kimi cəmiyyətlərin qurucusu olub. “Türk Dərnəyi”, “Türk Yurdu” dərgilərini çıxarıb. “Üç tərzi-siyasət” (1904), “Türkçülüyün tarixi” (1928) kimi məşhur məqalə və əsərin müəllifidir.M.Ə. Rəsulzadə ilə “Türk Ocaqları”nda tanış olub yaxından dostluq ediblər.



**Seyid Hüseyn Sadıqzadə** (1887-1938) – Yazıçı, jurnalist. “Təzə həyat” və “Kaspi” qəzetlərinin mətbəələrində mürəttib olub, şərikli “Bəhlul”, “Kəlniyyat” və “Qurtuluş” jurnallarını nəşr edib. 1913-1914-cü illərdə “İqbal” qəzetinin Baş redaktoru olub. 1907-ci ildən bədii yaradıcılığa başlayıb. 1937-ci ildə həbs edilib, 1938-ci ilin yanvar ayında güllələnib. Tanınmış istiqlal şairəsi Ümgülsüm xanım onun həyat yoldaşı idi. M.Ə.Rəsulzadənin həm yaxın əqidə və məslək dostu, həm də bacanağı olub.



**Hüseyn Cavid** (1882-1941) – Azərbaycanın tanınmış şair və dramaturqu. Böyük şair M.Ə.Rəsulzadənin Baş redaktoru olduğu “Açıq söz” qəzeti ilə əlaqə saxlayır və yazılarını çap etdirirdi.M.Ə.Rəsulzadə “Çağdaş Azərbaycan ədəbiyyatı” əsərində H. Cavidin əsərlərini yüksək dəyərləndirib.



**Həsən bəy Ağayev** (1875-1920) – Moskva Dövlət Universitetini bitirib. M.Ə.Rəsulzadənin başçılıq etdiyi “Azərbaycan Milli Şurası”nın sədr müavini olub. O, eyni zamanda “Müsavat” Partiyasının rəhbərliyində təmsil edilərək, Azərbaycan Parlamentinin sədr müavini vəzifəsində çalışıb..



**Məhəmməd Həsən Hacınski** (1875-1931) – Sankt-Peterburq Texnoloji İnstitutunu bitirib. 1904-cü ildən siyasi fəaliyyətə başlayıb. M. Ə. Rəsulzadə ilə birgə Batumda Azərbaycan dövləti ilə Osmanlı Türkiyəsi arasındakı ilk rəsmi sənədi imzalayıb. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ilk Xarici İşlər Naziri olub.



**Leon Nayman Mirzə Kriçinski (1887-1939) –** Azərbaycan Xalq Cümhuriyyəti dövründə Nazirlər Şurası Dəftərxanasının rəisi olub (1919-1920-ci illərdə). Əsərlərini "Aslan bəy Kriçinski" imzaları ilə də çap etdirib. 1932-ci ildən Polşa Şərqşünaslar Cəmiyyətinin üzvü olub. 1936-cı ildə Polşa Ədəbiyyat Akademiyasının "Gümüş Dəfnə" mükafatına layiq görülüb. Polşanın Vilno şəhərində tatarların Milli Kitabxanasını və Arxivini yaradıb. Polşa tatarları "Mədəni-Maarif Cəmiyyətinin Mərkəzi Şurası"nın üzvü və cəmiyyətin qərarı ilə 1932—ci ildən nəşrə başlayan "Tatarski Roçnik" məcmuəsinin Baş redaktoru olub.M.Ə.Rəsulzadənin onunla yaxın tanışlığı olub və "Aleyhim Selam" məqaləsini də onun Baş redaktoru olduğu məcmuədə çap etdirib.



**Əhməd Cəfəroğlu (17.04.1899-06.01.1975) –** tanınmış dilçi alim, türkoloq, İstanbul Universitetinin professoru. Gəncədə doğulub, Nuru Paşanın xilaskar ordusuna qoşulub Bakıya gəlib, 1920-ci ildən sonra mühacirətdə yaşayıb. Almaniyada Berlin və Breslau universitetlərində təhsil alıb. İstanbul Universitetinin professoru olub, "Azərbaycan Yurd Bilgisi" jurnalını nəşr edib. Dünyanın məşhur millətlərarası elmi cəmiyyətlərinin üzvü seçilib. Türkiyədə fəaliyyət göstərən Türkologiya İnstitutunun direktoru vəzifəsində çalışıb. M.Ə.Rəsulzadə ilə yaxın məslək və mücadilə dostu olub.



**Tadeuş Qolubko (1889-1931) –** publisist, 1920-ci ildən Polşa Baş Qərargahının II bölməsinin əməkdaşı, diplomat. 1925-ci ildə Parisə gedib, azərbaycanlı, gürcü, ukraynalı, tatar mühacirləri ilə görüşüb, sonra Türkiyəyə gedərək, Azərbaycan mühacirləri ilə əlaqə qurub. 1926-1927-ci illərdə Varşava Milli Problemlər İnstitutunun direktoru vəzifəsində çalışıb. 1927-1930-cu illərdə Polşa Xarici İşlər Nazirliyi Şərq şöbəsinin rəisi, 1930-cu ildən Polşa Seyminin deputatı olub.



**Tadeuş Şetsel (1891-1971) –** mühəndis, Birinci Dünya müharibəsinin iştirakçısı. 1918-ci ildən Polşa kəşfiyyatında çalışıb. 1924-1926-cı illərdə Polşanın Türkiyədəki səfirliyində Hərbi Attaşe olub. 1926-1928-ci illərdə Polşa Baş Qərargahının II Şöbəsinin rəisi, polkovnik vəzifəsində olub. 1928-ci ildən diplomatik xidmətdə çalışıb. 1930-cu ildən müavin, 1931-ci ildən isə Polşa Xarici İşlər Nazirliyində Şərq Şöbəsinin rəisi olaraq fəaliyyət göstərib. "Prometeyçilik" termininin müəlliflərindəndir. Onun bu ideyası Polşa dövlətinin başçısı J.Pilsudski tərəfindən dəstəklənib. 1935-ci ildə istefaya getmiş, Polşa Seyminin deputatı olmuş və mühacirətdə yaşamışdır.



**Noy Vissarionoviç Ramişvili (1881-1930) –** hüquqşünas, menşevik, Ümumrusiya Müəssislər Məclisinin deputatı, Gürcüstan Respublikasının Daxili İşlər Naziri (1918-1921-ci illər).

**Simon Qurgenoviç Mdivani (1876—1937) -** Gürcüstanın "İnqilabçı Sosial Federalistlər" partiyasının liderlərindən və Gürcüstan Respublikasının rəhbərlərindən biri (1918-1921); gürcü mühacirlərinin tanınmış lideri; 1924-1928-ci illərdə "Gürcü Milli Mərkəzi"nin İstanbuldakı nümayəndəsi, publisist

**Roman Lazarski (1887-1969)** – Polşanın Türkiyədəki diplomatı.

**Nikola Kovalski (Nikolay Kovalevski)** – Ukrayna siyasətçisi, 1918-1919-cu illərdə S.Petlyure hökumətində Təbliğat Naziri. 1920-ci ildən Praqada, sonra Varşavada yaşayıb. Varşavada "Prometey" klubunun üzvü olub.

**Mateuş İgitski (1898-?)** – Polşa diplomatı, 1929-cu ildə Polşa Baş Qərargahının II Şöbəsinin 2 saylı İstanbul rezidenturasının əməkdaşı.

**Qeyd:** ***2 saylı Ekspozitura – Polşa Baş Qərargahının II Şöbəsində (Kəşfiyyat) analitik informasiya bölməsi.***

**Edmund Xaraşkeviç (1893-1975)** – mayor, 1928-1939-cu illərdə Polşa Baş Qərargahının II Şöbəsinin 2 saylı Ekspoziturasının rəisi.

**Yan Tavronski (1892-1983)** – Polşa diplomatı. 1929-1932-ci illərdə Polşanın Ankaradakı səfirliyinin katibi, 1932-1938-ci illərdə isə Avstriyada səfiri.

**Leon Vasilevski (1870-1936)** – Polşa publisisti, tarixçi diplomat. "Polşa Sosialist Partiyası"nın nəzəriyyəçisi, milli məsələlər üzrə mütəxəssis.

**Məhəmməd bəy Ağaoğlu (1896-1949) –** filoloq, 1919-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə elmi-mədəni quruculuq sahəsində iştirak edib. 1920-ci ilin Aprel işğalından sonra Türkiyədə, Almaniyada, Avstriyada yaşayıb. 1926-cı ildə Vyana Universitetinin Şərqşünaslıq fakultəsini bitirib. 1929-cu ildə ABŞ-a gedib. 1933-1938-ci illərdə Detroyt Universitetinin professoru və "Müsavat"ın Detroytda təmsilçisi olub.

**Vlodrimey Dombrovski (1896-1962)** – Polşa Baş Qərargahı II Şöbəsinin mayoru, 1933-1937-ci illərdə 2 saylı Ekspozituranın Paris üzrə rəhbəri.

**İ.Skarjinski** – 1930-cu illərdə Polşanın Parisdəki diplomatı və kəşfiyyatçısı olub.M.Ə.Rəsulzadənin onunla yazışmaları mövcuddur.



**Ayaz İshaqi (1878-1954)** - Tatar milli hərəkatının tanınmış xadimi, yazıçı, publisist, nasir, siyasətçi, Rusiya Dövlət Dumasının III və IV çağırışlarının üzvü.

1878-ci ilin 23 fevralında Kazan şəhəri yaxınlığında, Yavşirmə kəndində ruhani ailəsində anadan olub. "Təəllümdə səadət" adlı ilk əsərini 18 yaşında yazıb. 3 cildlik "Molla Batay" romanı, "Züleyxa" pyesi və başqa əsərləri ona böyük şöhrət gətirirb. Eyni zamanda o, "Tan" adlı qəzetin də təsisçisi olub. Çar Rusiyasına qarşı apardığı siyasi mübarizəyə görə həbs edilib. Son dəfə isə Peterburqda həbs olunur və 3 il Arxangelskin ən uzaq bir guşəsinə sürgün edilir. 1917-ci ildə o, Moskvada "El" qəzetini nəşr edir, Rusiya Müsəlmanları Qurultayının iştirakçısı və İdil-Ural muxtariyyətinin qurucularından olur. Sonradan Avropaya gedir, "Prometey" hərəkatında fəallıq göstərir. Mühacirətdə "Milli Yol", "Yana Milli Yol", "Milli Bayraq" kimi jurnal və qəzetlərin təsisçilərindən olur.Ayaz İshaqi bəy İdil-Ural adlanan Kazan, Türk Tatarlarının dünyada tanınmış lideridir.



**Gerhard Von Mende (25 dekabr 1904-16 dekabr 1963) –** Baltik almanlarından olan professor Gerhard Von Mende Riqa şəhərində doğulub, sonradan Almaniyaya köçüb. O, Şimal türklərindən olan Sofya Sırtlan ilə ailə qurub. Berlin Universitetinin Xarici Ölkələr fakultəsində professor olaraq çalışıb. 1936-cı ildə "Rusiyadakı Türklərin Milli Mücadiləsi" əsərini nəşr etdirib. Sonradan onun yazdığı "Sovetlər Birliyində yaşayan xalqlar" kitabı da böyük maraqla qarşılanıb. Professor Von Mende türklər haqqında yazdığı əsərlərlə yanaşı onların problemləri ilə də ciddi məşğul olub. İkinci Dünya müharibəsi illərində Almaniyanın Şərq Nazirliyində Qafqaz şöbəsinə başçılıq edən Von Mendenin M.Ə.Rəsulzadə ilə də əlaqələri olub.



**Aleksandr Kerenski (1881-1970) –** Çar Rusiyasında IV Dövlət Dumasının deputatı, 1917 ci ilin Fevral Burjua İnqilabından sonra Ədliyyə Naziri (mart-may), Hərbi və Dəniz Naziri (may-avqust),həmin ilin iyulundan isə Müvəqqəti Hökumətin Nazir-sədri, Ümumrusiya Müəssislər Məclisinin sədri.Mühacirətdə M.Ə.Rəsulzadə ilə ciddi fikir ayrılıqlarında olub.

**Səid Tahir Əfəndi –** dağstanlı, dini xadim, “Yeni Qafqasiya”nın məsul katibi (1923-1925).



**Əkbərağa Şeyxülislamzadə (Şeyxülislamov) (1891-1961) –** 1918-ci ildə Milli Şuranın və “Sosialist” partiyasının üzvü olub. Zaqafqaziya Seyminin deputatı, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Torpaq və Əmək Naziri, Parlament üzvü. Azərbaycan Xalq Cümhuriyyətinin Versal Sülh Konfransındakı nümayəndəsi kimi də fəaliyyət göstərib.



**Xəlil Xasməmmədov (1873-1947) –** 2-ci və 3-cü Rusiya Dövlət Dumasının deputatı, Zaqafqaziya Seyminin deputatı, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Ədliyyə Naziri, Yol-Teleqraf Naziri, Daxili İşlər Naziri, Parlament üzvü.



**Abbas Atamalıbəyov (1895-1971) –** Azərbaycan Parlamentində sosialist fraksiyasının və Versal Sülh Müqaviləsində nümayəndə heyətinin üzvü.



**Şəfi bəy Rüstəmbəyli (1893-1960) –** Dövlət xadimi, Azərbaycan Parlamentinin üzvü. 1919-1920-ci illərdə Daxili İşlər Nazirinin müavini və "Azərbaycan" qəzetinin (rus dilində) redaktoru.

**Georgi Qvazava (1869-1941)** - gürcü yazıçısı, siyasi və ictimai xadim, hüquqşünas, "Gürcü Milli-Demokrat" partiyasının üzvü, siyasi mühacir.1926-cı ildən Parisdə nəşr edilən "Prometey" lurnalının redaktoru olub.



**Sultan Məcid Qənizadə (1866-1937) –** Azərbaycan yazıçısı, pedaqoq, tərcüməçi, 1918-1920-ci illərdə Azərbaycan Parlamentinin üzvü. M.Ə.Rəsulzadənin təhsil aldığı məktəbin direktoru olub.



**Mir Yaqub Mehdiyev (1891 - 1952) –** Peterburq Politexnik İnstitutunu bitirib**.**“İttihad” partiyasının yaradıcılarından olub. Parlament üzvü və Versal Sülh Müqaviləsində Azərbaycan Nümayəndə Heyətinin üzvü olaraq fəaliyyət göstərib. 1920-1935-ci illərdə mühacirətdə rus və fransız dillərində nəşr edilən mətbuatda müxtəlif yazılarla çıxış edib. “Qafqaz problemi”və “Beynəlmiləl siyasətdə petrol” kitablarının müəllifidir.



**Əhməd Salikov (1882-1928) –** Noqay Türklərinin Dağıstan lideri olub, Rusiya müsəlmanlarının 1917-ci ilin mayında keçirilən Birinci Qurultayında Rusiyanın geniş özünüidarəçilik prinsipi əsasında mərkəzləşdirilmiş demokratik parlament respublikası şəklində qurulması təklifi ilə çıxış edib. Onun fikrincə Rusiya müsəlmanlarının milli-mədəni muxtariyyəti ictimai-hüquqi institut kimi konstitusiya zəmanəti almalı idi. Lakin qurultayda M. Ə. Rəsulzadənin irəli sürdüyü “Rusiyanın milli-ərazi federativ zəmində demokratik respublika şəklində təşəkkül tapması” qətnaməsi 271səsə qarşı 446 səs toplamışdı.



**Olgerd Nayman Mirzə Kriçinski (1884-1941) –** General Masey Sulkeviçlə birlikdə Krımdan Bakıya gələrək 1919-cu ilin əvvəllərindən 1920-ci ilin 27 aprelinə qədər əvvəl apellyasiya məhkəmə-sinin prokuroru, daha sonra isə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Ədliyyə Nazirinin müavini vəzifəsində çalışıb.



**Məmməd Yusif Cəfərov (1885-1938) –** 4-cü Rusiya Dövlət Dumasının deputatı, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Ticarət və Sənaye Naziri, Xarici İşlər Naziri (1919-cu il).



**Xosrov bəy Sultanov (1878-1941) –** Zaqafqaziya Seyminin deputatı, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Parlamentin üzvü, Hərbi Nazir (1918-ci il), Qarabağın General-Qubernatoru. 1920-ci ildən sonra mühacirətdə yaşayıb.



**Mustafa Vəkilov (1896-1965) –** 1915-ci ildə Moskvada hüquq fakultəsini bitirib, Zaqafqaziya Seyminin və Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü olub.Sonradan Daxili İşlər Naziri işləyib. 1920-ci ilin Aprel hadisələrindən sonra mühacirətə gedib.



**Əlixan Qantəmir(1886-1963)**- milliyətcə osetindir.Sankt-Peterburq Universitetini bitirib.1921 ci ildən sonra Türkiyəyə mühacirətə gedib.1934 cü ildən Almaniyada yaşayıb.”Şimali Qafqaz Milli Komitəsi”nin yaradılmasında fəallıq göstərib.Münhendə nəşr edilən “Qafqasya” jurnalının redaktoru olub.



**Kərim Odər (1898-1976) –** Azərbaycanın mühacirətdə yaşamış tanınmış siyasi və mətbuat xadimi. Azərbaycan mühacirət mətbuatında dəyərli yazılarla çıxış edib. Azərbaycan və Azərbaycan iqtisadiyyatı ilə bağlı maraqlı kitabların müəllifidir.



**Nağı Şeyxzamanlı (1883-1967) –** Azərbaycan Xalq Cümhuriyyəti dövründə Təhlükəsizlik orqanında "Əksinqilab ilə mübarizə" təşkilatının rəhbərlərindən olub. Türkiyədə mühacir kimi böyük fəaliyyət göstərib.1918–ci ildə Türk qoşunlarının Azərbaycana dəvət edilməsində xidmətləri olub.Sonradan bu fəaliyyəti ilə bağlı maraqlı xatirələr kitabını da nəşr etdirib.



**Aslan bəy Səfikürdski(1881-1937)-** 1881-ci ildə Gəncə qəzasının Səfikürd kəndində anadan olub.Rusiyanın Xarkov və Peterburq universitetlərinin hüquq fakultələrində təhsil alıb.Azərbaycan Milli Şurasının və Zaqafqaziya Seyminin üzvü olub.1919-cu ildə Ədliyyə və Əmək Naziri vəzifələrində çalışıb.



**Xudadat bəy Rəfibəyli(1878-1920)-** Gəncədə anadan olub.Xarkov Tibb Universitetini bitirib. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Xalq Səhiyyəsi və Himayədarlığı Naziri olub.



**Masey Sulkeviç(1865-1920)-**Tanınmış hərbi xadim, general-leytenant.Polşa tatarlarındandır. 1918-ci ildə Krım hökumətinin Baş Naziri olub. 1919-1920-ci illərdə isə Azərbaycan ordusunun Qərargah rəisi vəzifəsində çalışıb.



**Süleyman Təkinər (1917-2006)** – Bakının Mərdəkan qəsəbəsində anadan olub. 1942-ci ildə müharibəyə gedib. Türkiyədə və Almaniyada yaşayıb. Azadlıq radiosunda redaktor olaraq calışıb.

**A.Y.Şulqin (1889-1966)-**Ukrayna siyasətçisi, alim,diplomat.Versal Sülh konfransında Ukraynanın nümayəndəsi və mühacirətdə yaşayan ukraynalıların liderlərindən olub.



**Əbdüləli bəy Əmircanov (1870-1946)-** Azərbaycan Xalq Cümhuriyyəti dövründə Maliyyə Naziri, Dövlət Nəzarətçisi və Parlament üzvü olub. İstanbulda yaşayıb.1927-1933-cü illərdə "Azərbaycan Milli Mərkəzi"nin üzvü olub.



**Tahir Cağatay(27 mart 1902 - 27 iyul 1984)-"**Türküstan Milli Birliyi" Başqanı. Sosioloq. Uzun illər Ankara Universiteti Dil-Tarix və Coğrafiya fakultəsinin Sosioloji bölümündə öyrətim üzvü olaraq çalışıb.



**Məmməd Sadıq Aran (1895-1972)** – Azərbaycan mühacirət mətbuatının görkəmli xadimlərindən biridir. "Azəri Türk" jurnalının məsul redaktoru olub.Türkiyədə nəşr edilən "Ulus" və "Şərq yolu" qəzetlərində müxtəlif yazılarla çıxış edib. "Türkün Altun kitabı" və digər əsərlərin müəllifidir.



**Məhəmməd Azər Aran (1911-1993) –** 1929-cu ildə Türkiyəyə gedib, Əsgəri Tibb fakültəsini bitirib. 1949-cu ildən "Azərbaycan Kültür Dərnəyi" ilə əlaqə saxlayıb. Kərim Odərin vəfatından sonra "Müsavat" Xalq Firqəsi və "Azərbaycan Milli Mərkəzi"nin başqanı olub.

# MUSTAFA KAMAL ATATÜRKLƏ MÜNASİBƏTLƏRİ



**M.Ə.Rəsulzadə 1922-ci ilin sonlarından 1931-ci ilə qədər (müxtəlif ölkələrdə də olmasını qeyd etməklə) Türkiyədə mühacirət həyatı yaşayıb.** Sonradan isə 1947-1955-ci illərdə yenidən Türkiyəyə qayıdaraq fəaliyyətini davam etdirib.

1922-1931-ci illərdəki Türkiyə həyatı görkəmli dövlət xadimi, Türkiyə Cümhuriyyətinin qurucusu M.K.Atatürkün ölkəyə başçılıq etdiyi dövrə təsadüf edib.

1923-cü ildə İzmirdə keçirilən kitab festivalında M.Ə.Rəsulzadənin elə həmin ildə İstanbulda nəşr etdiyi “Azərbaycan Cümhuriyyəti (keyfiyyət-i təşəkkülü və şimdiki vəziyyəti)” kitabı ***“Atatürk mükafatı”na*** layiq görülüb. Qeyd edək ki, həmin kitabı Atatürk öz şəxsi kitabxanasında da saxlayıb.



К КОНЧИНЕ КЕМАЛЯ АТАТЮРКА

***M.Ə.Rəsulzadənin M.Atatürkün ölümü haqqında məqaləsi***

M.Ə.Rəsulzadəyə və bütövlükdə Sovetlər Birliyindən olan mühacirlərə M.K. Atatürkün münasibəti Sovet dövlətinin təzyiqi altında tədricən dəyişib və 1931-ci ildə onların ölkədən çıxmasını tələb edib. M.K.Atatürkün sonradan imzaladığı sənədlərdə isə digər ölkələrin mühacirləri ilə yanaşı M.Ə.Rəsulzadənin də nəşr etdiyi qəzet və jurnalların Türkiyədə yayımı qadağan olunub.

M.Ə.Rəsulzadə Türkiyə dövləti ilə əlaqəsini əsasən tanınmış dövlət xadimi Həmdullah Sübhi Tanrıövər vasitəsi ilə qurub. Onun M.K.Atatürklə şəxsi münasibətinə və görüşlərinə aid hələlik əsaslı mənbə əldə edilməyib.

Lakin M.Ə.Rəsulzadənin M.K.Atatürkə münasibəti yüksək səviyyədə olub və onu **“Qurtulan Şərqin simvolu”** adlandırıb (1).

***Bax: M.Ə.Rəsulzadə. “Qurtulan Şərqin simvolu”. “Azərbaycan” jurnalı, İl-2, noyabr-dekabr, 1953-cü il sayı-8-9(20-21)***

# STALİNLƏ ƏLAQƏSİ



**Qeyd edək ki, Stalinlə M.Ə.Rəsulzadənin yaxın münasibətləri şübhəsiz ki, olub.** Hər ikisinin apardığı mübarizənin də hədəfi eyni idi – çarizm rejimi. M. Ə. Rəsulzadə "Müsavat" Partiyasındakı fəaliyyətinə qədər sosial-demokrat ideyalara sahib olub, bolşeviklərlə yaxınlıq edib. Müəyyənləşdirilib ki, Stalin Bakıya 1904-cü ilin iyununda bolşevik təşkilatının fəaliyyətini gücləndirmək üçün gəlib. O, yüksək bacarığı, çalışqanlığı və sarsılmazlığı ilə seçilirdi. Dostları isə onu "Koba" adlandırırdı. Koba gürcülərdə bir quldur dəstəsinin qəhrəmanının adı idi. Bakıya gələndə - 1904-cü ildə onun 25 yaşı vardı. Onun və fəaliyyətini gücləndirdiyi RSDFP-nin Bakı təşkilatının əsas məqsədlərindən biri burada olan fəal siyasətçiləri və təşkilatları öz tərəflərinə çəkmək idi.M.Ə.Rəsulzadənin də o zaman yaratdığı "Azərbaycanlı Gənc İnqilabçılar Dərnəyi" müsəlmanlar arasında maarifçilik fikirlərini yayır, təşkilat üzvlərində milli hisslər oyadır, rus məktəblərində tədris olunmayan türk dilini öyrədir, fəhlələr arasına gedib azadlıq və inqilabi fikirlər yayırdı. Bu təşkilatın fəallığı Stalinin və onun bolşevik dostlarının diqqətinə səbəb olmuşdu.

**Onları ilk dəfə əmisi oğlu M.Ə.Rəsuloğlu tanış edir.** M.Ə.Rəsulzadə ilk görüşlərini belə xatırlayır: "Bakı ətrafında yerləşən Balaxanı neft mədənləri tərəfdə bir zavodun fəhlələrinə məxsus evlərdən birində olduqca bəsit bir otaqda qarşımıza arıq, ortadan bir az hündür boylu bir şəxs çıxdı. Sadə geyimli bu zatın çopur-çopur olan üzünə diqqət etdim. Ciddi bir halda gülümsəyirdi. Bizi təbii və sərbəst bir əda ilə qarşıladı. Rusca danışığında gürcü ləhcəsi qüvvətli hiss olunurdu. Təbii xoş-beşdən sonra söhbət siyasi və sosial məsələlər üstünə keçdi" (1, s. 14-15).

Sonradan çarlıq əleyhinə olan müəyyən toplantılarda həm də "Təkamül" qəzetinin təmsilçisi olan M.Ə.Rəsulzadənin çıxışını Stalin müdafiə etmişdi.

M.Ə.Rəsulzadə 1908-ci ildə Bakıda İ.V.Stalinlə olan bir görüşündə isə onun təklifi ilə "Qudok" qəzeti üçün "Gənc türklərin qələbəsi

haqqında” məqalə yazdığını da bildirir. Həmin məqalə ilə bağlı fikir müxtəlifliyi olsa da, Stalin müdaxilə edir: “Rəsulzadənin məqaləsi yerindədir, orada yürüdülən mühakimə çox haqlıdır, məqalə basılmalıdır” (1. s. 17).




**1908-ci ilin martın 25-də Stalin Bakıda həbs edilir,** Bayıl həbsxanasına salınır. Həmin ilin mart-sentyabr ayında onu qaçırmaq baş tutmur. Stalini Voloqda quberniyasının Solviçeqodsk şəhərinə sürgün etmək qərara alınır. Ona istənilən köməyi etmək üçün isə partiya kassasında pul yox idi. Belə bir vaxtda inqilabçılar M.Ə.Rəsulzadənin başçılıq etdiyi “Nicat” cəmiyyətinin iştirakı ilə “Nüfuzlu olan məşhur xanım və bəylərdən, tanınmış aktyor və aktrisalardan mürəkkəb bir dəstə ilə bağ gəzintisi” düzəldirlər. Nəticədə yaxşı gəlir əldə edilir. M.Ə.Rəsulzadə yazırdı: “Bizim hissəmizə düşəcək gəlir hesabına yoldaş Kobanın (yəni Stalinin) qaçırılmasını finansə etmək üzrə 200 rublə istəmişdilər”. Gəzintinin üçüncü günü pulu apararkən faytonların qabağını əvvəlcədən hazırlanmış silahlı adamlar kəsir. Pulu alıb aparırlar”.

M.Ə.Rəsulzadənin doğulduğu Novxanı kəndinin yaşlı adamları isə onun Stalini çar polisindən gizlədərək oradakı məsciddə saxladığını deyirdilər.

M.Ə.Rəsulzadənin Karaqandada – sürgündə yaşamış oğlu Azər isə xatirələrində onları həbs edərkən qoca nənəsinin: “Stalin bizim evdə çox olub. O, bilsə bizi azad edər” – fikrini də söyləmişdi.

**Stalin** isə 1920-ci ildə həbsxanada onunla görüşərkən maraqlı açıqlama verir: “Siz keçmiş mübarizə yoldaşısınız. Ziyarətimin yeganə səbəbi də budur. Çar istibdadına qarşı mücadilələrinizi, Sizin inqilabi hərəkatdakı rolunuzu və əhəmiyyətinizi bilirəm. Bu inqilab üçün gərəkli bir şəxsiyyət olduğunuzu təqdir edirəm. Siz nə öldürüləcək, nə də ömrü boyu həbsxanalarda çürüdüləcək bir insan deyilsiniz. Məncə Sizə azadlıq verilməlidir” (1, s. 20).

Stalinin M.Ə.Rəsulzadəni xilası ilə bağlı bir neçə fikir söylənilir. Hələlik təsdiqlənməyən bir fakta əsasən o, həbs olunanda “Gizli Müsavat”ın tapşırığı ilə Ağabala Qasımov Vladiqafqaza gedib Stalinə məlumat çatdırır və Stalin də keçmiş mübarizə dostunu xilasa gəlir.

Bəzi faktlar isə (bu haqda yazılı mənbələr vardır) Stalinin Bakıya hökumətin tapşırığı ilə gəldiyini göstərir. Çünki 1920-ci ilin noyabrın

6-da Oktyabr inqilabının bayramı qeyd olunurdu və Stalin həm də Bakı şəhər Sovetinin plenumunda iştirak edirdi. Stalin M.Ə.Rəsulzadə ilə həbsxanadakı görüşündə bu sözləri deyir: "Buraya gəlincə həbs edildiyini öyrəndim" (1, s. 26).



**EMİN BEYİN HATIRALARI**

İstanbul'da gündelik büyük gazetelerden «Dünya» nın 21/5 - 20/6/1954 tarihleri arasında çıkan nüshalarında Eski Azerbaycan Millî Şûra Reisi Sayın Mehmed Emin Resulzade'nin hatıraları neşredilmiştir.

«Bir Türk Milliyetçisinin Stalin'le İhtilâl Hatıraları» başlığını taşıyan 28 tefrikada Emin Bey, 1904 den 1921 e kadar Stalin'le olan temaslarını anlatmaktadır. Çarlığa karşı mücadelenin, Azerbaycan Cumhuriyetinin Sovyetler tarafından işgalinin, Bolşevik esaretinde ve hapishanesinde bulunmanın, mevkufen Moskovaya götürülmenin, burada iki yıl kalarak türlü manevralarla işe celbettirilme teşebbüslerine karşı kullanılan taktiklerin, nihayet kaçılarak Finlandiya üzerinden Sovyet sınırları dışına çıkma ve istiklâl mücadelesine devam edilmenin canlı tablolarını anlatan bu hatıralarda, tarihin ve dünyanın en gaddar ve müstebit bir cihangiri olan Stalin'in bilinmeyen tarafları ifşa edilmiş dolayısiyle Azerbaycan dâvası da

Stalinlə Moskvaya getmək məcburiyyətində qalan M.Ə.Rəsulzadə burada Şərq Dilləri İnstitutunda fars və rus dillərini tədris edir. Moskvada yaşadığı müddətdə Stalin ona qarşı diqqətli olur. Lakin M.Ə.Rəsulzadə ona təklif edilən əməkdaşlığı qəbul etmir.O, Stalinin başçılıq etdiyi Millətlər Komissarlığında Şərqi öyrənmə işləri ilə məşğul olacaq bir cəmiyyətə sədrliyə də razılaşmır və Moskvada yeni yaradılan "Şərq Millətləri Kommunist Universiteti"nin "Şərq ölkələrində inqilab hərəkatları" kafedrasında çalışmaqdan imtina edir. "Şərqdən – Əfqanıstandan gələn qonaqları Sovet hökuməti adından qarşılamaq şərəfi" təklifinə qürurunu sındırmayıb deyir: "Adi bir mütərcim vəziyyətinə düşmək istəmirəm" (1, s. 59).

**M.Ə.Rəsulzadə** Moskvada olarkən Azərbaycanda gedən əlifba məsələləri ilə bağlı (ərəb, yoxsa latın əlifbası) D. Bünyadzadənin şəxsi xahişi ilə bir layihə hazırlayır və bu haqda yazdığı məqaləni Millətlər Komissarlığı tərəfindən nəşr olunan "Jizni natsionalnostey" ("Millətlərin həyatı") jurnalında çap etdirir. Onun məlumatı və razılığı olmadan məqalənin sonunda "bu əlifba islahatı ilə bağlı fikirlərinin guya kommunizmi müvəffəqiyyətlə yaymaq niyyətindən irəli gəldiyi" qeyd olunmuşdu. M.Ə.Rəsulzadə buna ciddi etirazını bildirmiş, narazılıq məzmununda bir məktubu redaksiyaya göndərsə də çap edilməmişdi.


M.E.RESULZADENIN
İ.V. STALİN
HAGGINDA
HATIRELERİ

O ZAMANKI DÖVRDE BAKI

Azerbaycan Respublikasının paytahtı Bakı o zamanki şertler dahilinde yalnız Rusiyada sosialist cereyanları ve carizm elevhine herekatların gaynar

sizliklerin esl sebebi kapitalist sistemidir. — behtiyar görmek isteye terefdarları onun fikr yıhmalıdırlar. Milletler istibdad altında tutan

*M.Ə.Rəsulzadənin "Dünya" qəzetində Stalin haqqında xatirələri, 1954-cü il.*

Moskvada siyasi mübarizədən kənar "ətalət içində" qalmağı, "Müsavat" Partiyası rəhbərliyinin onun xaricə gedib "Milli hərəkatı təmsil edərək faydalı olacağını bildirməsi" buradan getmək fikrini qətiləşdirdi.

"Gizli Müsavat" təşkilatı başçısının müavini Əbdülvahab Yurdsevər yazırdı: "Müsavat Partiyasının gizli Mərkəzi Komitəsinin ən mühüm təşəbbüslərindən biri M.Ə.Rəsulzadəni Moskvadan qaçırmaq olmuşdu. Əvvəlcə bir yoldaş vasitəsi ilə, sonra isə sabiq parlament üzvü, mərhum Rəhim bəy Vəkilovu və Bakı əsgəri təşkilatının rəisi, şəhid yoldaşımız doktor Həsənzadəni bir qədər pul ilə Moskvaya göndərmək surətiylə M.Ə.Rəsulzadə ilə təmasda olmuşlar. M.Ə.Rəsulzadəyə təklif olunmuşdur ki, elmi tədqiqat adı ilə Leninqrada (Sankt-Peterburqa) getsin. Onun oradan rəhmətlik tatar maarifçilərindən Musa Cərullah Bigiyevin müyəssər yardımı ilə və qayıqla Fin körfəzi üzərindən üzərək Finlandiyaya qaçırılması təmin edilmişdi" (2, s. 172-173).

**M.Ə.Rəsulzadə** tanınmış tatar maarifçisi M.C.Bigiyevin köməyi ilə Sankt-Peterburqdan Fin körfəzinə, oradan Finlandiyaya keçir. Burada fin gözətçiləri tərəfindən saxlanılır və on beş gün müddətində Fernogidəki qarantində qalır. Sonra Helsinkiyə gedib bir aya qədər tatar koloniyasının müsafiri olur, buradan isə Almaniyaya, oradan Parisə, Parisdən də İstanbula gedir. İstanbuldan Stalinə məktub yazıb getməyinin səbəbini izah edir və ona sayğılarını bildirir: "Öz siyasi əqidəmə sadiq qalmaqla bərabər, mən eyni zamanda Sizin də xeyirxahınız olaraq qalır, şəxsinizə qarşı ehtiram hissi bəsləyirəm. Nəticədə mənə qarşı göstərdiyiniz əlaqəni heç bir zaman unutmayacağıma inamınızı xahiş ilə Sizə yaxşı bir xidmət göstərmək fürsətini cani-dildən təmənna etdiyimi ərz edirəm. Ehtiramitamla: Rəsulzadə Məhəmməd Əmin. Yanvar, 1923".

Sonradan M.Ə.Rəsulzadənin bolşeviklər və sovet hakimiyyəti əleyhinə kəskin fəaliyyəti Stalini narahat etdi. Bolşeviklər partiyasına başçılıq edən Stalin M.Ə.Rəsulzadə əleyhinə hazırlanan kitabda aşağıdakı tezislərin olmasını şəxsən özü məqsədəuyğun bilmişdi:

**1. Satqınçılıqda. O, bolşevik idi, lakin onlara xəyanət etdi.**

**2. Türklərin maraqlarına xəyanətdə. Çünki o və onun “Müsavat” Partiyası türklərə yardım etməkdə və Bakının tutulmasında Qızıl Orduya mane olurdu.**

**3. Azərbaycan xalqına xəyanətdə. Torpağın kəndlilərə verilməsinə və bəy malikanələrinin ləğv edilməsinə mane olurdu.**

**4. Şərqin bütün xalqlarının maraqlarına xəyanətdə və müsəlmanlar üzərində müstəmləkə ağalığını saxlamaqda İngiltərəyə yardım etməkdə.**

**5. Erməni-tatar qırğınını təşkil etməkdə. Onu Azərbaycan ”Purişkeviçi” adlandırmaq.**

**6. Şamxor qırğınının təşkilində ittiham etmək. Onu Azərbaycan talançısı adlandırmaq (3, s. 469).**

Qeyd edək ki, M.Ə.Rəsulzadənin Stalinin sonrakı fəaliyyətinə münasibəti isə mənfi olmuş və o, belə ifadə etmişdi: “Baxmayaraq biz vaxtı ilə dost olmuşuq. Lakin İ. Stalin türk-tatar xalqlarının qəddar və quduz düşməni idi”.

M.Ə Rəsulzadə Stalinlə olan yaxın əlaqələrini sonradan – 1954-cü ildə Türkiyədə “Dünya” qəzetində nəşr etdirdiyi “Stalinlə ixtilal xatirələri” adlı əsərində yazmışdı.

Qeyd edəki, yaxın dostluq münasibətlərinə baxmayaraq sonralar M.Ə.Rəsulzadənin də ailəsi Stalin qırğınından xilas ola bilmədi. Həyat yoldaşı Ümbülbanu xanım, analığı Maral xanım, övladları – qızları Lətifə və Xalidə, oğlu Azər və digər qohumları həbs edilib Qazaxıstana – Taldı-Kurqana göndərildi. Böyük oğlu Rəsulu isə 1937-ci ildə həbs edib 1938-ci ilin martın 1-də güllələdilər.

## Ədəbiyyat:

*1) Rəsulzadə M. Ə. Stalinlə ixtilal xatirələri. Bakı, 1991.2)Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı, 1991.3)Hüseynov S. Mənəvi irsimiz və gerçəklər. Bakı, 2004.*

# MARŞAL PİLSUDSKİ İLƏ MÜNASİBƏTLƏRİ



*Marşal Jozef Pilsudski*

Qeyd edək ki, 1920-ci illərin ortalarından başlayaraq M.Ə.Rəsulzadə, Ə.M.Topçubaşov, M. Vəkilli Polşa rəsmiləri ilə məktublaşırdılar.

Polşa dövlətinin arxiv sənədlərində M.Ə. Rəsulzadənin Polşanın Xarici İşlər Nazirliyi və Marşal Pilsudski ilə şəxsi yazışmaları qorunub saxlanılır. Həmin məktubların biri azərbaycanlı zabitlərin Polşa ordusunda hərbi xidmətə cəlb edilməsi ilə bağlıdır. Türkiyənin İstanbul şəhərindən, 1923-cü ilin 31 martında J. Pilsudskiyə ünvanlanmış bu məktubun böyük tarixi əhəmiyyəti vardır:

***"Zati-aliləri Marşal Pilsudski***
***Polşa Ali Baş komandanı***
***Cənab Marşal!***



A Son Excellence Maréchal Pilsudski ,
Chef de l'Etat Majore Polonais .

Monsieur le Maréchal ,

Après l'occupation forcée de l'Azerbaïdjan par l'armée soviétique en Avril 1920 et l'éloignement "manu militari" de son gouvernement national ,une grande partie des officiers reguliers de l'armée d'Azerbaïdjan fut obligé de quitter le pays et de se transporter dans les pays limitrophes pour éviter la vengeance féroce des usurpateurs rouges .

Dix de ces officiers,qui avaient occupé des postes de confiance dans l'armée nationale et avaient opposé une résistance armée à l'invasion de l'armée rouge et , plus tard , avaient pris part à une série de soulèvements populaires en vue de l'émancipation du joug détestable des russes , se trouvent actuellement à Constantinople dans des conditions de vie des émigrés .

Ayant appris par Mr. Djafer Seïdamet , Président et Délégué du Parlement Tatare de Crimée , que vous avez eu la bonté d'accueillir très favorablement la déclaration faite par lui pendant son dernier séjour à Varsovie à propos du désir des officiers d'Azerbaïdjan de servir dans les rangs de la vaillante Armée Polonaise afin d'approfondire leur connaissance militaires , et même que vous avez eu l'obligence de donner en principe votre consentement à leur admission , je me permets de profiter de cette circonstance favorable et de venir prier par la présente Votre Excellence de vouloir bien prendre les dispositions nécéssaires à ce sujet . Le service rendu par la noble Nation Polonaise dans cette période difficile de notre histoire recevra , j'en suis certain , toute son appréciation de la part des Turcs d'Azerbaïdjan et servira de preuve éclatante des relations amicales qui depuis des longues années existent entre nos deux nations .

En vous présentant ma plus profonde reconnaissance , je vous prie , Excellence , de vouloir bien agréer les très sincères assurances de ma haute considération .

M. E. Rassoulzadé
Président du Conseil National d'Azerbaïdjan .

Constantinople,le 31 Mars 1923 .

Annexe : la liste des officiers .

*M.Ə.Rəsulzadənin fransız dilində Marşal Pilsudskiyə yazdığı məktub,1923-cü il*

1920-ci il aprel ayında Sovet ordusu tərəfindən Azərbaycanın işğal edilməsindən və milli hökumətin - hakimiyyətdən uzaqlaşdırılmasından sonra Azərbaycan Ordusunun intizamlı zabitlərinin böyük bir hissəsi qırmızı qəsbkarların vəhşi intiqamlarından xilas olmaq üçün ölkəni tərk etmək məcburiyyətində qalmış və həmsərhəd ölkələrə köçmüşlər.



A Son Excellence
Monsieur M.E.RASSOUL-Zade
Président du Conseil National d'Azerbaidjan,
à
Constantinople

Monsieur le Président
J'accuse la réception de Vôtre lettre du 31 mars 1923 concérnant les officiers de l'armée azerbaidjane qui ont manifesté leur désir [illegible]

[illegible] c'est mon désir le plus profond de pouvoir assurer aux officiers de la vaillante armée azerbaidjane l'immédiate possibilité [illegible] je suis obligé de remettre la solution définitive de cette question jusqu'au temps de l'an 1923 ne pouvant pas leurs assurer actuellement un nombre suffisant des places dans nos Ecoles [illegible].

Veuillez agréer, Monsieur le Président, l'assurance de ma considération la plus profonde.

***Marşal Pilsudskinin M.Ə.Rəsulzadəyə göndərdiyi məktub (fransızca yazılıb)***

Bunlardan 10 nəfər zabit, hansı ki, milli orduda mühüm vəzifələr tutmuş və düşmən Qızıl ordunun silahlı qarşıdurmasına müqavimət göstərmişdilər, daha sonra isə Qızıl ordunun dözülməz özününküləşdirmə boyunduruğuna qarşı bir sıra kütləvi üsyanlarda çıxış etmişdilər, hal-hazırda Konstontinopolda (İstanbulda) mühacir kimi yaşayırlar.

Krım Tatar Parlamentinin təmsilçisi və Prezidenti cənab Cəfər Seydəhməd öyrənmişdir ki, Siz onun başçılığı ilə nümayəndə heyətinin Varşavada sonuncu səfərində azərbaycanlı zabitlərin cəsur Polşa ordusu sıralarında xidmət etmək təklifini, onların hərbi biliklərini genişləndirmək arzusunu çox səmimiyyətlə qəbul etmisiniz. Onların təmənnasız qəbuluna Sizin razılığınız mənə bu lütfkar vəziyyətdən istifadə etmək və Sizin şəxsinizdə zati-alilərindən bu mövzuda lazımi müsbət qərarları əldə etmək xahişini etmək iznini verir.

Mən əminəm ki, nəcib Polşa xalqı tərəfindən göstərilən xidmət bizim tarixin bu çətin dövründə qəbul ediləcək və Türkiyə tərəfindən Azərbaycanın qiymətləndirilməsi, çox illərdən bəri bizim millətimiz arasında mövcud olan parlaq dostluq əlaqələrinin sübutuna xidmət edəcəkdir.

Sizə dərin təşəkkürümü bildirərərk, Sizə bəslədiyim yüksək ehtiramımı Zat-Alilərindən qəbul etməyinizi xahiş edirəm.

***M. E. Rəsulzadə***
***Azərbaycan Milli Birliyin Prezidenti***
***Konstontinopol, 31 mart 1923***

Əlavə: zabitlərin siyahısı" (1, v.3,4,5,6).

M.Ə.Rəsulzadənin bu məktubu fransız dilində yazılmışdı.

Qeyd edək ki, Qafqazdan olan müqavilәli zabitlərin vəziyyəti ilə Marşal Pilsudski birbaşa özü məşğul olur, onları ciddi diqqətdə saxlayırdı.

M.Ə.Rəsulzadənin məktubuna cavab olaraq **Marşal Pilsudski yazırdı: *"Zati-aliləri cənab M.Ə.Rəsulzadəyə, Azərbaycan Milli Mərkəzinin prezidentinə, Konstontinopola***

**Cənab Prezident!**

Mən Sizin 31 mart 1923-cü il tarixli Azərbaycan ordusunun öz istəklərini nümayiş etdirən zabitlərinə aid olan məktubunuzu təsdiq edirəm.

Mənim ən böyük arzum Azərbaycan ordusunun igid zabitlərini qoruya bilmək və eyni zamanda onları bizim orduya qəbul etməkdir.

Hazırda hərbi məktəblərimizdə kifayət sayda yer olmadığından bu sualın qəti həllinə 1923-cü ilin payızına qədər cavab verməmək məcburiyyətindəyəm.

Cənab Prezident! Sizə olan dərin ehtiramımı qəbul etmənizi arzu edirəm.

**Polşa Ordusunun Ali Baş Komandanı**
**Marşal Pilsudski”** (1, v.34).



192 KURTULUŞ Nr. 7-8

M. E. Resul-zade

Jozef Pilsudski

Lehistan karalara bürünmüş, Lehliler millî bir matem yapıyorlar.

Millî kahraman mareşal Pilsudski hayata veda etmiştir.

Reisicumhur I. Moscicki, bu münasebetle dağıttığı matemli beyannamesinde **„Lehistan, tarihinin en büyük adamını kaybetti“** diyor.

Bu büyük adam Leh vatanseverliğinin, halkca takdis olunan parlak bir timsali idi.

Bir timsal ki tabutu önünde ayrılık nutku söyleyen rahib, kendisi hakkında **„Tanrı onu kendine benzeterek yaratmış ve kahraman başına kırallarinkinden daha şerefli bir taç koymuştur“** demiştir.

Işte, milyonların, kalbin en hisli tellerine dokunan sevği ve teessürleri içerisinde, Krakof'ta, Lehistan'ın bu eski paytahtında, namdar kırallarla, millî kahramanların yattıkları, Lehistan azizlerinin türbesine teslim olunan Pilsudski'nin Lehistan tarihindeki ehemmiyet ve tuttuğu yerini gösteren, biri siyasî, öbiri dinî olmak üzre, iki tarifi.

Bu tarifleri mübalağalı bulanlar bile, inkâr edemezler ki, esirlikten sonra, yeniden hürriyet ve istiklâlına kavuşan bir milletin **öldükten sonra diriliğini** gösteren bir sembol olmak üzre, Pilsudski'nin adı, dünyalar durdukca duracak ve milletlerini inkirazdan kurtarmış tarihin en büyük isimleri arasında mahsus bir minnet ve şükranla anılacaktır.

*

Yeni tarihin, bütün dünya efkârı üzerinde en büyük tesir yapan siyasî hadisesi Lehistan devletinin parçalanması idi.

Bu bir facia idi. Millî facia.

Bu facianın acısile yanan Lehli vatanseverlerin, millî tarihe sürülen lekeyi silmek üzre giriştikleri kanlı isyanların efsanevi dastanları ve bu dastanların, başları, nesillerin sevği ve minnetlerile taclanan kahramanları millî kurtuluş tarihinin en parlak sahilesinde yer tutarlar.

Pilsudski işte bu şanlı an'anenin yolcusu idi. „Yenilib te ruhtan düşmemeyi zafer“-den sayarak*), demirden bir iradeye malik bulunan o, nihayet temamlanmış kalan millî kurtuluş binasının muvaffak bir yapıcısı olmuştur.

Bütün ruhu, duyuşu ve manevi şahsiyetile Lehistan idesine bağlanan bu inkilâpçı, ailesi itibarile de isyan ve inkilâb an'anesini benimsemiş bir adamdır. O, 1863 isyanının rükünlerinden bir babanın oğlu, Lehistan için sürülen bir mücahidin kardeşi idi. Vatana dinî aşkla tapan ve südile beraber çocuklarına intikam hissi ve istiklâl duygusu içiren bir ananın kucağında büyümüştü. Bunun için de yanan ve yandıran bir inkilâb adamı olarak yetişmişti.

Hayatında inkilâbçılıktan ve istiklâlcılıktan başka bir zevk duymayan bu adamın en büyük ideali Lehistan'ı tekrar müstakil görmek, Vatan-Anayi çarmıhtan kurtarmak idi.

Sosyalistliğe intisab bile onu bu yoldan caydırmamış; bilakis o, sosyalizmi millî gaye yolunda muvaffakiyetle kullanmıştır. Lehistan Sosyalist Partisini ikiye bölerek, ona Millî-Sosyalizm ideolojisini aşılayan ve programına Lehistan istiklâlının ihyası maddesini koyan kendisidir.

Mağdur lehlihin acılarile sızlayan bu büyük inkilâpçının yanık kalbindeki kinin en büyük hissesi çarlık Rusyasına çevrilmişti. Çünkü o, kendisine, islavlığın hâmisi dediği halde, islav Lehistan'ın millî felaketinde en faal bir rol oynamıştı. Muravyof gibi cellâtları Lehistan'ın başına musallât eden; Moskva'ya has bir vahşetle millî Leh ruhunu boğarak, millî kıyam yangınlarını kan sellerile söndürmeğe kalkan da o idi.

Inkilâbçı Pilsudski propagandacılığındaki bütün harareti ve terrorculuktaki bütün kudret ve meharetile işte bu hain katile saldırmış, hapislerine, menfalerine

*) Yenilib te ruhtan düşmemek — zafer;

Yenilib te ney'eye dalmak — hatardır.

Pilsudski'nin hikemiyatından.

***“Jozel Pilsudiski” məqaləsi***

Qeyd edək ki,M.Ə. Rəsulzadənin Polşa və polyaklar mövzusunda yazdığı məqalələr sırasında Marşal ***Jozef Pilsudski haqqındakı*** yazısı xüsusi yer tutur. “Qurtuluş” jurnalının 1935-ci ilin may-iyun aylarının 7-8-ci sayında çap edilən bu məqalənin böyük əhəmiyyəti vardır. Müəllif öz xalqının azadlığı uğrunda yorulmadan mübarizə aparan bir şəxsiyyətin maraqlı obrazını yaratmış, onun mənalı həyatı ilə bağlı maraqlı məqamları əks etdirə bilmişdir. Məqalə Marşal Pilsudskinin ölümü münasibətilə yazılsa da, bədbinlik ruhundan uzaqdır. M. Ə. Rəsulzadə ölməz Pilsudskinin ölümünün yalnız polyaklar üçün deyil, eləcə də, bütün azadlıqsevər xalqlar üçün ağır itki olduğunu göstərir. Və qeyd edir ki, bu insanın ölümündən bütün polyak xalqı kədərli və üzüntülüdür. Müəllif yazır: “Lehistan (Polşa) qaralara bürünmüş, lehlilər milli bir matəm yaşayırlar.

Milli Qəhrəman Marşal Pilsudski həyata vida etmişdir.

Rəisicumhur (ölkə başçısı) İ. Moiseyski yayılan matəm bəyannaməsində “Lehistan tarixinin ən böyük insanını qeyb etdi” - deyir. Bu böyük insan leh vətənpərvərliyinin parlaq bir timsalı idi. Bir timsal ki, tabutu önündə ayrılıq nitqi söyləyən rahib onun haqqında “Tanrı onu özünə bənzədərək yaratmış və qəhrəman başına krallarınkından da şərəfli bir tac qoymuşdur” demişdi.

İşdə, milyonların qəlbinin ən incə tellərinə toxunan, sevgi və təəssüb içərisində Krakovda, Lehistanın bu əski paytaxtında krallarla milli qəhrəmanların

yaratdıqları Lehistan əzizlərinin türbəsinə təslim olunan Pilsudskinin Lehistan tarixindəki əhəmiyyət və tutduğu yerini göstərən biri siyasi, o biri dini olmaq üzrə iki tərifdi.

Bu tərifləri mübaliğəli sayanlar belə inkar edə bilməz ki, əsirlikdən sonra yenidən hürriyyət və istiqlalına qovuşan bir millətin öldükdən sonra diriliyini göstərən bir simvol olmaq üzrə Pilsudskinin adı dünyalar durduqca duracaq və millətlərini zülmdən qurtarmış tarixin ən böyük isimləri arasında məxsus bir minnət və hörmətlə anılacaqdır" (2, s. 192).

Sonra müəllif Pilsudskinin inqilabçı fədakar xüsusiyyətlərindən danışır. Göstərir ki, mənsub olduğu siyasi partiyanın proqramına da Polşanın istiqlalı ideyasını məhz o daxil etmişdi. M.Ə.Rəsulzadə məqaləsində Pilsudskinin vətənpərvər inqilabçı olmasının səbəbini də açıqlayır. Qeyd edir ki, Pilsudskinin ailəsi də üsyan və inqilab ənənəsinə bağlı olmuşdur. 1863-cü il üsyanından sonra sürgün edilənlər arasında onun da doğmaları var idi. Jozef Pilsudskinin "çökən imperatorların yerində Lehistan Cümhuriyyəti" fikrini təqdir edən məqalə müəllifi göstərir ki, 1920-ci ildə Varşavanı işğal etmək istəyən rus ordularına qarşı polyaklar onun başçılığı altında böyük savaş açdılar. Bununla da Pilsudski yalnız Polşanı deyil, həm də Avropa mədəniyyətini bolşevizmdən qoruyub saxladı.

Müəllif qeyd edir ki, yeni və güclü idarəçiliyi olan Polşa dövlətinin formalaşmasında J. Pilsudskinin danılmaz xidmətləri vardır. Polşa aparılan doğru xarici siyasət nəticəsində Avropada bir güc mərkəzinə çevrilməkdədəir. Müəllif yazır: "Müttəfiqi Fransanın Sovet Rusiyası ilə oynamasına qarşı o, öz mənfəətini Almaniya ilə anlaşmada tapır. Rus ordularının nə məqsədlə olursa-olsun Lehistan yolu ilə keçməsi ehtimalının Varşavada nə kimi bir ciddiyyətlə rədd edildiyi məlumdur" (3).

Müəllif Pilsudski haqqında yürüdülən "diktator" fikrinə isə belə münasibət bildirir: "Pilsudskini hərb sonu Avropasında yetişən diktatorlar zümrəsində saymaq bir adətdir. Fəqət diktatorluq mənəvi qüvvətə dayanan, şəxsi bir hakimiyyətdirsə, Pilsudski həqiqətən də bir diktatordu. Sözün mənəvi mənası ilə onu biz yeni Lehistanın yeganə sahibi olaraq qəbul edə bilirik. Bu mənəvi üstünlüyünü o, yalnız bütün varlıqları ilə özünə bağlı olan legionerlər üzərində deyil, geniş xalq kütlələri üzərində də qurmuşdu. Hər türlü yaşayışdan uzaq Belveder sarayına çəkilən və xalqca "baba" deyə anılan bu "dərvişin" rəsmi mövqeyi sadə hərbiyə naziri ikən, mənəvi nüfuzunu sezməyən bir lehli tapılmaz.

Siyasi müxalifləri onu proqramsızlıqda ittiham edirlər, ətrafındakı zümrənin bir firqə deyil, bir qəsd olduğunu irəli sürürdülər. Ölümündən bir az əvvəl bitirmiş və rəsmən qəbul etdirmiş olduğu yeni qanunu-əsaya görə o, həqiqətən də firqəçi olmadığını, firqələri və firqə proqramlarını inkar etdiyini göstərmişdir. Onun yeganə proqramı qüvvətli Lehistandır və yeganə taktikası da bu məqsədi

təmin edən icraatdır. Müvəffəqiyyət dərəcəsi, təcrübəylə anlaşılacaq bu sisteminin binası ilə, demək olar ki, Yeni Lehistanın qurucusu öz ciddi fəlsəfəsinin bir xülasəsini vermişdir.

Öyla ya!.. O, nəzəriyyədən ziyadə bütün həyatında yalnız bir hərəkat və aksion adamı olaraq qalmışdır. Bir aksion ki, tək bir qayəsi, tək bir istəyi vardır: - Müstəqil və qüvvətli Lehistan!..” (2, s. 194).

Müəllif göstərir ki, indi hamını düşündürən, narahat edən Pilsudskidən sonrakı Polşanın-Lehistanın taleyidir. İndi nə baş verəcək? Polşanın işləri necə gedəcək? Sonra müəllif bir həqiqətin və reallığın mövcudluğunu ortalığa qoyaraq Polşanın irəli gedəcəyini əsaslandırır; o da Pilsudski kimi böyük bir qəhrəman yetişdirən xalqın necə ağır olsa da, hər çətinliyə dözə biləcəyidir. Digər tərəfdən, Lehistan idarəçiliyinin mövcud intizamı, Polşa xalqının dünyanı heyrətdə qoyan intizamı da, polyakların Pilsudskisiz də yaşaya biləcəyini sübut edir. Bir həqiqət isə indidən özünü göstərməkdədir: Pilsudski yoxsa da, Pilsudskiçilik vardır və yaşayır” (2, s. 194).

M.Ə.Rəsulzadə Polşanın qəhrəman oğlu Pilsudski haqqında olan məqaləsini belə yekunlaşdırır: “Mənalı yaşadığı kimi, dünyadan getməsini də yaxşı bilən marşalın vətəndaşlarına buraxdığı vəsiyyət diqqəti cəlb edir: ürəyinin Vyanada anasının ayaqları altında basdırılmasını, beyninin tədqiqat üçün elm adamlarına verilməsini, vücudunun da Vaveldəki tarixi türbəyə götürülməsini istəməklə o, adətən demək istəmişdir ki, hər Lehli qəlbi ilə anasına, beyni ilə elmə, vücudu ilə də milli tarixinə verilməlidir.

Sadə bir lehlimi?.. Xeyir!

Pilsudski kimi qəhrəmanlar bütün milliliklərinə rəğmən bəşəridirlər. Onların öz millətlərinə etdikləri müraciət, bütün insanlara, hələ bənzər vəziyyətdə olan millətlərə edilmiş bir müraciətdir.

Bilxassə, Lehistan qəhrəmanının müraciəti ki, bütün həyatını Rusiya imperializmi kimi, bizim də düşmənimiz olan bir qüvvətə qarşı mücadilədə keçirmiş və bizim tanıdığımız milliyyət ilahəsinə ibadəti özünə din olaraq qəbul etmişdir.

Leh millətinin itkisi böyükdür. Matəmi ölçüyəgəlməzdir. Biz də böyük itkidəyik. Bizim millətlərimiz də təəssürdədir. Lehlilər milli böyük bir qəhrəman itirdilər. Başları sağ olsun. Biz də əsir millətlərin mənəvi bir rəhbərini itirdik. Böyük acıda onlarla ortağız.

Lehli vətənpərvərlər çalışacaqlar ki, Lehistan daima qüvvətli və böyük qalsın. Biz də mücadiləmizdə davam edəcəyik ki, millətlərimiz qurtulsun, bir müstəqil dövlət olsunlar!” (1, s. 194).

**Ədəbiyyat:**

*1)Polşa Respublikası,Hərbi Qüvvələr Mərkəzi Arxivi.İş-3180(Məxfi sənədlər). 2).Rəsulzadə M.Ə. Jozef Pilsudski.”Qurtuluş” jurnalı,Berlin,1935,May-iyun N7-8. 3).”İstiqlal”qəzeti, Berlin,1933 N49.*

## Adolf Hitlerə münasibəti



**M.Ə.Rəsulzadənin** Almaniyanın 1932-1945-ci illərdəki dövlət başçısı Adolf Hitlerlə birbaşa görüşü və münasibəti olmayıb. Onun Almaniya hökuməti ilə əlaqələri Şərq Nazirliyinin SSRİ Millətləri üzrə Baş İdarəsinə başçılıq edən professor Qerhard Von Mende və Almaniyanın sabiq Moskva Böyükelçisi, Xarici İşlər Nazirliyinin təmsilçisi Şulenberq vasitəsi ilə olub. M.Ə.Rəsulzadənin Almaniya hökuməti ilə əlaqə qurmaqda başlıca məqsədi sayı 70 minə qədər olan azərbaycanlı əsirləri xilas etmək və Azərbaycanın müstəqilliyinin Almaniya hökuməti tərəfindən qəbul edilməsi idi. Bununla əlaqədar o, Almaniyada olarkən "Milli Azərbaycan Komitəsi"ni yaratmış, Almaniya hökuməti ilə danışıqlar aparmışdı. Lakin Hitler "komitələr" deyil, məhdud səlahiyyətli "milli komissiya"lar yaratmağa üstünlük vermişdi.

Hitlerə və onun faşist ideologiyasına olan münasibətini isə M.Ə.Rəsulzadə belə bildirirdi: **"Hitlerçilik** hər şeydən əvvəl kommunizm demaqogiyasına qarşı çıxış etmək üçün yaranmış bir ideyadır. O, faşizm kimi öz müxaliflərindən diktatorluq fikrini götürmüş, lakin oradakı beynəlmiləlçiliyi millətçiliklə əvəz etmişdir".

**Almaniyada** 1932-1934-cü illərdə nəşr edilən "Demokrasi və Sovetlər" məqaləsində isə M.Ə.Rəsulzadə faşizmə münasibətini belə açıqlayırdı: "Daxildə xaricdəki düşmənlərinin qənaətincə, Hitlerizm demokrasi rejiminin müxalifi olaraq iş başına gəlmiş, təsisinə başladığı idarə İtaliyada olduğu kimi, faşist diktatorluğu imiş".

***Bax: N.Yaqublu. "Azərbaycan legionerləri". Bakı, 2005.***

# DƏYƏRLİ FİKİRLƏRİ

## Elm haqqında

"Qardaşlar! Gəlin hamımız birdən hümmət (cəsarət) edək, məktəbxanələr açaq, cəmiyyəti-xeyriyyələr təsis edək, füqəraya əl tutaq...

Bu vaxta bizə lazım və vacibdir ki, hümmət edib elm öyrənməyə və öyrətdirməyə səy və kuşiş qılaq. Elmsiz heç bir nöqsanımız götürülməyəcəkdir. Elmin fəzilətində bu bəsdir ki, peyğəmbərlərimiz əleyhissalam hədisi müqəddidədə elə bizlərə tapşırıblar, əzon cümlə bu aşağıdakılardır ki, nəzmə çəkmişəm..."

"Aç qulağın bir eşit bu sözlərin bül fürul[1],
Elmə rağib[2] olgilən qafildilər küllən cühul[3].
Hər nə var dünyada bil ki, elmilən olmuş hüsul[4],
Fəzli elmi bilgilən şər ilə olmuşdur qəbul".

[1] Ey bülbül füzul – ey füzulun atası (füzul-uzun danışma).
[2] Rağib – rəğbət göstərən.
[3] Cühul – cahil.
[4] Hüsul – hasil olma, ələgəlmə.

***"Şərqi-Rus" qəzeti, 1903, N20.***

## Erməni-müsəlman qırğını haqqında

"Erməni-müsəlman qırğını da vətənimizə ariz olmuş bəladır, bir mərəzdir ki, aramızda said bir zəmin tapıb bu cür olan iləl (xəstəlik) və səbəblərdən nasıl şiddət etmişdir.

İştə bu bəlanı rədd edib, qədimül əyyamdan, sülh və müsalimət(barış) ilə yaşayan iki milləti barışdırıb, əvvəlki halətə gətirməkdən ötrü bu illətləri(xəstəlik) arayıb tapmaq gərək".

***"Dəvət-Qoç" qəzeti, 19 iyul 1906, N6.***

"Hərgah erməni məsələsi və panislamizm" kimi kitablar əvəzində, məhəbbət və qardaşlığa çağıran risalələr nəşr etsə idilər, bu qədər nahaq qanlar tökülməyib, bu qədər evlər, xanimanlar bərbad olub viran qalmaz idi. Bu qədər arvadlar dul, bu qədər uşaqlar yetim düşməz idi. Ey vətəndaşlar! Bəsdir bu qədər həlakət! Bəsdir bu qədər qəflət!.."

***"İrşad" qəzeti, 5 yanvar 1906, N15.***

## İranda hürriyyət, "ədalətxanə" məclisinin yaranması haqqında

"-Ey qəflət yuxusu ilə məşhur olan qardaşlar, axır ki, ayıldınız! Şübhələriniz xeyir olsun!..

... Ey iranlı qardaşlarımız! Sizin məqsudə yetmənizdə hər kəs şəkk edirsə, etsin.Mən özlüyümdə şəkk etmirəm: Sizin əslafınızın(sələf) tarixi bunu göstərib əlaniyyə diyor ki, zöhhaklar zülmünə düçar olduqda gavələr, əfqanlar talanına giriftar olanda nadirlər olduğu kimi, bu dəfə dəxi istibdad(zülm) bəlasına aludə varsınızsa da ittihadi-milliyyə, məhsulasi-ammiyyə(kütlə, xalq) sağ olsun!

Yaşasın İranda hürriyyət!

Yaşasın İranda qanuni-əsası!"

***"İrşad" qəzeti, 20 fevral 1906-cı il, N51.***

## İnsan azadlığı və hüquqları haqqında

"İnsanın azad vaxtı olur isə, ibareyi-digərlə, insan hürr olur isə, əxlaqi yaxşı olur, vaxtsız əsir olur isə bədəxlaq olur.

İnsanın azadlığı da onun öz ixtiyarında olmağından naşidir(irəli gələndir)".

***"İrşad" qəzeti, N95, 97, 103, 122, 133;***
***21 və 24 aprel; 3 və 25 may; 7 iyun 1906-cı il.***

## İranda "Yanvarın doqquzu" hadisəsinin qurbanları haqqında

"Ey hürriyyət qurbanları, ey Tehran yanvarının fədailəri, siz xəyal etməyiniz ki, İran sizi fəramuş(unutmaq) edəcək! Xeyr, min dəfə xeyr! Gec ya tez İran sizin intiqamınızı alıb sizin qafillərinizə şiddətli mükafat edəcəkdir. Sizin adlarınız cümlə aləmin tarixində yazılmaq ilə bərabər İran inqilabı tarixində qızıl sətirlərlə səbt ediləcəkdir!!!(həkk ediləcək) Siz özünüz qətl edildinizsə də, sizin ruhunuz, sizin əfkarınız(fikirləriniz) hənuz(hələ) diridir və heç bir vaxt da ölməyəcəkdir.

Yaşasın İran tələbələri!

Yaşasın İranda inqilab!"

***"İrşad" qəzeti, 7 iyul 1906-cı il, N159.***

## Daşnaksütunçuya cavab

“Ey həqiqəti görmək istəməyən qəddar! Biz adını və müqəddəs ibarələri eşitmisiz, fəqət fəhlələrə deyil, əqidələrə təbir(ifadə etmə,anlatma) etmisiz. Biz daşnaksütyun millətçiliyinin adını deyib, ictimaiyyun-ammiyyun(kütlə,xalq) insaniyyətpərəstliyini müqəddəs bəyan etmisiz. Sözün məzmununu dəyişib, sonra məzəmmət etməyi ancaq daşnaksütyunçu “Alik” kimi həyasızlar bacararlar”.

***“İrşad” qəzeti, 21 iyul 1906-cı il, N171.***

## İslam dini haqqında

“İslamiyyət, hürriyyəti – məhz olub, hər bir əsası ictimaiyyət bina olunduğu bir zamanda, biz istibdadpərəst(zülmpərəst) oluruz. Quran bizə “və şakirhum fi-e-əmri” (“hər bir iş barəsində onlarla məsləhətləşək”) buyurduqda biz üsuli keyfəma yəşan dalınca gediriz. Cəmi taibələr(tövbə edənlər) dinimizin üsullarından olan hürriyyət və ittihadi-beynəlmiləli ararkən, bizlər istibdad(zülm) və nifaqı axtarıyoruz.

Müsəlmanlar! Bəsdir bu qədər özümüzdən bixəbər qaldığımız! Bəsdir dinimizə olan kəmetinalığımız...”

***“İrşad” qəzeti, 4 sentyabr 1906-cı il, N208.***

## Dövlət Duması haqqında

“...Əvvəl biləvvəl gərək səy etmək ki, bu Duma keçmiş Dumanın ixtiyarında olmayıb daha ixtiyarlı, daha imtiyazlı olsun, öylə Duma olsun ki, gəl deyəndə gəlib, get deyəndə getməsin. Bizə öylə Duma lazımdır ki, cümlə generallar, vəzirlər və sahib-mənsəblər onun hökmünə tabe olsunlar. Və oraya seçilən vəkillər bir taqım(dəstə) nəfspərəstlər tərəfindən deyil, ümum camaət tərəfindən dörd üzvlülü-seçki qaidəsi üzrə olaraq seçilsin!”

***“İrşad” qəzeti, 17 oktyabr 1906-cı il, N245.***

## Rus idarəçiliyi haqqında

“Rusiya məmləkətində hökm sürən istibdadın ən qədim və köhnə olan üsullarından biri budur ki, istibdad (yəni bir nəfərin, yaxud bir

dəstənin keyfi istədiyi kimi edilən idarə) özünə tabe olan millətləri bir-birilə yağılaşdırıb və tutuşdurub və bununla müxtəlif millətlər arasında ziddiyyət və düşmənçilik salıyordu, hökumət tamam qərinə özünü öz təhti hökumətində olan millətləri bəzi xüsusi qanunlar verməklə və özünün nökərləri – qulluqçuları vasitəsi ilə və bəzi öz millətinin, qövminin hər bir üzv və namusunu satan “rəislərin” köməyi ilə cümlə Rusiya təbəəsi millətləri: müsəlmanları, erməniləri, gürcüləri, polyakları və qeyrilərini təqib edib sıxırdı”.

***“Təkamül” qəzeti, 16 dekabr 1906-cı il, N1.***

## “Cavanlarımıza”

“Ey millət, millət deyib bar-bar bağıranlar, ey öz elm və bilikləri ilə fəxr mübahat(izn verilmiş,mümkün olan) edən cavanlar, ey tələbəlik və studentlik faxir etibası ilə müzəyyən(bəzənmiş) ziyalarlar, ey cəmaət müəllimi adlanan zəvati-kiramlar, ey təbən hürriyyət və azadlıq məftunu olan millət balaları! Biçarə füqarə ürəyinin ən dərin guşəsindən gələn bu səda və fəryadı, millətimizin çox qismi olan bu füqarə və kəsəbənin yanğılı fəryadlarına, guş veriniz(qulaq asınız). Giriniz bunların içinə, göstərin onlara o yolu ki, onunla mənzilə yetişə bilsinlər”.

***“Təkamül” qəzeti, 23 dekabr 1906-cı il, N2.***

## Millətpərəstlik nədir?

“Bax iki cür “millətpərəstlik” var. Biri qoçaq, biri maymaq. O ki qoçaq millətpərəstdir – gedib bir dükan açır, yainki karxana bina eləyir. Adın qoyur “millət dükanı”, yainki “millət fabrikası”, başlayır yavaş-yavaş “millət qarpızı, millət papirosu, “millət bezi” satmağa. Bu millətpərəstin məfai də həmişə qeyrilərinkindən bir az baha olur. Bu da məlumdur ki, neçün, ondan ötrü ki, özgələrinin yalxu papiros, qarpız, bez və flan isə, bunun ki, “millət papirosu”, “millət qarpızı”, “millət bezi” və “millət flanı”dır. O ki, maymaq millətpərəstdir, o da bu qoçaqların sözlərinə inanıb, bir şahılıq qarpızı altı qəpiyə, acı “papirosu” “şirin” əvəzinə, 8 qəpiklik bezi 10 qəpiyə “millət” naminə alıb işlədir”.

***“Təkamül” qəzeti, 30 dekabr 1906-cı il, N3.***

## Kimləri seçək?

“Vətəndaşlar! Budur Bakıda öz vəkillərini keçirməyə çalışan firqələr! İxtiyar sizindir. Seçin onları ki, onların məramnaməsini xoşlayıb, öz xeyrinizi, yəni ümumin xeyrini, onu ala bilirsiniz! Çıxarın yadınızdan həmişə adət etdiyimiz qərəzi-şəxsiyyəti, vəkil seçək, fəqət millət naminə,

cəmaət xatirəsinə olaraq seçək! Haydı vətəndaşlar, bu yolda himmət edin!!”

***“Təkamül” qəzeti, 11 yanvar 1907-ci il, N4.***

## Azərbaycan türkləri

“...Bəli, türklər də gərək olsun. Çünki Qafqaz vilayətlərində fəhləlik və hamballıq etməklə kəsb-ruzi edən iranlıların əksəri Azərbaycan türkləridir ki, burada Rusiya fəhlələri arasında işləməklə, yoldaşlıq təsiri olaraq, hürriyyət və fədakarlıq işlərinə alışmışlar!

“İran bahadırları türklərdir” – demək İran inqilabının əsası ilə, əsasi-elmiyyəsi ilə isbat edilmiş bir həqiqətdir ki, bu barədə heç danışıq belə olmaz”.

***“Təkamül” qəzeti, 17 fevral 1907- il, N9.***

## Müəllimlər haqqında

“Hər bir camaat üçün hər bir tayfa və millət üçün mədəni bir əhəmiyyəti olan milli ibtidai məktəblərin idarəsi və tədrisini öylə bir surətə qoymağa çalışın ki, oralardan çıxan mütəəllimün haman kəsb elədiyi elmlər bərəkətindən zəmanəmizdə mövcud üsuli-məişətdən bəhrədar ola bilsin. Çalışın ki, camaat məktəblərini aldığı ada layiq edəsiniz! Çalışın ki, camaatı təhlükəyə salan bəzi hissiyyat, onu qəflətdə saxlayan mövhumat və bunlara meydan açan üsuli-tədris və təlim bilmərrə məktəblərdən qovulsun!”.

***“Yoldaş” qəzeti, 22 avqust 1907-ci il, N1.***

## “Fəda ol, qədr gör!”

“-Ah... nə vaxt bir mücahid özünü fəda etdi ki, cəmaət onun qədrini bilmədi? Cəmaətə qədr bilməyi fədakarlığın ilə gərək öyrədəsən. Əvəzsiz heç nə alınmaz. Fəda ol, qədr gör!”

***“İrşad” qəzeti, 15 aprel 1908-ci il, N51.***

## İki Azərbaycan həsrəti

“Mərənd...

Nə gözəl, nə şairanə bir bucaq! Qovaqlar uzanaraq, asimanə baş qalxızmış, meyvədar ağaclar böyük bir vüqar ilə fikrə dalmışlar...

Ah, əgər bu təbiət, bu hava, bu şənlik, bu şəfa, bu məlahət, bu səda Bakıda olaydı, yaxud Bakı burda olaydı!..”

***“Tərəqqi” qəzeti, 4 iyun 1909-cu il, N122.***

## Sosialistlər haqqında

“Avropada sosialist adlanan ictimaiyyun elə bir firqədir ki, yalnız Avropanın konservatorları(mühafizəkarları) deyil, hətta onların demokratlarını, liberallarını və radikallarını da “etidaliyyun” (mühafizəkar) sayaraq, onlarla mübarizə aparırlar. Bunlar (yəni sosialistlər) elə firqədir ki, təkcə siyasi bərabərlik deyil, ictimai-iqtisadi bərabərlik də tələb edirlər. Bunlar Avropa məişətinin bütün kiçik və böyük məsələlərində nüfuzu olan kapitalizm üsul-idarəsinin əleyhinə çıxıb onu (kapitalizmi) Avropa, Amerika, Yaponiya və s. yerlərdə dağıdıb, sosializm idarə-üsulunu bərqərar etmək istəyirlər”.

***“Mühafizəkar və ya sosialist mühafizəkar partiyaların tənqidi”. 1910-cu il, Tehran, “Faros” mətbəəsi.***

## Vəsiyyətnamə

“1. Yüksək vəzifəyə layiq görmədiyiniz şəxsi həm özünüzü, həm də başqalarını aldadıb böyük tarixi şəxsiyyət fərz etməyin. Çünki, bu cür etsəniz öz təcrübəm əsasında deyirəm – öz başınıza bəla gətirərsiniz.

2. Əgər təzə təşkil edəcəyiniz məmləkətin əsasları köhnədirsə, labüd olaraq inqilabdan keçərək bir milli hökumət təşkil edin.

3. Siyasi nəzəriyyələr meydanında nə qədər bacarırsınız, fikir atınızı oynadın. Amma bu at oynatmaq irançılıq çərçivəsindən kənara çıxmamalıdır.

4. Siyasət meydanında nə qədər mühafizəkar olsanız da, orta yol seçin və ya həddə artıq qızğın olmayın, bir-birinizi ittiham etməyin!..

5. Əgər nazir olsanız və ya İranda təzə yüksək vəzifəyə çatsanız, öz hərəkətlərinizdə mülahizəli olun. Elə etməyin ki, sizin məlumat və üzrxahlığınız məmləkətə və onun azadlığına xələl gətirsin.

6. Əgər millət vəkili olsanız, öz vəzifənizi bilin və heç vaxt ondan kənara çıxmayın...

7. Əgər allah eləməsin, çətinliyə düşüb gözlədiyinizin əksinə olaraq jurnalist olsanız, ən azı sərxoş halda heç bir şey yazmayın, yoxsa öz milli mətbuatımızın bədnam olmağına bais olacaqsınız.

8. İdarəyə və ya Milli Məclisə vəkillər seçilən zaman elə adamı seçin ki, onun özünün müstəqil fikri olsun, vicdanla rəy versin.

Gözləməsin ki, görək filankəs nə rəy verəcək, mən də onun əksinə rəy verim.

9. Əgər bir hadisə zamanı siz öz millətinizə layiqli xidmət etsəniz və məşhur qəhrəman olsanız çalışın ki, hərəkətləriniz ad-sanınıza uyğun olsun. Belə olmazsa, sabah xidmətiniz bir qara qəpiyə dəyməz.

10. Öz çalışqanlığınıza görə bir yerə hakim təyin olunsanız, elə etməyin ki, sizə baxıb zalımlara rəhmət oxusunlar...”

***“İrani-Nov” (“Yeni İran”) qəzeti, 1910, 17 may, N206.***

## Güney Azərbaycanı – İran türkləri

“İran türkləri başlıca Azərbaycanda sakin olarlar. İran Azərbaycanı İranın şimal tərəfində mövcuddur və İranda mövcud səkkiz əyalətin ən mühümüdür. Talış kimi bəzi ormanları və Muğan səhrasının İran qismi istisna edilirsə, Azərbaycan ələl-ümum dağlıqdır. Bu dağlardan ən mühümləri Savalan, Səhənd, Qaradağ silsilələridir. Ərdəbil qəzasında olan Savalan dağı 4725 metr yüksəkliyindədir. Bu qitə dağlıq olmaqla bərabər əkinçiliyə əlverişli, münbit torpağı çoxdur, havası saf və sağlamdır...”

“Azərbaycanın mərkəzi əyaləti Təbriz və məşhur şəhərləri də bunlardır: Ərdəbil, Urmiya, Xoy, Dilman (Səlmas), Maku, Sulduz (Sulduz ərazisi Osmanlı dövləti ilə İran arasında mübahisəli nahiyələrdir), Marağa Xalxaldır.

Əhalinin böyük qismi ziraət və ticarətlə məşğul isələr də Şahsevən, Qaracadağlı, Çələbiyan və Xəmsə elləri kimi bir qisim də köçəri halında və çobanlıq ilə keçirirlər”.

“İran türkləri və İran türklüyü deyildiyi vaxt xatirə ələl-əksər Azərbaycan gəlir. Halbuki, 3 milyon türkdən təqribən iki bucuq milyonu ehtiva edən bu qitədən başqa İranın sair yerlərində, hətta irani-qədimin mərkəzi olan Şiraz ətrafında belə türklər vardır. Bunlar ədədləri 350 mini təcavüz edən qaşqailərdir ki, bir əsirət halında yaşarlar”.

## “Türk daha mətindir”

“İran türkü, başqa türk qardaşı kimi bir az mühafizəkardır. Azərbaycanlı bir türk, şirazlı bir farsdan daha təəssübkeşdir, türk, fars qədər azad fikirli deyil, fəqət onun qədər əzimsiz və laübali(səhlənkar) deyildir. Türk daha mətin və daha səbatkardır(sabit,mətanətli)”.

## Təbriz-Azəri türkləri

"Təbriz İran inqilabının atəşlər yağdıran bir mənbəyi idi. Azəri türklərindən təşəkkül edən hürriyyət mücahidləri bütün İran zülmət pərəstanına qarşı mərdanə köks gərmiş, dayanmışdır. İranın ənvar və niyazisi Səttar xan ilə Bağır xanın komandası altında Təbrizin on bir aylıq bir mühasirəyə qarşı göstərdiyi qəhrəmanlıqların öylə şanslı səhifələri vardır ki, bu bahadır türklərin iranlılar arasında "övladı-qəyuri Azərbaycan" – deməyə təməyyüz(fərqlənmə) etmələri pək haqlıdır".

***"Türk Yurdu" jurnalı, N4, 1911; N2, 6, 9, 10, 12/24 1912-ci il.***

## "Erməni məsələsi"

"Nədir bu erməni məsələsi? Bu, hər şeydən əvvəl bir ərazi məsələsidir. Bir yerdə ərazi bir millətə mənsub olanlarda olub, zərilər (əkinlər, tarlalar) digər bir milliyyətə mənsub olurlarsa, mütləq malik(yiyə, sahib) ilə zəri(əkinçi)) arasında təbii olan sinfi mübarizəsi milliyyət şəklini alır".

"Heç bir vilayətdə orasına Ermənistan dedirdəcək qədər əhalinin əksəriyyətini təşkil edən bir vilayət yoxdur".

***"İqbal" qəzeti, 9 iyun 1913-cü il, N380.***

## "Ərəb məsələsi"

"Ərəb məsələsi: nəzərimizcə Türkiyənin istiqlalı və gələcəkdə mühüm bir mövqe tutub da Asiyada möhkəm bir hökumət vücuda gətirə bilməsi bu "məsələ"nin yaxşı bir surətdə həllinə bağlıdır. Rum eli getdikdən sonra Türkiyədə iki mühüm ünsür qalır: Türklər və ərəblər. Bu iki ünsür uyuşa bilərsə, məmləkətin atisi(gələcəyi) təyin edilmiş deməkdir".

***"İqbal" qəzeti, 13 iyun 1913-cü il, N384.***

## "Sağlam millət"

"Millətlər ailələrdən təşəkkül edər. Sağlam olmayan ailələrdən təşəkkül edən millətlər sağlam millət ola bilməzlər".

***"İqbal" qəzeti, 17 iyun 1913-cü il, N387.***

## "Həyatı sevəlim"

"Mərakeşdən tutub – Buxaraya qədər, hər yerdə, hər bir islam məmləkətində kütleyi-naş "dünyanı beş gün "bilir", "beşi də qara". Bu beş qara gün isə nə çalışmağa dəyər, nə də zəhmətə...

Biz müsəlmanlar, bizə öyrədilən “müsəlman tərbiyəsi”nə sadiq qaldıqca dünya işlərində müvəffəq ola bilməmiz mümkün deyil. Çünki dünyanı və onun həyatını sevmiyoruz, onda bir gözəllik görmüyoruz...

...Bizdən əleyh(onun ziddinə,ona qarşı): həyatı sevəlim!”

***“İqbal” qəzeti, 1 iyul 1913-cü il, N399.***

## Ana dilini bilmək

“Öz dilini bilməyib də sırf başqa bir dildə ziyalılaşan və təkəllüm (danışmaq, söyləmək) edənlər, bir dərəcəyədək gülünc olurlar. Mənsub olduqları mühitə mərbutiyyətləri(bağlılıq) az qalır. Bir mühitdən uzaqlaşıyor, digər mühitə də tamanülə iltihaq (birləşmə) edəmiyorlar”.

***“İqbal” qəzeti, 4 iyul 1913-cü il, N402.***

## Dil ictimai mühüm bir amil

“İnsanlar arasında cameiyyət vücuda gətirən iki mühüm amil vardır. Bunlardan biri din, digəri də dildir. Məlum olduğu üzrə din müxtəlif dillərlə mütəkəllim(danışan,natiq) və müxtəlif cinsdən olanları birləşdirdiyi halda, dil ancaq bir növdən və bir cinsdən olan insanları birləşdirir”.

“Həqiqətən dil milləti hər şeydən daha gözəl təmsil edir. Millət dil vasitəsi ilə bütün məziyyət və mövcudiyyətini ərz edə bilir. Adəm oğlunun sözü bəzi riyazi və fənni məfhumları andıran əlcəbr və ya kimya əlamətləri kimi ölü hərflər deyildir. Onun qanı, canı vardır. Millətlə bərabər doğar, onunla bərabər yaşar, tərəqqi edər”.

***“Şəlalə” jurnalı, 10 avqust 1913-cü il, N27.***

## Ədəbiyyat haqqında

“Ədəbiyyat rəhbərdir. Rəhbərin nöqsanı həqiqət yolunu tutanların nöqsanına mövcib (lazımınca) olur. Buna görə də mütəməddin (mədəniləşmiş) millətlərdə ədəbiyyat həyatın bütün vəqəələrini(əhvalat,hadisə) tənqid etdiyi kimi özünü də tənqid edir. Çünki, özü də həyatın bir vəqəəsidir. İnsanlara tənqidi-nəfs öyrədən ədəbiyyat özünü tənqid etməsə idi alimi-biəməl məqamında qalan idi”.

***“İqbal” qəzeti, 10 oktyabr 1913-cü il, N476.***

## İslam tarixinin parlaq dövrü – demokratizm

“İslam tarixinin ədvarını (dövrlərini) saydıqda xatib(natiq) ən böyük və məncə ən mühüm bir dövrün təsvirini tamamilə unutdu. Bu da xüləfayi – Rəşidin dövrü idi. Xüləfayi - Rəşidin dövrü islamiyyətin şayanitədqiq ən böyük bir dövrüdür. Bu fütuhati-islamiyyə dövrüdür. Bu dövrdə yetişən əazim (ən böyük,əzəmət) Fransa inqilabında yetişən əazimdən də böyükdür. İslamiyyətdəki demokratizm tamamilə bu dövrdə təzahür etmiş, gərək Bizansı və gərək İranı yıxan bu demokratizm olmuşdur”

***“İqbal” qəzeti, 15 oktyabr 1913-cü il, N480.***

## Tərcüməçilik haqqında

“Hər bir mütərcimin hiss edə biləcəyi sınanmış bir məsələdir ki, nə qədər məharətli olursa-olsun, tərcümə əslin təsirindən azadə ola bilməz. Məsələn, ruscadan bir əsər tərcümə edəcək olsanız, mümkün deyil rusca üsuli-inşa və tərzi-təhririnin tərcüməmizdə bir təsiri görülməsin. Bu təsirdən xilas olmaq üçün diqqətli mütərcimlər əsəri bir kərə yazdıqdan sonra buraxarlar. Bir-iki ay sonra onu ələ alıb təkrar istinsax(üzünü köçürmə) edərlər. Tainki, tərcümə olunan lisandan(dil) gələn yabançı təsirlər tamamilə qovulsun”.

***“İqbal” qəzeti, 5 noyabr 1913-cü il, N497.***

## “Ağlağan olmamışam”

“Ağlamaq adətim deyildir. Çox güləyən deyiləm də ağlağanlığım da yox kimidir. Biz ifadeyi-cəbriyyə ilə anlatmaq lazım gəlsə, zənn edirəm ki, yenə gülüşüm zaidli(artıq, lazımsız) çıxar. Hətta uşaqlığımı xatırlayanlar belə mənim sakit və samit(sakit,danışmayan) bir bala olduğumu söylərlər”.

***“İqbal” qəzeti, 19 noyabr 1913-cü il, N509.***

## Novruz Bayramının tarixi

“Hər millətin tarixindən başqa bir də tarixdən əvvəl tarik(qaranlıq) bir dövrəyə məxsus əsatiri vardır. Novruz dəxi ta İran qədim əsatiri içində görünür, məzkur(söylənmiş) əsatirə nəzərən Novruz Cəmşidin yadigarıədd olunar(sayılar). Fəqət bu günkü şəkli ilə o elmən məchul bir dövr və şəxsə mənsub olmaqdan ziyadə tarixən mövcud olan bir Sultanə

mərbutdur ki(baglıdır,aiddir), o da türk hökmdarlarından Cəlaləddin Məlikşah Səlcuqdur.

Cəlaləddin elm və fənnə ziyadəsilə əhəmiyyət verərdi. Elm və fənnə etdiyi xidmətlər meydanında mükəmməl bir tarixi şəmsi dəxi vücuda gətirmişdir. Bu tarix Cəlali adı ilə məşhurdur. Tarixi-Cəlalidə Novruz il başıdır və ya bayramdır”

***“İqbal” qəzeti, 13 mart 1914-cü il, N599.***

## “Özümüzü öyrənməliyik”

“Hər şeydən əvvəl özümüzü öyrənməliyik. Kimiz, nə millətiz, haradan gəlmişiz? Özümüz nə, mahiyyətimiz nə olduğunu bilməliyiz. Sonra da bilməliyiz ki, biz heç də həyatından qəti ümid etmiş bədbəxtlər deyiliz. Biləks(əksinə) anlamalıyız ki, böyük tarixə malikiz”.

***“Bəsirət” qəzeti, 12 aprel 1914-cü il, N1.***

## “Millətlər bəşəriyyətin övladıdır”

“Millətlər cahani bəşəriyyətin birər övladıdır. Hər övladın sinnisəbavət (uşaqlıq dövrü), səbab (dünyaya gəlməyinə bir səbəb olması) və bülügi(yetkinlik) olduğu kimi, millətlərin də səbavət, səbab və bülügi vardır. El ədəbiyyatı bir millətin səbavət dövrünün ədəbiyyatıdır. Bir uşaq necə dil açır və nə surətdə təkmil ediyorda, ən nəhayəti qoca bir alim oluyorsa, bir millət də öylədir. Əvvəlcə uşaqlıq aləmində oluyor. Get-gedə təcrübələr keçiyor və nəhayət mütəməddin (mədəniyyətli) və mütəfənin (bilikli) bir millət oluyor”.

***“İqbal” qəzeti, 20 aprel 1914-cü il, N631.***

## “Avropalılarla fərqimiz”

“Əgər Avropa bu gün göz qamaşdıracaq qədər tərəqqi etmiş, parlamış isə, ancaq mütəxəssisləri sayəsində parlaya bilmişdir. Avropada hər kəs edadi dərəcəsində ümumi məlumata dara(sahib olmaq) olduqdan sonra özünə müəyyən bir bilik xətti seçir və o yolda ixtisas peyda edər. Avropalı yalqız bir şey öyrənər. Fəqət öyrənmək kimi öyrənər. Onu tamamailə təkmil edər.

Halbuki, Şərqdə, ələlxüsus biz müsəlmanlarda bu böylə deyildir. Biz Krılovun ördəyi kimi dənizdə üzmək, yerdə gəzmək və havada süzmək istərik. Çox peşə ediniriz. Fəqət bilgimiz pis olur. Halbuki, avropalı-

larca "çox peşə, pis bilik nə hacətdir(ehtiyac,lüzum), birini yaxşı bil kifayətdir".

***"Bəsirət" qəzeti, 3 may 1914-cü il, N4.***

## "Müsəlman aləmini bərbad edən..."

"Müsəlman aləmini bərbad edən böyük illətlərdən (xəstəliklərdən) biri də ayrı-ayrı fikirlərə hürriyyət verməyiyi və yeni fikir və ictihadları (çalışma,səy etmə)) eşitməyə təhəmmül (dözmək) etməyidir.

Bizdə tazə bir fikir meydana qoyuldumu, haman arı yuvasına çöp uzadılan kimi hamısı yerindən qalxar, hay qoymayın – deyə küy qopar. Bu dinə xilaf oldu, o mövcud olan əsaslara müqabil (qarşılığı) çıxdı. O biri kafir oldu, digəri bilməm nə oldu – deyə hücum olunar. Nəticədə isə zərər çıxaran həqiqət olar ki, bunun sonunda həqiqətdən məhrum qalan cəmaət cəzasını çəkər. Halbuki, bitkilərin müsadiməsi (çarpışma, toqquşma) həqiqət bariqəsini (işıltı, parıltı) doğurar".

***"Bəsirət" qəzeti, 7 iyun 1914-cü il, N9.***

## Bəşər mədəniyyəti nədir?

"Məncə, mədəniyyəti-bəşəriyyə millətlərin zəhmətlərindən hasil olan bir yekundur. Hər millət öz iqtidar və öz istiqlalı sayəsində, yəni öz diriliyi ilə özünə xüsusi, xüsusi olduğu qədər də qiymətli bəzi şeylər əlavə ediyor ki, bir millətin ölməsi və yaxud ölgün fikrilərlə yaşaması yalnız özünün bədbəxtliyi deyil, bəşəriyyətin də böyük bir nöqsanını təşkil ediyor".

***"Dirilik" jurnalı, 16 sentyabr 1914-cü il, N1.***

## "Milli istiqlal"

"Milli istiqlal, ələlxüsus, millətlərə xüsusiyyətlərini təmin edən istiqlal daima bəşəriyyətə saheyi-mədəniyyətdə yeni və əsil bir taqım (dəstə) ibdalar(ixtira,kəşf), ixtiralar vəd etməyindədir ki, mədəniyyəti-bəşəriyyə dediyimiz şey də bu bədaət(aydınlıq,aşkarlıq) və ixtiraların məcmuindən ibarət bir yekundur".

***"Dirilik" jurnalıi, 2 oktyabr 1914-cü il, N2.***

## Millət nədir?

“Milli mədəniyyət və yaxud millət, dilbirliyi, adət və əxlaq birliyi, ənənavi-tarixiyyə və nəhayət etidafi-diniyyə birliklərinin məcmuundan mütəşəkkil bir məhsuldur”.

“Dil millətin böyük hissəsidir...

Dil ilə bərabər dində də bir olan millətlərin mərifəti-qövmiyyətləri daha tez hasil olub, aralarında milli vicdan daha əvvəl inkişaf edir.

Millətlərin həyatı da ancaq bu milli vicdanın inkişafı sayəsində mümkün olub, ancaq bu vicdanın təsiri ilədir ki, milli ideal hasil oluyor. Milli idealın (imanın) hüsulu ilədir ki, millətlər özlərinə şanlı, şərəfli bir dirilik təmin edə bilərlər”.

***“Dirilik” jurnalı, 14 oktyabr 1914-cü il, N3.***

## “Vətən yolunda ölmək var, dönmək yox!”

“Belçikalılarca: yanmaq, dağılmaq, ölmək, qərq olmaq, amansız düşmənin rəhmsiz həmlələrinə məruz qalmaq – bunlar hamısı məmləkəti müdafiəsiz bir surətdə düşmənə təslim etməkdən uludur(ilkin,birinci). Bu kiçik qitəli, fəqət böyük qəlbli millətin düsturu iştə budur:

**“Vətən yolunda ölmək var, dönmək yoxdur!”**

***“İqbal” qəzeti, 2 oktyabr 1914-cü il, N753.***

## Demokratiya harada olur?

“Hər bir millətin müstəqil olub da öz başına idarə olunması tərəqqiyatı-tarixiyyəyə müvafiqdir, demokrasi ancaq bir millətdən mütəşəkkil olub da bir dildə danışan məmləkətlərdədir ki, gözəl tərəqqi edər və özünü göstərə bilər. Bir məmləkətdə mənəvi ixtilaflar insanlar arasında ki, tarixi və təbii hüdudlar nə qədər azalsa və nə qədər dil ittihadi qüvvətli olsa, o qədər də məmləkətin iqtisadi, siyasi və əqli tərəqqiyyatı qüvvətli olar. Məmləkətin aşağı sinifləri dəxi böylə bir məmləkətdə məmləkətin mədəni və siyasi həyatında iştirak edərlər və bu hal məzkur (söylənmiş, adı çəkilmiş) məmləkətin qüvvətinə səbəb olar”.

***“İqbal” qəzeti, 12 oktyabr 1914-cü il, N761.***

## “Səttar Xan”

“Teleqraf məşhur Səttar Xanın vəfatı xəbərini gətirdi. Son zamanlar Səttar Xan unudulmuşdu. Artıq adı dillərdə dastan deyildi.

Fəqət bir vaxt vardı ki, bu ism günün mövzusunu təşkil edirdi. Avropa qəzetləri belə Səttar Xan ismini Qaribalda ilə bərabər tutuyorlardı. İştə bu vaxtilə İran Qaribaldisi olan zat ölmüşdür...

Millətin bətnindən yetişmiş olan bu qəhrəman hər nə qədər avamlığı cəhətindən onun-bunun intriqalarına qurban oluyordusa da, fitrətən bir çox məziyyətlərə malik idi.

...Mərhumla ilk dəfə Təbrizdə görüşdük...

"...Səttar Xan İran tarixi – təcəddüdünün (yenilənmə,təzələnmə) unudulmaz bir simasıdır".

***"İqbal" qəzeti, 10 noyabr 1914-cü il, N786.***

## "Milli vicdan, milli iman"

"Milli vicdan və yaxud milli iman milli dirilikdəki əməl və arzunun mövcudiyyətindən və onun surəti-hiss və bəyanından hasil oluyor. Hər millət deyil, hətta bir şəxsin özünə görə bir əməli vardır. Buna başqa təbirlə meyl və arzu dəxi demək olar. Bunun firəngcəsi "İdeal" gəliyor. Osmanlıcada son zamanlarda bunu "məfkurə" deyə tərcümə edənlər də vardır.

Hər şəxsin arzu və əməli bittəb özünün iqtidar və məsləki ilə mütənasib olur".

***"Dirilik" qəzeti, N4, 1 noyabr 1914-cü il.***

## "Qüvvətli olanları saxlar, zəif olanları əzər"

"Ağlamaq dini vaqiələrdə, ruh və imanın paklıq və istirahəti üçün lazımi bir şey isə də, dünya işlərində fayda gətirməz. Təbiət olduqca qəddar və birəhmdir (rəhmsizdir). O, göz yaşlarına zərrə qədəri əhəmiyyət verməz. O, gülməyə, ağlamağa qarşı laqeyddir. Hələ ağlamaqdan bir az da zəhləsi gedər. Çünki ağlamaq acizlik əlamətidir. Acizlərin isə təbiət ən birinci düşmənidir. Qüvvətli olanları saxlar, zəif olanları əzər – budur onun rəftarı".

***"İqbal" qəzeti, 14 noyabr 1914-cü il, N790.***

## Dil məsələsi

"Milliyyətin ümdə rüknünü(əsasını) təşkil edən şey dildir. Dil adətən hər bir heyətin hansı bəşər dəstəsinə mənsub olduğunu göstərən bir lövhədir. Dil milliyyətin hamısını təşkil etməsə də, yüzdə doxsanını vücuda gətirən böyük bir amildir.

Ey millətin istiqbalını (gələcəyini) təmin edəcək türk gəncliyi, haradasan?!”

***“Dirilik” jurnalı, 1 dekabr 1914-cü il, N6.***

## Dinin rolu

“Din hər nə qədər dildən sonra gələn bir amil isə də bəzi şərait daxilində ondan daha müəssir bir qüvvət şəklini də ala bilir, ümumi bir dil nə qədər dil əhlində ümumi bəzi xislətlər və ideallar tovlid(doğma,vücuda gətirmə) ediyorsa ümumi bir dinə malik olmaq dəxi o dərəcədə böyük bir təsir icra edə bilər. Müxtəlif din və məzhəblərə malik olan bir dil sahiblərinin milliyyət olaraq vahid mədəni bir kütlə vücuda gətirmələri müşkül olduğu halda, bir din və bir dilə malik olanlarca bu müşkülat mütəvəssit(vasitəçi) deyildir.

Din bir millətin əsliyyətini mühafizə edə bilər. Fəqət çox kərə də din bir millətin dilinin baqi(daimi) qalmasına və bu münasibətlə milliyyət fikri və amalının inkişafına səbəb oluyor”.

***“Dirilik” jurnalı, 16 dekabr 1914-cü il, N7.***

## “Millətin tarixini bilmək...”

“Bir millətin öz tarixini bilməsi qədər qüvvətli bir ittihad(birləşmə, birlik) və təməddin (inkişaf) amili təsəvvür oluna bilməz.

Mütəməddin(mədənişləşmiş) millətlərin milli və mədəni həyatlarının nə yolda tərbiyə edildiyinə diqqət olunarsa, bu mətləbin həmən nə dərəcədə doğru olduğu asanlıqla görünər. Mədəni millətlərdə tarix, həm də vətən və milliyyət tarixi, ən mühüm dərslərdən birini təşkil edər”.

***“Dirilik” jurnalı, 1 yanvar 1915-ci il, N3.***

## I Dünya hərbi haqqında

“Bu müharibə dünyanı milliləşdirəcək, milliyyəti-nəzəriyyə, siyasiyyə və mədəniyyəsinə olduqca mətin bir əsas verəcək və təkrar qanlı və böyük müharibələrə meydan buraxmamaq üçün hər kəsin həqqi üzərinə verilmək bir dəsturi-ittixaz olunacaq (qəbul ediləcək, əldə ediləcək) böylə bir dəsturun ittixarı qabil olmasa belə şübhəsiz ki, bu əqllərə nafiz(nüfuz edən) və hakim bir ideal şəklini alacaqdır”.

***“İqbal” qəzeti, 20 yanvar 1915-ci il, N843.***

## “Yəhudi istiqlalı”

“Millət ölmüyor. Milli ideal, milli istiqlal fikri daima yaşıyor. Ölmüş, bitmiş millətlərin təkrar dirildiyi də uzaq deyil. Yaxın tarix də şahiddir. Dirilmək və bir millət şəkil və heyətinə girmək, hələ millətin ən kamil şəkli-xariciyyəsi olan müstəqil bir hökumət təşkil etmək təsəvvüründən olduqca uzaq olan yəhudilik belə “ərzi-moyud”ini özünə qaytarmaq ümidindən qalmayır”.

***“İqbal” qəzeti, N892, 22 mart 1915-ci il.***

## “Müdhiş rəqəmlər, acı həqiqətlər”

“1914-cü ilin (ehsaiyyətinə) statistikasına nəzərən mədən və zavod lokantını çıxdıqdan sonra Bakıda 214.679 can vardır ki, onlardan 120.798-i kişi və 93.881-i arvaddır.

Milliyyət etibarı ilə şəhər əhalisi bu tərtiblə hesab olunuyor: rus 79.229 və yaxud yüzdə 36 (bütün əhalinin hər ikisindən artıq), qafqasiyalı müsəlmanlar 45.972 və yaxud duyoruz 21,3, ermənilər 41.675 yaxud yüzdə 19,5, iranlılar 25.097 yaxud yüzdə 11,7, yəhudilər 9.689 yaxud yüzdə 4,5, gürcülər 4.077 yaxud yüzdə 1,9, nemsələr (almanlar) 3.280 yaxud yüzdə 1,1 və sair millətlər 8.650 yaxud yüzdə 3,7”

***“İqbal” qəzeti, 20 aprel 1915-ci il, N917.***

## “Qardaş köməyi”

“Bu gün Bakı müsəlmanlarının ictimai diriliklərində daha misli keçməmiş bir gündür. Bu gün məlum olduğu üzrə Bakı cəmiyyəti-xeyriyyəsi mərifətilə Kars və Ərdəhan ətrafındakı hərbzadə müsəlmanlar faidəsinə bütün qorodonaçalstvo(şəhər rəhbərliyi) dairəsində ümumi “cəbhə ianəsi” tərtib veriləcəkdir.

Bu günün adı nə əla düşünülmüş – “Qardaş köməyi!”

***“Yeni İqbal” qəzeti, 7 may 1915-ci il, N9.***

## Qurtuluş – Ərkənəqon

“Dünyanın ilk sahibi olan hər böyük millət kimi türklər də saylarının qüvvətini bir məsalik(məslək) qaynağından almışlardır. Türklərdən Budda dinində olanlar özlərinin Budda anasından olduqlarını söylərlər.

Müsəlman olan türklər də Yafəsin yeddi oğlundan biri olan Türkün nəslindən gəldiklərini iddia edərlər...

...Yeddi bətni bəsləyən bu yurdun adı Ərkənəqon (ərkənə-dağ beli; qon-qonaq) qalıyor. Qurda bir xilaskarlıq timsalı veriliyor. Dağdan çıxdıqları zamandakı xanlarının adı Pürtəcnə - boz qurt oluyor...

Qurtuluş demək – nicat deməkdir".

***"Qurtuluş"məcmuəsi, 1 oktyabr 1915-ci il, N1.***

## "Tutacağımız yol"

"Dəhşətlərinə şahid olduğumuz böyük müharibə bir həqiqəti - əsrimizin milliyyət əsri olduğunu isbat etdi.

"Dünyanın xəritəsi qəribə dəyişəcək" – deyə heyrətlə qarışıq bir cümlə indi bir çox ağızlardan eşidilməkdədir. Dünya xəritəsinin alacağı yeni şəklə vətəndaşların fədakarlığı, dövlətlərin təşkilatı və orduların əzəməti ilə bərabər heç şübhə yoxdur ki, vüzuh(aşkarlıq,bəlli) və rüsux( qətiyyət, möhkəmlik) peyda etmiş milliyyət məfkurələrinin də böyük təsiri var və olacaqdır"...

"Hər bir millət azadə yaşayıb da tərəqqi edə bilmək üçün üç əsasa istinad etmək məcburiyyətindədir: dil, din və zaman.

Dilcə biz türküz, türklük milliyyətimizdir. Binaənileyh müstəqil türk ədəbiyyatı, türk sənəti, türk tarixi və türk mədəniyyətinə malikiyyətimiz məqsədimizdir. Parlaq bir türk mədəniyyəti isə ən müqəddəs qayeyi-amalımız, işıqlı yıldızımızdır.

Dincə - müsəlmanız...

Zamanca – biz texnikanın (alyatın) elm və fənnin möcüzələr yaradan bir dövründəyiz...

...Demək ki, sağlam, mətin və ayama məfkurəli(ideal) bir milliyyət vücuduna çalışmaq istərsək ki, zaman bunu iqtiza(tələb) ediyor – mütləqa üç əsasa sarılmalıyız: türkləşmək, islamlaşmaq və müasirləşmək!"

***"Açıq söz" qəzeti, 2 oktyabr 1915-ci il, N1.***

## Milliyyət və bəşəriyyət

"Milliyyət dövlətdən çox böyükdür. Hətta demək olar ki, milliyyət dövlətdən daha dərin və daha şümüllüdür(əhatə etmə, şamil olma). Milliyyətlər bəzən olur dövləti qeyb edərlər, sonra yenidən onu qazanarlar. Fəqət dövlət millətdən daha geniş, daha vüsətlidir. Bəzən bu vüsət o qədərdir ki, onun daxilində bir çox milliyyətlər birləşib böyüyürlər və bundan dövlət heç də zəifləşmiyor. İngilis, Amerika və

İsveçrə "dövlətxanələri" göstəriyor ki, orada bir çox millətlər azadlıqla yaşaya bilərlər və bir qorxu olduğu zaman yan-yana olaraq dövləti müdafiə də edirlər".

***"Açıq söz" qəzeti, 21 oktyabr 1915-ci il, N16.***

## Qafqasiyalı millətlər necə yaşamalı?

"Qafqasiyalılar qafqasiyalı qalıb da özlərinə mədəni, məmur və tərəqqi bir istiqbal(gələcək) arzu edirlərsə, mütləqa biri-birilə anlaşıb birləşməli, barışıb görüşməlidirlər. Hər kəs öz hüquq və mənafeyini gözləsin. Fəqət, əql və məntiqdən uzaqlaşmamaq şərtilə!"

***"Açıq söz" qəzeti, 23 dekabr 1915-ci il, N68.***

## Millətin xilası – müasirləşməkdir

"1915-ci ilin oktyabrın ikisində çıxan nömrəsində "Açıq söz" tutacağı yolunun istiqamətini göstərmək üçün üç nöqtə bəlləmişdi: Türkləşmək, İslamlaşmaq, Müasirləşmək.

Bu üç maddəyi təhlil etmək istəsək, ələlüsul sonuncusu müasirləşməkdən başlamalıyız.

Müasirləşmək – iştə bütün millətləri səlah (sülh,asayiş) və nicat yoluna çıxaran böyük vasitə. Müasirləşməyən, zaman və əsrindəki maddi və mənəvi vasiteyi-mədəniyyə ilə silahlanmayan bir cəmiyyət gərək qan, irq və dilcə birləşmiş milliyyət və ya din, ruh və vicdanca tanınmış, beynəlmilliyyət olsun – mümkün deyil. Müdhişi və qanlı bir rəzmgah(dava meydanı) təşkil edən bu dünyada kəndi(öz) mənliyi, öz mənəvi ruhu və təbii qəlbi ilə yaşayamaz. Dünyanın həyatından, bu həyatın ən böyük feyz(həzz,ləzzət) və nemətini təşkil edən istiqlaldan, mədəni iqtidar və hürriyyətdən məhrum olub qalar".

***"Açıq söz" qəzeti, 9 oktyabr 1916, N299.***

## Fevral inqilabı – böyük inqilab

"Əmsalı tarixdə görünməyən aləmşümul (bütün dünyaya aid) müharibənin ən müşkül bir zamanında dünyanın ən böyük bir hadisəsi, Rusiya inqilabı vaqe oldu...

... Fəqət müvəffəqiyyət üçün bir şey lazımdır. O da sükunət, mətanət, hissiyyat və təsadüfata tabe olmayıb əql və tədbirə hərəkət etməkdir.

Müsəlmanlara lazımdır ki, sükunət üçün vaqeh olan tələbləri qulaqlarına alıb kamali etina ilə öz işlərinə məşğul olsunlar və hadisata

qarşı çaşmayıb, rahat qala bilmək üçün bütün camaat qüvvələrini birləşdirsinlər və birləşmiş qüvvələr ilə yeni hökumətə köməkçi dursunlar”.

***“Açıq söz” qəzeti, 5 mart 1917-ci il, N418.***

## “İstibdadın (zülmün) müqabili - azadlıqdır”

“Camaat idarəsinin binası seçki üzərinə qurulmuşdur. Bir adamın keyfi, xahişi və buyruğu ilə olunan idarəyə istibdad(zülm,mütləqiyyət)) deyilər. İstibdadda fikir, təsəvvür, düşünmək, anlamaq və anladığını demək həqqi olmaz. “Ağa dedi sür dərəyə, sür dərəyə” – bu zərbül-məsəl istibdad üsul-idarəsinin qanuni, məntiqi və hikmətidir. İstibdab olan yerdə azadlıq, fikir sahibi, iradə yiyəsi olmaq olmaz. Burada ancaq sürünməli, hanki dərəyə göndərsələr, sürüləcəyiz, durmayıb getməlidir.

İstibdadın müqabili – azadlıqdır. Hər kəs fikir və rəy sahibi ola bilər. Görməmək, eşitməmək mümkündür. Fəqət hiss etməmək, anlamamaq adamın öz ixtiyarında, öz əlində deyildir. Bu adamın öz ixtiyarında olmayan xasiyyət insanı azadlığa, özünə ixtiyar almağa vadar eləmişdir. Qanmaq fikri, eləmək əzm və idarəsini doğurmuşdur”.

***“Açıq söz”, 5, 13 aprel 1917, N442, 449.***

## “Arvadlı - kişili seçkilərdə iştirak etməli”

“Arkadaşlar! Arvad məsələsində cahilanə təəssüf etməyiniz. Çünki bu təəssüf nəinki müsəlmançılığımıza və millətimizə xidmət etməz, bəlkə bizi seçkidə əgəliyyətdə (azlıqda)buraxmaq ilə ixtiyarımızı əlimizdən alar ki, bu da ki, nə şəriətə və nə də millətə müavinət degil, zərər yetirər və bu da bizi şəriət və milliyyətimiz qarşısında məsul və xəcil edər. Biz də böylə məsuliyyətli və tarixi zamanda bu məsuliyyəti və bu xəcaləti öz öhdəmizə götürməməliyiz.

Arvadlı – kişili seçkilərdə iştirak etməli və öz işlərimizin ixtiyarını öz əlimizə almalıyız”.

***“Açıq söz”, 12 may 1917, N471.***

## Rus imperializmi haqqında

“İmperializm demək dünyagirlik, cahangirlik deməkdir. Bu indiki dünya millətlərini bir-birinə salıb, yer üzünü qan dəryasına döndərən bir siyasətdir. Bir siyasət ki, köhnə Rusiya idarəsi onun ən qatı nümayəndələrindən idi. Rusiyadakı millətləri ruslaşdırmaq, Rusiya

xaricindəki millətləri əzmək, daima qonşular haqqında təcavüzkar bir fikir bəsləmək imperializmin xasiyyətlərindən idi. Bu imperializm idi ki, İranı bölmək istəyirdi. Bu cahangirlik idi ki, İstanbul ilə boğazları almaq arzusunda idi. Bu dünyagirlik idi ki, Avstriyaya hücum edib, o "qurama" dövləti parçalamaq fikrində idi".

***"Açıq söz", 31 may 1917, N485.***

## Bizə necə Cümhuriyyət lazımdır?

"Fəqət Cümhuriyyətdən – cümhuriyyətə də fərq var. Cümhuriyyət elə xalqlar üzərinə qurula bilər ki, yenə cümhuriyyəti - ənam məhkum millətlərin hüququnu tamamilə təmin etməyib xalqın mümtaz (imtiyazlı) qismi mənafeyinə uydurulsun, biistilah cümhuriyyəti-xass olsun...

...Var olsun Cümhuriyyəti-ənam (xalq cümhuriyyəti)!"

***"Açıq söz" qəzeti, 17-30 mart 1917-ci il, N426.***

## Ərazi muxtariyyəti ideyası

"Rusiyanın ayrı-ayrı xalqları sonradan milli-ərazi muxtariyyəti prinsipləri əsasında ittifaq dövləti yarada bilərlər...

Tarixin özü, Tamerlanın, Çingizxanın, Aleksandr Makedonskinin və Roma imperatorlarının timsalında sübut edir ki, heç bir qüvvə, azad istəklə qurulacaq dövlət ittifaqından başqa, həmin dövlətə daxil olan millətlərin möhkəm birliyini yarada bilməz".

***1917-ci ilin aprelin 15-dən 20-dək***

***Qafqaz müsəlmanlarının Bakıda keçirilən Qurultayındakı çıxışından.***

***"Kaspi" qəzeti, 19 aprel 1917-ci il.***

## "İslamiyyət...beynəlmiləliyyətdir"

"Hər bir müsəlman milləti öz dili, tarixi, adət və ənənati ilə birləşib, mədəni bir qüvvət təşkil etməli. Hər bir müsəlman milləti öz-özlüyündə bir milliyyət "yasağı" vücuda gətirməli, tainki islamiyyət "dərz"i asanlıqla bağlana bilsin. İslamiyyət hər din kimi öz mədəniyyətlərində bir növ ümumilik tərbiyə ediyor ki, bu da millət deyil, beynəlmiləliyyətdir. Xristian beynəlmiləliyyəti olduğu kimi, müsəlman beynəlmiləliyyəti var..."

***"Açıq söz", 25, 26 aprel 1917, N457, 458.***

## "Rusiyanın idarə forması – Federasiya olmalıdır"

"Rusiyanın idarə forması demokratik respublika olmalıdır. Yer kürəsinin altıda birini tutan və Kamçatkadan Qara dənizə qədər və Arxangelskdən İranla sərhədə qədər uzanıb 170 milyon əhalisi olan çoxmillətli bir dövlət bir mərkəzdən idarə oluna bilməz. Ona görə də Rusiya dövlətinin idarə forması Federsiya olmalıdır".

***1917-ci ilin mayın 1-dən 11-dək Moskvada keçirilən Birinci Ümumrusiya qurultayındakı çıxışından. İhsan İlqar." Rusiyada Birinci Müsəlman Konqresi". Ankara, 1990,səh.292-296***

## Türküstan – baba yurdumuz

"Biz qafqasiyalılar, Türküstanı, o baba yurdunu sevəriz. Biz o böyük yurdun parlayacağına ümidlər bağlarız. Biz biliyoruz ki, Uluqbəy rəsədxanası kimi abdat (məlahətli,axıcı) fənninə malik olan yurd fənn(elm,bilik) düşməni olamaz. Biz düşünüyoruz ki, Fərabi ilə İbn Sina kimi filosoflar yetirən ölkə elm və fənnə qarşı çıxamaz. Biz biliyoruz ki, yasası ilə dəmir ordular, tüzüyü (Teymur tərəfindən tərtib olunan məcmueyi-qəvanini-mülkiyyət) ilə mətin qanunlar vəz edən Çingiz və Teymur övladı zamanın yasası ilə tüzügünü anlamaqdan mərhum bir hala gələməzlər".

***"Açıq söz", 6 sentyabr 1917, N560.***

## "Var olsun Müsavat!"

"Məsələyə dərindən baxmalı, "Müsavat" qələbəsinin səbəbləri daha dərinlərdədir. Bir dəfə deyil, min dəfə seçki edilərsə, qalibiyyəti yenə "Müsavat" qazanar. Çünki bu təbiidir. Çünki müsəlman əmələsi (fəhləsi) əksəriyyətdədir. Çünki bu əksəriyyəti təşkil edən müsəlman və türk əmələsi "Müsavat"a etibar edir. Ancaq ona inanır. Bunu dərk etməli...

Yaşasın türk-müsəlman demokratiyası! Yaşasın bütün demokratiyanın ittihadı, var olsun Müsavat!"

***"Açıq söz", 26 oktyabr 1917, N598.***

## “Siyasi firqələri olmayan bir millətin...”

“Siyasi firqələri (partiyaları) olmayan bir millətin siyasi duyğusu, siyasi düşüncəsi olamaz. Siyasət meydanına hər milləti siyasi firqələr çıxarar, siyasi fikirlər siyasi firqənin ehtimamilə (səyilə) xalq arasında intişar(yayılma,dağılma) tapar. Fəqət bir firqə xalqın hüsni-rəqbətini o vaxt qazanar, milləti öz başına o vaxt toplaya bilər ki, cəmaətin milli amal və arzularına müvafiq proqramı yürüdərək, təşkili təbiətə (həyata) yaxın olsun”.

***“Müsavat” Partiyasının 1917-ci ilin oktyabrın 26-31-də keçirilən I qurultayındakı çıxışınd***
***“Açıq söz”,27oktyabr-2 noyabr, 1917-ci il, N599-604.***

## “İnsanlara hürriyyət, millətlərə istiqlal!”

“Yalnız din birliyi müasir məna ilə bir millət təşkil edə bilməz. Milliyyəti təşkil edən müştərək əlamətlərin başlıcası dil, din, adət və ədəbiyyatdır. Bu nöqteyi-nəzərdən bütün türklər bir millətdir. Təbii milli olduğu, milliyyətimizdə yalnız dinlə deyil, başlıca din üzərinə müstənit hərsən (istinad etmə, dəlil) təəssüf eylədiyi qənaətiylə biz bu günkü haliylə müttəfiq olan geniş türk dünyasının bir gün gəzib mütəəhhid(öhdəsinə götürən) və müttəfiq bir türk aləmi təşkil edəcəyinə inanırıq”.

Milli istiqlala malik olmayan bir millət, hürriyyət və mədəniyyətini də hifz edə bilməz. İnsanlara hürriyyət, millətlərə istiqlal!”

***“Müsavat” Partiyasının 1917-ci ilin oktyabrın 26-31-də keçirilən I qurultayındakı çıxışından.***
***N.Yaqublu.”Məmməd Əmin Rəsulzadə”. Bakı,199,səh.64***

## “Müsavat nədir?”

“Müsavat” Qafqasiya Azərbaycan türklərindən təşkil olunmuş siyasi bir firqə olub, möhkəm və mətin bir proqrama sahibdir. Mərkəzi Bakıda, şöbələri isə bütün Rusiyada və qeyri məmləkətlərdədir”.

## “Müsavat nə deyir?”

“**Müsavat deyir**: bütün millətlər öz müqəddəratlarını təyin etməyə muxtardırlar.

**Müsavat deyir**: bütün millətlərin öz müqəddəratını təmin etməyə həqləri vardır...

**Müsavat deyir**: bəşəriyyət aləmini  təşkil edən millətlərin biri də Qafqasiya Azərbaycan türkləridir.  Azərbaycan türkləri də bəşəriyyət gülüstanında özlərinə məxsus bir baxça ayırıb Rusiya istibdadının zülm pəncələri altında məhv və nabud  (olmamaq) olan mədəni, ədəbi, ictimai və siyasi güllərini əkib özlərinin də varlıqlarını bütün dünyaya bildirmək istiyorlar".

## "Müsavat nə istəyir?"

"Müsavat bütün Avropa hökumətinin zülm və məşəqqət zənciri altında yaşayan və özlərinin milli və ictimai həyatlarına vida etmiş olan bütün islam millətlərinin azad olub hürr yaşamalarını arzu ediyor...

...Bakı, Gəncə, İrəvan və qeyri-əyalətlərdən ibarət olan Qafqasiya Azərbaycanı üçün muxtariyyat və istiqlal istəyir.

...Müsavat Rusiyada yaşayan bütün İslam milləti üçün əgər məhəlli muxtariyyat mümkün olmasa, milli və mədəni muxtariyyat tələb edir".

***"Açıq söz", 2 fevral 1918, N671.***

## "Azərbaycan xoşbəxt olacaq"

"Dünya müharibəsindən və Rusiya inqilabından doğulub, siyasi həyata ilk addımını Azərbaycan idealı hazırda sözlə deyilə bilməyən gərgin illər keçirir. Bu yeni doğulmuş siyasi türk övladı böyüyüb yaşa dolacaqmı, başqa xalqlar arasında yer tutacaqmı? Yoxsa sısqa uşaq kimi məhv olacaq?

Əfəndilər, demək istəyirəm ki, Azərbaycan hətta Qafqazda ən azadlıqsevən və inqilabi respublika sayılan Gürcüstan da xoşbəxt olacaq!"

***Azərbaycan Milli Şurasının 1918-ci ilin 17 iyununda Gəncədə keçirilən toplantıdakı çıxışından.***
***N. Yaqublu. Müsavat Partiyasının Tarixi. B.,2012,səh.70-71.***

## Bakını azad etməliyik!

“...lakin nə olursa-olsun Siz Bakını almalısınız. Qoy hər kəs fakt qarşısında qalsın. Əgər bu, baş tutarsa iş tamam başqa xarakter alar. Bolşeviklər vuruşacaqları ilə qorxuda bilərlər, lakin güman edirəm ki, onlar vuruşmayacaqlar. Onlar hazırda daxili həyəcan içindədirlər”.

***1918-ci ilin 6 avqustunda Xarici İşlər Naziri***
***M. Hacınskiyə göndərdiyi 18 saylı məlumat.***
***N. Yaqublu. Müsavat Partiyasının Tarixi. B., 1997, s. 79-80.***

## “Bakı Azərbaycanın, Azərbaycan da Bakınındır”

“Bakı Azərbaycanın, Azərbaycan da Bakınındır. Bakını Azərbaycandan ayırmaq istəyən kim olursa, Azərbaycanın həyatına qəsd etmişdir. Bakısız Azərbaycan təsəvvür oluna bilməz. Bakı tarixən də, indi də bir türk şəhəri və müsəlman bölgəsidir. İstiqbalən də elə olaraq Azərbaycanın paytaxtını təşkil edəcəkdir...

... Azərbaycan bu günkü milli və mənəvi işığını da Bakıdan alır... Bakı-Azərbaycanın qapısıdır...

... Türkiyə üçün İstanbul, Almaniya üçün Berlin, Rusiya üçün Moskva nə isə, Azərbaycan üçün də Bakı ondan artıq olmasa da, odur”.

***“Tərcümani-həqiqət” qəzeti, İstanbul, avqust 1918-ci il.***
***“Azərbaycan” qəzeti, Gəncə, türkcə,15 sentyabr 1918-ci il, N1.***

## Azərbaycan Parlamentinin açılışında çıxış

“Möhtərəm Millət vəkilləri! Azərbaycan Milli Cümhuriyyətinin ilk parlamentosunu açmaq səadətinin, Siz möhtərəm millət vəkillərini təbrik etmək şərəfinin öhdəmə düşməsi ilə iftixar edirəm (alqışlar)... Əfəndilər, Rusiyada zühur edən böyük inqilab digər həqiqətlər arasında bir böyük həqiqəti dəxi elan etmişdi. Bu həqiqət millətlərin hürriyyət və istiqlal haqları idi”.

***1918-ci il 7 dekabr. Azərbaycan Parlamentinin***
***açılışındakı çıxışından.***
***N. Yaqublu. Müsavat Partiyasının Tarixi. B., 1997, s. 84.***

## "Müsavat" Partiyası Azərbaycanın müstəqilliyi bayrağını yüksəklərə qaldırıb

"Biz o zaman ki, bizim üçün ən yaxşı məsələni – "Azərbaycan muxtariyyətini müdafiə edirdik, biz onda sağ və sol tərəfdən amansız tənqidə məruz qalmışdıq. Sağdan deyirdilər ki, azərbaycançılıq şüarı ilə siz müsəlmanları parçalayırsınız, türkçülük bayrağı qaldırmaqla" – Allah yıxsın – siz islamın əsasını sarsıdırsınız. Soldan isə bizi məzəmmət edirdilər ki, Azərbaycan muxtariyyətini tələb edərək biz vahid demokratik cəbhəni yarırıq. "Müsavat" Partiyası birinci olaraq Azərbaycanın müstəqilliyi bayrağını yüksəklərə qaldırmışdır. Beləliklə, müsəlman partiyaları arasında Azərbaycan ideyasında fikir ayrılığı yoxdur. Xalqın şüurunda Azərbaycan ideyası artıq möhkəmlənmişdir...Bir dəfə yüksələn bayraq bir daha enməz!"

***Azərbaycan Parlamentinin 1918-ci il 7 dekabr tarixli açılışında çıxışı.***
***"Azərbaycan" qəzeti (rusca), 13 dekabr 1918-ci il, N59.***

## "Üçrəngli bayrağımız hamımızı birləşdirir"

"Bəli, artıq Azərbaycan ideyası barədə firqələrimiz arasında fikir ixtilafı(ayrılığı) yoxdur. Azərbaycan fikri millətin şüurunda yerləşmişdir. Üçrəngli əziz bayrağımız hamımızı siyasətcə birləşdirir. Azərbaycanın istiqlalını müdafiə etmək hamımız üçün ortaq bir proqramdır. Ona görə firqələr Azərbaycan ideyasını propaqanda(təbliğ) etməklə deyil, mövcud faktın siyasətən, hüquqən və xaricən müdafiəsi ilə məşğul olmalıdırlar".

***Azərbaycan Parlamentində Müsavat Partiyası Bəyannaməsini elan etməsi. 1918-ci il dekabr.***
***N. Yaqublu. Müsavat Partiyasının Tarixi. B., 1997, s. 85.***

## "Unudulmaz faciə" – 31 Mart qırğını

"Martın 31-i bizə Azərbaycan tarix siyasətində unudulmaz iki günü xatırlatıyor: günlər var ki, sevincinin böyüklüyü ilə, günlər də var ki, fəlakət və qüvvəsinin əzəməti ilə unudulmaz.

31 Mart ikinci günlərdən idi. Bu gün tarixin qeyd edə bildiyi "Aşura", "varfolomey gecəsi" kimi xainanə bir surətdə hazırlanmış siyasi faciələrdən birisi idi.

...Martda tökülən qanlar türklərdəki milliyyət və hürriyyət fikrini, Azərbaycan atəşi-müqəddəsini söndürə bilmədi!”

***“Azərbaycan” qəzeti, 31 mart 1919-cu il.***

## “Yaşasın istiqlal! Yaşasın Azərbaycan!”

“Vətəndaşlar, millətdaşlar! Bu gün Azərbaycanın ən şərəfli bir günü, ən əzəmətli bir anı, ən unudulmaz bir bayramı, bir dəmidir. Bu gün Azərbaycan tarixdə bir mövcudiyyət göstərmişdir, bu gün müqəddəratına hakim olmuş, bu gün feyzli(bərəkətli,nemətli) bir istiqlal yolunu tapmış, bu gün yaşadığını bilmiş, bu gün əməlinə nail olmuş və tamam keçən il bu gün ilk dəfə olaraq: Yaşasın istiqlal! – demişdir...

... Yaşasın İstiqlal! Yaşasın Azərbaycan!”

***Azərbaycan İstiqlalının 1 illik Bayramı münasibəti ilə başçılıq etdiyi Müsavat Partiyasının xalqa müraciətindən. 1919-cu il.***
***N. Yaqublu. Müsavat Partiyasının Tarixi. B., 1997, s. 95.***

## 15 Sentyabr – Bakının Qurtuluşu Günüdür!

“Bu gün yalnız paytaxtımızın Qurtuluşu günü olmaqla deyil, doğma ordumuzun ilk dəfə olaraq bütün ərkan və rüsaləsilə (qərargah və sərkərdələri ilə) birlikdə xristian kilsəsinin nümayəndələri iştirak etmək surəti ilə paytaxtımızın üzərində parlaq bir surətdə rəsmi keçid etdiyi gündür. Bu etibarla Sentyabrın 15-i Qurtuluş Günüdür!”

***“Azərbaycan” qəzeti, 18 sentyabr 1919-cu il, N62.***

## “Azad, müstəqil Azərbaycan”

“Əfəndilər! Bizim azad, müstəqil Azərbaycan xalqının mərkəzi şəhərində Partiyanın II Qurultayını açmağa çox şadam (gurultulu alqışlar). İki il əvvəl bu gün bu gün gördüklərimiz yox idi. Əziz yoldaşlar! Biz Türklər birgə çox çətinliklər yaşasaq da, işıqlı gələcəyə inamımızı itirmədik. Biz inanırdıq ki, idealımız həyata keçəcək və bu inam nə zamansa əcdadlarımızı xilas edən kimi bizi də xilas etdi...”

***“Müsavat” Partiyasının 1919-cu ilin dekabrında Bakıda keçirilən II Qurultayındakı çıxışından.***
***N. Yaqublu. Müsavat Partiyasının Tarixi. B., 1997, s. 97.***

## "Müsavat" Türk tarixinin bir parçasıdır"

"Əfəndilər! Məndən əvvəlki arkadaşımız sizə türklüyün uzaq tarixindən bəhs elədi. Mən sizə sizin də yaşadığınız, bərabər içində bulunduğumuz (olduğumuz) və kəndimiz (özümüz) yaratdığımız tarixdən söhbət edəcəyəm. Bu da bir türk tarixidir. Türk tarixinin bir parçasıdır..."

***"Azərbaycan təşəkkülündə Müsavat"***
***mövzusunda oxuduğu mühazirə.***
***"Müsavat" kitabxanası, sayı 5. Bakı, 1920-ci il.***

## Təslim nə deməк? Bizi buradan süngü çıxarmalıdır!

"Əfəndilər, mütəcaviz(təcavüz edən) bir ultimatum qarşısında qalmışıq. Burada təslimdən bəhs edirlər. Fəqət əfəndilər, təslim nə demək? Kimə tərki mövqe edirlər? Biz buraya millətin iradə və arzusu ilə gəldik, bizi buradan yalnız qüvvət və süngü çıxarmalıdır..."

***Azərbaycan Parlamentinin son iclasında***
***çıxışından. Bakı, 1920-ci il 27 Aprel.***
***N. Yaqublu. Müsavat Partiyasının Tarixi. B., 1997, s. 112.***

## "Ey Gənclik! Sənin öhdəndə böyük bir vəzifə var..."

"Ey gənclik! Ey əsrimizin Siyavuşunun böyümüş oğlu! Sənin öhdəndə bir vəzifə var. Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı. Onu min müşkülatla ucaldaraq dedi ki:
- Bir kərə yüksələn bayraq, bir daha enməz!..

Bunu deyərkən o, bu günkü ökcüzanə mənzərəni hesaba almamış deyildi. Bu onun tərəfindən təsəvvür olunmuşdu. O, sənin o zaman bu bayrağı gənc çiyinlərinə alıb məsumanə bir tərzdə küçə-küçə dolaşaraq: "İrəli, irəli Azərbaycan əsgəri" – deyə əsgər kimi addım atmağını görmüşdü və bu sözü cəsarətlə söyləmişdi.

Əlbəttə ki, sən onun bu ümidini qırmayacaq, bu gün parlament binası üzərindən Azərbaycan Türklərinin yanıqlı türkülərinə mövzu olmuş, ürəklərinə enmiş bu bayrağı təkrar o bina üzərinə dikəcək, Böyük Dəmirçinin geri dönüşünü görüncə onun tərəfinə keçəcək,

-Ya qazi və ya şəhid olacaqsan!"

***Lahıc, iyul 1920-ci il.***
***M. Ə. Rəsulzadə." Əsrimizin Siyavuşu". Istanbul, 1923,səh.70***

## İstiqlal məfkurəsi

“Kommunizm nə edirsə-etsin, Rusiya imperializmi hansı rəngə girirsə-girsin, meydanda bir həqiqət var: millətlər özlərini tanımışlar, Azərbaycan türk olduğunu idrak eyləmiş. İllərdən bəri axan qanları min bir kitaldən ziyadə (həddindən artıq), vəzi həmldə axan qanlara bənzətmək istərəm. Zatən dünya, inqilabat və müharibələrində axan qanlar daima yeni məfkurələrin tovlidinə (doğma,dünyaya gətirmə) səbəb olmuş, deyilmidir? Bütün aləm iztirabına təhəmmül (dözmək) etdiyimiz bu faciə içərisində böyük bir fikir doğulmuşdur: ***Fikri – İstiqlal!***

Müstəqil Azərbaycan, bu gün maddətən Rusiya kuyudatı (hökmü) ilə dər-zəncir (zəncirli) olsa da, mənən mövcuddur. Azərbaycan istiqlalı bir fikir olaraq vakidir (mövcuddur).

Azərbaycanın bu qədər fəlakətlər nəticəsində əldə etdiyi bir qazanc varsa, o da bu istiqlal fikrinin rüsuhudur(qətiyyət,möhkəmlik)”.

***M. Ə. Rəsulzadə. “Azərbaycan Cümhuriyyəti (keyfiyyət-i təşəkkülü və şimdiki vəziyyəti). İstanbul, 1923-cü il; İstanbul, 1990-cı il. N. Yaqublu. Müsavat Partiyasının Tarixi. B., 1997, s. 76.***

## Oktyabr inqilabı

“Bolşeviklərin hökuməti cəbrən əldə etmələri üzərinə Rusiyanın hər tərəfində bir anarxiya başladı. Ordu “evə, evə!” – deyərək cəbhəni tərk etdi. Müsəlləh olaraq kəndinə qayıdan kəndli, əsil zadəgana məxsus sarayları dağıtmağa başladı. Bütün Rusiya müdhiş bir atəşi-ixtilal ilə ülviləndi. Velikorusdan qeyri olan vilayətlər anarxiya içərisində olan mərkəzdən qorunmaq üçün özlərinin idarə etmək səddinə gəldilər”.

***M. Ə. Rəsulzadə. “Azərbaycan Cümhuriyyəti (keyfiyyət-i təşəkkülü və şimdiki vəziyyəti)”. İstanbul, 1923-cü il; İstanbul, 1990-cı il (təkrar nəşr).***

## İstiqlal məfkurəsi – istiqlal bayrağımız

“Bayraq əgər yalnız müxtəlif rəngli qumaşlardan ibarətsə, Azərbaycan istiqlal bayrağı enmiş, parlaman caddəsindəki məclisi – məbusan binasının üstündə mavi, al və yaşıl rəngli və hilal sitarəli bir

qumaş yoxdur. Yox, əgər maddətən əlaladə bir qumaşdan başqa bir şey olmayan bayraqlar mənən bir millətin hürriyyət və istiqlalını səciyyələndirən bir timsal isə, o halda hal-hazırda Bakı binalarının üstündə çəkiclə oraq əlamətini göstərən qırmızı qumaş Rusiya əsarətini örtməkdən başqa bir şey deyildir".

## "Azəri Gəncliyin ürəyi yarılsa, bayraq orda görünər"

"Eşqi istiqlal ilə yanan və həsrəti hürriyyətlə saxlayan Azəri gəncliyinin ürəyi yarılsa, bu bayrağın orada həkk edildiyi görünər. Bəli, heç bir zaman Azərbaycan xalqı bu qədər həzin bir həsrət duymamışdı. Hansı kəndlini, hansı fəhləni, hansı münəvvər(ziyalı) və əsnafı (dükançı,sənətkar) dinləsəniz "Azərbaycan"dan yana-yaxıla bəhs edər.

İstiqlal xaricində onun üçün bir Azərbaycan yoxdur!"

***M. Ə. Rəsulzadə." Azərbaycan Cümhuriyyət (keyfiyyət-i təşəkkülü və şimdiki vəziyyəti)". İstanbul, 1923-cü il.***

## Türkçülük, Türk birliyi haqqında

"İbtidada daha ziyadə islami motivlər və ittihadi islam məfkurəçiliyi ətrafında dolaşan Bakı nəşriyyatı təkamül(təkmilləşmə) etdikcə, milli motuvlərə keçər, Türk birliyi fikri mətbuat və ədəbiyyatın başlıca mövzusunu təşkil edirdi. Bu ruh xüsusilə Balkan hərbindən sonra türkiyədə qüvvətlənməyə başlayan Türkçülük cərəyanının qüvvətli inikasları ilə təzahür edirdi".

## Qızıl imperializm

"Bolşeviklərin nə kimi bir Şərq siyasəti tətbiq etdikləri, Azərbaycan misalında bütün vüzuh (aydınlıq,aşkarlıq) və sərahətilə(açıqlığı,aydınlığı ilə) meydana çıxmışdır. Şərq millətlərinin xilas və nicatına aid şüarlar ilə bolşeviklər sözdə millətlərin hüququna, hürriyyətinə və istiqlalına hörmətkardırlar. İşdə isə digər imperialistlərdən heç də fərqli deyildirlər. Bütün bu anlatdıqlarımızı oxuyan oxucu, şübhəsiz, özünü yeni sistem – bir imperializm qarşısında bulmuşdur – Qızıl imperializm!"

## "Kommunizm süquta məhkumdur", "Üsyan və qanla gələn üsyan və qanla da gedəcək!"

"Kommunizm süquta məhkumdur. Kommunizm süquta məhkum olduğu kimi, süni vasitələrlə mərkəziyyəti – idarə vücuda gətirmək istəyən Moskva sistemi də məhkumi-zavaldır. Müdhiş bir terrorist olan bu firqə üçün muslihanə (borclu qalan, təşəkkür edən) bir surətdə mötədil (orta,mülayim) bir hökuməti-əsriyyə şəklinə girmək, ruhiyyət nöqteyi-nəzərindən qeyri-mümkündür. Üsyan və qanla sərkarə (başçı) gələn bir qüvvət üsyan və qanla da gedəcək".

"...Yüz il əvvəl inkişaf edən Rusiyaya qarşı münkəşif bir Avropa iqtisadiyyatı ilə mübariz bir Şərq milliyyətpərvərliyi yox idi. Bu gün o da, bu da mövcuddur".

## Sovet hökumətinə qarşı üsyanlar – Gəncə üsyanı

"İxtilaldan bir ay sonra artıq bütün Azərbaycan məmləkətinin müdhiş bir istilaya məruz qaldığını acı bir surətdə dərk eyləmişdi...

Bu üsyan ibtida Gəncədə başladı. Çarizmin qəddar generalı Sisyanov parça-parça doğranıncaya qədər müqavimət göstərən Cavadxanın şəhəri bu dəfə də özünü göstərdi. Millət dözə bilmədiyi təcavüzlərə qarşı üsyankar ruhilə köpürdü. Burada daha silahlarını təslim etməmiş olan Azərbaycan əsgərləri üsyanın kökünü təşkil etdilər. Üsyan bir həftəyə qədər davam etdi..."

***M. Ə. Rəsulzadə. "Azərbaycan Cümhuriyyəti (keyfiyyət-i təşəkkülü və şimdiki vəziyyəti)". İstanbul, 1923-cü il.***

## Azərbaycanın məhrumiyyətləri

"Azərbaycanın həqiqi sərvəti olan neftə gəlincə, bütün neft Rusiyanın inhisarına alınır, bundan yalnız bir qismi Azərbaycan daxilindəki sərfiyyat ilə Türkiyə və İran bazarına ixrac edilmək üzrə Azərbaycan hökumətinin öz idarəsinə buraxılırdı...

...Mətbuat və ədəbiyyatın halınımı soruşuyorsunuz?..

...Elm və ədəbiyyatda ruhi-milliyi təhmiyyə (bənzətmə) edəcək cərəyanlardanmı maraq ediyorsunuz?"

***M. Ə. Rəsulzadə. "Azərbaycan Cümhuriyyəti (keyfiyyət-i təşəkkülü və şimdiki vəziyyəti)". İstanbul, 1923-cü il.***

## Stalinə məktub – "Məni Bakı zindanından çıxarmağa lüzum gördünüz..."

"...Moskvada olduğum iki il ərzində mən Şərq millətlərinin və xüsusilə türk ellərinin nicatının yalnız özlərində, özünü bir millət kimi tanımalarından ibarət olduğuna qəti surətdə inandım. Bunun üçün sisteminizdə millətin özünə bəslədiyi bu inamın kökündən yox edildiyinə və milli anlamın milli inqilab anlamına dəyişdirildiyinə soyuqqanlı baxa bilmirdim.

Sizin istədiyiniz bu mübadilə baş tuta bilməz. Şərq millətləri kommunist həyatı ilə deyil, öz milli həyatları ilə yaşamaq istəyirlər..."

***"Yeni Qafqasiya"jurnalı, İstanbul, yanvar 1923-cü il, N5.***

## "Azərbaycan kommunizmi yoxdur"

"...Burada vəziyyətindən məmnun, inqibabı ilə öyünən bir kommunizm ilhamına təsadüf edəməzsiniz. Çünki, Azərbaycan kommunizmi yoxdur. Buradakı kommunizm istilakar bir qüvvətdir. O, qətiyyən xalıq bir qüvvət ola bilməz. O, yalnız uçurar, yıxar, edam edər."

### *"Azərbaycan türk olduğunu dərk eyləmiş...Fikri İstiqlal!"*

"Kommunizm nə yaparsa – yapsın, Rusiya imperializmi hankı rəngə girirsə-girsin, meydanda bir həqiqət var: millətlər özlərini tanımışlar. Azərbaycan türk olduğunu idrak eyləmiş, illərdən bəri axan qanları min bir göldən ziyadə, vəzi-həmldə axan qanlara bənzətmək istərəm. Zatən dünya inqilabat və müharibələrində axan qanlar daima yeni məfkurələrin doğurduğuna səbəb olmuş deyilmidir? Bütün alam(əzab,əziyyət) və iztirabına təhəmmül(dözmək) etdiyimiz bu faciələr içərisində böyük bir fikir doğmuşdur: Fikri İstiqlal!"

***M. Ə. Rəsulzadə. "Azərbaycan Cümhuriyyəti (keyfiyyət-i təşəkkülü və şimdiki vəziyyəti)". İstanbul, 1923-cü il.***

## Atəş çalan Prometey – Qafqasiyanın köksünü didən Rusiya imperiyası bir qartal deyilmi?

"Mövzumuzu düşünərkən Qafqasiya, bu gözəl məmləkət bəhri-Xəzər ilə Qara dəniz arasındakı bu tarix bərxəz, əski yunanların "altun-yük" deyə təbliğ etdikləri bu zəngin ölkə gözümüzün önündə canlandı. Prometeyi didən xunxar(zalım,qəddar) quş bir əsrdən bəri Qafqasiyanın köksünü didən və ciyərini parçalayan Rusiya imperiyası doğrusu, dəxi bir qartal deyilmidir?"

***"Yeni Qafqasiya"jurnalı,İstanbul, 26 sentyabr 1923-cü il, N1.***

## Rusiyanın düşdüyü vəziyyət

"Beş ildən bəri qurulan qanlı bolşevik hökumətinin "yeni iqtisadi siyasət"dən gözlədiyi nəticəni verməmişdir. Diktatorluq bu qədər qorxduğu iqtisadi böhran ilə mali iflasın önünə keçməmiş, həyatı bir az daha vəz etməyə (nəyisə başa salmaq) müvəffəq olmaqla bərabər, sovet hökuməti məzməi xəstəliyinin təhlükəli arizəsini(baş verən,əmələ gələn) təşkil edən iqtisadi böhranla təkrar qarşı-qarşıya gəlmişdir".

"Məlum olduğu üzrə kommunist diktatorluğu fəhlənin kəndli üzərinə hakimiyyət əsası ilə qaimdir(dayanan,mövcud olan). "Hərbi kommunizm" dövründə bu hakimiyyət tam mənası ilə tətbiq olunurdu. Kommunizm siyasətən hakim və daxili müharibələrdə müvəffəqiyyət qazanınca kəndlinin iqtisadi müqavimətinə məruz qaldı. Kəndli əkdiyini əvəzlə hökumətə vermək nizamına qarşı üsyan edincə Lenin "Yeni iqtisadi siyasət" politikasına (siyasətə) keçməyi zəruri gördü. Çünki, bir sinfi aldatmaq mümkün deyildi. Leninizmin yeni təlimatına görə, "yeni siyasət"in təməlini kəndli ilə fəhlənin ittifaqı təşkil edirdi.

Hərbi kommunizmin ləğvindən sonra keçən beş il əsnasında böyük ziqzaqlarla gah irəli, gah geri gedən kommunist siyasəti iştə bu iki qütb arasında sallanıb durmuşdur".

## Milli mübarizə və parçalanma hərəkatı

"Fəhlə ilə kəndli ittifaqından bəhs edən sovet hökuməti düçar olduğu müşkülatda ən çox bu ittifaq yoxsulluğundan ziyan çəkdiyi kimi, bu hökumətin millətlər arasında həmrəylik vücuda gətirdiyindən bəhs edən propaqandaları(təbliğatları) da göz boyacığından başqa bir şey deyildir..."

## Beynəlmiləl vəziyyət

"Avropadakı demoktatiya hərəkatına öz boşboğaz müdaxiləsi ilə az ziyan vurmayan Moskva müdaxiləçiləri Şərqdəki hürriyyət və istiqlal hərəkatlarına dəxi yerli-yersiz müdaxilələri ilə az zərər verməmişlərdir. Məsələn, İrandakı yeni vəziyyətin cümhuriyyət şəklində deyil, yeni şahlıq şəklində qərarlaşmasına bolşevik siyasətinin qanunsuz cümhuriyyətçiliyi ilə şübhəli şahçılığının az təsiri olmamışdır..."

***İstanbul, 15 sentyabr 1925-ci il.***
***Milli Azərbaycan Nəşriyyatı seriyası:M.Ə.Rəsulzadə. "Rusiyada siyasi vəziyyət". İstanbul, "Amadi" mətbəəsi, 1926-cı il.***

## Böyük faciə - 27 Aprel işğalı

"Böyük faciə! İştə türk tarixçisinin bundan tam 7 il əvvəl Bakıda baş verən hadisəyə verəcəyi ən müvafiq bir ad!

27 Nisan hadisəsi Azərbaycan xalqını ta qəlbindən vurmuş, təsəvvürü qabil olmayan bir təsirlə dağdar etmişdir. Bunlardan bir qismi duyduqları acının təsiri ilə gözlərindəki yaşlara yol vermiş, bu surətlə ələmin gövşətici təsirlərinə özlərini təslim etməklə işi təbiətə buraxmışsalar da, digər qismi biləks(əksinə) belə etməmiş, göz yaşlarını zəbtlə kin və qeyrini toplamış, günün birində dəhşətli intiqam taraqəsilə partlayacağını mühəqqəq(doğru,gerçək) olan milli ixtilal(mücadilə) hərəkatını vücuda gətirmişdir".

***"Yeni Qafqasiya"jurnalı,İstanbul, 27 nisan, N10 (84), nüsxeyi-məxsusə, 1920-1927.***

## Lenin partiyasının adını dəyişdi

"Bolşeviklər məlum olduğu üzrə, özlərini inqilabçı sosializmin ən sədaqətli təmsilçisi hesab edirlər. Mülkiyyət, milliyyət və vətən kimi tarixi əlaqə və müəssəsələrlə hesablaşmaq surətilə mövcud hökumət sistemini izah etmək taktikasını seçən mötədil(orta,mülayim) sosialistlər onların fikrincə marksizmdən çıxmış mürdədilərdir(rəhmsiz,daşürəkli). Bunun üçün də Lenin digər sosialist firqələrlə qarışdırılmasın deyə öz firqəsinin adını da dəyişdirdi: Sosial – Demokrat Bolşevik Firqəsi – yerinə Kommunist Bolşevik Firqəsi – dedi".

***M.Ə.Rəsulzadə."Milliyyət məsələsində bolşevik nəzəriyyatı ilə əməliyyatı" ("Milliyyət və bolşevizm" məcmuəsi). İstanbul, 1928-ci il.***

## Tutacağımız yol – haqq yolu, millət yoludur!

“Gedəcəyimiz yol əski zaman şairlərinin iftixar etdikləri kimi gedilməyən yol deyildir. Əksinə, bu yol çox müşkül və tikanlı olmaqla bərabər, gedilmiş şanlı bir yoldur. Bu haqq yolu və millət yoludur. Bir yol ki, müasir şərq hal-hazırda o yolla getməkdədir. Bir yol ki, sabit Rusiya imperatorluğu daxilində yaşayan məhkum millətlər, dəxi o yola girmişlərdir. Bir yol ki, milliyyət hədəfi istiqlaldır”.

***“Azəri Türk” jurnalı, 1928-ci il, N1.***

## Demokratiyanın gələcəyi

“Demokratiya hər hansı bəşəri bir cəmiyyətin idarəsinə məxsus sistem adıdır...

... Demokratiya, bizcə, müxtəlif təbəqəti – ictimaiyyəni haiz olub, daima haldan hala keçərək, təkamüldə(inkişafda) olan cəmiyyətin, vaxt və zamanının təsiriylə, istehsal işlərini tənzimdəki rolları dəyişmiş mütərəqqi zümrələrin sərkarə gəlməsini kolaylıqla(asanlıqla) təmin edən idarə sistemidir”

***“Azəri Türk”jurnalı, il 1, fevral 1928-ci il.***

## Demokratiya nədən ibarətdir?

“Demokratiya şəxsə hürriyyət ilə xalqa aid hakimiyyət əsaslarının tərkibindən doğma hüquqi müsavatdan ibarətdir. Hüquqi hürriyyət dediymiz şey də cəmiyyətin şəxsiyyət üzərindəki təsir və təzyiqini təhdid və bunların mütəqabil münasibətlərini təyin edən bir müqayisədir. Liderin hürriyyətini səlb etməmək şərtiylə vətəndaşın hürriyyətini təmin edən demokratiya bu hüququ hürriyyət adına der ki, siyasi müxtəlif əqidə və sistemlərin, eyni hürriyyət və hüquqla, eyni cəmiyyət daxilində mütəvazi olaraq yaşamalarına təhəmmül edər”.

***M.Ə.Rəsulzadə.“İxtilalçı sosializmin iflası və demokratiyanın gələcəyi” kitabı. İstanbul, 1928-ci il.***

## Milli Azərbaycan bayrağı – bizim çöhrəmiz!

“Odlu Yurd! Bu iki söz türkcə kəlmənin – Azərbaycanın müqabil olduğunu söylərsək, məsələ yarı-yarıya anlaşılmaz olur. Yarı-yarıya deyirik, çünki hal-hazırda bir deyil, iki Azərbaycan vardır. Rus istiqlalına pərdəlik rolunu oynayan “qızıl Azərbaycan” ilə qəlbində hürriyyət və istiqlalın sönməz adını daşıyan milli Azərbaycan!..” Milli Azərbaycan bayrağı – işdə bizim çöhrəmiz! Milli hakimiyyət uğrunda çarpışan, çalınmış istiqlalını geriyə almaq üçün çalışan bir millət çöhrəsi!”

***“Odlu Yurd” jurnalı, 1928-ci il, N1.***

## Sosializm haqqında

“Sosializm Marksdan başlamaz. İnsan mədəni bir cəmiyyət halında yaşadığı andan etibarən, sosializm fikri ilə aşina olmuşdur. Daha qədim Yunanıstan sosializm məfkurəsini bilirdi. Yunan filosoflarından Əflatun (Platon) ideal dövləti xüsusi mülkiyyətdən azad bir iştirak əsası üzərinə təsəvvür edirdi. Ondan sonra cahan müttəfiqləri arasında sosializm fikri ilə məşğul olan nəzəriyyəçilər çox olmuşdur”.

“Bununla bərabər sosializm Marksın zühuruna qədər cahanşümul bir mahiyyəti iktisab etmiş, sosializm mütəkidlərinə xəyal ilə uğraşan utopistlər kimi baxılmışdı. Marksın bütün qiyməti bu xəyala elm süsü verməkdir. O, buna müvəffəq oldu”.

***M.Ə.Rəsulzadə. “İxtilalçı sosializmin iflası və demokratiyanın gələcəyi”. İstanbul, 1928-ci il.***

## Bolşevizm haqqında

“Bolşevizm elmi sosializmin təsvir etdiyi Avropasayağı bir istiqamət olmaqdan ziyadə Rus xəyalpərvərliyi ilə anarxizmindən mütəvəllid (dolmuş) bir cərəyandır. Bu cərəyana qüvvət verən ictimai varlıqlar yalnız əmələ hərəkatı deyil, ictimai hər türlü məmnuniyyətsizliklərdir”.

***M.Ə.Rəsulzadə. “Bolşeviklərin Şərq siyasəti” (“Milliyyət və bolşevizm” məcmuəsi). İstanbul, 1928-ci il.***

## Milliyyət məsələsi bolşeviklər üçün alətdir

"Millətlərin tabe olduqları bir dövlətdən ayrılmağa belə haqlı olduqlarını elan edərkən bolşeviklər şübhəsiz ki, səmimi deyildilər. Onlar bu haqqı millətin təbiətindən nəşət edən bir qiymət kimi dəyərləndirməyir. Zamanın ən təsirli bir şüarı olan bu fikri öz məqsədlərinə xidmət etdirmək üçün hiyləgər bir manevrə ilə istifadə edirlərdi..."

***M.Ə.Rəsulzadə. "Milliyyət məsələsində bolşevik nəzəriyyatı ilə əməliyyatı" ("Milliyyət və bolşevizm"məqalələr məcmuəsi). İstanbul (orxaniyyə mətbəəsi) – 1928-ci il.***

## Bolşeviklərin Şərq siyasəti, göstərişli şüarlardan biri

"Bolşeviklərin çox həvəslə istifadə etdikləri göstərişli şüarlardan birisi də iştə bu "Şərq siyasəti"dir. Bu siyasətə onlar əksəriyyən koloni siyasəti də deyirlər. Kolonilərdə "Milli qurtuluş" və yaxud "milli istiqlal" mücadiləsini kommunistlər necə qiymətləndirirlər?

Milli istiqlal uğrundakı mücadiləsində Rusiyadakı hadisələrdən çox böyük surətdə istifadə etmiş bir məmləkətdə belə bir sual verməyi mümkün hesab edənlərin olacağını təxmin edə bilərik. Fəqət bir sıra obyektiv hadisələr nəticəsində təsie edən məlum bir qənaətə rəğmən, kəmali-cəsarətlə tələb edirik ki, "Sovetlər İttifaqı daxilində tətbiq olunan "milliyyət siyasəti"ndə olduğu kimi, bolşevizm "Şərq siyasətində dəxi hiylədən uzaq deyildir".

***M.Ə.Rəsulzadə. "Bolşeviklərin Şərq siyasəti" ("Milliyyət və bolşevizm" məqalələr məcmuəsi). İstanbul (Orxaniyyə mətbəəsi) – 1928-ci il.***

## Panturanizmin millətçilikdən fərqi

"Şərqdəki milli hərəkatın bir növü kimi panturanizm Qərbdə irticaçı sayılan və çox vaxt şovinizm adlandırılan millətçilərindən bir qədər fərqlənir. Şovinizm – təcəvüzkar hərəkatdır və əsasən, artıq milli birliyə malik kapitalist dövlətin öz hakimiyyətini gücləndirməyə və ərazi sahəsini genişləndirməyə can atan dövlətin ekspansiyası amilinə bir hadisədir. Avropa millətçiliyi – siyasi cəhətdən təcavüzkar ideologiya;

Şərqdəki millətçilik isə - siyasi cəhətdən müdafiə, sosioloji cəhətdən isə mütərəqqi hadisədir”.

***M.Ə.Rəsulzadə. “Panturanizm haqqında” (rus dilində). Paris, 1930-cu il,səh.42***

## Qafqaz Birliyini pozanlara cavab

“Türkçülük bu günkü vəziyyətində Qafqaz üçün heç bir təhlükə yaratmır, əksinə türkçülük rus imperializminə qarşı bir ideya olması etibarı ilə Qafqazın müttəfiqidir”

***M.Ə.Rəsulzadə. “Panturanizm haqqında” (rus dilində). Paris, 1930-cu il,səh.64***

## “Bu xalqlar Rusiyanı parçalamaq niyyətində deyil”

“Separatçılıq yox, öz vətənlərinin müstəqilliyi uğrunda mübarizə aparan bu xalqlar heç də Rusiyanı parçalamaq niyyətində deyillər. Əksinə, biz səmimi qəlbdən Rusiyanın milli sərhədləri hüdudunda öz ərazi bütövlüyünü hifz etməsini və çiçəklənməsini arzulayırıq. Lakin cənab Kerenskilər belə aydın bir həqiqəti başa düşməlidirlər ki, Qafqazın azərbaycanlılara, gürcülərə, dağlılara mənsub olması heç də Rusiyanın parçalanması demək deyil”.

***M.Ə.Rəsulzadə. “Panturanizm haqqında” (rus dilində). Paris, 1930-cu il,səh.26***

## Kəsilməyən səs
### (Türkiyəni Sovet hökumətinin tələbi ilə tərk edərkən)

“Mütaliənizə təqdim olunan bu qəzet müqəddəs bir mübarizənin müdafiəçisi yüksələn bir səsi mədəniyyət dünyasına çatdırmaq üçün nəşr olunur. Milli Azərbaycan istiqlal mübarizəsinin səsi! – Budur bizi həyəcanlandıran səs!”

***“İstiqlal” qəzeti. Berlin, yanvar 1932-cü il, N1.***

## QPU-dan ehtiyatlı olmalı

"Daima diqqətli davranalım və hər zaman düşmən intriqası ilə QPU fitnəsinə hədəf olduğumuzu gözdən iraq tutmayaq. Düşmənin bizi daima demoralizə və deorqanizə etmək üzrə olduğunu bir an üçün olsun unutmayaq.

Bəli, QPU işləyir. Buna diqqət edək. Onun işini nəticəsiz buraxmaq bizə borcdur. Bu borcumuzu bacarıqla icra etmək üçün şübhəli sözlər, şübhəli işlər və şübhəli adamlardan saxlanmaq, istiqlal idealının çoxdan tanınmış kadrosu ətrafında birləşmək bu cidalın sınanmış taktikasından qətiyyən ayrılmamaq lazım!"

***"İstiqlal" qəzeti. Berlin, 1 iyul 1933-cü il.***

## Yaşasın Türkiyə Cümhuriyyəti!

"Bu gün Türk ellərinin yeganə müstəqil dövləti Türkiyə Cümhuriyyəti elanının onuncu ildönümünü bayram tutur. Böyük bir ildönümü!..

Türkiyə Cümhuriyyətinin qurulması ancaq siyasi bir idarə şəklinin dəyişməsindən ibarət olsaydı, şübhəsiz bu, həddi zatında yenə bir hadisə olardı. Fəqət buna rəğmən ona böyük tərifini verməklə etiraf edəlim ki, tərəddüd edərdik. Zamanımızdakı bollu ildönümləri arasında özünə seçilmiş bir yer ayırmazdıq.

Hadisənin əzəməti orasındadır ki, cümhuriyyət rüjiminin qurulması ilə Türkiyədə sadə bir idarə şəkli deyil, Türk cəmiyyətinin maddi-mənəvi bütün müəssəsələri dəyişmiş, çürümüş, Osmanlı səltənətinin yerində milli demokratik yeni bir Türk dövləti qurulmuşdur.

...Bəli, Türkiyə inqilabının əhəmiyyəti sadə Türkiyəyə aid edyildir. Cümhuriyyət qanunları sadə Türkiyə daxilində tətbiq olunursa da bu qanunların kökünü təşkil edən böyük vəzifələrin təsiri Türkiyə xaricində və xüsusilə Türkiyə xaricindəki Türk ellərində caridir. Bu etibarla Türkiyə inqilabı beynəlmiləl bir əhəmiyyətə malikdir.

...Bəli, Türkiyəli qardaşlarımızın kökslərini iftixarla qabardan bu bayram bizim də qəlblərimizi ümid və təsəllilərlə doldurur. Bütün səmimiyyət və həyəcanımızla bu gün səsimizi Türkiyə Cümhuriyyətini təsdiq edən milyonların gur səsi ilə birləşdirirkən, milli istiqlalın yenilməz bir haqq və həqiqət olduğuna ən bariz bir misalı ilə bir daha inanırıq: bu imandan aldığımız yeni bir qüvvətlə biz də ucadan deyirik:

***Yaşasın müstəqil Türkiyə Cümhuriyyəti!"***

***"İstiqlal" qəzeti, Berlin, 20 oktyabr 1933-cü il.***
***"Azərbaycan" jurnalı, Ankara, il-22, sayı – 208, sentyabr-oktyabr-noyabr 1973-cü il.***

## Faşizm haqqında

"Daxildə və xaricdəki düşmənlərinin qənaətincə, Hitlerizm, demokrasi rejiminin müxalifi olaraq iş başına gəlmiş, təsisinə başladığı idarə İtaliyada olduğu kimi, faşist diktatorluğu imiş".

***"İstiqlal" qəzeti. Berlin, 1933, N30.***

### "Azərbaycan nə üçün müstəqilliyinə çatmasın?"

"Əgər bütün milli xüsusiyyətlərini itirmək həddində olan Çexiya və onun ziyalısı və şəhərlisi, kəndlilərə əsaslanıb yenidən milli ruha sahib olursa, əgər dünyanın üç böyük imperiyası tərəfindən bölünüb-parçalanan Polşa üstündən bu ağır qəbir daşını atıb ölümdən dirilərək müstəqil dövlət olursa, onunla müqayisədə yaxşı şəraitdə olan Azərbaycan nə üçün müstəqilliyinə çatmasın?"

***"İstiqlal" qəzeti. Berlin, 1933-cü il, N46.***

## Polyaklar haqqında

"Heç bir xalqda polyaklardakı kimi üsyan ruhu olmamışdır. 1794-cü il üsyanının qəhrəmanı olan Kostyuşkonun adı Polşada müqəddəslərin adı ilə birgə çəkilir. Onun mövqeyi, Krakovda Babil qapılarında dahiyanı dayanması Polşa krallarının mövqeyi ilə də müqayisə edilməz. Polşanın istedadlı rəssamlarının yaratdıqları – Raqlavski altında gedən qəhrəmanlıq mübarizəsinin təəssüratını doğuran "Lvov panoraması isə həqiqətən hansı millətə mənsubluğundan asılı olmadan, bütüb dünya patriotları üçün nümunə sayıla bilər".

***"İstiqlal" qəzeti. Berlin, 20 noyabr 1933-cü il, N46.***

## Azərbaycançılıq nədir?

"Azərbaycançılıq demək, istiqlalçılıq deməkdir. Bir istiqlalçılıq ki, tarixin ən böyük müəssəsi (qurucusu) olan milliyyətin dövlət olmaq üzrə müzəffər yürüşü deməkdir.

Azərbaycançılıq demək, böyük türk irqinə mənsub bir millətin istiqlalını qazanmaq üzrə başlanmış şanlı bir mücadilədir.

Azərbaycançılıq eyni zamanda bir hürriyyət və mədəniyyət hərəkatıdır ki, onun ən bariz sifəti xalqçılıq və milli hakimiyyət əsasına bağlılıqdır.

Bu istiqlalın da, milliyyətin də hürriyyət və milli hakimiyyətin də düşməni olan qara bir qüvvətdir. Bir qüvvət ki, ona əvvəlcə Rusiya imperatorluğu deyərlərdi və bütün Şərq, İslam dünyası və xüsusilə Türk dünyası o qara qüvvətin zəbunu (zülm edən) idi. Yalnız bunlarmı? Hürriyyət istəyən bütün mədəni dünya ona beynəlmiləl jandarm adını verməmişdimi? Bir qüvvət ki, bu gün həm rəngini həm də ünvanını dəyişmişdir. İndi ona "Sovetlər İttifaqı" deyirlər. Qızıl Moskvanın süngüsü üzərində duran bu "ittihad" içərisindəki millətlər müstəmləkə tarixində misli görünməyən bir şəkildə istismar olunurlar.

***Azərbaycançılıq budur! Bu istismara, bu istilaya – bu qızıl imperializmə qarşı vuruşan bir qüvvətdir!"***
***M.Ə.Rəsulzadə. "Şəfibəyçilik", 1934-cü i,səh.68***

## Sovet dövləti necə dağılacaq?

"Zühur edəcək hər hansı bir böhranda sovet rejimi çox böyük bir imtahan keçirəcək və Sovetlər İttifaqı ən əvvəl zəif olduğu nöqtələrindən heç şübhəsiz partlaq verəcəkdir. Qafqaz bu zəif nöqtələrin birincisidir."

***M.Ə.Rəsulzadə. "Şəfibəyçilik", 1934-cü il, səh. 6.***

## Kirov niyə öldürüldü?

"Stalinin yaxınlarından Kirovun günün ortasında, Leninqradın göbəyində hər hansı bir mütərcim, əski rejim tərəfdarının deyil, xalis bir kommunist, hətta bir çekist tərəfindən öldürülməsi və bu qətl üzərinə müvazinətini itirən diktatorluğun, mənasız bir şəkildə hər cürə ədalət qanunları xaricində, yenidən ümumi terror tədbirinə müraciət edərək bolşevizmin ən böyük xadimlərini bir cani və "burjua reaksioneri" kimi

məhvə qalxışması bu təsəvvürün birinci qismini çürütdü. Sovet rejiminə istikrarı (sabitlik) haqqındakı təsəvvürlərin boş bir xəyaldan ibarət olduğu meydana çıxdı..."

Yeni il üzərində olduğumuz böyük dava baxımından iki mühüm əlamətlə başladı: Kirovun qatili və Saarın Almaniyaya geri verilməsi.

...Şübhə yoxdur ki, Nikolayevin Kirovu vuran qurşunu sadə əməkdar bir kommunist öldürməklə qalmadı; bu qurşun eyni zamanda Sovet hökumətinin daxildə və xaricdəki nüfuz və etibarını da öldürdü. Stalin, dostu Kirovun qanı bahasına nə qədər çox insan kəsərsə, o nisbətdə də öz iqtidarının qiymətini kəsəcək, mövqeyinin ancaq süngü gücüylə duran bir mövqe olduğunu isbat edəcəkdir".

***"Qurtuluş" jurnalı, Berlin, il:2, sayı:3, yanvar 1935-ci il.***

## Lehistan (Polşa) müsəlmanları

"Bakıda istilaçı bolşeviklər tərəfindən edam olunan general Süleyman Mirzə Sulkeviç hərbiyyəmizin şefi idi. Eyni zamanda o, Krım hökumətinin də olmuşdur. Kerenski hökuməti zamanında tatar əsgərlərini milli alay şəklində ilk olaraq təşkil edən də özü olmuşdur. Sonra digər bir çox lehli müsəlman ziyalıların Krımda, Kazanda və Azərbaycanda məmurluqlarda çalışdıqları məlumdur. Bunlardan bu gün Lehistan Cünhuriyyəti daxilində ən yüksək məmurluqlarda olan Kriçinski qardaşların (Olqred və Arslan bəylər) Azərbaycandakı hizmətlərini və tutduqları mövqeləri hamımız bilirik".

***"Qurtuluş" jurnalı. Berlin, 1935-ci il, N13-14.***

## "Zəfər də bizimdir, bizim olacaqdır"

"Yetər ki, özümüz məğlubiyyət materialı olmayalım. Daşıdığımız ideologiya kimi, özümüzün də zəfər amili olması öz əlimizdədir. Bunu etməyə çalışalım. Biləlim ki, haqq bizim olduğu kimi, zəfər də bizimdir, bizim olacaqdır!"

***"Müsavat" Partiyasının konfransındakı çıxışından.***
***1936-cı il, avqust, Polşa-Varşava.***
***"Müsavat"Bülleteni,Berlin,1936, il:1,N 1,səh.4-5***

## Azərbaycan mühacirəti

"Öz əsas tərkibi etibarı ilə Azərbaycan mühacirəti bolşevik işğalının ilk günlərindən ölkəni müxtəlif vaxtlarda tərk etmiş cəmiyyətin bütün təbəqələrindən ibarətdir. İlk vaxtlar mühacirətin böyük hissəsini Respublikada siyasi vəzifə tutanlar təşkil edirdi: məsələn, keçmiş nazirlər, deputatlar, zabitlər, məmurlar, eləcə də ictimai hərəkatın tanınmış nümayəndələri. İşğalçıların repressiyalar tətbiq etməsindən sonra mühacirətin sıraları müxtəlif adamlarla çoxaldı. 1930-1931-ci illərdəki kəndli üsyanlarının yatırılmasından sonra çoxlu sayda insanlar İranın və Türkiyənin sərhəd əyalətlərinə köçdülər. Hazırda azərbaycan mühacirlərinin sayı çox güman ki, 10 000 nəfərdən çoxdur"

***M.Ə.Rəsulzadə."Azərbaycan Müstəqillik uğrunda mübarizədə".***
***Varşava, 1938,səh.110***

## Milli Təsanüd

"Millətlər üzərində hakim çağdaş ruhun həqiqi adı Milli Təsanüddür. BU ideoloji sistemində ixtilafları ilə insaniyyət faciəsini iki fikir mənşəyi təklif olunur. Şəxs ilə kollektiv arasındakı mücadilə ilə bu cəmiyyətə mənsub siniflər arasındakı vuruşma, mövqelərini milli barış və anlaşmaya tərk etməlidirlər. Küllün – millət-dövlətin mənfəətləri digər bütün mənfəətləri tənzim edərlər".

***"Şimali Qafqasya/Severnıy Kafkaz. Varşava, 1938, N 47-48.***

## Yaşasın müstəqil İdil-Ural!

"Bəli, qardaşlar! Müzəffər olan onlar deyil, bizik. Mənəvi zəfər bizdədir. Seyr etdiyimiz siyasi əlamətlər qızıl çarlığın çökəcəyi müqəddəs günləri bizə müjdələyir. Yetər ki, biz yıxılmadan və sarsılmadan yürüyəlim; şübhəsiz məqsədə nail olacaq, məmləkətimizin xilas günlərini mütləq görəcəyik!

Bir an əvvəl bu məsud günə qovuşmamızı təmsil etdiyim, Azərbaycan, Şimali-Qafqaz və Gürcüstandan, Birləşik Qafqaz Konfederasiyası adından təmənna edərəm! Yaşasın müstəqil İdil-Ural!"

***"Qurtuluş" jurnalı. Berlin, 1938, N40.***

## Azadlıq və demokratiya qələbəsinə şübhəmiz yoxdur!

"Azadlıq və demokratiyanın son qələbəsi qabaqcadan məlumdursa (buna qətiyyən şübhəmiz yoxdur), o zaman 1918-ci ilin 28 Mayında hüquqi ifadəsini tapan Milli Azərbaycan Respublikasının həyata keçirdiyi azadlıq və istiqlala yaenidən qovuşacağı əlbəttə ki, həqiqət və qabaqcadan bilinəndir!"

***"Çağdaş Azərbaycan tarixi" mövzusunda Ankara Xalq evində oxuduğu mühazirədən. 28 May 1950-ci il.***
***M.Ə.Rəsulzadə. "Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı.***
***Çağdaş Azərbaycan tarixi". B., 1991,səh.111***

## İstiqlal dövrü ən parlaq bir dövrdür!

"Milli Azərbaycan Respublikasının yaşadığı istiqlal dövrü Azərbaycan tarixinin ən parlaq bir dövrüdür. Əski və yeni mühacirətin ilham qaynağı 1918-ci ildə elan olunan İstiqlal Bəyannaməsindəki demokratik əsaslardır. Əldə edilmiş milli istiqlalı yenidən qazanmaq əvvəlki kimi, yeni nəslin də idealıdır: lakin bir şərtlə: yenidən qurulacaq Azərbaycanda əski ictimai uyğunsuzluğa, siyasi haqsızlıqlara meydan verilməyəcək, sosial həmrəyli və ədalətin təmininə xüsusi əhəmiyyət veriləcəkdir".

***"Çağdaş Azərbaycan tarixi" mövzusunda Ankara Xalq evində oxuduğu mühazirədən. 28 May 1950-ci il.***
***"Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı.***
***Çağdaş Azərbaycan tarixi". B., 199,səh.112.***

## "Üçlü düstur" – milli həmrəylik, Ictimai ədalət, siyasi istiqlal!

"Nəsillər arasındakı mənəvi əlaqə qırılmamışdır. Əski nəslə mənsub milli mühacirətin şüurlu qismi tərəfindən təmsil olunan siyasi proqramın milli həmrəylik, ictimai ədalət və siyasi istiqlaldan bəhs edən

üç əsası yeni nəslin ictimai və siyasi şüurunun müəyyən yeni mühacirətin siyasi düşüncəli qismi siyasi etiqadımızın yuxarıdakı "üçlü" ümdəsini" böyük bir sevinc və vicdan rahatlığı ilə xəbər alırdı".

***"Çağdaş Azərbaycan tarixi" mövzusunda Ankara Xalq evində oxuduğu mühazirədən. 28 May 1950-ci il.***
***M.Ə.Rəsulzadə. "Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı.***
***Çağdaş Azərbaycan tarixi". B., 1991.səh.110***

## Azərbaycan legionerinə sual

"Təsadüfən almanların əsirlərdən təşkil etdikləri bölüklərə mənsub azərbaycanlı bir legioneri dinlədim. O, mənə Azərbaycanın teatr və musiqidəki uğurları haqqında danışdı. Moskvada Azərbaycan artistlərinin necə qiymətləndirildiyindən, musiqimizin bütün dünyada birincilik qazandığından bəhs edirdi. Mən onun duyduğu qürur və sözlərindəki öyünmə ədasını gördüm: gözləmədiyi bir sualla onun sözünü kəsdim:

- Yaxşı, madam ki, siz sovetlərin uğurlarından bu qədər məmnunsunuz, bu halda, nə üçün çiyninizə silah alıb bu sovet uğurlarına qarşı döyüşürsünüz?

O, heç çaşmadan mənə belə csvsb verdi:

- Mən əsil sovet uğurlarına qarşı döyüşürəm: bu, kolxozdur; bu, insanları fironlar dövrünə bənzər işlətməkdir; bu, QPU və NKVD rejimidir; bu, qardaşın qardaşa inanmasıdır. Bolşeviklərin uğurları bunlardır. Mədəniyyətə gəlincə, bu sahədəki uğurlar bizim öz milli uğurlarımızdır".

***"Çağdaş Azərbaycan tarixi" mövzusunda Ankara Xalq evində oxuduğu mühazirədən. 28 May 1950-ci il.***
***M.Ə.Rəsulzadə. "Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı.***
***Çağdaş Azərbaycan tarixi". B., 199,səh.106.***

## Hitler Almaniyasının mövqeyi

“1942 və 1943-cü illərdə Almaniyanın Xarici İşlər Nazirliyinin dəvəti ilə digər Qafqazlı siyasi emiqrantlarla (mühacirlərlə) birlikdə Berlinə getdiyim zaman biri mənfi, digəri müsbət iki şeyə şahid oldum. Hitler Almaniyasının mövqeyi bütün milli məsələlərdə olduğu kimi, Qafqasiya məsələlərinə olan münasibətdə də mənfi idi. Berlindən milli mübarizəmizin əsaslarını tanımasını gözləmək əbəsdi. “Ali irqin” nəzəriyyələri ilə Polşadakı, Ukraynadakı və işğal olunan başqa məmləkətlərdəki alman praktikləri ən kiçik ümidə belə yer vermirdilər. Üzərimizə düşən yeganə vəzifə milli haqlarımızı tanımayan və istiqlal davamızı tanımayan bir hökumətlə birgə fəaliyyətin baş tutmayacağını təsdiq edərək meydandan çıxmaqdı. Elə də etdik. 1943-cü il 5 avqust tarixli bir memorandum imzalayaraq Berlini tərk etdik”.

***“Çağdaş Azərbaycan tarixi” mövzusunda Ankara Xalq evində oxuduğu mühazirədən. 28 May 1950-ci il.***
***Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. B., 1991,səh.103***

## “Dədə Qorqud dastanları”

“Türk xalq ədəbiyyatının şah əsəri olan bu dastanlar, son illərin siyasi günlük bir mövzusunu təşkil edir. Azğınlaşan Bolşevik Ruslaşdırma siyasəti gərəyincə, bunlar, azərbaycanlı aydınları yenidən ələyib qızıl xəlbirdən keçirməyə vəsilə oldular.

“Kitabi-Dədə Qorqud ela lisani taifey-i Oğuran” adını daşıyan XVI yüzildə yazılmış bir nüsxəyə ilk dəfə Almaniya krallıq kitablığının fihristini (içindəkiləri) tənzim edən Fleischer rastladı. Daha sonra Bartold, Diz, Moldke və s. kimi bilgin müsteşriklər (şərqşünaslar) tərəfindən incələnən bu dastanlardan bir qismi müxtəlif Avropa dillərinə çevrildi. 12 dastanı əhatə edən bu kitab haqqında mütaliələr yazıldı və mübahisələr aparıldı. Nəticədə Dədə Qorqud və ya Qorqud Atanın, tarixi deyil, Xızır kimi əfsanəvi bir şəxsiyyət olduğu üzərində duruldu: Dastanların Azərbaycan sahəsində və Azərbaycan xalqı tərəfindən yaradılan bir əsər olduğu qənaətinə varıldı.

X-XI yüzillərdə Orta Asiyadan Azərbaycana külliyyətli Türkmən tayfaları gəldi. Bunlar özləri ilə bərabər Oğuz qəhrəmanlıq xatirələrini də gətirmişlərdi. Yerli Azərbaycan şərtlərinə uyan bu xatirələr bədii

ədəbiyyat və dastanlar şəklini aldılar. Dədə Qorqud dastanları bax bu dastanlardandır".

***"Azərbaycan" jurnalı, Ankara, il:1, sayı: 6, 1 sentyabr 1952-ci il.***

## Milli əxlaq

"Hər şey millət uğrunda – işdə həqiqi vətənsevərlərin yeganə şüarı bu olmalıdır. Millətin birliyini və bütünlüyünü qorumaq, milli əxlaqın başlıca vəzifəsidir. Türklük və milli istiqlal prinsiplərinə mütləq-sədaqət, milli əxlaqın ikinci böyük vəzifəsidir. Bu vəzifənin qəti və zəruri icabı olaraq düşmən və müstəvli (düz, hamar) hər hansı bir qüvvətlə milli istiqlal bəhsində açıq və ya qapalı heç bir bazarlıq edilməz. Verilən sözə və edilən sərbəst anlaşmalara riayət milli əxlaqın üçüncü vəzifəsidir. Hakkı, hürriyyəti, sülhü və demokratiyanı qorumaq və müdafiə, zülmə və təcavüzə qarşı düzgün bir cəbhə almaq, milli əxlaqın dördüncü vəzifəsidir. Milli səviyyəni daima yüksək tutmaq, geriliyə və cəhalətə qarşı savaşma milli əxlaqın beşinci vəzifəsidir".

***M. Ə. Rəsulzadə."Milli əxlaq". "Azərbaycan" jurnalı, Ankara, 1 fevral 1953-cü il, yıl: 1, sayı: 11.***

## Liberalizm nədir?

"Liberalizm, dövlətin vətəndaş üzərindəki hakimiyyətini ən az dərəcəyə endirib, onu yalnız daxili asayiş ilə xarici əmniyyəti təmin edən, cəmiyyət hizmətində və kontrollarında bir müəssəsə görmək istəmiş; dinin dünya işlərindən ayrılığını tələb edərək, vicdanların hər cürə formada təzyiqdən azadlığını gözə almış; iqtisadi sahədə dəxi şəxs təşəbbüsünün istiqlalına hörmətlə mülkiyyətin kutsiliyini elan etmişdir.

Liberalizmdə əsas ideal, fərdin ən çox hürriyyəti və dövlətin vətəndaşlar arasındakı qarşılıqlı münasibətə ən az müdaxiləsidir.

...Liberal dövlət müəyyən bir zamana qədər, tarixi vəzifəsini müvəffəqiyyətlə görmüş, feodalizm sisteminə bağlı qalan cəmiyyət qüvvələrinin hər sahədə açılaraq irəliləməsini təmin etmişdir.

...Hüdudsuz liberalizmin təzadlarla dolu, özünü içindən gəmirən anarxik kapitalist sisteminə döndüyünü müasir liberallardan və liberal demokratiya ideoloqlarından bir çoxu belə etiraf etməkdədirlər. Dövlətin sadə bir "gecə gözətçisi" rolunda olmayıb, cəmiyyətin tənzimində fəal rol oynayan müasir ən mükəmməl bir müəssəsə halında olmasını istəyən

mütəfəkkirlərin başında Hegel kimi keçən əsrin parlaq dimağları durmaqdadırlar.

Anarxik kapitalizmdən doğan təzadları islah üçün, millət və dövlət fikrini kökündən baltalayan Marksizmin təlqin etdiyi kommunizm ixtilalına qətiyyən lüzum yoxdur. Pislik bizzat hürriyyət və mülkiyyət prinsiplərində deyildir. Nitəkim bu prinsiplərə hərb elan etmiş olan kommunizm inqilabının Rusiyada vücuda gətirdiyi cəhənnəmlik həyat mütləq kollektivizmin, mütləq liberalizmindən, qiyaş edilməyəcək dərəcədə, fasid bir sistem olduğunu ortaya qoydu.

Bu təqdirdə nəticə öz-özünə doğur: nə fərdi hürriyyətlə şəxsi mülkiyyətin mütləqiyyətindən doğan kapitalist anarxisiylə sərmayə istibdadı, nə də insanları mənliyindən çıxararaq bir kölə və maşın halına gətirən kommunizm əsarəti! Nə mütləq liberalizm, nə də mütləq kollektivizm! O halda: - İkisini təlif edən solidarizm=təsanüd.

...Liberalizm mədəniyyətin ruhunu fərdin yaradıcı eqoizmində görür. Kommunizm isə bunu sinif eqoizmi ilə təbdil edir; solidarizm isə mədəniyyəti fərd eqoizmi ilə cəmiyyət mənfəətləri arasındakı ahəngdən ibarət bilir. Liberal cəmiyyətdə qeyri düşünmək (alturizm) qəhrəmanlıqdır. Solidarizmdə isə bu bir vəzifədir".

***M. Ə. Rəsulzadə. "Milli təsanüd" məqaləsi. "Azərbaycan" jurnalı. Ankara, yıl:1, sayı: 12, 1 mart 1953-cü il.***

## Kommunizm təhlükəsi

"Kommunizm təhlükəsi deyilən şey, dünya üçün hər zaman təhlükə təşkil etmiş olan qaba və təcavüzçü Rus imperializminin yeni həmləsindən başqa bir şey deyildir. Bu təhlükə yalnız bolşevik istibdadı və qızıl süngüsünə dayanan Sovet hakimiyyətinin çökdüyü və oradakı millətlərin, uğrunda vuruşduqları istiqlallarına ərişdikləri gündür ki, ortadan qalxar".

## "Kommunizmə qarşı millətlərarası mücadilə"

"Kommunizmi millətlərarası bir təhlükə zəhəri olaraq canlandıran təşəkkül Sovetlər birliyi deyilən qüvvətdir. Yüzdə 52-si rus olmayan böyük bir əksəriyyəti süngü gücüilə tutan bu qüvvətdir ki, dünyanı fəsada vermək istəyən ocağı tüttürüyor. Ukraynanın kömürü ilə buğdası, Qafqasiyanın nefti ilə digər sərvətləri, Türküstanın da xüsusən pambığı və digər millətlərə aid bir çox bu kimi zənginliklər qızıl Moskva

imperializminin əlində və idarəsində qaldıqca sadə beynəlmiləl müdafiə təşəbbüsü ilə mədəniyyət dünyasını kommunizm təhlükəsindən qorumaq mümkün deyildir”.

***M. Ə. Rəsulzadə. “Milli Təsanüd”məqaləsi. “Azərbaycan” jurnalı, il:1, sayı: 12, 1 mart 1953, səh. 2-5.***

## Milli Təsanüd

“Hürriyyət prinsipi mülkiyyət əsasının mədəniyyət tarixində oynadıqları böyük rol məlumdur. XVIII əsrin sonları ilə XIX əsrin başlarında elm, fənn, fəlsəfə və estetika sahəsində görülən parlak müvəffəqiyyətlərin anası “hürriyyət”, onlarla birlikdə yürüyən sənaye inqilabı nəticəsindəki maddi tərəqqilər ilə iqtisadi inkişafı doğuran da “mülkiyyət” olmuşdur.

Siyasət sahəsində Fransız inqilabının elan etdiyi “İnsan haqları” bəyannaməsində, iqtisad sahəsində də Mançestr məktəbinə mənsub iqtisadçıların “burax keçsin, burax yapsın” şeklindəki formulları ilə əsaslandırılan bu prinsiplər burjua inqilablarında qəhrəmanlıqlar yaradan liberal düşünüş sisteminin əsasını təşkil etmişlərdir.

...Təsanüdçülükdə müasir mədəniyyətin əsasını təşkil edən hürriyyət, şəxsi təşəbbüs və mülkiyyət əsasları əbədidir. Fəqət eyni zamanda dövlət, mütləq libarelizmdə olduğunu kimi fərdlər, siniflər və zümrələr arasındakı münasibət və mücadilələrə laqeyd, sırf zabita vəzifəsiylə mükəlləf bir müəssəsə deyildir. Bu sistemdə hürriyyət də, mülkiyyət də mütləq deyil, məşrutdurlar. Şərt isə ümumin mənfəəti və dövlətlə millətin sələmətidir. Şəxsin olsun, zümrə və ya sinfin olsun, hürriyyəti topluluğun yüksək mənfəətləri və hürriyyətini pozmamaq şərtləriylə çərçivələnmişdir. Liberalizm bu hüdudu bir şəxsin hürriyyətiylə digər şəxsin hürriyyəti arasında ancaq etibar edirdi; bunun üçün də dövlətin vəzifəsini sadə bir zabita və məhkəmə dərəcəsinə endirmək istəyirdi. Solidarizmdə isə dövlət millətin müməssili və cəmiyyətdəki münasibətlərin nazimidir.

Bu surətlə, Solidarizm hürriyyət və mülkiyyət müəssisələrində qoyulmuş təbii təşəbbüs və ilərləmə həmlələrini zədələmədən, kapitalizmin liberal sistemdə ümumi mənfəət zərərinə işləyən ifratlarının önünə keçmək vəzifəsini dövlətə verir.

Siniflər əsas olaraq alan kommunizm kimi, fərdləri nəzəri etibara alan liberalizm dəxi kosmopolit və internasionaldır. Solidarizm isə millidir. Çünki sadə şəxslərin və siniflərin maddi mənfəətə bağlı

xüsusiyyətlərinə deyil, siniflər və fərdləri bir cəmiyyət halına gətirən mənəvi qüvvətlərə böyük qiymət verir. Bu mənəvi qüvvətlər isə millət və dövlətlərin gerçəkləşməsində birləşdirici amil olaraq təsir edən dil, din, tarix, ümumiyyətlə kültür və ortaq ideal kimi mənəvi və ruhi qüvvətlərdir.

Liberalizm mədəniyyətin ruhunu fərdin yaradıcı eqoizmində görür. Kommunizm isə bunu sinif eqoizmi ilə təbdir edir; solidarizm isə mədəniyyəti fərd eqoizmi ilə cəmiyyət mənfəətləri arasındakı ahəngdən ibarət bilir. Liberal cəmiyyətdə qeyri düşünmək (alturizm) qəhrəmanlıqdır, Solidarizmdə isə bu bir vəzifədir.

...Madam ki, milliyyətçilik deyirik; madam ki, milli dövlət istiqlalını müdafiə edirik, o halda bizim üçün nə kosmopolit liberalizmə və nə də kommunizmə təhəmmül caiz olamaz. Bizcə müdafiə ediləcək yeganə sosial sistem milli təsanüd sistemidir.

***M. Ə. Rəsulzadə. "Milli Təsanüd" məqaləsi. "Azərbaycan" jurnalı, Ankara, yıl:1, sayı: 12, 1 mart 1953-cü il.***

## Ən azı 7 milyonluq bir Azərbaycan (Güneylə birlikdə)

**"Amerikanın Səsi" radiosundan Dəmir Pərdə arxasına üç Türk şivəsi ilə xitab olunurdu.** Bu şivələrə 3 və ya 4 milyonluq bir "Azərbaycan milləti" deyil, ən azı 7 milyonluq bir Azərbaycan (Güney Azərbaycanla birlikdə), 10-12 milyonluq bir Türküstan deyil, 30 milyonluq bir Türküstan (Doğu Türküstanla birlikdə) və 10 milyona qədər də İdil-Ural tatarları ilə Türk olmayan, fəqət bu şivələrdən anlayan müsəlmanlar daxil idi, bu, 46 milyonluq böyük bir dinləyici kütləsidir...

İllərdən bəridir yürüdülən Azərbaycan, Türküstan və İdil-Ural davaları digər hər hansı bir istiqlal davası kimi yürüdülən təbii və normal bir davadır. Türk ellərinin davasıdır!"

***M.Ə.Rəsulzadə. "Türk ellərinin davası". "Birləşik Qafqasya", Münhen, noyabr-dekabr, 1953-cü il, N11/12(28-29),səh.6***

## Novruz bayramı haqqında

"Klassik Şərq ədəbiyyatının doymadan tərənnüm etdiyi Novruzun müxtəlif mədəniyyətlərin qarşılaşdığı Azərbaycanda özəl bir yeri vardır.

Novruz ənənələrini masallardakı Cəmşidin taxta çıxmasına bağlayan İran rəvayəti bu cülüş(taxtaçıxma mərasimi) mərasimini Azərbaycanda təsəvvür edir. Klassik sözlük "Burhani-Qat"ın yazdığına görə Cəmşid dünyanın hər tərəfini gəzmiş, Azərbaycana gəlmiş, burasını bəyənmiş, gündoğuşa baxan yüksək bir təpənin üstündə bir taxt qurduraraq, şahanə əlbisələr geymiş olduğu halda bu taxta cülüs(taxtaçıxma mərasimi) etmişdir. Başında qaşlı-daşlı və şaşaalı bir tac varmış. Günəş tulu edib işığı bu tac və taxta düşüncə bütün o yerləri nura qərq etmiş və hər kəs bu durumu xeyrə yozaraq, olduqca sevinmiş və bu günü ***Yeni gün*** deyə elan etmişlərdir".

Sasanilər dövründə mutad(daimi) olan Novruz ənənəsi Yezdigərd zamanında ilqa edilmişdir. Ərəb istilası üzərinə, müsəlman olan İranda bu ənənə ihmal(unutma) edilmişdir. Sünni İran Novruzu bilməmişdir. İranı Türklərdən mütəşəkkil əsgəri bir qüvvətlə zorlayaraq şiəlik yapan Səfəvilər bu ənənəni ehya(diriltmə) etmişlər. Şiəliyin təsiri ilə "Cəmşidin" taxtına "Həzrəti Əli" çıxmışdır...

Milli Hökumətin qurulmasına təqəddüm edən illərdə şəkilləşən milli hərəkat və ümumi Türkçülük davasında Novruz və ya Yenigünün özəl bir yeri olmuşdur. Türkçülük və millətçilik yoluna girən Azərbaycanda Novruz bayramı Cəmşid və ya Şiə Səfəvi ənənələrinə deyil, Ərgənəkon əfsanəsinə bağlanır və adına da Qurtuluş Bayramı deyilirdi. Əsrlərcə özlərini çevirən dağlar arasında mahsur qalan (mühasirədə qalan) Türklər, bir dəmirçinin mərifəti və Bozqurdun dəlalətiylə əsarətdən qurtularaq geniş dünyaya qovuşmuş və azad olmuşlar. 9 Martda baş verən bu uğurlu hadisə, yeni təqvimlə 21 Marta təsadüf edən bir Yenigündə, bir Novruzda olmuşdur...

İran-Turan ənənələrini özündə birləşdirən Novruz Bayramı Azərbaycandakı özəlliyi ilə həddən ziyadə gerçək bir təbiət, həyat və hürriyyət bayramı olaraq, xalq kütlələrinin adət və ənənələrində yer almaqda və əsil dəyəri də bu nöqtədədir".

***M. Ə. Rəsulzadə. "Novruz Bayramı" məqaləsi. "Azərbaycan" jurnalı, Ankara, yıl:3, sayı: 12(24), mart 1954-cü il.***

## 28 May İstiqlalı

**"28 May 1918-ci il – Milli Azərbaycan hərəkatının ən böyük günüdür.** Bundan 34 il əvvəl Milli Şura tərəfindən Azərbaycanın istiqlalı elan olunmuşdu; bu tarixdə Türk və Müsəlman aləmində ilk dəfə milli xalq hakimiyyətinə dayanan bir Cümhuriyyət qurulmuşdur.

Yüz il öncə, ayrı-ayrı 9 xanlıq halında, çarlığın hakimiyyəti altına düşən Azərbaycan, Birinci Dünya hərbi nəticəsində çökən Rusiya imperatorluğunun qalıqları altından siyasi bir bütün, bir millət, bir dövlət olaraq qalxdı.

12 yanvar 1920-ci ildə Böyük Dövlətlər tərəfindən istiqlalının tanınması üzərinə, Azərbaycanın davası millətlərarası bir məsələ halına gəldi".

***M. Ə. Rəsulzadə. "Azərbaycan davası". "Azərbaycan" jurnalı, Ankara, yıl – 3, sayı: 2-3 (26-27), may-iyun 1954-cü il.***

## Azərbaycan davası nəsildən-nəsilə keçən bir davadır

"Davanı əsas fikir sistem və şəxsiyyətlərindən ayıraraq, avtomatik surətdə, müəyyən dövrdə rəsmi hər hansı bir sifət və ya ünvan daşımış insanlara ancaq  bağlasaq, fani olan bu fərdlərin meydandan qalxmasıyla dava da bitmiş olur. Halbuki Azərbaycan davası belə üç-beş kişinin həyatıyla ölçüləcək kiçik bir dava deyildir. Onun şəhid qanıyla təqdis edilmiş fikir müsəlləlləri vardır. Bu müsəllələr əbədidir. Azərbaycan parlamentosunu da, hökumətini də doğuran bu fikir sistemi, qızıl istila altında xüsusilə qüvvətlənmiş, istiqlalçı gənc nəslin müqaviməti ilə möhkəmlənmiş və mühacirətdə illərdən bəri davam edən mücadilə sayəsində sarih formulunu tapmışdır. Milli nəşriyyat və müəssisələrtərəfindən bu davamın ideolojik bütün səhifələri incədən-incəyə işlənmişdir. Belə bir hərəkatın müqəddəratı, şübhəsiz ki, üç-büş faninin həyatına bağlanıb qalmaz".

***M. Ə. Rəsulzadə. "Azərbaycan davası". "Azərbaycan" jurnalı, Ankara, yıl – 3, sayı: 2-3 (26-27), may-iyun 1954-cü il,səh.6***

## "Davamız Azərbaycan davasıdır"

"Davamız Azərbaycan davasıdır, bu tarixi və milli bir davadır. Yuxarıda qeyd etdiyimiz kimi, bu davanın tarixi fikir müəssələləri və onları qanlarıyla və canlarıyla təqdis etmiş qəhrəmanları vardır. Bu qəhrəmanlar, sadəcə Milli Şura, Parlamento vəya hökumətə mənsub olan şəxslərə intişar etməz. İçlərində milli ideala, Azərbaycan fikrinə, yəni "davamıza" xəyanət etmiş olanların da, maaləsəf, olduğu bu təşəkkürlər xaricində, şairimizin "buzlu cəhənnəm" dediyi sürgün yerlərində şəhadət

camını içən Xəzərin qanlı sularında ayaqlarına daşlar bağlanaraq boğdurulan neçə qəhrəmanlarımız, şəhidlərimiz vardır.

Sadəcə hökumət və ya parlamento üzvü olmaq, insana özəl bir imtiyaz və şərəf verməz, əsl imtiyaz, əsl şərəf ideyaya sədaqətdə və ona hüsniyyət və səmimiyyətlə bağlı qalmaqdadır".

***M. Ə. Rəsulzadə. "Azərbaycan davası". "Azərbaycan" jurnalı, Ankara, yıl – 3, sayı: 2-3 (26-27), may-iyun 1954-cü il,səh.5***

## "Ayaz İshaqi mərhum üçün"

"Türk ellərinin hürriyyət və istiqlalı uğrunda həyatını həsr edən böyüklərdən birini də qeyb etdik. Ayaz İshaqi İdilli aramızdan əbədiyyən ayrıldı.

Mərhumun adı yarım əsrdən bəri İslam Şərqi, Türk dünyası və xüsusən Rusiya məhkum millətlərin həyatını qavrayan ictimai, siyasi və milli hərəkatlarla ilgili tarixi şöhrətlər arasında qalmaqdadır.

...Müxtəlif zamanlarda və çətin şərtlər altında özü ilə təşriqi-məsai etmiş bir dost sifəti ilə mərhumun "əbədi yatağı" başında biri ona, digəri də bizə söylənəcək iki müraciətim vardır:

- Əziz dost, böyük mücahid, ruhun şad olsun! Yatağında rahat uyu, arxanda təqdirkar bir millət, bir gənclik buraxdın; bunlar sənin izindən gedəcək, İdil-Ural qurtuluşunu təhəqquq etdirəcəklərdir.

- Əziz ildaş və yurddaşlar, bu mücadiləçi ruhu şad etmək üzrə, onun yürütdüyü yoldan yürüməyə, Türkçülük və milli istiqlal idealına sadiq qalmağa və onun verdiyi örnək əzim və iradəylə hürriyyət və istiqlal arzularını gələcək nəsillərə aşılamağa qeyrət edəlim...

Ayaz bəyin ruhu ancaq bu surətlə şad olur!

Ankara, 13 iyul 1954".

***"Azərbaycan" jurnalı, Ankara, yıl:3, sayı: 4-5(28-29), iyul-avqust 1954-cü il.***

## İdealistlər, opportunistlər, pozğunçular

"...Hərəkatları idarə edənlərdən bir qismi, ideyalara və ideya sistemlərinə əhəmiyyət verir, tarixin inkişaf şərtlərinə ayaq uydurmaq zərurəti ilə özlərinə, elmi əsaslara istunadən bir sistem düşünür və bu sistemdəki əsaslara sadiq qalaraq hərəkət edirlər. Bunlar idealistlərdir.

İdealistlər tarixdəki real hadisələri ihmal etməməklə bərabər, bu reallıqların istənilən ideal istiqamətdə inkişafını təmin üçün gərəkən tədbirləri alırlar.

Buna müqabil, oppotunistlər vardır ki, bunlar tarixin seyri və varılacaq hədəflə artıq məşğul olmadan, o gün həmən bir oynamaq üçün, subyektiv ünsürü göz önündə olaraq özlərini axıntıya buraxırlar. Axıntının kafi-ləyi ( bir dəstəsi) istənilən sahildən başqa bir yana götürüb-götürməməsi ilə artıq ilgilənməzlər.

Məfkurəçi realizm ilə opportunist realizm arasında müəyyən zaman, məkan və şərtlər daxilində təşriqi-məsai(şərikli çalışma) imkanı təsəvvür oluna bilirsə də, ictimai hərəkatlarda xəstə bir hal alan pozğunçularla heç bir zaman işbirliyi aparıla bilməz. Hüsnüniyətdən ari(təmiz) olub, fəaliyyətə ancaq inkar və ihlal (pozuntu) məqsədi ilə girişənlərə pozğunçu deyilir. Bunların nə obyektiv görüşləri, nə tərəfsiz təhlilləri, nə də müsbət proqramları olur. Onlar sadəcə mövcudu yıxmaqdan zövq alırlar.

İdealistlərə də, opportunistlərə də pozğuçuluqla mücadilə etmək müştərək bir vəzifədir".

***M. Ə. Rəsulzadə. "İdealistlər, opportunistlər, pozğunçular" məqaləsi. "Azərbaycan" jurnalı, il:3, sayı: 9(33), dekabr 1954-cü il.***

## Azərbaycanın dünya dövlətləri tərəfindən tanınması

"Cümhuriyyətlərin dövlətlər tərəfindən tanınması Qafqasiyalı xalq kütlələrində böyük bir sevinc doğurdu. Azərbaycan ilə Gürcüstanda bütün xalq günlərlə şadlıq nümayişləri etdi.

Millətin bu ümumi sevincinə şərik olmayan ancaq bir zümrə vardı: bolşeviklər! Sözdə millətlərin azadlıq və istiqlallarına hörmət etdiklərini elan edən və Lenin ilə Stalinin imzalarıyla "Millətlər istərlərsə, Rusiyadan ayrılıb tamamiylə müstəqil dövlətlər qura bilərlər!" deyən bunlar işdə əksinə hərəkət etdilər. Qızıl Ordunun üstün qüvvətləriylə Qafqasiya cümhuriyyətlərini basdılar və zorla sovetləşdirdilər".

***M. Ə. Rəsulzadə. "Azərbaycan Cümhuriyyətinin Böyük Dövlətlər tərəfindən tanınması". "Azərbaycan" jurnalı, Ankara, yıl – 4, sayı: 10-11 (34-35), yanvar-fevral 1955-ci il,səh.3***

## Şəhriyarın "Heydər Babaya salam" əsəri haqqında

"Heydər Babaya salam" əsərində şair bir dağ çevrəsində keçən uşaqlıq xatirələrini canlandırır. "Dağ yanından saf və aydın" bir su duruluğuyla axan və Azərbaycan ləhcəsindəki təbirlərin "bütün lətafətini" ustaca lətif edən bir üsulla Şəhriyar illərdən bəri könlündə bəslədiyi həsrəti, məşuquna ermiş (çatmış) bir aşıq hərarətiylə tərənnüm edir.

Məşhur saz şairlərinin qullandıqları cana sinən bir ahənglə yazılan "Heydər Baba" 76 bənddən ibarətdir. Bu bəndlər təbiətin kənd həyatının uşaqlıqda oynanan oyunların, xalq əyləncələrinin bayram və matəm günlərinin, adət və ənənələrinin, yaz-qış həyatdakı bütün hadisələrin birər canlı tablosunu verirlər. Bu tabloları təsvirdə qullanılan insanın xalq ağzında söylənən sadə, fəqət canlı kəlmələrlə təşəkkül etməsi, ona ayrı bir gözəllik və ifadə qüdrəti bəhs edir. Şair xalqın danışdığı dili elə axıcı bir şeir dili halına gətirir ki, bunu oxuma-yazması olmayan bir kəndli anladığı kimi, ədəbi zövqü incəlmiş hər hansı bir aydın da böyük bir həzz ilə oxuyur və gerçək bir sənət əsərindən duyacağı həyəcanı duyar...

...Təbriz poçtunun yetirdiyi bu xariqə əsərin Azərbaycan ədəbiyyatında bir hadisə təşkil etdiyi bizcə şübhəsizdir. Zəngin Azərbaycan ədəbiyyatı ənənələrində hadisə və mərhələ təşkil edən əsərlər az deyildir, fəqət bunlardan xüsusilə, son illərdəki ədəbi həyatda görünənlər arasında heç biri "Heydər Baba" qədər canlı, qanlı və bir baxıma, hətta deyə bilərsiz ki, milli deyildir.

"Heydər Baba"da xalq yaradıcılığının gerçək qaynaqlarından feyz alan, folklorumuzun bütün gözəllik və zənginliklərini özündə əks etdirən səmimi, təbii bir şeir çeşidi var. Çağdaş ədəbiyyat anlamına mütabiq (ardınca gələn) olan bu parlaq əsər, milli yaradıcılıq qüdrətini təmsil edən bir əzəmət və ehtişamdadır!

Farscanın fəsahət və bəlağətinə məcbur olub illərcə ana dilini yadırğamış ikən azərbaycanlı sənətkarın, derkən, bu qədər milli bir şeir yazması yaşadığımız günlərin ən böyük hadisəsidir!"

***"Azərbaycan" jurnalı. Ankara, yıl:4, sayı: 4-5 (40-41), iyul-avqust 1955-ci il.***
***"Azərbaycan" jurnalı. Ankara, yıl:4, sayı: 6-7 (42-43), sentyabr-oktyabr 1955-ci il.***

**Qeyd:** *M.Ə.Rəsulzadənin dəyərli fikirlərində olan məqalə adları başlıqda dırnaqda, məqalələrin məzmunundakı fikirlər isə dırnaqsız göstərilib.*

*Bundan əlavə, M.Ə.Rəsulzadənin 1903-1918-ci illərə aid olan və mətbuatda verilən fikirləri onun Seçilmiş əsərlərinin I,II,III və IV –cü cildlərində toplanaraq nəşr edilib.*

# ŞƏXSİ MƏKTUBLARI, YAZIŞDIĞI ŞƏXSİYYƏTLƏR

## I. Polşa Respublikasına göndərdiyi məktublar.

1. İlkin olaraq M.Ə.Rəsulzadə Polşa dövlətinin başçısı Marşal Jozef Klements Pilsudskiyə **1923-cü ilin martın 31-də** İstanbuldan – Varşavaya fransız dilində məktub göndərir. Həmin məktubda azərbaycanlı zabitlərin Polşa Ordusu sıralarına qəbulu xahiş edilir.



2. **1926-cı ilin 15 noyabrında** Polşa Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Tadeuş Qolubkoya ünvanlanan məktubda M.Ə.Rəsulzadə mühacirət mətbuatı problemlərinə toxunur və onun redaktorluğu ilə nəşr olunan "Yeni Qafqasiya" jurnalına maddi dəstək göstərilməsini xahiş edir.

3. **1927-ci ilin 11 iyulunda** M.Ə.Rəsulzadənin Polşa Xarici İşlər Nazirliyinin rəsmisi – Tadeuş Qolubkoya ünvanlanan məktubunda Azərbaycanla əlaqələrin möhkəmləndirilməsi vacibliyinə toxunulur.

4. **1928-ci ilin fevralın 4-də** Azərbaycan nümayəndə heyətinin adından M.Ə. Rəsulzadənin, gürcü nümayəndəsi Mdivianinin, Şimali Qafqaz nümayəndəsi M. Sunşun imzası ilə Polşanın Xarici İşlər Nazirliyinə məktub göndərilir. Bu məktubda "Qafqaz İstiqlal Komitəsi"nin, "Prometey" jurnalının 1928-ci il üçün ümumi büdcəsinin dəstəklənməsi xahiş edilir.



5. **M.Ə.Rəsulzadənin 1927-ci ilin noyabrın 29-da** Polşa Xarici İşlər Nazirliyinə göndərdiyi məktubda Azərbaycandakı vəziyyətlə bağlı məlumat verilir, "Yeni Qafqasiya" jurnalının nəşri vacibliyi vurğulanır.

6. **1927-ci ilin avqust ayının 3-də Polşa rəsmisi T.Şetselə** göndərdiyi məktubda "Yeni Qafqasiya" jurnalının fəaliyyəti və Azərbaycandakı məlumatlar öz əksini tapıb.

7. **1927-ci ildə Polşa rəsmilərinə** göndərdiyi başqa bir məktubda aşağıdakı problemlərə toxunulur: 1)Azərbaycanda vəziyyət – silahdaşların həbsi; 2)Təbliğatıngücləndirilməsi üçün müxtəlif kitabçaların, broşuraların nəşri vacibliyi; 3) Milli Mərkəzin fəaliyyəti.

8. **1928-ci ilin 17 fevralında Polşa Xarici İşlər Nazirliyinin rəsmisi T.Qolubkoya** ünvanlanan məktubda "Yeni Qafqasiya"nın yerinə "Azəri Türk"ün nəşrindən danışılır, "Prometey" jurnalının dərc edilməsinin çətinliyi qeyd olunur, Mustafa bəyin oraya gəlib onunla görüşəcəyi bildirilir.

**9. 1929-cu ilin 19 fevral tarixli** Polşa Xarici İşlər Nazirliyinin rəsmisi olan T.Qolubkoya ünvanlanan məktubda partiya orqanlarına və üzvlərə tamamilə etibar göstərilməsini və gənclərin partiyaya marağının artdığını aşkar etdiyini bildirir. Məlumatlandırır ki, fəal yoldaşlardan bir neçəsi İrana - sərhədə göndəriləcək. Qeyd edir ki, Polşa ordusuna cəlb olunmaq üçün müraciət etmiş şəxslərin ərizələrinə də müsbət yanaşılacaq.



**10. 1927-ci ilin noyabrın 29-da** M.Ə.Rəsulzadənin Polşa rəsmisi T.Şetselə yazdığı məktubda Mustafa bəy Vəkillinin Varşavaya təmsilçi təyin edildiyi bildirilir. Qeyd olunur ki, Azərbaycandan alınan məlumatlara görə, orada böyük ruh yüksəkliyi yaranıb və bolşevik fraksiyasındakı mübarizə insanların fəaliyyətinə müsbət təsir göstərib.

11. **M.Ə.Rəsulzadənin T.Şetselə yazdığı 1929-cu il 16 yanvar tarixli** məktubda Mustafa bəyin bütün təfəərrüatı ilə məlumatları çatdırdığı bildirilir. Bu məktubda M. Ə. Rəsulzadə əsasən partiyadaxili problemləri açıqlayıb bəzi şəxslərin qeyri-konstruktiv davranışlarına toxunur.
12. M.Ə.Rəsulzadə Polşa dövlətinin rəsmisi Edmund **Xaraşkeviçə yazdığı 1928-ci il 5 sentyabr tarixli** məktubda öz nəşrlərindən 3 nüsxənin ona göndərildiyinin davam etdiyini bildirir, Polşa ali məktəblərində təhsil alan iki azərbaycanlı tələbəyə təqaüd ayrılmasına kömək göstərilməsini xahiş edir.

**Qeyd:** ***M.Ə.Rəsulzadənin Polşa Respublikası rəsmiləri ilə yazışmalar və onlara yazdığı məktublar N.Yaqublunun 2007-ci ildə nəşr etdirdiyi "Azərbaycan-Polşa əlaqələrində M.Ə.Rəsulzadənin rolu" kitabında çap olunub***.

**13.** Məktub **Mustafa bəy Vəkilliyə 1936-cı ilin 28 yanvarında** Varşavadan yazılıb. Məktubda qeyd edilir ki, bu yaxınlarda "Jurnal de Cenevrə"nin redaktoru gəlmişdi və Qafqaz haqqında çox maraqlı məruzə etdi. Məhəmməd Girey isə Varşavadan gedib və Almaniyada dostlarımızla görüşüb.

**14.** Məktub **Mustafa bəy Çokayevə 1937-ci ilin 24 iyununda** Varşavadan yazılıb. Əli bəy Azərtəkinlə "Yaş Türküstan" arasında gedən polemikaya toxunulur. M. Ə. Rəsulzadə M. Çokayevi "Müsavat"ın 1936-cı ildə Varşavada keçirilən konfransı haqqında məlumatı redaktoru olduğu "Yaş Türküstan"da obyektiv işıqlandırmamaqda günahlandırır.

**15.** Bu məktub **Mustafa bəy Vəkilliyə 1935-ci ilin 24 dekabrında** Parisdən göndərilib.

**16.** Məktub **Məhəmmədəli Rəsuloğluna və Abbasqulu bəy Kazımzadəyə** 1935-ci ilin 24 dekabrında Parisdən göndərilib.

**17.** Məktub **Əhməd Cəfəroğluna** 1935-ci ilin 26 dekabrında Parisdən göndərilib.

**Qeyd:** *M.Ə.Rəsulzadənin yazdığı bu məktublar 2011-ci ildə Moskvada, rus dilində nəşr edilən "Azərbaycan mühacirət tarixindən" kitabında çap olunub (kitabın tərtibatçısı, ön söz və qeydlər S. İshakovundur).*

## II. Azərbaycanın tanınmış siyasi xadimi Ə.M.Topçubaşovla məktublaşmaları

### *M.Ə.Rəsulzadənin yazdığı məktub və cavablar*




1. Məktub **1923-cü ilin 17 noyabrında** İstanbuldan yazılıb. Bildirilir ki, növbəti sayda yazınız çap ediləcək. Məlumatlandırılır ki, Bakıda "Müsavat" Partiyasının gizli mətbəəsi "çekistlər" tərəfindən aşkarlanıb 200-ə qədər adam tutulub. Bəzilərini böyük təhlükə gözləyir.

2. Məktub **1923-cü ilin 7 dekabrında** yazılıb. Bakıda yeni insanların həbs edildiyini və Rusiyaya göndəriləcəyini bildirilir. Gürcülərlə birlikdə SSRİ-nin

tanınması əleyhinə hazırlanan müraciətə toxunulur. Musa Bigiyevin Petroqradda həbsi bildirilir və onun Berlində çap olunan "Müsəlman dünyasına müraciəti"nə görə həbsə alınması qeyd edilir.

3. Məktub **1924-cü ilin 20 aprelində** yazılıb. Bakıdakı həbslərdən və həbsə alınmış müsavatçıların partiyanı buraxmağa məcbur edildiyi vurğulanır. Qeyd olunur ki, Türkiyədə liberallarla konservatorlar arasında sakit mübarizə gedir, böyük islahatlar sakit keçdi.Eyni zamanda "Yeni Qafqasiya" jurnalının maddi vəziyyətinin ağırlığı, mətbəəyə borcların olması bildirilir.

4. Məktub **1924-cü ilin 23 iyulunda** yazılıb. Aşağıdakı məlumatlar verilir: Azərbaycanda vəziyyətin ağırlığı, Türkiyənin Rusiya ilə ziddiyyət yaratmaq istəmədiyi, bolşevik mətbuatının Türkiyə və İranda mühacirlərin fəaliyyətinə diqqəti artırması, ingilis-sovet konfransının böhranda olması.

5. Məktub **1924-cü ilin 8 oktyabrında** yazılıb. Məktubda toxunulur: Gəncədə N.Yusifbəylinin qardaşı Həmid bəyin həbsi, Bakı ilə kəsilmiş əlaqənin bərpası, oradan qəzetlərin və başqa materialların alınması, üç xalqı (azərbaycanlı, gürcü, dağıstanlılar) birləşdirən mətbuat orqanının yaradılması vacibliyi və s.

6. Məktub **1924-cü ilin 17 oktyabrında** yazılıb. Məktubda toxunulur: Rusiya müharibəyə cəlb edilməyənə qədər Azərbaycanda silahlı üsyanın qeyri-mümkünlüyü, gürcülərlə əlaqələrin olması,"Yeni Qafqasiya" jurnalı üçün göndərilən on liranin alınması, jurnalın ölkəyə göndərilməsi.

7. Məktub **1924-cü ilin 20 noyabrında** yazılıb. Bildirilir: Moskvadan Türkiyə səfiri Muxtar bəyin gəlişi, onun Rusiyada bolşeviklərin ağır vəziyyəti haqqında məlumatı, Qafqazdan qaçqınların gəlməsi və s.

8. Məktub **1924-cü ilin dekabrın 10-da** yazılıb. Bildirilir: Bakıdan şifrəli məktubun alınması, müsavatçıların Yaroslavla, Solovkiyə göndərilməsi.

9. Məktub **1924-cü ilin 25 dekabrında** yazılıb. Bildirilir: təşkilatın adının dəyişdirilib "İstiqlal Komitəsi" olması, Türkiyədə bahalaşma və iqtisadi böhran, Azərbaycanda anarxiya, İstanbuldakı mühacirlərin yenidən müstəqil qruplar yaratması.

10. Məktub **1924-cü ilin 29 dekabrında** yazılıb. Məktubda bildirilir: 7-ci sayda məktubdan hissələrin çap ediləcəyi, daimi olaraq rusların Parisdə çıxan "Son xəbərlər" orqanının alnması, Həsən bəyin fotosunu tapa bilməməsi və s.

11. Məktub **1925-ci ilin martın 5-də** yazılıb. Məktubda bildirilir: Azərbaycan haqda məlumatlar, bütün Türkiyə vətəndaşlarının Kürdüstan

hadisələri ilə məşğul olması, Bakıda M.Y.Cəfərovun və Z. Əhmədbəyovun həbsi, Konstontinopolda (İstanbulda) "İstanbuldakı Azərbaycanlıların Qarşılıqlı Köməyi Cəmiyyəti"nin yaradılması, Bakıdan sürgünə göndərilən müsavatçıların ailələrinə yardım göstərilməsi.

12. Məktub **1925-ci ilin mayın 6-da** yazılıb. Bildirilir: Parisdə təhsil alan tələbə Mir Abdulla Vəzirovun faciəli ölümü, Zivər bəyin özünü öldürməsinin səbəbləri və çekistlərə - Baba Əliyevə, Bağırova belə bir məzmunda məktub yazması: "Sevinin ki, daha bir ziyalı müsəlman yaşamayacaq", yaşadığı ünvanı dəyişməsi, yeni mənzildə əvvəlkinə nisbətən rütubətin olmaması və s.

13. Məktub **1925-ci ilin avqustun 5-də** yazılıb. Bildirilir: Polyak Qolubkonun gəlişi və onun maraqlı məlumatlar verməsi, Azərbaycanda çoxlu ziyalıların həbsi və bəzilərinin isə azadlığa çıxması, B. Rzayevin Bakıda olması, M.Y.Vəzirovun isə oraya getməyə hazırlaşması və s.

14. Məktub **1925-ci ilin sentyabrın 19-da** yazılıb Bildirilir: Polşa səfiri ilə görüşüb müəyyən qədər maliyyə alması, Qafqaz Konfederasiyası ideyasının müdafiə olunması, Polşanın Xarici İşlər Nazirliyinə müəyyən məlumatların verilməsi.

15.Məktub **1926-cı ilin fevralın 23-də** yazılıb. Bildirilir: Azərbaycan-Türkiyə qarşılıqlı münasibətlərində polemikanın yaranması, polemikaya səbəb Ayaz İshaqovun(İshaqinin) "Türk Ocaqları"nda vahid ədəbi türk dili haqqında böyük bir məqaləsinin çıxması və orada Türkiyə dövlətinin sovet Rusiyasında, Çində, İranda yaşayan bütün türkdilli xalqların müdafiəsini üzərinə götürməsi vacibliyi, "Vaxt" qəzetinin müxbiri Əliheydər Əmirin Rusiyada yaşayan türkdilli xalqları Türkiyə əleyhinə siyasətdə pisləməsi, Azərbaycanın öz müstəqilliyini elan etməsi əvəzinə Türkiyəyə birləşməsi vacibliyini vurğulaması və s.

16. Məktub **1926-cı ilin iyulun 19-da** yazılıb. Bildirilir: Azərbaycanda həbslər, bəzi türk vətəndaşlarının da həbsi, Qolubkonun gəlməsi, "Qafqaz İstiqlal Komitəsi"nin yaradılması, fransız dilində aylıq orqanın nəşri, Ə. M. Topçubaşovun oğlu Rəşidin sağlamlığı ilə bağlı narahatlığı, M. H.Hacınskinin oğlunun Bakıdan gəlişi və s.



**Qeyd:*Bu məktublar 2012-ci ildə Moskvada rus dilində nəşr edilən “Ə.M.Topçubaşov və M.Ə.Rəsulzadənin yazışmaları. 1923-1926-cı illər” kitabında toplanıb. (Kitabın tərtibi, ön söz və qeydlər S. M. İsakovundur).***

**Qeyd:***Ə.M.Topçubaşovla M.Ə.Rəsulzadənin 1923-1926-cı illərdəki yazışmalarında* ***35 məktub*** *qeydə alınıb. Bu məktublardan* ***21-ni*** *Ə.M.Topçubaşov,* ***16-nı*** *isə M.Ə.Rəsulzadə yazıb. Bəzi məktublar cavab xarakteri daşıyır.*

## III. AZƏRBAYCANIN TANINMIŞ MƏTBUAT XADİMİ CEYHUN HACIBƏYLİYƏ MÜHACİRƏTDƏ YAZDIĞI MƏKTUBLAR



Bu məktubların ümumi **sayı 40-a** qədərdir. M.Ə.Rəsulzadə bu məktubları 1922-ci ilin oktyabrından İstanbuldan göndərməyə başlayıb. Sonrakı məktubları isə yaşadığı digər ölkələrdən, ünvanlardan göndərib.

**1. 1922-ci il 21 oktyabr.**

Bildirir ki, ayın 13-də işlərini yekunlaşdıracaq və oraya gəldikdən sonra viza almaq mümkün olacaq.

**2. 1924-cü il 17 fevral.**

“Yeni Qafqasiya” jurnalının abunə problemlərindən danışır. Ceyhun bəyin Fransada jurnalın abunəsinə yardımçı olmasını bildirir.



Qeyd edir ki, şair Əhməd Cavad həbsdədir və ona işgəncələr verilir. Eyni zamanda Ceyhun bəyin məqaləsini də aldığını bildirir.

**3**. Məktub **1932-ci ilin dekabrın 10-da** Varşavadan (Slusevsua küçəsi 5, mənzil 11) göndərilib. Bildirilir: “İstiqlal”ın birinci qanun tarixli 21-ci nüsxəsində “Qafqaz Konfederasyonu” haqqında görüləcək işlərlə bağlı bir anket açılıb.

Bütün vətəndaşlara müraciət əsasında tərtib olunan bu anketin aldığı hədəfi canlı bir nəticəyə çatdırmaq üçün redaksiya heyəti ilə xüsusi müraciətlə Sizin də bu təşəbbüsə nəzəri-diqqət etinanızı cəlb etməyi faydalı görmüşdür.

Baş verən bu təşəbbüsün əhəmiyyətini təqdirən müraciətinizi cavabsız buraxmayacağınızı ümidlə təşəkkürümü indidən bəyan eylərim, əfəndim.

Anket listəsi(vərəqi) bu məktuba əlavə edilmişdir.

***"İstiqlal"ın baş mühərriri M.E.Rəsulzadə".***

**"İstiqlal"ın anketi:**

**1.** Qafqasya millətlərinin olduqları Rusiya istilasından xilasını necə təsəvvür edirsiniz?

**2.** Məzkur xilas üçün Qafqasya miqyasında bir ittihad təsəvvürü təqdirində bu millətlər arasındakı vəhdəti necə təsəvvür edirsiniz?

**a)** İstiqlal dövrünə məxsus müvəqqəti bir ittifaq şəklindəmi, yoxsa daimi şəkildə olacaq federativ bir ittifakmı?

**3.** Sizcə Qafqasyada federasiyanı icab etdirən müştərək ehtiyac və amillər nədir?


"İstiklâl"
[illegible] Azerbaycan istiklâl [illegible] tervic eder gazete

10/XII 1953

Hacıbeyli
Ceyhun
bey

"İstiklâl"ın 10 Birinci Kânun tarihli ?inci nushasında Kafkasya konfederasyonu hakkında görceğiniz vechile bir anket açılmıştır.

Bütün vatandaşlara müracaaten tertip olunan bu anketin güttüğü hedefi canlı bir neticeye ulaştırmak niyetile heyeti tahririye işbu husasi müracaatle bizzat Sizin de bu teşebbüse nazarı dikkat ve itinanızı celpetmeği faydalı görmüştür.

Vuku bulan bu teşebbüsün ehemmiyetini taktiren müracaatınızı cevapsız bırakmıyacağınızı ümitle teşekkürümü şimdiden beyan eylerim efendim.

Anket listesi işbu mektuba rabtedilmiştir.

"İstiklâl" baş muharriri
M. E. Resulzade

Cevap için adres:
[illegible] 5 m. II
Varşova

**4.** Daimi ittifaq və federativ bir rabitə tərəfdarı olduğunuz təqdirdə, Qafqasya üçün federasiyamı, yoxsa konfederasiyanımı istəyirsiniz? Və nə üçün?

**5. "**Qafqasiya Konfedersiyası" nın Sizcə müştərək nə kimi müəssəsələri olmalıdır?

**6.** Konfederasiya ideyasını tərvic üçün siyasi mühacirlər Sizcə nələr etməlidir?"

**2. Məktub 1954-cü ilin dekabrın 6-da yazılıb.** Bildirilir: "Əziz və möhtərəm **Ceyhun bəy!** Münhendən alınan qara xəbər buradakı vətənsevərlərin dərin təəssüflərinə səbəb oldu. Mərhum Əbdürrəhman Fətəlibəylinin uğradığı faciəli aqibət hər kəsdə qəddar düşmənə qarşı nifrəti daha da qüvvətləndirmişdir. Azərbaycanlı istiqlaliyyətçilərin duyduqları acıya tərcüman olaraq mərhumun ən yaxın arkadaşları Azərbaycan qrupunun bir təmsilçisi olmaqla Sizə ən səmimi təşəkkürlərimi bildirir, candan təziyət edirəm. Yürüdülən çətin mücadilədə qəddar düşmənə qarşı ayıq olmaq şərtdir. Mücadilə davam edəcəkdir. Sayğılarımla, M. Ə. Rəsulzadə".

**Qeyd:** ***M.Ə.Rəsulzadə 1929-cu ilin 3 fevralından C.Hacıbəyliyə İstanbuldan məktublar yazır.***

***1930-cu ilin 14 avqustundan isə o, Varşavadan Ceyhun bəyə məktub yazır.***

*Qeyd: C.Hacıbəylinin* ***bu məktubları 2010-cu ildə Moskvada M.Ə.Rəsulzadənin rus dilində nəşr edilən "Sbornik proizvedeniyi i pisem"*** *kitabında çap olunub.*

## IV. Tanınmış mühacir Süleyman Təkinərə yazdığı məktublar

**1.** Məktub **1950-ci ilin mayın 29-da** yazılıb. Bildirilir: "Əziz yurddaş Süleyman Təkinər! 28 Mayıs İstiqlal günümüz münasibəti ilə göndərmiş olduğunuz kutlama(təbrik) yazınızı aldım. Açıqladığınız eyi diləklər üçün Sizə təşəkkür və sevgilərimi sunarım. Yurddaşların da qarşılıqlı salamları vardır. Dünən "Xalq Evi"ndə A.K.D.-nin ("Azərbaycan Kültür Dərnəyi"nin) təşəbbüsü ilə "Çağdaş Azərbaycan Tarixi" konusu(mövzusu) üzərinə bir konfrans verdim. İçində yaşadığımız tarixin olaylarına təmas edərkən, hərb əsnasında məmləkətdən yeni çıxan cavanlarla yapdığım təmaslardan fikirlərini də hekayə etdim. Uğradığım sonuc: nəsillər arasındakı mənəvi bağların qopmamış olmasıdır. Bu tezinin canlı dəlili Sizin kimi ülkülü( qayəli) aydınlarımızdır".


Ankara 30.IV.51.
Aziz yurtdaşım
S. Tekiner!
27 Nisan millî matem münasebetiyle
gönderilmiş olduğunuz taziyet yazısını aldım.
Hissiyatınıza teşekkür ederim; acılarımız ümumîdir. Yeniden gerçekleşeceğini umduğumuz
bir 28 mayıs gününü sizin özlediğimiz Azerbaycan'da hep beraber yaşayacağız inşaallah.
Sevgilerimle
M. E. Resulzade
B. T. Millî Eğitim Yayın Müdürlüğü
tarafından bastırılan «Azerbaycan Şairi Nizami»
neşrolunmuştur. Eğer Üniversite Kütüphanesinde
isenız; arattırınız. Belki aldırmışlardır.
M. E.

**2.** Məktub **1952-ci ilin fevralın 3-də** yazılıb. Bildirilir: "Göndərilən məktubun alınması, rus dilində "Azad Qafqaz" jurnalının hələ Münhendən gəlib çıxmaması, yazılan açıq məktuba müsbət yanaşması, almanca "Verbundestell"in "İrtibat qərargahı" yox, "İrtibat heyəti" kimi tərcümə edilməsinin təklifi və s.".

**3.** Məktub **1952-ci ilin martın 4-də** yazılıb. Bildirilir: "Süleyman Təkinərin "Azərbaycanda fikir hərəkatları" mövzusundakı çıxışına hazırlaşmasının vacibliyi, yeni bir dərnəyin qurulması, onun necə inkişaf etməsi".

**4.** Bu məktub **1952-ci ilin aprelin 16-da** yazılıb. Bildirilir: "Doktor Atamanın ondan Təkinərin ünvanını alması, 27-də keçiriləcək konfrans

üçün yazışacağı, Mirzə Bala və Ə.Cəfəroğlunun 27-də İstanbulda konfrans keçirməyə hazırlaşması və s.

**5.** Məktub **1952-ci ilin martın 19-da** yazılıb. Bildirilir: “16.04.1952 tarixli məktubun alınması, göstərilən ciddiyyət və əlaqəyə görə təşəkkürlər, konfransın bu gün, yaxud sabah olacağı, Əhməd bəyin fikirlərini təxmin etməsi, Sadıq bəyə şübhənin olması, onun da toplantıya dəvəti” və s.

**6.**Məktub **1952-ci ilin mayın 13-də** yazılıb.Bildirilir:“Musazadə M. “Azərbaycan Cəmiyyəti”nin təşkilini mənə də xəbər vermişdi, verdiyim suallara hələ cavab göndərməyib, Doktor İsmayılzadənin rəhbərliyində Amerikada “Azərbaycan Birliyi” təşkil olunub. Birliyin katibi Zahid xandır”.

**7.** Məktub **1952-ci ilin mayin 29-da** yazılıb. Bildirilir: “A.K.D.-nin (“Azərbaycan Kültür Dərnəyi”nin) təşəbbüsü ilə “Xalq Evi”ndə 28 May İstiqlalı münasibəti ilə toplantı keçirildi. Mən hələ ki, yayılmamış olan tarixi bir məqaləmi (“Azərbaycan Cümhuriyyəti”) oxudum. Şimali Qafqasyalılardan biri də qısa çıxış etdi. 28 Mayıs münasibəti ilə “Amerikanın səsi” radiosunu dinləyə bildinizmi?”


21.2.952. Ancara.

Süleyman Bey!

**8.** Məktub **1952-ci ilin iyunun 11-də** yazılıb. Bildirilir: “Bütün gücünüzü “cəmiyyət”i əldə saxlamağa çalışın, yox əgər bu imkan olmazsa, o zaman təbii olaraq yeni kültür cəmiyyəti qurmağa təşəbbüs edilməlidir. “Eminbəysiz Azərbaycan” istəyənlərin hədəfi Emin bəy deyil.“İstiqlalsız Azərbaycan” deyə bilmədikləri üçün belə deyirlər”.

**9.** Məktub **1952-ci ilin oktyabrın 10-da** yazılıb. Bildirilir: “Əzizim Süleyman! İmkan edib on beş gün üçün Avropaya gedə bilirmisiniz? Cavabınız müsbət isə həmən xəbər veriniz”.

**10.** Məktub **1953-c ü ildə iyunun 6-da** yazılıb. Bildirilir: “7.06.1953 tarixli məktubunuzu aldım. “Mətbuat həyatında əlli il” reportajını oxudum. Burada arkadaşlar 20 həziranda(iyunda) tərtibi düşünülən “gecənin” hazırlanması işi ilə məşğuldur”.

**11.** Məktub **1954-cü ilin 23 dekabrında** yazılıb. Bildirilir: “Məktubunuzu aldım, mərhum mayor haqqında hissiyyatınızı təqdir edirəm”. Sonra məktubda Azərbaycana edilən müraciətlər vurğulanır.

**12.** Məktub **1954-cü ilin 28 dekabrında** yazılıb. Bildirilir: Ceyhun bəydən məktub alınması, onların "Azərbaycan" jurnalı üçün yazı istəməsi və s..

**Qeyd:** ***Bu məktubları M.Ə.Rəsulzadə Ankaradan əvvəl İstanbulda, sonradan isə Münhendə yaşamış dostu Süleyman Təkinərə yazıb. Sayı 48-ə qədər olan bu məktublar Azərbaycan türkcəsində yazılıb. Məktublar Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin S. Mümtaz adına "Ədəbiyyat və İncəsənət" Arxivində N.Yaqubluya aid olan fondda saxlanılır.***

## V. Professor Fikrət Türkmənin arxivində olan məktublar



***Fikrət Türkmən, Türkiyə, Egey Universitetinin professoru***

**1.** Məktub **1951-ci ilin 9 noyabrında** Ankaradan Münhenə İsak Don Levinə (ABŞ-ın "Kommunizmə Qarşı Mücadilə Komitəsi"nin təmsilçisi) ingiliscə yazılıb.

**2.** Məktub **1952-ci ilin fevralın 28-də** Ankaradan "Pan-Amerikan Ukraynalılar Konfransı"na – Dr.V.Sandora ingiliscə yazılıb.

**3.** Məktub 1952-ci ilin fevralın 28-də Ankaradan Dr.Ctibor Pokornya almanca yazılıb.

**4.** Məktub **1952-ci ilin 19 iyulunda** Ankaradan "Azərbaycan Milli Mərkəzi" adından Başqan M.Ə.Rəsulzadə və katib Kərim Odərin imzaları ilə ingiliscə Nyu-Yorkda yaşayan Dr. Hacıoğlu İsmayılzadəyə yazılıb.

**5.** Məktub **1952-ci ilin oktyabrın 4-də** türkcə Əli bəyə yazılıb. "Şimali Qafqaz Milli Komitəsi"nin Qafqaz Konfransına dəvətinə verilən cavab və məsələlər haqqında düşüncələrini ifadə edir.

**6.** Məktub **1952-ci ilin oktyabrın 4-də** türkcə "Şimali Qafqaz Milli Komitəsi" Başqanı A.Maqomaya yazılıb.

**7.** Məktub **1952-ci ilin noyabrın 7-də** türkcə Mirzə Balaya Visbadendə alınan qərarla bağlı yazılıb.

**8.** Tarixsiz məktub. İngiliscə yazılıb. **Stalinlə xatirələrinin yayımlanması üçün** "Hotel Weyein Sythst and Machsonale" şirkətinə yazdığı məktubdur.

**Qeyd:** ***M.Ə.Rəsulzadəyə gələn cavab məktublarından məlum olur ki, onun digər şəxslərə də yazdığı məktublar da olub:***

**1) Əkbər ağa Şeyxülislamovun** Parisdən göndərdiyi **1949-cu il, 15 fevral tarixli** məktub. M.Ə.Rəsulzadənin **1949-cu il 4 fevral** tarixli məktubuna cavabdır. Burada mühacirətdəki azərbaycanlıların sıxıntılarından bəhs edilir;

**2)** Ə.Şeyxülislamovun Parisdən göndərdiyi **1949-cu il 4 aprel tarixli** məktub. M.Ə. Rəsulzadənin 1949-cu il 20 mart tarixli məktubuna cavabdır. Azərbaycanlıların maddi və mənəvi məsələlərindən bəhs edir.

**3)** Ə. Şeyxülislamovun Parisdən **1950-ci ilin dekabrın 28-də** M. Ə.Rəsulzadənin öncədən yazdığı bir məktuba cavabdır. M.Ə.Rəsulzadəyə yanlış bilgilər verildiyi, özünün gəlib onunla görüşəcəyi və açılamalar edəcəyi qeyd olunub.

**4)** Münhen **17.03.1951-ci il** tarixli osmanlıca M.Ə.Rəsulzadəyə yazılan bu məktubda Avropada nəşr edilən dərgi, azərbaycanlılar, Amerikadakı vəziyyət, "Azəri Milliyyətçilər Dərnəyi", ABN məsələsi, qafqazlılar arasındakı görüşmələr kimi mövzularda ona bilgilər verilir.

**5) 17.05.1951-ci il** tarixli məktub.Türkcə yazılan bu məktubda M. Ə.Rəsulzadəyə Nizami haqqında olan kitabına görə təşəkkür edilir. İmzası müəyyənləşməyib.

**6)** Parisdən **16.09.1951-ci il** tarixli Ə.Şeyxülislamovun məktubu. Burada darginlər, Qafqaz, gürcülər, ermənilər və bu məsələlərə aid görüşlər haqqında M.Ə.Rəsulzadəyə bilgilər verilir.

**7)** Parisdən **16.09.1951-ci il** tarixli Ə.Şeyxülislamov tərəfindən rusca yazılmış məktub.

**8) 19.09.1951-ci il** tarixində Yusif Qəhrəmanoğlunun ərəb əlifbası ilə yazdığı məktub. Qafqaz məsələsi və azərbaycanlılar haqqında bilgi verilir.

**9) 26.10.1951-ci il** tarixində türkcə yazılıb. Bu məktub M.Ə.Rəsulzadənin 23.10.1951-ci il tarixli məktubuna cavabdır. Burada Avropadakı görüşmələrə dair bilgi verilir.

**10)** Münhendən **23 oktyabr 1951-ci il** tarixində "Amerika Azadlıq Komitəsi" tərəfindən M. Ə. Rəsulzadəyə ingiliscə yazılmış məktubdur.

**11)** Parisdən **26.10.1951-ci il** tarixli Ə.Şeyxülislamovun M.Ə.Rəsulzadəyə rusca cavab məktubudur.

**12)** 1951-ci ilin **7 noyabrında** ingiliscə yazılıb. M.Ə.Rəsulzadə ilə görüşən və özündən bilgi alan şəxsin təşəkkür məktubudur. İmzası oxunmur.

**13)** 1951-ci ilin **8 noyabrında** ingiliscə yazılıb. Məktubu "Millətlərarası Əlaqələr" professoru Filip E. Moseley yazıb.

**14)** Parisdən **8.11.1951-ci ildə** türkcə yazılan məktub. Ə.Şeyxül-islamov M.Ə.Rəsulzadəyə bu məktubunda Ceyhun bəy, Əkbər İsmayıl və özünün Azərbaycan adına keçirdikləri görüşlər haqqında məlumat verir.

**15) 26.01.1952-ci il** tarixli məktubdur, türkcə yazılıb. M.Ə.Rəsulzadənin 14.01.1952-ci il tarixli məktubuna Yusif Qəhrəmanoğlunun cavabıdır. Amerikalıların "Qafqaz Komitəsi"nə yardımı mövzusundan bəhs edir.

**16) 21 fevral 1952-ci il** tarixli ingiliscə məktub. Kolumbiya Universitetinin Rusiya İnstitutu professoru Filip Moseley tərəfindən M. Ə. Rəsulzadəyə yazılıb.

**17) 18 sentyabr 1952-ci il** tarixli ingiliscə məktub. Filip Moseley tərəfindən M. Ə. Rəsulzadəyə yazılıb.

**18) 9.04.1953-cü il tarixli** türkcə məktub. Yusif Qəhrəmanoğlunun M.Ə.Rəsulzadəyə yazdığı Azərbaycan məsələsinə dair bilgilərlə bağlıdır.

**19) 17 mart 1953-cü il** tarixli məktub. "Qaçqınlarla İlişgilər Dərnəyi" adından B. E. Kuniholmun M.Ə.Rəsulzadəyə məktubudur.

**20) 20 aprel 1953-cü il** tarixli ingiliscə məktub. Amerikada "Qaçqınlar Dərnəyi"nin Başqanı olan Eric Kuniholm tərəfindən M.Ə. Rəsulzadəyə cavab məktubudur.

**21) 26 may 1953-cü il** tarixli ingiliscə məktub. "Life İnternasional"-ın redaktoru Con Feliksin M.Ə.Rəsulzadəyə Stalinlə xatirələrinə aid kitabı haqqındadır.

**22) 9 iyun 1953-cü il** tarixli ingiliscə məktub. "E.P. S. Levin və Partners" yazarlar və yayınçılar agentliyindən M.Ə.Rəsulzadəyə yazılıb.

**23) 24 iyul 1953-cü il** tarixli ingiliscə məktub. Vilyam H. Çemberlen tərəfindən M.Ə.Rəsulzadəyə yazılıb.

**24)** İstanbul. **19.11.1953-cü il tarixli** M.Ə.Rəsulzadəyə məktub: a) göndərdiyi pul; b) məhkəmədə şahidlik etməsi. Müəllifi bilinmir.

**25) 20.07.1954-cü il tarixli** türkcə məktub. Yusif Qəhrəmanoğlu tərəfindən M.Ə.Rəsulzadəyə yazılıb. "Paris Bloku" ilə bağlı "Mərkəz"ə qatılıb-qatılmaması ilə ilgili M.Ə.Rəsulzadənin fikri soruşulur.

**26) 18.11.1954-cü il** tarixli türkcə məktub. Həmdullah Sübhi bəyə yazılıb. "Türk Yurdu"nun İstanbula daşınması və ilk sayının göndərilməsinə təşəkkür ilə bağlıdır.

**27) 18.11.1954-cü il tarixli** məktub. Osmanlıcadır. Kimə yazıldığı bilinmir. Kimliyi müəyyən edilməyən şəxslə dostluqdan bəhs edilir.

**28)** Tehran, **24.01.1955-ci il** arixli türkcə məktub.M.Ə.Rəsulzadənin 16.12.1954-cü il tarixli məktubuna Əjdər Qurtulan, Adil Axundzadə və Əli Azərlinin verdiyi cavab məktubu və Türkiyə Cümhuriyyəti Maarif Vəkalətinə ərizəsidir. Bu ərizədə o, İranda yaşayan

azərbaycanlıların Türk Kültüründən uzaq olmalarının diqqətə alınmasını Maarif Vəkalətindən xahiş edir.

**29)** Tarixsiz, **ingiliscə yazılan bu məktubda** M.Ə.Rəsulzadəyə yazısının çap edilməyəcəyinə dair Nyu-Yorkdan "Colliers" şirkətinin verdiyi cavabdır.

**Qeyd:** *Bu məktublarla bağlı məlumatlar* ***Səbahəddin Şimşirin*** *1995-ci ildə Ankarada nəşr edilən* ***"Mehmet Emin Resulzadenin Türkiyedeki heyatı, fealiyyetleri ve düşünceleri"*** *kitabından götürülüb. Məktubların isə* ***professor Dr. Fikrət Türkmənin*** *şəxsi arxivində olduğu bildirilir.*

## VI.Həmdullah Sübhi Tanrıövərə göndərdiyi məktublar

1. Məktub Parisdən **29 mart 1930-cu** ildə yazılıb.
**2.** Məktub Varşavadan **4 may 1930-cu** ildə yazılıb.
**3.** Məktub Varşavadan **20 may 1930-cu** ildə yazılıb.

Bu məktublarda Paris konsulluğunun ona viza verməsaid, Ankaradan verilən göstəriş əsasında belə davranıldığı, özünün Türkiyəyə gəlib yaşamasında sıxıntılar varsa, bunun açıqca söylənməsini istədiyi bildirilir.

Bu məktublarla bağlı geniş məlumatlar Yücəl Hacaloğlunun **"Rəsulzadədən Tanrıövərə məktublar"** yazısında verilib. Bax: ***"Türk Dünyası Araşdırmaları", avqust 1997-ci il, s. 109.***

## VII. Məhəmməd Kəngərlinin arxivində olan məktublar



**1.** Məktub **1948-ci ilin yanvarın 2-də** legioner Heydər Ataka Ankaradan yazılıb. Bildirilir: hökumətin Avropadakı azərbaycanlıların Türkiyəyə getməsi ilə bağlı qərar verməsi, tezliklə köçürülmələrin başlanması, antikommunist aksiyalarda iştirakın vacibliyi, istiqlal qayəsinin unudulmaması və s.

**2.** Məktub **1951-ci ilin dekabrın 10-da** dostu Fuad bəyə yazılıb. Bildirilir: "Nüsxələrin çap olunması üçün "Müsavat Partiyası"nın bir bəyanatının göndərilməsi, türkcə, rusca və ingiliscənin yaxın günlərdə göndəriləcəyinin bildirilməsi".

**VIII. Digər məktublar**

**1.** M.Ə.Rəsulzadənin Azərbaycan nümayəndə heyəti adından Xarici İşlər Naziri M.H.Hacınskiyə göndərdiyi **1918-ci ilin 6 avqustunda – 18 saylı** məlumatında bildirilirdi: "Xarici İşlər naziri cənab Məmməd Həsən Hacınskiyə. Mən bir daha Tələt Paşa və Ənvər Paşa ilə görüşdüm. Sual çox qaranlıq idi, indi hər şey keçdi, onlar mənə ümid verdilər. Mən alman səfiri Berisdorfolmla görüşdüm. Bakının neytral olması xəbərini qəzetə məlumat verən Tiflis nümayəndəliyindəki bir məmurdan öyrəndim... Hər ehtimala qarşı Bakı məsələsi əhəmiyyət kəsb edir. Və almanlar bolşeviklərə tam əzab vermək istəmirlər. Lakin nə olursa-olsun, Siz Bakını almalısınız. Qoy hər kəs fakt qarşısında qalsın. Əgər bu baş tutarsa, iş tamam başqa xarakter alar. Bolşeviklər vuruşacaqları ilə qorxuda bilərlər, lakin güman edirəm ki, onlar vuruşmayacaqlar. Onlar hazırda daxili həyəcan içindədirlər. Ənvər Paşa axır vaxtlar guya almanların, ingilislərin Bakıya gəlişi ilə razılaşmağa başladığını bildirir. Mən bunu səfirlə xüsusi görüşlərimdən də başa düşdüm. Azərbaycanın səlahiyyətli nümayəndəliyinin sədri – Məhəmməd Əmin Rəsulzadə" .

**2.** M.Ə.Rəsulzadənin **1918-ci ilin sentyabrında İstanbuldan Nazirlər Şurasının Sədri F. Xoyskiyə** göndərdiyi məktubdan:"Siyasi mənzərə tamamilə dəyişib. Vilsonun prinsipləri əsasında sülh təklif edilib. Konfrans baş tutmayacaq. Ermənilər Qarabağı tələb edirlər. Avropada mütləq gecikmədən təbliğat lazımdır. Biz gəlməyə hazırlaşırıq. Əlimərdan bəy Avropaya gedir".

**Qeyd:** *Bu məktublar N.Yaqublunun 1997-ci ildə nəşr edilmiş **"Müsavat Partiyasinin tarixi"** kitabında çap olunub.*

**3. Məktub 1940-cı ilin iyunun 19-da Vəkil Müstəcib Ülküsala** (Rumıniyada, güney Dobrucada, Bazarcıq şəhərində türklərin yaşadığı yerdə "Əməl" dərgisini çıxaran şəxs) yazılıb.

Bildirilir: "Hadisələr necə əks istiqamətdə inkişaf etdi? Heyrət etmək vərdişində olmayanlar belə indi heyrətlər içində qaldılar. Qoca Fransanın qısa bir zamanda amana gəldiyini görüncə, sentyabr faciəsi əsnasında zavallı polyakları tənqid edənlər hökmən ibrət almışlar. Baxalım daha nələr olacaq? İngiltərə "mücadiləni yürüdəcəyəm" deyir. Fəqət Almaniyanı qitədə yıxaraq parçalayacaq qüvvət haradır? Rusiyamı? London Moskva ilə təkrar kur yapmağa (eşqbazlığa) başladı. Ancaq Rusiyanın qurtaracağı bir vəziyyət varmıdır? Uzun bir mücadilə Qərb dövlətləri kimi Almaniyanın da bitap (yorğun) düşəcəyini təxmin edən Stalin də aldanmışdır. Baxalım hadisat nə göstərir? Hər halda,

tarixdən, çox da kəsdirə bilməyən yollarla da olsa, hadisələrin sonunu milli qayələrimiz üçün əlverişli bir şəklə qoymasını təmənni edəlim".

***Bax: Müstəcib Ülküsəl. "Krım yollarında bir ömür xatirələr". Ankara, 1999-cu il.***

**4. Məktub tanınmış mühacir, "Azərbaycan Milli Mərkəzi"nin katibi Abbas Atamalıbəyova** 1937-ci ilin 6 oktyabrında Varşavadan yazılıb. Məktubda "Müsavat" Partiyasının "Milli Mərkəz"dəki təmsilçilik heyətində dəyişiklik etməsi qərarı haqqındadır. Bildirilir ki, Mustafa Vəkilli və Əhməd Cəfəroğlu Partiya Divanının qərarı ilə "Milli Mərkəz"də təmsil olunmurlar.

**5. Məktub Polşa rəsmisi İ.Skarjinskiyə 1936-cı ilin avqustunda yazılıb. "**Müsavat" Partiyasının Varşavada keçirilən konfransının materiallarının göndərilməsi haqqındadır.

# İSTİNTAQ MATERİALLARI




Azərbaycanın görkəmli dövlət xadimi, ilk demokratik Azərbaycan dövlətinin banisi M.Ə.Rəsulzadə öz siyasi fəaliyyəti dövründə həm də **söz və mətbuat azadlığı uğrunda** mübarizə aparıb. Daim təqiblərə məruz qalan M.Ə.Rəsulzadə çar Rusiyası dövründə mətbuat üzərində senzuraya qarşı da ciddi etirazını bildirib.

M.Ə.Rəsulzadənin söz və mətbuat uğrunda mübarizəsi ayrıca və geniş bir mövzudur. İlk məqaləsini **1903-cü ilin mayında "Şərqi-Rus" qəzetində** nəşr etdirdikdən sonrakı dövrlərdə o, azad sözün, azad fikrin müdafiəçisi olaraq mücadilə aparıb. O, eyni zamanda yazılarında mətbuat azadlığını yüksək dəyərləndirib, mənalı fikirlər səsləndirib. O, bu dəyərli fikirlərini hələ 1910-cu ilin avqustun 23-dən Tehranda nəşr etdiyi "İrani – Nov" qəzetindəki "Mətbuat azadlığı" məqaləsində əks etdirib. Həmin məqalədəki fikirlər mətbuat və söz azadlığının mahiyyətinin öyrənilməsi baxımından bu gün də əhəmiyyətlidir.

**1915-ci ilin mayında M.Ə.Rəsulzadənin redaktorluğu ilə nəşr edilən "Yeni İqbal" qəzetində gedən bir məlumatın qəzet səhifəsindən çıxarılması onun ciddi narazılığına səbəb olur.**

**Həbsinin əsas səbəbi nə idi?**
**1853 saylı istintaq işinin ittihamları**

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Tarix Arxivinə məxsus olan **398 saylı qovluğunda** ciddi sənədlər tapmaq mümkündür. Bu sənədlər M.Ə.Rəsulzadənin istintaq materialları ilə bağlıdır. Məlum olur ki, M.Ə.Rəsulzadə Bakı şəhər rəisinin **1915-ci ilin mayın 19-da** qəbul etdiyi qərarına uyğun həbs olunub. Qərarda onun həbsinin 23-cü maddəyə əsasən hərbi vəziyyət elan edilmiş yerlərdə ictimai qaydaları pozduğu bildirilir. Bu ittiham əsas götürülərək **M.Ə.Rəsulzadə Bakı həbsxanasına salınır.** Qeyd etdiyimiz kimi, M.Ə.Rəsulzadə **"Yeni**

**İqbal” qəzetində** bir yazının hərbi senzura tərəfindən çıxarıldığına etirazını sərt ifadə etdiyinə görə həbs olunur.

## Hərbi – senzor Ledoxovskinin izahat – ittihamı


№ 2712
По докладу Главному Начальнику Кавказского военного округа на театр военных действий
Секретно
Прокурору Бакинского Окружного суда. –
№ 59-1915.
В виду предполагаемой высылки в административном порядке из пределов Кавказского края содержащегося под стражей в Бакинской тюрьме Мамед Эмин Расул Заде, прошу Ваше Высокородие не отказать сообщить, не встречается ли со стороны судебных или следственных властей законных

**Bakı şəhər rəisi Martınov** istintaqa verdiyi yazılı məlumatda qeyd edilir ki, Hərbi senzor Ledoxovskinin ifadəsinə əsasən M.Ə. Rəsulzadə 1915-ci ilin mayın 11-də axşam saatlarında Bakı şəhər poçt – teleqraf idarəsinin binasına daxil olub, burada yerləşən hərbi senzuranın otağında senzor İmamverdibəyova sərt şəkildə etirazını bildirib. M.Ə.Rəsulzadə “Yeni İqbal” qəzetində çap edilən, Bakı Quberniyası Xalq Peşə məktəbinin direktoruna aid olan bir məlumatı səhifədən çıxdığına görə digər senzorların – İ.A.Məlikov və V.K.Freydin yanında **İmamverdibəyovun** üstünə qışqırıb.

İttihamda bildirlir ki, elə həmin **axşam saat 20:00-da M.Ə. Rəsulzadə qraf Ledoxovskinin** mənzilinə gedib, yazının qəzetdən çıxarılmasını ona da bildirib. Qraf Ledoxovski məhz onun tapşırığı ilə yazının çıxarıldığını dedikdə, M.Ə.Rəsulzadə onunla yüksək səslə və acıqlı danışıb. Bundan sonra Ledoxovski Bakı şəhər rəisindən onun cəzalandırılmasını tələb edib.

## M. Ə. Rəsulzadə üzr istəməyib

Qraf Ledoxovskinin təqdimatından sonra M.Ə.Rəsulzadə Bakı şəhər rəisi Martınovun idarəsinə çağırılıb. Şəhər rəisi ona gedib Ledoxovskidən üzr istəməsini təklif edib və bildirib ki, əgər o, bu addımı atarsa,vəziyyətdən çıxış yolu tapılar.**Lakin M.Ə.Rəsulzadə Martınovun bu təklifini qəbul etməyib**, kəskin şəkildə ona etirazını bildirərək, özünün haqlı olduğunu qeyd edib. Məhz bundan sonra şəhər rəisi Martınov M.Ə.Rəsulzadənin üzr üstəmədiyini görüb onun həbs edilməsi haqqında göstəriş verib.

## İstintaq protokollarından məlumatlar



ПОСТАНОВЛЕНІЕ.

1915 года, мая "19" дня. Я, и. д. Бакинскаго Градоначальника, принимая во вниманіе имѣющіяся у меня свѣдѣнія о вредной для общественнаго порядка и спокойствія дѣятельности сотрудника Татарской газеты "Ени-Икбалъ", жителя гор. Баку Мамеда Эмина Расулъ Заде,- Постановилъ: вышеназваннаго Мамеда Эмина Расулъ Заде, на основаніи ст. 23 /примѣчаніе/ правилъ ...ю мѣстностяхъ, объявленныхъ на военномъ положеніи, ... въ отдѣленіе Бакинско...

Qeyd edək ki, M.Ə.Rəsulzadənin həbsi ilə bağlı tərtib edilən protokolda maraqlı məlumatlar var. Əslində bu məlumatlar onun siyasi fəaliyyətinin öyrənilib araşdırılması baxımından olduqca faydalıdır. Bu məlumatlarda onun cəmiyyət üçün **"zərərli"** olması xüsusi vurğulanır. Qeyd edilir ki, o, Əhməd bəy Ağaoğlunun "zərərli" istiqaməti ilə seçilən **"İrşad" qəzetinin əsas əməkdaşı** olub. Eyni zamanda o, "Hümmət" Partiyasının fəalı kimi də vaxtı ilə iki dəfə axtarışa verilib, lakin **İranda** gizləndiyindən həbsi mümkün olmayıb. Tehranda isə o, "İrani – Nov" ("Yeni İran") qəzetini nəşr edib və bu qəzetdə Rusiya hökumətinə qarşı narazılıq yaratmağa çalışıb. Bu fəaliyyətinə əsasən **Tehrandakı Rusiya səfirinin tələbi ilə İrandan çıxarılıb, gizli olaraq "Gənc Türklər"in tapşırığı ilə Bakıya gəlib, buradan isə Türkiyəyə gedib.** Türkiyədə o, Rusiya əleyhinə "Tanin" qəzetində çalışıb. 1913-cü ildə Rusiyada Romanovlar sülaləsinin hakimiyyətdə olmasının 300 illiyi ilə bağlı ümumi bağışlama olur. Bu bağışlamadan sonra M.Ə.Rəsulzadə Bakıya qayıdır, **"İqbal" qəzetində çalışır.**

M.Ə.Rəsulzadənin həbsi ilə bağlı hazırlanmış istintaq protokolunun sonunda qeyd edilir ki, o, məhdud vəsaitə malikdir. Lakin müsəlmanlar arasında böyük nüfuzu var və o, "Müsəlman Xeyriyyə Cəmiyyəti"nin katibidir.

### Həbsxanada axtarış aparılıb

**1915-ci ilin iyunun 6-da** M.Ə.Rəsulzadə həbsxanada saxlanılarkən Bakı şəhər Xüsusi Jandarm Korpusunun Rotmistri Lixovskinin rəhbərliyi ilə və tərcüməçilər  Rzabəyovun, Məlikyeqanovun iştirakı ilə onun yazılarına baxış keçirilir.Müəyyən edilir ki, bu yazılar şəxsi xarakterdədir və heç bir gizlilik daşımır. M.Ə.Rəsulzadə ilə bağlı araşdırmalar aparıb əsaslı faktlar əldə edə bilməyən hökumət orqanları onun həbsdə saxlanılmasının heç bir hüquqi əsas daşımadığı qənaətinə gəlirlər.

## Həbsxanadan azad edilir

**1915-ci ilin 25 iyulunda** Xüsusi İdarə rəisinin yazılı məlumatında (N2712) M.Ə Rəsulzadənin həbsdən azad olunması bildirilir. Həmin ilin iyulun 25-də Bakı şəhər rəisi polkovnik Martınov Bakı həbsxanası rəisinə **3788 saylı məxfi məlumatında M.Ə.Rəsulzadənin başqa cinayətləri olmaması halında azadlığa buraxılmasına göstəriş verir.**

Beləliklə, M.Ə.Rəsulzadə söz və mətbuat azadlığını müdafiəsinə görə iki aydan çox həbsxanada qalır. Öz xalqının istər siyasi, istərsə də mətbu və söz azadlığı uğrunda yorulmadan mübarizə aparan, təqiblərlə dolu ömür yaşayan M.Ə.Rəsulzadə beş il sonra 1920-ci ilin avqustunda yenidən həbs edilir, Bakı həbsxanasına salınır. Bu dəfə isə o, söz və mətbuat azadlığına görə yox, Azərbaycan İstiqlalı uğrunda apardığı mübarizəyə görə həbs olunur.

# ƏLEYHİNƏ YAZILANLAR

**Çar Rusiyası dövründə**

M.Ə.Rəsulzadənin Azərbaycanın müstəqilliyi uğrunda apardığı mübarizə həbslər, təqiblərlə yanaşı həm də üstünə atılan böhtanlar, şantaj və yalan iftiralarla da müşahidə edilib.

Ona qarşı olan belə hücumlardan birinin təşkilatçısı **Stepan Şaumyan idi. 1917-ci ilin dekabrın 16 (29)-da** Lenin tərəfindən Qafqaz İşlər Üzrə Müvəqqəti Fövqəladə Komissar təyin edilən, 1918-ci ilin Mart hadisələri zamanı Bakının və ətraf rayonların İnqilabi Müdafiə Komitəsinə başçılıq edən **Şaumyan 1918-ci ilin 17 fevralında "Bakinskiy Raboçiy" qəzetində "Vətəndaş Rəsulzadəyə cavab" yazısında** öz xəyanətkar mövqeyini açıqladı. M.Ə.Rəsulzadənin irəli sürdüyü Azərbaycan muxtariyyəti ideyasına qarşı barışmaz mövqe tutan Şaumyan yazırdı: "Tutaq ki, Rəsulzadənin özü inqilabi qayda-qanunun


БАКИНСКІЙ РАБОЧІЙ


пролетаріата русской революціи и в его вѣрный классовой инстинкт; вы вмѣстѣ со своими союзниками из „Нашего Голоса" в него не вѣрите.

Русскій пролетаріат вмѣстѣ с товарищем Троцким заявляет, что „положеніе революціи не будет прочно, пока мать соціалистическая республика не будет окружена кольцом дочерей и сестер соціалистических республик".

...ово за европейским пролетаріатом. Дѣло русской революціи, дѣло русскаго народа в вѣрных руках— в руках мірового пролетаріата.

Ближайшее будущее покажет, насколько мы были правы...

В. Н.

**Отвѣт гр. Расул-Заде.**

Письмом в редакцію газ. „Извѣстія" гр. Расул-Заде отвѣчает нам на статью по поводу его рѣчи в Исп. Комитетѣ. Прежде всего нужно сказать: Расул-Заде не добросовѣстный противник, приписывая нам то, чего мы и не высказывали, одновременно скрывая то, что он сам говорил.

*"Bakinskiy Raboçiy" qəzetində S.Şaumyanın M.Ə.Rəsulzadənin əleyhinə olan cavab yazısı, 1918-ci il 17 fevral*

bərpası naminə milli polkların təşkilində şəxsən iştirak etsin, tutaq ki, onun obyektiv niyyətləri büllur kimi safdır, lakin obyektiv surətdə onun fəaliyyəti əks nəticə verəcəkdir, ona görə ki, sinfin siyasəti bu və ya digər şəxsiyyətin yaxşı niyyətlərindən deyil, sinfi niyyətlərindən irəli gəlir. Elə

buna görə də "Müsavat" Partiyasının nə kimi proqramı olmasına o qədər də əhəmiyyət vermirik...

**Yox, vətəndaş Rəsulzadə**, Qafqazı xarabalığa biz deyil, Siz çevirəcəksiniz. Siz artıq onu xarabalığa çevirirsiniz...

...Vətəndaş Rəsulzadə, Sizə elə gəlir ki, bolşeviklərin Ermənistana və azərbaycanlılara münasibəti müxtəlifdir. Lakin Siz dərindən və çox yanılırsınız...

**Vətəndaş Rəsulzadə, indi Sizin üçün də aydın olmalıdır ki,** "qayda-qanun" deyəndə Siz məhz burjua-mülkədar "muxtariyyəti"ni, burjua Romanov qayda-qanununu nəzərdə tutursunuz. İndi Sizin üçün də aydındır ki, Siz polkları (alayları) şahsevənlərə qarşı mübarizə üçün təşkil etmirsiniz, çünki onlar heç də Sizə "bir yığın xarabalıq bahasına" qayda-qanun yaratmaqda mane olmurlar, əksinə bir yığın xarabalığın köməyi ilə öz qayda-qanunuzu yaratmaqda yardım göstərirlər"

***"Bakinskiy Raboçiy", 1918-ci il 17 fevral.***

**Qeyd:** *M.Ə Rəsulzadə isə mənsub olduğu "Müsavat" Partiyasını daima tənqid edən Şaumyanın məkrli mövqeyini ifşa edirdi. Qeyd edirdi ki, 1918-ci ilin Mart hadisələri zamanı Bakının və ətraf rayonların İnqilabi Müdafiə Komitəsinə başçılıq edən Şaumyan günahsız azərbaycanlıların qətliamında bilavasitə məsuliyyət daşıyırdı.*

## M.Ə.Rəsulzadənin əleyhinə sovet Azərbaycanında təbliğat



Mysavatcь qontrrevolysionerlər Azərвajçan xalqьnьn qəddar dyşmənləridir

Azərbaycan işğal edildiyi ilk günlərdən – 1920-ci ilin 28 Aprelindən başlayaraq bolşeviklər M.Ə.Rəsulzadənin, onun lideri olduğu "Müsavat" Partiyasının əleyhinə təbliğat aparıblar. Azərbaycan Kommunist Partiyasına başçılıq edənlər, Azərbaycan hökumətinin rəhbərliyində təmsil olunanlar öz çıxışlarında, yazılarında M.Ə.Rəsulzadəni və "Müsavat"ı hədəf götürüblər. Azərbaycanlı kommunistlər – N.Nərimanov, Ə. Qarayev, M.D.Hüseynov, M. C. Bağırov, AKP-nin Baş katibi Polonski, Baş katib Mirzoyan bu sahədə böyük

fəallıq göstəriblər. Tanınmış bolşevik S.Q.Orconikidze isə Bakıda çıxış edərkən bildirmişdi: **"Mənim cibimdə M.Ə.Rəsulzadənin kitabı var. Müsavatın lideri tələb edir ki, yoldaş - ruslar Azərbaycanı tərk etsinlər. Yox, onlar burdan getməyəcəklər".**

1920-30-cu illərdə Bakıda və Moskvada nəşr edilən "Kommunist", "Bakinskiy Raboçiy", "Pravda" qəzetləri M.Ə.Rəsulzadəyə və müsavatçılara qarşı yönələn yazılara üstünlük verirdi.

O dövrdə Sovet İttifaqı Kommunist Partiyasına başçısı İ.V.Stalin isə Azərbaycan kommunistlərinə M.Ə.Rəsulzadənin əleyhinə təbliğat aparılması üçün xüsusi təlimat göndərmişdi.

***Bax:N.Yaqublu. "Müsavat Partiyasının tarixi". Bakı, 1997-ci il.səh.162-164.***

## Sovetlər Birliyi - SSRİ (Sovet Sosialist Respublikalar İttifaqı) dövründə M. Ə. Rəsulzadəyə və onun başçılıq etdiyi "Müsavat" Partiyasının əleyhinə yazılmış kitablar

**Azərbaycan türkcəsində:**

1. Ratqauzer Y. Şura Azərbaycanı uğrunda mübarizə. B., 1920.
2. Rayevski A. Müsavat firqəsi və onun əksinqilabçılığı. B., 1929.

**Rus dilində:**

1. Karayev A. İz nedavnoqo proşloqo. B., 1923.
2. Quliyev M. Vraqi Oktyabrya v Azerbaydjane. B., 1927.
3. Quseynov M. D. Tyurkskaya demokratiçeskaya partiya federalistov "Musavat" v proşlom i nastoyaşem. B., 1927.
4. Rayevskiy A. Anqliyskaya intervensiya i musavatskoe pravitelstvo. B., 1927.
5. Steklov A. Armiya Musavatskoqo Azerbaydjana. B., 1928.
6. Karayev A. Bakinskiy proletariat i Azerbaydjanskaya derevnya. B., 1929.
7. Rayevskiy A. Musavatskoye pravitelstvo na Versalskoy konferenskiy. Doneseniye predsedatelya Azerbaydjanskoy Musavatskoy deleqatsiy. B., 1931.
8. Pçelin N. Krestyanskiy vopros pri Musavate (1918-1920). B., 1931.
9. Tokaryevskiy A. İz istorii inostrannoy interventsiy i qrajdanskoy voynı v Azerbaydjane. B., 1957.

## Bolşeviklərin ittihamlarına cavabı

**M.Ə.Rəsulzadə əleyhinə yönəlmiş bolşevik ittihamlarına** sistemli və əsaslı olaraq cavablar vermişdir. Onun mühacirətdə nəşr etdiyi "Yeni Qafqasiya", "Azəri-Türk", "Odlu-Yurd", "Qurtuluş" jurnallarında, "İstiqlal" qəzetində bolşevizmin işğalçı mahiyyətini ifşa edən çoxlu sayda yazılara rast gəlmək mümkündür.

M.Ə.Rəsulzadənin Türkiyədə, Almaniyada, Polşada müxtəlif dillərdə nəşr etdirdiyi aşağıdakı kitablarda sovet rejimi kəskin tənqid edilir, sovet imperiyasının müstəmləkə siyasətinin əsil mahiyyəti açıqlanırdı: **1)** "Azərbaycan Cümhuriyyəti", İstanbul,1923; **2)** "Rusiyada siyasi vəziyyət",İstanbul, 1925; **3)** "Milliyyət məsələsində bolşevik nəzəriyyatı ilə əməliyyatı" ("Milliyyət və bolşevizm" məqalələri toplusu), İstanbul,1928; **4)** "Bolşeviklərin Şərq siyasəti" ("Milliyyət və bolşevizm" məqalələr toplusu),İstanbul, 1928; **5)** "Azərbaycan müstəqillik uğrunda mübarizədə", Varşava, 1928.

**Mühacirətdə əleyhinə yazılan kitablar – "Yıxılan bütlər", "Biz və onlar"**

1.Rüstəmbəyli Ş.Yıxılan bütlər. İstanbul, 1933.
**2**. Rüstəmbəyli Ş. M.Ə.Rəsulzadənin faciəvi süqutu. İstanbul, 1935.
**3.**N. Şeyxzamanlı. Biz və onlar. Milli Məcmuə mətbəəsi, 1934.

Mühacirət həyatının ağır şərtləri daxilində yaşayan azərbaycanlılar arasında fikir müxtəlifliyi, ziddiyyətlər bəzi hallarda özünü göstərirdi. "Müsavat"ın Xarici Bürosu rəhbərliyində təmsil olunan Şəfi bəy Rüstəmbəylinin, Xəlil bəy Xasməmmədovun, Mustafa bəy Vəkilovun, partiya üzvü Nağı Şeyxzamanlının, sonralar Fuad Əmircanın M.Ə.Rəsulzadəyə qarşı ziddiyyətli münasibətləri olmuşdu.

1934-cü ildə Şəfi bəy Rüstəmbəyli **"Yıxılan bütlər",** Nağı Şeyxzamanlı isə **"Biz və Onlar"**kitabını nəşr etdirmişdi. Həmin şəxslər Partiyanın nizam və qaydalarına tabe olmaqdan imtina etmiş, müstəqil çalışacaqlarını bildirmişdilər.Onlar M.Ə.Rəsulzadənin Parisə gedib Ə. M. Topçubaşovla danışıqlar aparmasına qarşı çıxmış, onu "İrana ayrılan pulları özündə saxlayır" kimi ittihamlarla ləkələməyə cəhd etmişdilər. (Sonradan məlum olmuşdu ki, M.Ə.Rəsulzadə ayrılan pulları vaxtında İrana göndərmiş və bu haqda təsdiqləyici sənədlər də vardır).

**M.Ə.Rəsulzadə təəssüflə bildirirdi: "Yetər ki, biz bizə düşmən olmayalım; yetər ki, hürriyyət və istiqlal eşqi ilə yanan biz məfkurəçilər xeyir ilə şəri ayırd edəlim".**

## Mühacirətdə əleyhinə yazılanlara cavabı – "Şəfibəyçilik"


M. E. RESUL-ZADE

ŞEFİBEYCİLİK

Bozğunçu Şefi Beyin „neşriyat" ve „ifşaatı" dolayısile efkâri umûmiyeyi tenvir.

1934

Bu ittihamları cavablandırmaq məqsədi ilə M.Ə.Rəsulzadə **"Şəfibəyçilik"** kitabını yazıb nəşr etdirdi.

M.Ə.Rəsulzadə əleyhinə yazılan əsassız ittihamlara belə cavab verirdi: "Mühacirəti dağıtmaq – budur bolşeviklərin gözə aldıqları aktual məsələlərdən biri... Düşmən bunu istəyir. O, istəyir ki, biz dağılalım, aramızda təsanüd və birlik qalmasın.

...Unutmayalım ki, yolumuz hürriyyət və istiqlal yolu, qayəmiz yüksək və müqəddəsdir. Şəhidlər məzarları ilə sərilmiş bir yoldan gedirik. Düşməni sevindirmək haqqında deyilik; fitnədən qorunmaq vəzifəmizdir.

Mühacirət əfradı(fərdlər) üzərində nüfuzu olan vətəndaşların ən böyük vəzifəsi fitnəni görmək və qafilləri oyadaraq düşmən tuzağını (hiylə) özlərinə göstərməkdir!"

***M.Ə.Rəsulzadə.Şəfibəyçilik.1934***

## Tanınmış mühacir Fuad Əmircanın etirafı



Azərbaycan istiqlal mübarizəsinin sınanmış davamçısı, Türkiyədə "Azərbaycan Milli Mərkəzi"nin başqanı olmuş **Məhəmməd Kəngərli** yazır ki, bu adamların çoxu sonradan həqiqəti anlayır, peşimançılıq hissi keçirir və səmimi etiraflarla qayıdıb yenidən M.Ə.Rəsulzadə ilə birgə fəaliyyətlərini davam etdirirdi.

Azərbaycanın tanınmış mühacirlərindən biri, "Azərbaycan Milli Komitəsi"nin Başqan yardımçısı, Berlində çıxan Azərbaycan legionerlərinin "Azərbaycan" qəzetinin məsul redaktoru olmuş **Fuad Əmircanın (O, AXC dövründə(1918-1920) Maliyyə Naziri vəzifəsində çalışmış Əbdüləli Əmircanovun oğludur) etirafı:** "Mənim vaxtı ilə M.Ə.Rəsulzadə bəyə və müsavatçılara qarşı aldığım vəziyyət heç kimsədən gizli deyildir və bunu heç bir zaman inkar etmədim. Fəqət,

kürreyi-ərz üzərində dürüst heç bir insan mənim və vətəndaşların şəxsləri əleyhinə və ya vətənpərvərlik və ya milliyyətçiliklərindən şübhə edəcək bir tək kəlmənin belə ağzımdan çıxdığına dair bir tək misal göstərə bilməz...

Mən vaxtı ilə müsavatçıların və M.Ə.Rəsulzadənin mühacirətdəki taktikalarını doğru anlamadığım üçün onlarla uyuşa bilmirdim.

**Bu gün onlara dostanə əl uzatdımsa, bundan qızaracaq bir insan deyiləm, zira Avropa kitabxanalarını dolaşıb Azərbaycana aid hər əsərin mühacirətdə yalnız onlardan çıxdığını gözlərimlə gördükdən,** başqalarının ancaq fürsət zühur etdikcə və ya işlərinə gəldikcə milli fəaliyyətdə məşğul olduqları halda onların intizamlı, mütənasib, davamlı və fəal bir surətdə özlərini tamamilə bu işə verdiklərini müşahidə etdikdən və milli yolda sapsağlam durduqlarına... bütün mövcudiyyatımla inandıqdan sonra... proqramları, xətti-hərəkətləri aydın olan və üstəlik milli yoldakı mövqeləri uzun təcrübələrlə sınanan bu qrupla işbirliyi edəcəyim aşkardır".

***M. Kəngərli. Fuad Əmircan. "Azərbaycan" jurnalı, Ankara, N304, 1995-ci il.***

## Azərbaycanda, müstəqillik dövründə əleyhinə yazılanlar

**1993-cü ilin oktyabrında** keçirilən yeni prezident seçkilərindən sonra Azərbaycan Milli Qurtuluş Hərəkatının böyük ideoloqu, müstəqil-demokratik dövlətimizin banisi M.Ə.Rəsulzadəyə qarşı haqsız hücumlar başlanıldı. Tarixi saxtalaşdırmaq məzmunu daşıyan bu hücumlara "Müsavat" Partiyası öz kəskin bəyanatı ilə cavab vermişdi. **1993-cü ilin 30 oktyabrında** çap edilən bəyanatda bildirilirdi: "Azərbaycanın milli-azadlıq hərəkatı və istiqlalı tarixində görkəmli rol oynayan ən böyük şəxsiyyətlərdən biri M.Ə.Rəsulzadədir. Milli tariximizdə demokratik prinsiplərə əsaslanan ilk müstəqil dövlətimizin yaradılması məhz M.Ə.Rəsulzadənin adı ilə bağlıdır... Azərbaycanın azadlığı yolunda böyük xidmətlər göstərmiş M. Ə. Rəsulzadəyə qarşı indiki iqtidar soyuq və ögey münasibət göstərir. Bu təsadüfdürmü? 70 ilin qadağanından sonra Vətənində adı ucalan bu görkəmli şəxsiyyətə yenidən hücumlar təşkil olunur, idarələrdən, binalardan şəkilləri götürülür... Acınacaqlıdır ki, bu xoşagəlməz addımlar dövlət səviyyəsində atılır. Əgər bu zərərli meyl vaxtilə iqtidardakı müsavatçılara qısqanclıqlan başlamışdısa, indi artıq ideoloji təxribat səviyyəsinə çatdırılıb. İnanmaq istərdik ki, indiki iqtidar milli tariximizə, tanınmış şəxsiyyətlərimizə ögeylik meyilindən uzaqlaşacaq və xalqımızın görkəmli oğlu, **Azərbaycan Demokratik Respublikasının banisi Məhəmməd Əmin Rəsulzadənin adının uca tutulmasına mane olmayacaqdır".**

**1995-ci ildə iqtidar mətbuatında və ayrı-ayrı şəxslər tərəfindən M. Ə. Rəsulzadəyə qarşı əsassız hücumlar davam edirdi.** 1995-ci ilin 13 yanvarında **R.Ağayev** "Açıq söz" qəzetində "ADR başçılarının ölkənin qızıl

fondunu xaricə aparmaları” barəsində fikirlər söyləmişdi. Bu saxta və əsası olmayan, birbaşa Müsavata, istiqlal tariximizin yaradıcılarına ünvanlanan böhtanları rədd etmək üçün partiya məhkəməyə müraciət etmişdi. **1995-ci ilin mayın 30-da başlanan məhkəmə prosesi** bir müddət davam etmiş, **R. Ağayevin fikirlərinin qeyri-hüquqi və sənədlərə, faktlara əsaslanmadan** (əslində heç belə sənədlər mövcud deyildir – N. Y.) yazıldığı sübuta yetirilsə də, hakim qanunsuz qətnamə qəbul etmişdi. Qətnamədə bildirilirdi: “Tərəflərin izahatını dinləyərək, toplanmış sübutlara qiymət verərək məhkəmə hesab edir ki, iddia aşağıdakı əsaslara görə təmin edilməməlidir. Belə ki, məhkəmə iclasında iddiaçının nümayəndələri öz izahatlarında göstərirlər ki, 1918-20-ci illər – Azərbaycan Demokratik Respublikasının Parlamentində əksəriyyəti müsavatçılar təşkil edirdilər. Cavabdeh ADR-in liderləri deməklə “Müsavat” Partiyasını nəzərdə tutub. Məhkəmə iddiaçının bu cür izahatları ilə razılaşa bilməz: “Назовите мне любой другой период, который был бы более плодотворен для Азербайджана. Мусаватистский что ли…» (“Mənə Azərbaycan üçün faydalı olan istənilən başqa bir dövr deyin. Müsavatçıların dövrünümü deyirsiniz...)”. Cavabdeh tərəfindən deyilmiş fikirlər məhkəmədə belə qiymətləndirilir ki, ADR tarixində Müsavat dövrü həmin dövrdə ADR liderlərinin əksəriyyətini “Müsavat” Partiyasının üzvləri olduqlarına görə məhz belə adlandırırlar. Lakin məqalədə - ADR liderləri dedikdə məhz müsavatçı və yalnız “Müsavat” deyil, digər partiya nümayəndələri nəzərdə tutulur. Digər tərəfdən məqalədə partiya yox, ADR liderləri, yəni respublikanı idarə edən, rəhbər vəzifələrdə işləyən şəxslər nəzərdə tutulur. Belə olan halda “Müsavat” Partiyasının iş üzrə iddiaçı kimi tanınması düzgün deyil”.

Qətnamədə Mülki-Prossesual Məcəllənin **195, 198 və 200-cü maddələrinin** tələbləri ciddi surətdə pozulmuş, prosesin əvvəlindən isə jurnalistlərin videoçəkiliş aparmasına razılıq verilməmişdi.

**Hakimin qeyri-qanuni 5 iyun 1995-ci il tarixli qətnaməsi ilə** bağlı “Müsavat” Partiyası Bakı şəhər məhkəməsinə müraciət etmişdi. Kassasiya şikayətinə baxan Bakı şəhər məhkəməsi Mülki İşlər üzrə Kollegiyasının 27 iyun tarixli qərarı ilə hakimin qətnaməsi ləğv edilmişdi.

Qeyd edək ki, 1993-cü ilin iyun hadisələrindən sonra müxtəlif mətbuat orqanlarında Milli Qurtuluş hərəkatımızın böyük öndəri M. Ə. Rəsulzadəyə qarşı əsassız hücumlar davam edir, tarixi sənədlərə söykənməyən fikirlərin təbliğinə çalışılırdı. İrəli sürülən bəzi “fikirlərdən”: **“Rəsulzadənin öndər, lider, bani səviyyəsinə qaldırılması, nəyə xidmət edir?”,** “Rəsulzadənin hökumətdə vəzifə ala bilməməsi”, “Nədənsə tədqiqatçılar Gəncə dövrünü 1-2 abzas verməklə kifayətlənir, Nuru Paşa – Rəsulzadə qarşıdurmasını açıqlamaq istəmirlər” və s.

Bu məzmunlu, bolşevikyönümlü, tarixi şəxsiyyətlərə kommunist əxlaq tərzi ilə yanaşma xəttinə üstünlük verənlər sanki 1920-30-cu illərdəki Əliheydər Qarayev, Mir Cəfər Bağırov kimilərinin "ənənələrini" davam etdirir, unudurdular ki, M.Ə.Rəsulzadə tarixin bütün sınaqlarından şərəflə çıxmış, milli müstəqillik uğrunda aparılan Azərbaycan davasının yorulmaz mücahididir: **"Yoxdan bir bayraq qaldırıb,** müstəqil Azərbaycan dövləti quran M. Ə. Rəsulzadə və onun yaxın silahdaşlarını – F. Xoyski, Ə.M. Topçubaşov, N. Yusifbəyli, H. Ağayev kimilərini istiqlal tariximizdən ləkələyib kənarlaşdırmaq qeyri-mümkündür. Sovet hökumətinin 70 illik əks-təbliğat sistemi bu işi bacarmadı və həmin şəxsiyyətlər xalqımızın yaddaşında yenidən yaşamaqdadırlar.




***"Məhəmməd Əmin Rəsulzadəyə qarşı böhtan kampaniyası arxasında kimlər durur? (əsilsiz uydurmalara cavablar)" kitabı,1998-ci il***

**İqtidar mətbuatında çap olunan belə saxta ittihamlara "Müxalifət", "Azadlıq", "Yeni Müsavat" qəzetlərində tədqiqatçılarımız tutarlı məqalələrlə cavab vermişlər.**

M.Ə.Rəsulzadə İrsinin tanınmış tədqiqatçıları öz yazılarında belə ittihamların heç bir əsası olmadığını elmi və tarixi faktlarla sübut etmişlər.

1998-ci ildə "Müsavat" Partiyasının dəstəyi və N. Yaqublunun redaktorluğu ilə çapa hazırlanan **"Məhəmməd Əmin Rəsulzadəyə qarşı böhtan kampaniyası arxasında kimlər durur? (əsilsiz uydurmalara cavablar)"** kitabı nəşr edildi. Kitabda aşağıdakı müəlliflərin yazıları toplanmışdı: Şirməmməd Hüseynov, Nəsiman Yaqublu, Cəmil Həsənli, Bəxtiyar Vahabzadə.

***Bax: N.Yaqublu. "Müsavat Partiyasının tarixi". Bakı, 1997-ci il.***

## Özəl sənədləri



M. E. Resulzade

Историческое развитие Азербайджана.

С приложениями:

8-мь исторических карт;

6-ть видов архитектурных старин;

6-ть портретов представителей азербайджанской культуры,

4-мя портретами государственных деятелей Азербайджана.

*Öz xətti ilə yazısı*



***Türkiyədə verilən səyahət vərəqi, 1922-1928-ci illər***

M.Ə.Rəsulzadənin şəxsi məktublarından başqa digər özəl sənədləri də mövcuddur.

**1. M. Ə. Rəsulzadənin öz xətti ilə yazdığı iki dəftəri mövcuddur.** Dəftərlərdən birincisi 197 səhifədən ibarətdir. Burada M. Ə. Rəsulzadənin sevdiyi şairlərdən (Nizami,Firdovsi, Qazi Bürhanəd-din, Ə. Cavad, Füzuli, Ferit Kam, Xətai, Cəlaləddin Rumi, Qul Mustafa, Arif Ərdəbili, Məhəmməd İqbal və Mirzə Fətəlidən) ibarət beyt və kitablar qeyd edilib. Bu qeydlər arasında onun Ankara Milli Kitabxanasında qələmə aldığı bilinən, lakin bu günə qədər araşdırılıb rast gəlinməyən “Azər-



***Türkiyədə silah gəzdirməsi haqqında verilən icazə sənədi, 1922-1928ci illər***

baycan Biblioqrafiyası" adlı çalışması da var. Dəftər ərəb, latın və kiril əlifbaları ilə qələmə alınıb.

**2. İkinci dəftər 19,5x13sm həcmindədir. Türkiyədəki şairlərdən seçdiyi şeirləri burada qeyd edib.** Ümumilikdə 34 şeir toplanıb. Bu şeirlərin müəllifləri aşağıdakılardır: Namiq Kamal, Məhəmməd Əmin Yurdaqul, İhsan Raif, Aka Gündüz, Hüseyn Suad, Osman Fəxri, İsmayıl Neşat, Mustafa Namiq, Faiq Əli, Cəlal Sahir, Əhməd Vəfa, Süleyman Nəsib, Təhsin Nahid və Tofiq Fikrətdir.

**Qeyd:** Bu dəftərlər yayımlanmayıb və professor Fikrət Türkmənin arxivində saxlanılır.

**3.** M.Ə.Rəsulzadəyə Türkiyədə **xaricə getmək üçün şəxsiyyət vəsiqəsinin surəti.**

**4.** M.Ə.Rəsulzadənin Türkiyədə **silah gəzdirmək üçün icazə sənədi (surəti).**



Pasaport hamilinin refakatinde bulunanlar

İsmi

Sıfatı refakatı

Mahal ve tarihi viladeti

Göz

Saç

Boy

Burun

Diğer sabit evsaf

Identité de ceux qui accompagnent le porteur du passeport

Nom

Qualité de l'accompagnant

Lieu et date de naissance

Yeux

Cheveux

Taille

Nez

Signes particuliers

№ 383991

Refakatte bulunanların fotoğraf mahalli

№ 383991

*M.Ə.Rəsulzadəyə Türkiyədə verilmiş şəxsiyyət vəsiqəsi, avqust, 1954-cü il*

**5.** M.Ə.Rəsulzadənin ailə üzvlərinin – **həyat yoldaşı Ümbülbanu xanımın, oğlu Azərin, qızı Xalidənin şəxsiyyət vəsiqələrinin surəti.**

**6.** M.Ə.Rəsulzadənin **1953-cü ildə Azərbaycan xalqına “Amerikanın səsi” radiosu ilə etdiyi müraciətin vala köçürülmüş səsyazısı (orijinal).**

**Qeyd:** *Bu sənədlər N.Yaqublunun şəxsi arxivində saxlanılır.*

## M.Ə.RƏSULZADƏNİN DƏFNİ

**M.Ə.Rəsulzadə 1955-ci ilin martın 6-da Türkiyədə, Ankara şəhərində vəfat etdi.** Ankara radiosu martın 7-də saat 22:45-də M. Ə. Rəsulzadənin vəfatı xəbərini bütün dünyaya yaydı.



**Martın 8-də Ankaranın Hacı Bayram camisində M.Ə. Rəsulzadənin dostları onun tabutu başında fəxri qarovulda dayandılar.** Ankara şəhər valisi Kamal Aygün də başsağlığı verməyə gəlmişdi.





**Saat 12:30-da M.Ə.Rəsulzadənin cənazəsini Əsri məzarıstanlığına apardılar.** Cənazənin önündə "Azərbaycan Kültür Dərnəyi", "Yardımlaşma Dərnəyi", "Milli Kitabxana", "Türk Kitabxanaçılar Dərnəyi", "Qarslı Yüksək Tələbələrə Yardım Dərnəyi", "Qəzetəçilər Cəmiyyəti" təmsilçiləri, İdil-Ural və Krım türklərinin, polşalıların nümayəndələri vardı. **M.Ə.Rəsulzadənin cənazəsi Əsri məzarıstanlığında (156 ada 12 parsel saylı məzar) torpağa tapşırıldı.**

**Məzarı başında ilk sözü Əbdülvahab Yurdsevər söylədi**: "Əziz qardaşlarım! Bu gün son yarım əsrlik türk tarixinin ən böyük,








ən nurlu simalarından birini torpağa təslim edirik. Məhəmməd Əmin Rəsulzadə əlli ildən çox siyasi, ictimai,elmi, ədəbi çalışmaları, türklük və Azərbaycan istiqlalı uğrundakı qəhrəmanca savaşları ilə bu yüksək ünvana və şanlı mərtəbəyə çatmışdır. Emin bəy türk ulusunun qurtuluş yolunu təşkilatlandıran, parlaq bir istiqbala doğru götürənlərdən biridir. Onun adı şanlı bir mübarizə simvoludur. Onun həyatı sönməz bir məşəldir. Onun yolu istiqbal və zəfər yoludur" (1, s. 26).

**Professor Əhməd Cəfəroğlunun çıxışı isə belə oldu:** "Vücudunu bir gün göz yaşları içində Anadolunun əziz torpaqlarına əmanət etdiyimiz böyük ustad Məhəmməd Əmin Rəsulzadə milli hürriyyətvə istiqlal uğrunda əlli ildən bəri şanla və şərəflə apardığı çətin mübarizə yoluna gənc yaşlarında Bakıdan başlayaraq Tehranda və İstanbulda eyni şövq və həyəcanla davam etmiş, hadisələrin seyrinə təkrar Azərbaycana dönmüş, orada yandırdığı müqəddəs qurtuluş məşəlini 1917-ci ildə Moskvada toplanan türk və müsəlman nü-mayəndələrinin tarixi qurultayına qədər götürmüş, orada inam ilə qəlbləri tutuşdurmuş, dönüşündə Azərbaycanın rus zülmündən qurtuluşunda və istiqlalını elan edişində baş rol oynamış, bolşevik istila-

sından sonra yenə yurdunu tərkə məcbur qalaraq Avropa məmləkətlərinə




çıxmış... Nə şərəfli bir həyat!” (1, s. 27-28).

Türküstanlılar adındandanışan tanınmış mücahid Tahir Cağatay isə fikrini belə ifadə etdi:“Bu gün türkçülərimizdən, qurtuluş başçılarımızdan Azərbaycan istiqlal hərəkatının banisi və rəhbəri, böyük ustad Rəsulzadə Emin bəy fani dünya və onun sakinləri olan biz fanilərlə vidalaşır. Bu vidalaşmada biz fanilər ağlarkən Azərbaycan istiqlalının və Türk Qurtuluş Hərəkatlarının əziz şəhidləri onu qarşılamaq və cənnəti-əlada özünü


...ları, Müstakil Azerbaycan'a gidecek olan milliyetçi kervanına daima rehber olacak ve sağı o kervanla beraber, Azerbaycana taşınacaktır.

Allah gani gani rahmet eylesin!

**Mirza Bala Beyin nutku**

Azerbaycan Millî Kurtuluş hareketinin ideoloğu ve lideri Resûlzade Mehmet Emin, 6 Mart 1955 gecesi Ankara Üniversitesi hastahanesinde gözlerini hayata kapadı. Daha bir yıl önce, 31 Ocak 1954 de, yetmiş yaşını doldurması münasebetiyle yazdığım makalede («Azerbaycan» dergisi Ankara 1954, N. 11 - 12; «Birleşik Kafkasya» München 1954, No. 30 - 32.) «Kalem, kelâm ve mefkûre üstadımız» diye hitap ettiğim Resulzade'nin, mütefekkir ve inkılâpçı, siyaset ve devlet adamı, muharrir, edip ve hatip cephelerinden portresini yapmağa çalışmıştım. Gerek o yazılarda gerekse onlardan bir müddet evvel (1953) «Azerbaycan muhacirlik matbuatının otuz yıllığı» başlıklı makalemde ve 1938 de Berlin'de basılan «Millî Azerbaycan Hareketi» (Millî Azerbaycan «Müsavat» Halk Partisinin tarihi) adlı eserimde tebarüz ettirmiş olduğum gibi, kurulmasında, işlenmesinde ve gelişmesinde bizzat iştirâk ettiği liberal - demokratik millî mefkûreyi mücadeleci bir taktik ile mahirâne bir surette telif etmesini bilen Resulzade, Azerbaycan'ın inkılâpçı bir hürriyet ordusunun yetişmesine daha genç yaşlarında başlamıştı. ...

Matəm mərasimində Mirzə Bala Məmmədzadının çıxışının mətni


**Hamdullah Suphi Bey'in Nutku**

**Sadri Maksudi Bey'in Nutku**

**S. Menegari'nin Nutku**

Matəm mərasimində Həmdulla Sübhi Tanrıövər və digərlərinin çıxışının mətni

gözləyən mümtaz məqamına mərasimlə götürməyə hazırlaşırlar.

Məclisin maddi dəstəyi ilə **“Azərbaycan Demokratik Respublikası (1918-1920)” kitabı** rus dilində nəşr edilərək oxuculara çatdırılıb. Zəngin foto və sənədlərin olduğu bu kitab “M.Ə.Rəsulzadə Məclisi”nin sədri, dəyərli ziyalımız Füzuli Fərəcovun giriş məqaləsi ilə başlayır. Kitabın tərtibatçısı isə Moskvada yaşayan tədqiqatçı-yazıçı Əbdül Hüseynovdur.

Məclisin başlıca məqsədi aşağıdakılardır:

1. Rusiyadakı Azərbaycan diasporunun geniş dairəsini və rusları Azərbaycan dövlətçiliyinin və Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) yaranması tarixi ilə tanış etmək.
2. Başqda M.Ə.Rəsulzadə olmaqla həmin dövrün tanınmış xadimlərinin tanıdılması.
3. Azərbaycanın qədim mədəniyyəti və müasir Azərbaycan Respublikasının müxtəlif sahələrdəki maddi və mənəvi həyatında olan nailiyyətlərlə tanış etmək.



***“Məhəmməd Əmin Rəsulzadə Məclisi”nin sədri, Füzuli Fərəcov***

Məclis hər il təntənəli şəkildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını və M.Ə.Rəsulzadənin doğum gününü, Novruz bayramını qeyd edir, Azərbaycanın görkəmli dövlət xadimlərinə, yazıçılara, şairlərə, alimlərə, bəstəkar və rəssamlara həsr edilmiş gecələr keçirir. Məclisin əsas üzvləri: Füzuli Fərəcov, Merac Babayev, İlqar Məmmədov, Şaiq Məmmədov, Mayıs Səfərəliyev və başqalarıdır.



**2005-ci ildə Məclis “Məhəmməd Əmin Rəsulzadə medalı” təsis etdi.** Bu medal Azərbaycan xalqının mədəniyyət və digər sahələrdəki uğurlarını təbliğ edənlərə təqdim olunur. Aşağıdakı şəxslər medallara layiq görülüb: Saleh Əliyev, Zahid Qocayev, Şirməmməd Hüseynov, Qasım Kərimov, Nəsiman Yaqublu, Ramiz Abutalıbov, Əbdül Hüseynov, yazıçı Çingiz Hüseynov, rəssam Rəis Rəsulzadə, musiqiçi Alim Qasımov, siyasi xadimlər: İsa Qəmbər, Rauf Arifoğlu.

Qeyd:“**Məhəmməd Əmin Rəsulzadə Məclisi”** M.Ə.Rəsulzadə haqqında olan bu ensiklopediyanın hazırlanmasına da ciddi dəstək verib.

## YARATDIĞI "MÜSAVAT" PARTİYASININ AZƏRBAYCANDA BƏRPASI




**1992-ci ilin noyabrın 7-də Bakıda Respublika Sarayında "Müsavat" Partiyasının III tarixi Bərpa qurultayı keçirildi.** M. Ə. Rəsulzadə və onun əqidə dostları tərəfindən 1911-ci ildə əsası qoyulan, 1918-1920-ci illərdə bütün Müsəlman Şərqində və Türk dünyasında ilk demokratik cümhuriyyət quran, 1920-ci ildən Azərbaycanda fəaliyyəti qadağan edilən "Müsavat" Partiyası vətəndə qanuni fəaliyyət göstərmək hüququ qazanırdı. Qurultayda "Azərbaycan Kültür Dərnəyi"nin Baş katibi Ə.Qaracanın başqanlığında "Müsavat" Partiyası, "Azərbaycan Milli Mərkəzi" və "Azərbaycan Kültür Dərnəyi" yönətimçilərindən bir qrup iştirak edirdi.

Qurultayı Bərpa Mərkəzi Başqanı və Azərbaycan Milli Məclis Sədri İsa Qəmbər və "Milli Müsavat Xalq Partiyası"nın Baş Katibi Əhməd Qaraca açdılar. İlk söz Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə verildi.

Noyabrın 8-də gizli səsvermə əsasında İsa Qəmbər "Müsavat" Partiyasının Başqanı seçildi.

## Məzarı, anıt qəbri

M.Ə.Rəsulzadə 1955-ci ilin martın 6-da Türkiyənin Ankara şəhərində vəfat edib və buradakı "Əsri" məzarıstanlığında dəfn olunub. **Dəfn edildiyi yerlə bağlı belə qeyd var: 156 ada, 12 parsel saylı məqbərə.**

Qeyd edək ki, M.Ə.Rəsulzadənin məzarı bu günədək iki dəfə təmir edilib. Birinci dəfə məzar yaşıl rəngli dəmir barmaqlıqlar arasında olub. İkinci dəfə isə Anıt qəbir olaraq inşa edilib. Həmin bu yerə isə **"28 May sokakı (küçəsi)"** adı verilib.

***Bax: 1."Azərbaycan" jurnalı. Ankara, mart 1955, sayı 12 (36).***

## Anıt qəbir

**2008-ci ilin May ayında** Azərbaycan Xalq Cümhuriyyəti yaradılmasının 90 illiyi münasibəti ilə Türkiyənin Ankara şəhərinin Əsri məzarıstanlığında M. Ə. Rəsulzadənin yeni inşa edilmiş Anıt məzarının açılşı oldu.**Anıt məzar Ankaradakı "Azərbaycan Kültür Dərnəyi"və"Türkiyə Anıtlar Dərnəyi" tərəfindən inşa edilib.**






Otuz metr sahə və dörd metr yarım torpaq sahə üzərindəki cənazə və anıt məzar, 40x40 genişlikdə tək parçalı dörd bərabər sütundan ibarətdir. Sütunların yüksəkliyi cümhuriyyətin qurulduğu tarix olan, iyirmi səkkiz rəqəminə əlavə edilən beşinci ay sayısı ilə 285 santimetrdir. Sütunlar üzərinə işlənən Türk kilim motivləri Qafqaz xalqlarının bənzər kültürəl dəyərlərlə, xalq qaynağından yüksələn hürriyyət və istiqlal düşüncəsini əks etdirir. Sütunlar üzərindəki tac örtük Milli Azərbaycan bayrağında yer alan səkkiz guşəli ulduz üzərindəki üç ölçülü bayraq motivi ilə hürriyyət və istiqlalın sonsuza

gedişini anladır. Bayraq motivi və şəxsi məlumatlar cənazə üzərinə bir iz düşmüş halda əks edilmişdir.

Cənazədə istifadə olunan ölçülərin birincipilləsi M.Ə.Rəsulzadənin cümhuriyyəti qurduğu zamankı yaşı olan otuz dörd rəqəmini, ən yüksək nöqtəsi isə əbədiyyətə köçdüyü yetmiş bir rəqəmini göstərir.İstifadə olunan materiallar travertin daş və qırmızı qranitdən ibarətdir və dörd sütunu üç yandan bağlayan hissə üzərində isə Rəsulzadənin dəyərli fikirləri yer alıb.



***Layihə müəllifi***
***Tuncər Kırhan(1948)***

Anıt məzarın layihəsi "Azərbaycan Kültür Dərnəyi"nin Baş Katibi **Tuncər Kırhan** tərəfindən hazırlanıb.

## M.Ə.Rəsulzadənin adını daşıyan lisey

Türkiyənin Milli Təhsil Nazirliyi tərəfindən Cankayada bir Anadolu liseyinə M.Ə.Rəsulzadənin adı verilib.



## Azərbaycanda ilk heykəli



***Heykəlin müəllifi heykəltəraş Cavanşir Dadaşov (1956)***

M.Ə.Rəsulzadəyə ilk heykəl özünün doğulduğu Novxanı kəndində 1991-1993-cü illərdə hazırlanıb və rəsmi açılşı isə 1994-cü ildə olub. Heykəlin müəllifi – heykəltəraş Cavanşir bəydir. O. Novxanıda anadan olub. Həmin layihənin memarı isə İbrahim İbrahimovdur.

Sonradan isə Novxanı Bələdiyyəsinin, Ankaradakı “Azərbaycan Kültür Dərnəyi”nin və “Müsavat” Partiyasının dəstəyi ilə müxtəlif vaxtlarda burada abadlaşdırma işləri aparılıb.





## Zaqatalada heykəli




M.Ə.Rəsulzadəyə digər bir heykəl isə 1993-cü ildə Zaqatalada qoyulub.Ə.Elçibəy iqtidarı dövründə qoyulan bu heykəlin 1993-cü ilin 28 Mayında təntənəli açılış mərasimi olub.




## M.Ə.Rəsulzadənin şəkli olan pul əskinası

**1992-ci ilin avqustun 15-də M.Ə.Rəsulzadənin adına buraxılmış 1000 manatlıq pul əskinası. 2006-cı ildə bu pul dövrüyyədən çıxarılıb**

## Büstü qoyulacaq yerlər ləğv edilib




Bakının görkəmli bir yerində - Dənizkənarı bulvarın yaxınlığında ona büst qoyulması üçün yer ayrılsa da, oradan daş lövhələr götürülüb.




**Bakı Dövlət Universitetinin həyətində 20 ilə yaxındır ki, M.Ə.Rəsulzadənin büstünün qoyulacağı haqqında məlumat- daş lövhə vardır.**

## YAŞADIĞI ÜNVANLAR

1. Bakıda Novxanı kəndində yaşayıb (Hazırda bu ünvanda uşaq bağçası yerləşir).
2. Bakıda bir müddət indiki "Nizami" metrosunun yerində olmuş ata mülkündə yaşayıb.
3. Bakıda ailə qurduqdan sonra (1908-1909-cu illər) indiki Nizami -59 küçəsində, ikinci mərtəbədə iki otaqlı evdə yaşayıb (O zaman bura Vorontsov kücəsi-15 ünvanı olub). Ailəsi 1937-ci ildə sürgünə göndərilənə qədər bu evdə yaşayıb. Hazırda isə təşkilatlardan biri ofis olaraq istifadə edir.
4. Türkiyədə İstanbulda 1925-ci ildə 17 noyabrda bu ünvanda yaşayıb: "Çarşıqapı, Qəndilli küçəsi 5".
5. Türkiyədə İstanbulda 1925-ci ildə yaşadığı ünvan: "Ayasofya, Yerəbatan, Yerəbatan küçəsi 6, Molla Nəcməddinin mülkü".
6. 1930-cu ildə Polşada, Varşavada yaşadığı ünvan: "Varşava, Sluzesko, Krzyesko 30".
7. 1950-ci illərdə Ankara şəhərində bu ünvanda yaşayıb-Ankara 19/31.Sakariyə kücəsi 67/3
























nlara kaltan cananımız diyara candan gelen ateşin selamları-
zı gönderirken, her türlü mazlumlıklara katlanan yılmaz müca-
lerimize tutdukları doğru yolda sarsılmadan ilerlemek için
ndilerine muvaffakiyet temenni ederiz!

Evet, vatandaşlar, 28 Mayısı yaşatırken, biz, alel'umum Mayıs
nlerini yaşatmış olduğumuzu unutmayalım; bilelim ki, " sade
iatin değil, tarihin de hayatbahış bir mevsimi olan Mayıs",
im için bir küldür!

Yaşasın 28 Mayıs, yaşasın Mayıs günleri!...

15-5-1951 Varşova

M. E. Resul-Zade

69

# NƏŞR ETDİYİ MƏTBUAT ORQANLARININ ÜNVANLARI



اچيق سوز

ПЯТНИЦА 2 октября 1915г. № 1

„АЧЫГЪ СӦЗЪ“



AZERBAYCAN DERGİSİ

İdare Yeri:
Anafartalar, Vakıf İşhanı No. 324
Posta Kutusu: 165 - Ankara

Abone şartları:
Yıllığı: Türkiye dahilinde 6, Türkiye haricinde 12 liradır.

Gönderilen yazılar, basılsın basılmasın geri verilmez.

Dizildiği ve Basıldığı yer: Yıldız Matbaacılık ve Gazetecilik T.A.Ş. - Ankara



М.Э. Расулзаде — Дж. Гаджибейли

ODLU YURT

MİLLİ AZERBAYCAN FİKRİYATINI TERVİC EDEN AYLIK MECMUA

İstanbul, Yerebatan, Şengül yokuşu No 9





5) M. Mehmet-zade — Azerbaycan misakı millisi 1927 15 „
6) „ „ — Ermeniler ve İran 1927 15 „
7) Şiirler mecmuası — İstiklâl uğrunda 1928 20 „
8) M. E. Resul-zade — İhtilâlci sosyalizim iflası ve demokrasının geleceği 1928 15 „
9) Mir Yakup — Beynelmilel siyaset tepetrel 1928 15 „
10) Kartpostal — Milli Azerbaycan arması 1929 10 „

İşbu seri haricinde: M. E. Resul-zade beyin riyaseti tahririyesi altında telif ve neşrolunan "Milliyet ve bolşeyizim„ makaleler mecmuası. Sene 1928 : Fiatı 50 Kuruş

Toptan isteyenlere iskonto

Müracaat için adres:
İstanbul, Yerebatan, Şengül yokuşu N- 9

**Kolleksiyonlar**

"Yeni Kafkasya„ nın dört, "Azeri Türk„ ün bir seneye ait kolleksiyonları idarehanemizde mevcuttur.

Dahilde 300 er kuruştan.
Hariçte 3 er dolardan satılıyor.
"Odlu yurt„
İdarehanesine müracaat olunа.

**Azerbaycan arması**

Milli Azerbaycan arması kartpostal halinde tabından çıkarak satışa konulmuştur. Tanesi 10ar kuruştan satılmaktadır.

Toptan isteyenlere %20 iskonto.

"Odlu yurt„
İdarehanesine müracaat olunа



"Odlu Yurt„ un Avrupada, İranda hususi muhabirleri olduğu gibi, Azerbaycan dahilinden haberler ve mektuplar almak imkânı da vardır.

"Odlu Yurt„ mesleğine muvafık yazıları memnuniyetle derçeder.

**"Odlu Yurt„ un nushası 20 kuruştur. Abune bedeli ise şu vechiledir: Türkiyede bir seneliği 200 kur. 6 aylığı 100 kur. Başka memleketlerde bir seneliği 2 dolar; 6 aylığı 1 dolar**

**„Odlu Yurt„ fikirdaşlarının maddî ve manevî yardımını bekler.**

**Adres: İstanbul, Pangaltı Şafak sokağı No-60**

**A. Kâzım-Zadenin "AZERBAYCAN„ kırtasiye mağazası**

*Adres: İstanbul, Beyazıt, Havuz karşısı*

Burada "Odlu Yurt„ a abona kabul olunuyor. Millî Azerbaycan neşriyatının bütün eserleri satılıyor.



Cihan hırsını celbeden Baku petrol menba'ından bir levha

NÜSHASİ 10 KURUŞTUR

Adres: İstanbul, Posta kutusu N 608

Mahelli tevzii: Babıâli caddesinde « Cem'iyet » kütüphanesi

İSTANBUL - AMEDİ MATBAASI



تورك عدم مركزيت فرقه‌سی «مساوات»

انسانلاره حریت، ملتلره مساوات!

هفته‌ده بر دفعه نشر اولونيور

مساوات

Баку, зданiе „Исмаилiе“ ред. газ. «Мусаватъ».

یاشاسین جمهوریت انام! وار اولسون ملی – محلی مختاریت!

## Lahıcda gizli yaşadığı ev



M.Ə.Rəsulzadənin 1920-ci ildə iyun, iyul və avqust aylarında gizli olaraq Lahıcda yaşadığı evlərdən biri də budur.O, 1920-ci ilin avqust ayının 17-nə qədər burada yaşayıb.

## Bakı şəhərində olan evi





Nizami küçəsi 59 ünvanda(İslam Səfərli kücəsi 7 ilə kəsişən yerdə.KeçmişVorontsov kücəsi 15) M.Ə.Rəsulzadəyə məxsus olan ev yerləşir. İkimərtəbəli binanın 2-ci mərtəbəsində yerləşən mənzilə heç bir xatirə lövhəsi vurulmayıb. Ev isə ailə üzvlərinə verilməyib, başqalarının istifadəsindədir.



бекъ и КИЧИКХАНОВЪ Байрамъ Ніязи.

ЧЛЕНЫ ПАРЛАМЕНТА.

ФРАКЦІЯ «МУСАВАТЪ» И БЕЗПАРТІЙНЫЕ.

РАСУЛЪ-ЗАДЕ Мамедъ Эминъ (Воронцовская, 15, тел. 55-10); АГАЕВЪ Гасанъ бекъ (Врангельская, 7, 53-11); УСУББЕКОВЪ Насибъ бекъ (Николаевская, 1, тел. 83-90); ХАСЪ-МАМЕДОВЪ Халилъ бекъ (Врангельская, 22, тел. 27-90); ГАДЖИНСКІЙ Мамедъ Гасанъ 73, тел. 56-51); НАРИМАНБЕКОВЪ Нариманъ бекъ (гостин. «Метрополь»); АХУНДОВЪ Мирза Садыхъ, АХИДЖАНОВЪ Мусетибъ бекъ, ВЕКИЛОВЪ Мустафа (Кладбищенская, 9, тел. 39-72); ШИХЗАМАНОВЪ Мамедъ Багиръ (Врангельская, 6, тел. 19-52); РАСУЛЪ-ЗАДЕ Мамедъ Али (Спасская, 135); АХУНДОВЪ Муртуза (Чадровая, 199); АГАБЕКОВЪ Рза бекъ (Николаевская, 1); ВЕКИЛОВЪ Мамедъ Рза Ага (Набережная, 33); СУЛТАНОВЪ Джалилъ бекъ (Каменистая, 197, тел. 25-28); ТАГІ



*Azərbaycanın Xalq rəssamı Kamil Əliyevin M.Ə.Rəsulzadənin xatirəsinə həsr etdiyi xalça əsəri*




*Azərbaycanın Xalq rəssamı Oqtay Sadıqzadənin yaratdığı əsər*

# NOVXANIDAKI EVİ

Novxanıdakı evləri uşaq bağçasına verilib. Yalnız evin çölündə divara M.Ə.Rəsulzadənin burada doğulması haqqında xatirə lövhəsi vurulub.





**Hazırda burada uşaq bağçası yerləşir**





# NOVXANIDA ATASININ VƏ OĞLUNUN MƏZARI



# TANINMIŞ ŞƏXSİYYƏTLƏR M.Ə.RƏSULZADƏ HAQQINDA



**Üzeyir Hacıbəyli (Azərbaycanın görkəmli mütəfəkkiri və bəstəkarı):** "Məhəmməd Əmində natiqlikdə "patent" qazanmış olan "arator"lara məxsus qol atma, baş oynatma, üz-gözünü sifətdən-sifətə dəyişmə kimi hərəkətlər yox idi. Bunların əvəzində özgə bir hal var idi ki, o da getdikcə qızışıb sözlərinin dəruni qəlbdən söylədiyini eşidənlərə hiss etdirməklə dərin bir təsir oyatmaq idi. Qol atmaqdan bu yaxşıdır. Bunda ixlasi(ürəyi təmizlik)) qəlb və səmimiyyətlə bərabər, deyilən kəlamda bir də böyük bir ciddiyyət mövcud olduğuna hər kəs inanıb natiqin hər bir sözünə lazımınca əhəmiyyət verirdi. O idi ki, hər bir cümlə axırında alqışlar yağırdı."



**Seyid Həsən Tağızadə (İran Senatının sədri, İranın Böyük Britaniya Böyükelçisi):** "Rəsulzadə bütün ömrüm boyunca Şərq dünyasında rastlaşmadığım, mübaliğəsiz söyləyə biləcəyim fövqəladə, nadir insanlardan biri idi. Məhəmməd Əmin bəy tərbiyəli, qüvvətli və sağlam məntiq sahibi, təmiz qəlbli, doğru sözlü, mətanətli, tam mənası ilə dürüst, fikir və yoluna dərin bir inam bəsləyən fədakar, mücahid və örnək bir insan idi. Belələrinə zamanımızda və hələ bizim tərəflərdə rastlaşmaq həmən-həmən imkansız olduğu kimi bütün dünyada da rastlanmaz".



**İosif Vissarionoviç Stalin (Sovet dövlətinin tanınmış xadimi, Sovet İttifaqına 31 il başçılıq etmiş şəxs):** "Siz keçmiş mübarizə yoldaşısınız. Ziyarətimin yeganə səbəbi budur. Çar istibdadına qarşı mücadilələrinizi, Sizin inqilabi hərəkatdakı rolunuzu və əhəmiyyətinizi bilirəm. Bu inqilab üçün dəyərli bir şəxsiyyət olduğunuzu təqdir edirəm. Siz nə öldürüləcək, nə də ömrü boyu həbsxanalarda çürüdüləcək bir insan deyilsiniz. Məncə ,Sizə azadlıq verilməlidir".



**Həmdulla Sübhi Tanrıövər (Türkiyənin Mətbuat və Milli Təhsil Nazirliyində yüksək vəzifələrdə çalışmış, Türkiyənin Rumıniya Böyükelçisi olmuşdur):** "Ustadı uzun illərdən bəri tanıyıram. Onunla məmləkətin həm daxilində, həm xaricində bərabər çalışmışıq. Eminlə "Türk Yurdu"nda, "Türk Ocağı"nda, Ankarada və Buxarestdə bir yerdə olmuşuq.

Çox qiymətli dostumuzu itirdik. Bədbəxt türk elləri bizə çox qiymətli övladlar göndərdi: Qaspiralı İsmayıl, Əli bəy Hüseynzadə, Ağaoğlu Əhməd, Yusif Akçura, Cəfər Seyidəhməd, Sədri Məqsudi və daha bir çoxları. Məhəmməd Əmin Rəsulzadə bunlardan biri idi. Türk millətləri üçün onların hürriyyət və istiqlalları yolunda can verənlərin röyaları təhəqqüq edəcəkdir".



**Əli bəy Hüseynzadə (Böyük türkçü alim, mütəfəkkir, tanınmış mətbuat xadimi):** "Siz Azərbaycanın ən böhranlı zamanlarında fəal bir mücahit sifətiylə çalışdınız, bir çox mühüm hadisələri yaxından gördünüz, müxtəlif cərəyanların içində oldunuz və sərgüzəştlərlə dolu bir həyat yaşadınız!"

**Senator Sedlitski (Polşanın tanınmış ictimai xadimi, senator, Varşavadakı Şərq İnstitutunun direktoru) –** "...Bu həm də ona görə xoşdur ki, öz azadlığı uğrunda mübarizə aparan, Şərq xalqlarından daha birisinin tarixini göstərən bu kitabın müəllifi Azərbaycan Milli Hərəkatının ideoloqu və Milli Müsavat Partiyasının lideri, Müstəqil Azərbaycanın Milli Şurasının keçmiş sədri, görkəmli dövlət xadimi və patriotu Məhəmməd Əmin bəy Rəsulzadədir".



**Cəfər Seyidəhməd Krımər (Krım tatarlarının lideri, Krım Cümhuriyyətinin keçmiş Hərb və Xarici İşlər Naziri): "**Bir gün həyatınızı yazacaq bəxtli bir türk gənci, yaxud da şəxsiyyətinizi canlandıracaq bir türk sənətkarı, ömrünüzün hər dövrünü qavrayıb anladıqca "nə şərəflidir mənə ki, bu yaşamağa dəyər səhifələri canlandırıram" – deyə sevinəcəkdir, bunların əsərlərini oxuyan və ya seyr edənlər də Sizi daima sonsuz məhəbbət, hörmət, rəhmətlə anacaqlardır".



**Zəki Vəlidi Toğan (Böyük mütəfəkkir, ictimai-siyasi xadim, Başqırdıstan Respublikasının ilk rəhbəri):** "Biz Rusiya əsiri türklər 1917-ci il inqilabına qüvvələri bir zümrə olaraq girdik. Bunu təmsil edən Məhəmməd Əmin Rəsulzadə oldu. Rusiya inqilabı başlandıqdan sonra Azərbaycan türk mərkəziyyət "Müsavat" partiyası proqramı bizə gəldi. Məhəmməd Əmin Rəsulzadənin göndərdiyi proqram və məktub Peterburqda bomba kimi partladı.

...Əgər bu mühit əzizləri seçən bir mühit olsaydı, mən mərhum Məhəmməd Əmin Rəsulzadənin əziz olaraq seçilməsinə rəy verərdim. Bu günə qədər onun əleyhinə olanlar tövbə etməlidir. Yoxsa Allah günahlarını bağışlamaz!

Məhəmməd Əmin Rəsulzadəni öldükdən sonra da yaşatmaq üçün azərbaycanlılar onun yolunu davam etdirməlidir!"



**Abdulla Battal Taymas (Kazan türklərinin lideri):** "Məhəmməd Əmin Rəsulzadə yalnız azərbaycanlılar üçün deyil, bütün türklər üçün böyük bir dəyərdi. Ölümü də bütün türklük üçün böyük bir dərddir. O, inandığı mübarizə uğrunda hər şeyini, ailəsini, rahatlığını, səhhətini, nəhayət, həyatını fəda etmişdi. Özü də nadir olan bir idealist idi. O, bu dünyadan ayrılmışsa da, tarix səhifələrimizdə, beynimizdə və qəlblərimizdə daima yaşayacaqdır.

Məhəmməd Əmin Rəsulzadə bir cəmiyyət adamı idi. Cəmiyyətimizi yaşatmağa və səadətə çatdırmağa çalışanlardan idi.

Məhəmməd Əmin Rəsulzadənin apardığı mübarizə və ideal ölməyəcəkdir, yaşayacaqdır, dayanmayacaq və irəli gedəcəkdir".



**Mirzə Bala Məmmədzadə (Böyük mütəfəkkir, tanınmış ictimai-siyasi və mətbuat xadimi):** "Milliyyətçi, istiqlalçı, demokrat və inqilabçı Rəsulzadə "İnsanlara hürriyyət, millətlərə istiqlal!" – deyə dünyaya göz açdı və yenə "İnsanlara hürriyyət, millətlərə istiqlal!" – deyə həyata göz yumdu.

O, prinsipə sədaqətin, məfkurəyə bağlılığın və bu yolda fədakarlıq, əzm və səbatın da bir timsalı idi. Çünki o, tam mənası ilə fəzilət sahibi, kamil bir insandı".



**Əhməd Cəfəroğlu (Tanınmış dilçi-alim, türkoloq, İstanbul Universitetinin professoru):** "Vücudunu bu gün göz yaşları içində Anadolunun əziz torpaqlarına əmanət etdiyimiz böyük ustad Məhəmməd Əmin Rəsulzadə Milli Hürriyyət və İstiqlal uğrunda əlli ildən bəri şanla və şərəflə apardığı çətin mübarizə yoluna gənc yaşlarında Bakıdan başlayaraq Tehranda və İstanbulda eyni şövq və həyəcanla davam etmiş, hadisələrin seyrinə təkrar Azərbaycana dönmüş, orada yandırdığı müqəddəs qurtuluş məşəlini 1917-ci ildə Moskvada toplanan türk və müsəlman nümayəndələrinin tarixi qurultayına qədər götürmüş, orada inam ilə qəlbləri alovlandırmış, dönüşündə Azərbaycanın rus zülmündən qurtuluşunda və istiqlalını elan edişində baş rolu oynamış, bolşevik istilasından sonra yenə yurdunu tərkə məcbur qalaraq Avropa məmləkətlərinə çıxmış...Nə şərəfli bir həyat!"



**Noy Jordaniya** ***(Gürcüstanın sabiq prezidenti, 1918-1921-ci illər):*** "M.Ə.Rəsulzadənin kitabı məhz böyük bir mədəni məsələni - ənənələrin mühafizəçiləri nöqteyi -nəzərindən təfsir edən dairələrə cavabdır. İmperializmin bütün növləri üçün eyni bir xəstəlik xarakterikdir: tarixi korluq. Tarix onlardan asılı olmayaraq öz yolunu davam etdirməkdədir; olacağa çarə yoxdur".



**Əbdülvahab Yurdsevər (Azərbaycan Milli Mərkəzinin Başqanı):** "Mücadilə dövründə olan ümumi toplantılarda Emin bəy daima yerli və yabançı müarizlərinə(qarşı çıxan,etiraz edən) kəskin zəkası, sağlam məntiqi, bəlağəti, qüvvətli fikirləri, realist görüşləri və üstün iman və qüdrəti ilə qalib gəlirdi. Emin bəyin olduğu hər toplantının nəticəsi öncədən məlumdu. Azərbaycanın fəhlə, kəndli və ziyalı kütlələri onu hər tərəfdə həyəcan və hərarətlə qarşılar, söylədiklərini diqqətlə dinlər və təkliflərini həmrəyliklə qəbul edirdilər. O, qarşısındakı adamın şəxsinə toxunmazdı, xüsusi hallarını dilə almağa tənəzzül etməzdi, fikrə - fikirlə, dəlilə - dəlillə cavab verərdi.

Onun üçündür ki, ən azğın fikir düşmənləri belə Emin bəyin şəxsinə hörmət edər, səbatına heyran qalırdılar".



**Məhəmməd Kəngərli ("Azərbaycan Milli Mərkəzi"nin sabiq Başqanı): "**Böyük insan Məhəmməd Əmin Rəsulzadənin bu fani dünyadan haqq dünyaya gedişi Milli davamızda açılan yaranın qısa surətdə yaxşılaşması və meydana gələn təcrübə, nüfuz boşluğunun doldurulmasının nə qədər zor və imkansız olduğunu sizlər də təqdir edərsiniz. Fəqət yenə də buraxmış olduğu müqəddəs mirasına sahib çıxan milli duyğularla, gənc bir nəslin mövcudiyyətini görməklə təsəlli tapdığımızı inamla bildirmək istəyirəm. Bu mənada deyirik ki, millətimiz qədirbiləndir. Əziz Rəsulzadənin gözləri arxada qalmasın, bizlər hizmət edənləri və bizi yönləndirənlərimizi hər zaman izhar etməkdən böyük mənəvi zövq duyan bir topluyuz".



**Əhməd Qaraca ("Azərbaycan Kültür Dərnəyi"nin Baş katibi):** "Millətlərin həyatında olduğu kimi, insanların da həyatında böyük və önəmli, enişli, çıxışlı nöqtələr var. Hələ belə insanlar, ulu bir öndər, bir aksiyon adamı olaraq ömrünü millətinə bağlamış, millətin acısıyla ağlamış, sevinciylə sevinmiş, ona yol göstərən bir hadi olmuşdur. Azərbaycan türklərinin böyük öndəri Məhəmməd Əmin Rəsulzadə də belə ulu kişilərdən biridir. O, Azərbaycanın olduğu qədər türklük aləminin də böyük liderlərindəndir. Ömrünün 50 ildən çoxunu türklük üçün, vətəni və milləti üçün sevə-sevə xərcləyən, əsrimizin ilk yarısını adıyla şərəfləndirən böyük Türk insanlarından biri də heç şübhə yox ki, Məhəmməd Əmin Rəsulzadədir".



**Cəmil Ünal ("Azərbaycan Kültür Dərnəyi"nin Başqanı): "**Məhəmməd Əmin Rəsulzadə həyatı boyunca heç bir zaman xalqı əleyhinə olacaq yabançı bir ideologiyanın əsiri olmamışdır. Məhəmməd Əmin Rəsulzadə, Azərbaycanın bağımsızlığı üçün ən müqəddəs varlığı: ailəsini, hətta həyatını fəda etmiş bir milli qəhrəmandır. Onun ən böyük sərvəti – 27 Aprel 1920-ci ildə vətəni işğal edənlərin və yardımçılarının çirkli əllərindən aldığı, yurd xaricinə çıxardığı ***Üçrəngli***

***Bayraq*** olmuşdur. Məhəmməd Əmin Rəsulzadəni 28 Mayıs 1918-ci il tarixində Milli Şura başqanlığına seçənlər Azərbaycanın gerçək təmsilçiləri olmuşdur. Onlar dövlət vəzifələrində heç bir məqamın tələbçisi olmadan o şərəfli görəvi Məhəmməd Əmin Rəsulzadəyə vermişdilər".



**Əbdürrəhman Fətəlibəyli – Düdənginski *(Azərbaycan legionerlərinin komandiri, "Azadlıq" radiosu Azərbaycan redaksiyasının Baş redaktoru)*:** "Mərhəba, çox möhtərəm Məhəmməd Əmin! Əziz yurdumuz Azərbaycanın yorulmaz hürriyyət mücahidi olan Sizi cəbhədəki bütün əsgərlərimiz adından salamlayıram.

Məmnunluqla Sizə bildirməliyəm ki, vətəndaşlarımız yurdumuzun hürriyyəti və Böyük Almaniya uğrundakı mücadilədə, cəbhədə böyük uğurlar qazandılar və misli görünməyən qəhrəmanlıqlarıyla millətimizin şərəf və heysiyyatını yüksək bir səviyyəyə qaldırdılar...

Biz irəlidə də millətimizin hürriyyəti və Böyük Almaniya uğrunda fədakaranə bir tərzdə döyüşəcəyik. Cəbhədəki bütün əsgərlərdən Sizə salam. Sizə yaxşı səhhətlər diləyirəm. Sizin: Ə. Düdənginski – Fətəlibəyli".

## M.Ə.RƏSULZADƏ HAQQINDA AZƏRBAYCANDA NƏŞR EDİLƏN İLK MƏQALƏ

1. Mövsüm Əliyev. Məmməd Əmin Rəsulzadə. Bakı, "Elm" qəzeti", 07.10. 1988-ci il.



## M.Ə.RƏSULZADƏ HAQQINDA AZƏRBAYCANDA NƏŞR EDİLƏN İLK KİTAB

1. Nəsiman Yaqublu. Məmməd Əmin Rəsulzadə. Bakı, 1991.




## M.Ə.RƏSULZADƏ HAQQINDA TÜRKİYƏDƏ NƏŞR EDİLƏN İLK KİTAB

1. Səbahəddin Şimşir. Məhəmməd Əmin Rəsulzadənin Türkiyədəki həyatı, fəaliyyəti və düşüncələri. Ankara, 1995-ci il.



## M.Ə.RƏSULZADƏ HAQQINDA ALMANİYADA YAZILAN İLK MƏQALƏ

1. Mirzə Bala Məmmədzadə. Rəsulzadə Məmməd Əmin bəy 70 yaşında. "Birləşik Qafqasiya" jurnalı,Münhen, N 1/3 (30/32), yanvar-mart, 1954-cü il.


BİRLEŞİK KAFKASYA

**Resul Zade Mehmed Emin Bey 70 yaşında**

## M.Ə.RƏSULZADƏ HAQQINDA RUSİYADA NƏŞR EDİLƏN İLK KİTAB

1. Aydın Balayev. Məmməd Əmin Rəsulzadə (1884-1955). Moskva, "Flinta" nəşriyyatı, 2009-cu il.




## M.Ə.RƏSULZADƏNİN SEÇİLMİŞ ƏSƏRLƏRİNİN İLK NƏŞRİ

1. Seçilmiş əsərləri. I cild, Bakı, 1992. (Toplayanı və nəşrə hazırlayanı professor Ş. Hüseynov).




## M.Ə.RƏSULZADƏNİN AZƏRBAYCANDA NƏŞR EDİLƏN İLK ƏSƏRİ

1. Azərbaycan Cümhuriyyəti. Bakı, "Elm" nəşriyyatı, 1990-cı il. (Nəşrə hazırlayanı filologiya elmləri doktoru Asif Rüstəmov).



## İRSİNİN TƏDQİQATÇILARI

### II. Azərbaycan



**Mövsüm Əliyev** (1939-1997) - İlk dəfə olaraq 1988-ci ildə (sovet rejimi dövründə) M. Ə. Rəsulzadə haqqında məqalə yazıb və **"Odlar Yurdu"** qəzetində çap etdirib. Məqalə belə adlanır: "Məhəmməd Əmin Rəsulzadə" ("Odlar Yurdu", 1988, 17 noyabr). Sonrakı illərdə də o,bu mövzu ilə bağlı coxlu sayda məqalələr yazıb. M.Ə.Rəsulzadə haqqında olan bir yazısındakı bəzi faktlara görə 1994-cü ildə məsuliyyətə cəlb edilərək uzun müddət həbsxanada saxlanılıb.



**Nəsiman Yaqublu** (1962) - Bakı Dövlət Universitetinin dosenti, "M.Ə.Rəsulzadə Mərkəzi"nin sədri. İlk dəfə **1989- 1990-cı illərdə** (sovet rejimi dövründə) M. Ə. Rəsulzadə haqqında geniş araşdırma aparıb, tarixi-publisistik kitab yazaraq 1991-ci ildə nəşr etdirib. N.Yaqublu 1997-ci ildə "Müsavat Partiyasının tarixi", 2001-ci ildə "Azərbaycan Milli İstiqlal Mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə", 2007-ci ildə "Azərbaycan-Polşa əlaqələrində M. Ə. Rəsulzadənin rolu" kitablarını çap etdirib. "Azərbaycan milli istiqlal mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə" mövzusunda tarix elmləri üzrə namizədlik dissertasiyası müdafiə edib (2001-ci il).



**Nəsib Nəsibli** (1956) -Tarix elmləri doktoru, Azərbaycan Dillər Universitetinin professorudur. Sovetlər Birliyi dövründə - 1990-cı ildə M.Ə.Rəsulzadənin **"Stalinlə ixtilal xatirələri"**kitabını**,"İstiqlal məfkurəsi və gənclik"** əsərini cap etdirib. 1991-ci ildə isə N.Nəsiblinin **"Azərbaycan Demokratik Respublikası"** kitabı nəşr olunub.



**Aydın Balayev** (1956) - Tarix elmləri doktorudur.Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitunda çalışır. Sovetlər Birliyi dövründə - **1990-cı ildə** rus dilində "Azərbaycan Milli demokratik hərəkatı 1917-1920-ci illərdə", **1992-**ci ildə "Azərbaycan Milli hərəkatı: Müsavatdan Xalq Cəbhəsinə qədər" (rus dilində), **2009-cu** ildə Moskvada "Mamed Amin Rasulzade(1884-1955)"

kitablarını, **2011-ci ildə** isə "Məhəmməd Əmin Rəsulzadə" əsərini Azərbaycan dilində nəşr etdirib.



**Şirməmməd Hüseynov** (1924) - Bakı Dövlət Universitetinin professoru. **1992-ci** ildə M.Ə.Rəsulzadənin Əsərlərinin I cildini, 2001-ci ildə II cildini, 2012-ci ildə III cildini, 2013-cü ildə isə IV cildini nəşr etdirib (araşdırıb toplayıb, ərəb əlifbasından latın əlifbasına çevirib, lüğəti tərtib edib).



**Vaqif Sultanlı** (1958) - Bakı Dövlət Universitetinin professoru. **1993-cü** ildə "Məhəmməd Əmin Rəsulzadənin ədəbi dünyası" adlı kitab nəşr etdirib. 1997-ci ildə isə "Məhəmməd Əmin Rəsulzadənin həyatı və ədəbi fəaliyyəti" mövzusunda filologiya elmləri üzrə doktorluq dissertasiyası müdafiə edib.



**Cəmil Həsənli** (1952) – Tarix elmləri doktoru, professordur. Azərbaycan Xalq Cümhuriyyəti və Güney Azərbaycanı ilə bağlı araşdırmalar aparıb. 1993-cü ildə "Azərbaycan Beynəlxalq münasibətlər sistemində (1918-1920)" kitabı nəşr edilib. M.Ə.Rəsulzadə haqqında da dəyərli məqalələr müəllifidir.



**Teyyub Qurban** (1934) – Bakıda anadan olub. Şair, dramaturq, publisist və tədqiqatçıdır. Çoxlu sayda bədii və tarixi kitablar yazan T.Qurban M.Ə.Rəsulzadə haqqında **ilk bədii əsərin** və teatr tamaşasının da müəllifidir.



**Mübariz Süleymanov(1962) –** Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti. **2000-ci** ildə o, "M.Ə.Rəsulzadə və Azərbaycan mədəniyyəti" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Eyni movzuda ayrıca kitab da nəşrə hazırlayıb.



**Yadigar Türkel (1951)-** Fəlsəfə elmləri doktorudur. M. Ə. Rəsulzadənin "Azərbaycan şairi Nizami" **(2008),** "Milli Birlik" (2009), "Azərbaycan şairi Nizami" (bitkin çapı, 2011), "Qafqaz türkləri" (2012), "Panturanizm və Qafqaz sorunu" (2012), "İran türkləri"(2013), kitablarını çap etdirib.



**Faiq Ələkbərov** (1977) - Fəlsəfə elmləri namizədidir. Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Siyasi Hüquq Tədqiqatları İnstitutunda çalışır. **2005-ci** ildə **"XX əsrdə Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixində Məhəmməd Əmin Rəsulzadə-nin yeri və rolu" mövzusunda** dissertasiya işi müdafiə edib. Sonradan eyni movzuda ayrıca kitabı çap olunub.

**II.Türkiyə**



**Mirzə Bala Məmmədzadə** (1898-1959) - Azərbaycanın tanınmış ictimai-siyasi xadimi, görkəmli mühacir. İlk dəfə olaraq M.Ə.Rəsulzadənin fəaliyyətini və milli azadlıq hərəkatının tarixini araşdırıb, **1938-ci** ildə Almaniyada türkcə "Milli Azərbaycan Hərəkatı" kitabını nəşr etdirib. **1954-cü** ildə "Məhəmməd Əmin Rəsulzadə 70 yaşında" adlı dəyərli məqaləsini yazıb.**1955-**ci ildə M.Ə.Rəsulzadənin ölümü ilə bağlı kecirilən tədbirdə isə cox təsirli elmi-tarixi çıxış edib. Həmin çıxış sonradan "Məhəmməd Əmin Rəsulzadə" adı ilə məqalə olaraq cap edilib.



**Feyzi Aküzüm** (1922-1991) - "Azərbaycan Kültür Dərnəyi"nin sabiq başqanı, M. Ə. Rəsulzadənin mücadilə dostu. M.Ə.Rəsulzadə haqqında **1977-ci** ildə, Ankarada ilk dəfə olaraq "M. Emin Rəsulzadəyə görə çeşidli cəbhələri ilə Azərbaycan istiqlal mücadiləsi" kitabını nəşr etdirib.



**Əhməd Qaraca** (1929-2005) – "Azərbaycan Kültür Dərnəyi"nin Baş Katibi və "Müsavat" Partiyasının mühacirətdəki liderlərindən biri olub. M.Ə.Rəsulzadə haqqında çoxlu sayda **elmi, tarixi** məqalələrin müəllifidir.



**Yavuz Akpınar(1947) -** Egey Universiteti, Türk Dili və Ədəbiyyatı Bölümünün professorudur. **1993-cü** ildə M.Ə.Rəsulzadənin "İran Türkləri" və "Qafqaz Türkləri" əsərlərini Türkiyədə nəşr etdirib.



**Səbahəddin Şimşir** (1966) - Balıkəsir Universitetinin professorudur. **1995-ci** ildə Ankarada "Mehmet Emin Rəsulzadənin Türkiyədəki həyatı, fəaliyyətləri və düşüncələri" adlı kitabını nəşr etdirib. Sonradan müəllifin "Azərbaycanlıların Türkiyədə siyasi və kültürəl fəaliyyətləri (1920-1991)", "M.Ə.Rəsulzadənin Məclisi-Məbusan qonuşmaları" və "Azərbaycanın İstiqlal Mücadiləsi" kitablarını çap etdirib. O, eyni zamanda M.Ə.Rəsulzadənin "Azərbaycan Problemi" (alman dilindən (Pərihan Mete ilə birgə) çevirib, 1996-cı il) və "Stalinlə ixtilal xatirələri" kitablarını da 1997-ci ildə İstanbulda nəşr etdirib.



**Ömər Özcan(1948)** - Ankarada yaşayır. İspartada doğulub.Milli Eyitim Bakanlığında Bakanlıq müşaviri olub. "Türk Yurdu" dərgisində çalışır.M.Ə.Rəsulzadənin **Rumıniyadakı** çalışmaları, onun nəşr etdiyi "Odlu Yurd" dərgisi və bülleteni ilə bağlı dəyərli araşdırmalar aparıb.

## III.ABŞ



**Tadeuş Svyatoxovski (1934)** - ABŞ-ın Kolumbiya Universitetinin professoru. **"Rus Azərbaycanı 1905-1920"** adlı çox dəyərli kitab yazıb nəşr etdirib. Həmin kitab 1988-ci ildə Ankarada da nəşr olunub.



**Audrey Altstadt(1953) -** ABŞ-ın tanınmış tədqiqatçı, alimidir.Massaçuset Universitetinin professorudur. Azərbaycan xalqının azadlıq mübarizəsi ilə bağlı dəyərli əsərlər müəllifidir.**1992-ci** ildə Stanfordda "Azərbaycan Türkləri. Rusiya qanunları altında güc və bərabərlik" kitabını nəşr etdirib.

**IV.Polşa**



**Şəhla Kazımova (1978) -** Bakıdakı Slavyan Universitetini bitirib və Varşava Universitetində magistr təhsili alıb. **2010-cu** ildə Varşavada polyak dilində "M. Ə. Rəsulzadənin həyatı, siyasi və publisistik fəaliyyəti. Azərbaycan Prometeyizmi" mövzusunda elmi dissertasiya müdafiə edib.

**V.Yaponiya**



**Katsumi Tku Masu** - Yaponiyalı tədqiqatçı. Ankara Universitetində türk dilində təhsil alıb. M. Ə. Rəsulzadənin həyat və yaradıcılığı haqqında **doktorluq** işi yazıb. İranda, Türkiyədə və Azərbaycanda araşdırma aparıb.

**VI.Rusiya**



**Ramiz Abutalıbov(1937)** - Tanınmış ziyalı və tədqiqatçı. Uzun müddət Azərbaycanın YUNESKO-da təmsilçisi olub. M.Ə.Rəsulzadənin C. Hacıbəyli ilə yazışmalarını Fransadan Azərbaycana gətirib. **2011-ci** ildə Moskvada rus dilində "Məhəmməd Əmin Rəsulzadə və Qafqaz Konfederasiyası" kitabını nəşr etdirib.



**Salavat İsakov(1959) -** Tarix elmləri doktoru, professordur. Rusiya Elmlər Akademiyası Tarix İnstitutunda çalışır. **2002-ci** ildə "Voprosı istorii" ("Tarix məsələləri") jurnalında (N2, s. 11-32) M.Ə.Rəsulzadənin "Azərbaycanda milli hərəkat" adlı əsərini "Məhəmməd Əmin Rəsulzadə" məqaləsi ilə oxuculara təqdim edib. **2010-cu** ildə o, Moskvada M.Ə.Rəsulzadənin "Əsərləri və məktubları toplusu" adlı kitabını, 2011-ci ildə "Azərbaycan mühacirət tarixindən" kitabını, 2012-ci ildə isə "Ə.M.Topçubaşov və M.Ə.Rəsulzadə: yazışmalar, 1923-1926" kitabını rus dilində nəşr etdirib.

**Qeyd:** *Tədqiqatçıların sıralanmasında onların bu mövzudakı yazılarının ilk nəşr ili əsas götürülüb.*

## Fəaliyyəti ilə bağlı sənədlərin saxlanıldığı arxivlər

### I. Azərbaycan Respublikası


ДЕЛО
Başlanmışdır
Начато
gynyndə
дня
193 г.
Qurtarmışdır
Окончено
gynyndə
дня
193 г.
На
vərəqə
листах

1. Azərbaycan Milli Arxiv İdarəsi: fond - 276, siyahı 9, iş 130; fond-895, siyahı 1, iş 1; fond-894, siyahı-10, iş 153; fond-970, siyahı 1, iş 138; fond – 895; fond – 46.
2. S. Mümtaz adına Ədəbiyyat və İncəsənət Arxivi:
   1) Ramiz Abutalıbova məxsus fond.
   2) Ceyhun Hacıbəyliyə məxsus fond.
   3) Nəsiman Yaqubluya məxsus fond.


Начато: 19 мая 1915 г.
Окончено: 16 июля 1915 г.
ЦГИА Азерб. ССР
Фо. 46 Оп. № 3
Ед. хр. № 398

3. Azərbaycan Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi: fond-277, siyahı-1, iş-1, v.23, 55; fond-276.

### II. Türkiyə Cümhuriyyəti

1. Türkiyə Cümhuriyyəti Başbakanlıq Cümhuriyyət Arxivi.
   080.18.01.02.4.35.4.
   080.10.01.02.4.35.3.
   080.18.12.22.59.13.
   030.18.01.02.52.11.4.
   030.10.01.02.68.76.1.
   080.18.01.02.50.87.7.
   030.10.01.02.47.68.4.


T. C.
BAŞVEKÂLET
MUAMELÂT MÜDÜRLÜĞÜ
Şube: 2
Sayı: 1951

KARARNAME

8/10/934 tarih ve 2/1366 sayılı kararnameye ektir:
Türkiyeye sokulması yasak edilen istiklal gazetesinin yerine
çıkarılan Kurtuluş mecmuasının da Türkiye için zararlı yazıla
anlaşıldığından matbuat kanununun 51 inci maddesi hükmüne göre
yeye sokulmasının yasak edilmesi; Dahiliye Vekilliğinin 17/12
rih ve 630 sayılı tezkeresile yapılan teklifi üzerine icra Ve
Heyetince 20/12/934 te onaylanmıştır .
20/12/934


Türkiye Cümhuriyeti
BAŞVEKÂLET
Muamelât Müdürlüğü
Sayı: 8430

BAŞBAKANLIK CUMHURİYET ARŞİVİ

Kararname

Muhtelif memleketlerden hicret ve iltica suretile memleketimize gelen merbut listede isimleri yazılı (86) şahsın vatandaşlık kanununun altıncı maddesine tevfikan istisnaen türk vatandaşlığına alınmaları, Dahiliye Vekâletinin 18,19,21,22,23,24,25,26/9/929 ve 5/10/929 tarihli 725, 726, 727, 733, 730, 734, 735, 737, 740, 743, 746, 751, 752, 736 numaralı tezkerelerile yapılan teklifi üzerine İcra Vekilleri Heyetinin 9/10/929 tarihli içtimaında tasvip ve kabul olunmuştur .

9/10/929
REİSİCUMHUR
Gazi M. Kemal

## III. Polşa Respublikası

1. Polşa Respublikası, Varşava, “Yeni Aktlar Arxivi”, Xarici İşlər Nazirliyi:
   1) İş N6674B, v.25,39,41-53;
   2) İş N6693, v.13-45; 46-90;
   3) İş N6688, v.5-155.
   4) İş N6691, v.17,108,110-120;204-230;
   5) İş N6689, v.13-33;106-113;
   6) İş N6676,v.96-136;
   7) İş N6683,v.1-15;
   8) İş N6687,v.193-220;32-50;99-110.


MINISTERSTWO SPRAW ZAGRANICZNYCH
DEPARTAMENT POLITYCZNO-EKONOMICZNY
WYDZIAŁ WSCHODNI
[10 Saj]
4655c.


TAJNE
Poznań, dnia 9 sierpnia 1939 r.
PAN MINISTER SPRAW WOJSKOWYCH
Biuro Personalne
Warszawa
Postanowienia dotyczące użycia oficerów kontraktowych obcokrajowców w razie mob. określa instrukcja Mob.L.6600/Mob.39 Rozdz.II.§ 14 pkt 9 a.
Z uwagi na kompetencję przedstawiam powyższą sprawę do decyzji.
KNOLL
generał brygady

## IV. Rusiya Federasiyası

1) Rusiyanın Dövlət Hərbi-Tarix Arxivi,Fond 46

**Qeyd**: ***M.Ə.Rəsulzadənin fəaliyyəti ilə bağlı Azərbaycan,Türkiyə,Almaniya, Rusiya,Polşa dövlətlərinin başqa arxivlərində də sənədlər tapmaq mümkündür.Bundan əlavə,ABŞ, Böyük Britaniya ,Fransanın da arxivlərində materiallar saxlanılmaqdadır.Eyni zamanda, bu ölkələrdə yaşamış mühacirlərin də şəxsi arxivlərində dəyərli tarixi sənədlər mövcuddur.***


Фонд №
Опись №
Год
Ед. хр. №
Начиная с

# İSTİQLAL TƏQVİMİ

## (1917-ci ilin martından 1920-ci ilin aprelinə qədər)

### 1917-ci il

1. Mart ayında çarlığın süqutundan sonra “Müsavat” Xalq Partiyası gizli həyatdan rəsmi fəaliyyətə başlayır.
2. Gəncədə “Türk Ədəmi Mərkəziyyət Partiyası” adlı istiqlalçı milli siyasi bir partiya təşəkkül edir.
3. Bakıda Aprel ayının ortalarında Qafqaz Müsəlmanlarının Qurultayı açılır. Qurultayda türkçü-milliyyətçi, islamçı – mühafizəkar və sosialist qismi olan üç siyasi cərəyanın mövcudluğu meydana çıxır.
4. Türk ellərinə, o cümlədən Azərbaycana istiqlal tələb edən milliyyətçi – türkçü demokratik partiyalar – “Müsavat” ilə “Ədəmi-Mərkəziyyət” partiyaları birləşməyə qərar verir.
5. Qafqaz Müsəlmanları Qurultayı (Bakı, 1917, 15-20 aprel) Rusiyanın Ədəmi-Mərkəziyyət əsası üzərinə qurulmasını, Türk ellərindən Azərbaycana, Türküstana – qırğız-qazaxlara, Başqırdıstana, Kazana, Krıma və Dağıstana milli-məhəlli muxtariyyət verilməsini qərara alır.
6. 1917-ci ilin mayında Rusiyada yaşayan müsəlmanların qurultayında Qafqaz Müsəlmanları Qurultayının ərazi muxtariyyəti qərarı təsdiq edilir.
7. Rusiya universitetlərində oxuyan Azərbaycanlı tələbələrin ümumi konqresi istiqlal qərarının həyata tətbiqi üçün milli təşkilatın əmrinə əməl etməyə qərar verir.
8. 1917-ci ilin mayın 6-12-də Bakıda bütün Qafqaz türklərinin orta və lisey tələbələrinin qurultayı açılır. Qurultay milli qurultayın qərarı uğrunda çalışmağa və milləti birləşdirmək üçün xalq içərisinə getməyə qərar verir.
9. Ümumi Rusiya Məclisi-Müəssisan seçkilərində xalqın etimadını doğuran “Müsavat” və “Milli Komitə” bloku yaranır.
10. Oktyabr ayında “Türk Ədəmi-Mərkəziyyət Müsavat” Partiyası ilk qurultayında birgə proqramını tənzim və təsdiq edir.
11. Rusiyada baş verən bolşevik inqilabı üzərinə Azərbaycan, Gürcüstan və Ermənistan deputatları Tiflisə toplanır.
12. Cənubi Qafqaz Komissarlığı hökumət şəklini alaraq Türkiyə ilə danışıqlara başlayır.

**1918-ci il**

1. Cənubi Qafqaz Seymi yaranır və birgə müvəqqəti Cənubi Qafqaz hökuməti təşəkkül edir.

2. Azərbaycan fraksiyası Qafqazın Rusiyadan rəsmən ayrı bir dövlət olduğunu elan etməyi tələb edir.

3. Bolşeviklərlə daşnaklar 31 Mart qətliamını vücuda gətirərək Bakıda sovet hökuməti qurur.

4. 28 Mayda Azərbaycan Milli Şurası Azərbaycanı müstəqil bir dövlət elan etməklə Fətəli Xan kabinəsi təşkil edir.

5. İyunda Milli Şura və hökumət Tiflisdən Gəncəyə köçür.

6. Azərbaycan Cümhuriyyətinin ilk diplomatik təşəbbüsü – Türkiyə ilə bağlanan müqavilə əsasında qardaş Türkiyə Bakının xilası üçün Azərbaycan hökumətinin əmrinə əsgəri qüvvət göndərir.

7. Gəncədə ikinci Fətəli xan kabinəsi təşəkkül edir və mürtəce qüvvələrin təzyiqi altında şurayi-milli tətili fəaliyyətə qərar verir.

8. Sentyabrın 15-nə qədər davam edən qanlı hərb Azərbaycan hökumətinin zəfəri ilə nəticələnir. Bakı alınır.

9. Hökumət Gəncədən Bakıya köçür.

10. Azərbaycan Parlamenti açılır.

11. Parlament üçüncü Fətəli Xan kabinəsini təşkil edərək, Sülh konfransına fövqəladə bir heyəti göndərir.

**1919-cu il**

1. İngilislərlə bərabər Bakıya daxil olmuş rus və erməni qüvvətləri Azərbaycan hökuməti ilə Azərbaycan xalqının tələbi üzərinə Bakını tərk edir.

2. Azərbaycan Milli Ordusu xalqın həyəcanlı sevincləri içində Gəncədən Bakıya gəlir.

3. Azərbaycan Milli Ordusunun ilk zəfəri: Muğan və Lənkəran rus və erməni qüvvətlərindən azad edilir.

4. İngilis işğal ordusu Azərbaycanı tərk edir.

5. Avropaya hər il göndərilməsinə qərar verilən tələbədən yüz nəfərlik bir qrup yola çıxır.

6. Bakıda müasir bir Universitetin yaradılmasına qərar verilir.

**1920-ci il**

1. Böyük dövlətlər Azərbaycan İstiqlalını "De fakto" olaraq təsdiq etdiklərini rəsmən xəbər verirlər (12.01.1920).
2. Bolşeviklər Dağıstan Cümhuriyyətini işğal edərək Azərbaycan sərhədinə yaxınlaşır.

3. Ermənilər Qarabağa hücum edərək müntəzəm qüvvələrlə Əsgəran keçidini zəbt edir.
4. Qarabağa ordu cəlb edilir.
5. Ordumuz erməniləri məğlub edərək geri çəkilməkdə olan erməni qüvvələrini təqibən Qarabağın içərilərinə doğru irəliləyir.
6. Tiflisdə Sülh konfransı açılır.

***"Odlu Yurd" Jurnalı, İstanbul, 28 May 1931, il-3 N28 (3)***

## 1918-ci ilin 28 Mayında M.Ə.Rəsulzadənin sədr seçildiyi Azərbaycan Milli Şurasının qəbul etdiyi 6 maddəlik "İstiqlal bəyannaməsi":



1. Bu gündən etibarən Azərbaycan xalqları suveren hüquqlara malikdirlər, Şərqi və Cənubi Zaqafqaziyadan ibarət olan Azərbaycan tam hüquqlu müstəqil dövlətdir.

2. Müstəqil Azərbaycanın siyasi quruluş forması Xalq Cümhuriyyətidir.

3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər, xüsusilə qonşu xalqlar və dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratmağa çalışır.

4. Azərbaycan Xalq Cümhuriyyəti öz sərhədləri daxilində milliyyətindən, dinindən, sosial vəziyyəti və cinsindən asılı olmayaraq, bütün vətəndaşlara vətəndaşlıq və siyasi hüquqlar təmin edir.

5. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərə azad inkişafı üçün geniş imkanlar verir.

6. Müəssislər Məclisi çağırılana qədər bütün Azərbaycanın idarəsi başında xalq seçkiləri ilə seçilmiş Milli Şura və Milli Məclis qarşısında məsuliyyət daşıyan Müvəqqəti Hökumət durur.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ QƏBUL EDİLƏN MÜHÜM Q Ə R A R L A R:

1. **Dövlət bayrağı haqqında (ilk qərar).** 1918-ci il 21 iyun. Azərbaycan bayrağını qırmızı materialdan üstündə ağ aypara və qırmızı fonda ağ səkkiz guşəli ulduzun təsviri verilmiş bayraq kimi qəbul etmək.

2. **Dövlət dili haqqında.** 1918-ci il 27 iyun. Türk dilini dövlət dili kimi qəbul etmək.

3. **Dövlət bayrağı ilə bağlı ikinci qərar.** 1918-ci il 9 noyabr. Azərbaycanın milli bayrağını mavi, qırmızı və yaşıl rəngli ağ aypara və səkkiz guşəli uldu-zun təsviri olan bayraq kimi qəbul etmək.


ВЫПИСКА

изъ журнала постановленій Правительства Азербайджана отъ 9-го Ноября 1918 г.

СЛУШАЛИ: Докладъ Председателя Совѣта Министровъ о національномъ флагѣ.-

ПОСТАНОВИЛИ: Національнымъ флагомъ признать флагъ, состоящій изъ зеленаго, краснаго и голубого цвѣтовъ съ бѣлымъ полумѣсяцемъ и восьмигранной звѣздой.-

Съ подлиннымъ вѣрно

Дѣлопроизводитель

Настоящая выписка препровождается Г. Министру Юстиціи для свѣдѣнія.

Ноября "11" дня 1918 г.

гор. Баку.

Секретарь Правительства

№ 2248.

Дѣлопроизводитель

*Dövlət bayrağı haqqında qərar, 1918-ci il*

4. **Dövlət gerbi.** Dövlət gerbi haqqında ilk dəfə 1919-cu ilin martın 23-də müsabiqə elan edilmişdi. 1920-ci il yanvarın 30-da Dövlət bayrağı istisna olmaqla, digər rəmzlər üzrə daha əhatəli müsabiqə keçirmək qərara alındı (1920-ci ilin mayın 30-da). Dövlət gerbinin layihəsi də sifariş verildi. Lakin 1920-ci ilin 27 aprelindən – Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra müsabiqənin keçirilməsi mümkün olmadı və sovet Azərbaycanı öz gerbini qəbul etdi.


آذربایجان جمهوریتی

حکومتک قانون و بناکذارلقلری مجمعی.

١٥ تشرین ثانی ١٩١٩ — نومرو ١ — باکو شهری

٢٨. دولتی لسان تورکجه قبول ایدیله‌رک موقتاً حکومت موسسه‌لرنده روس لسانی استعماله مساعده ایدیلمه‌سی حقنده

حکومت ٢٧ ایون ١٩١٨ ده قرار ویردی:

دولتی لسان تورک دیلی قبول ایدیله‌رک، اداره‌ده یوق محکمه، اداره داخلیه و سائر دولت وظیفه‌لری باشنده دورانلر بو لسانی بیلنلر اوله‌جه قدر حکومتی موسسه‌لرده روس دیلی استعمالده مساعده ایدیلسین.

*Dövlət dili haqqında qərar, 1918-ci il*

5. **Azərbaycanın himni.** Azərbaycanın dövlət himninin sözləri Əhməd Cavadın, musiqisi Üzeyir Hacıbəylinindir.

# ÜÇRƏNGLİ BAYRAĞIMIZIN MƏNASI

Yüz ilə yaxın bir müddətdir ki, **Üçrəngli dövlət bayrağımız** insanlarımız üçün müqəddəs ideal rəmzinə çevrilib. Mövcudluğunun 18 ayı dövründə (1918-ci ilin 9 noyabrı) ən istəkli bir varlıq kimi sevilib, əzizlənib, adına və hüsnünə şeirlər yazılıb, mahnılar bəstələnib. Sovetlər Birliyindəki mövcud rejim üçrəngli bayrağımızın başımız üzərindən asılmasını və hətta təsvirini belə qadağan etsə də, onu ürəklərində yaşadan insanlar istiqlal şairimiz Əhməd Cavadın bu sözlərini təkrarlayırdı:

Çoxdandır ayrı düşdüm
Üç boyalı bayraqdan.
A dostlar, mən yoruldum,
Bu gizli ağlamaqdan.

Bəs xalqımızın başı üzərində yüz il əvvəl dalğalanmış və bu gün də mövcud olan bayrağımızın yaranma tarixindən, onun mənasından, ağ aypаranın və səkkiz guşənin nə olduğundan, hansı ideyalardan qaynaqlandığından yetərincə məlumatlıyıqmı?

1918-ci ilin 28 Mayında tarixdə **sayca 114-cü türk dövləti** olan Azərbaycan Xalq Cümhuriyyəti quruldu. Bu Cümhuriyyət özündən əvvəlki 113 dövlətdən ideoloji əsaslarına görə tam fərqlənirdi. Belə ki, ilk dəfə idi ki, bütün müsəlman və türk dünyasında milli kültür ənənələrinə, demokratik prinsiplərə söykənən Avropa sistemində bir dövlət qurulurdu. Azərbaycan Milli Qurtuluş Hərəkatının böyük ideoloqu M.Ə.Rəsulzadə “Milli Azərbaycan Hərəkatının xarakteri” adlı məqaləsində yazırdı: “Milli ideoloji mənşəyi etibarı ilə Azərbaycan hərəkatı Şərqdəki milli qurtuluş ideyaları ilə, Qərbdə demokratiya cərəyanlarını özündə birləşdirən bir hərəkatdır”.

M.Ə.Rəsulzadə belə bir hərəkatdan yaranan dövlətin isə məhz **“Cümhuriyyət”** olacağını hələ 1917-ci ildə “Açıq söz” qəzetində (1917-ci il, N 426, 17-30 mart) eyni adlı məqalədə “Cümhuriyyətdən-Cümhuriyyətə fərq var” deyərək yazırdı: “Məhkum sinif və millət gözü ilə baxıldıqda işıqlı (kübar) istibdad-qarasından, məşrutiyyət-işıqlı istibdaddan, cümhuriyyət-məşrutiyyətdən, cümhuriyyəti-ənam da (Xalq Cümhuriyyəti də) cümhuriyyəti-xasdan (imtiyazlı Cümhuriyyətdən) daha faydalı və daha müvafiq məqamdır... Var olsun Cümhuriyyəti-ənam! (yəni Xalq Cümhuriyyəti )”.

M.Ə.Rəsulzadənin əsaslandırdığı Xalq Cümhuriyyəti 1918-ci ildə mayın 28-də yarandıqdan sonra onun əsas rəmzi olan bayraq haqqında

həmin ilin **iyun ayının 21**-də hökumətin qərarı verildi. **Həmin qərardan: "Üstündə qırmızı fonda ağ səkkizguşəli ulduz və aypara təsviri olan qumaş Azərbaycanın bayrağı kimi təsdiq edilsin".**

Həmin dövrdə bayrağımız Osmanlı Türkiyəsinin bayrağı ilə eynilik təşkil edirdi. Fərq yalnız onda idi ki, Osmanlı Türkiyəsinin bayrağındakı hilal ayın qarşısındakı ulduz beş guşədən, Azərbaycan Cümhuriyyətinin bayrağında isə səkkiz guşədən ibarət idi.

İlk bayrağımız haqqında verilən qərar da (yəni eynən Osmanlı Türkiyəsində olduğu kimi) bir çox səbəblərlə izah edilir. Biz bununla türk xalqı olaraq böyük bir mədəniyyət sisteminə əsaslandığımızı sübut edirdik. Azərbaycanın xilasını da qardaş Türkiyənin köməyində görürdük. Təsadüfi deyildi ki, 1918-ci ilin iyunun 4-də ilk siyasi, diplomatik və hərbi müqaviləni də məhz Osmanlı Türkiyəsi ilə bağlamışdıq. Bundan əvvəl mövcud olan Zaqafqaziya Seymində fəaliyyət göstərən Azərbaycan nümayəndələri də (onların sayı 40-dan çox idi) siyasi istiqamətin Türkiyə olacağını müəyyənləşdirmişdilər.

Eyni zamanda, Gəncəyə gəlmiş Qafqaz İslam Ordusunun komandiri Nuru Paşanın ətrafındakı "ilhaqçı"lar qrupu da "biz müstəqil dövlət yox, məhz Türkiyəyə birləşmək istəyirik" – deyərək, ciddi təbliğat aparırdı. Hətta o zaman Nuru Paşanın təkidi ilə Milli Şura fəaliyyətini dayandırmış, Tiflisdə yaradılan 1-ci Hökumət Kabinəsi buraxılmış, Gəncədə Nuru Paşanın istəyincə 2-ci hökumət kabinəsi formalaşmışdı. Qırmızı rəngli bayrağımız haqqında olan qərar da məhz həmin gərgin məqamlarda – ikinci hökumət kabinəsi formalaşandan dörd gün sonra verilmişdi.

**1918-ci ilin noyabrın 9-da isə üçrəngli dövlət bayrağımız** haqqında qərar qəbul edildi: "Milli bayraq haqqında Azərbaycan hökuməti qərarları dəftərindən 9 noyabr 1918-ci il tarixli çıxarış:

Eşidildi: Nazirlər Şurası Sədrinin Milli bayraq haqqında məruzəsi. Qərara alındı: Yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkizbucaq ulduzdan ibarət olan bayraq Milli bayraq hesab edilsin".

Milli bayrağımızdakı göy rəng - türkçülüyü, qırmızı rəng– müasirliyi, yaşıl rəng– islam ideologiyasını ifadə edir.

Bəs bu dəyərləri özündə birləşdirən "türkləşmək, islamlaşmaq, avropalaşmaq (firəngləşmək)" üçlük düsturunu böyük bir şüara çevirən ilk dəfə kim olub?

Qeyd edək ki, bütün türk milləti üçün böyük bir ideala və məqsədə çevrilən bu üçlük şüarının banisi türk dünyasının böyük mütəfəkkiri, Rusiya və Türkiyə universitetlərində təhsil almış əslən Azərbaycandan olan Əli bəy Hüseynzadədir. 1907-ci ilin iyul ayının 10-da Bakıda özünün nəşr etdiyi "Füyuzat" (bolluq, bərəkət,xeyir,fayda mənasındadır) jurnalındakı bir məqaləsində "Türk hissiyyatlı, islam etiqadlı, firəng

qafalı" kimi ilk dəfə təqdim etdiyi bu fikri sonradan böyük mütəfəkkir Ziya Göyalp belə ifadə etmişdi: "Türk qanlı, islam imanlı, avropa mədəniyyətli".

Bəs Ə. Hüseynzadə tərəfindən əsası qoyulan, Z. Göyalp tərəfindən inkişaf etdirilən "türkləşmək, islamlaşmaq, avropalaşmaq" şüarı Azərbaycanın dövlət bayrağında niyə bir qədər fərqli olaraq öz əksini tapıb? Yəni dövlət bayrağımızda rənglər bu ardıcıllıqla verilib: göy, qırmızı, yaşıl. Göründüyü kimi, klassik şüardan fərqli olaraq, islamçılıq ikinci yerdən üçüncü yerə, müasirlik isə üçüncü yerdən ikinci yerə keçirilib. Bəs belə dəyişikliyin səbəbi nədir və kim bunu hansı məqsədlə edib?

